ASYA HACIYEVA

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

## (1871-1919-cu illər)

**dərs vəsaiti**

Azərbaycan Respublikası təhsil nazirliyinin 07.06.2001-ci il tarixli əmri ilə dərs vəsaiti kimi tövsiyə edilmişdir.

Bakı - 2001

H – 31

Elmi redaktor: tarix elmləri doktoru, əməkdar elm xadimi K.N.RƏHİMOV

Nəşr. redaktoru: MƏMMƏD ƏLİZADƏ

Kitaba BDU-nun «Beynəlxalq münasibətlər» kafedrasının professoru, tarix elmləri doktoru **İ.Musayev,** tarix elmləri doktoru professor **M.Qasımov**, «Beynəlxalq münasibətlər» kafedrasının baş müəllimi, siyasi elmlər namizədi **K.Məmmədov**, «Beynəlxalq münasibətlər» kafedrasının baş müəllimi **Q.Məmmədov,** müəllim **J.Eyvazov** rəy vermişlər.

**HACIYEVA ASYA HÜSEYN QIZI**. Beynəlxalq münasibətlər tarixi (1871-1919-cu illər). Bakı. Bakı Universitetin nəşriyyatı. 2001.

Kitab tələbələr, magistrlər, müəllimlər, beynəlxalq münasibətlər sahəsində çalışan mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

Kitabın hazırlanmasında, müzakirəsinin təşkilində mənə göstərdikləri köməyə görə Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin Beynəlxalq münasibətlər kafedrasının rəhbərliyinə, kitaba rəy vermiş, onun müzakirəsində iştirak etmiş, dəyərli təklif və qeydləri ilə onun daha məzmunlu çıxmasına kömək etmiş həmkarlarıma dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

H $\frac{1207000000-26}{M\ 658\ (07)-043}$ 43 - 2001

© Bakı Universitetinin nəşriyyatı 2001

## GİRİŞ

Beynəlxalq münasibətlər - beynəlxalq münasibətlər tarixini, diplomatiya tarixini, beynəlxalq hüququ, dünya iqtisadiyyatını, hərbi strategiyanı, onunla vəhdət təşkil edən digər çoxlu sahələri öyrənən elmin tərkib hissəsidir. Bu dərs vəsaiti beynəlxalq münasibətlərin bir sahəsinə, beynəlxalq münasibətlər tarixinə həsr edilmişdir.

Beynəlxalq münasibətlər tarixi, əsasən dövlətin xarici siyasət fəaliyyətini əhatə edir. Bununla yanaşı, xarici siyasət daxili siyasətlə sıx bağlıdır və ölkənin daxilində qarşıda duran vəzifələrin yerinə yetirilməsi, problemlərin həll edilməsi üçün əlverişli şərait yaradılmasına xidmət edir.

Bu bir daha belə bir fikri təsdiq edir ki, ümumiyyətlə siyasətin, xüsusi ilə xarici siyasətin öz məntiqi var. Xarici siyasət o vaxt uğur qazana bilir ki, ölkənin daxilində gedən proseslərə müsbət tə'sir göstərmiş olsun, ictimai inkişafın, beynəlxalq münasibətlərin dəqiq hesablanmış obyektiv qanunauyğunluqlarına əsaslansın. Bunlar nəzərə alınmadan yeridilən siyasət valyuntarizmdir. Siyasətdə, xüsusilə beynəlxalq münasibətlərdə valyuntarizm yolverilməzdir.

Bəşər cəmiyyəti inkişaf etdikcə siniflər, millətlər, dövlətlər yarandıqca insanlar arasındakı münasibətlər siyasi xarakter alır, nəticədə siyasət müstəqil fəaliyyət sahəsinə çevrilir. Onun ən mühüm sahələrindən biri olan xarici siyasət, diplomatiya, beynəlxalq münasibətlər bu və ya digər dövlətin qarşısına qoyduğu məqsədinə nail olmaqda mühüm vasitə rolunu oynayır. Bu, müxtəlif

beynəlxalq hadisələrlə zəngin olan dövrdə, 1871-1919-cu illərdə cərəyan edən beynəlxalq münasibətlərdə özünü bir daha büruzə vermişdir.

Beynəlxalq münasibətlərdə başlıca və həlledici rol ölkə başçısına (prezidentə, monarxa, baş nazirə) və ali qanunverici orqana məxsusdur. Bu səlahiyyətlər konstitusiya ilə müəyyənləşdirilir.

Məşhur ingilis filosofu B.Rassel göstərmişdi ki, tarix keçmişdə olmuş səfeh hərəkətlərə əsaslanaraq bu günkü səfehliyi doğrultmağa kömək edir. Bu, beynəlxalq münasibətlərə daha çox aiddir. Ayrı-ayrı dövlət xadimləri bə'zən elə hərəkətlər edir, elə işlər görürlər ki, guya yaxın keçmişdə və ondan əvvəlki dövrlərdə bu vəzifələrdə olan şəxslərin etdikləri, buraxdıqları səhvlər onlara mə'lum deyil. Beləliklə, belə şəxslər tarixin ibrət dərslərinə məhəl qoymur, ondan nətijə çıxarmaq istəmirlər. Tarix isə bunun əvəzini onlardan çıxır və onları bərk jəzalandırır.

Belə halların təkrar olunmasına yol verməmək, əvvəljədən onun qarşısını almaq üçün müdrik, ağıllı dövlət xadimləri vaxtında biri-birilərini başa düşür və fəlakətin qarşısını ala bilirlər. Bunun üçün xariji münasibətlər sahəsində fəaliyyət göstərən hər bir yüksək vəzifəli şəxs özünə aşağıdakı sualı verməlidir: Nəyi etmək lazım deyil? Buna görə də milli mənafe, dövlət mənafeyi və siyasət vəhdətdə götürülməli, zaman ölçüsünə və çəkisinə uyğunlaşdırılmalı, bir-birini tamamlamalı, bir-birinə dayaq olmalıdır.

Başqa sahələrdə olduğu kimi, beynəlxalq münasibətlər sahəsində də siyasət planlaşdırılmalı, onun həyata keçirilməsi üçün strateji istiqamət işlənib



hazırlanmalı, müəyyən edilməlidir. Ona nail olmaq lazımdır ki, xarici münasibətlər sahəsində görülən hər bir iş, atılan hər bir addım ölkənin, xalqın, millətin mənafeyinə xidmət etsin, ölkənin mövqeyini daha da yaxşılaşdırsın və möhkəmləndirsin.

Əhatə olunan dövrün tarixi, o dövrdə cərəyan edən hadisələrin, dövlət xadimlərinin fəaliyyətlərinin nəticələri bir daha sübut edir ki, buna nail olmaq o qədər də asan deyil.

Bu dövrün görkəmli dövlət xadimlərinin-Otto fon Bismark, Aleksandr Mixayloviç Qorçakov, Dyula Andraşi, Benjamen Dizraeli, Teofil Delkasse, Harrison Solsberi, Edvard Qrey və digərlərinin fəaliyyətlərinin timsalında bu özünü aydın göstərmişdi. Beynəlxalq münasibətlər mövzusu altında ayrı-ayrı və qrup dövlətlər arasında iqtisadi, siyasi, diplomatik, hərbi və digər əlaqələr sistemi nəzərdə tutulur.

Lakin, ictimai həyatın bütün sahələrini əhatə etməsinə baxmayaraq, beynəlxalq münasibətlərin başlıca vəzifəsi yuxarıda göstərdiyimiz kimi ölkənin xarici siyasət funksiyasını həyata keçirməkdir.

Beynəlxalq münasibətlər iqtisadi, hərbi və digər məsələlərə o vaxt toxunur, müdaxilə edir ki, onlar bilavasitə ölkənin xarici siyasət mənafeləri ilə bağlı olsun.

Beləliklə, beynəlxalq münasibətlərin özünə məxsus tarixi və nəzəriyyəsi var və onlar beynəlxalq münasibətlər haqqında elmin özəyini, bünövrəsini təşkil edirlər.

Beynəlxalq münasibətlər tarixinin formalaşması, onun elm kimi təşəkkül tapması dövlətlər arasında

beynəlxalq və digər əlaqələrin rolunun getdikcə artması ilə müşaiyət edilir. Henri Kissincerin «Diplomatiya» əsərində yazdığı kimi Vyana konqresindən başlayaraq xarici siyasət millətlər arasında münasibət yaratmağa xidmət edir. Buradan da «beynəlxalq münasibətlər» termini meydana çıxır.

Beynəlxalq münasibətlər tarixi həm bütövlükdə müəyyən dövrün, həm də ayrı-ayrı dövlətlərin xarici siyasət tarixi deməkdir. Xarici siyasətin müvəffəqiyyəti beynəlxalq şəraitin düzgün qiymətləndirilməsindən, ölkənin mənafeyinə cavab verən strateji və taktiki xəttin düzgün seçilməsindən, onun ən yaxın və uzaq məqsədlərinin düzgün müəyyən edilməsindən, ona başçılıq edən şəxsin erudisiyasından, manevr etmək səriştəliyindən, peşəkarlığından, şəraitdən vaxtında və düzgün baş çıxarmaq, dövlətlərin mövqelərini düzgün qiymətləndirə bilmək qabiliyyətindən çox asılıdır.

Bu baxımdan yanaşdıqda, 1871-1919-cu illər beynəlxalq münasibətlər tarixi çox zəngin və rəngarəngdir. Biz bu dövrdə bu və ya digər məsələdə dövlətlərin mövqelərinin necə tez-tez dəyişdiyinin şahidi oluruq.

1870-1871-ci illər Fransa-Prussiya müharibəsi nəticəsində Almaniyanın birləşdirilməsi başa çatdı. C.Nehru təsdiq edir ki, Bismark dəmir və qanla başlıca məqsədinə nail oldu. Avropanın mərkəzində yeni güclü dövlət yarandı. Bu Avropada qüvvələr nisbətini əhəmiyyətli dərəcədə dəyişdirdi.

Frankfurt sülhü Elzas-Lotaringiyanın Fransadan qoparılması nəticəsində Avropada möhkəm sülhün yaranmasını yox, əksinə yeni daha kəskin ziddiyyətlərin bünövrəsini qoydu.



Bu dövrün digər problemləri ilə yanaşı, ən mühüm problemlərindən biri Şərq, xüsusilə Yaxın Şərq məsələsi olmuşdur. O, bütün böyük dövlətlərin mənafelərinin toxunduğu nöqtə olub, onlar arasında çox kəskin və müxtəlif çalarlı ziddiyyətlər mənbəyini təşkil etmişdi.

70-ci illərin sonları 80-cı illərin əvvəllərində dünyanı bölmək, tə'sir dairəsi uğrunda mübarizədə böyük dövlətlər arasında ziddiyyətlərin daha da kəskinləşməsi beynəlxalq münasibətlərin yeni mərhələyə daxil olmasından xəbər verir.

Bu ziddiyyətlərin getdikcə kəskinləşməsi Antantanın və Üçlər ittifaqının yaranması ilə nəticələnir, Birinci Dünya müharibəsinə geniş hazırlıq işləri başlanır.

Bu dövrün xarakterik xüsusiyyətlərindən biri də odur ki, əvvəllər yalnız Amerika qit'əsinə qapanıb qalan, «Amerika amerikanlar üçündür» Monro doktrinasına əsaslanan ABŞ artıq XIX əsrin sonlarında fəal xarici siyasətə qoşulur. O Avropada, Yaxın və Uzaq Şərqdə, cənubi-şərqi Asiyada, Mərkəzi və cənubi Amerikada yeni müstəmləkələr əldə etmək, dünyanın yenidən bölüşdürülməsində iştirak etmək uğrunda fəaliyyətini genişləndirir, Avropanın işlərinə daha fəal müdaxilə edir. Bu məsələdə Almaniya və Yaponiyanın mövqeləri ABŞ-ın mövqeləri ilə üst-üstə düşür.

Rusiyanın beynəlxalq münasibətlərində başlıca fəaliyyət sahəsi bu dövrdə Avropa ilə yanaşı Yaxın Şərq, Orta Şərq, Uzaq Şərq və Balkanlar idi.

Yaponiya da Uzaq Şərqdə artıq özünü hiss etdirməyə başlamışdı. Beləliklə, 1871-ci il Frankfurt sülhü dünya sivilizasiyasına dəhşətli maddi və mə'nəvi zərbələr vurmuş 1914-1918-ci il Birinci Dünya

müharibəsinə gətirdi. O isə 1919-cu il Versal müqaviləsi ilə nəticələndi.

Rusiyanın xarici işlər naziri S.T.Sazonov yazmışdı ki, əgər 1914-cü ildə E.Qrey vaxtında və bir mə'nalı olaraq Böyük Britaniyanın Fransa və Rusiya ilə həmrə'y olduğunu bəyan etsəydi, bu haqda mən ondan tə'kidlə xahiş etmişdim. O, bəlkə də, nəticədə bəşəriyyəti, Avropa sivilizasiyasını dəhşətli katakalizmdən xilas edə bilərdi.

Birinci dünya müharibəsi Versal müqaviləsi ilə sona çatdı.

Frankfurt sülhü Fransanın məğlubiyyətindən xəbər verdisə, Versal müqaviləsi Almaniyanın məğlub olmasını təsdiqlədi.

Tarix elmi faktların təfsir edilməsi olub, bəşər cəmiyyətinin inkişafını, insanların özlərini dərk etməsi səviyyəsinin faktlar əsasında şərh edilməsidir.

«Beynəlxalq münasibətlər tarixi» də tarix elminin bir qoludur. Bu fənni biz ona görə tədris edirik ki, beynəlxalq münasibətlər sahəsində dövlətlərin, dövlət xadimlərinin keçmişdə nə etmiş olduqlarını, tarixin ibrət dərslərini öyrənək, onlardan nəticə çıxaraq.

Böyük dağıntılar törətmiş, küll insan qırğınına, mə'nəvi və əxlaqi sarsıntılara səbəb olmuş birinci dünya müharibəsi sona çatdı.

Bu müharibə ona görə başladı ki, ona mane ola biləcək bir qüvvə olmadı.

**Əvvəla**, dünya müharibəsinə hazırlıq xalqdan gizli aparılmışdır. Xalq xəbəri, mə'lumatı olmadan bir hadisəyə necə mane ola bilərdi?



**İkincisi**, Parlamentlər müharibənin başlanmasına maraqlı olan, onu maliyyələşdirən maliyyə oliqarxiyasının iradəsini həyata keçirən icra hakimiyyətinin əlində vasitəyə çevrilmişdi.

**Üçüncüsü**, Diplomatlar xalqı, ictimai fikri aldatmaqla məşğul idilər. Mətbuat isə bu aldatmanı doğrultmaq yolunu tutmuşdu.

Görkəmli ingilis tarixçisi və filosofu Nobel mükafatına layiq görülmüş V.Kollinqvud «Tarixin ideyası. Tərcümeyi hal» əsərində birinci dünya müharibəsindən bəhs edərək yazmışdır ki, bə'ziləri birinci dünya müharibəsinin «... alman millitaristlərinin quldur dəstəsinin, digərləri isə İngilis kommersiya başçılarının quldur dəstəsinin cinayətkar dilbirliyinin bəhrəsi hesab edirlər. Kim necə hesab edirsə etsin, bir şey aydın idi ki, döyüşən bloklarda həmin quldur dəstələrindən başqa heç kim müharibə istəmirdi. Müharibə ona görə baş verdi ki, situasiya nəzarət altından çıxdı».

Məhz tə'sirli beynəlxalq nəzarətin olmaması üzündən birinci dünya müharibəsindən daha dəhşətli, daha faciəli ikinci dünya müharibəsi baş verdi.

Birinci və ikinci dünya müharibələrinin dərslərindən nəticə çıxararaq dünya dövlətləri ikinci dünya müharibəsindən sonra möhkəm beynəlxalq nəzarət sistemi yaratdılar. Dünya artıq yarım əsrdən çox bir müddətdə sülh şəraitində yaşayır. Bu uzunmu çəkəcək? Bunu demək çətindir.

Onu da bilmək lazımdır ki, müharibə cəmiyyətin işkişafının qanuna uyğun nəticəsidir. Dövlətlər möhkəm nəzarət sistemi yaratmaqla yalnız müharibələrarası fasilələri uzada bilərlər.

Beləliklə, beynəlxalq münasibətlər tarixində 1871-1919-cu illər çox mühüm yer tutur. Böyük dövlətlərin müxtəlif istiqamətli xarici siyasətlərinin mahiyyətinin müəyyən edilməsində zəngin fakt verir.

«Beynəlxalq münasibətlər tarixi (1871-1919-cu illər)» dərs vəsaiti Azərbaycan dilində işıq üzü görən ilk dərs vəsaitidir. Bu dərs vəsaitini hazırlamaq kimi çətin bir işə girişməkdə müəllifi aşağıdakılar vadar etmişdir:

**Birincisi,** Azərbaycan dilində beynəlxalq münasibətlərə dair dərsliyin, dərs vəsaitinin olmaması, digər materialların qıtlığı, bu sahədəki mövcud boşluğu az da olsa doldurmaq;

**Ikincisi,** yenicə müstəqilliyə qədəm qoymuş və bu yolda kövrək addımlarını atan müstəqil Azərbaycan dövlətinin xarici siyasətində fəal iştirak edə biləcək yüksək ixtisaslı diplomat kadrların yetişdirilməsinə öz köməyini göstərmək.

Beynəlxalq münasibətlər tarixini, müxtəlif ölkələrin müxtəlif dövrlərdə diplomatiya sahəsində fəaliyyətini, dünya tarixində toplanmış zəngin təcrübəni, onların dərslərini və nəticələrini mükəmməl öyrənmədən ölkənin köklü mənafelərini qorumağa hazır olan peşəkar diplomat olmaq olmaz.

Beynəlxalq münasibətlər, xarici siyasət sahəsi həm çox incə, çevik, həm də çox mürəkkəb, ziddiyyətli, çətin sahədir. Bu öz işini yaxşı bilən, ətrafda baş verən hadisələrdən baş çıxarmağı bacaran və bunlara uyğun öz fəaliyyət istiqamətini düzgün müəyyən edən peşəkar şəxslərin fəaliyyət meydanıdır. Məşhur fransız diplomatı Taleyran demişdir, dil diplomata ona görə verilir ki, o



susmağı bacarsın. Bunu dərk etmədən, bunun nə olduğunu mənimsəmədən peşəkar diplomat olmaq olmaz.

1871-1919-cu illər beynəlxalq münasibətlər sahəsində cərəyan edən hadisələr bu sahədə oxucuya zəngin fakt verir.

Beləliklə, müəllif bu dərs vəsaitini hazırlayarkən ciddi çətinliklərlə rastlaşmasına baxmayaraq, öhdəsinə götürdüyü bu çətin vəzifənin öhdəsindən uğurla gəlməyə çalışmış, Azərbaycanda ilk dəfə olaraq ana dilində bu fənnin tədris olunan bu dövrünə aid dərs vəsaiti hazırlayıb oxucuların ixtiyarına vermişdir.

Əlbəttə, bu dərs vəsaitinin üzərində gələcəkdə də işin davam etdirilməsi, mütəxəssislərin, oxucuların rə'yləri əsasında ona dəyişikliklər, əlavələr, düzəlişlər edilməsi lazım gələcəkdir.

Tarixi gerçəklik o vaxt olduğu kimi adamların mühakiməsinə verilə bilər ki, inkişaf səviyyələri, əraziləri və əhalisi müxtəlif olan dövlətlərin, ölkələrin xarici siyasətləri olduğu kimi şərh edilsin, göstərilsin, onların mövqelərinə, ehtiyac və tələblərinə, buna uyğun olaraq cərəyan edən beynəlxalq münasibətlərə yanaşma qərəzsiz olsun. Bunu ədalət, obyektivlik tələb edir.

Axı hər bir dövrdə, hər bir ərazidə bu və ya digər ölkənin, dövlətin ətrafında baş verən hadisələr, onlara müxtəlif dövlətlərin münasibətləri, yanaşma üsulları müxtəlif olur. Məsələn, Almaniya Avstriyanın tərəfinə keçən kimi Fransa və Rusiya onların məqsədlərinin müxtəlif olmalarına baxmayaraq bir-birlərinə gərək olduqlarını anladılar. Onlar dərk etdilər ki, Almaniyanı məğlub etmədən və ya zəiflətmədən onlar qarşılarında duran strateji xarakterli vəzifələri yerinə yetirə

bilməyəcəklər. Bu həm Elzas-Lotaringiyaya, həm də slavyan torpaqlarına aid idi. Fransa Elzas-Lotaringiyanı almaq üçün Almaniyaya, Rusiya balkan slavyanları məsələsini öz xeyrinə həll etmək üçün Avstriya-Macarıstan imperiyasına qalib gəlməli idilər.

Bu və ya digər problem, məsələ heç də həmişə dinc, qarşılıqlı anlaşma, tərəflərin bir-birinə güzəştə getməsi yolu ilə həll edilmir. Zor tətbiq edilir, gücə əl atılır, qarşılıqlı ittihamlar baş alıb gedir. Bütün təbliğat, siyasət vasitələri bu işə qoşulur. Bu isə istər-istəməz müharibə ilə nəticələnir. Müharibə siyasətin başqa yolla davam etdirilməsi kimi özünü büruzə verir.

Əlbəttə, belə halda da əsas məntiq ondan ibarətdir ki, müharibəyə, zor tətbiq etməyə nə üçün, hansı şəraitdə əl atılmasına, mübahisələrin həll edilməsinin yeganə vasitəsi kimi baxılmasına obyektivlik baxımından yanaşılsın. Faktlar göstərir ki, zor tətbiq etmək, müharibə heç də həmişə ədalətsiz olmur. Onun vacib olub-olmaması ölkənin, xalqın milli mənafeyinə necə cavab verib-verməməsi ilə ölçülməli, o dövrdə cərəyan edən hadisələrə kompleks prizmasından yanaşılmalıdır.

XIX əsrin sonları və XX əsrin əvvəllərində dövlətlər arasında münasibətlərdə yeni əlamətlər özünü büruzə verir. Azad rəqabətə əsaslanan kapitalizmi inhisarçı kapitalizm əvəz edir. Sənaye kapitalı bank kapitalı ilə birləşir. Dünyanın siyasi, iqtisadi, maliyyə həyatında çoxdan özlərinə möhkəm yer tutmuş Böyük Britaniya, Fransa, Rusiya, İspaniya, Portuqaliya və İtaliya ilə bütün sahələrdə rəqabət aparmağa qabil olan yeni gənc dövlətlər ABŞ, Yaponiya, Almaniya meydana çıxır. Onlar dünyada mövcud olan vəziyyətlə razılaşmaq



istəmirlər, yeni iddialarla çıxış edirlər. Beləliklə, artıq XIX əsrin son otuz ili yuxarıda adlarını çəkdiyimiz dövlətlərin dünyanın hələ tutulmamış ərazilərini öz müstəmləkələrinə çevirmələri uğrunda mübarizələrinin kəskinləşməsi ilə səciyyələnir.

XIX əsrin sonlarında artıq Afrikada, Asiyada, Amerikada tutulmamış boş yer qalmamışdı. Bu isə yenicə beynəlxalq münasibətlər sahəsinə daxil olmuş, iqtisadi, hərbi, maliyyə cəhətdən heç də klassik müstəmləkə dövlətlərindən geri qalmayan Almaniyanı, Yaponiyanı, ABŞ-ı qane etmirdi. Onlar dünyanın yenidən bölüşdürülməsini tələb edirdilər. Bu dövrdə həmin dövlətlərin xarici siyasətində bu istiqamət xüsusi yer tuturdu və hücumçu xarakter daşıyırdı. Klassik müstəmləkə dövlətləri isə hər vasitə ilə öz mövqelərini qoruyub saxlamağa cəhd edir, bunun üçün hər cür vasitələrdən istifadə edirdilər.

Bu dövrdə böyük dövlətlərin inkişaf istiqaməti də müxtəlif olmuşdur. Bu, İngiltərədə əsasən müstəmləkə xarakteri daşımışdır. İngiltərəyə bir tərəfdən müstəmləkələrdən çox böyük miqdarda kapital axıb gəlir, digər tərəfdən isə bu müstəmləkələr həmin kapitalın hesabına inkişaf edirdilər. Onlar həm də İngiltərənin sənaye məhsullarının realizə edilməsi üçün mühüm satış bazarları idilər.

Fransa isə dünyada sələmçi dövlət kimi tanınmışdı. O kredit və istiqrazlar formasında öz kapitalını müstəmləkələrə qoyurdu. Almaniya isə militarist dövlət olmaqla, hərbi sahəyə böyük diqqət verir, bu sahədə qət'i üstünlüyə nail olmağa, quruda və suda Böyük Britaniyaya ən ciddi rəqib kimi çıxış etməyə çalışırdı.

Qərb dövlətlərinin ardınca dünyada gedən proseslərə qoşulan Rusiya bütün sahələrdə qərb dövlətlərindən geri qalırdı.

Avstriya-Macarıstan, İtaliya dövlətləri isə öz məqsəd və planlarına uyğun olaraq yuxarıda adlarını çəkdiyimiz dövlətlərin arxasınca hərəkət edirdilər.

Öz inkişaf istiqamətinə və səviyyəsinə görə Yaponiya ilə Almaniya arasında müəyyən oxşarlıq var idi. Almaniyada inhisarların və yeni tipli alman imperializminin mühüm silahı olan prus-yunker imperializmi formalaşmışdı. Yaponiyanın ictimai quruluşunda isə hərbi-feodal məzmun üstünlük təşkil edirdi.

XIX əsrdə əsasən Monro doktrinası çərçivəsində öz qit'əsində qapanıb qalmış ABŞ həmin əsrin sonlarında və XX əsrin əvvəllərində dünyada gedən proseslərdə fəal iştirak etmək yoluna daxil olmuşdu.

1871-1919-cu illərdə cərəyan edən beynəlxalq münasibətlər həmin dövlətlərin anatomiyasına uyğun olaraq qurulmuş, onların məqsəd və planlarının həyata keçirilməsinə xidmət etmişdir.

Almaniyanın birləşdirilməsi, vahid Almaniya dövlətinin yaradılması ilə Avropada İngiltərə, Fransa və Rusiya üçün təhlükəli ocaq yarandı. Bu həmin dövlətlərin, ümumiyyətlə, Avropanın bütün dövlətlərinin öz xarici siyasətlərinə yenidən baxmaq lüzumunu ortaya atdı. Bunun nəticəsi olaraq dövlətlər blokları meydana çıxdı. 1882-ci ildə Almaniyanın, Avstriya-Macarıstanın və İtaliyanın daxil olduğu Üçlər ittifaqı yarandı. Bu ittifaqın yaranmasının əsas təşəbbüskarı və təşkilatçısı olan Almaniyanın başlıca məqsədi Fransanı həmişə



təklikdə saxlamaq idi. Almaniya yaxşı bilirdi ki, Fransa heç vaxt Elzas-Lotaringiyanın işğal edilməsi ilə razılaşmayacaq, fürsət düşən kimi Almaniyadan qisas alacaq, həmin ərazilərin Fransaya birləşdirilməsinə nail olacaq. Buna yol verməmək üçün Almaniya Fransanı təklənmiş vəziyyətdə saxlamağı öz xarici siyasətinin başlıca məqsədi hesab edirdi.

Fransa-Almaniya arasındakı mövcud vəziyyətdən İngiltərə və Rusiya öz xeyrlərinə istifadə etməyə cəhd edirdilər.

Almaniyanın getdikcə öz hərbi-dəniz potensialını genişləndirməyə və gücləndirməyə əsas diqqət verməsi də İngiltərəni ciddi narahat edirdi. Onun qonşuluğunda güclü, həm də təhlükəli dövlətin peyda olması Rusiyanın da ürəyindən deyildi. Belə beynəlxalq şəraitdə Üçlər ittifaqına qarşı digər bir dövlətlər ittifaqının yaranması zərurəti ortaya çıxdı. 1891-1893-cü illərdə Fransa-Rusiya ittifaqı yarandı.

90-cı illərdə Almaniya dünyanın yenidən əsaslı surətdə bölünməsi məsələsini qoydu. Bu birinci növbədə ən böyük müstəmləkəçi dövlət olan İngiltərənin mənafeyinə toxundu. Beləliklə, XIX əsrin sonlarında Almaniya İngiltərə ziddiyyətləri beynəlxalq münasibətlərdə ön plana çıxır. Belə şəraitdə İngiltərə Fransa-Rusiya ittifaqına qoşulmağı qərara alır. 1904-1907-ci ildə Antanta –İngiltərə-Fransa-Rusiya- ittifaqı yaranmış olur.

Beləliklə, 1871-1919-cu illər dövrünü əsasən üç mərhələyə bölmək olar. **Birinci mərhələ** 1870-1890-cı illəri əhatə edir. Bu dövrdə dünyanın müstəmləkələrə bölünməsi demək olar ki, başa çatmış olur. **İkinci**

**mərhələ** isə XIX əsrin sonundan 1905-ci ilə qədər olan dövrə aiddir. Bu dövrdə beynəlxalq münasibətlərdə fəal iştiraka qoşulmuş Almaniyanın, Yaponiyanın, ABŞ-ın bölünmüş dünyanın yenidən bölüşdürülməsi uğrunda gərgin və ardıcıl mübarizə aparmaları ilə xarakterizə olunur.

Əlbəttə, klassik müstəmləkəçi dövlətlər heç də asanlıqla öz mövqelərini üçüncü bir dövlətə və ya dövlətlər blokuna güzəşt etmək istəmirdilər. Məhz bu səbəbdən beynəlxalq münasibətlərdə ciddi gərginlik yaranır, silahlanma ön plana çəkilir.

Elə bu dövrdən **üçüncü mərhələ** başlanır. Rus-yapon müharibəsinin qurtarmasından öz başlanğıcını alan bu dövrdə beynəlxalq münasibətlərdə dünya müharibəsinə hazırlıq real gerçəklik olur, dövlətlərin daxili və xarici siyasətində bu aydın surətdə özünü büruzə verir. Bu dövr Paris sülh konfransı, Versal sistemi ilə başa çatmış olur.

Bu üç mərhələdə beynəlxalq münasibətlərdə bütün böyük dövlətlərin maraqlarının və mənafelərinin toqquşduqları nöqtələr – Afrika, Asiya, Uzaq, Yaxın və Orta Şərq, cənubi və Mərkəzi Amerika mühüm yer tutmuşdu.

Müəllif öhdəsində olan mövcud ədəbiyyatlar əsasında bu üç mərhələdə beynəlxalq münasibətləri işıqlandırmağa, həmin münasibətlərdə fəal iştirak edən görkəmli şəxsiyyətlərin – dövlət başçılarının - imperatorların, kralların, baş nazirlərin, xarici işlər nazirlərinin, digər dövlət xadimlərinin, diplomatların fəaliyyətlərinin obyektiv surətdə açıqlanmasına böyük diqqət vermişdir.



Bütün bunlarla yanaşı, müəllif yaşadığı ərazini, cənubi Qafqazı unutmamış, XIX əsrin sonlarında, XX əsrin əvvəllərində cərəyan edən beynəlxalq münasibətlər meridianında cənubi Qafqaza xüsusi diqqət yetirildiyini dərs vəsaitində xüsusi olaraq vurğulamışdı.

Dərs vəsaitində verilən materiallar içərisində diqqəti cəlb edən məsələlərdən biri də erməni məsələsidir. Bu məsələ ilk dəfə 1878-ci ilin martında imzalanmış San-Stefano müqaviləsində öz əksini tapmışdı. Həmin müqavilənin 19-cu maddəsinə görə Sultan hökuməti ermənilərin məskunlaşdığı Şərq rayonlarında, Anadoluda ermənilərin vəziyyətlərini yaxşılaşdırmaq, onların təhlükəsizliyini tə'min etmək üçün islahatlar aparmalı idi.

1878-ci ilin iyununda imzalanmış Berlin traktatının 61-ci maddəsində isə göstərilirdi ki, sultan hökuməti islahatlarla bağlı görülən işlər barədə 6 dövlətə vaxtaşırı mə'lumat verməli idi.

Beləliklə, erməni məsələsi peyda oldu. Qərb dövlətlərini, Rusiyanı heç də ermənilərin taleyi maraqlandırmırdı. Onlar erməni məsələsindən özlərinin maraqlarına uyğun istifadə edirdilər. Məsələn, İngiltərə erməni məsələsini ortaya atmaqla Mesopotamiyanı, Ərəbistanı, Kriti işğal etmək, Misirin işğalının Türkiyə tərəfindən tanınmasına nail olmaq istəyirdi. İngilis siyasətçilərindən Pallirstonun dediyi kimi, Londonun dostu və müttəfiqi yoxdur. Onun daimi maraqları var.

Rusiyanı isə ermənilərin yaşadıqları əraziləri Rusiyaya birləşdirmək düşündürürdü. Erməni məsələsi buna nail olmaqda onun karına gələ bilərdi. Bununla

əlaqədar Rusiyanın Xarici İşlər Naziri Lobanov-Rostovski öz memuarlarında yazır: «Bizə ermənilərsiz Ermənistan lazımdır».

Buna görə Rusiya Avropa dövlətlərinin protektoratlığı altında altı vilayətdən - Trapezund, Ərzurum, Van, Bitlis, Qars və Diyarbəkirdən ibarət Muxtar Ermənistan yaradılmasına qarşı idi. Buna görə də Rusiya Qərbi Ermənistanı erməni ərazisi kimi yox, Türkiyə ərazisi kimi özünə birləşdirməyi daha məqbul sayırdı.

Ümumiyyətlə, Avropa dövlətlərinin heç biri, Rusiya da daxil olmaqla, müstəqil erməni dövlətinin yaradılmasında maraqlı deyildilər.

Onlara müxtəlif dövrlərdə özlərinin maraqlarına nail olmaqdan ötrü Türkiyəyə təzyiq göstərmək üçün erməni məsələsi lazım idi.

XIX əsrin 70, 80, 90-cı illərində belə olmuşdur və indi də belədir.

Bu materiallarla tanış olanda hazırda erməni genosidi məsələsinin qabardılmasının, qərb dövlətlərinin Türkiyəyə qarşı XIX əsrin sonlarında olduğu kimi, indi də bir təzyiq vasitəsi kimi erməni məsələsindən istifadə etmələrinin, uydurma Dağlıq Qarabağ düyününün indiyədək açılmamasının səbəbləri, onların nə demək olduğu aydınlaşır.

Qərb dövlətləri üçün güclü Türkiyə dövlətinin olması gərəkli deyil. Bu Azərbaycana da aiddir.

Müəllif dərs vəsaitini hazırlayarkən ixtiyarında olan mövcud ədəbiyyatdan imkan daxilində istifadə etməyə çalışmışdır. Həmin ədəbiyyatı üç qrupa bölmək olar.



Onların bir qismi bilvasitə, bir qismi bilavasitə, üçüncü qismi isə ümumi cəhətdən mövzuya aid ədəbiyyatdır.

Mə'lum olduğu kimi, mövcud ədəbiyyat siyahısında Beynəlxalq münasibətlərə, o cümlədən 1871-1919-cu illər dövründə cərəyan etmiş beynəlxalq münasibətlərə həsr edilmiş dərslik, dərs vəsaiti demək olar ki, yoxdur.

Beynəlxalq münasibətlər tarixinə dair ümumiləşdirilmiş əsərlər hazırlamaq, cərəyan edən hadisələrə, bu hadisələrdə iştirak edən dövlətlərin, dövlət xadimlərinin mövqelərinə obyektiv qiymət verməyi bacarmaq heç də asan deyil. Bunun üçün Bismarkın göstərdiyi kimi, sənədi hazırlayan şəxsin şəxsi keyfiyyətini, həmin şəxsin o sənədi hansı tə'sir altında hazırladığını bilmək, o sənədi dərk etmək gərəkdir (Bax. A.Teylor, «1848-1918-ci illərdə Avropada hakim olmaq uğrunda mübarizə». M., 1958-ci il, səh.576.).

Sənədi necə dərk etmək isə o sənədə necə və hansı məqsədlə yanaşılmasından asılıdır. Buradan da fikir müxtəlifliyi, yanaşma müxtəlifliyi yaranır.

Belə müxtəlifliyə bu və ya digər problemə, mövzuya həsr edilmiş elmi-tədqiqat əsərlərində dözmək olar. Lakin ümumiləşdirilmiş kütləvi əsərlərdə, dərslik və dərs vəsaitlərində bu yol verilməzdir.

Məhz bunu əsas götürərək müəllif dərs vəsaitini hazırlayarkən artıq elmi ictitmaiyyət tərəfindən qəbul olunmuş əsərlərə istinad etmiş, onlara üstünlük vermişdir. «Diplomatiya tarixi» II cild (M., 1945), «Diplomatiya tarixi» II cild (M., 1963-cü il), A.Debidurun «Avropanın diplomatiya tarixi» II cild, SSRİ Elmlər Akademiyasının müxbir üzvü E.M.Jukovun redaksiyası

altında «Uzaq Şərqdə beynəlxalq münasibətlər» (1870-1945-ci illər), L.Z.Manfredin «Fransanın xarici siyasəti» (1871-1891-ci illər), A.S.Yerusalimskinin «XIX əsrin sonlarında Alman imperializminin xarici siyasəti və diplomatiyası», E.Çernyakın «Böyük Britaniyanın gizli diplomatiyası», A.İ.Utkinin «Vudro Vilsonunun diplomatiyası», Henri Kissincerin «Diplomatiya» (Elmi-nəşriyyat mərkəzi «Ladomir», M., 1997) əsəri və digər I əsri məhz belə əsərlərdəndir.

Mövcud əsərlərin çoxu diplomatiya tarixinə həsr edilmiş və sovet dövründə mövcud olan ideoloji çərçivə daxilində yazılmışdır.

Belə şəraitdə müasir tələblərə cavab verən yenicə formalaşmağa başlamış Azərbaycanın beynəlxalq münasibətlərinə köməyi dəyə biləcək bir dərs vəsaiti tərtib etmək heç də asan deyildi.

Bu işdə hər cür ideoloji istiqamətlərdən kənar, o dövrün beynəlxalq münasibətlər tarixini nisbətən obyektiv əks etdirən əsərlər də çox azdır. Bunların içərisində xarici ədəbiyyat dövlət nəşriyyatı tərəfindən fransız dilindən tərcümə edilib 1947-ci ildə Moskvada nəşr olunmuş, fransız professoru A.Debidurun iki cildlik «Avropanın diplomatiya tarixi» əsəri xüsusi ilə fərqlənir.

Fransız professoru Antonen Debidurun№ 110 il bundan əvvəl 1891-ci ildə işıq üzü görmüş iki cildlik əsəri o dövrdə, hətta 90-cı illərədək Avropa dövlətləri arasında beynəlxalq münasibətlər tarixinin öyrənilməsində mühüm mənbələrdən biridir. Debidurun tədqiqatının mərkəzində Avropanın altı böyük dövlətinin – İngiltərə, Fransa, Almaniya, Rusiya, Avstriya-Macarıstan və İtaliyanın beynəlxalq münasibətlər sahəsindəki fəaliyyəti durur.



Debidurun fikrincə, parçalanmış Almaniya və İtaliya əvəzində birləşmiş güclü Almaniya və İtaliya dövlətlərinin yaranması Avropada qüvvələr nisbətinə, beynəlxalq münasibətlərə yeni çalarlar, əlamətlər gətirdi. Lakin bununla bərabər, Debidur haqlı olaraq, göstərdi ki, Almaniyanın, İtaliyanın vahid dövlətlərdə birləşmələri, xüsusilə Elzasın və Lotaringiyanın işğal olunması Avropada siyasi və hərbi vəziyyətin kəskinləşməsinə səbəb oldu. Hərbi-siyasi üstünlük Avropada nisbətən Bismark Almaniyasının tərəfinə keçdi.

Digər tərəfdən bu iki dövlətin yaranması nəticəsində Avropada ümumi sülhün pozulması şansı demək olar ki, xeyli azalmış oldu. Fransa-Prussiya müharibəsindən sonra Qərbi Avropa 30 il nisbətən «sülh» inkişaf dövrünü yaşadı.

Debidur əsərinin girişində qeyd edir ki, o, 1814-1878-ci illərdə diplomatiya tarixini bütün müxtəlifliyi, rəngarəngliyi ilə göstərməyi qarşısına məqsəd qoymuşdur, diplomatiyanın hüquqi cəhətlərinə toxunmamışdır.

Beləliklə, o dövrdə beynəlxalq münasibətlərin inkişafının bütün sistemi Debidurun tədqiqat marağında olmuşdur.

Onu da qeyd etmək lazımdır ki, Debidur fransız alimi, fransız vətəndaşı olmaqla, Avropada cərəyan edən beynəlxalq münasibətlərdə Fransanın rolunu hədsiz qaldırır, İngiltərənin, xüsusi ilə Rusiyanın rollarını isə azaltmağa, alçaltmağa cəhd edir. Bu onu göstərir ki,

Debidur faktların şərhində, izahında fransız millətçiliyindən yaxa qurtara bilməmişdir.

Bununla yanaşı, Debidur təsdiq edir ki, əgər irlandiyalılara, slavyanlara, polyaklara və digər millətlərə imkan verilsəydi ki, onlar geniş muxtariyyat alsınlar, yaxud özlərinin dövlətlərini yaratsınlar, Elzas və Lotaringiya Fransaya qaytarılsın, Avropa daha çox udmuş olardı. Debidurun fikrincə, XIX əsrdə tarixin gedişi «xalq suverenliyi prinsipi»nin təntənəsinə aparır. Güclü müstəqil dövlətlərin yaranması işğalçı müharibələrin baş verməsini əhəmiyyətli dərəcədə çətinləşdirir.

Lakin tarixin XIX əsrin sonlarında və XX əsrin əvvəllərindəki inkişaf gedişi Debidurun bu inamını doğrultmadı. Əksinə, müstəmləkəçilik siyasətinin geniş vüs'ət alması nəticəsində dünyanın müxtəlif hissələrində müstəqil dövlətlər öz müstəqilliklərini itirdilər, bu və ya digər böyük dövlətin müstəmləkələrinə çevrildilər, dünyada ən dəhşətli müharibə, birinci dünya müharibəsi baş verdi.

Beləliklə, bə'zi nöqsanlarına və çatışmazlıqlarına baxmayaraq, A.Debidurun adı çəkilən əsəri XIX əsrin, habelə həmin əsrin 70-80-ci illərində Avropada beynəlxalq münasibətlərin öyrənilməsində əhəmiyyətli mənbə olaraq qalır.

Əgər soruşsalar ki, bu dərs vəsaiti bu günkü Azərbaycanın tələbələrinə, beynəlxalq münasibətlər sahəsində çalışmağı öz qarşılarına məqsəd qoymuş, gələcəkdə müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin formalaşmasında, beynəlxalq aləmdə Azərbaycanın milli mənafelərinin qorunmasında



yaxından iştirak edəcək gənclərimizin bu nəcib və xeyirxah, həm də çətin, mürəkkəb və incə fəaliyyət sahəsində layiqli yer tutmalarına necə kömək edəcək?

Əlbəttə, bunu gələcək göstərəcək. Lakin bu suala cavab olaraq onu bildirməyi vacib sayıram: Əvvəla, bu Azərbaycan dilində beynəlxalq münasibətlər tarixinə həsr edilmiş ilk dərs vəsaitidir.

İkincisi, bu dərs vəsaitini hər cür ideoloji konsepsiyalardan azad, qərəzsiz, yalnız mövcud gerçəkliyə olduğu kimi yanaşma prinsipi əsasında hazırlamağa çalışmışam.

# I FƏSİL

# FRANKFURT SÜLHÜNDƏN RUS-TÜRK MÜHARİBƏSİNƏDƏK BEYNƏLXALQ MÜNASİBƏTLƏR. BERLİN KONQRESİ

## Avropa dövlətləri Frankfurt sülhündən sonra

1870-1871-ci illər Almaniya-Fransa müharibəsi 1871-ci il fevralın 26-da Frankfurt sülh müqaviləsi ilə başa çatdı. Həmin müqaviləni Almaniya tərəfindən Bismark və Almaniyanın Fransadakı səfiri Arnimş, Fransa tərəfindən isə Jül Favr, Quye-Gerte, de Qular imzaladılar. Həmin müqaviləyə görə Fransa Elzası və Lotaringiyanın şimal-şərq hissəsini Almaniyaya güzəştə getdi və 5 milyard frank (1871-ci ildə 1,5 milyard, 1872-ci ildə 0,5 milyard, 1874-cü ilin martınadək 3 milyard) kontribusiya (təzminat) verməyi öhdəsinə götürdü. Beləliklə, Frankfurt sülh müqaviləsi Fransa-Almaniya arasında müharibəyə son qoydu. Lakin bu heç də möhkəm sülhün bərqərar edilməsi demək deyildi.

Fransa heç vəchlə sülh müqaviləsinin alçaldıcı şərtləri ilə - Elzas-Lotaringiyanın Almaniyaya anneksiya (ilhaq) edilməsi ilə razılaşa bilməzdi.

O vaxt Fransanın xarici siyasəti üçün məs'uliyyət daşıyan Tyer 1872-ci ildə yazmışdı: «Əgər Avropada ixtilaf baş verərsə, təbii ki, həmin təsadüfdən biz istifadə etmək istəyəcəyik». Lakin Fransa həddən artıq zəifləmişdi. Onun sülhə böyük ehtiyacı var idi. Frankfurt



sülh müqaviləsinin alçaldıcı şərtlərindən xilas olmaq üçün Fransa öz hərbi qüvvəsini bərpa etməli və özünə müttəfiqlər tapmalı idi. O, hər an şərq qonşusunun ola biləcək yeni hücumlarını dəf etməyə hazır olmalı idi. Frankfurt sülh müqaviləsindən sonra Avropada təklənməsinə, Bismarkın hər cür təzyiqlərinə qarşı mübarizə aparmaq üçün Fransa yollar, müttəfiqlər axtarırdı. Avropanın böyük dövlətlərindən İtaliya, Avstriya-Macarıstan, İngiltərə və Rusiya dövlətlərindən hansına istinad edə bilərdi?

Fransa hökumətinin Vatikanla yaxın dostluq münasibətləri və Almaniyanın İtaliyaya maliyyə yardımı göstərməsi Fransanın İtaliya ilə yaxınlaşmasını qeyri-mümkün edirdi. O, Avstriya-Macarıstanla da yaxınlaşmağa ümid bəsləyə bilməzdi. 1871-ci ilin oktyabrında Avstriya-Macarıstanda Almaniya ilə sıx dostluq münasibətlərinin tərəfdarı olan alman liberallarının hakimiyyətə gəlməsi bunu qeyri-mümkün etmişdi. Yeni kabinetdə Xarici İşlər Naziri olan Andraşi Rusiyaya qarşı Almaniya ilə ittifaq bağlamaq və bu ittifaqa İngiltərəni də cəlb etmək ümidində idi.

Fransa 1870-1871-ci il müharibəsində Almaniyanın təcavüzkarlığına dəstək verən, rəsmi surətdə özünü neytral e'lan edən İngiltərəyə də bel bağlaya bilməzdi. Bununla bərabər, Fransa İngiltərə ilə münasibətləri kəskinləşdirmək istəmirdi.

Beləliklə, Rusiya qalırdı. İngiltərə və Rusiyanın arasında ciddi ziddiyyətlərin olması Rusiya və Fransanın yaxınlaşmasına əsas verirdi.

Bismark bütün bunları diqqətlə izləyirdi. Lakin o çox yaxşı bilirdi ki, Fransa hələ uzun müddət Almaniya ilə müharibəyə başlamaq imkanına malik olmayacaq.

Əslində isə Fransa yox, Almaniya öz mövqelərinin daha da möhkəmlənməsi üçün yeni müharibəyə hazırlaşırdı, Fransanı gərgin vəziyyətdə saxlamaq üçün hər kiçik bəhanədən istifadə edib ona qarşı fitnə-fəsadlar törədirdi.

1871-ci ildə Qorçakov çara yazdığı hesabatında bildirirdi ki, alman-fransız münasibətləri fövqəladə gərgindir.

Bu dövrdən başlayaraq S.Peterburqdan Parisədək, Londondan-İstanbuladək Avropa siyasətinin ipi Almaniyanın kansleri Bismarkın əlində idi. Bismark hakimiyyətə nə edəcəyi barədə aydın təsəvvürlə və dəqiq işlənmiş planla gəlmişdi. O, həmin planla hərəkət etdi və çox böyük uğurlar qazandı. O, «dəmir və qanla» müasir Almaniyanı yaratdı, XIX əsrin ikinci yarısında Avropa tarixinin gedişini müəyyən etdi. O, baş verən hadisələri ya diplomatiya ilə idarə edir, ya da onlara nəzarət edirdi. Bismark Almaniyanı birləşdirməklə böyük məqsədlərindən birinə nail oldu. Onun yaratdığı imperiyanın barışmaz düşməni Fransa idi. Bismark yaxşı bilirdi ki, Fransa Elzas-Lotaringiyanı geri qaytarmayınca sakitləşməyəcək. Buna görə də o çalışırdı ki, Fransanı təkləsin, onun bu və ya digər dövlətlə ittifaq bağlamasına mane olsun. Özü isə daha güclü dövlətlə ittifaq yaratsın, həmin ittifaqın köməkliyi ilə Fransanı və onun dostlarını həmişə qorxuda və təhlükədə saxlasın. Beləliklə, 1871-ci ilin ortalarından Almaniya da müttəfiq axtarmaqla məşğul idi. Bu ittifaq Almaniyanı mümkün ola biləcək Fransa-Rusiya ittifaqından qorumalı idi.

Almaniyanı bir məsələ də düşündürürdü. Onun belə ittifaq, koalisiya yaratmasına hansı dövlət mane ola bilərdi? İngiltərə ola bilməzdi. Çünki İngiltərə hökuməti,



əgər onun bilavasitə marağı yoxdursa, Avropa qitəsində gedən işlərə qarışmamaq siyasəti yeridirdi. Həm də İngiltərənin başı İrlandiyada gedən hadisələrə qarışmışdı. Doğrudur, İngiltərənin baş naziri Qladstonun həyata keçirdiyi islahat nəticəsində İrlandiyada ixtilaflar səngimişdi. Lakin oranı daim nəzarətdə saxlamaq lazım idi. Bismark İtaliya hökumətindən də heç nə gözləmirdi. On iki il davam etmiş inqilabın vurduğu zərbələrdən İtaliya hələ tam özünə gəlməmiş, maliyyə cəhətdən hədsiz zəifləmişdi. Özünün hərbi gücünü bərpa etməyə imkanı olmayan İtaliya Bismarka əhəmiyyətli kömək göstərə bilməzdi. Digər tərəfdən İtaliyanın Fransaya qarşı Almaniya ilə birləşməsinə də heç bir əsas yox idi. Rusiyaya qarşı Almaniya ilə yaxınlaşması Sankt-Peterburq kabinetini ona qarşı qaldırardı.

Beləliklə, İngiltərə və İtaliya Almaniya üçün axtardığı dayaq nöqtəsi ola bilməzdi. İndi qalırdı Avstriya-Macarıstan. O, Avropanı qorxu altında saxlamağa qabil olan dövlət kimi qalmaqda idi. Bismark heç də gizlətmirdi ki, birincisi, Avstriya-Macarıstan ona çox ciddi ziyan vura bilər. Katolik Vyana sarayı Almaniyada partikulyarizmi genişləndirə və müdafiə edə bilər. Berlin də öz növbəsində Avstriya-Macarıstan imperiyasının alman əyalətlərində panalmanizmi yaya bilərdi. İkincisi, Rusiyanın bitərəfləşdirilməsi üçün Avstriya-Macarıstanın Almaniyaya ehtiyacı var idisə, Avstriya-Macarıstan imperiyası daxilində onun bütövlüyünə təhlükə olan panslavyanizmin mövcudluğu şəraitində onun da Almaniyanın köməyinə ehtiyacı var idi.

Beləliklə, Mərkəzi Avropanın iki böyük dövlətinin yaxınlaşması üçün ciddi səbəblər, əsaslar var idi. Lakin iki səbəb bu yaxınlaşmaya mane ola bilərdi. Birincisi,

Avstriya-Macarıstan diplomatiyasının başında duran qraf fon Beys Prussiya siyasətinə mənfi münasibət bəsləyirdi.

İkincisi Avstriya-Macarıstan monarxiyasında slavyanların qazanmış olduğu siyasi müvəffəqiyyət idi. Çexlər, xorvatlar, slovaklar öz huquqları haqqında səslərini elə cəsarətlə qaldırmışdılar ki, Frans-İosif onların tələblərinə əməl etməyə hazır olduğunu sezdirməyə məcbur olmuşdu.

Almaniya üçün isə aydın idi ki, əgər Avstriya-Macarıstanda slavyanlar üstünlük qazansalar bu imperiya Rusiyanın əlaltısına çevrilər.

Bismarka ümid verən o idi ki, onun kimi qraf fon Beys də slavyan məsələsinə o qədər də meyl göstərmirdi, Rusiya hökumətini sevmirdi. O, həm də həqiqi alman kimi Avstriya-Macarıstan monarxiyasında alman qrupunun slavyan qrupuna tabe olmasını istəmirdi.

1871-ci ilin fevralında Habsburq dövlətinin Avstriya hissəsində Almaniya əleyhinə olan qüvvələr müvəffəqiyyət qazandılar. Almaniyaya düşmənçilik mövqeyində duran qraf Hogenvart kabineti hakimiyyətə gəldi. Lakin o, uzun müddət hakimiyyətdə qala bilmədi. 1871-ci ilin oktyabrında alman liberalları hökuməti onu əvəz etdi. Avstriya-Macarıstan Xarici İşlər Naziri qraf Dyula Andraşi oldu. Macar maqnatlarının nümayəndəsi kimi o, Rusiyaya və slavyanlara başlıca düşmənlər kimi baxırdı. Andraşi Almaniya ilə ittifaqa İngiltərəni də cəlb etməyə ümid bəsləyirdi. Andraşi hələ Xarici İşlər Naziri olmamışdan az əvvəl 1871-ci ilin avqustunda imperatoru Qaştyen kurortuna müşayiət etmişdi, Orada Frans-İosifin Vilhelm və Bismarkla görüşləri olmuşdu.



Bu görüş 70-ci illərin diplomatiya tarixində mühüm işlərin başlanğıcı oldu.

Andraşi Qaşteyndə Bismarkı Rusiya əlehinə siyasətə cəlb etməyə cəhd göstərmişdi. Lakin Bismark bu cəhdi rədd etmişdi. O, həm Rusiya, həm də Avstriya-Macarıstanla dostluq əlaqələrini saxlamaq istəyirdi. «Üç imperatorun ittifaqı» - Bismark buna cəhd edirdi. Avstriya-Almaniya-Rusiya ittifaqı elə bir diplomatik manevr idi ki, onun vasitəsilə Bismark Avstriya-Fransa-Rusiya koalisiyasına mane ola bilərdi.

Bismark Rusiyaya həm nifrət edirdi və həm də ondan qorxurdu. Buna görə də o Rusiya ilə «ənənəvi» dostluq münasibətlərinin müdafiə edilməsinə böyük əhəmiyyət verirdi. Kansler başa düşürdü ki, geniş hərbi əməliyyat teatrına, kəskin klimata, cəsur əsgərə, hədsiz insan ehtiyatlarına, zəngin təbii sərvətlərə malik olan Rusiya ilə müharibə mütləq Almaniyanın fəlakəti ilə nəticələnə bilərdi. O, həm də bilirdi ki, Rusiya ilə toqquşmaya Fransa da cəlb olunar və iki cəbhədə müharibənin öhdəsindən gələ bilməzdi.

Qaşteyndə Bismarkla söhbətdən sonra Andraşi Rusiya əlehinə Avstriya İngiltərə yaxınlaşması planını həyata keçirmək üçün İngiltərə hökumətinə müraciət etdi. Lakin az sonra o inandı ki, İngiltərə Avstriya-Macarıstana hüsnü-rəğbət bəsləməsinə baxmayaraq, Balkanlarda üstünlük qazanmaq uğrunda mübarizədə Rusiyaya qarşı çıxış etmək fikrində deyil.

Rusiyaya qarşı ittifaq yaratmaq üçün bir neçə müvəffəqiyyətsiz cəhdlərdən sonra Avstriya qüdrətli rəqibi olan Rusiya ilə danışığa girməyə məcbur oldu. Doğrudur, Balkanlar uğrunda Rusiya və Avstriya-

Macarıstan arasında mübarizə davam etməkdə idi. Lakin 70-ci illərdə o, hələ kəskin xarakter almamışdı.

Rusiya da Avstriya-Macarıstanla yaxınlaşmağa meylli idi. Onu Almaniya-Avstriya-Macarıstan əməkdaşlığının perspektivləri qorxudurdu. Rusiya Avstriya-Rusiya sazişinin bağlanmasına nail olmaqla bu əməkdaşlığı zərərsizləşdirmək ümidində idi.

Bismark bütün bu prosesləri izləyir, proqnozları təhlil edir və belə qənaətə gəlirdi ki, hazırkı dövrdə Almaniyanın Rusiyadan ehtiyat etməyə əsası yoxdur.

Lakin Fransanın dirçəlməsi, əldə etdiyi müvəffəqiyyətlər Bismarkın nəzər diqqətindən qaçmırdı. 1872-ci ilin iyun-iyul aylarında Fransada Almaniyaya qarşı qət'i hərəkət etmək tərəfdarları öz fəaliyyətlərini gücləndirdilər. Onların liderlərinin arxasınca Milli Məclisin əksəriyyəti gedirdi. Əgər ordunun təşkili başa çatdırılmasa və əyalətlər azad edilməsə, onlar Tyer hökumətini devirəcəklərini irəli sürürdülər. Tyer yaranmış vəziyyəti dərk edərək, 1872-ci il iyunun 29-da Almaniya ilə yeni saziş imzaladı. Həmin sazişə əsasən altı fransız departamentindən alman qoşunları çıxarıldı. Bir neçə gün sonra buraxılmış istiqrazdan alınan gəlir hesabına Fransa təzminatın ödənilməsini başa çatdırdı. Beləliklə sübut etdi ki, o özünün vətənpərvərliyində nəinki böyük güc tapa bilir, həm də böyük sərvətə malikdir. Öz ordusunu bərpa edən Fransa 1872-ci il iyulun 28-də qanun qəbul etdi. Bu qanunla ölkədə məcburi hərbi xidmət e'lan olundu.

Bütün bunlar Bismarkı o qədər də qorxutmurdu. Onu narahat edən Avstriya-Macarıstan-Almaniya sazişinin bağlanmasının ləngidilməsi idi. Andraşi də bu məsələdə Bismarkla həmfikir idi. Onu slavyanların



öhdəsindən necə gəlmək düşündürürdü. Bu işdə Almaniya hökumətinin xeyirxah xidmətindən istifadə etmək Andraşi üçün zəruri idi. Andraşi onun siyasətinə qarşı çexlərin qızğın mübarizə apardıqları Bogemiya seymini buraxmağa məcbur oldu.

Bismarkın də'vəti ilə imperator Frans-İosif 1872-ci ilin sentyabrında Berlinə gəlməli idi. Bu xəbər tezliklə bütün Avropada yayıldı. Buna təəccüblənənlər də çox idi: Sadovada məğlub olmuş ölkənin başçısı öz dostluq hisslərini bildirmək üçün qalib ölkənin paytaxtına gəlməyə hazırlaşır. Bu xəbər Rusiyada həyəcan doğurmaya bilməzdi. Avstriya-Almaniya yaxınlaşmasına, onsuz da Avropada tamamilə təklənmiş olan Rusiya özü üçün ciddi təhlükə kimi baxırdı. Frans-İosifin Berlinə gəlməsi xəbərini Rusiya hökuməti əvvəlcə qeyri-rəsmi mənbələr vasitəsi ilə bilmişdi. Sonra isə I Vilhelmin şəxsi katibi Şneyder bu haqda çara qeyri-rəsmi məktub yazmış, bu şayiələrin doğru olduğunu bildirmişdi.

Bütün bu xəbərlərdən ciddi narahat olan imperator II Aleksandr Baltik donanmasına baxış keçirilən zaman qəflətən Almaniya səfirinə müraciət edərək dedi: «Sizə Berlindən yazmayıblar? Onlar Avstriya imperatoru ilə birlikdə məni də görmək istəmirlərmi? Siz necə düşünürsünüz, bu kral üçün xoş olacaqmı?» Səfir imperatora mə'lumatında yazmışdı: «İmperator bu məsələni elə şəkildə qaldırdı ki, əgər əlahəzrətim, onun planı məqbul deyilsə, mənim tam imkanım var ki, ona cavab verməyim, ona təsadüfi deyilmiş söz kimi baxım».

Çoxdandır ki, üç imperatorun ittifaqının yaradılması haqqında düşünən, bunu real gerçəkliyə çevirməyi qarşısında məqsəd qoymuş Bismark üçün bu təsadüf

göydəndüşmə oldu və bundan istifadə etməyi vacib bildi.

Kanslerin fikrinə görə, rus çarının Berlinə gəlməsi sülh üçün təhlükəli olan qüvvələrin, birinci növbədə Fransanın ağlını başına gətirər.

Buna görə də o, Frans-İosiflə eyni vaxtda Rusiya imperatorunun Berlinə də'vət edilməsinin zəruri olduğunu bildirdi. Çar Berlinə gəldi. Onu Xarici İşlər Naziri Qorçakov müşayiət edirdi. Beləliklə 1872-ci il sentyabrın əvvəllərində Berlində üç imperatorun görüşü baş tutdu.

Avstriya-Macarıstan naziri daha çox Rusiya kansleri və xarici işlər naziri Qorçakovla söhbət edirdi.

Qorçakov Berlin görüşündən Avstriyanı İngiltərədən ayırmaq, bununla ingilis-rus toqquşması baş verdiyi halda Rusiyanın qərb sərhədlərinin təhlükəsizliyini tə'min etmək üçün istifadə etməyə sə'y göstərirdi.

Üç imperatorun görüşü Xivə üstündə ingilis-rus ixtilaflarının başlanması dövrünə təsadüf etmişdi. Bu dövrdə İngiltərənin Rusiyaya qarşı müttəfiqi yalnız Avstriya-Majarıstan ola bilərdi. Fransa Almaniya tərəfindən əzilmişdi və çox zəif idi.

Avstriya-Majarıstan Xariji İşlər Naziri Andraşi də öz növbəsində Qorçakovdan Balkanlarda müəyyən tə'minat almağa nail olmağa cəhd edirdi. O, sübut edirdi ki, böyük serb hərəkatı Avstriya-Macarıstanın mənafelərinə ziddir. Qorçakov Andraşiyə söz verdi ki, Rusiya böyük serb təbliğatını müdafiə etməyəcək. Rusiya hökumətini balkanlardakı Status-qvo tam tə'min edir. İki nazir arasında şifahi razılıq əldə edildi.



Bismarkın isə başlıca məqsədi Fransanın təklənməsinə nail olmaq idi. Bu məsələ ilə bağlı Bismark və Qorçakov arasında qızğın diplomatik döyüş gedirdi. Bismark hesab edirdi ki, Fransa və Rusiya heç vaxt ittifaq bağlaya bilməzlər. Elzas-Lotaringiya uğrunda müharibəyə girmək Rusiyanın nəyinə lazımdır? Fransa da nəyin naminə balkan slavyanları uğrunda silaha əl atmalıdır?

Mə'lum olduğu kimi 1870-1871-ci il Fransa-Prussiya müharibəsi dövründə Rusiya Almaniyaya münasibətdə xeyirli bitərəflik mövqeyində dayanmışdı. Lakin müharibədən sonra, məğlub olmuş Fransanın daha da zəifləməsinin Rusiya üçün məqbul olmadığı özünü büruzə verirdi. Almaniyanın Qərbi Avropada hegemonluğu öz əlinə alması Rusiya üçün çox böyük təhlükə yaradardı. Mövcud şərait Rusiya-Fransa əməkdaşlığını zəruri edirdi. Qorçakov Almaniyanın Fransa əleyhinə mövqeyini heçə endirməyə cəhd edirdi. Bu məqsədlə o, Fransanın Berlindəki səfiri Qonto-Bironla görüşdü və onu başa saldı ki, Rusiya Fransa əleyhinə Almaniyanı müdafiə etməyəcək. «Mən artıq bunu sizə demişəm və yenə təkrar etməyə şadam ki, bizə güclü Fransa lazımdır».

Qonto-Biron düzgün nəticə çıxardı və Parisə mə'lumat verdi ki, Bismark Berlin görüşündə istəyinə nail ola bilmədi. Lakin bu heç də o demək deyildi ki, Peterburq rus-alman dostluğunu qiymətləndirmirdi. Əksinə, bu dostluq Polşanın əsarətinin gücləndirilməsinə, İngiltərə üçün mübarizədə onun əl-qolunun açılmasına tə'minat verirdi. Burada onu da xatırlamaq lazımdır ki, Vilhelm Şərq məsələsində loyal mövqe tutacağı barədə çara söz vermişdi. Məhz buna görə də

Rusiya imperatoru Almaniyanın Avstriya-Macarıstanla yaxınlaşmasına e'tiraz etmədi və «üç imperatorun ittifaqı» adlanan pakt imzalandı.

Əslində bu dövlətlər arasında heç bir müqavilə bağlanmadı, ancaq notalar mübadiləsi oldu. Onlar birlikdə fəaliyyət göstərmək barədə aşağıdakı məsələlər üzrə razılığa gəldilər: 1) Avropada ərazi statusunun saxlanması; 2) Hələ də həyəcanlı vəziyyətdə qalmaqda olan Şərq məsələsində meydana gələn çətinliklərin həll edilməsi; 3) Bütün ölkələrdə taxt-tac üçün təhlükə təşkil edən inqilabları cilovlamaq.

Üç imperatorun ittifaqı nəticəsində Avstriya-Macarıstan bütünlüklə Almaniyanın tə'siri altına düşdü. Çünki o, başqa cür hərəkət edə bilməzdi. Rusiya isə tam sərbəst hərəkət etmək hüququnu özündə saxladı. Qorçakov o qədər də sadəlövh deyildi ki, Bismarkın oyununu başa düşə bilməsin. Bismarkın Sankt-Peterburqu və Vyana saraylarını öz himayəsi altına almaqda məqsədi onların hər birini başqasının köməkliyi ilə bitərəfləşdirmək idi. Lakin Qorçakov buna imkan vermədi.

Bütün bunlara baxmayaraq, bir neçə müddət Avropa Üçlər ittifaqı ilə hesablaşmalı olmuşdu.

Üçlər ittifaqının tanınmasında Vilhelmin və onun nazirinin 1873-cü ilin payızında Sankt-Peterburqa və Vyanaya təntənəli səfəri xüsusi rol oynamışdı. Bismark heç vaxt belə qüdrətli olmamışdı.

1873-cü il mayın əvvəllərində Sankt-Peterburqda rus-alman hərbi konvensiyası imzalandı. Onun birinci maddəsində deyilirdi: «Əgər hər hansı Avropa dövləti imperiyalardan birinin üzərinə hücum edərsə, sonuncu imkan daxilində ən qısa vaxtda hərb qabiliyyətli 200 min



nəfərdən ibarət ordu kömək alacaqdır». Konvensiyanı iki general – Moltke və Berq imzaladılar. Həmin günü mayın 6-da hər iki monarx tərəfindən konvensiya təsdiq olundu.

Həmin ilin iyulunda II Aleksandr Qorçakovun müşayiəti ilə Vyanaya getdi. Çar və Qorçakov Avstriya hökumətinin rus-alman konvensiyasına qoşulmasına cəhd göstərdilər. Lakin bu rədd edildi. Avstriya hökuməti bunu onunla əsaslandırdı ki, bu Avstriyanı İngiltərə əleyhinə müharibəyə cəlb edə bilər. Hərbi konvensiya əvəzində Avstriya başqa saziş imzalamağı təklif etdi. 1873-cü il iyunun 6-da Vyananın yaxınlığı – Şenbrunnda saziş imzalandı. Hər iki monrax öhdələrinə götürürdülər ki, əgər bu və ya digər məsələdə fikir ayrılığı meydana çıxarsa, bir-biriləri ilə razılığa gəlməlidirlər. Əgər üçüncü bir dövlətin hücum təhlükəsi gözlənilərdisə, onda onlar vahid mövqe xətti haqqında bir-biri ilə şərtləşməlidirlər. Əgər bu haqda razılığa gəlinərdisə, onda onun xarakterini hərbi konvensiya müəyyən etməli idi. Belə saziş isə bağlanmalı idi.

Bütün bunlar göstərir ki, saziş çox pərakəndə xarakter daşıyırdı. Oktyabrın 23-də Avstriyaya gələn Alman imperatoru Şenbrunn müqaviləsinə qoşuldu. Rusiya bu müqaviləni ona görə bağladı ki, o, imperiyanın qərb sərhədlərinin təhlükəsizliyinə tə'minat verirdi.

1874-cü il yanvarın 23-də II Aleksandrın qızı böyük knyagina Mariya Edinburq hersoquna, kraliça Viktoriyanın ikinci oğluna ərə getdi. Çar 1874-cü ilin mayında qızını görmək bəhanəsi ilə Londona gəldi. Lakin bu gəlişin elə bir həlledici əhəmiyyəti olmadı. Çar Londonda Lui-Filippin nəvəsinin görüşünə getdi.

Bununla o, Versal kabinetinə qarşı ən xoş niyyətdə olduğunu nümayiş etdirdi.

## 1874-1875-ci il alman-fransız ixtilafları. Rusiya və İngiltərənin mövqeyi

Bismark bir an da olsun Fransanı yaddan çıxarmırdı.

Fransa xalqı ölkədə respublika e'lan edilməsinə daha çox meyl göstərirdi. Milli Məclisin monarxiyaya tərəfdar olan əksəriyyəti isə monarxiyanın bərpa edilməsini istəyirdi. Bismark da Fransada monraxiya üsul-idarəsinin qurulmasının tərəfdarı deyildi. Buna baxmayaraq o, 1872-ci ilin dekabrında Almaniyanın Fransadakı səfiri qraf fon Arnimə yazdığı məktubda ona həm monarxistlərin koalisiyasının genişləndirilməsinə çalışmağı, bununla yanaşı, həm də Fransada monarxiyanın qurulmasına mane olmağı tövsiyə edirdi. Kansler istəyirdi ki, Frankfurt sülh müqaviləsinin şərtlərini yerinə yetirən Tyer həmişə hakimiyyətdə qalsın, Fransada müvəqqəti rejim davam etsin, nə respublika, nə də monarxiya.

Milli Məclisdəki sağlar hər vəchlə Tyerdən yaxalarını qurtarmağa cəhd edir və məclisi inandırmağa çalışırdılar ki, Fransa üçün respublika idarə forması daha münasibdir. Onlar Tyerin istefasına nail olmaq üçün fürsət gözləyirdilər. 1873-cü il 15 mart tarixli sazişə əsasən Tyer təzminatın tam ödənilməsini və ərazinin tamamilə alman qoşunlarından təmizlənməsini tə'min etdikdən sonra monarxiyaçı partiyalar onun hakimiyyətdən getməsini tezləşdirməyi qərara aldılar. Bə'zi hazırlıq işi gördükdən sonra onlar mayın 23-24-də



həlledici hücuma keçdilər və qələbə çaldılar. Məclis 14 səs çoxluğu ilə Tyeri istefaya getməyə məcbur etdi. Marşal Mak Maqon prezident e'lan edildi. O, qatı monarxist və katolik idi. May ayının 24-də Hersoq de Broylun başçılığı altında yeni hökumət təşkil edildi. O, Xarici İşlər Naziri vəzifəsini də özündə saxladı. Yeni hökumət bonopartçılardan, orleançılardan, yə'ni monarxistlərdən ibarət qarışıq hökumət idi.

Tyerin istefası və Mak Maqonunun onu əvəz etməsi Avropada geniş rə'ylərə səbəb oldu.

Almaniya isə Fransada baş verən dəyişikliklərdən hədsiz narahat idi. Bismarkın fikrincə bu gələcəkdə Fransada monarxiyanın bərpası ilə nəticələnə bilərdi. Mak Maqon - monarxiyaya keçid mərhələsidir. Bismarkın ciddi həyəcan keçirməsinin başqa səbəbi də onun Almaniyadakı əleyhdarlarının Fransada baş verən hadisələrə müsbət münasibət bəsləmələri idi. Mak Maqonun hakimiyyətə gəlməsi Bismarkın ürəyindən deyildi.

Rusiyanın müəyyən dairələrində 24 may çevrilişi rəğbətlə qarşılanmadı. Bu çevriliş Fransada siyasi vəziyyətin sabit olmadığını sübut edirdi. Qorçakov hələ 1872-ci ilin əvvəllərində bildirmişdi ki, bu ölkəyə qayda-qanun və hakimiyyət lazımdır. Çarın münasibəti isə müsbət idi.

Avstriyanın katolik dairələri Fransadakı hadisələrə hüsnü-rəğbətlə yanaşdılar.

İtaliyada isə ciddi narahatçılıq keçirirdilər.

İngiltərənin burjua dairələrində də Fransadakı çevriliş rəğbətlə qarşılanmadı.

Mak Maqon və Broyl hökuməti xarici dövlətləri sakitləşdirmək və onlardakı şəbhələri dağıtmaq üçün

ciddi cəhd göstərirdilər. Onlar bildirdilər ki, Fransa hökuməti mühafizəkar sülhpərvər xarici və mülayim daxili siyasət yeridəcək. Lakin bu heç də gözlənilən nəticəni vermədi.

Hələ Tyerin hakimiyyəti vaxtı monarxistlər qisas haqqında daha bərk hay-küy saldılar.

İndi Bismark qorxurdu ki, onlar klerikal Vyana sarayı ilə razılığa gələ, siyasi tərəfdaş kimi Rus çarının inamını qazana bilərlər. Bu daim Bismarkı düşündürürdü. Bismark onu da nəzərə alırdı ki, Fransa öz ordusunu çox sürətlə bərpa etməyə başlamışdı. Hələ 1872-ci ildən o, Almaniyada olduğu kimi ümumi hərbi mükəlləfiyyət sistemini qəbul etmişdi.

Təzminat ödənildikdən, Fransanın bütün ərazisinin alman qoşun hissələrindən təmizlənməsindən sonra Fransa öz xarici siyasətində daha sərbəst hərəkət etmək imkanı qazandı. Bu Bismarkın şübhələrini hədsiz dərəcədə gücləndirdi. O, Fransanın öz silahlı qüvvələrini bərpa etməsinə mane olmaq üçün hətta müharibə ilə hədələmək taktikasından istifadə etməyə hazır idi. Almaniya hökuməti Fransaya qarşı heç bir bəhanəni belə nəzər-diqqətindən yayındırmırdı.

Fransa qisasçıları bu baxımdan onlara kifayət dərəcədə bəhanə verirdilər. 1873-cü ilin avqusutunda Nansi şəhərinin yepiskopu «Pastor müraciətnaməsi» ilə çıxış etdi. Nansi yepiskopunun dini-inzibati mərkəzi Lotaringiyanın Almaniya hissəsində idi. Həmin müraciətnamədə dindarlar Elzas və Lotaringiyanın Fransaya qaytarılması uğrunda dua oxumağa də'vət edilirdi. Müraciətnamə bütün kilsələrdə oxunmuş, Almaniya ərazisindəki katolik mətbuatında dərc edilmişdi. Bismark bundan Fransaya qarşı diplomatik hücuma



keçmək üçün istifadə etməyi qərara aldı. Bismark Fransa hökumətindən, guya alman vətəndaşlarını öz ölkəsindən ayırmağa çağıran kilsə knyazını cəzalandırmağı tələb etdi.

Fransanın yeni xarici işlər naziri Hersoq de Broyl dəfələrlə təkrar edirdi ki, Fransa hökuməti qisasçı təbliğatı müdafiə etmir. Bununla bərabər o, yepiskopa qarşı cəza tətbiq etməkdən çəkinməyə çalışırdı. Danışıqlar uzanırdı. Almaniya bütün mətbuatı Fransa əleyhinə qaldırmışdı. Kansler çox nüfuzlu mətbuata malik idi. Bu mətbuatı saxlamaq üçün Bismarkın müəyyən miqdarda pulu da vardı. Hakimiyyətdən devrilmiş Hannover sülaləsinin qəsb edilmiş bütün sərvəti Bismarkın ixtiyarında idi. Bismark başqa mənbələrdən də istifadə edirdi. Mətbuat Almaniyaya qarşı klerikal dini sui-qəsd hazırlandığı - guya Fransanın hakim dairələrinin beynəlxalq klerikalizm ilə dilbirliyə girdikləri barədə hay-küy qaldıraraq Bismarkdan Fransaya qarşı cəza tədbirləri görməyi tələb edirdi.

Bismark Rusiyanın e'tibarlığına o qədər də inanmırdı. Buna görə o, İtaliyaya daha çox diqqət yetirirdi. Məhz elə Bismarkın təhriki ilə İtaliya kralı Viktor Emmanuil 1873-cü ilin sentyabrında ümumdünya sərgisinə baxmaq bəhanəsi ilə Vyanaya getdi. O, Frans-İosif və Andraşi ilə görüşdü. Onlar kralı çox yüksək səviyyədə qarşıladılar və vəd etdilər ki, çətin hallarda onu heç vaxt tərk etməyəcəklər. Bundan sonra kral Berlinə getdi. Dəmir kansler də onu çox yaxşı qarşıladı. Burada koalisiyanın və müharibənin perspektivləri haqqında məsələ müzakirə edildi. Bismark işarə etdi ki, əgər vəziyyət Fransa ilə ixtilaf səviyyəsinə

çatarsa, onda İtaliya Nitsa və Savoyanı ala bilər. Viktor Emmanuil burada çox qalmağa cəsarət etmədi.

Hərbi nöqteyi-nəzərdən 1874-1875-ci illər Fransa ilə müharibə Almaniya üçün münasib idi.

Fransa hökuməti təhlükəni hiss edirdi. 1873-cü il dekabrın 26-da onun Berlindəki səfiri Qonto Biron Almaniyanın Ali qərargahının rəisi Moltgenin hərbi yönümlü çıxışları haqda mə'lumat verdi. Səfir belə güman irəli sürürdü ki, Almaniya müharibəyə hazırlaşır.

Rusiyanın Berlindəki səfiri Ubri isə hesab edirdi ki, onun fransız həmkarı bütün təhlükəni hələ tam təsəvvür edə bilmir. O, Sankt-Peterburqa mə'lumat vermişdi ki, Bismark Fransaya nifrət hissi bəsləyir.

Ubri haqlı çıxdı. Almaniya hökuməti alman-fransız münasibətlərinin kəskinləşməsindən silahlanmanı gücləndirmək və ordu üçün reyxstaqdan əlavə vəsait almaq üçün istifadə etdi. O, ordunun sayını artırdı. Reyxstaqı məcbur etdi ki, yeddi il müddətinə hərbi büdcəni qəbul etsin. Lakin bunlar da Bismarkı sakitləşdirmirdi. Elzas-Lotaringiyadan olan deputatlar 1874-cü ilin əvvəllərində Reyxstaqda ölkələrinin Almaniyaya birləşdirilməsinə e'tiraz etdilər. Fransa ictimaiyyəti onların tələblərini açıqdan-açıqa müdafiə etdi.

Bu dövrdə Fransanın xarici işlər naziri de Broylu Dekaz əvəz etdi. Yeni nazir cəsarətli manevrlərlə Bismarkın hədələrini rədd etməyi qərara aldı. O bilirdi ki, nə Rusiya, nə İngiltərə, nə də Avstriya-Macarıstan Almaniyanın daha da güclənməsini istəmirlər. Dekaz Almaniyanın Fransaya qarşı müharibəyə başlamaq istəyi barədə bəyanatla Vyanaya, Sankt-Peterburqa, Londona müraciət etdi. O, Fransanı müdafiə etməyi xahiş edirdi. Dekaz Avstriyada Nansi yepiskopu ilə bağlı



hadisədən çox məharətlə istifadə etdi. O, Frans-İosifin katolik hissini oyatmağa, nüfuzlu klerikal dairələrin marağını cəlb etməyə nail oldu. İstər Vyanada, istərsə Sankt-Peterburqda Fransa səfiri rəğbətlə qəbul edildi. Fransanın bu diplomatik tədbiri Frans-İosifin və Andraşinin Sankt-Peterburqa səfəri vaxtına təsadüf etmişdi.

Avstriya imperatoru 1874-cü il fevralın 13-də Sankt-Peterburqa gəlmişdi. Qorçakov və Andraşi Fransanın xeyrinə birgə sürpriz təşkil etdilər. Onlar birlikdə Fransa səfirliyinə gəldilər və bildirdilər ki, onların hökumətləri Bismarkın hərəkətlərini pisləyirlər.

Gec də olsa İngiltərə də öz sözünü dedi. Kraliça I Vilhelmə şəxsi məktub göndərdi. Kraliça Viktoriya imperatora xəbərdarlıq edirdi ki, əgər Almaniya Fransaya qarşı yeni müharibəyə başlayarsa, onun üçün faciəli nəticə ilə qurtaracaq. Dekazın gümanı özünü doğrultdu. Bismark fevralın 17-də ixtilafın davam etdirilməsinin dayandırılması haqqında göstəriş verdi.

Beləliklə, 1874-cü ildə beynəlxalq vəziyyət açıqdan-açığa Almaniya üçün münasib xətlə getmirdi. Fransanı təkləmək üçün Almaniya daha qətiyyətli addımlar atmalı idi. Kansler ilk növbədə Rusiyadan başlamağı vacib bildi.

Bunun üçün Rusiyanın diqqətini daha çox cəlb edən Yaxın Şərqi hədəfə götürdü. O dövrdə Yaxın Şərq Almaniyanı o qədər də maraqlandırmırdı, onun bu diyarda hələ lazımı marağı yox idi. İqtisadi sahədə o bura yenicə daxil olmağa başlamışdı. Bismark buranı öz dostlarına bağışlamağa cəhd edirdi.

Yaxın Şərqdə Rusiyanı müdafiə etmək, Fransaya qarşı onu ələ almaq ideyası Bismarkı çoxdan

düşündürürdü. Hələ 1873-cü ildə S.Peterburqa səfəri zamanı Bismark bu barədə Qorçakova işarə vurmuşdu.

1875-ci il fevralın əvvəllərində özünün diplomatlarından, ən çox e'tibar etdiyi Radoviçi xüsusi missiya ilə S.Peterburqa göndərdi. Radoviçin missiyası diplomatik bünövrə yaratmaq idi. Onun Qorçakova dediyi kimi, onun gəlişinin əsas məqsədi - hökumətlər arasında daha mehriban dostluq mənbələrini aşkara çıxarmaqdır. O, çara demişdi ki, onun vəzifəsi fikir mübadiləsi yolu ilə Almaniya və Rusiya arasında siyasi xətt birliyi yaratmaqdır. Çar üç imperator sarayı arasında həmrəyliyə çox şad olduğunu və Şərqdə Status-qvo-nu müdafiə etmək istəyində olduğunu bildirdi. Sonra çar öz iradını bildirdi ki, o, İstanbulu tutmağa hazırlaşmır. Elə buradaca bir sualı ortaya atdı. Türkiyənin dağılmasından sonra İstanbul kimə çatacaq və onun hakimiyyəti altında indi yaşayan xalqları kim öz iradəsi altında saxlayacaq? Radoviç heç nə cavab vermədi. O, siyasi əməkdaşlıq haqqında çox qeyri-müəyyən və ümumi şəkildə cavab verməklə kifayətləndi. Sonrakı günlərdə o, Balkanlara aid olan kiçik məsələlərin tənzimlənməsi ilə məşğul oldu.

Bir neçə gündən sonra o yenidən mühüm işlər barəsində öz fikrini açıqlayaraq, Qorçakova dedi ki, Almaniya Rusiya üçün vacib olan böyük məsələlərdə Rusiya siyasəti üçün gərəkli olmağa çalışır. Şərq məsələsində Almaniyanın mövqeyi ən kardinal məsələləri əhatə edəcəkdir. Qorçakov ona cavab olaraq rus-alman dostluğunun möhkəm olduğunu bildirdi. Bundan sonra Bismark belə qərara gəldi ki, artıq kifayət dərəcədə əsas yaradılmışdı. O, Radoviçə ən incə məsələni qaldırmağa razılıq verdi. Radoviç birbaşa Qorçakov-



dan xahiş etdi ki, Fransaya elə tə'sir göstərilsin ki, o, Rusiya tərəfindən müdafiə edilməyəcəyini yəqin etsin. O, hətta Fransada Almaniyaya qarşı düşmən hərəkatın mövcud olduğu barədə Qorçakovla mübahisə edirdi. Qorçakov isə onu çox dalğın, diqqətsiz dinləyirdi. Qorçakov isə göstərmək istəyirdi ki, Bismark onu aldada bilməz. O, özünün alman müsahibinə bildirdi ki, Fransada Almaniyaya qarşı heç bir xüsusi təşviqat aparılmır. Radoviç Berlinə - Bismarka xəbər verdi ki, bu mövzu haqqında danışılanda Qorçakov çox həvəssiz qulaq asır və söhbətdən narazı olduğunu nümayiş etdirir.

Beləliklə, Radoviç Alman-Fransız münasibətlərində Rusiyanın mövqeyinin dəyişilməsinə nail ola bilmədi.

Elə bu günlərdə Fransada ciddi hərbi hazırlıq gedirdi, xaricdən atlar alınırdı. Bu tədbirə cavab olaraq 1875-ci il martın 4-də imperator Almaniyadan atın çıxarılmasını qadağan edən fərman verdi.

Mə'lum olduğu kimi o dövrdə artileriya topları ancaq atlar vasitəsi ilə bir yerdən başqa yerə daşınırdı.

Almaniya fevralın 3-də Belçika katoliklərinin Almaniyaya qarşı çıxmalarını bəhanə gətirərək Belçikaya qarşı heç bir diplomatik normaya sığışmayan tələb - Belçikanın qanunvericiliyində dəyişikliklər edilməsi tələbini irəli sürmüşdü. Almaniya bu bəhanədən istifadə edərək istədiyi vaxtda Belçika ilə diplomatik əlaqəni kəsə və onun ərazisindən Fransaya qarşı hərbi əməliyyata başlaya bilərdi.

Bu dövrdə Fransaya qarşı da hədələr davam edirdi.

Aprelin əvvəllərində alman qəzetlərində Fransaya qarşı geniş kompaniya başlandı. 1875-ci il aprelin 20-də

rus səfiri yazmışdı: «Bismark üçün ən dəyərli siyasi silah olan jurnalistika onun başlıca məşğuliyyətinə çevrilməkdədi».

Berlində diplomatlar arasında söhbətdə özünəməxsus əmək bölgüsü özünü büruzə verirdi. Bismark təsdiq edirdi ki, Fransa təcili hücuma hazırlaşır, ali qərargahın rəisi Moltge isə deyirdi ki, Almaniya «təcavüzkarı» xəbərdar etməlidi, əgər Fransa silahlanmanı məhdudlaşdırmasa, müharibə labüddür. Hər tərəfdən həyəcanlı xəbərlər gəlirdi. Bu günlərdə Moltke Belçika səfirinə demişdi: «Almaniya Fransa hərbi qanununun həyata keçirilməsinə mane olmaq məcburiyyətindədi. Əgər Fransa silahlanmanı məhdudlaşdırmasa, müharibə labüddür».

Səfir ehtiyat edirdi ki, Bismark Belçikanın katolik nazirliyinə qarşı çıxış edər, onu Fransa ilə həmrəylikdə, Fransa qoşunlarının Belçika ərazisindən keçməsinə razılıq verməkdə günahlandıra bilər. Bu, Belçikanı işğal etmək üçün Almaniyanın əlində bəhanə olar.

Bismark Belçika səfirinə bildirmişdi ki, Fransa ordusu Belçika ərazisindən Almaniyaya doğru hərəkət edir. Səfir xəbər verirdi ki, alman hərbi dairələrində yeni müharibənin konturları müəyyən edilir: Belforu və Lüksemburqu tutmaq, 10 milyard konstribusiya almaq barədə Bismarkın manevrləri heç də səmərəli olmadı. O, Fransanı qorxuda bilmədi. Fransanın Berlindəki səfiri Qonto Bironun köməkliyi ilə Bismarkın Fransaya qarşı işlətdiyi silahı o, Bismarka qarşı yönəltdi. O, Bismarkın təcavüzkar fikirləri haqqında nə varsa hamısını toplayıb Rusiya və İngiltərəni tanış etməyə, onları Fransanın xeyrinə çıxışa səfərbər etməyə cəhd etdi.



1875-ci il aprelin 21-də Berlinə qayıtmış Radoviç şam yeməyi zamanı Fransız səfirinə dedi ki, Fransanın hərbi hazırlığını nəzərə alaraq Almaniyanın siyasi xadimlərinin əksəriyyəti müharibənin zəruri olduğunu təsdiq edirlər. Bundan xəbər tutan Dekaz «Times» qəzetinin Paris müxbiri Blovitsi yanına çağırdı. Müxbirlə söhbətin nəticəsində qəzetdə Almaniya əleyhinə kəskin material dərc edildi. Sonra Dekaz Radoviçin Qonto ilə söhbətinin surətini Fransanın xarici nümayəndəliklərinə göndərdi. Bu dəfə Dekazın bu hərəkəti cavabsız qalmadı. Rusiya çarı və Qorçakov Fransa səfirinə bildirdilər ki, Almaniya Fransaya qarşı hücum edərsə Fransanı diplomatik yolla müdafiə edəcəklər.

Dekazın bu demarşı Almaniyanın Belçikaya soxulması haqqında xəbərlərin geniş vüsət aldığı bir vaxtda Londona çatmışdı. Fransaya və Belçikaya qarşı təhlükə Almaniyanın Belçikanı tutmaqla Pade-kole sərhədlərində görünməsi təhlükəsi Londonu çox narahat edirdi.

İngiltərənin baş naziri Dizraeli (O, 1874-cü ildə Qladstonu əvəz etmişdi) hökumətində xarici işlər naziri olan Lord Derbi İngiltərənin Berlindəki səfiri Rosselə tapşırıq verdi ki, Fransa və Almaniya arasındakı «anlaşılmazlığa» son qoymaq üçün bütün vasitələrdən istifadə etsin.

İngiltərə hökuməti Berlində birlikdə diplomatik çıxış etməyə Avstriya-Macarıstanı və İtaliyanı da cəlb etməyə cəhd etdi. Londonda tez-tez belə xəbərlər yayılırdı ki, guya Almaniya Avstriya-Macarıstana hücum etməyə hazırlaşır. Lakin bu cəhd baş tutmadı.

May ayının 10-da çar, Qorçakovun müşayiəti ilə Berlinə gəldi. İlk gündən sonra Bismark və Qorçakovun

təkbətək danışıqları başlandı. Bismark inandırmağa çalışırdı ki, Almaniya Fransaya hücum etməyə hazırlaşmır. O, bütün həyəcanlı xəbərləri qazanmaq arzusunda olan birjaçıların üzərinə yıxdı. Sonra göstərdi ki, Moltke siyasətdə uşaqdır, müharibə haqqında onun bəyənatına heç məhəl qoymaq lazım deyil.

Həmin axşam İngiltərənin səfiri Odo Rassel şam stolu arxasında Bismarka Lord Derbinin dediklərini çatdırdı. Bismark Qorçakova dediklərini ona da təkrar etdi.

Berlindən getmək ərəfəsində Qorçakov bütün Rusiya səfirliklərinə və nümayəndəliklərinə aşağıdakı məzmunda teleqram göndərdi. «İmperator Berlini burada sülhpərvər məqsədlərin hökm sürdüyü inamı ilə tərk edir. Sülhün saxlanılması tə'min edilmişdir». Həmin teleqramın şifrlə göndərilməsinə baxmayaraq o, tezliklə aşkar oldu. Teleqram belə təsəvvür yaradırdı ki, yalnız Rusiyanın işə qarışması nəticəsində Fransa ikinci dəfə darmadağın edilməkdən xilas oldu. Belə təsəvvür həm də ona görə daha da güclənmişdi ki, mətbuata teleqram saxtalaşdırılmış şəkildə çatmışdı. «Sülhün saxlanılması tə'min edilmişdi» yerinə «Artıq sülh tə'min edildi» kimi mətbuatda dərc edilmişdi.

Teleqram Bismarkı əndazədən çıxarmışdı. O, istehza ilə Qorçakovun üzünə dedi ki, görünür Rusiya konsulu «Fransanın xilaskarı» kimi tanınmaq istəyir, Qorçakov Fransanı himayə edir. Bismark Qorçakovun hərəkətləri barədə çara şikayət etdi. Çar Bismarkı sakitcə dinlədi, yüngülcəsinə güldü və soyuqqanlılıqla cavab verdi, Qocalığın, şöhrət düşkünlüyünün hər cür təzahürlərinə o qədər də əhəmiyyət vermək lazım deyil.



1875-ci il, Fransanın tarixində müəyyən mərhələ təşkil etdi. Fransa üçün birinci daha təhlükəli dövr sona çatmış oldu. Almaniya və Fransa arasında sülh saxlanıldı. Rusiya Almaniyanın Fransaya qarşı yeni hücuma keçməsinə imkan vermədi. Bununla o, Fransanın öz qüvvələrini bərpa etmək üçün böyük kömək göstərmiş oldu.

1875-ci il hadisələri Bismarkı inandırdı ki, Rus diplomatiyası Fransaya qarşı alman təcavüzkarlığının başlıca düşmənidir. Rusiyaya nifrət buradan irəli gəlirdi.

## Şərq böhranı və Berlin traktatı

Türkiyə xroniki nasazlıqdan əziyyət çəkirdi. Türkiyə sultanı Əbdül Əziz xəstə idi. Osmanlı imperiyası dağılırdı. Dövlət xəzinəsi boş idi. İllərlə mə'murların, ordunun əmək haqları verilmirdi. 1867 və 1872-ci illərdə Sultan tərəfindən verilmiş fərmanlara əsasən Misirin tam müstəqilliyi tə'min edilmişdi. Başqa vilayətlərdə də paşalar özlərini monarx, hakimi mütləq kimi aparırdılar. Belə şəraitdə imperiyaya daxil olan xristianların vəziyyəti də acınacaqlı idi.

1875-ci ilin yayında Hersoqovinada və sonra da Bosniyada Türkiyəyə qarşı xristian əhalisinin üsyanı başladı.

cənub slavyanların milli birləşməsini başa çatdırmağı öz qarşılarına məqsəd qoymuş üsyançılar Serbiya və Çernoqoriyada da qızğın rəğbətlə qarşılandılar.

Avropa dövlətləri, Rusiya Osmanlı imperiyasında gedən prosesləri diqqətlə izləyirdilər. Beləliklə, 1875-ci il fransız-alman hərbi həyəcanı sönən kimi Yaxın Şərq

böhranı kəskinləşməyə başladı. Bu böhran 1875-ci ildən 1878-ci llədək davam etdi.

Sankt-Peterburq Avstriya-Macarıstan hökumətinin özünü necə aparacağına xüsusi diqqət verirdi. Avstriya-Macarıstan slavyanları, Rusiyanın tə'sirindən çıxarıb özünün tə'siri altına salmaq üçün, Belqradla Buxarest arasında 1874-cü ilin axırlarında ticarət sazişi imzalanmasına nail oldu. Bu çarı və Qorçakovu şübhəyə salmaya bilməzdi. Rusiya agentləri Dunay çayının cənub sahillərində öz fəallıqlarını gücləndirməyə başladılar.

Doğrudur, serb milli hərəkatı əsasən Türkiyəyə qarşı çevrilmişdi. Lakin o, Avstriya-Macarıstan üçün də təhlükə törədirdi. Çünki Avstriya-Macarıstanda da milyonlarla slavyanlar yaşayırdı. Türkiyə imperiyasındakı slavyanların azad olmaları, Avstriya-Macarıstan slavyanlarının da azad olmaları ilə qurtara bilərdi.

Məhz buna görə də Avstriya-Macarıstan Osmanlı imperiyasının bütövlüyünün saxlanması tərəfdarı idi.

Herseqovina üsyanı başlananda Andraşi bildirmişdi ki, bu Türkiyənin daxili işidi. O, Türkiyənin üsyanı yatırmasına üstünlük verirdi.

Britaniya da Şərq siyasətində Türkiyəni müdafiə edirdi və bu siyasətdə Rusiyanın müvəffəqiyyət qazanmasını istəmirdi. Həm də bu dövrdə Orta Asiyada da hər iki dövlətin mənafeləri ciddi toqquşurdu.

Fransa isə Şərq böhranının müharibə ilə nəticələnməsini istəmirdi. O, ehtiyat edirdi ki, Rusiyanın müharibəyə cəlb edilməsi Almaniyanın əl-qolunun açılmasına səbəb olar. Bu isə Fransa üçün çox təhlükəli idi.



Rusiyanın Yaxın Şərq siyasətində başlıca yeri boğazlar məsələsi tuturdu. Rusiyanın cənub sərhədlərinin təhlükəsizliyi üçün Bosfor və Dardanel çox mühüm əhəmiyyət kəsb edirdi. Bir tərəfdən Rusiyanın cənub ticarət yolları məhz bu boğazlardan keçirdi, digər tərəfdən xarici donanma bu boğazlar vasitəsi ilə Rusiyanın cənub sahillərinə keçə bilərdilər. 1853-1856-cı illərdə Krım müharibəsi dövründə məhz belə olmuşdu. Buna iki yolla mane olmaq olardı: 1) Boğazları tutmaq; 2) Osmanlı imperiyası ilə danışıqlar aparmaq yolu ilə.

Balkanlarda üstün tə'sirə malik olmaq bu və ya digər səviyyədə boğazların Avropa sahillərində strateji ağalığı tə'min edər, onu nəzarət altında saxlamaq imkanı verərdi. Buna görə də Rusiya Avstriya-Macarıstanın, Almaniyanın balkanlarda ağalığına heç vəchlə razı ola bilməzdi.

Avstriya-Macarıstanı başqa məsələ də maraqlandırırdı. Onun əsas məqsədi balkanlarda milli-azadlıq hərəkatının qarşısını almaq, getdikcə daha çox əhəmiyyət kəsb edən Balkan bazarını Avstriya sənayesinin ixtiyarına vermək idi.

Avstriya-Macarıstanda hakim qüvvələr arasında da Balkan siyasətində müxtəlif fikirlər var idi. Slavyanların azad olmalarına və Rusiya tə'sirinin balkanlarda güclənməsinə qarşı mübarizə aparan macar dvoryanları o qədər də balkan vilayətlərinin Avstriya-Macarıstana birləşdirilməsinə cəhd etmirdilər. Onlar Habsburqlar monarxiyasında slavyanların güclənməsini istəmirdilər. Onların başlıca istəyi milli-azadlıq hərəkatını söndürmək idi.

Avstriya burjuaziyasına gəldikdə isə o, balkanların işğal edilməsi tərəfdarı idi. Burjuaziya fikirləşirdi ki,

balkanların qərb hissəsindəki cənub slavyan əyalətləri Avstriya-Macarıstana birləşdirilsin və sonra Bosniya və Herseqovinanın işğalına başlanılsın. Beləliklə, Avstriya və Macarıstanla yanaşı, bu vilayətlər üçüncü hissə kimi monarxiyanın tərkibinə daxil olsun. Avstriya-Macarıstan slavyan torpaqlarının ona birləşdirilməsi nəticəsində ikitərəfli dövlətdən üçtərəfli dövlətə çevrilsin.

Bu proqramın tərəfdarları macar və alman burjuaziyasından fərqli olaraq Balkan yarımadasının şərq hissəsinin Rusiyaya verilməsinə razı idilər. Avstriya-Macarıstanın hərbi, klerikal və feodal dairələri bu nöqteyi-nəzərin tərəfdarları idilər.

İmperator Frans-İosif də İtaliyada və Almaniyada itirdiklərinin əvəzini nə iləsə ödəməyi çox istəyirdi. Buna görə o da bu fikrə meyl göstərirdi. 1875-ci ilin yazında Frans-İosif Dalmasiyaya səfər etdi. Onlar İmperatoru xristianların xilaskarı kimi təbrik etdilər.

Ruslar isə üsyan etmiş slavyanlara kömək göstərməyi zəruri sayırdılar. Bununla yanaşı, Rusiya hökuməti Avstriya-Macarıstanla ciddi ixtilaf yaratmaq istəmirdi. Bir tərəfdən slavyanlar arasında Rusiyanın nüfuzunu saxlamaq, digər tərəfdən Avstriya-Macarıstanla aranı vurmaq istəməyən Qorçakov Avstriya-Macarıstanla əlaqəyə girməklə Balkan məsələlərini həll etmək istəyirdi. Bu üç imperatorun sazişi prinsiplərinə də uyğun idi.

1875-ci ilin avqustunda Qorçakov Vyanada slavyanlar məsələsi ilə birlikdə məşğul olmaq barədə bə'yanat verdi. O, belə bir fikir irəli sürdü ki, Rumıniyaya olduğu kimi üsyan etmiş əyalətlərə də muxtariyyat verilsin. Lakin yeni bir cənubi-slavyan knyazlığının yaradılması Avstriya-Macarıstanın ürəyindən deyildi.



Yeni dövlət yaratmaq Serbiya və Herseqovina ilə daha sıx əlaqələr yaratmaq demək idi. Bu isə Avstriya-Macarıstan üçün sərfəli deyildi. Bu böyük Serb dövlətinin yaranmasına gətirib çıxara bilərdi. Buna baxmayaraq Avstriya birlikdə çıxış etməyə razılıq verdi.

Andraşi slavyanlar məsələsini tək Rusiyanın əlinə vermək istəmirdi. Bununla bərabər bu və ya başqa səviyyədə üsyançıları şirnikdirmək istiqamətində tədbir görməyi, bununla serblərin onların işlərinə qarışması təhlükəsi olması barədə onları xəbərdar etməyin zəruri olduğunu vacib sayırdı. Lakin ən cüz'i tədbirlərlə kifayətlənmək məqsədində idi.

Andraşi 1875-ci il dekabrın 30-da 1856-cı ildə Paris traktatını imzalayan dövlətlərin səfirlərinə nota verdi. Həmin notada Bosniya və herseqovinada islahat layihəsi şərh edilirdi. Notada bu layihənin həm Osmanlı imperiyası, həm də üsyançılar tərəfindən qəbul olunmasına nail olmaq üçün birlikdə hərəkət etmək irəli sürülürdü. Bütün dövlətlər Andraşinin təklifləri ilə razı olduqlarını bildirdilər.

1876-cı il yanvarın 31-də Andraşinin layihəsi ayrıca nota formasında Paris traktatını imzalamış bütün dövlətlərin səfirləri adından Türkiyəyə verildi. Türkiyə dövlətlərin "məsləhətini" qəbul etdi, Andraşinin notasında təklif olunan islahatı həyata keçirməyə razı olduğunu bildirdi. Lakin üsyançıların rəhbərləri həmin layihənin onlara düşmən xarakterini hiss edərək onu rədd etdilər. Onlar bildirdilər ki, Türkiyə qoşunları bu əyalətləri tərk etməyincə onlar silahı yerə qoymayacaqlar və bir sıra mühüm tələblər irəli sürdülər. Beləliklə, Andraşinin diplomatik sə'yi baş tutmadı.

Bundan sonra yenidən Rusiya diplomatiyası səhnəyə çıxdı. O, üsyançıların tələblərini müdafiə edirdi. Lakin bu tələblər Türkiyə tərəfindən rədd edildi. Onda Qorçakov Andraşi və Bismarka Berlində üç imperatorun görüşünün təşkil edilməsi təklifini irəli sürdü. Qorçakovun təklifi qəbul edildi. 1876-cı ilin mayında bu görüş baş tutdu. Onların bu görüşü baş vəzir Mahmud Nedim paşanın istefası ilə bir vaxta düşdü. O, daha çox Rusiyaya meyl edirdi. Onun istefası Türkiyənin İngiltərə tərəfə əyilməsi demək idi. Bu Rusiyanın Türkiyə siyasətində dəyişiklik edilməsinə səbəb olmaya bilməzdi.

Qorçakovun Şərq məsələsinin həllinə dair Berlinə gətirdiyi plan əsaslı surətdə Andraşinin planından fərqli idi. Qorçakov indi islahat yox, Balkan yarımadasındakı Slavyan vilayətləri üçün muxtariyyət tələb edirdi. O, belə idarə üsulunu yaratmaq üçün Rusiya və Avstriya - Macarıstana mandat veriliməsini irəli sürürdü.

Qorçakovun layihəsi Andraşi üçün qeyri-məqbul idi. O, heç ağlına gətirə bilməzdi ki, slavyanların azad edilməsi müvəfəqiyyət qazansın, Balkanların bir hissəsində Rusiyanın tə'siri qələbə çalsın.

Andraşi Qorçakovun planını puça çıxarmağı qərara aldı. O, açıqdan-açığa onu rədd etmədi. Lakin o qədər əlavə və düzəlişlər etdi ki, bu da layihənin əvvəlki xarakterini tamam itirdi. Bu yeni layihə Andraşinin genişləndirilmiş 1875-ci il 30 dekabr tarixli notasına çevrildi. 1876-cı il mayın 13-də «Berlin memorandumu» adında üç dövlət tərəfindən qəbul edildi. Həmin memorandumda aşağıdakılar irəli sürülürdü. 1) Dağıdılmış evlərin bərpa edilməsi, var-yoxdan çıxarılmış kəndlilərə mal, ərzaq, kənd təsərrüfatı alətləri verilməsi, habelə



onların vergilərdən azad edilməsi: 2) veriləcək köməyi bölmək üçün Hersoqovina və Bosniyada xristianlardan komissiya yaradılması; 3) Türkiyə qoşunlarının çıxarılması; 4) islahatın tam həyata keçirilməsinə qədər xristianların silahlı qalmaları və nəhayət, 5) böyük dövlətlərin səfirlərinə islahatın həyata keçirilməsinə nəzarət etmək hüququ verilməsi.

Memorandumda göstərilirdi ki, əgər onda göstərilənlər lazımi nəticə verməzsə, onda üç imperator sarayı "bəlanın gələcək inkişafının qarşısını almaq üçün tə'sirli tədbirlər" haqqında razılığa gəlməlidirlər.

Berlin memorandumu mayın 13-də üç dövlət tərəfindən qəbul edildi. Ertəsi gün ingilis, fransız, italyan səfirləri alman kanslerinin yanına də'vət olundular. Onlar Andraşi və Qorçakovun da burada olduqlarını gördülər. Bu müşavirədə Rusiya kansleri bə'yan etdi ki, Türkiyə və'd etdiyi islahatı həyata keçirmədi. Üç imperatorun məqsədi ondan ibarətdir ki, Osmanlı imperiyasının bütövlüyü saxlanılmaqla, xristianların vəziyyətinin yüngülləşdirilməsinə nail olunsun.

Fransa və İtaliya üç imperatorun proqramı ilə razı olduqlarını bildirdilər. Dizarelinin (XİN) şəxsində İngiltərə hökuməti Türkiyənin daxili işlərinə yenidən qarışmaq əlehinə olduğunu dedi. İngiltərə hökuməti Rusiyanın nə boğazlarda görünməsini, nə də balkanlarda onun tə'sirinin güclənməsini istəmirdi. Britaniya rəhbərliyi üçün balkanlar İstanbulu təhlükədə saxlamaq üçün plasdarm idi.

Məhz bu dövrdə Dizraeli Hindistanda İngiltərə ağalığının genişləndirilməsi və möhkəmləndirilməsi üçün bir sıra tədbirlər hazırlayırdı. İngiltərə artıq Helatı özünə tabe etmişdi. Əfqanıstana sahib olmaq üzərində düşü-

nürdü. O artıq Suveyş kanalına sahiblənməklə Aralıq dənizinin Şərq hissəsində ingilis ağalığına nail olmaq planına girişmişdi. Suveyş kanalının 1869-cu ildə açılmasından sonra Böyük Britaniyanın əsas kommunikasiya xətləri Aralıq dənizindən keçirdi. Boğazların rusların əlinə keçməsi və ya rus-türk ittifaqının olması rus hərb gəmilərinin Aralıq dənizində görünməsinə gətirib çıxara bilərdi. Buna görə də İngiltərə təkcə Misiri deyil, həm də Türkiyəni öz nəzarəti altında görmək istəyirdi. Bundan əlavə, Balkan uğrunda ixtilaf baş verdiyi halda İngiltərə Türkiyəyə və Avstriya-Macarıstana bel bağlaya bilərdi. Buna görə İngiltərə üçün Orta Asiyada yox, Yaxın Şərqdə Rusiya ilə mübarizə aparmaq daha vacib idi. Hər iki dövlət həm Rusiya, həm də İngiltərə İstanbulda üstünlüyə nail olmağa çalışırdılar. Buna görə də hər vasitə ilə bir-birilərinə mane olmağa çalışırdılar.

Elə bu vaxt yeni hadisələr baş verdi. Berlin memorandumunun meydana gəlməsi ilə eyni vaxtda türklər Bolqarıstan üsyanını yatırdılar. İngiltərə xarici işlər naziri Dizraeli Türkiyənin üsyançılara qarşı həyata keçirmiş olduğu tədbirləri hər vasitə ilə ört-basdır etməyə çalışırdı. Türkiyəni daha da şirnikləndirmək üçün İngiltərə boğazlara donanma göndərdi. Donanma Dardanel boğazının yaxınlığında Bezins limanında lövbər saldı.

Aydın idi ki, İngiltərənin köməyinə arxalanan Türkiyə memorandumu rədd edəcək. Bunlara baxmayaraq Qorçakov onu Türkiyəyə vermək istəyirdi. Lakin Andraşi və Bismark onu bu fikirdən yayındırdılar.

Elə həmin dövrdə Serbiya və Çernoqoriya üsyançı slavyanlara silahlı kömək etməyə hazırlaşırdılar.



Rusiyanın və Avstriyanın Belqraddakı və Setindəki nümayəndələri onları bundan çəkindirdilər. Onlar diplomatik hərəkətlərə xüsusi əhəmiyyət verirdilər. Serblər belə inamda idilər ki, əgər Serbiya və Çernoqoriya müharibəyə başlasalar, ruslar onların Türkiyə tərəfindən darmadağın edilməsinə yol verməzlər.

1876-cı il iyunun 30-da knyaz Milan Türkiyəyə müharibə e'lan etdi. Serbiyada general Çernyayevin komandanlığı altında 4 min rus könüllüləri, o cümlədən çoxlu zabitlər var idi. General Çernyayev serb ordusunun komandanı tə'yin olunmuşdu. Bundan əlavə, Rusiya maliyyə yardımı da göstərir, üsyançıları şirnikdirirdi. Rusiya təhlükəli oyun oynayırdı, böyük dövlətlərlə müharibəyə risk edirdi. Lakin Rusiya buna nə maliyyə, nə də hərbi cəhətdən hazır idi. Bu dövrdə Rusiyada daxili vəziyyət də o qədər sabit deyildi. Ölkədə aqrar böhranı nəticəsində kəndlilərin böyük əksəriyyəti dilənçi vəziyyətinə düşmüşdü. Dvoryan-burjuaziya arasında liberalizm-əhval-ruhiyyəsi genişlənməkdə idi, konstitusiya tələbi daha tez-tez eşidilirdi. Ölkədə xalqçılıq hərəkatı genişlənirdi.

Belə şəraitdə çar hökuməti xarici siyasətdəki müvəffəqiyyətlərin köməkliyi ilə öz daxili vəziyyətini möhkəmləndirmək istəyirdi.

Serb-türk müharibəsi ümumi Avropa partlayışı təhlükəsini gücləndirdi. Əgər Türkiyə qalib gəlsə, Rusiyanın qarışması labüd idi. Onda Rusiyanın Avstriya-Macarıstanla ixtilafdan yan keçməsi çətin olardı. Əgər Serbiya qalib gələrdisə, onda Osmanlı imperiyasının dağılması ilə nəticələnə bilərdi. Belə şəraitdə Türkiyə irsinə sahiblənmək uğrunda böyük dövlətlərin toqquş-

masının qarşısını almaq yəqin ki, çətin olardı. 1876-cı ilin birinci yarısında Rusiya diplomatiyası heç də asan olmayan bu vəzifəni həll etməklə məşğul olmuşdu: Balkan slavyanlarına kömək göstərmək, eyni vaxtda Avstriya-Macarıstanla toqquşmamaq. Buna nail olmaq üçün ilk cəhd II Aleksandr və Qorçakovun Andraşi və Frans-İosiflə 1876-cı il iyulun 8-də Bohemiyada Reyxştat qəsrində görüşü oldu. Bu görüş zamanı heç bir rəsmi sənəd qəbul edilmədi. Lakin qərara alındı ki, hər iki tərəf hazırkı zamanda "qarışmamaq" prinsipinə əməl edəcəklər. Türkiyənin müvəffəqiyyət qazandığı halda hər iki dövlət Serbiyada Status-qvo-nun saxlanılmasını Türkiyədən tələb edəcəklər. Bosniya və Herseqovina qalib gəldikdə isə onlar Türkiyə hökumətindən Andraşinin islahatına və Berlin memorandumunda irəli sürülən təkliflərə əməl etməyi tələb edəcəklər. Həm də qərara gəlindi ki, əgər serblər qalib gələrlərsə, dövlətlər böyük slavyan dövlətinin yaradılmasına kömək göstərməyəcəklər. Lakin Qorçakovun tə'kidi nəticəsində Andraşi Serbiya və Çernoqoriyanın ərazilərinin bir qədər genişləndirilməsinə razılıq verdi. Serbiya köhnə Serbiyanın və Bosniyanın bir hissəsini, Çernoqoriya isə bütün Herseqovinanı və Adriatik dənizindəki limanları almalı idi. Bosniya və Hersoqovinanın qalan hissəsi Avstriya-Macarıstana keçməli idi.

Rusiya isə 1856-cı ildə ondan qoparılmış Bessarabiyanın qərb hissəsinin qaytarılması və Batuminin Rusiyaya birləşdirilməsi barədə Avstriyanın razılığına nail oldu.

Avropa Türkiyəsinin tamamilə dağılması şəraitində Rusiya versiyasına görə Bolqarıstan və Rumelidə



müstəqil knyazlıqlar təşkil edilməli, Avstriya versiyasına görə isə Osmanlı imperiyasında muxtar əyalətlər yaradılmalıdır. Avstriya versiyasına görə Albaniya da belə əyalət ola bilərdi. Rusiya versiyasına görə Epir, Fessoliya Yunanıstana verilməlidir. Nəhayət, İstanbul azad şəhər ola bilərdi. Beləliklə, Reyxştat razılaşması elə ilk gündən çox qeyri-müəyyənliyi və ixtilafları özündə əks etdirirdi.

Reyxştat sazişi alman kanslerinin narazılığına səbəb oldu. O, nə Rusiya-Avstriya arasında kəskin ixtilafların olmasını. Nə də onların hədsiz yaxınlaşmasını istəyirdi.

1876-cı ildə Serblər bir neçə dəfə məğlubiyyətə uğradıqdan sonra Qorçakov Bismarka təklif etdi ki, serb-türk sülhünün şərtlərini hazırlamaq üçün beynəlxalq konfrans çağırılması təşəbbüsünü öz üzərinə götürsün. Lakin Bismark heç də istəmirdi ki, Rusiya müharibəsiz slavyanların himayədarı rolunu oynasın. Əksinə, o istəyirdi ki, Şərq işlərində Rusiya daha dərinlərə getsin. Buna görə də o, Qorçakovun təklifini rədd etdi. O, hər vasitə ilə çalışırdı ki, Rusiya ilə İngiltərə və Türkiyənin arası dəysin. Bununla Bismark 1875-ci ilin əvəzini Rusiyadan çıxmaq istəyirdi.

Lakin bu dövrdə mövcud şərait İngiltərənin özünü xarici siyasət xəttində bə'zi dəyişikliklər etməyə məcbur etdi. İngiltərədə də nəhayət türklərin Bolqarıstanda törətdikləri vəhşikliklər barədə ətraflı mə'lumat e'lan olundu. Qladston, bundan Dizraelə qarşı hücuma keçmək üçün silah kimi istifadə etdi. Mühafizəkar hökumətinə qarşı kompaniyaya başlamaq üçün bu dövr çox əlverişli idi. Belə ki, Krım müharibəsindən sonra Fransa kimi İngiltərə də Türkiyəyə iri həcmdə istiqraz

vermiş və bundan çoxlu qazanc əldə etmişdi. İstiqraz 5-6 faiz hesabı ilə (bundan əlavə 6-7 faiz bankirlərin xeyrinə) verilmişdi. Bu o dövr üçün orta səviyyədən çox yüksək idi. Bu, Türkiyəni tamam müflisləşdirdi. 1875-ci ilin oktyabrında Türkiyə dövləti müflis olduğunu bildirdi. Bunu ingilis kapitalistləri çox həyəcanla qarşıladılar və Dizraelidən Türkiyəyə təzyiq göstərməyi tələb etdilər. O isə Türkiyəni qoruyurdu. Türkiyə ona Rusiyaya qarşı lazım idi. Baş nazirin bu siyasəti kredit verənləri hədsiz dərəcədə qıcıqlandırırdı.

Mühafizəkar hökumətin belə çətin vəziyyətə düşməsi Rusiyanın ürəyindən idi. Rusiya diplomatiyasına Serbiyanı xilas etmək lazım idi. 1876-ci il avqustun 26-da Milan dövlətlərin Belqraddakı nümayəndələrinə müraciət edərək, onlardan vasitəçilik etməyi xahiş etdi. Bütün böyük dövlətlər buna razı olduqlarını bildirdilər. İstanbuldakı ingilis səfiri Türkiyə hökumətinə Serbiyaya bir aylıq barışıq verməyi və danışıqlara başlamağı təklif etdi. Türkiyə razı olduğunu bildirdi. Bununla yanaşı, o, çox ciddi şərtlər irəli sürdü. Onlar aşağıdakılar idi:

1) Serbiyada 1867-ci ilə qədər olan qayda bərpa olunacaq; 2) bu dövr ərzində knyazlıqda tikilmiş bütün qalalar söküləcək; 3) nə vaxtsa türklərin ixtiyarında olmuş qalalar ona qaytarılacaq; 5) Belqrad hökuməti təzminat verməlidir; 5) Serblər öz qoşunlarının sayını azaltmalıdır və s.

Bütün hökumətlər bu şərtlərin çox ağır olduğunu bildirdilər və belə qərara gəldilər ki, İngiltərə hökumətinə həvalə etsinlər ki, o yenidən Türkiyə hökumətinə müraciət etsin, şərtləri bir qədər yumşaltsın. Sentyabrın sonlarında O, Türkiyəyə proqram verdi. Həmin



proqramda altı həftəlik barışıq, Status-qvo-nu saxlamaq, Bosniyaya, Herseqovinaya, hətta Bolqarıstana da bə'zi inzibati muxtariyyat verilməsi nəzərdə tutulurdu. Lakin bu plan nə üsyançılar, nə də serblər tərəfindən rəqabətlə qarşılanmadı. Çünki burada onların mənafeləri üçün lazımi tə'minat (qarantiya) yox idi. Hərbi əməliyyatlar yenidən başladı.

Avqustun 31-də Türkiyədə yeni dövlət çevrilişi baş verdi. V Murad dəli e'lan edilib həbs olundu. Taxta onun kiçik qardaşı II Əbdül Həmid keçdi. Yeni Türkiyə hökuməti hərbi əməliyyatı dayandırmağa razılıq verdi, bu şərtlə ki, sülh müqaviləsinin şərtləri barədə aralıq sənəd qəbul edilsin. O həm də ağır şərtlər irəli sürdü. Lakin o rədd edildi. Türkiyə oktyabrın 3-dək hərbi əməliyyatı dayandırmalı oldu.

Dizraeli 1876-jı il sentyabrın 4-də Derbiyə məktub göndərdi. Həmin məktubda o Şərq böhranının gələjək inkişafına öz görüşlərini şərh edirdi. O, tezliklə saziş bağlanajağına şübhə etdiyini bildirir, onun yaza qədər, yəni Rusiya və Avstriya qoşunlarının Balkanlara yeridilənə qədər uzanacağını və bundan sonra Şərq məsələsinin həll olunacağını göstərirdi. O qeyd edirdi ki, əgər belədirsə, biz rəhbərliyi öz əlimizə almalıyıq. Dizraelinin fikrincə, Balkanların Rusiya və Avstriya arasında bölünməsi İngiltərənin dostluq xidməti ilə həyata keçirilməlidir. Onun planının son hissəsi çox maraqlı idi. İstanbul müəyyən ərazi ilə birlikdə bitərəfləşdirilməli, İngiltərənin himayəsi və müdafiəsi altında azad limana çevrilməlidir. Bu əslində Türkiyənin bölünməsi demək idi. Dizraelin 1876-cı il sentyabrın 23-də Derbiyə yazdığı məktubda əsas məqsəd İngiltərənin Şərqdə ağalığına

nail olmaq idi. O, gələcəkdə Qara dənizdə də hərbi bazalar yaratmaq fikrində idi.

Əfkar ümumiyyə üçün Derbi aşağıdakı planı irəli sürdü. Status-qvo əsasında Serbiya ilə sülh, Bosniyaya, Herseqovinaya, Bolqarıstana yerli muxtariyyat. Derbinin planı qalan beş dövlət tərəfindən qəbul edildi. Təkcə Avstriya-Macarıstan ona həvəssiz qoşuldu. O, muxtariyyatın tərəfdarı deyildi. Bu milli azad olmağa və Serbiyanın birləşməsinə bir addım idi. O, bu vilayətləri tutmaq fikrində idi. Rusiya isə buna çox həvəslə razı oldu. Bununla yanaşı, o İngiltərənin İstanbula sahiblənmək məqsədini başa düşdü. Qorçakov bütün böyük dövlətlərin birləşmiş donanmasının Mərmərə dənizinə göndərilməsi təklifi ilə çıxış etməyi qərara aldı. O, özünün bu planını 1876-cı il sentyabrın sonlarında, Avstriya imperatoruna məktub şəklində şərh etdi. Məktubun məzmunu başqa dövlətlərə də çatdırıldı. Qorçakov təklif edirdi ki, Türkiyənin üsyan etmiş əyalətlərinə muxtariyat verilsin, sultanı güzəştə getməyə məcbur etmək üçün Rusiya müvəqqəti olaraq Bolqarıstanı Avstriya-Macarıstan Bosniyanı işğal etsin, altı dövlətin donanması boğazlara daxil olsun.

Avstriya-Macarıstan hökuməti Rusiyanın təklifini rədd etdi. Frans-İosif 1877-ci il oktyabrın 3-də çara məktub göndərdi. O, muxtariyyat ideyasını qətiyyətlə rədd etdi. Onların müvəqqəti işğal edilməsinin də lüzumsuz olduğunu göstərdi. Bununla yanaşı o, Bosniya və Herseqovinanın həmişəlik Avstriya-Macarıstan tərəfindən tutulmasına işarə edirdi.

Oktyabrın 10-da II Aleksandr Frans-İosifə yeni məktubu imzaladı və Frans-İosifin təklifi ilə razı olduğunu bildirdi. Oktyabrın 23-də öz razılığı barədə



Frans-İosifin II Aleksandra cavab məktubunda Derbi proqramına Rusiyanın düzəlişi ilə, yəni boğazlara birgə hərbi donanma göndərmək barədə Rusiyanın təklifinə razı olduğunu bildirdi. Rusiyanın bu təklifi London tərəfindən e'tirazla qarşılandı. O, Dardanel və Bosforun kollektiv işğalı ideyasını rədd etdi.

Bunlardan istifadə edərək Türkiyə barışıq bağlamağı uzadırdı. Az fasilədən sonra oktyabrın sonlarında hərbi əməliyyat təzələndi. Serbiyanın vəziyyəti çox faciəli idi.

Peterburq tərəddüd edirdi. O öz-özünə sual verirdi: Rusiya müstəqil hərəkət etmək yolunu tutmalıdırmı? O, buna baha başa gəlməzmi? Qərar qəbul etməzdən əvvəl Qorçakov Almaniyanın mövqeyini müəyyən etməyə cəhd göstərdi. Bismark özü buna bəhanə verdi.

Herseqovina üsyanı Almaniyanın diplomatik vəziyyəti üçün ən ağır dövrə təsadüf etdi. 1875-ci ilin hərbi həyəcanlı günlərində Bismark Qorçakov, Dekaz və Dizraeli tərəfindən rədd edilmişdi. Şərq məsələsinin kəskinləşməsi Almaniya hökuməti üçün lap yerinə düşmüşdü. Şərqdə vəziyyətin mürəkkəbləşməsi Rusiyanın İngiltərə ilə aralarını vurdu, nəticədə Fransanı müttəfiqlərdən məhrum etdi. Beləliklə, Fransa təkləndi. Buna görə də Bismark Yaxın Şərqi əhatə etmiş alovun qızışdırılmasında maraqlı idi.

Şərq böhranı Bismark üçün bə'zi təhlükə də yaradırdı. O Avstriya-Rusiya müharibəsinin mümkünlüyü idi. Alman diplomatiyasının rəhbəri Rusiya-Türkiyədən daha çox, İngiltərə-Rusiya müharibəsinin olmasını istəyirdi. Lakin o, üç imperatorun ittifaqının pozulmasından ehtiyat edirdi və çox çətin vəziyyətdə

qalmışdı: Rusiyanın tərəfini saxlamaq, yaxud bitərəf mövqe tutmağı Bismark mümkün hesab etmirdi. Belə şəraitdə ən zəif tərəf kimi Avstriya-Macarıstan ya tam məğlub ediləcək, ya da Rusiya qarşısında təslim olacaq. Bu, hər iki halda Rusiyanın güclənməsi demək idi. Bunu isə Bismark çox təhlükəli hesab edirdi. Digər tərəfdən də o, Rusiyaya qarşı Avstriya-Macarıstanın tərəfini saxlamaq, ixtilafa qoşulmaq istəmirdi. O möhkəm inanırdı ki, rus-alman müharibəsi Fransanın qarışması ilə vəziyyəti mürəkkəbləşdirər və Almaniya iki cəbhədə müharibə aparmalı olar.

Mə'lum olduğu kimi, avqustda Bismark Avropa konfransı çağırmaq haqqında Qorçakovun layihəsini rədd etmişdi. Buna görə də Rusiyanın ürəyində qalan bu ləkəni silmək üçün Bismark feldmarşal Manteyfeli imperatorun xüsusi nümayəndəsi kimi Rusiyaya göndərdi. Ona tapşırıldı ki, manevrlərə Varşavaya gələn çarı təbrik etsin. 1876-cı il sentyabrın 3-də Manteyfel Vilhelmin məktubunu çara təqdim etdi. Kayzer yazırdı ki, o 1864-1871-ci illərdə Rusiyanın Almaniyaya göstərdiyi xidmətləri xatırlayır və Rusiyaya qarşı əvvəlki münasibətləri davam etdirəcəkdi.

Tezliklə mə'lum oldu ki, Bismark Manteyfeli göndərməkdə tələsibdi. cavab məktubunda Aleksandr xəbərdarlıq edirdi ki, Şərq siyasəti məsələsində dövlətlərin razılaşmalarını müdafiə etmək arzusunda olmasına baxmayaraq, o, xüsusi və separat mövqe tutmağa məcbur ola bilər. Belə şəraitdə çar bilmək istəyirdi, o Almaniyanın köməyinə inana bilərmi? Çar və Qorçakov buna ümid bəsləyirdilər. Lakin bu onların səhvi idi.



Çarın hər cür ciddi-cəhdlərinə baxmayaraq, Almaniya hökuməti heç nə cavab vermədi. Sentyabrın ortalarında Berlindəki rus səfiri II Aleksandrın məktubunu yada saldı. Səfir rus hökumətinin Derbinin proqramı ilə razı olduğunu bildirdi. Bununla yanaşı, səfir onun həyata keçirilməsini təşkil etməyin zəruri olduğunu əlavə etdi.

Bismark yenə də cavab verməkdən yayınırdı. Nəhayət II Aleksandr gözləməkdən yoruldu. Adi diplomatik kanallardan yan keçərək o, Almaniyanın Peterburqdakı hərbi attaşesi general Verderə müraciət etdi. Çar xahiş etdi ki, onun sualına cavab verməyi sürətləndirsin. Almaniya Avstriya-Rusiya müharibəsi olacağı halda 1870-ci il Almaniya-Fransa müharibəsi zamanı Rusiyanın durduğu mövqedə duracaqmı?

Daha susmaq mümkün deyildi. 1876-cı il oktyabrın 23-də cavab Rusiya hökumətinə verildi. Həmin məktubda deyilirdi: «Üç imperatorun dostluq münasibətlərini nəzərə alaraq biz Avstriya-Macarıstanı inandırmağa cəhd göstərdik ki, o rus-türk müharibəsi baş verdiyi şəraitdə Rusiya ilə sülhü saxlasın. Bu cəhd ümidsiz deyil, ona görə ki, Avstriyanın məqsədləri mə'lumdur. Əgər onlar müvəffəqiyyət qazanmasa, əgər bizim hər cür ciddi-cəhdlərimizə baxmayaraq, biz Avstriya və Rusiya arasında əlaqələrin pozulmasının qarşısını ala bilməsək, onda Almaniyanın bitərəflikdən çıxmağa heç bir əsası ola bilməz. Lakin əvvəlcədən heç də təsdiq etmək olmaz ki, bu müharibə, əgər onda İtaliya və Fransa iştirak edərlərsə, elə bir halla nəticələnə bilər ki, bizi öz xüsusi mənafelərimizi müdafiə etməyə məcbur edər. Əgər bütün qalan Avropa qarşısında tale Rusiya silahının üzünə gülməzsə,

lusiyanın qüdrəti ciddi və uzun müddətə tərəddüdə alarsa, bu heç də bizim mənafeyimizə cavab verə ilməz. Əgər Avstriya monarxiyası üçün, Avropa dövləti imi onun maraqlarına, onun müstəqilliyinə təhlükə aranarsa, onlar həm də Almaniyanın maraqlarına köklü urətdə toxunacaq. Bu Avropada tarazlığın əsaslandığı millərdən birinin yox olmasına gətirib çıxarar». Əslində u cavab o demək idi ki, Bismark Rusiyanın Avstriya-Macarıstanı tar-mar etməsinə imkan verməz.

Almaniyanın səfiri Şveynis Peterburqa yollan-namışdan əvvəl onunla təlimatı söhbətində Bismark bil-irmişdi ki, o, yalnız bir şərtlə Avstriya-Macarıstanı urban verməyə hazır idi: Rusiya Elzas-Lotaringiyaya lmaniyanın sahiblənməsinə razılıq versin. Lakin buna ismarkın inamı yox idi.

Şveynis Qorçakova Bismarkın cavabının birinci issəsini ətraflı şərh etdi. Qorçakov cavabında dedi: Biz sizdən çox şey gözləyirdik, siz isə bizim çoxdan ildiyimizi bizə çatdırdınız». Sonrakı söhbətdə Şveynis lzas-Lotaringiya məsələsinə toxundu. Qorçakov bunu ətiyyətlə rədd etdi.

Bu diplomatik danışıqların gedişində artıq üvvələrin düzülüşü özünü büruzə verməkdə idi. Bir ərəfdə Rusiya-Fransa, digər tərəfdə Almaniya-Avstriya-Macarıstan. Lakin 1876-cı ildə bu qüvvələr müqavilələr əviyyəsində hələ formalaşmamışdı.

Verder vasitəsilə Rusiyanın etdiyi sorğudan nə'lum oldu ki, Avstriya ilə müharibə Almaniya ilə nüharibə demək olardı. Beləliklə, Türkiyə ilə müharibə, vstriyanın bitərəfliyinin tə'min edilməsi şəraitində nümkün ola bilərdi.



Avstriya-Rusiya sazişi Avstriya üçün də məqbul idi. İş onda idi ki, Avstriya-Macarıstan hökumətinin xüsusi nümayəndəsi baron Myunx Verderin onun qarşısında hansı məsələni qoyduğu barədə sual verməmişdi. Myunx Bismarka göstərmişdi ki, onun hökumətinin fikrincə Bolqarıstanın rus qoşunları tərəfindən tutulması çox təhlükəlidi. Kansler cavab vermişdi ki, burda heç bir təhlükə görmür, ona məsləhət gördü ki, belə hal baş verərsə, Avstriya Rusiyaya qarşı durmaq istəyirsə, qoy onda İngiltərə ilə razılığa gəlsin. Bismark onu başa saldı ki, Avstriya Almaniyadan ümid gözləyə bilməz. Baxmayaraq ki, Bismark Rusiya tərəfindən Avstriya-Macarıstanın darmadağın edilməsinə yol verə bilməzdi. O, balkanlar uğrunda Rusiya ilə müharibəyə girməyin əleyhinə idi. Avstriya-Rusiya müharibəsinin baş verməsinə imkan verməməyə çalışan Bismark Rusiyanın Türkiyəyə qarşı müharibə başlamasına mane olmaq fikrində deyildi. Əksinə o, bu müharibənin qızışdırılması tərəfdarı idi. Bu, Rusiyanın Yaxın Şərq məsələlərinə daha dərindən qarışmasına və onun İngiltərə ilə münasibətlərinin daha da kəskinləşməsinə səbəb olardı.

## İstanbul konfransı

1876-cı il avqustun 31-də II Əbdül Həmid Türkiyə taxtına əyləşdi. O, Serbiya barəsində öz ağır şərtlərinə təkid edirdi. Balkanlarda sülhün şərtləri haqqında razılığa gələ bilməyən dövlətlər oktyabrın 5-də Türkiyəni diplomatik əlaqələri kəsəcəkləri barədə hədələyərək tezliklə Serbiya ilə barışıq bağlamağı ondan tələb etdilər. Avropa dövlətlərinin bu tələbinə qarşı Türkiyə

hökuməti orijinal və incə manevrlərlə cavab verdi. Oktyabrın 10-da Türkiyə Serbiya ilə barışıq e'lan etməyə razı olduğunu bildirdi. Bu 6 ay çəkməli idi. Xarici görünüşcə bu sülhpərvər addım idi, lakin o, sülh bağlanmasının müddətini xeyli uzadırdı. Avropa diplomatları düzgün olaraq ehtimal edirdilər ki, Türkiyə danışıqların müddətini uzatmaqla onun üçün əlverişli şərait yaranacağına ümid bəsləyirdi. Onda Türkiyə yenidən müharibəni bərpa edə bilərdi. Belə sonluq Avstriya-Macarıstanın, ingilislərin ürəyindən idi. Fransa da buna meyl edirdi. Beləliklə, onlar Türkiyənin serbləri tamamilə əldən salmasına tərəfdar idilər.

Rusiya Serbiyaya məsləhət gördü ki, Türkiyənin təklifini rədd etsin. İngiltərənin məsləhəti ilə Türkiyə müharibəni bərpa etdi. Rusiya oktyabrın 31-də Türkiyəyə ultimatum verərək 4 və 6 həftə müddətinə barışıq bağlamağı tələb etdi. cavab üçün 48 saat vaxt verildi. Əgər Türkiyə cavab verməsə, Rusiya Türkiyə ilə diplomatik əlaqələrini kəsəcəyini bildirdi. Eyni vaxtda Rusiya əlavə səfərbərlik e'lan etdi. Qorxuya düşən Türkiyə onun tələbini qəbul etməli oldu.

Bu müvəffəqiyyətdən sonra Rusiya diplomatiyası balkan məsələsini sülh yolu ilə həll etmək üçün başqa bir cəhd etdi. Oktyabrın sonlarında Livadiyada (Krımda) ingilis səfiri Lord Loftus, Qorçakov və çarın görüşü zamanı beynəlxalq konfransın çağırılması ideyası irəli sürüldü. Əgər bu baş tutmasa, Rusiya sərbəst hərəkət etmək hüququnu özündə saxlayır. Bununla belə, çar söz verdi ki, o, İstanbulu tutmaq fikrində deyil. Paris traktatının digər iştirakçı dövlətləri də konfransın çağırılmasına e'tiraz etmədilər. Konfrans İstanbulda çağırılmalı idi.



Burada bir faktı xatırlamaq yerinə düşər.

Konfransın çağırılması barədə razılıq əldə edilməsinə baxmayaraq, noyabrın 9-da London merinin yanında toplanmış ən'ənəvi banketdə Bikonsvild Rusiyanı müharibə ilə hədələdi. Ona cavab olaraq II Aleksandr noyabrın 11-də Moskvada açıq çıxış etdi. O dedi ki, Rusiya sülh istəyir. Lakin əgər Türkiyə tələb olunan islahatı həyata keçirməzsə, Rusiya müstəqil hərəkət edəcək və inanır ki, bütün Rusiya onu müdafiə edəcək. Bu çıxış qarşıdakı konfransda Rusiyanın mövqeyinin möhkəmlənməsinə səbəb olmaya bilməzdi. Bu dövrdə Rusiyanın hakim dairələrində müharibə tərəfdarlarının tə'ciri xeyli güclənmişdi. Bu çıxışdan sonra Rusiyada kiçik hərbi səfərbərlik e'lan edildi.

İngiltərə də hərbi hazırlığa başladı. Maltada ingilis qoşunlarının toplanması hiss olunurdu. Oktyabrın 29-da İngiltərənin hərbi nazirliyi Frakiyada Türkiyənin müdafiə qabiliyyətini və İstanbula ingilis hərbi qüvvələrinin göndərilməsi imkanlarını öyrənmək üçün ingilis zabitlərini göndərdi. Bu səfərin nəticəsində polkovnik Xoll Dardanelin hər iki - Avropa və Asiya hissəsinin İngiltərə tərəfindən həmişəlik tutulmasına tə'minat verən təkliflərini təqdim etdi.

Bir neçə gün sonra çar İngiltərəni sakitləşdirməyə doğru bir neçə addım atdı. O, İngiltərəni inandırmağa çalışdı ki, onun məqsədi yalnız xristianların dərdini yüngülləşdirməkdir. Əlbəttə, Bikonsvild bu və'dlərə bel bağlaya bilməzdi və onları boş sözlər hesab edirdi. Buna görə də o, hər vasitə ilə Almaniyanı öz tərəfinə çəkməyə çalışırdı. İstanbul konfransında İngiltərənin nümayəndəsi tə'yin edilmiş lord Solsberiyə tapşırdı ki, o, Türkiyəyə getməmişdən əvvəl Berlinə getsin. O,

Türkiyəyə islahatı həyata keçirmək üçün əlavə vaxt verilməsinin zəruri olduğuna Bismarkı inandırmalı idi. Əgər Türkiyəyə qarşı tədbir görmək vacib olardısa, bunu təkcə Rusiya yox, Avropa dövlətləri kollektiv surətdə həll etməlidirlər. Lakin Bismark cavab verdi ki, çar tərəfindən Bolqarıstanın işğal edilməsi tam qanunudur. Bir neçə gün sonra noyabrın 30-da Vilhelm açıqcasına bildirdi ki, onu Şərq böhranı qətiyyən maraqlandırmır. O, Rusiya və Avstriya-Macarıstanla dostluğun saxlanılmasını yüksək qiymətləndirir.

Solsberi əliboş İstanbula gəldi. Dekabrın ilk günlərində konfrans öz işinə başlamalı idi.

Rusiya qraf İqnatyevi konfransa öz nümayəndəsi tə'yin etdi.

Solsberi İstanbula gələn kimi İqnatyevlə əlaqəyə girdi. Konfransda Almaniyanı baron fon Verder, Avstriya-Macarıstanı qraf Ziçi və baron fon Kolis, Fransanı-baron de Burqozi və qraf de Şodordi, İtaliyanı qraf Korti təmsil edirdilər.

Dekabrın 11-də ilk danışıqlar başlandı. İlk başlanğıcda belə bir sual ortalığa çıxdı, Türkiyə konfransa buraxılacaqmı? İngiltərə buna müsbət, Rusiya isə mənfi cavab verdi. Orta qərar qəbul edildi. Altı dövlət qərara aldılar ki, əvvəlcə Türkiyəyə veriləcək proqram barədə razılıq əldə edilsin, sonra isə sultanının naziri onların nümayəndələri ilə həmin proqramı müzakirə etsinlər. İngiltərə və Rusiya arasında daim davam edən fikir ayrılığı nəticəsində bu proqramın hazırlanmasına bir neçə həftə vaxt getdi. Böyük dövlətlərin nümayəndələri Bosniyaya, Herseqovinaya və Bolqarıstana Osmanlı imperiyasının muxtar əyalətləri statusu verilməsinin zəruriliyi haqqında razılığa gəldilər.



Bununla yanaşı Bolqarıstan avstriya-Macarıstanın istəyinə uyğun olaraq iki - Şərq və Qərb hissəsinə parçalandı. Rusiya Bolqarıstanı, Avstriya-Macarıstan isə Bosniya və Herseqovinanı işğal etməkdən imtina etdilər. Bunların həyata keçirilməsinə nəzarət etmək üçün Avropa Komissiyası yaradılmalı idi. Bu komissiya böyük dövlətlər tərəfindən tə'yin edilirdi. həmin proqram barədə Türkiyə hökumətinə bildirildi və dekabrın 23-də konfrans tam tərkibdə toplandı.

Bu müddət ərzində İngiltərənin səfiri Elliotun məsləhəti ilə sultan heyrətə gətirici manevr hazırlayırdı. O, əvvəlcə konstitusiyalı hakimiyyət tərəfdarı olan "gənc türklərin"lideri Midhət paşanı böyük vəzir tə'yin etdi. Konfransın iclasının getdiyi anda dəhşətli yaylım artilleriya atəşisinin səsi eşidildi. Nümayəndələr bu səsdən özlərinə gəlməmiş Türkiyənin Xarici İşlər Naziri Saffet paşa öz kreslosundan ayağa qalxdı və təntənəli surətdə e'lan etdi ki, bu gün böyük akt həyata keçirildi. 600 il davam edən idarə forması dəyişdirildi. Konstitusiya e'lan olundu, əlahəzrət sultan öz imperiyasını şərəfləndirdi. "Bu mühüm hadisə şərəfinə yaylım atəşi açıldı." Türkiyədə konstitusiya idarə üsulu e'lan olunduğuna görə Saffet paşa tərəfindən konfransın lazım olmadığı e'lan olundu. Çünki sultan konstitusiya e'lan etməklə, o zəruri hüquq və islahatları hamıya bəxş edirdi. Məhz buna əsaslanaraq, Türkiyə konfransın qərarlarını rədd etdi.

Konfrans iştirakçıları belə bir sual qarşısında qalmışdılar: nə etməli? Rusiya nümayəndəsi təklif etdi ki, Türkiyəni iştirakçı dövlətlərin qərarını qəbul etməyə məcbur etmək. Solsberi də şəxsən bu fikirdə idi. Lakin o

Londondan göstəriş aldı ki, Türkiyəyə hər cür təzyiq rədd edilməlidir.

Fransanın mövqeyi bütün iştirakçıların mövqeyindən fərqlənirdi. Fransa bu konfransda iki məqsəd güdürdü. Birincisi, hər vasitə ilə müharibə baş verməsinə imkan verməmək, ikincisi, İngiltərə və Rusiyanın barışmasına, bu mümkün olmasa, onlar arasında mövcud olan ziddiyyətlərin yumşaldılmasına nail olmaq. Fransanın bu mövqeyi heç də Rusiyanı razı salmadı. Rusiyanın Xarici İşlər Nazirliyi Fransanın bu siyasətini onun tərəddüd keçirməsi kimi qiymətləndirdi. Fransa hökuməti bu fikirlə razılaşmayaraq, bildirdi ki, o, Rusiyanın 1875-ci ildə göstərdiyi xidməti heç vaxt unuda bilməz. Fransa üzdə İngiltərə ilə dostluq münasibətlərində olduğunu göstərməklə, onunla razılaşdırılmış məxrəcə gəlmək məqsədində idi.

Əslində Balkanlardakı münaqişəyə Fransanın heç bir marağı yox idi. Buna görə də o Avropa dövlətləri arasında sülhə və qarşılıqlı razılığa nail olmağa cəhd edirdi.

Bununla yanaşı, Fransa hökuməti noyabrın 19-da Fransanın İstanbuldakı nümayəndəliyinə göndərdiyi tə'limatda onun Rusiyanı müdafiə etməsi göstərilirdi. Fransa Rusiyanın bütün ərazi iddialarını müdafiə etməli, bununla Rusiya ilə dostluğa sadiq olduğunu sübut etməli idi.

Bismark Rusiyanı avanturaya çəkmək istəyirdi. O, Rusiyaya Türkiyə ilə müharibəyə başlamağı məsləhət görürdü. Hətta bə'zi güzəştlər də və'd edirdi.

1877-ci il yanvarın 15-də Budapeştdə gizli konvensiya imzalandı. Bu konvensiya Türkiyə ilə müharibədə Avstriya-Macarıstanın bitərəfliyini tə'min



etdi. Bunun əvəzində Avstriya-Macarıstana Bosniya və Herseqovinanı işğal etmək hüququ verilirdi. Bununla yanaşı, Avstriya-Macarıstan hərbi əməliyyatın Rumıniyaya, Serbiyaya, Bolqarıstana və Çernoqoriyaya yayılmayacağı barədə öhdəlik götürmüşdü. Rusiya da öz tərəfindən Bosniya, Herseqovina, Serbiya və Çernoqoriya barəsində belə öhdəlik götürmüşdü. Avstriya-Macarıstan Serbiya və Çernoqoriyanın Rusiya tərəfində müharibədə iştirak etməsinə razılıq vermişdi.

Əlavə konvensiya martın 18-də qəbul edildi. Lakin onlar tarixini 15 yanvardan, yəni birinci konvensiyanın qəbul edildiyi vaxtdan hesab etdilər. Orada qarşıdakı müharibənin nəticəsini gözləmək nəzərdə tutulurdu. Avropada ərazilərə yiyələnmək aşağıdakı qaydada məhdudlaşdırılırdı: Avstriya-Macarıstan üçün Bosniya və Herseqovina. Bura Serbiyanı Çernoqoriyadan ayıran Novo-bazar əyaləti daxil deyildi. Onun taleyi barədə ayrıca saziş bağlamaq nəzərdə tutulurdu. Rusiya üçün – cənubi-qərbi Bessarabiyanın qaytarılması.

Rusiya-Avstriya-Macarıstan arasında bağlanmış müqavilə Türkiyənin bölünməsi haqda müqavilə idi.

Müqavilədə Balkanlarda böyük slavyan dövlətinin yaradılmasına imkan verməmək haqqında Reyxştat müqaviləsinin şərtləri bir daha təsdiq edilirdi. Bolqarıstan, Rumelinin qalan hissəsi, Albaniya müstəqil dövlət ola bilərdilər.

Reyxştat müqaviləsinin Fessaliyanın, Epirin Kritin və İstanbulun taleləri haqda şərtləri də təsdiq olunurdu. Orada göstərilirdi ki, İstanbul tam azad şəhər ola bilər.

Hər iki konvensiya Vyanada Avstriya-Macarıstanın Xarici İşlər Naziri Andraşi və Rusiyanın Vyanadakı səfiri Novikov tərəfindən imzalanmışdı.

Beləliklə, Avstriya-Macarıstanın bitərəfliyinə nail olmaq Rusiyaya çox baha başa gəlmişdi.

Onu da göstərmək lazımdır ki, Şərq böhranı Fransa-Almaniya sərhədində də əks-sədaya səbəb olmuşdu. Fransa İstanbul konfransında ingilis-fransız-rus əməkdaşlığının olduğunu nümayiş etdirməyə çalışırdı.

Bu cəhd böyük səmərə vermədi. Bismark hesab edirdi ki, 1875-ci il qruplaşması artıq yoxdur. İstanbul konfransından sonra Bismark yenə mətbuatdan və digər vasitələrdən istifadə edərək, həyəcan qaldırdı. O fransız atlı qoşunlarının Almaniya sərhədinə toplaşması haqda dedi-qodudan istifadə etdi.

1877-ci il fevralın 10-da Berlindəki Rusiya səfiri xəbər vermişdi ki, burada hökumət dairələrində Fransaya qarşı əhval-ruhiyyə üstünlük qazanmaqdadı. Doğrudan da, Almaniya hökuməti, həm Rusiyanı, həm də İngiltərəni dilə tutmağa girişmişdi. Bismark Rusiyanı inandırırdı ki, o tezliklə Türkiyəyə qarşı müharibəyə başlamalıdı. O göstərirdi ki, Rusiyanın guya Türkiyə qarşısında geri çəkildiyi barədə söz-söhbətə yol vermək olmaz. Almaniya İstanbulun Rusiya tərəfindən işğal olunmasına e'tiraz etməyə bilər. Bismark çar hökumətini belə şirnikdirirdi.

İngiltərəyə gəldikdə isə, rus səfiri 1877-ci il fevralın 5-də xəbər vermişdi ki, alman kansleri iki maddəni qeyd etməyi heç vaxt nəzərdən qaçırmırdı: Rusiya və Türkiyə arasında müharibənin labüd olduğunu və Misiri işğal etməyin İngiltərə üçün xeyiri olduğunu. Bu addım İngiltərənin uzun müddətə Fransa ilə küsüşməsinə səbəb ola bilərdi.



1877-ci il yanvarın sonlarında Misiri işğal etməkdən daha xətalı təkliflə o, ingilis səfirinə müraciət etdi. Bismark ingilis səfirini inandırırdı ki, Fransa Almaniyaya soxulmağa hazırlaşır. Bunun qarşısını almaq üçün Almaniya ehtiyat tədbirləri görməlidi. Kansler İngiltərədən xeyirxahlıq, dostcasına mövqe tutmağı öhdəsinə götürməyi, bunun əvəzində o, Türkiyə işlərində əməkdaşlıq etməyi və'd edirdi. Fevralda Bismark daha irəli getdi. O, İngiltərədən – müdafiə və hücumçu ittifaq bağlamağı təklif etdi. Göründüyü kimi, Bismark Rusiyanı Türkiyə ilə müharibəyə itələməklə, bundan istifadə edib Fransaya tam zərbə endirmək fikrində idi. Britaniya kabineti Bismarkın təkliflərini rədd etdi.

Almaniyanın daha da güclənməsindən ehtiyat edən İngiltərə Rusiya ilə kompromisə nail olmağa meyl göstərirdi.

Bikonsvild Rusiya səfiri Şuvalovla söhbətində demişdi ki, həm İngiltərənin, həm də Rusiyanın mənafeləri tələb edir ki, Fransa ikinci dərəcəli dövlət səviyyəsinə endirilməməlidir.

Vyanada da Almaniyanın Fransaya divan tutması imkanı çox narahatlıq doğurmuşdu. Avstriya-Macarıstanın Berlindəki səfiri öz rus həmkarına demişdi ki, əgər Şərqdə çəkişmə baş verərsə, Bismark bundan narahat olmayacaq, o bizləri müharibəyə cəlb etmək istəyir. Rus səfiri də Sankt-Peterburqa bildirmişdi: görünür knyaz Bismark bizi müharibəyə cəlb etmək istəyir.

1877-ci ilin fevralında Rusiyanın Londondakı səfiri Pyotr Şuvalovla Lord Derbi arasında Türkiyəyə birgə təqdimat vermək barədə danışıqlar başlanır. Rusiya

məsələnin sülh yolu ilə həll edilməsi tərəfdarı idi. Bu Rusiyanın Balkanlardakı nüfuzuna tə'sir etməmək şərti ilə mümkün ola bilərdi. Bunun üçün Türkiyə ən cüzi güzəştlərə belə getməli idi. Buna isə bütün dövlətlərin Türkiyəyə qarşı birgə təzyiqi nəticəsində nail olmaq olardı.

Qraf İqnatiyev gözünü müalicə etmək bəhanəsi ilə belə kollektiv hücumu hazırlamaq üçün Avropa mərkəzlərinə səfərə göndərildi. Əvvəlcə o Berlinə getdi və Bismarkla görüşdü. Bismark Rusiya layihəsini qəbul etdi.

Bismark dedi ki, o Rusiya ilə əbədi dostluğu arzulayır. Lakin Almaniya və Fransa arasında müharibə olarsa, Rusiyanın hansı tərəfi seçmək hüququnu saxladıqca o, üzərinə başqa öhdəliklər götürə bilməz. Bismark dedi ki, Fransa hayıf çıxmağı arzulayır. O, səfir vasitəsi ilə öz mövqeyini Sankt-Peterburqa bildirdi.

Qorçakov ona cavab verdi ki, Fransa-Almaniya ixtilafı şəraitində Rusiya Fransaya heç bir və'd verməmişdi. Beləliklə Rusiya sərbəst hərəkət etmək hüququnu saxlayırdı.

İqnatyev səfərini davam etdirdi. O, Parisə və Londona gəldi. Bu səfər öz nəticəsini verdi. Martın 31-də altı böyük dövlət Londonda protokol imzaladılar. Lakin aprelin 12-də Türkiyə onu rədd etdi. Bismark da getdikcə başa düşdü ki, Almaniya-Fransa müharibəsi təhlükəsi ingilis-rus, rus-türk sülhünə gətirə bilər. Buna görə də o, Rusiyaya hərbi ehtiyaclar üçün 100-200 milyon frank istiqraz verməyi və'd etdi. Fransa ilə münasibətlərdə də Bismark barışdırıcı mövqe tutdu.

Fransa-Almaniya arasında gərginliyin zəifləməsindən sonra İngiltərə Rusiya ilə gizlən-paç oynamağın



əhəmiyyətsiz olduğunu bildirdi. Məhz, İngiltərənin köməyinə arxalanan Türkiyə London protokolunu rədd etmişdi.

## Rusiya-türkiyə müharibəsi (1877-1878-ci illər)

London protokolunun Türkiyə tərəfindən rədd edilən günün sabahı 1877-ci ildə aprelin 13-də Rusiya hərbi səfərbərlik e'lan etdi. Əlavə 7 piyada, 2 atlı diviziya topladı. Çar Baş komandanlığın yerləşdiyi Kişinyov şəhərinə gəldi. 1877-ji il aprelin 24-də o, Türkiyəyə müharibə e'lan edilməsi haqqında manifesti imzaladı. Lakin balkanlarda fəal hərbi əməliyyatlar iyunun sonlarında başlandı.

Bikonsvildin beyninə belə bir fikir gəldi ki, Rusiyanın müharibə e'lan etməsinə o, Dardanelin işğalı ilə cavab versin. Lakin onun bu fikri kabinetin bir neçə nüfuzlu üzvləri tərəfindən rəğbətlə qarşılanmadı. Mayın 6-da Derbi Şuvalova nota verməklə kifayətləndi. Notada göstərilirdi ki, İngiltərə birincisi, Suveyş kanalının mühasirəyə alınmasına, ikincisi, Misirin işğal edilməsinə, üçüncüsü, İstanbulun tutulmasına yol verməz.

Rusiyanın Londondakı səfiri belə qənaətə gəldi ki, İngiltərə də müharibəyə qoşulmaq hətta Dardaneli tutmaq istəyir. O, Misir və Suveyş haqqında İngiltərə hökumətini sakitləşdirdi.

İstanbula və boğazlara gəldikdə, onların ümumavropa problemi olduğunu bəyan etdi.

Rusiya kansleri bunlarla kifayətlənmədi. O, Şuvalova tapşırıq verdi ki, Rusiyanın mülayim şərtlərlə

sülh bağlamağa hazır olduğunu bildirsin. O şərtlə ki, Türkiyə, rus qoşunları sərhədi keçməmişdən əvvəl, sülhü xahiş etsin.

Britaniya hökuməti Rusiyanın təklifini rədd etdi. O İstanbul və boğazlar haqqında Rusiyanın təklifinin məqbul olmadığını bildirdi. Çünki Qorçakov bildirmişdi ki, müharibənin gedişində, lazım gələrsə, Rusiya ordusu boğazlar zonasını tuta bilər.

1877-ci il mayın 19-da Derbi Avstriya-Macarıstana təklif etdi ki, arxadan Rusiya qoşunlarına zərbə endirsin. İngilis donanmasının Rusiyanın hərbi gəmiləri ilə görüşə biləcəyi təhlükəsi yox idi, çünki Qara dənizdə rus donanması yox idi. Doğrudur, Avstriya ordusu Dunayın arxasındakı rus qoşunu ilə döyüşdə asanlıqla müvəffəqiyyət qazana bilərdi. Lakin Avstriya-Macarıstan ordusu rus və türk orduları əhatəsində qala bilərdi. Bunu nəzərə alaraq, Avstriya-Macarıstan, Şərqin gələcəyi haqda birgə siyasi xətt yeritmək haqda fikrə razı olduğunu bildirdi. Rusiyaya qarşı hərbi səfərbərlikdən imtina etdi.

Danışıqlar gedirdi, lakin müharibədə genişlənirdi. 1877-ci il iyunun 19-da general Qurkonun dəstələri Şipka keçidini tutdular. Bundan sonra Rusiya birbaşa Balkan uğrunda əməliyyata başlamalı idi. Bu Türkiyənin paytaxtını təhlükə altına alırdı.

Londonda və İstanbulda həyəcan başladı. Qurko Şipkanı tutduğu gün Osman paşanın ordusu Plevnə girdi. Bu rus ordusunun sağ cinahı üçün ciddi təhlükə yaratdı. Bu xəbər Londona çatdı, orada sakitləşdilər. Lakin müharibə uzanırdı. Bu İngiltərənin mənafeyinə idi.

Andraşi isə hadisələrə başqa cür yanaşırdı. Hətta o, Rusiyaya qarşı müharibə başlamağa təşəbbüs etdi.



Lakin onu inandırdılar ki, Avstriya-Macarıstan indi Rusiya ilə müharibə aparmaq gücündə deyil.

1877-ci il dekabrın 10-da ruslar Plevnanı tutdular. Bu böyük hərbi qələbə diplomatik fəaliyyətin güclənməsinə təkan verdi. Rusiya Almaniya və Avstriyaya gələcək sülhün layihəsini irəli sürdülər. Layihədə İstanbul konfransında nəzərdə tutulduğu kimi geniş sahədə vassal Bolqarıstan knyazlığının yaradılması, Avstriyanın idarəsinə verilməklə Bosniya və Herseqovinaya muxtariyyat verilməsi Serbiyaya, Çernoqoriyaya və Rumıniyaya tam müstəqillik verilməklə, cənubi qərbi Bessarabiyanın Rusiyaya qaytarılması, Karsın, Batuminin, Ərdahan və Bayazitin Rusiyaya birləşdirilməsi, təzminat ödənilməsi irəli sürülürdü. Boğazlarda rejimin ciddi dəyişdirilməsi də göstərilirdi: əgər zəruri olarsa, Rusiya öz hərbi gəmilərini boğazlardan keçirmək hüququ alırdı, lakin buna sultanın razılığı olmalı idi.

Dekabrın 13-də İngiltərə Rusiyanı xəbərdar etdi ki, Rusiya İstanbulu müvəqqəti işğal etsə də, o ehtiyat tədbirləri görəcəkdi. Lakin kabinetdə gedən mübahisələr bunu qeyri-mümkün etdi. Kabinet ancaq bir fikirdə həmrəy idi Avstriyanı oda atmaq.

Qorçakov İngiltərəyə qət'i cavab verdi. Nə İstanbulu, nə də Hallipolu tutmaq Rusiyanın planında yoxdur. Lakin Rusiya Türkiyənin paytaxtını müvəqqəti işğal etməyəcəyinə tam tə'minat verə bilməz. Bu müharibənin gedişindən asılı olacaq.

Dekabrın 24-də Türkiyə dövlətlərdən vasitəçilik etməyi xahiş etdi. İngiltərə hökuməti bunu Sankt-Peterburqa xəbər verdi. Qorçakovun cavabında deyilirdi: Əgər Türkiyə müharibənin qurtarmasını

istəyirsə, qoy bu barədə bilavasitə rus ordusunun baş komandanına müraciət etsin.

1878-ci il yanvarın 8-də Türkiyə barışıq haqqında rus ordusunun baş komandanı knyaz Nikolay Nikolayeviçə müraciət etdi. Danışıqlar başlandı. Rus ordusu Türkiyənin paytaxtına doğru hərəkət etməkdə idi.

İngiltərə hökuməti vəziyyəti aramsız müzakirə edirdi. Kraliça Viktoriya baş nazirə yazmışdı: Əgər o, kişi olsaydı, özü rusları döymək üçün mütləq gedərdi.

İstanbuldan alınan həyəcanlı xəbərlərin tə'siri altında yanvarın 23-də İngiltərə donanmasını boğazlara göndərdi. Buna e'tiraz əlaməti olaraq, Xarici İşlər Naziri Derbi və müstəmləkələr üzrə stats-katib Karnarvon iste'fa verdilər.

Kabinet həmin günü öz qərarını dəyişdi və admiral Xornbiyə bildirdi ki, donanma öz əvvəlki yerinə, Bezik buxtasına qayıtsın. Bundan sonra Derbi öz vəzifəsinə qayıtdı. İngiltərə və Avstriya rus-türk müharibəsinin şərtlərini bütövlükdə beynəlxalq konfransın müzakirəsinə verməyi tələb etdilər.

Rusiya iki böyük dövlətlə ixtilafa girməyə risk etmədi. O, həmin təklifə razı olduğunu bildirdi.

Çar türklərin barışıq şərtlərini qəbul etdiyi şəraitdə İstanbulun işğalından imtina etmək haqda əmr verdi.

1878-ci il yanvarın 31-də türklər barışığı imzaladılar. Barışığın şərtlərindən biri də Çatalçi və Bulairin ruslar tərəfindən işğal edilməsinə razılıq verilməsi idi. Buna görə də rus qoşunlarının barışıq başlanandan sonra həmin yerləri işğal etməsi Londonda böyük həyəcana səbəb oldu. London qorxurdu ki, ruslar İstanbulu tutacaq.



Belə şəratdə İngiltərə hökuməti yenidən hərbi donanmanın Dardanelə getməsi barədə əmr verdi. Donanma gəlib Çanaqda gözlədi. Dardanelə girmək üçün sultanın razılığı olmalı idi. Lakin rus ordusunun baş komandanı sultanı xəbərdar etdi ki, əgər ingilis donanmasının Dardanelə girməsinə razılıq versə, paytaxtı işğal edəcək. Buna görə də sultan icazə verməyə cəsarət etmədi. Donanma öz əvvəlki dayanacaq yerinə qayıtdı.

Çar əslində İstanbulun işğal edilməsinin tərəfdarı idi. Lakin Qorçakov və hərbi nazir Milyutin e'tiraz etdilər. Onlar hesab edirdilər ki, bu İngiltərə ilə müharibəyə səbəb olar. Məsləhətçilər getdikdən sonra təklikdə qalan II Aleksandr fikirləşdi, İstanbula ordu yeritməyə meyl etdi. O, hər iki əmri dalbadal Baş komandana göndərdi.

Fevralın 12-də admiral Xornbi donanmanı Mərmərə dənizinə yeritmək haqda əmr aldı. Britaniya donanması Dardaneli keçdi və Prins adalarında lövbər saldı. Sonra Sultanın xahişi ilə donanma Mərmərə dənizinin Asiya hissəsinə çəkildi.

İngiltərə hökuməti, rus qoşunları İstanbula girən kimi Rusiya ilə diplomatik əlaqələri kəsəcəyini bildirdi.

Avstriya hökuməti də bildirdi ki, o da öz səfirini Sankt-Peterburqdan geri çağıracaq.

Rusiya iki dövlətlə ixtilaf yaratmaq istəmədi. O San-Stefano adlı yeri tutmaqla kifayətləndi. Bu yer Türkiyə paytaxtının 12 verstliyində Mərmərə dənizinin sahilində idi.

## San-Stefano sülh müqaviləsi. Berlin konqresi

1878-ci il mart ayının 3-də San-Stefanoda sülh müqaviləsi imzalandı.

San-Stefano müqaviləsinə əsasən Bolqarıstanın ərazisi genişləndirilirdi. Egey dənizinin sahilinin xeyli hissəsi ona verilirdi. Türkiyə ordusu Bolqarıstanda qala bilməzdi.

Belə vəziyyət heç də İngiltərəni qane etmirdi. Britaniya hökuməti ehtiyat edirdi ki, Bolqarıstanı öz tə'sir dairəsinə salmış Rusiya Aralıq dənizi dövləti ola bilər. Buna əlavə olaraq Bolqarıstanın sərhədləri İstanbula çox yaxınlaşmışdı. Boğazlar daim Rusiyanın zərbəsi təhlükəsi altına düşmüşdü. Buna görə də San-Stefano müqaviləsi İngiltərənin hədsiz e'tirazına səbəb oldu.

San-Stefano müqaviləsindən Avstriya-Macarıstan da o qədər razı deyildi. Reyxştatda və Budapeşt konvensiyasında balkanlarda böyük slavyan dövlətinin yaradılmasının qeyri-mümkünlüyü göstərilmişdi.

San-Stefano müqaviləsində Çernoqoriyanın, Serbiyanın, Rumıniyanın tam müstəqilliyi nəzərdə tutulurdu. Şimali Dobruçi Rumıniyaya, cənubi qərbi Bessarabiya Rusiyaya qaytarılırdı. Qars, Ərdəhan, Bayazit və Batumi Rusiyaya verilirdi.

Martın 6-da Andraşi Rusiya və Türkiyə arasındakı sülh şərtlərini müzakirə etmək üçün beynəlxalq konfrans çağırmaq təklifi ilə çıxış etdi. Rusiya hökuməti buna razılıq verməli oldu.

Rusiyanın belə güzəştə getməsinə səbəb Şərq böhranı başlanan andan qüvvələr nisbətinin Rusiyanın xeyrinə olmaması idi. Türkiyə ilə müharibə Rusiyanın



Avstriya və Almaniya ilə toqquşmasına səbəb ola bilərdi. Rusiya Almaniyanın belə mövqe tutduğuna görə onunla ixtilafa getmək istəmirdi. Hələ 1878-ci il fevralın 19-da Bismark demişdi ki, Şərq məsələsində o, "təmiz maklerdir". Onun vəzifəsi bunu tezliklə başa çatdırmaqdır. Beləliklə, Bismark Rusiyanı müdafiə etməkdən yayındığını açıqcasına bildirmişdi. Buna baxmayaraq, rus diplomatiyası onun köməyinə nail olmağa cəhd etdi. O, xatırlatdı ki, Bismark Rusiyanı dəfələrlə müharibəyə qoşulmağa tə'kid edirdi. Lakin mə'lum oldu ki, Bismark sülh yaradıcısına çevrilmişdi. İndi o Rusiyaya "məsləhət bilirdi" ki, konqres çağırılmasına razı olsun. Balkan və Qafqaz ordularının baş komandanları knyaz Nikolay Nikolayeviç və Mixail Nikolayeviç, hərbi nazir Milyutin, maliyyə naziri Reytern, Qorçakov kimi diplomatlar, hərbi və dövlət xadimləri müharibənin davam etdirilməsini məsləhət bilmirdilər.

Bikonsfild uzun tərəddüdlərdən sonra İngiltərənin müharibə başlamağa hazır olduğunu Rusiyaya başa saldı. Buna görə də o, hərbi hazırlığı davam etdirdi. Buna e'tiraz olaraq Derbi ikinci dəfə iste'faya getdi. Bu Rusiya üçün böyük itki idi. Derbini lord Solsberi əvəz etdi. O böyük diplomatik ağıla malik idi. O da Bikonsfildin təcavüzkar düşüncələri ilə razı deyildi, əvvəlcədən Rusiya ilə sazişin tərəfdarı idi. Şuvalovla onun danışıqlarının nəticəsində 1878-ci il mayın 30-da ingilis-rus sazişi imzalandı. Bu sazişə görə Rusiya İstanbulun yaxınlığından Balkan sıra dağlarının arxasına çəkildi. İngiltərə öhdəsinə götürdü ki, Batuminin və Qarsın Rusiyaya verilməsinə, Bessarabiyanın ona qaytarılmasına e'tiraz etməyəcək. Bunun yerini İngiltərə Türkiyə ilə saziş bağlamaqla doldurdu. Sazişin

layihəsində göstərilirdi: "Əgər Batum, Ərdəhan, Qars Rusiyaya verilərdisə, onda İngiltərə sultana Asiyadakı torpaqlarını müdafiə etməkdə silahlı kömək edəcək. Sultan isə İngiltərənin Kipri tutmasına razılıq verir. Əgər Rusiya Qarsı və digərlərini qaytararsa, Kipr adası İngiltərə tərəfindən tutularsa, onda bu saziş öz gücünü itirir. Nəhayət, sultan Türkiyənin Asiya qit'əsindəki torpaqlarında yaşayan xristianların vəziyyətlərinin yaxışlaşmasına xidmət edəcək islahat keçirməyə razılıq verir».

cavab üçün sultana 48 saat vaxt verilmişdi. İyunun 8-də Kipr konvensiyası imzalandı. Lakin bir neçə vaxtdan sonra sultan Kiprin İngiltərəyə güzəşt edilməsi haqda fərman verməkdən imtina etdi. İngilislər isə fərmandan əvvəl Kipri tutmuşdular. Buna görə də keçmiş tarixlə sultan fərman verməli oldu.

Andraşi Rusiya və Türkiyə arasındakı sülhün şərtlərini müzakirə etmək üçün beynəlxalq konfrans çağırmaq təklifi ilə çıxış etdi. Rusiya Avropa əhəmiyyətli məsələlərin müzakirə edilməsi şərti ilə konfransın çağırılmasına razılıq verdi.

Rusiya üçün müharibənin davam etdirilməsi sərfəli deyildi. Ordunun baş komandanları, böyük knyazlar, hərbi nazir Milyutin, maliyyə naziri Reytern, habelə Qorçakov bu fikirlə tərəfdar idilər.

İngiltərə də özünü elə aparırdı ki, guya o da Rusiyaya qarşı müharibəyə hazırlaşır.

II Aleksandr baş komandanlarla məktublaşmasında göstərirdi ki, İngiltərə bizə müharibə e'lan etmək üçün bəhanə axtarır. Əslində isə İngiltərə müharibəyə hazır deyildi.



İyunun 6-da qarşıdakı konqresdə birgə siyasi xətt yeritmək haqqında İngiltərə və Avstriya saziş imzaladılar. Hər iki dövlət şərtləşdilər ki, Balkan sıra dağlarından cənuba, Bolqarıstan ərazisinin genişləndirilməsinə yol verməsinlər. Ruslar altı ay müddətinə Bolqarıstanı işğal edə bilərlər, İngiltərə Avstriya-Macarıstanın Bosniya və Herseqovinaya olan iddialarını müdafiə edəcəyinə söz verdi.

Konqres 1878-ci il iyunun 3-də Berlində açıldı. Balkan dövlətlərinin nümayəndələri də konqresə buraxıldılar. Əlbəttə, konqresin tam hüquqlu üzvü kimi yox.

Nümayəndələrə ya Xarici İşlər Nazirləri, ya da baş nazirlər - Bismark, Qorçakov, Bikonsfild, Andraşi, Vaddinqton (Fransa), Korti (İtaliya) başçılıq edirdilər. Bismark sədrlik edirdi. Müzakirə zamanı ciddi fikir ayrılıqları meydana çıxdı. Bismark, çıxışları ümumiləşdirərək, iclası başladı. O, fikir ayrılıqlarını nümayəndələrin özlərinə şəxsi görüşlər, söhbətlər vasitəsi ilə həll etməyi həvalə etdi. Tərəflər mübahisəli məsələləri həll etdikdən sonra indi onların həllinin rəsmi surətdə formalaşdırılması məsələsi ortalığa çıxdı.

Balkan dövlətlərinin və Türkiyənin nümayəndəliklərinə Bismark açıqcasına nifrətlə yanaşırdı. O, Türkiyə nümayəndəliyinə kobud surətdə bildirdi ki, Türkiyənin taleyi onun üçün əhəmiyyətsizdir. O, yayın bu istilərində öz vaxtını buna, böyük dövlətlər arasında ixtilafları aradan qaldırmaq üçün sərf edir.

Konqresin əsas istiqamətləri 30 may tarixli ingilis-rus sazişində müəyyən edilmişdi. Orada Qarsın Rusiyada qalması, Bolqarıstanın sərhədləri ümumi cizgilərlə göstərilmişdi. Əlbəttə, onun dəqiq göstəril-

məsinin strateji baxımdan böyük əhəmiyyəti var idi. Buna görə də bu məsələ ətrafında qızğın mübahisə getdi. Bolqarıstanın, Balkan sıra dağlarından cənubda yerləşən ərazisində sultanın hüquqları barədəki məsələ də ciddi mübahisəyə səbəb oldu. Bu məsələ ilə əlaqədar olaraq Osmanlı imperiyasının bu əyalətində Şərqi Rumeli adı altında muxtar əyalət yaradılması qərara alındı.

Konqresin açıldığı günün sabahı İngiltərə mətbuatında 30 may tarixli ingilis-rus sazişini ifşa edən yazılar dərc olundu. Bu böyük sensasiya doğurdu. Rusiya ilə əvvəlcədən edilmiş razılaşmanın aşkarlanması Dizraelin ən barışmaz mövqe tutmasına səbəb oldu. Kipr konvensiyası ictimaiyyətdən gizli idi. İyunun 20-də Şərqi Rumelinin statusu və Sofi sancağının taleyi məsələlərindəki fikir ayrılığına görə Dizraeli konqresdən getməyi ilə hədələdi. Nəhayət, Bismarkın vasitəçiliyi ilə məsələ qaydaya salındı. İngilislər Sofi sancağının Bolqarıstana verilməsinə razılıq verdilər, o şərtlə ki, sultana Şərqi Rumeliyə öz qoşunlarını yeritməyə icazə verilsin. Rusiyanın Bolqarıstanı işğal etməsi müddəti 9 ay müəyyən edildi. Rusiya Bolqarıstan knyazlığında hakimiyyət orqanlarını təşkil etməli idi.

Avstriya-Macarıstanın Bosniya və Herseqovinanı işğal etməsi bu və ya digər dərəcədə yüngül keçdi. İngiltərə və Almaniya Avstriyanı müdafiə etdilər. Rusiya hələ 1877-ci ildə qəbul olunmuş Budapeşt konvensiyasından geri çəkilə bilmədi. Türkiyə e'tiraz etdi. Lakin onun səsini eşidən olmadı. İtaliya Avstriya-Macarıstanın güclənməsi hesabına heç nə ala bilmədiyindən çox əsəbləşmişdi. Nə səbəbə İtaliya ərazi



almaq istəyir, o yenədəmi döyüşdə uduzmuşdur deyə bir rus diplomatı cavab vermişdi.

Asiyada Rusiyanın əldə etdiyi ərazi az qalmışdı ki, konqresin böhranına səbəb olsun. 30 may sazişinə görə, Rusiya Batumini "tutmalı" idi. Bu sözdən istifadə edərək, Solsberi və Bikonsfild bildirdilər ki, onlar guya Batuminin Rusiyaya verilməsinə yox, onun Rusiya tərəfindən işğal edilməsinə razılıq vermişdilər. Bu məsələdə güzəştə getmək əvəzində Rusiya İngiltərənin boğazlar barəsindəki şərti ilə razı olmalı idi. Bununla Solsberi Qara dənizə ingilis donanmasının girməsinə nail olmağa çalışırdı. Solsberi bildirdi ki, 1841 və 1871-ci illərdə qəbul olunmuş konvensiyalara əsasən, boğazların bağlılığı prinsipi dövlətlərin sultan qarşısında öhdəliyi xarakterini daşıyır. Beləliklə, əgər sultan bu və ya digər donanmanı də'vət edərsə, onda bu öhdəlik öz əhəmiyyətini itirir. Rusiya nümayəndəliyi tərəfindən belə şərh qət'i surətdə rədd edildi. Bu mübahisələr onunla qurtardı ki, Qars, Ərdahan, Batumi Rusiyaya verildi, Bəyazit Türkiyədə qaldı. Bessarabiya, Dobruc haqqında, Çernoqoriya, Serbiya və Rumıniyanın müstəqilliyi haqqında San-Stefano müqaviləsinin şərtləri öz gücündə qaldı.

İyulun 13-də Berlin konqresi Berlin traktatının imzalanması ilə başa çatdı. O San-Stefano müqaviləsini əvəz etdi. Rusiya öz qələbəsinin xeyli hissəsindən məhrum oldu. Heç bir güllə belə atmayan İngiltərə Kiprə, Avstriya isə Bosniya və Herseqovinaya sahibləndi.

Fransa nümayəndəliyinin Berlin konfransındakı mövqeyi ona müvəffəqiyyət qazandırmadı. Onun balkanlarda slavyanları parçalamaq istəyi Rusiya

tərəfindən mənfi qarşılandı. Lakin Bikonsfild, Bismark və Andraşi Fransa nümayəndəsinin mövqeyinə müsbət yanaşdılar.

Beləliklə, Berlin konqresində Rusiyaya qarşı çıxmaqla Fransa nəinki heç bir şey qazanmadı, əksinə uduzdu. Fransa heç bir real əsas olmadan Rusiyaya xain çıxdı.

Doğrudur, 64 maddədən ibarət Berlin traktatının imzalanması nəticəsində ümumi sülh tə'min edildi. Lakin onun möhkəm olmasını heç də tə'min etmədi. Belə ki, maraqlı tərəflərdən, konqresin iştirakçılarından heç bir dövlət konqresdən öz ölkəsinə razı qayıtmadı.

Balkanlardakı xristian əhalisini də konqresin nəticələri razı salmadı. Onlar bu traktata qarşı öz e'tiraz səslərini ucaltdılar. Rumıniya şikayətlənirdi ki, onun müttəfiqləri onu satdılar. Bosniya və Herseqovinanı öz aralarında bölmək arzusunda olan Serbiya və Çernoqoriya hədsiz mə'yus oldular. Yunanlar çoxdan boş sözlərdən və və'dlərdən başqa heç nəyə nail olmadılar. Çoxdan vahid dövlət yaratmaq istəyində olan Bolqarıstan iki hissəyə parçalandı. Türkiyənin əsarətində qalan bə'zi xristian əyalətləri buna dözməyə məcbur edildilər.

Konqresin nəticələri Türkiyə üçün də məqbul olmadı. Lakin buna baxmayaraq, Bikonsfild təsdiq etmişdi ki, konqres Osmanlı imperiyasını möhkəmləndirdi. Əlbəttə,bu istehza doğuran ifadə idi. Əksinə, Berlin traktatı Türkiyənin hissə-hissə bölünməsinə başlamaq demək idi.



## Böyük dövlətlər və erməni məsələsi

XIX əsrin üçüncü rübündə böyük dövlətlər tərəfindən erməni məsələsi ortalığa çıxarıldı. San Stefan (1878-ci il mart) və Berlin (1878-ci il iyul) müqavilələrində bu öz əksini tapdı. Türkiyə sultanı II Əbdül Həmid yaxşı başa düşürdü ki, bu məsələnin qabardılıb ortaya atılması böyük dövlətlərə Türkiyəyə tə'sir göstərmək, onun daxili işlərinə qarışmaq üçün lazım idi.

San-Stefano sülh müqaviləsinin 19-cu maddəsinə əsasən ermənilərin vəziyyətini yaxşılaşdırmaq, təhlükəsizliyini tə'min etmək üçün sultan hökuməti ölkəni ermənilərin məskunlaşdığı şərq vilayətlərində (burada əhalinin 20-40 faizə qədərini ermənilər təşkil edirdilər) islahatlar keçirməli idi.

Sülh müqaviləsinə heç bir dəxli olmayan erməni məsələsinin ayrıca bir maddə kimi müqaviləyə daxil edilməsi heç də təsadüfi deyildi. Bunun səbəbləri əsasən aşağıdakılar idi. Birincisi, qərb kapitalı ermənilərə, xüsusilə erməni burjuaziyasına Türkiyədə özlərinin iqtisadi vasitəçiləri, köməkçiləri kimi baxırdılar. Bunun əvəzində isə erməni burjuaziyası ermənilərin yaşadıqları Şərq vilayətlərində islahat aparmaq, Türkiyə dövlətini buna məcbur etmək məsələsini qərb dövlətləri qarşısında qoyurdu.

Ermənilərin əsas məqsədi onlara öz müqəddəratını tə'yin etmək, yə'ni Türkiyənin Şərq vilayətlərində ermənilərə məxsus bir muxtar qrumun yaradılmasına nail olmaq idi. San-Stefano sülh müqaviləsinə salınmış 19-cu maddə məhz bu yolda ilk addım idi.

İkincisi, çox böyük strateji əhəmiyyətə malik olan - Aralıq dənizi və İran körfəzi arasında yerləşən ərazidə Türkiyənin tə'sirinin zəiflədilməsinə nail olmaq. Buna isə burada yaşayan ermənilərin köməkliyi ilə nail olmaq olardı. Bu dövrdə "Türk-müsəlman zülmündən xristianların azad edilməsi uğrunda mübarizə" şüarı altında genişlənən hərəkat məhz bu məqsədə xidmət edirdi. Üçüncüsü - müsəlman və xristian amili idi. Erməniləri müdafiə etməklə, qərb dövlətlərinin məqsədi boğazları müsəlman türklərinin nəzarəti altından çıxarıb xristian ermənilərinin nəzarəti altına vermək idi.

Beləliklə, erməni məsələsi həm siyasi, həm milli, həm də dini məsələ idi.

Qərb dövlətləri Berlin konfransında erməni məsələsində daha irəli getdilər. Berlin müqaviləsinin şərtlərində Türkiyə hökumətinin ölkənin Şərq vilayətlərində Van, Ərzurum, Bitlis, Sivas, Diyarbəkir və Xarberd vilayətlərində keçirdiyi islahatlar barəsində böyük dövlətlərə İngiltərəyə, Fransaya, Almaniyaya, Avstriya-Macarıstana və Rusiyaya vaxtaşırı hesabat verməli idi.

Doğrudur, Qərb dövlətləri və Rusiya heç də müstəqil erməni dövlətinin yaradılmasını istəmirdilər. Çünki heç bir dövlətçilik ən'ənəsinə malik olmayan ermənilər üçün belə bir dövlətin yaradılmasını irəli sürmək, absurd, mə'nasız görünərdi. Lakin böyük dövlətlərin hər biri ayrılıqda erməni məsələsindən Osmanlı imperiyasına qarşı istifadə etmək marağında idilər. Berlin konfransı onlara belə imkanı verdi. Xüsusi ilə Berlin konfransından sonra sultan hökuməti bunu daha aydın surətdə başa düşdü və anladı ki, qərb dövlətləri



gələcəkdə də imperiyadan nə isə qoparmaq üçün erməni məsələsindən istifadə edəcəklər.

Məhz qərb dövlətlərinin erməni məsələsini qabartmaları nəticəsində 500 ildən yuxarı bu yerlərdə dinc yaşayan ermənilər baş qaldırdılar, qərb dövlətlərinin dəstəyinə nail olmaq haqqında düşünməyə başladılar və fəallaşdılar.

Rusiya erməni məsələsindən istifadə edib ermənilərin yaşadıqları vilayətləri Rusiya ərazisinə birləşdirmək, İngiltərə Mesopotamiyanı, Kriti, Ərəbistanı işğal etmək fikrində idi.

İngiltərə Trabzonda, Ərzurumda, Vanda, Bitlisdə, Diyarbəkirdə öz konsulluqlarını açmışdı. İngilislər ermənilər arasında öz mövqelərini möhkəmləndirmək üçün kürd və erməni partiyalarının nümayəndələri ilə görüşlər keçirir, qarışıq assosiasiyalar yaradırdılar. 1882-ci ildə ingilis-erməni cəmiyyəti yaradıldı. Məhz ingilislərin fitnəkarlığı nəticəsində ermənilər yenidən 1894-1896-cı illərdə erməni-müsəlman qırğını törətdilər. Bu dövrdə erməni məsələsi çox hay-küyə səbəb oldu. Almaniya sultan hökumətini müdafiə etdi. Çünki Türkiyədə Almaniyanın öz maraqları var idi. Almaniyanın dövlət katibi Byulov demişdi: Türkiyə almanlar üçün həm iqtisadi, həm siyasi, həm də hərbi cəhətdən çox əhəmiyyətlidir. Sultan Əbdül-Həmid Almaniyaya özünün xilaskarı kimi baxırdı. Rus-türk müharibəsindən sonra məğlub olmuş və zəif düşmüş türk ordusunu təşkil etmək, dirçəltmək, müasirləşdirmək üçün sultanın də'vəti ilə Almaniyadan hərbçilər qrupu Türkiyəyə gəlmişdilər. Almaniya çalışırdı ki, Türkiyə yalnız onun tə'sir dairəsində olsun. Türkiyədə Rusiyanın arxalana biləcək heç bir qüvvəsi olmasın. Belə bir qüvvə

isə ermənilər ola bilərdi. Məhz buna görə də 1894-1896-cı il erməni-müsəlman qırğınında Almaniya Türkiyənin tərəfində durdu.

Fransa isə Osmanlı imperiyasının müstəqilliyi və bütövlüyü tərəfdarı idi. Bunu onun iqtisadi, maliyyə maraqları tələb edirdi. Türkiyə müəssisələri fransız kapitalı üçün ən əlverişli investisiya obyekti idi. Fransa Türkiyədə qoyulan investisiyanın 63 faizinə malik idi. XIX əsrin sonlarında Fransa Türkiyəyə 2 milyard 240 milyon, Almaniya 1 milyard 280 milyon, İngiltərə isə 750 milyon frank kapital qoymuşdu. Fransa təkcə dəmir yol inşaasına qoyduğu kapital 449 milyon frank idi. Fransa bu iqtisadi üstünlükdən öz hərbi-strateji və siyasi məqsədləri üçün istifadə etməyə çalışırdı.

Fransız missionerləri də Şərqi Anadoluda erməniləri öz tərəflərinə çəkməyə çalışır, onlara xeyli maddi yardım göstərməklə protestant erməniləri katolikləşdirmək istəyirdilər. Lakin onlar buna nail ola bilmədilər.

Erməni məsələsində Fransanın və Rusiyanın mövqeləri üst-üstə düşürdü. Onlar ermənilərin məskunlaşdıqları əyalətlərdə islahat keçirilməsinin, bundan istifadə edib sultana diplomatik tə'cir göstərməklə kifayətlənməyin tərəfdarı idilər.

Avstriya-Macarıstan da sultan hökumətini müdafiə etməyə can atırdı. Onun Şərqi Anadoluda heç bir marağı yox idi. Ümumiyyətlə, erməni məsələsində Avstriya-Macarıstan Almaniyanın hər hansı mövqeyi ilə razılaşırdı.

İtaliya bu məsələdə təcavüzkar mövqedən çıxış edirdi. Türkiyənin parçalanması İtaliya hökumətinin ürəyindən idi. Onda Aralıq dənizində tam üstünlük



İtaliyanın əlinə keçə bilərdi. İngiltərə erməni məsələsində İtaliyanın mövqeyini müdafiə edirdi.

Beləliklə, adları çəkilən hər bir dövlət erməni məsələsində Türkiyəyə müəyyən səviyyədə təzyiq göstərmək, öz maraqlarına cavab verən məsələlərin həllinə nail olmaq məqsədini güdürdülər.

## II FƏSİL

# ÜÇLƏR İTTİFAQININ YARADILMASI DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

## Üçlər ittifaqı

Bu ittifaqın tarixi öz başlanğıcını 1870-ci illərdən alır və 1914-cü ildə Avropanın iki böyük ittifaqa bölünməsi, iki böyük hərbi qruplaşmanın yaradılması, birinci dünya müharibəsinin başlanması ilə nəticələnir.

Bu tarix mürəkkəb, ziddiyyətli və prinsipsiz intriqaların, ittifaqların, sazişlərin, müqavilələrin, birincilərin tam əksinə olan başqa saziş və müqavilələrin bağlanması nəticəsində yaranmış ittifaqlar silsiləsi tarixidir. Bu dövr çoxlu müxtəlif istiqamətli və müxtəlif məqsədli, gizli bağlaşmaların mövcudluğu ilə səciyyələnir.

Avropanın taleyində altı dövlət – Almaniya, Rusiya, Fransa, İngiltərə, Avstriya-Macarıstan və İtaliya əsas rol oynayırdılar. Frankfurt müqaviləsinin şərtləri ilə razı olmayan Fransa əvəz çıxmaq üçün məqam gözləyirdi. Almaniya isə hər vəchlə Fransanı təkləmək vəziyyətində saxlamağa cəhd edirdi. Buna görə də Bismark Avstriya-Macarıstan və Rusiya ilə ittifaq bağlamağa çalışırdı. O, bir neçə ilə buna nail ola bildi. Hətta 1887-ci ildə üç imperatorun ittifaqı dağılandan sonra belə xeyli müddət gizli müqavilələrin bağlanması vasitəsi ilə Rusiya və Almaniya arasında sıx əlaqələr davam etdirilmişdi. Bu müqavilələrdən Almaniyanın müttəfiqi Avstriya-Macarıstanın belə xəbəri olmamışdı.



Nəhayət, Bismark Avstriya-Macarıstan və Rusiya ilə eyni vaxtda ittifaqın, sıx əlaqələrin davam etdirilməsinin mümkün olmadığı qənaətinə gəldi. Çünki Rusiya və Avstriya-Macarıstan cənubi-şərqi Avropada Balkanlarda tamamilə bir-birilərinə qarşı əks siyasət yeridirdilər.

Bismarkın 1879-cu ilin avqustunda Qaşteyndə Andraşi ilə görüşündə onun çoxdan düşündüyü müqavilənin əsası qoyuldu. Bismark Andraşi ilə danışıqları davam etdirirdi.

Sentyabrın 21-də Bismark Vyanaya gəldi. Onlar Avstriya-Macarıstan-Almaniya müqaviləsinin mətnini razılaşdırmalı idilər. Nəhayət, gərgin mübahisələrlə keçən danışıqlardan sonra oktyabrın 7-də müqavilə imzalandı. Almaniya imperatoru oktyabrın 15-də onu təsdiq etdi.

Almaniya - Avstriya - Macarıstan ittifaqına 1882-ci ildə İtaliya da qoşuldu. Beləliklə, Üçlər ittifaqı yaranmış oldu. Bu ittifaqın yaranması prosesi necə getmişdir? İndi gəlin, bu prosesi izləyək.

## Berlin konqresindən sonra beynəlxalq münasibətlər

Berlin konqresinin sabahı günü Bismark gözləyirdi ki, Rusiya Berlin traktatının həyata keçirilməsinə mane olacaq addımlar atacaq. Təhqir olunmuş Qorçakovun qəlbi nifrətlə dolu idi. II Aleksandr Vilhelmlə qohumluğuna baxmayaraq, o, kayzerə qarşı narazılığını gizlədə bilmirdi.

Alman kanslerinin özünü aparması göstərirdi ki, Avstriya-Rusiya müharibəsi baş verərsə, Almaniya Avstriya-Macarıstanı müdafiə edəcək. Şərq böhranı

zamanı Bismarkın tutduğu mövqe rus-alman münasibətlərinin pisləşməsinə səbəb oldu.

Rusiya mətbuatı, alman imperiyasının ünvanına tənqid və məzəmmətlərlə dolu idi. İki dövlət arasında münasibətlər kəskinləşmişdi. Rusiya ordusunu qərb sərhədlərinə cəmləşdirirdi. Bundan başqa, Bosniyalıların da uzun müddət Avstriya-Macarıstan ordusuna müqavimət göstərməsində də Rusiyanın əli hiss olunurdu. Slavyanları qızışdırmaqla Rusiya, Habsburqlar imperiyasında onsuz da mövcud olan daxili narahatlığın daha da güclənməsinə səbəb olmuşdu. Bundan ciddi həyəcan keçirən Frans-İosif əsas diqqətini Almaniya tərəfə yönəltməyə məcbur olur. Bismark da bundan istifadə edərək, asanlıqla Andraşini inandıra bilir ki, Almaniya ilə sıx ittifaq Avstriya-Macarıstanı onu hədələyən bütün təhlükələrdən xilas edə bilər.

Avstriya-Macarıstanla ittifaq haqda danışıqları davam etdirən Bismark, Rusiyanı da yaddan çıxarmırdı, borclu qalmaq istəmirdi. O Rusiyanın «yaxşılığı bilmədiyi» haqda versiya barədə mətbuatda geniş kompaniyaya başladı. Bismark təsdiq edirdi ki, guya Berlin konqresində o, Rusiyanın xeyrinə Rusiya diplomatlarının birlikdə etdiklərindən çox etmişdi.

Onu da qeyd etmək lazımdır ki, nə Qorçakov, nə də II Aleksandr konqresdən sonra ilk vaxtlarda, Almaniyanın ünvanına mətbuatda tənqidi çıxışlara baxmayaraq, Bismarka qarşı açıqdan-açığa düşmənçilik mövqeyi tutmurdular. Əksinə, balkanların yeni sərhədlərini müəyyən etmək üçün yaradılmış komissiyada rus diplomatları alman nümayəndələrinin köməyinə nail olmağa çalışırdılar.

İlk düşmənçilik addımını Bismark atdı.



O, 1878-ci ilin oktyabrında, bu komissiyadakı alman nümayəndələrinə Rusiya əleyhinə mövqe tutmaq haqqında göstəriş verdi.

Alman siyasətindəki bu dönüşü Rusiya hökuməti bərk ürək ağrısı ilə qarşıladı.

Rus-alman münasibətlərinin soyumasının ikinci səbəbi iqtisadi ziddiyyətlər idi. Almaniya rus xammalı üçün ən mühüm bazar idi. 1879-cu ildə Rusiya ixracatının 30 faizi Almaniyanın payına düşürdü. Yunkerlərin xeyrinə olaraq, Bismark 1879-cu ildə karantin tədbirləri adı altında Rusiyadan mal-qara gətirilməsini qadağan etdi. Buna bəhanə Həştərxan quberniyasında yayılmış çuma xəstəliyi olmuşdu.

Karantin tədbirlərinin həyata keçirilməsindən sonra 1879-cu il yanvarın 31-də təkcə müxalif slavyanafil mətbuatı deyil, Peterburqun «Qolos» qəzeti də Bismark əleyhinə kompaniyaya başladı. Alman kansleri də döyüşdən kənarda qalmadı. Almaniya taxıl üzərinə də rüsum qoydu. Bu mal-qara haqqında tədbirdən də daha çox Rusiyaya zərbə vurdu. Bismark, Rusiyanın pul sistemini tamam dağıtmağa çalışırdı. Bütün bunlar Rusiya ilə Almaniya arasında münasibətləri daha da kəskinləşdirdi.

Alman siyasətinin rəhbərləri bu dəfə Rusiya ilə münasibətlərin kəskinləşməsinə heç də təəssüflənmirdilər. Əksinə, bu hazırkı mərhələdə onların məqsədlərinə uyğun idi. O, Avstriya-Macarıstanla çoxdan düşünülmüş sıx əlaqələrin yaradılmasına şərait yaradırdı. Lakin belə siyasət Vilhelmin ciddi müqaviməti ilə rastlaşırdı. İmperator Rusiyaya qarşı ittifaq bağlamağın əleyhinə idi. Bu maneəni aradan qaldırmaq üçün Bismark Rusiyanın düşmənçiliyinə Vilhelmi inandırmağa

cəhd edirdi, guya Berlin konqresindən sonra Rusiya Almaniyaya qarşı düşmənçilik mövqeyi tutur. O, bunun üçün II Aleksandrın 1879-cu il avqustun 15-də Vilhelmə yazdığı məktubdan istifadə etmişdi. Həmin məktubda çar Berlin traktatının həyata keçirilməsində Almaniyanın tutduğu mövqedən şikayətlənirdi. Məktubun sonunda çar xəbərdarlıq edirdi ki, bu ölkələrimiz üçün məhvedici ola bilər. Çarın məktubu Bismark üçün göydəndüşmə kimi oldu. II Vilhelm çarın məzəmmətindən incimişdi. Lakin bu onun heç də Avstriya-Almaniya ittifaqına mənfi münasibətini dəyişdirə bilməmişdi. O, bunu çara izah etməyə çalışdı. Bu məqsədlə özünün adyutantı feldmarşal Manteyfeli Sankt-Peterburqa göndərdi.

II Aleksandr Kayzerin nümayəndəsini sakitləşdirə bildi. Çar Vilhelmlə şəxsən danışmaq arzusunda olduğunu bildirdi. Bismarkın e'tirazlarına baxmayaraq, Vilhelm çarın təklifinə razılıq verdi. Sentyabrın 3-4-də Rusiya ərazisində Aleksandrovda, sərhəddin yaxınlığında onlar görüşdülər. Vilhelm öz qohumu ilə tamamilə barışdığı əhval-ruhiyyədə Berlinə qayıtdı. O, Avstriya ilə ittifaqı heç cür eşitmək istəmirdi.

İmperatorun razı olmadığına baxmayaraq, Bismark Andraşi ilə danışıqları davam etdirirdi. Sentyabrın 21-də kansler Vyanaya gəldi. O, Avstriya-Majarıstan naziri ilə ittifaq müqaviləsinin mətni barədə şərtləşdi. Danışıqlar heç də asanlıqla getmirdi.

Bismark ilk variantda Avstriya-Macarıstanla təkcə Rusiyaya qarşı yox, həm də Fransaya qarşı yönəldilmiş sazişə nail olmağa çalışırdı. Lakin Andraşi bundan imtina etdi.

Bismark geri çəkilməli oldu.



Avstriya-Almaniya ittifaq müqaviləsi Andraşinin təklif etdiyi kimi qəbul edildi. Müqavilənin birinci maddəsində deyilirdi: «Əgər razılığa gəlmiş yüksək tərəflər,... iki imperiyadan birinin üzərinə Rusiya tərəfdən hücum olunarsa, özlərinin ixtiyarında olan bütün hərbi qüvvələrlə bir-birilərinə kömək etməlidirlər və buna uyğun olaraq ümumi və hər iki tərəfin qarşılıqlı razılığı ilə ... sülh bağlamalıdırlar. Əgər Rusiya yox, başqa dövlət hücum edərsə, hər iki tərəf bir-birinə sərfəli bitərəflik saxlayacaqlar. Əgər Rusiya təcavüzkara qoşularsa, əgər belə olarsa, dərhal birinci maddə qüvvəyə minir». Müqavilə gizli saxlanılmalı idi. Andraşi parlamentdə ciddi müxalifətin olacağından ehtiyat edirdi. Bu müqavilə həm Rusiya, həm də Fransa əleyhinə yönəldilmişdi. Vilhelm dərhal müqaviləni imzalamaq istəmədi. Lakin kansler iste'fa verəcəyi ilə onu hədələdi. Nəhayət, kayzer güzəştə getməli oldu.

1879-cu il oktyabrın 7-də müqavilə Vyanada qraf Andraşi və alman səfiri knyaz Reys tərəfindən imzalandı. Oktyabrın 15-də isə onu imperator təsdiq etdi.

Avstriya-Almaniya arasında ittifaqın gizli bağlanmasına baxmayaraq, tezliklə digər dövlətlər ondan xəbər tutdular. Üç dövlətin – Fransanın, İngiltərənin, Rusiyanın Almaniyaya qarşı geniş miqyasda intriqa, fitnə, fəsad başlayacaqları gözlənilirdi.

Lakin London kabinetinə Lord Bikonsfild rəhbərlik etdiyi müddətdə Britaniya hökuməti Bismarkın diplomatik müvəffəqiyyətlərini alqışlayırdı. 1879-cu ildə onun başı, zulusları güclə özünə tabe etməyə və Britaniya protektoratlığını qəbul etməyən əfqanlara qarışmışdı.

1880-cı ilin aprelində Bikonsfild hakimiyyətdən getdi, onu Qladston əvəz etdi. Əvvəlki illərdə olduğu kimi, liberalların lideri bütün diqqətini daxili məsələlərə cəmləşdirdi. İrlandiyanın daxili işlərini qaydaya salmağa yönəltdi. Xarici siyasət sahəsində onun doktrinası aydın idi. Türkiyə onda nifrət yaradırdı, onu heç bir sivilizasiyaya qovuşa bilməyən vəhşi dövlət hesab edirdi. İngiltərə Rusiyaya qarşı Türkiyəni müdafiə etmək və Rusiyaya qarşı açıq müharibəyə girmək marağında deyildi. Əksinə, o, Şərqi bölmək naminə Rusiya ilə yaxınlaşmaq haqda düşünürdü.

Qladstonun özünü belə aparması onu göstərirdi ki, o, həm Rusiyaya, həm də Fransaya qulluq göstərmək istəyir. Belə ki, o, 1880-cı ildə Berlin traktatına uyğun olaraq, ərazilərin Çernoqoriyaya verilməsində Rusiyaya ciddi kömək göstərdi.

1881-ci il martın 13-də II Aleksandrın faciəli ölümündən sonra hakimiyyətə III Aleksandrın gəlməsi ilə ingilis-fransız-rus sazişinin bağlanacağına ümid bəsləmək olardı, çünki III Aleksandrda Almaniyaya qarşı güclü antipatiya var idi. Bu Bismarkın nəzərindən yayına bilməzdi.

Müqavilə imzalanandan sonra Bismark kayzerin çara məktubunun mətnini tərtib etdi. O Vyanaya səfərinin səbəblərini çara şərh etməyi zəruri sayırdı. Əslində, məktubun məqsədi Avstriya-alman ittifaqının həqiqi sifətini və məzmununu gizlətmək idi. Çara xəbər verilirdi ki, Bismarkın Andraşi ilə görüşü, qarşıdakı istefasının səbəblərini öyrənmək idi. Bununla yanaşı, guya sülh işini qorumaqda hər iki tərəfin həmrəyliyi barədə saziş imazalanmışdı. Sonda isə çar həmin uydurma sazişə qoşulmağa də'vət edilirdi.



Qoca imperator öz əli ilə ona təklif olunan «sazişin» mətnini yazıb, imzalayıb çara göndərdi.

Vyanaya səfərindən sonra kansler Qaşteyn kurortunda Rusiyanın Parisdəki səfiri Orlovla görüşdü. O, gülərək, Bismarkdan soruşdu: Siz Rusiyaya qarşı ittifaq bağlamaq üçünmü Vyanaya getmişdiniz? Kansler heç gözünü qırpmadan cavab verdi ki, əksinə, mən Avstriyanı Rusiyaya qarşı hər hansı düşmənçilik hərəkətlərindən yayındırmaq üçün Avstriyaya getmişdim.

Bismarkın bu manevri Almaniyaya çox baha başa gəldi. Doğrudur, o, 90-cı illərin əvvəllərində özünü büruzə verdi. Rusiya əleyhinə müqavilənin başlıca məqsədi Fransanı təkləmək olan Bismark siyasətinin bütövlükdə iflasına gətirib çıxartdı. Əslində sülh yox, Avropada müharibə işinə xidmət edən Avstriya-Almaniya ittifaqı Rusiya və Fransa arasında ittifaqı doğurdu.

Bismark, Avstriya-Macarıstanla ittifaq bağlayaraq, onun həm də təhlükəli olduğunu heç də unutmurdu. Lakin o, həm də inanırdı ki, Rusiyaya qarşı bu düşmənçilik aktı onun xeyrinə idi. Rusiyanın maliyyə cəhətdən üzülməsi, ölkənin həyəcanlı daxili vəziyyəti onun yaxın vaxtlar ərzində hücumçu siyasət yeritməsinə başlamağa imkan verməyəcəkdi. Əlbəttə, burada Rusiyanın Orta Asiyadakı siyasəti müstəsnalıq təşkil edirdi. Yenə müharibə həm də rus ordusunun yenidən qurulması barədə hərbi nazir D.A.Milyutinin düşündüklərini həyata keçirməyə imkan verməzdi.

Bunlarla yanaşı, Rusiyanın beynəlxalq vəziyyəti də çox mürəkkəb idi. Şərq böhranı və Berlin konqresi rus-ingilis münasibətlərindəki gərginliyi gücləndirdi. İngiltərə

ilə ixtilaf göz qabağında idi. Onun hərbi dəniz donanması boğazlarda qalmaqda idi. Rus-türk müharibəsindən sonra İngiltərə faktiki olaraq Dardanel və Bosforda öz ağalığını bərqərar etmişdi. Milyutin 1879-cu il martın 22-də gündəliyində yazmışdı: «Mövcud vəziyyətdə İngiltərə artıq faktiki olaraq, İstanbula və boğazlara sahiblənmişdi. Türkiyə paytaxtının həqiqi sahibi Sultan yox, İngiltərənin nümayəndəsi idi. Baxmayaraq ki, ingilis donanması Mərmərə dənizinə çıxmışdı, o istədiyi vaxtı yenə boğazlara və hətta Qara dənizə daxil ola bilər: ona heç kim mane ola bilməz."

Doğrudur, Berlin konqresindən bir az sonra İngiltərə və Rusiya arasında eyni vaxtda Britaniya donanmasını boğazlardan və Rusiya qoşunlarını İstanbulun sahillərindən aparmaq haqqında danışıqlar başlamışdı.

1878-ci il avqustun 10-da İngiltərənin Xarici İşlər Naziri lord Solsberi Rusiyanın müvəqqəti işlər vəkili ilə söhbətində demişdi ki, bu məzmunda İngiltərə Rusiya ilə saziş imzalamağı arzu edir. Rusiya Xarici İşlər Nazirliyi bu bəyanatı böyük həvəslə bəyəndi. Londondakı müvəqqəti işlər vəkilinin Sankt-Peterburqa yazdığı məktubda deyilirdi ki, rus ordusunun geri çəkilməsi və ingilis donanmasının İstanbuldan çıxarılması haqda sazişə gəlmək üçün biz heç nəyi nəzərdən qaçırmamalıyıq.

Lakin tezliklə mə'lum oldu ki, silahlı qüvvələrin qarşılıqlı surətdə çıxarılması haqda sazişi ingilislər tam başqa mənada təsəvvür edirlər. Rusiya müvəqqəti işlər vəkili Solsberi ilə bu təklifi hərtərəfli müzakirə edərkən aydın oldu ki, rus qoşunlarının geri çəkilməsi əvəzində



ingilislər donanmanı Hollipola, yəni Dardanelə çəkmək barədə düşünürlər. Donanmanı tamamilə o vaxt boğazlardan aparacaqlar ki, rus orduları Şərqi Rumelidən və Bolqarıstandan çıxarılmış olsun. Rusiya hökuməti Londona xəbər göndərdi ki, onun fikrincə donanmanın Hollipolda saxlanılmasına heç bir əsas yoxdur. İngilislərin belə mövqe tutmasına görə Rusiya hökuməti tərəfindən sentyabrın 29-da müvəqqəti işlər vəkilinə tapşırıldı ki, Londona xəbər versin ki, rus qoşunlarının çıxarılması Türkiyə tərəfindən İstanbul və Berlin traktatlarının şərtlərinin dəqiqliyi ilə yerinə yetirilməsindən asılı olacaq.

İngiltərənin boğazları işğal etməsindən ehtiyat edərək, Rusiya 1879-cu ildə böyük dövlətlərə müraciətin layihəsini təqdim etdi. Həmin layihədə təklif edilirdi ki, ümumi razılıq ilə aşağıdakı məzmunda qərar qəbul edilsin: «Türkiyə imperiyası tam dağıldığı halda böyük dövlətlərdən heç birinin İstanbul və boğazları tutmasına imkan verilməyəcək».

Faktiki olaraq ingilis donanması 1879-cu ilin yayına qədər Mərmərə dənizində qalmışdı. Bu Peterburqu həmişə gərginlikdə saxlamışdı. Rus hökuməti 1878-ci ilin ikinci yarısında dəfələrlə özünün Londondakı səfirindən soruşmuşdu ki, yaxın vaxtlarda İngiltərə Rusiyaya qarşı müharibəyə hazırlaşırmı?

Nəhayət, İngiltərə donanması boğazları tərk etdi. Lakin ingilis hərbi dəniz donanması Aralıq dənizinin şərq hissəsində öz ağalığını davam etdirməkdə idi.

Çar hökuməti yenə ehtiyat edirdi ki, İngiltərə ilə yeni ixtilaf baş verərsə, onun donanması yenə də boğazlara, oradan da Qara dənizə daxil ola bilər. Berlin konqresində aydınlaşmışdı ki, İngiltərə hərbi gəmilər

üçün boğazların bağlı olması prinsipinə riayət etmək fikrində deyil. Qara dənizdə donanmasının olmaması üzündən Rusiyanın min verstlərlə sərhədi ingilis donanmasının toplarının atəşi altında qala bilər, Rusiyanın Qara dənizdəki ticarəti İngiltərənin zorakılığı altına düşə bilər.

Belə təhlükənin mövcud olduğu şəraitdə Rusiyanın yeganə çıxış yolu Qara dənizdə öz donanmasını yaratmaq idi. Lakin bu heç də asan deyildi. **Birincisi,** donanmanı qısa dövrdə yaratmaq mümkün deyil. **İkincisi,** onun yaradılması üçün çoxlu vəsait tələb olunurdu. Rusiyanın isə belə vəsaiti yox idi. O, yalnız 1881-ci ildə, yəni rus-türk müharibəsinin qurtarmasından üç il sonra onun yaradılmasına başlaya bildi.

1881-ci il sentyabrın 6-da toplanmış xüsusi müşavirədə Qara dənizdə Türkiyə donanmasından üstün, ingilis təhlükəsi şəraitində güclü qüvvə ilə Bosfora daxil olmağa hazır ola bilən donanma yaradılması qərara alındı. İlk hərbi gəmi 1885-1886-cı illərdə qara dənizdə suya buraxıldı.

Əsas pul vəsaiti və əsas diqqət 1871-ci ildən sonra Almaniya ilə ola biləcək müharibə hazırlığına sərf edilmişdi.

Bu, İngiltərəyə qarşı mübarizəyə hazırlığı çətinləşdirmişdi. Bununla yanaşı, rus diplomatiyası həmişə çalışmışdı ki, İngiltərəni onun mümkün müttəfiqlərindən, birinci növbədə Avstriya-Macarıstandan ayırsın. Həm də İngiltərəyə hiss etdirsin ki, onun yaralı yerlərində, xüsusilə Hindistanın Şimali qərb sahilində İngiltərəyə ciddi narahatlıqlar yarada bilər.



Rusiyanın planında Türkiyəni də İngiltərədən ayırmaq mühüm yer tuturdu. Bu baxımdan, Qara dənizdə donanmasının olmaması üzündən Rusiyanın silahlı qüvvələrinin boğazlara daha yaxın yerlərdə yerləşdirilməsi çox vacib idi.

Rusiya bu vəzifələri birincisi, üç imperatorun sazişinin bərpa edilməsi ilə; ikincisi, öz ordusunu Orta Asiyaya yeritməklə; üçüncüsü, İngiltərəni ehtimal edilən müttəfiqlərindən ayırmaqla, dördüncüsü, ehtiyac olarsa Fransa donanmasından istifadə etməklə həll etməyi nəzərdə tuturdu. 1882-ci ildə İngiltərənin Misiri tutması gözlənilmədən əsas vəzifənin həll edilməsinə səbəb oldu. O, Türkiyəni İngiltərədən ayırdı, ingilis siyasətinin saxtalığını göstərdi. İngilis-türk ittifaqı dağıldı.

Beşincisi, Bolqarıstanda Rusiya tə'sirinin gücləndirilməsinə nail olmaq. Bunu o, Rusiya zabitlərinin rəhbərliyi altında Bolqarıstan ordusunun yaradılması ilə həll etmək fikrində idi. Bolqarıstanda möhkəmlənməklə, Rusiya daima boğazları zərbə altında saxlaya bilərdi. Berlin konqresindən sonra Rusiya diplomatiyasının qarşısında duran vəzifələr bunlardan ibarət idi.

Bu vəzifələrin yerinə yetirilməsi rus xarici siyasət rəhbərliyinin dəyişdirilməsi dövrünə düşür.

Səhhətinin pisləşməsi ilə əlaqədar olaraq knyaz Qorçakov 1879-cu ilin sonlarından tamam fəaliyyətdən kənarda qalmışdı. Artıq onun yaşı 81-i keçmişdi. O formal olaraq, 1882-ci ilədək vəzifədə qalmışdı. Nazirliyin idarəsi onun köməkçisi N.K.Qirsə həvalə edilmişdi. Qirs o qədər də görkəmli şəxsiyyət deyildi. O məsuliyyətdən, xüsusi ilə III Aleksandrdan daha çox qorxurdu. Milliyətcə alman olan Qirs hər vasitə ilə Al-

maniyanın mənafeyinə toxunmamağa və Bismarkın xoşuna gəlməyə cəhd edirdi.

1878-1881-ci illərdə, II Aleksandrın çarlığının son illərində Qirsin başı üstündən rus diplomatiyasına rəhbərliyi hərbi nazir Milyutin həyata keçirirdi. O, Qirsə nisbətən qat-qat güclü şəxsiyyət idi. Lakin o, diplomatdan daha çox birinci dərəcəli hərbi təşkilatçı idi, hərb sənətinin professoru idi. Sərkərdə, hərbi general və müstəqil şəxsiyyət idi.

Bu dövrdə rus diplomatiyasının başlıca vəzifəsi ölkə üçün sülhü tə'min etmək, ordunun yenidən qurulmasını başa çatdırmaq idi. Milyutin tərəfindən həyata keçirilən tədbir- bir sıra hərbi birləşmələrin cənubdan və Rusiyanın mərkəzi vilayətlərindən Almaniya ilə sərhəd olan quberniyalara cəmləşdirməkdən ibarət oldu. Bunun bir neçə səbəbi var idi. Qafqaz müharibəsi qurtarmışdı. 1871-ci ildən sonra Rusiyanın qərb sərhədlərinin arxasında güclü hərbi dövlət yaranmışdı.

Rusiyanın mövcud potensial düşmənlərindən ən təhlükəlisi Almaniya idi. Lakin Milyutin hamıdan az Almaniya ilə müharibəni istəyirdi, Almaniya imperiyası ilə sülhün hərtərəfli möhkəmləndirilməsinin tərəfdarı idi. Rusiya Ali qərargahının gördüyü tədbirlər yalnız müdafiə xarakteri daşıyırdı.

Berlin traktatının icrası üzrə beynəlxalq komissiyalarda alman diplomatiyasının taktikası Sankt-Peterburqda ciddi narahatlıq doğururdu. Altı böyük dövlətin nümayəndələrindən ibarət olan Avropa komissiyası Bolqarıstanın Türkiyə və Rumıniya ilə sərhəddini müəyyən etməli idi. Berlin traktatına görə, Bolqarıstan knyazını və Şərqi-Rumelinin general-



qubernatorunu böyük dövlətlərin razılığı ilə Sultan təyin etməli idi.

Traktatın 24-cü maddəsində göstərilirdi ki, əgər Yunanıstan və Türkiyə yunan-türk sərhədlərinin dəyişdirilməsi məsələsində razılığa gələ bilməsələr, onda bütün dövlətlər vasitəçilik etməlidirlər. Burada söhbət Türkiyənin Fessaliyanı Yunanıstana güzəştə getməsindən gedirdi. 66-cı maddə isə Türkiyənin vilayətlərdə islahatlar keçirməsinə aid idi.

Böyük dövlətlər yeri gəldi-gəlmədi hər an Balkan məsələlərinə, Rusiya və Türkiyə arasındakı münsaibətlərə müdaxilə etməyə çalışırdılar. Rusiya tamam təklənmişdi. Buna görə də o, komissiyaların fəaliyyətinə, habelə Berlin traktatının şərtlərinin icra edilməsi üçün yaradılmış apparata lazımi tə'sir göstərə bilmirdi. Doğrudur, Peterburqun ixtiyarında Türkiyənin Avropa ərazisində onun xeyli hissəsini tutmuş ordusu var idi. Məhz bu vasitədən istifadə edilməyə başlanıldı.

1878-ci il sentyabrın 27-də Rusiyanın baş qərargahı Türkiyə paytaxtının sahillərindən Adrianopola köçürüldü. Bundan sonra rus ordusunun Türkiyədən getməsi dayandırıldı.

Bunu etməklə, Rusiya özünü təklənmədən xilas etməyə çalışırdı. Bunu o, Berlin və Vyana ilə yaxınlaşmaqda görürdü. Belə qərara, 1878-ci ilin avqustunda Qorçakovun bütün işi Qirsə təhvil verib müalicə üçün xaricə getməsindən sonra gəlindi. İndi xarici işlər üzrə çarın məsləhətçiləri Qirs və Milyutin idi. 1878-ci ilin payızından çarın yanında bir neçə müddət Rusiyanın Londondakı səfiri Şuvalov olmuşdu. O, Berlin konqresində əsas nümayəndələrdən biri olmuşdu.

Şuvalov sentyabrda, istirahətdə olduğu vaxt Vyanaya getmişdi. O, imperator Frans-İosif və Andraşi tərəfindən hörmətlə qəbul edilmişdi. Onlar Rusiya ilə dostluq münasibətlərini müdafiə etmək arzusunda olduqlarını bildirmişdilər. Bu, Rusiya hökumətində belə bir fikir yaratdı ki, ən mühüm diplomatik tapşırıqla Şuvalovu Vyanaya göndərmək.

Milyutinin gündəliyindəki qeydlərdən aydın olur ki, Vyanada və Berlində bünövrə yaratmaq məsələsi çarın yanında Qirs və Milyutinin iştirakı ilə Livadidə keçirilən müşavirədə qərara alınmışdı. Burada qərara gəlinmişdi ki, Şuvalov Avstriya-Macarıstandan və Almaniyadan keçmək şərti ilə Krımdan Londona öz iş yerinə getsin. O, Andraşi ilə, əgər imkan olarsa, Bismarkla görüşsün. Şuvalovun başlıca vəzifəsi ondan ibarət idi ki, Avstriya-Macarıstan kabinetinin məqsədini öyrənsin və inansın ki, Türkiyəyə münasibətdə əsas məqsəd üç imperatorun əvvəlki birliyini bərpa etməkdi.

Şuvalov Andraşi ilə söhbətində rus ordusunun geri çəkilməsinin müvəqqəti dayandırılmasının səbəblərini Avstriya-Macarıstan nazirinə izah etməli idi. Şuvalov bildirməli idi ki, maliyyə və digər məsələlərin tənzimlənməsi haqqında Berlin traktatında nəzərdə tutulmuş «əlavə aktı» Türkiyə imzalamayınca, rus qoşunları tutmuş olduğu əraziləri tərk etməyəcək. O həm də qeyd etməli idi ki, nə Yunanıstan, nə Serbiya, nə də Çernoqoriya Berlin konqresinin qərarı ilə Türkiyədən onlara verilmiş ərazilərə hələ daxil olmayıblar. Axırda Şuvalov Avstriya-Macarıstan hökumətindən xahiş etməli idi ki, əgər şərait rus ordusunun geri çəkilməsinin dayandırılmasını zəruri edərsə, Avstriya-Macarıstan «bizə mə'nəvi köməyini müzaiqə etməsin».



Əgər Andraşi ilə danışıqlar uğurlu olarsa, Şuvalov Berlinə getməli, danışıqların nəticələri barədə Bismarka mə'lumat verməli və üç imperatorun sazişi əsasında gələcəkdə atılacaq addımlar üçün daha konkret, əməli tədbirlər barədə onunla danışıq aparmalı idi.

1878-ci il noyabrın 11-də Şuvalov Vyanaya gəldi. Bu vaxt Bosniya və Herseqovinanı Avstriya-Macarıstana təhvil vermək üzərində iki dövlət arasında çətinliklər yaranmışdı. Bu Rusiya üçün əlverişli idi.

Şuvalov Vyanaya gələndə Andraşi Budapeştdə idi. O, Macarıstanın paytaxtına getməli oldu. Noyabrın 12-də onlar görüşdülər. Şuvalov Andraşiyə bildirdi ki, hər iki dövlətin yaxınlaşmasının arzu edildiyini, çarın Berlin konqresinin qərarlarına hörmətlə yanaşdığını bildirdi. O, şikayətləndi ki, türklər Berlin traktatının qərarlarının çoxuna əməl etmək istəmirlər. Şuvalov birlikdə hərəkət etməyi xahiş etdi. Şuvalova cavabında Andraşi çox ətraflı danışmağa başladı və dedi ki, Avstriya-Macarıstanın ictimai fikri onu Rusiyaya hədsiz meyl göstərməkdə günahlandırır. O, Şuvalovu inandırdı ki, o, bu təzyiqlərin tə'siri altına düşməyəcək. O, həm də balkanlardakı rus nümayəndələrinin vahid Bolqarıstan uğrunda təşviqat apardıqlarını qeyd etdi. Halbuki, Berlin traktatına görə Bolqarıstan parçalanmalı idi. Andraşi, Şuvalovun suallarına sabah cavab verəcəyini bildirdi. Noyabrın 19-da o, Şuvalovu qəbul etdi və ona aşağıdakıları bildirdi: Berlin traktatına uyğun olaraq, Bolqarıstan ərazisindən kənarda yaşayan xristianların təhlükəsizliyi ilə təkcə Rusiya yox, bütün Avropa məşğul olmalıdır. O, qəti surətdə rus ordusunun çıxarılması müddətinin uzadılması əleyhinə çıxdı. O, rus-türk müqaviləsinin bağlanması məsələsində də Rusiyaya

tərəfdar çıxmaqdan imtina etdi, bu, Rusiya və Türkiyənin özlərinin işidi dedi. Beləliklə, qoyulan bütün məsələlər üzrə Şuvalov rədd cavabı aldı. Təkcə bir məsələdə bəzi köməklik göstərməyə razı olduğunu bildirdi. O da, Türkiyə-Çernoqoriya münasibətlərinə aid idi. O, razılaşdı ki, türklər Podqorisdən Çernoqoriyaya keçəcək digər ərazilərdən getməyincə, Rusiya Şərqi Rumelinin cənubunda yerləşmiş ərazilərdən öz qoşunlarını çıxara bilməz.

Budapeştdən getməzdən əvvəl, Şuvalov Avstriya-Macarıstandakı Almaniyanın səfiri Reyslə görüşdü. Şuvalov öz gəlişinin məqsədi haqqında ona mə'lumat verdi və bu barədə Berlinə xəbər verməyi xahiş etdi. Şuvalov Budapeştdə olduğu günün sabahısı, birinci görüşdən sonra, Bismarkın cavabını aldı. O, xəbər verirdi ki, Avstriya-Macarıstanla saziş mümkün olarsa, o, buna çox şad olar. Lakin Bismark heç bir fəallıq göstərməyi arzu etmirdi. Buna görə də Şuvalov Bismarkla söhbətdən imtina etdi.

Beləliklə, üç imperatorun sazişini bərpa etmək sahəsində Rusiyanın ilk təşəbbüsü uğursuz qurtardı.

## İstanbul sülh müqaviləsi. Rusiya qoşunlarının Türkiyədən çıxarılması. Bolqar milli dövlətinin yaradılması

1879-cu ilin əvvəllərində Rusiya diplomatiyası bir sıra uğurlar qazandı. Rus qoşunlarının çıxarılmasının ləngidilməsi, Türkiyəni sülh müqaviləsini imzalamağa məcbur etdi. Rusiya ilə sülh müqaviləsi 1879-cu il fevralın 8-də İstanbulda imzalandı. Müqavilədə göstə-



rilirdi ki, Berlin konqresində San-Stefano sülh müqaviləsinin müddəaları ya ləğv edilmiş, ya da dəyişdirilmiş maddələrlə əvəz edilmişdi. San-Stefano sülhünün qalan şərtləri yeni İstanbul müqaviləsində öz sonuncu əksini tapmışdı. Türkiyənin Rusiyaya verəcəyi hərbi xərcin miqdarı 802500 min frank (255 mln. rub) müəyyən edilmişdi. Bura müharibə dövründə çəkmiş olduqları və Türkiyədən iddia etdikləri ziyan daxil deyildi. Belə iddiaların ümumi məbləği 26250 min frankdan artıq olmalı idi. Bundan əlavə Türkiyə əsirlərinin saxlanılması xərclərini də Türkiyə ödəməli idi. Göründüyü kimi, bu sənəd siyasi sənəddən daha çox maliyyə sənədi idi.

İstanbul müqaviləsinə görə müharibə dövründə düşmən qoşunları ilə əlaqə saxlamaqda şübhəli olan Rusiya və Türkiyə vətəndaşları təqib olunmamalıdırlar. Son hadisələrdə iştirak etmiş bütün türk vətəndaşlarına, yəni Türkiyə ağalığına qarşı milli azadlıq hərəkatında iştirak etmiş bütün şəxslərə amnistiya verilirdi. Rusiya Sultandan həm də belə bir vəd aldı ki, o yaxın vaxtlarda öz qoşunlarını Şərqi Rumeliyə göndərməyəcək. Beləliklə, rus qoşunları getdikdən sonra Şərqi Rumelidə yeganə silahlı qüvvə yerli milis qalmışdı. O, isə Rusiya hökuməti tərəfindən silahlandırılmışdı.

Sülh müqaviləsi imzalandıqdan sonra 1879-cu ilin fevral-mart aylarında rus ordusu Türkiyənin bütün ərazisindən çıxarıldı. Şərqi Rumelidən və Bolqarıstan knyazlığından başqa. Rusiya Berlin traktatı imzalanandan sonra doqquz ay, yəni 1879-cu ilin aprelinədək həmin əyalətlərdə öz qoşunlarını saxlaya bilərdi.

1879-cu il fevralın 22-də Rusiyanın Bolqarıstandakı komissarı Dondukov-Korsakov Tırnovda Bolqarıstanın

təcis məclisini açdı. O, rus ordusunun qələbəsi nəticəsində dirçəlmiş Bolqar dövlətinin konstitusiyasını qəbul etməli idi. Komissar «təşkilat nizamnaməsi»nin layihəsini təqdim etdi. O, Bolqarıstandakı Rusiya hakimiyyət nümayəndələri tərəfindən hazırlanmışdı.

Tırnov məclisi Bolqarıstan knyazlığının konstitusiyasını qəbul etdi. Bolqarıstan konstitusiyalı monarxiya olurdu. Lakin orada ümumi seçki hüququ tətbiq olunur və mətbuat, yığıncaq, ittifaq azadlığı müəyyən edilirdi. Lakin Bolqarıstan-Türkiyə münasibətləri Konstitusiyada öz əksini tapmamışdı.

1879-cu ilin iyulunda rus ordusunun axırıncı hissələri Bolqarıstanı tərk etdilər.

Rus qoşunlarının köçürülməsi yenə də Rusiyanın mövqeyini xeyli zəiflətdi. Berlin traktatının icrası ilə bağlı məsələlərin tənzimlənməsi daha da çətinləşdi. Bolqarıstanın, Serbiyanın, Yunanıstanın, Çernoqoriyanın sərhəd məsələləri hələ də həll edilməmişdi.

Komissiyalardakı rus nümayəndəliyinin vəziyyəti yenə də əvvəlki kimi qalmaqda idi. Ona heç kim qulaq asmaq, onu eşitmək istəmirdi.

Almaniyanın Rusiyaya qarşı düşmənçiliyinin günü-gündən artdığı bir şəraitdə II Aleksandr kayzerə məktub yazmalı oldu. Baden kurortunda olan və hələlik Rusiyanın Xarici İşlər Naziri hesab olunan Qorçakov Fransanın «Soley» qəzetinə verdiyi müsahibəsində belə bir arzunu bildirmişdi: «Fransa güclü olmalıdır». O, Fransa ilə yaxınlaşmanın tərəfdarı idi. Lakin II Aleksandr hökuməti onun göstərdiyi yolla getmədi. Çar və onun yaxın məsləhətçiləri Milyutin, Qirs, imperator sarayının naziri Adlerberq Fransa ilə yaxınlaşmaq haqqında deyil, Almaniya ilə dostluq, yaxınlaşmaq haqda düşünürdülər.



Məhz belə şəraitdə alman diplomatiyasının Rusiyaya qarşı düşmənçilik əhval-ruhiyyəsindən əsəbiləşmiş çar kayzerə məktubunda gileylənirdi.

Məktub göndəriləndən bir az sonra çara Rusiyanın Afinadakı keçmiş səfiri Saburovun məktubunu verdilər. Saburov 1879-cu ilin yazında alman kurortu Kissinhendə Bismarkla iki dəfə iyulun 22 və 26 görüşmüş, söhbət etmişdi. O, 1879-cu il avqustun 25-i tarixli məktubunda bildirirdi ki, «Bizim Almaniya ilə münasibətlərimiz böhran həddinə yaxınlaşır, bizim düşündüyümüzdən daha ciddidir». Saburovun məktubu çara böyük təcir etdi. Xarici İşlər Nazirliyinin rəhbər məmurlarından biri olan qraf Lamzdorf yazmışdı ki, o, yəni Saburovun məktubu şəraitə yeni aydınlıq gətirdi.

Çarın Varşavada manevrlərə getmək vaxtı çatdı. O, Aleksandrovda Vilhelmlə və Manteyfellə danışıqlar apardı. Sonra Bismark Vyanaya getdi və nəhayət Almaniya və Avstriya-Macarıstan arasında gizli ittifaq müqaviləsi imzalandı.

Alman kansleri ümid edirdi ki, o, Rusiyaya qarşı bu düşmənçilik aktını cəzasız həyata keçirəcək. Beləliklə, Alman diplomatiyası Rusiyaya qarşı özünə müttəfiq tapdı. Bismark həm də Rusiyanın düşmüş olduğu çətin vəziyyətdən istifadə edərək, Rusiyanı da öz tərəfinə çəkmək və onun Fransa ilə yaxınlaşmasına imkan verməmək haqqında da düşünürdü. 80-ci ilin sonlarına qədər Bismark bu hiyləgər və mürəkkəb manevrləri ilə öz məqsədinə həmişə nail olurdu. O, Avstriya-Rusiya, İngiltərə-Rusiya ziddiyyətlərindən çox məharətlə öz xeyrinə istifadə edirdi. Rusiyanı Almaniya ilə üç imperatorun sazişinin bərpa edilməsi bağlıya bilərdi.

Çar Varşava və Aleksandrovdan birbaşa Livadiyə qayıtdı və Saburovu da ora də'vət etdi. Saburov Bismarkla söhbətlərinə dair 5 məktub göndərmiş və yay söhbətlərini ətraflı şərh etmişdi. Saburovun çıxardığı başlıca nəticə o idi ki, Almaniya ilə danışıqları bərpa etmək və onunla dostluq münasibətlərinə nail olmaq.

Bu nöqteyi-nəzər Qirs, Milyutin və çar tərəfindən bəyənildi.

Saburov Berlinə göndərildi. Onun vəzifəsi Almaniya ilə münasibətləri normallaşdırmaqdan ibarət idi. Rusiya hökuməti Almaniya ilə iki tərəfli, Avstriya-Macarıstansız saziş bağlamaq fikrində idi. Saburov bir az sonra Rusiyanın İstanbuldakı səfiri vəzifəsindən azad olundu, Rusiyanın Almaniyadakı səfiri vəzifəsinə təyin olundu. O, Ubrini əvəz etdi. Bismarkın Ubrini görən gözü yox idi, onu Rusiya-Fransa yaxınlaşmasının tərəfdarı hesab edirdi.

Bismark, hələ 1879-cu il sentyabrın 1-də Manteyfelin çarın yanına səfərindən sonra hesab edirdi ki, Rusiya ilə ittifaq mümkün deyil, Almaniyanın Avstriya-Macarıstanla yaxınlaşmasına mane ola bilər. Avstriya ilə iş qurtardıqdan sonra Saburov Bismarkı tamam başqa əhval-ruhiyyədə gördü. Bismark Saburovu mehribanlıqla qarşıladı. Doğrudur, o, Rusiyanın Almaniyaya qarşı düşmənçilik mövqeyindən şikayətləndi. Onun sözlərinə görə, ona belə bir xəbər çatmışdı ki, guya Rusiya Fransa və İtaliyaya ittifaq təklif etmişdi. Kansler bildirdi ki, o artıq Avstriya ilə ittifaqa nail olmuşdu. Bütün bunlardan sonra o, üç imperatorun ittifaqının bərpa edilməsinə hazır olduğunu bildirdi. Lakin şərt qoydu ki, Avstriya-Macarıstan da mütləq sazişdə iştirak etməlidi.



Saburov əvvəlcə elə təsəvvür edirdi ki, nəinki Almaniya ilə Avstriyasız, hətta Avstriyaya qarşı danışıqlara gəlməyə nail olacaq. Lakin sonra diplomat inandı ki, bu mümkün deyil.

Avstriyalılar Bismarkı çoxlu çətinliklərlə üzləşdirdi. İngiltərə ilə əməkdaşlığa ümid bəsləyən Avstriya-Macarıstan Rusiya ilə sazişə razı deyildi. Habsburqlar monarxiyasının hakim dairələri üçün onların xarici siyasət istiqamətində iki yol var idi. **Birincisi,** Avstriyanın Balkanlarda istilaçı mənafeyinə uyğun olaraq, Rusiyaya qarşı birgə mübarizədə İngiltərə ilə əməkdaşlıq;

**İkincisi,** Balkanlarda mənafelərinin bu və ya başqa formada müxtəlif maraqları olan Rusiya ilə sazişə nail olmağa cəhd etmək. Bir qayda olaraq adətən Avstriya burjuaziyası və macar əyanları Rusiya əleyhinə xəttin, Avstriya torpaq aristokratiyası və slavyan dairələri isə Rusiya ilə sazişin tərəfdarları idilər. İngiltərə ilə sıx əməkdaşlığa ümid edən Andraşi Avstriya-Macarıstanın başlıca rəqibləri ilə sazişə gəlmək istəmirdi.

Lakin 1880-cı ilin aprelində olan bir hadisə Avstriya-Macarıstanı öz mövqeyinə yenidən baxmağa vadar etdi.

İngiltərədə hökumət dəyişikliyi baş verdi. Bikonsfildin mühafizəkar hökuməti süqut etdi. Hakimiyyətə başda Qladston olmaqla, liberal partiya gəldi.

Qladston 1879-cu il noyabrın 27-də e'lan etdiyi özünün seçkiqabağı proqramında bildirmişdi ki, iqtisadi, sülhün saxlanması haqqında, altı böyük dövlət tərəfindən razılaşdırılmış siyasəti, müdafiə siyasətini

yeridəcək. Bütün seçki kompaniyasını Qladston Bikonsfildin xarici siyasətinin tənqidi şüarı altında aparmışdı. Qladston ingilis diplomatiyasının tarixi ənənəsinə-öz düşmənlərini başqasının əli ilə vur - ənənəsinə sadiq olaraq onu indi başqa, daha ardıcıl formada aparmağa hazırlaşırdı.

Bikonsfild ingilis-türk ittifaqını bağladı, İngiltərə-Avstriya-Macarıstan əməkdaşlığını yaratdı. Bunlar isə İngiltərəni Rusiya ilə müharibəyə sövq edə bilərdi. Bu isə İngiltərə diplomatiyasının ənənəsinə xas deyildi. İngiltərənin yeni Xarici İşlər Naziri Qrenvil 1880-cı il mayın 4-də vəzifəsinə başlayan kimi beş böyük dövlətlərin səfirliklərinə rəsmi teleqram göndərdi. Həmin teleqramda Berlin traktatının qərarlarının icrasının həyata keçirilməsində Türkiyənin süründürməçiliyinə son qoymaq, Yunanıstan, Çernoqoriya və ermənilər barəsində traktatda nəzərdə tutulanların həyata keçirilməsini Türkiyə hökumətindən tələb etmək üçün böyük dövlətlərin birləşməsi təklif edilirdi. Bu, o demək idi ki, İngiltərə Bikonsfildin Türkiyə ilə yaxınlaşmaq siyasətindən uzaqlaşır, Rusiyanın nöqteyi-nəzərinə yaxınlaşır.

1880-cı ilin payızı və 1881-ci ilin əvvəllərində Qladston hökuməti Rusiya ilə birlikdə Berlin traktatında nəzərdə tutulduğu kimi, Fessaliyanı Yunanıstana verməyə və Çernoqoriya ilə sərhədlərin düzəldilməsinə Türkiyəni məcbur etdi.

Uzun müddət Vyanada və Budapeştdə inanmaq istəmirdilər ki, İngiltərə Rusiya və Türkiyəyə qarşı öz siyasətini dəyişə bilər. Nəhayət, Avstriya-Macarıstan hökuməti inandı ki, o daha İngiltərədən kömək gözləyə bilməz. Onda tərəddünün sonu çatdı. Nəhayət, 1881-ci



il iyunun 18-də Avstriya-Rusiya-Almaniya müqaviləsi imzalandı.

1873-cü ildə olduğu kimi, bu müqavilə də üç imperatorun ittifaqı adı altında tarixə daxil oldu. Birinci müqavilədən bu müqavilənin fərqi ondan ibarət idi ki, o məsləhət xarakteri daşıyırdı və birinci növbədə bitərəflik haqqında saziş idi. Razılığa gəlmiş tərəflər öz öhdələrinə götürürdülər ki, əgər onlardan biri dördüncü böyük dövlətlə müharibə təhlükəsi qarşısında qalardısa, onlar xeyirxah bitərəf mövqedə dayanacaqlar. Bu, o deməkdir ki, Rusiya Almaniya–Fransa münasibətlərinə qarışmayacaq. İngilis-rus müharibəsində də digərləri bu mövqedən çıxış edəcəklər. Bitərəflik siyasəti Türkiyəyə də aid edilirdi. Lakin bu müharibənin nəticələrini onlar əvvəlcədən razılaşdırılmalı idilər. Digər iki dövlətlə razılaşmadan heç bir dövlət Balkanlarda mövcud vəziyyəti dəyişdirə bilməzdi. Bundan əlavə, Avstriya və Almaniya vəd edirdilər ki, əgər Türkiyə boğazların bütün hərbi gəmiləri üçün bağlanması prinsipindən əl çəkərsə, onlar Türkiyəyə qarşı Rusiyanın diplomatiya sahəsindəki fəaliyyətini müdafiə edəcəklər, ona diplomatik dəstək verəcəklər. Bu maddə Rusiya üçün çox vacib idi. Beləliklə, İngiltərə donanmasının Qara dənizdə görünə bilməsi ehtimalı aradan qalxmış oldu.

«Üç imperatorun ittifaqı» haqqında müqavilə gizli saxlanmalı idi.

Müqaviləyə protokol əlavə edilmişdi. Bu protokolda müqavilənin ikinci maddəsi konkretləşdirilirdi. O maddədə balkanların bir neçə problemlərinə dair məsələlərdən söhbət gedirdi.

Müqaviləyə əsasən, Avstriya-Macarıstan, onun tərəfindən tutulmuş Türkiyə əyalətlərini, Bosniya və

Herseqovinanı ilhaq etmək hüququnu özündə saxlayırdı. Üç dövlət öhdələrinə götürdülər ki, əgər lazım gələrsə, Türkiyənin Şərqi Rumelini və Bolqar yüksəkliyini tutmasını birlikdə rədd etsinlər. Üç dövlət həm də Bolqarıstanın Şərqi Rumeli ilə mümkün birləşməsinə yol verməməyi də vəd edirdilər. Onlar həm də bolqarları hər hansı təcavüzkar hərəkətlərdən çəkindirməli idilər.

Beləliklə, 1881-ci il 18 iyun müqaviləsi ilə Bismark özünə Rusiya-Fransa ittifaqından tə'minat aldı, lakin həmin müqavilənin ən nazik əl tutan tərəfi o idi ki, o Avstriya-Rusiya ziddiyyətlərinin kəskinləşməsi dövrünə qədər davam edə bilərdi. Başqa sözlə, üç imperatorun ittifaqı, Yaxın Şərqdə vəziyyətin bu və ya digər dərəcədə sakit olduğu dövr üçün möhkəm olacaqdı.

## Böyük dövlətlərin müstəmləkələr uğrunda mübarizəsi

Yeni torpaqlar və ərazilər tutmaq, onları özlərinin müstəmləkələrinə çevirmək uğrunda mübarizə böyük dövlətlər arasında yeni ziddiyyətlərin daha da kəskinləşməsi ilə özünü büruzə verirdi. Bu mübarizədə fəal iştirak edən İngiltərə, Fransa, Almaniya, Rusiya, Avstriya-Macarıstan və İtaliya idi. Kapitalın inkişafı və təmərküzləşməsi onun yeni bazarlara və xam mal mənbələrinə olan ehtiyacının günü-gündən artması onları təmsil edən dövlətlərin bu mübarizə meydanına daha qızğın surətdə atılmasını zəruri edirdi.

Suveyş kanalının açılması ilə İngiltərənin qarşısında Hindistana və Uzaq Şərqə gedən yaxın yola



sahiblənmək vəzifəsi durdu. Bu yol Aralıq dənizi vasitəsi ilə Suveyş kanalı və Qırmızı dənizdən keçirdi.

İngiltərə cəbəllütariqə və Ədənə sahiblənməklə bu dənizlərdən okeanlara çıxan yolları öz nəzarəti altında saxlayırdı. Onun Malta adasındakı hərbi dəniz bazası Aralıq dənizi rayonunu blokadaya almaq üçün ən əlverişli idi. Lakin kanal İngiltərənin nəzarətindən kənarda idi. O, kommersiya baxımından fransız kompaniyalarının əlində idi. Siyasi cəhətdən isə Misirin ərazisindən keçdiyinə görə, Misir hökumətinin və vassalı olduğu Türkiyə Sultanının əlində idi. Misir çox zəif dövlət idi. Buna görə də o, istənilən vaxtı Avropanın böyük dövlətlərindən birinin tə'siri altına düşə bilərdi.

Bu dövlət isə o dövrdə İngiltərədən sonra ikinci dəniz dövləti olan Fransa ola bilərdi. Şərqi Aralıq dənizi ölkələrində Fransa həm də güclü iqtisadi tə'sirə malik idi.

Bu məsələni öz xeyirlərinə həll etmək üçün əvvəlcə İngiltərə hökuməti Dizraeli kanal üzərində öz iqtisadi ağalığını tə'min etdi. Misir xədifinin (Monarxının) pula böyük ehtiyacı var idi. Buna görə də o Suveyş kanalı kompaniyasından ona məxsus olan 176600 frank aksiyanı satmaq qərarına gəlmişdi. Suveyş kanalının aksiyası cəmi 400 min frank idi.

Bunu eşidən kimi Dizraeli vaxt itirmədən Rotşild bankir evinin köməkliyi ilə 1875-ci il noyabrın 25-də o aksiyanı aldı. Beləliklə, İngiltərə hökuməti Suveyş kanalı üzərində nəzarəti öz əlinə keçirdi.

Lakin təkcə iqtisadi təcir heç də kifayət deyildi. Fransa Misirdə və Aralıq dənizi ölkələrində siyasi hegemonluğa nail olarsa, kanal üzərində təkcə kommersiya nəzarəti Hindistana gedən yol üzərində

İngiltərənin ağalığını tə'min edə bilməzdi. Gələcəkdə Rusiya, boğazları tutardısa və Qara dənizdə güclü donanmaya sahib olardısa, bu da Suveyş kanalına, İngiltərəyə böyük təhlükə yarada bilərdi.

Suveyş kanalının satılması Misir hökumətini maliyyə çətinliyindən xilas edə bilmədi. 1875-ci ilin noyabrında Misir hökuməti maliyyə məsələləri üzrə ona iki mütəxəssis vermək haqqında İngiltərə hökumətinə müraciət etdi. İngiltərə hökuməti bunu çox razılıqla qarşıladı. Lord Derbi iki nəfər əvəzində xüsusi nümayəndəlik göndərməyi təklif etdi. Xədif maliyyə vəziyyətinin çətinliyini nəzərə alaraq bu təklifə razılığını bildirdi. Misirə baş xəzinədar Keyv başda olmaqla, nümayəndəlik göndərdi.

Keyv belə məsləhət gördü ki, maliyyə sahəsində idarə etmənin müvəffəqiyyəti ölkənin ehtiyatlarının inkişaf etdirilməsi və təsərrüfatının idarə edilməsindən yox, ölkə xərclərinin məhdudlaşdırılmasından asılıdır. Maliyyə sahəsində mütəxəssislərlə yanaşı, dövlətin maliyyəsini və idarəsini tədqiq etmək üçün nəzarətçilər də göndərildi.

Xədif özünün maliyyəsini yoxlamağa icazə verdi, lakin sazişə gəlmək mümkün olmadı. Keyvin missiyasından narahat olan Fransa hökuməti Misirə öz nümayəndəsini göndərdi, ingilis nümayəndəliyinin bütün işlərinə mane olmağı ona tapşırdı. Fransızlar ingilislərə nisbətən daha yüngül şərtlərlə maliyyə köməyi təklif etdilər. Xədif ingilis-fransız rəqabətindən istifadə edərək, Keyvdən yaxasını qurtarmağa ümid bəsləyirdi.

İngiltərə hökuməti də Fransanın Misirin maliyyə vəziyyətini düzəltməyə yönəldilmiş layihəsinə mane olmağı qərara aldı. Buna nail olmaq üçün İngiltərə



hökuməti Xədifin maliyyə vəziyyətinin pis olması haqqında Keyvin məruzəsini e'lan edəcəyi ilə Xədifi hədələdi. Əlbəttə, o e'tiraz etdi.

Dizraeli yeni manevr ilə cavab verdi. O, aşkarlığın tərəfdarı rolunda çıxış etdi. Parlamentdə edilən sorğu ilə əlaqədar olaraq o bildirdi ki, Keyvin mə'ruzəsini e'lan etmək istəyir, lakin Xədifin e'tiraz etməsi buna imkan vermir. Bu bəyanatı ilə Dizraeli Misirin maliyyə vəziyyətinin acınacaqlı olduğu haqqında təsəvvür yaratdı. Nəticədə Misir kağızının kursu birjada dərhal aşağı düşdü. Keyvin «köməyi» və «məsləhəti» Misirin kreditini pozdu, pul bazarlarını onun üzünə bağladı. 1876-cı il aprelin 8-də Misir hökuməti maliyyə müflisliyi haqqında bəyanat verməyə məcbur oldu.

İngiltərə hökuməti bu siyasəti ilə Misiri özünün əsarəti altına salmaq məqsədini güdürdü. Lakin bu onun düşündüyü kimi nəticələnmədi. Əksinə, müflis olmaq Misir hökumətinin fransız bankirləri ilə danışıqları, fəallaşdırmasına səbəb oldu. Onlar may ayında Misirin borclarını bir araya toplayıb möhkəmləndirmək sahəsində razılığa gəldilər. Bu «kömək»də beynəlxalq maliyyə nəzarətinin yaradılması ilə qurtardı. «Misirdə dövlət borcunun kassası» adlı orqan yaradıldı.

Fransa Misir dilbirliyi İngiltərə üçün sərfəli deyildi.

1876-cı ilin noyabrında «kassa»dan əlavə Xədifə maliyyə nəzarəti də yaradıldı. Onlardan biri ingilis, digəri fransız idi. İngilis gəlirə, fransız çıxara nəzarət edirdilər. Lakin bu ingilisləri kifayətləndirmirdi. Fransızlar üçün bu böyük qələbə idi.

Lakin beynəlxalq şəraitin əlverişli olmadığını nəzərə alaraq, İngiltərə mövcud vəziyyətlə razılaşmalı oldu. Şərq böhranı kəskinləşməkdə idi. Üç imperatorun

ittifaqı hələ dağılmamışdı. Belə şəraitdə İngiltərə Fransa ilə münasibətləri kəskinləşdirə bilməzdi. Bismark isə İngiltərənin Misiri işğal etməsini təkid edirdi.

Bir qədər sonra lord Solsberi İngiltərənin belə mövqe tutmasını aşağıdakı səbəblərlə izah etmişdi. İngiltərənin qarşısında iki yol var idi: ya Misirdən imtina etmək, bu fransızlar tərəfindən ingilislərin Hindistana gedən yolun qabağının kəsilməsi demək idi, ya da Misiri öz inhisarı altına almaqdı, bu isə müharibəyə risk demək idi. Üçüncü çıxış yoluna əl atılmalı oldu. Misirdə tə'sir dairələrini Fransa ilə bölüşdürmək. Bu, ingilis nöqteyi-nəzərindən heç də ideal çıxış yolu deyildi. Lakin bundan yaxşı variant yox idi.

Əslində, ingilis-fransız maliyyə nəzarəti Misirin sərvətlərinin vəhşicəsinə talan edilməsi üçün bir vasitə idi. Misirin iqtisadiyyatı bütünlüklə xaricilərin əlində idi. 1878-ci ilin avqustunda «kassa» xədifi Nübar paşanın başçılığı altında yeni hökuməti yaratmağa məcbur etdi. Nübar paşa tam mə'nası ilə xarici kapitalın əlində idi. Əsas nazirliklərə xaricilər – ingilislər, fransızlar, italyanlar başçılıq edirdilər. Nübar paşa xədifi saymırdı.

Əvvəlcə ingilislər yalnız «Misirdə dövlət borcunun kassası» sədrinin müavini ser Rivers Vilsonun maliyyə naziri olmasını nəzərdə tuturdular. Lakin fransızlar bu planı pozdular. İctimai işlər üzrə nazir fransız, başqa bir nazirliyə italyan tə'yin olundu. Xaricilərin ağalığı ölkədə böyük narazılıqla qarşılanırdı. 1879-cu il fevralın 18-də Misir zabitləri Nübar paşanın karetasını saxladılar. O, Vilsonla birlikdə idi. Onlar həbs edildilər. Lakin Xədifin işə qarışması nəticəsində azad edildilər. Nübar paşa bütün xarici nazirləri ilə birlikdə vəzifədən götürüldü.



Beləliklə, 1876-cı ildə tətbiq edilmiş maliyyə nəzarətinin birinci dövrü belə qurtardı.

Kreditorların həyəcanının həddi yox idi. İngiltərə isə bütün bunlardan öz xeyrinə istifadə etməyə çalışırdı. Ona elə gəlirdi ki, beynəlxalq nazirliklərin ləğv edilməsi İngiltərənin separat fəaliyyəti üçün əlverişli şərait yaradar.

Bu günlərdə Solsberi Parisdəki Fransa səfirinə yazmışdı: «Bizim Fransa ilə kompaniya yaratmaqda heç bir arzumuz yoxdur. Biz Fransanın Misirdə bu və ya digər nüfuza sahiblənməsini bundan az arzu etmirik». Əgər əvvəllər ingilis mətbuatı xədifi və onun hökumətini vəhşi adlandırırdısa, indi isə Nübarın və xarici kriditorların üzərinə hücuma keçmişdi.

Bankirlər özləri özlərinə kömək etməyə girişdilər. Parisli Rotşild son istiqraz üzrə qalmış məbləği Misir xəzinəsinə ödəməkdən imtina etdi. Bu məbləğ qısamüddətli borcları ödəmək üçün idi. Onların içərisində alman bankirləri, o cümlədən Bismarkın dostu Bleyxreder də var idi. Almaniya hökuməti Misir hökumətinə kəskin e'tirazla müraciət etdi. Avstriya-Macarıstan bu protestə qoşuldu.

İngiltərə hökuməti təklikdə qalmışdı. Birgə təzyiq altında 1879-cu il iyunun 26-da Xədif İsmayıl taxtdan iste'fa verdi. Onun yerinə oğlu Tevfik keçdi.

1881-ci il sentyabrın 9-da Polkovnik Əhməd Ərəbinin başçılığı altında üsyan baş verdi. Onlar gənc Xədifin onların rəhbərliyinə tabe olmasına nail oldular. O, vətənpərvərlərdən nazirlər tə'yin etdi. 1882-ci ilin əvvəllərində xarici nəzarətçilər işdən kənarlaşdırıldılar.

Misirdəki hadisələr Fransada Qambettanın kabinetinin hakimiyyətə gəlməsinə təsadüf etdi. Yeni

hökumət ingilis hökumətinə (Qladstona) Misirdə mövcud qaydaların dəyişdirilməsinə qarşı birlikdə Xədifə müraciət haqda təklif verdi. Əgər Xədif onların təklifini qəbul etməsə, Xədifə qarşı sanksiya tətbiq olunsun, birlikdə ingilis-fransız hərbi müdaxiləsi həyata keçirilsin.

Lakin Qladston və onun Xarici İşlər Naziri lord Qrenvil hərbi müdaxilənin əleyhinə idilər. Nə üçün Fransa ordusu Misirə buraxılmalıdır?

Lakin İngiltərə bir neçə müddət qəti addımlar atmaqda tərəddüd edirdi. Buna baxmayaraq o, Misirə qarşı silahlı müdaxiləyə hazırlaşırdı. Bu müharibəni başlamaqla, İngiltərə həm Misirdə milli-azadlıq hərəkatını boğardı, həm də Fransanın Misirdəki tə'sirinə son qoymuş olardı.

Bu dövrdə bilavasitə Fransanın təşəbbüsü ilə İstanbulda böyük dövlətlərin səfirlərinin konfransı toplandı. Fransanın məqsədi İngiltərənin Misirə qarşı planlarını alt-üst etmək idi. O, istəyirdi ki, bütün dövlətlər Misirdə «hər hansı ərazilərə yiyələnməmək və müstəsna qazanc axtarmamaq» haqda öhdəlik götürsünlər. İngiltərə vaxtından əvvəl özünün ifşa olunmasına imkan verməmək üçün belə öhdəlik götürməyə məcbur oldu. İngiltərə konfransdan Türkiyənin Misiri hərbi cəhətdən cəzalandırmaq hüququ barədə layihənin müdafiə edilməsi üçün istifadə etdi. Başqa dövlətlər onunla razılaşdılar. Burada İngiltərə diplomatiyası öz həmkarlarını qabaqladı.

## Misirin işğalı

Böyük dövlətlərin səfirlərinin İstanbulda danışıqlar apardıqları vaxtda Misirdə milli-azadlıq hərəkatı



genişlənirdi. Xədif qaçaraq İskəndəriyyəyə gəldi, limanda dayanmış ingilis və fransız gəmilərinə sığındı. 1882-ci ilin iyununda xaricilərə qarşı İskəndəriyyədə üsyan baş verdi. Yüzlərlə adam, o cümlədən, 50 nəfər xarici vətəndaş öldürüldü. Belə hadisələr başqa yerlərdə də baş verdi. Xarici müdaxilənin olacağını əvvəlcədən görən milli hökumət İskəndəriyyəni möhkəmlətməyə başladı. Artıq aranı qarışdırmaq üçün bəhanə tapılmışdı. İngilis admiralı Seymur xəbər verirdi ki, sahildə düzəldilən sədlər gəmilər üçün ciddi təhlükə yaradır. Elə bu, İngiltərənin qarışması üçün bəhanə oldu. İyulun 3-də Seymur sədlərin çəkilməsinin dayandırılmasına nail olmaq, əgər zəruri olarsa, onları dağıtmaq haqda öz hökumətindən əmr aldı.

İngiltərə hər vasitə ilə Misirə Türkiyə qoşunlarının göndərilməsinə mane olmağa çalışırdı.

Bu dövrdə Fransada hakimiyyətdə Freysine idi. O, Misirə, xüsusilə Suveyş keçidinə qoşun göndərməyə hazır idi. Yalnız Fransa parlamenti Misirə müdaxiləyə icazə verməkdən imtina etdi. Freysine istefaya getməyə məcbur oldu. Palatanın əksəriyyətinin fikrincə, Fransa öz qüvvələrini Avropadan apara bilməz. Fransa gəmiləri İsgəndəriyyədən geri çağırıldı.

Lakin ingilislər hərəkət edirdilər. Seymur iyulun 10-da Misir hökumətinə ultimatum verdi, iyulun 11-i səhər saat 7-də isə həm sədləri, həm də şəhərin özünü bombalamağa başladı. Şəhərdə yanğınlar baş verdi. İki gündən sonra isə desant çıxarıldı. Avqustun 2-də ingilis hind-qoşunları Suveyşi tutdular. Sentyabrın 13-də Tel-əl-Kəbir altında Misir qoşunları məğlub edildi, sentyabrın 15-də Qahirə tutuldu. Qısa müddətdə bütün Misir işğal edildi.

Qladston hökuməti e'lan edirdi ki, o, Misirdə qalmaq fikrində deyil. Ölkədə sakitlik yaranan kimi ingilis qoşunları Misiri tərk edəcəklər. 1922-ci ilə kimi bir fransız publisistinin hesablamasına görə, İngiltərə 66 dəfə belə bəyanatlar vermişdi. Britaniya ordusu ölkədə qalmaqda davam edirdi.

Qladston hökuməti nəinki öz qoşunlarını Misirdən çıxarmadı, əksinə, indi Sudana göz dikmişdi. Lakin bu istək yerinə yetmədi. 1885-ci ilin əvvəllərində Məhdi adlı şəxsin başçılığı altında üsyan başlandı.

Ərəblər başda general Qordon olmaqla Xartumda ingilis ordu dəstəsini qılıncdan keçirdilər.

1883-cü ilin əvvəlində ingilislərin tələbi ilə Xədif ikitərəfli təsərrüfat nəzarəti haqqında fərmanı ləğv etdi. İngilis maliyyə oliqarxiyasının ən varlı sülalərindən birinin üzvü Evelin Berinq Misirə göndərildi. Ölkənin həqiqi sahibi indi o idi. O, 23 il bu vəzifədə qalmış, lord Kromer titulu almışdı.

Fransa İngiltərənin Misiri işğalı ilə razılaşa bilmirdi. O, hər vasitə ilə bu ölkədə ingilis siyasətinə mane olmağa çalışırdı. Bu işdə "Misir borcu kassası" onun əlində silah rolunu oynayırdı. Kassa dövlət gəlirinin böyük hissəsinin sahibi idi, beləliklə, onun ölkənin idarə edilməsinə qarışmaq imkanları var idi. Misir uğrunda mübarizə ingilis - fransız ziddiyyətlərini hədsiz dərəcədə kəskinləşdirdi.

Bu dövrdə Fransa tərəfindən Tunisin işğal edilməsi Fransa-İtaliya münasibətlərini kəskinləşdirdi.



## Tunisin işğal edilməsi
## Fransa-İtaliya münasibətlərinin kəskinləşməsi

Fransanın Misirə qoşun göndərməyə cür'əti çatmadı. Bu Misir xalqına və habelə İngiltərəyə qarşı mübarizə üçün metropoliyadan böyük qüvvəni uzun müddətə aparmaq demək idi. Onu da nəzərə almaq lazım idi ki. Misirlə rəqabətdə ingilislər Fransadan güclü idi. Fransanın müstəmləkələr uğrunda mübarizəsinə alman-fransız ziddiyyətləri də mane olurdu.

Fransa kapitalının ilk qurbanı Tunis oldu. Malta və Siciliya ilə birlikdə Aralıq dənizinin dar hissəsində yerləşən Tunis Aralıq dənizində ağalıq üçün böyük əhəmiyyət kəsb edirdi. O, həm də Fransa üçün Əlcəzairdə və onun ətrafındakı ölkələrdə Fransa ağalığını müdafiə etmək üçün də böyük əhəmiyyətə malik idi. Tunisin İtaliyanın əlinə keçməsi Aralıq dənizində Fransanın mövqeyi üçün ciddi təhlükə ola bilərdi. Siciliyaya sahiblənmiş İtaliya Tunisi işğal etməklə Fransanın əlaqəsini Suveyş kanalından, Hindi Çinə, Uzaq Şərqə gedən yoldan kəsə bilərdi.

Hələ 60-cı illərdən Tunis İngiltərə və Fransanın maliyyə əsarəti altına düşmüşdü. Ona 12, hətta 15 faizlə verilən kredit Tunisi diz çökdürmüşdü. 1869-cu ildə ölkənin ağır maliyyə vəziyyəti Tunisin borcunun beynəlxalq komissiyasının yaradılması ilə nəticələndi. O, dövlət gəlirinin xeyli hissəsini öz əlinə aldı. Komissiyada ingilislər, fransızlar, italyanlar ağalıq edirdilər. Onların arasında qızğın mübarizə gedirdi. Fransızlar teleqrafa konsessiya aldılar. Dəmir yol konsessiyası uğrunda

ingilis, fransız, italyan kapitalı arasında kəskin mübarizə gedirdi.

Berlin konqresi (1878-ci il 13 iyun) gedən zaman Kipr konvensiyasının bağlanması ifşa ediləndə Fransa nümayəndəsi e'tirazını bildirmək istədi. Bu, İngiltərə üçün baha başa gələ bilərdi. Buna yol verməmək üçün İngiltərə hökuməti bildirdi ki, Kiprin əvəzində Fransanın Tunisi işğal etməsinə mane olmayacaq.

Bismark da öz növbəsində Tunisi fransızlara təklif etmişdi. Kansler arzu edirdi ki, Fransanın başını belə işlərlə qatsın, başqa dövlətlərlə, hazırda isə İtaliya ilə onun münasibətlərinin kəskinləşməsinə nail olsun.

Berlin konqresindən sonra Fransa Tunisi işğal etmək üçün ciddi hazırlaşmağa başladı. İtaliya ona mane olmağa cəhd edirdi. Diplomatiyanın köməyi ilə Fransa kapitalı ölkənin xalq təsərrüfatının bütün sahələrinə soxulmağa cəhd edirdi. Fransanın "Bon-Quelma" səhmdar cəmiyyəti ilə İtaliyanın "Rubbatino" kompaniyası arasında Tunis-Quletta dəmir yolu uğrunda qızğın döyüş gedirdi. Başqa konsessiyalar ətrafında ziddiyyətlər kəskinləşdi.

Torpaqlara və feodal hüquqlarına xarici kapitalın yiyələnməsi Tunisə sahiblənmənin adi formalarından idi.

1880-cı ildə ən iri feodal Xərəddinin malikanəsinin alınması uğrunda Fransanın Marsel kompaniyası ilə İngiltərə sakini Levi arasında kəskin əlbəyaxa mübarizə baş vermişdi. Bu məsələdə Fransa uddu. Bununla kifayətlənməyən Fransa Tunisi bütünlüklə işğal etmək istəyirdi (1883-1885).

Tunis-Əlcəzair sərhədlərində tez-tez köçəri ərəb tayfaları arasında toqquşmalar baş verirdi. Fransa bundan istifadə etdi. 1880-cı ildə hakimiyyətə gəlmiş



Ferri elə göstərməyə çalışdı ki,guya bunlar Əlcəzairin sakitliyini pozurlar, onun üçün ciddi təhlükə təşkil edirlər. Fransa hökuməti bildirdi ki, öz malikanələrində qayda-qanun yaratmaq üçün Fransa Tunis bəyinə "kömək" göstərməyə məcburdur. Bu «kömək» adı altında Fransa ekspedisiya korpusu Tunisin mühüm mərkəzlərini tutdu.

İndi diplomatiyanın vəzifəsi olmuş faktı formaya salmaq idi. Bəy ölkəsinin fransızlar tərəfindən işğal edilməsinə razılıq verməli idi. Fransızlar bununla bəyin əl-qolunu bağlamaq, təbəələrinin işğalçılara qarşı qızışdırılmasına mane olmaq məqsədini güdürdülər. Bəyin yay iqamətgahı yerləşdiyi Bardoya Fransa ekspedisiya korpusunun komandiri və Fransanın Tunisdəki diplomatik agenti Rustan gəldilər. Onlar bəyə bildirdilər ki, Fransa hökuməti onun taxt-tacını saxlayır, o şərtlə ki, Fransanın protektoratlığını tanısın. Fikirləşmək üçün ona bir neçə saat vaxt verildi. Elə həmin dəqiqə müqavilənin mətni ona təqdim edildi. Bəyi bu təklifə razılıq verməyə məcbur etmək üçün ona bildirdilər ki, Bardodan bir az aralı fransız qoşunlarının müdafiəsi altında bir vəliəhd gözləyir, o bəyin taxt-tacına yiyələnmək iddiasındadır. Azca düşündükdən sonra bəy Bardo müqaviləsini imzalamalı oldu (1881-ci il, mayın 12-də). Doğrudur, formal olaraq Tunisin suverenliyi saxlanılırdı. Lakin fransızlar bəyi məcbur etdilər ki, o Tunisdə fransız qoşunlarının saxlanmasına razılıq versin və onun xarici siyasətini müəyyən etsinlər.

1883-cü ildə Tunisin altında La-Marsda imzalanan konvensiyaya görə Tunis üzərində Fransanın protektoratlığı təsdiq olundu.

Fransa tərəfindən Tunisin işğal edilməsi Aralıq dənizinə hakim olmaq uğrunda mübarizə ilə məhdudlaşmadı. O, ümumiyyətlə, Avropada qüvvələrin qruplaşmasına ciddi tə'sir göstərdi. Bismark çox incə diplomatik fənd işlətdi. O, bir tərəfdən İtaliya və Fransa arasında ziddiyyətlərin kəskinləşməsinə cəhd edir, digər tərəfdən Fransaya və İtaliyaya himayədarlıq edirdi.

Fransızlar Tunisi işğal edəndə Kayroli nazirliyi hakimiyyətdə idi. Kayroli Triyestin və Trentinonun İtaliyaya birləşdirilməsinin qatı tərəfdarı idi. O ərazilər isə Avstriya-Macarıstanın hakimiyyəti altında idi. Avstriyaya nifrət İtaliyanı Parisdə kömək axtarmağa məcbur etmişdi.

Fransızlar Tunisə daxil olmamışdan az əvvəl Kayroli həyəcana düşmüşdü. O, Parlamentdə bildirdi ki, Fransa heç vaxt belə qəfləti aktı həyata keçirməz. Fransa Tunisi işğal etdikdə Kayroli iste'fa verdi. Fransa ilə ixtilaf İtaliyanı Avstriya-Macarıstan-Almaniya bloku ilə yaxınlaşmağa vadar etdi. İtaliya həm maliyyə, həm də ordu cəhətdən çox zəif idi. Buna görə güclü dövlətə söykənməli idi.

Bismark saymazyana, lakin çox sərrast olaraq, İtaliyanı daha güclü vəhşi arxasında gizlənən çaqqal adlandırmışdı. İtaliya Almaniya ilə ittifaqa xüsusi olaraq can atırdı. İtaliyanın kralı I Qumbert belə hesab edirdi ki, monarxiya dövlətlərinin yaxınlaşması, monraxiyanın İtaliyada vəziyyətini möhkəmləndirər.

Bardo müqaviləsi bağlananadək İtaliya hökuməti ittifaqın mümkünlüyünə bünövrə yaratmaq üçün öz nümayəndəsini Bismarkın yanına göndərmişdi. Bismark onu çox soyuq qəbul etdi və bildirdi ki, Berlinə yol Vyanadan keçir. İtaliya hökuməti bu işarəni başa



düşərək, 1881-ci ilin yanvarında Vyanaya öz nümayəndəsini göndərdi.

İtaliya ilə yaxınlaşma, Rusiya ilə müharibə olardısa, Avstriyanın arxasının təhlükəsizliyini tə'min edərdi. Buna görə də Vyanada İtaliya ilə ittifaqa razılıq verildi. Bismark üçün isə İtaliya Fransanı təkləmək üçün lazım idi. Bütün bunlar ona gətirdi ki, 1881-ci ilin sonlarında rəsmi danışıqlar başlandı. 1882-ci il mayın 20-də Almaniya-Avstriya-Macarıstan və İtaliya arasında ittifaq müqaviləsi imzalandı. O, tarixə "Üçlər ittifaqı" adı altında daxil oldu. Müqavilə beş ilə qəbul edilmişdi. Lakin dəfələrlə dəyişikliyə mə'ruz qalmış, 1915-ci ilədək davam etmişdi.

Həmin müqaviləyə görə, Almaniya və Avstriya və'd edirdilər ki, Fransa İtaliyaya hücum edərsə, ona hərbi yardım göstərəcəklər. Fransa Almaniyaya hücum edərsə, İtaliya da ona kömək göstərəcəkdi. Hər üç dövlət öhdələrinə götürdülər ki, Fransadan başqa üçüncü böyük dövlətin hücumu zamanı onlar bir-birilərinə xeyirxah bitərəflik saxlayacaqlar.

Afrikanı bölmək uğrunda böyük dövlətlərin mübarizəsi təkcə onun Şimal hissəsi ilə bitmədi. Hələ 1876-cı ildə Belçika kralı II Leopold böyük sahibkar və işbazlardan ibarət öz sədrliyi altında Afrikanın tədqiq edilməsi və mədəniləşdirilməsi adı altında beynəlxalq assosiasiya-cəmiyyət yaratmışdı. Əslində onun məqsədi Konqo çayı hövzəsini işğal etmək və istismar etmək idi. Leopold bu vilayətlərin böyük tədqiqatçısı amerikalı Stenlini xidmətə götürmüşdü. 1879-cu ildə Stenli böyük ekspedisiya ilə yenidən Konqoya getdi, orada çoxlu dayaq nöqtələri yaratdı, yerli rəhbərlərlə 400-ə qədər müqavilə imzaladı. 1884-cü ilin yazı üçün Konqo

hövzəsinin böyük hissəsi artıq Leopoldun nəzarəti altında idi.

Yerli qəbilələrlə əlaqədə ilk vaxtlarda diplomatiyanın işə qarışmasına ehtiyac hiss olunmurdu. Lakin sonralar ona ehtiyac hiss olundu. Konqoda Leopoldun və Stenlinin rəqibləri meydana çıxdı. Fransa hökuməti də Mərkəzi Afrikanın sərvətinə öz əlini uzatmalı oldu. Aşağı Konqoya başda hərbi dəniz ordusu zabiti De Braz olmaqla, Fransa ekspedisiyası göndərildi. Orada möhkəmlənmiş baza yaratdı.

Görəndə ki, Fransa və Belçika bütünlüklə Konqo hövzəsini işğal etmək ərəfəsindədi, İngiltərə hökuməti 1884-cü il fevralın 26-da Portuqaliya ilə müqavilə imzaladı. Konqonun Konqo çay vadisi İngiltərəyə verildi.

Fransa hökuməti Portuqaliya-İngiltərə müqaviləsinə öz e'tirazını bildirdi. Beləliklə, İngiltərə-Fransa rəqabəti cənubi Afrikaya da keçməli oldu. Bismark bu rəqabəti gücləndirmək, alovlandırmaq üçün bu əlverişli şəraitdən istifadə etmək istəmədi. Bu vaxt Almaniyanın özündə də müstəmləkə məsələsində İngiltərə ilə ciddi ixtilaf meydana çıxmışdı. Buna görə də o, Fransanın protestinə qoşuldu.

Fransa və Almaniyanın təzyiqi altında İngiltərə və Portuqaliya öz müqavilələrindən imtina etməli oldular. Onlar Konqo məsələsini beynəlxalq konfransın müzakirəsinə verməyə razılıq verdilər. Belə bir konfransın təşəbbüskarı Almaniya oldu.

Konfrans 1884-cü ilin noyabrında Berlində işə başladı. Almaniya, Fransa, ABŞ birlikdə kral Leopoldun iddiasını müdafiə, Portuqaliya və İngiltərənin iddiasını isə rədd etdilər. Onlar Konqonu Konqo çayı hövzəsi ilə birlikdə zəif Belçikaya verməyi məqbul saydılar. Bu



onların mənafelərinin təhlükəsizliyi üçün lazım idi. 1885-ci ilin fevralında "Yekun akt"ının imzalanması ilə Berlin konfransı öz işini bitirdi. Konqo hövzəsi və bir sıra digər vilayətlər azad ticarət zonaları e'lan edildi.

Bura gətirilən mallar üçün heç bir gömrük alınmırdı. Mülkiyyət almaqda, sənaye fəaliyyəti ilə məşğul olmaqda bütün xarici vətəndaşlar yerli əhali ilə eyni hüquqa malik idilər. "Aktın" bütün iştirakçıları müqaviləyə əsasən azad ticarət zonası hesab olunan ərazilərin bitərəfliyini gözləməyə borclu idilər. Konqo çayında və onun bütün qollarında ticarət gəmiləri üçün azad gəmiçilik e'lan edilmişdi. Bu "Aktın" həyata keçirilməsinə nəzarət etmək üçün bütün iştirakçıların nümayəndələrindən ibarət beynəlxalq komissiya yaradılmışdı. Niger çayı və onun qollarında da gəmiçilik sərbəst e'lan edilmişdi. Lakin Nigeriyada bu işlərə beynəlxalq komissiya deyil, İngiltərə və Fransa nəzarət hüququna malik idilər, hər kəs öz sahələrində. Portuqaliya da Konqo çayının cənub hissəsində özünə sahə ala bilmişdi.

Şimal hissə cəmiyyətə çatmışdı. Bir az sonra bu ərazidə «Müstəqil Konqo dövləti» yaradılmışdı. Bu ərazi bilavasitə Belçika ilə bağlı idi. 1885-ci il ilin fevralında Belçika kralı müstəqil Konqo dövlətinin yaradıldığı barədə "Yekun aktı"nın iştirakçılarına rəsmi surətdə mə'lumat verdi.

Berlin konfransı dövründə ingilis-alman ixtilafı artıq göz qabağında idi.Hələ Fransa-Prussiya müharibəsi dövründə alman kapitalistləri, xüsusilə Hamburqun və Bremenin iri gəmiçilik və ticarət firmaları müstəmləkələr əldə etməyi tələb edirdilər. 70-80-ci illərdə bu tələblər daha qətiyyətlə səslənirdi.

Bismark uzun müddət bu məsələyə çox soyuq yanaşırdı. O, həmişə belə fikirdə idi ki, Mərkəzi Avropada Almaniyanın vəziyyəti onu İngiltərə ilə konfliktə girməyə risk etməyə imkan vermir.

Nəhayət, Bismark öz fikrindən geri çəkilməli oldu. Fransa tərəfindən Tunisin, İngiltərə tərəfindən Misirin, Rusiya tərəfindən Türkmənistanın işğal edilməsi Fransa-İtaliya, İngiltərə-Fransa, Rusiya-İngiltərə münasibətlərini hədsiz dərəcədə kəskinləşdirmişdi. Bunların didişməsi Almaniyanın Avropada vəziyyətinin möhkəmlənməsinə səbəb olmuşdu.

1883-cü ildə Bremen taciri Lyuderis cənubi-qərbi Afrikada, Anqra-Pekena rayonunda malikanə aldı və Bismarka protektoratlıq haqda müraciət etdi. Bismark bu yerə İngiltərənin iddiası olub olmaması barədə İngiltərə hökumətinə sorğu verdi. Bu səhraya əl qatan hər kəs İngiltərənin qanunu hüquqlarına toxunar deyə İngiltərə cavab verdi. Bismarkın bu hüququ konkret olaraq nədən ibarətdir? sualına İngiltərə uzun müddət cavab verə bilmədi.

Bir neçə müddət gözlədikdən sonra, cavab almadan Bismark ingilisləri fakt qarşısında qoydu. 1884-cü il aperlin 24-də Almaniyanın Anqra-Pekena üzərində protektoratlığını təsdiq etdi. cənubi-qərbi Afrikada Almaniyanın ilk müstəmləkəsi belə yarandı.

Uzun və kəskin mübahisələrdən sonra ingilislər faktla razılaşmalı oldular. 1884-1885-ci illərdə Almaniya bayrağı Kamerunda, Toqoda, Şərqi Afrikada və yeni Qvineyanın şimali şərqində qaldırıldı.

cənubi Afrikada müstəmləkə uğrunda ingilis-alman ixtilafı kəskin forma aldı. Hələ 70-ci illərdən başlayaraq, materikin bu hissəsini İngiltərə öz inhisarı altına almaq



barədə düşünürdü. Əsas məqsəd qızıl və almaz mə'dənlərinə sahiblənmək idi. 1871-ci ildə İngiltərə Qldaston hökuməti Narıncı Çayı Respublikasının Kimberle rayonunun bir hissəsini zəbt etdi. 1877-ci ildə İngiltərənin mühafizəkar Bikonsfild hökuməti Bur Respublikasının Transvaal və ölkənin mühüm mərkəzlərini zəbt etdi. Bir az sonra burlar üsyan qaldırdılar və Pretoriyadakı ingilis qarnizonunu mühasirəyə aldılar. Onları xilas etmək üçün göndərilən dəstə 1881-ci ilin fevralında Macubaxill ətrafında burlar tərəfindən məğlub edildi.

Bu dövrdə İngiltərənin baş naziri (1880-cı ilin aprelindən)Qladston idi. Bu məğlubiyyətdən sonra, Transvaalın işğal edilməsi cəhdi bərpa edilmədi. 1884-cü ildə başlanmış İngiltərə-Transvaal müqaviləsinə görə Transvaal xarici ölkələrlə bağladığı müqavilələr barəsində İngiltərəyə mə'lumat verməli idi.

İngilislərin burlarla münasibətlərinin belə kəskin olduğu dövrdə almanların fəallaşması İngiltərənin cənubi Afrikadakı inhisarına qarşı təhlükə törədirdi. cənub-qərbi Afrikadan almanların çıxarılmasına cavab olaraq ingilislər dərhal Becuanlendi tutdular. Bu başlıca olaraq siyasi mülahizələrlə edildi: Almanların yeni malikanələri ilə Bur Respublikaları arasında əlaqə yaradılmasını aradan qaldırdı.

Bu yerlərin işğal olunması ingilis hökumətindən daha çox Sesil-Rods başda olmaqla, ingilis kapitalistləri tərəfindən həyata keçirilirdi.

İngiltərəyə təzyiq göstərmək üçün Fransa hökuməti Həbəşistana girməyi qərara aldı. Onun ərazisindən Nil çayı öz mənbəyini başlayırdı. Burada Nildə

suyun səviyyəsinə tə'sir göstərməklə, Misirin iqtisadiyyatı və rifah halına tə'sir göstərmək olardı.

Fransa cibutidə dəniz bazası yaratdı və Həbəşistan ilə əlaqəyə girdi. Bu, İngiltərəni çox təşvişə saldı. İngiltərə Həbəşistanda güclü Fransanın yerinə zəif İtaliyanı görmək istəyərdi. İngiltərənin dəstəyini alan İtaliya, 1870-ci ildə Assab limanına yiyələndi. İtaliya 1885-ci ildə Massovanı zəbt etdi, özünün gələcək müstəmləkəsi Eritereyanın əsasını qoydu. O Həbəşistanın cənubunda Somalidə də möhkəmləndi. Burada Həbəşistana hücuma keçmək üçün baza yaradıldı. Lakin buna cəhd edərkən, İtaliya 1887-ci ildə məğlub oldu və geri çəkilməyə məcbur oldu.

Avropa müstəmləkəçiləri Afrikanın qalan hissələrində də belə üsullarla hərəkət edirdilər.

1886-cı ildə Transvaalda dünyada ən zəngin qızıl yataqları tapıldı. İngilis kapitalistləri tezliklə bu sərvətə yiyələnmək iştahasına düşdülər. Qızıl mə'dənlərinin böyük hissəsini Sesil Rodsun maliyyə qrupu öz əlinə aldı. Lakin bir az sonra Rodsla, onun rəhbərlik etdiyi qızıl sənayesi kompaniyası- "Konsolideyted Qoldfilds" lə Transvaal hökuməti və onun prezidenti Kryuqer arasında kəskin ixtilaf baş verdi.

cənubi Afrikada ingilis kapitalistləri qrupu böyük və həm də çox güclü idi. Rods cənubi Afrikanın təkcə almaz və qızıl sənayesinə sahiblənməmiş, həm də cənubi Afrika imtiyazlı kampaniyanın sədri idi. 1889-cu ildə Britaniya hökuməti Becualendin və Transvaalın şimal sərhəddindən Belçika Konqosuna və Tanqanayka dənizinə və Nyassa qədər böyük ərazinin istismarını və idarə olunmasını həmin kampaniyaya vermişdi. 1890-cı ildə Rods,bunlardan əlavə, həm də Kap



müstəmləkəsinin baş naziri oldu. O, Rodşildlə, London maliyyə oliqarxiyasının digər əsas fiqurları ilə bağlı idi. İngiltərə hökumətində cozef Çemberlenin şəxsində onun öz adamı var idi.

Rodsun başçılıq etdiyi maliyyə kapitalı qrupu cənubi Afrikada özünün müstəqil siyasətini yeridirdi. Nəhayət, o İngiltərəni burlara qarşı müharibəyə cəlb etdi. Dünyanın heç yerində diplomatiya ilə maliyyə oliqarxiyasının bir-birinə qovuşması, buradakı qədər açıq surətdə özünü büruzə verməmişdi.

Almaniya hökuməti ingilis-bur müharibəsindən İngiltərədən bə'zi müstəmləkə güzəştləri almaq üçün istifadə etməyi qərara aldı. Buna ingilisləri cəlb etmək üçün alman hökuməti burları müdafiə etdi. O, hətta öz gəmilərini Delaqoa limanına göndərdi. Buradan Transvaalın mərkəzinə dəmir yolu gedirdi. 1895-ci ilin yanvarında Kryuqer açıqcasına bildirdi ki, o Almaniyaya arxalanır. Rods və onun qruppası qorxuya düşdülər ki, onların Transvaaldakı mə'dənləri İngiltərənin əlindən çıxa bilər. Buna görə də onlar Transvaalın müstəqilliyinə son qoymağı qərara aldılar. Onlar 1895-ci ilin əvvəllərində Transvaalın başlıca qızıl sənaye mərkəzi olan İoqanesburqda sui-qəsd hazırlığına başladılar. Bura silah gətirildi. Qiyam 1895-ci il dekabrın 27-nə tə'yin edilmişdi. Bu vaxt cənubi Afrika kampaniyasına məxsus olan polis dəstələri də Becualenddən bura girməli və qiyamçılara kömək etməli idilər.

Lap axırıncı dəqiqədə sui-qəsdin başçıları gördülər ki, heç də hər şey hazır deyil. Qiyam yanvarın 6-na keçirildi. Dekabrın 29-da Becualenddəki polis dəstəsinin başçısı cemson dəstəsi ilə Transvaalın sahilinə çıxdı və İoqanesburqa getdi. Lakin o, uğursuzluğa uğradı. 1896-

cı il yanvarın 2-də onun dəstəsi əsir götürüldü. İoqanesburqdakı sui-qəsdçilər həbs edildilər. Rodsın planı baş tutmadı. Bundan sonra yeni dövrün diplomatiya tarixində ən böyük qalmaqallar başladı.

1896-cı il yanvarın 1-də Almaniyanın Xarici İşlər idarəsinin stats-katibi Marşall bir sıra konkret məsələlərə dair razılığa gəlmək və bununla Fransa-Almaniya ziddiyyətlərindən faydanlanmağa cəhd edən İngiltərənin imkanlarını əlindən almaq təklifi ilə Fransa səfirinə müraciət etdi.

Fransanın cavabını gözləmədən alman hökuməti yanvarın 2-də cemsonun basqını əleyhinə London hökumətinə e'tiraz notası verdi. Elə həmin gün Berlindəki ingilis səfiri onu Londona çatdırmalı idi. Bu vaxt cemson basqının baş tutmadığı xəbəri Berlində mə'lum oldu. Almaniya hökuməti dərhal notanın göndərilməsini dayandırmaq barədə ingilis səfirliyinə teleqram göndərdi. Gecə vaxtı olduğu üçün nota göndərilməmişdi. Məhz bu, Almaniyanın notanı geri almasına imkan verdi.

Yanvarın 3-də kayzerin kansler və ali dəniz komandanlığı ilə müşavirəsi oldu. Hədsiz həyəcanlı vəziyyətdə olan Vilhelm Transvaal üzərində Almaniyanın protektoratlığını e'lan etməyi təklif etdi. Bu İngiltərə ilə müharibəyə risk demək idi. Onun məsləhətçiləri bu təklifi bəyənmədilər. İmperatorun prezident Kryuqerə nümayişkaranə teleqram göndərməsi qərara alındı.

Həmin teleqramda imperator prezident Kryuqeri, burları öz gücləri ilə, dost ölkələrin köməyinə müraciət etmədən öz müstəqilliklərini saxladıqları, sülhü bərpa etdikləri münasibəti ilə təbrik etdi.



Kayzerin teleqramı İngiltərəyə meydan oxumaq demək idi. Məhz ingilislər tərəfindən o belə də qəbul edildi. Bu İngiltərədə böyük tufan qopardı. Mətbuatda həmin teleqram dərc edildi. İngilis mətbuatı da Almaniya əleyhinə qızğın kampaniyaya başladı. Londonda kütlə alman mağazalarını dağıdıb talan etdilər. İngiltərədə alman ticarət rəqabətinə qarşı təşviqat gücləndirildi.

İngiltərə ilə münasibətləri kəskinləşdirən Almaniya az sonra uduzduğuna inandı. Doğrudur, Fransa mətbuatı da əvvəlcə cemsonun basqınına qarşı çıxış etdi. Lakin az sonra dayandırıldı. Almaniya tezliklə inandı ki, o Fransanın əməkdaşlığına bel bağlaya bilməz.

Çar hökuməti də cənubi Afrika məsələsində Almaniyanı müdafiə etməyə meyl göstərmədi.

İngilis-alman ziddiyyətlərinin kəskinləşməsi Üçlər ittifaqını zəiflətdi. Həm Avstriya, həm də İtaliya İngiltərə ilə münasibətlərini qiymətləndirirdilər. Bu Avstriyaya Yaxın Şərqdə Rusiyaya qarşı mübarizə üçün lazım idi. İtaliya üçün isə ingilis donanmasının vahiməsi gərək idi. İngiltərə ilə münasibətlərin gərginləşməsi, İtaliyanın bütün xarici ticarətini təhlükə altında qoya bilərdi. İtaliyanın bütün ticarəti dəniz vasitəsi ilə idi.

Üçlər ittifaqının başçısı Almaniyanın İngiltərə ilə küsüşməsindən sonra, İtaliyaya aydın oldu ki, bu ittifaqda iştirak etməsi onu «dənizlər hakimi» ilə müharibəyə cəlb edə bilər.

Digər tərəfdən 80-cı illərin sonlarında Fransa iqtisadi cəhətdən zəif İtaliyanı kömrük müharibəsi ilə əldən salmışdı. 1896-cı ildə İtaliya Fransaya doğru ciddi addım atdı. O, Tunis üzərində Fransanın protektoratlığını tanıdı. İki ildən sonra 1898-ci ildə isə

Fransa-İtaliya ticarət müqaviləsi imzalandı. Onun ardınca Fransanın pul bazarları İtaliyanın üzünə açıldı. Üçlər ittifaqına daxil olduğu andan o, bu bazarlara buraxılmırdı. Beləliklə, Fransa İtaliyaya qarşı kömrük mübarizəsini dayandırdı.

İngilis-alman ziddiyyətləri Üçlər ittifaqının digər üzvünə də tə'sir etdi. Avstriya-Macarıstan Rusiya ilə razılığa tələsirdi. Bu dövrdə Yaxın Şərqdə yeni çətinliklər meydana çıxmışdı. 1896-cı ildə Krit adasında üsyan baş vermişdi. 1897-ci ildə Yunanıstan Krit adasındakı məsləkdaşlarına müraciət etdi. Yunan-türk müharibəsi başlandı.

1897-ci ildə Rusiya və Avstriya dostluq sazişi imzaladılar. Hər iki dövlət balkanlarda Status qvo-ya riayət etməyi öhdələrinə götürdülər. Onların ciddcəhdlərinə baxmayaraq, əgər Status qvo-nu saxlamaq mümkün olmasa, hər iki dövlətin mənafeləri baxımından razılığa gəlməyi öhdələrinə götürdülər. Lakin bu sazişdə İstanbul məsələsi öz əksini tapmamışdı. Onun ümumi Avropa problemi olduğu hər iki tərəfdən qəbul edilmişdi.

Sazişə notalar mübadiləsi forması verilmişdi.

Həmin notalarda razılığa gəlmiş tərəflər arasında ixtilaflar qaldığı aydın hiss olunurdu. Avstriyanın notasında, zərurət tələb edərsə, o, işğal olunmuş Bosniya və Herseqovinanı ilhaq etmək, qalan hissəsini isə Balkan dövlətləri arasında bölüşdürülməsi hüquqlarını özündə saxladığını göstərirdi. Avstriya böyük slavyan dövlətinin yaradılmasını heç təsəvvürünə belə gətirmirdi. Albaniya müstəqil dövlət olmalı idi. Bununla Avstriya bir tərəfdən Serbiyanın Adriatik dənizinə yolunu bağlayır, digər tərəfdən Albaniyanın İtaliyanın əlinə keçməsinin qarşısını almış olurdu.



Rusiyanın yeni Xarici İşlər Naziri Muravyovun cavab notasında bu "gələcəyin məsələləri"nin sazişdə əks etdirilməsindən imtina etdi. Bunun nəticəsində sazişdə təkcə Status qvo-nun saxlanması haqqında maddə saxlanıldı. Uzaq Şərqdə öz əl-qolunu açmaq üçün bu Rusiyaya daha çox lazım idi.

Mə'lum olduğu kimi, Bismarkın başlıca məqsədlərindən biri Rusiya ilə iki tərəfli müqavilə imzalamaq, gələcəkdə Almaniya və Fransa arasında olacaq müharibədə Rusiyanın bitərəfliyinə nail olmaq idi. Lakin onun bir neçə dəfə bu istiqamətdə etdiyi təşəbbüslər uğur qazanmamışdı.

Üç imperator ittifaqı müddətinin qurtarmasından istifadə edərək o, bu istiqamətdə yeni təşəbbüslə çıxış etdi. Çar 1887-ci ilin aprelində danışıqlara razılıq verdi. Berlində Bismarkla P.Şuvalov arasında danışıqlar başlandı. Şuvalov 1887-ci il mayın 11-də iki dövlət arasında bağlanılacaq müqavilənin layihəsini Bismarka verdi. Layihənin birinici maddəsi qızğın mübahisəyə səbəb oldu. Həmin maddədə göstərilirdi ki, razılığa gəlmiş yüksək tərəflərdən biri üçüncü bir böyük dövlətlə müharibə vəziyyətində olarsa, digər tərəf ona qarşı xeyirxah bitərəflik saxlayır.

Bismark hər vasitə ilə çalışırdı ki, bu Avstriyaya yox, təkcə Fransaya aid edilsin. Bismark bunu əsaslandırmaq üçün 1879-cu ildə imzalanmış Almaniya-Avstriya müqaviləsini əsas gətirdi və göstərdi ki, o dövrdə mövcüd olmuş vəziyyət bu müqaviləni imzalamağa onu məcbur etmişdi. İndi Bismark o müqaviləni bağladı və ona əməl etməyə borcludur. İki günlük tənəffüsdən sonra mayın 17-də danışıqlar bərpa edildi.

Nəhayət gərgin və qızğın mübahisələrdən sonra bitərəfliyin həm Fransa, həm də Avstriyaya qarşı olan müharibəyə aid olunması haqda razılığa gəlindi. Şuvalov Bismarka dedi ki, əgər siz Avstriyanın əzilməsini istəmirsinizsə, biz də Fransanın əzilməsini istəmirik.

Müqavilənin ikinci maddəsi balkan yarım adasında Rusiyanın qazanmış olduğu hüquqlarının, xüsusilə Bolqarıstanda və Şərqi Rumelidə onun üstünlüyünün və həlledici tə'sirinin qanunauyğunluğunun tanınmasına, üçüncü maddə isə boğazlar məsələsinə həsr edilmişdi.

Müqaviləyə xüsusi protokol da əlavə edilmişdi. Həmin protokola əsasən əgər Rusiya imperatoru «öz imperiyasının açarını saxlamaq» məqsədi ilə Qara dənizə çıxışın müdafiəsini öz üzərinə götürərsə, Almaniya Rusiya diplomatiyasına dəstək verməyi öhtəsinə götürürdü.

Müqavilə və protokol Şuvalov və Bismark tərəfindən 1887-ci il iyunun 18-də imzalandı. O sığorta müqaviləsi adı ilə tarixə daxil oldu.

## Bağdad dəmir yolunun çəkilməsi ətrafında diplomatik mübarizə

1898-ci ildə Almaniya Kiçik Asiyada Bağdad İran dəmir yolunun çəkilməsi konsessiyası uğrunda mübarizəni genişləndirdi. 1896-cı ildə Almaniya kapitalı "Anadolu dəmir yolu cəmiyyəti" şəxsində Koniyə dəmir yol çəkilişini başa çatdırdı. Bu bir daha göstərdi ki, Almaniyanın Yaxın Şərqə, xüsusilə Türkiyəyə marağı



xeyli artmışdı. Almaniya Türkiyədə öz tə'sirini möhkəmləndirməyə çalışırdı.

Yunanıstan-Türkiyə müharibəsində Almaniyanın mövqeyi, yə'ni onun Türkiyəni - Osmanlı imperiyasını müdafiə etməsi məhz bu məqsədə xidmət edirdi. Almaniya hökuməti Krit adasının qubernatorluğuna yunan vəliəhdinin namizədliyini də rədd etdi.

1898-ci ildə Almaniya Avropa birliyindən çıxdı. Çünki onun üzvlərinin əksəriyyəti Krit məsələsində Türkiyə əleyhinə mövqe tutmuşdular.

İndi II Vilhelm müsəlmançılığın müdafiəçisi kimi çıxış edirdi. 1897-ci ildə Xarici İşlər Nazirliyinin keçmiş stats-katibi marşal fon Biberşteyn Almaniyanın Türkiyədə səfiri tə'yin edildi. Onun başlıca missiyası alman kapitalının Türkiyəyə soxulması üçün hazırlıq işləri aparmaq idi. O Almaniya üçün dəmir yolunun Konidən İran körfəzinədək çəkilməsini tə'min etməli idi.

Marşall öz diplomatik fəaliyyətinə Rusiya ilə olan "özünü sığortalamaq" müqaviləsinin ləğvinə çalışmaqla başlamışdı.

Sultan Əbdül Həmidlə Marşall dəmir yolunun çəkilməsi məsələsində eyni fikirdə idilər. Əbdül Həmid də Bağdada dəmir yolunun çəkilməsinin tərəfdarı idi. Əlbəttə, o, burada özünə məxsus məqsəd güdürdü: bunun vasitəsi ilə imperiyasının Şərq sərhədləri ilə əlaqəni möhkəmləndirsin, istədiyi vaxt bu yerlərə ordu göndərsin, öz hakimiyyətinin sabitliyini tə'min etsin.

"Deyç bank" və onun direktoru Georq fon Simens, "Anadolu dəmir yol cəmiyyəti"nin sədri Çander əvvəlcə İran körfəzinə dəmir yol çəkilməsinə tələsmirdilər. Bu işi maliyyələşdirmək onları dəhşətə gətirmişdi. Lakin

rəqiblərin meydana gəlməsi onları qorxuya saldı. Simens işi heç də əlindən buraxmaq fikrində deyildi.

Səfir Marşall İstanbulda Çanderlə məsələni müzakirə etdi, onlar aşağıdakı nəticəyə gəldilər:

1. Ankaradan Kesariyaya Anadolu dəmir yolu çəkilməsinin məqamı çatmışdı;

2. Bununla yanaşı, "Anadolu dəmir yolu cəmiyyəti"nin, Bağdada dəmir yolu çəkilməsi üçün üstünlük hüququ tə'min edilməli, heç bir xarici rəqibə imkan verilməməlidi;

3. Bu ilkin şərtlər tə'min edildikdən sonra Dəclə və Fərat çaylarını gəmiçilik üçün yararlı vəziyyətə gətirə biləcək və sultanın ürəyindən olan layihəyə də başlanılması, habelə, hər iki çayda gəmiçilik kampaniyası yaradılması məsələsi ilə məşğul olunmalıdır. Sultan hökuməti hər kilometr yol üçün gəlirin miqdarı barədə "cəmiyyətə" tə'minat verməli idi.

Almaniya imperatoru II Vilhelm müqəddəs yerlərə ziyarət etmək üçün Fələstinə getmək adı altında səfərə çıxdı. 1898-ci ilin oktyabrında o səfərə başladı. Onu Xarici İşlər idarəsinin stats-katibi Byulov müşayiət edirdi. Yolüstü imperator İstanbula gəldi və Sultanın görüşünə getdi. Sultan Əbdül Həmid ən yüksək dərəcədə fərəhlənmişdi. Kayzerlə eyni vaxtda "Deyçe bank"ın direktoru Georq fon Simens də İstanbulda oldu. O, burada Konidən Bağdada dəmir yolunun çəkilməsi konsessiyası, habelə, Heydər paşa limanının təchiz edilməsi barədə danışıqlara başladı.

Kayzer Türkiyədən Yerusəlimə getdi, sonra Dəməşqdə oldu. O, burada çıxışlarında göstərdi ki, 300 milyonluq müsəlmanların və Türkiyə Sultanının həmişəlik dostudur. Müsəlman ruhanilərinin



nümayəndələri bundan çox razı qalaraq bildirdilər ki, bu 300 milyon müsəlman kayzerə Allahdan xeyir-dua arzulayacaqlar. Vilhelmin bu çıxışları Əbdül Həmidin də həddsiz xoşuna gəlmişdi. Bütün bunlar "Deyçe bank"a kömək etdi. Danışıqlar qısa müddətdə qurtardı.

Fransız kampaniyası öz e'tirazını bildirdi. Fransa səfirliyi bu e'tirazı müdafiə etdi. lakin almanlar üstünlük qazandılar. Sultan 1899-cu ilin yanvarında "Deyçe bank"a bu tikinti üçün konsessiya verilməsi haqda fərman verdi, martda isə konsessiya kontraktı imzalandı.

Fransa hökuməti bütün bunları təşvişlə qarşılayırdı. Ankaradan Koniyə qədər dəmir yolu da onun heç xoşuna gəlmirdi. Heydərabadda liman tikintilərini də fransızlar çox pis qəbul etdilər. Bütün Osmanlı imperiyasının ərazisi boyu dəmir yolunun çəkilməsi Fransanı təlaşa salırdı. Fransa başa düşdü ki, Sultan heç vaxt bu konsessiyanı onlara verməyəcək. Buna görə də Fransa "Deyçe bank"a müqavimət göstərməkdən imtina edərək onunla dil tapmağa girişdi. 1899-cu il aprelin 12-də Fransanın Türkiyədəki səfiri Konstan Almaniyanın səfiri Marşalla Türkiyədə birlikdə iqtisadi tədbirlər keçirmək barədə alman və fransız kapitalı arasında saziş bağlamağı təklif etdi.

Osmanlı dövlət borcu idarəsinin prezidenti Berjdə, fransız kapitalının tə'ciri altında idi. O da belə təkliflə Simensə mürajiət etdi. «Deyçe bank»ın başçısı əvvəljədən maliyyə çətinliyi olajağını görürdü. O, hesab edirdi ki, bəlkə alman pul bazarı bunun öhdəsindən gələ bilmədi. Buna görə də ingilis və fransız kapitalının bu işə jəlb edilməsinə maraqlı idi.

Almaniya hökumətində isə istəyirdilər ki, Bağdad yolu xalis alman müəssisəsi olsun. Lakin sonra Simens güzəştə getməli oldu.

«Deyçe bank»la Fransa maliyyə oliqarxiyasının arxasında durduğu Osmanlı bankı arasında danışıqlar başlandı. 1899-cu il mayın 6-da hər iki bank arasında saziş imzalandı. Aksioner kapitalının 40 faizi Osmanlı bankının, 60 faizi isə «Deyçe bankı»n payına düşdü.

«Deyçe bank»ın ingilis maliyyə dairələri ilə münasibətləri başqa cür oldu. Marşall göstərirdi ki, ciddi diplomatik qarşıdurmaya mən İngiltərə səfirliyi tərəfindən rast gəldim. Renicer adlı birisinin başçılıq etdiyi ingilis maliyyə qrupu «Deyçe bank»a qarşı çıxdı. O, İskəndəriyyədən, yəni Aralıq dənizi sahillərindən Bağdada dəmir yolu çəkmək layihəsini irəli sürdü. İngilis diplomatiyası bu layihəni fəal müdafiə etdi. Lakin yenə almanlar üstünlük qazandı. Simensin layihəsi sultan imperiyasının paytaxtının ondan təcrid olunmuş Bağdadla əlaqəsini tə'min edirdi.

İsgəndəriyyə - Bağdad layihəsi isə, əksinə, Bağdadı sultan imperiyasının paytaxtından daha da təcrid edirdi və onu Britaniya donanmasının ağalıq etdiyi Aralıq dənizi ilə bağlayırdı. Ona görə də Sultan, üstünlüyü «Deyçe bank»a verdi.

Almanlar tərəfindən dəmir yolunun çəkilməsi perspektivləri Londonu da təşvişə saldı. Bu alman qoşunlarının Hindistanın yaxınlığına aparılmasına imkan verərdi. Buna, bilavasitə Hindistana qarşı ciddi təhlükə kimi baxılırdı.

İngiltərə bir sıra ehtiyat tədbirləri gördü. Bağdad dəmir yolunun son nöqtəsinin Küveyt olması daha məqsədə uyğun idi. Yerli şeyx Türkiyənin asılılığından



çıxıb müstəqilliyə üstünlük verirdi. İngiltərə hökuməti Hindistan vitse-kralı vasitəsi ilə Şeyxlə gizli müqavilə imzaladı. O, öz ərazisini heç bir dövlətə güzəştə getməyəcəyini və xarici dövlətlərin nümayəndələrini qəbul etməyəcəyini öhdəsinə götürdü. Bunlar hamısı Britaniyanın razılığı ilə olmalı idi. Şeyx İngiltərənin himayəsinə keçdi. Ona 15 min Hindistan rupisi pul köməyi kəsildi. İngilis hökuməti müxtəlif işlərin sahmana salınmasında da şeyxə «xeyirxah xidmət» göstərməyə tə'minat verdi. Hindistan Türkiyənin Küveytə hər cür hücumunun qarşısını almağa vəkil edildi. 1899-cu il yanvarın 23-də imzalanmış gizli müqavilənin məzmunu bunlardan ibarət idi.

Müqavilə İran körfəzində ona lazım olan liman üzərində İngiltərənin protektoratlığını nəzərdə tuturdu. Bu alman dəmir yol xəttinin bura çıxışına mane olurdu. Almaniya bu sədaqətli olmayan vassalı tabe etdirmək üçün qoşun göndərdi. İngilislər isə bura kreyser göndərdi və Türkiyəni ora buraxmadı. 1901-ci il sentyabrın 6-da Türkiyənin ora qoşun göndərməsini qadağan edən saziş imzalamalı oldu.

İranın cənubunda bir neçə ingilis konsulluqları yaradıldı. Britaniya Belucstanından İran körfəzinə yol çəkildi, Britaniya tə'sirinin möhkəmlənməsinə kömək edən bir sıra başqa tədbirlər də görüldü.

İngiltərənin maliyyə oliqarxiyasının daxilində «Deyçe bank»a mane olmağa tərəfdar olan güclü tə'cirli qrup var idi. Bu Sesil Rods başda olmaqla cənubi Afrika inhisarçıları idi. Onu Rotşild evi də müdafiə edirdi. Hökumətdə isə əvvəllərdə olduğu kimi, onu cozef Çemberlen təmsil edirdi. Bu güclü qrup cənubi Afrikanın tükənməz sərvətini ələ keçirmək üçün burlara qarşı

müharibəyə hazırlaşırdı. Almaniya onlara mane olmasaydı Bur Respublikasını tutmaq üçün onlar hər şeyə hazır idilər.

«Deyçe bank»a bunlar hamısı mə'lum idi. Onun cənubi Afrika inhisarlarının nümayəndələri ilə sıx əlaqəsi var idi. Kayzerin ardınca Türkiyəyə gedən Simens qızını və onunla birlikdə Çemberlenin qızını da götürməsi heç də təsadüfi deyildi.

O, Konştaddan Qahirəyə dəmir yolu çəkilməsi barədə layihəsindən söhbət açdı. Kayzerdən və onun məsləhətçilərindən xahiş etdi ki, İngiltərəyə cənubi Afrikada mane olmasınlar. Bunun əvəzində o, Türkiyədə almanların sərbəst hərəkət etmələri ilə razılaşdı. Lakin bunlar sənədləşdirilmədiyinə görə uzun müddətli olmadı.

Küveytdə öz mövqeyini möhkəmləndirdikdən sonra İngiltərə hökuməti «Deyçe bank»la əməkdaşlığa meyl etməyə başladı.

Əslində isə «Deyçe bank»a daha çox baş ağrısı türklər verirdilər. Onların arasında yolun trassı üzərində fikir ayrılığı vardı. Sultan yolun Ankaradan Bağdada çəkilməsini, Simens və Çander isə Konidən daha cənuba çəkilməsinə tə'kid edirdilər. Əvvəla, bu trassa daha yaxın idi. İkincisi, Rusiyanın sərhədlərindən kənarda idi. Üçüncüsü, Konidən çəkiləcək xətt ucuz başa gəlirdi. Nəticədə sultan güzəştə getməli oldu.

Lakin mübahisələr bununla qurtarmadı. Dəmir yolunun çəkilməsi ilə bağlı almanların Türkiyəyə kütləvi axını sultanın hiddətinə səbəb olurdu. Dəmir yolu konsessiyası haqqında danışıqların gedişi barədə mə'ruzəsində bunu Marşall da boynuna almışdı. Türklər başa düşürdülər ki, onlar öz evlərinin sahibi olmaqdan



getdikcə kənarlaşdırılırlar. Sultan çox istəyirdi ki, yeni yol Türkiyə xəzinəsinin mülkiyyəti, «Anadolu yollar cəmiyyəti» isə podratçı-inşaatçı, sonra isə icarədar, dəmir yolunu istismar edən olsun.

Alman hökuməti «Deyçe bank»ın razılığı ilə bu təklifi rədd etdi. Lakin uzun sürən mübahisələrdən sonra 1897-ci il noyabrın 27-də danışıqlar başa çatdı. Həmin gün alman tərəfinin irəli sürdüyü şərtlər əsasında dəmir yolunun çəkilməsinin həmin konsessiyanın «Anadolu yollar cəmiyyəti»nə verilməsi haqda fərman imzalandı. cəmiyyət yeddi il müddətində Koni – Bağdad və Bəsrə dəmir yolunu çəkməyi, Türkiyə hökuməti isə hər kilometrin gəlirinin tə'min edilməsini öz öhdələrinə götürdülər. Müəyyən şərtlərlə onu satın almaq hüququ Türkiyənin əlində saxlanıldı.

1899-cu il dekabrın 23-də ikinci konsessiya müqaviləsi imzalandı. Sonralar xeyli mübahisələrdən, danışıqlardan sonra müqavilənin axırıncı, qət'i variantı 1903-cü il martın 5-də imzalandı.

İngiltərə ilə yanaşı, Bağdad dəmir yolunun başlıca əleyhdarlarından biri də Rusiya idi. Doğrudur, almanlar elə məqam seçmişdilər ki, İngiltərənin başı Afrikada Bur müharibəsinə, Rusiyanın başı isə Uzaq Şərq hadisələrinə qarışmışdı. Lakin bununla yanaşı, Rusiya Almaniyanın Yaxın Şərqdəki ekspansiya siyasətinin genişlənməsinə biganə qala bilməzdi.

Rusiya ingilislərdən fərqli olaraq, konsessiya barədə bitərəflik mövqeyində dayandı. Çünki onun «Deyçe bank»a qarşı dura biləcək kapitalı yox idi, layihədə iştirak etmək imkanından məhrum idi. Lakin bunlar heç də o demək deyildi ki, Rusiya diplomatiyası hərəkətsiz dayanmışdı.

1899-cu il aprelin 15-də Rusiya hökuməti özünün Berlindəki səfiri Osten-Saken vasitəsi ilə Byulova Kiçik Asiya haqqında müqavilə imzalamağı təklif etdi. Byulov indi nə hə, nə də yox deyə bilməyəcəyini və konkret təkliflər gözlədiyini dedi. Aprel ayının 24-də belə təkliflər gəldi. Osten-Saken Byulovun yanına gedərək, bildirdi ki, Rusiya Türkiyə dövlətinin saxlanmasını istəyir və onun parçalanmasının tərəfdarı deyil. Lakin o, heç də hesab etmir ki, Türkiyə dövləti ömürlükdür. Əgər Osmanlı imperiyası dağılarsa, Rusiya hansısa dövlətin İstanbulda ağalıq etməsinə dözə bilməz. Əgər o dağılarsa, Rusiyanın belə bir inamı olmalıdır ki, o boğazlara, yə'ni Qara dənizə açara sahiblənəcək.

Bütün bunları xəbər verməklə, Osten-Saken özünü elə göstərirdi ki, bu onun şəxsi fikirləridi. Onun naziri Muravyov daha çox İngiltərə ilə danışığa gəlməyə meylli idi. Səfir soruşdu ki, bu işin başqa arzu edilməz vəziyyət almasının qarşısını almaq üçün boğazlar haqqında layihə hazırlanıb çara təqdim edilsin, bunun əvəzində Rusiya Almaniyanın Kiçik Asiyada sərbəst davranmasına mane olmasın.

Byulov bu haqda düşünəcəyəni və'd etdi. Lakin bu nəticə vermədi. Rusiyanın təklifi rədd edildi.

Növbəti görüşdə rus səfiri yenə rus-alman sazişi məsələsini qaldırdı. Byulov bildirdi ki, Almaniya təkcə Rusiya ilə deyil, onun müttəfiqi Fransa ilə də ittifaq bağlamağa hazırdı. O şərtlə ki, hər üç tərəf özlərinin hazırkı mülklərinə tə'minat versin.

Osten-Saken cavab verdi ki, Fransa buna hazır deyil. O heç vaxt Elzas-Lotaringiyadan imtina edə bilməz. Byulov elə məhz belə cavab gözləyirdi. Onun



məqsədi sazişdən imtina edilməsini qarşı tərəfin üzərinə yıxsın.

Osten-Saken Byulova çatdırdı ki, onlar ittifaq yox, boğazlar barəsində saziş imzalamaq məsələsini qoyur.

- Bunun əvəzində Rusiya bizə nə və'd edir? – deyə Byulov soruşdu.

- Kiçik Asiyada sənaye və kommersiya fəaliyyətində sərbəst hərəkət etmək. Orada, hətta İranda rus-alman əməkdaşlığı – deyə səfir cavab verdi.

Byulov bu ideyanı müdafiə etmədi və səfirə də heç bir fikir demədi.

Rusiya, Almaniyanın Türkiyədə tə'sirinin güclənməsindən hədsiz narahat idi. Buna görə indi səfir yox, Rusiya naziri Muravyov Almaniyanın Peterburqdakı səfirinə həmin təklifi təkrar etdi.

Muravyovun təklifi kayzeri dəli dərəcəsinə gətirdi.

Noyabrın 8-də II Nikolay Potsdama Vilhelmin görüşünə getdi. Nə çar, nə də Muravyov saziş məsələsinə qayıtmadılar. Muravyov onunla kifayətləndi ki, almanlar Türkiyədə elə xətlər tiksinlər ki, onlar Rusiyanın strateji və maliyyə maraqlarına toxunmasın. Yaxşı olardı ki, bu sahədəki planları barədə Rusiyaya əvvəlcədən mə'lumat verilsin. Onda anlaşılmazlığı tezliklə aradan qaldırmaq olar. Byulov bunu vəd etdi.

Almaniyanın Rusiyanın təklifini rədd etməsinin həqiqi səbəbləri aşağıdakılar idi.

Rusiya tərəfindən Port-Arturun işğal edilməsindən sonra, İngiltərənin cənubi Afrikada burlara qarşı müharibəyə hazırlığı ilə əlaqədar olaraq İngiltərə Almaniyanın dostluğuna nail olmuşdu.

Fransa Türkiyədə Almaniya ilə al-verə girişmişdi. Belə əlverişli şəraitdə o, iştahını Yaxın Şərqlə

məhdudlaşdırmaq istəmirdi. Onun üçün əl-qolunu bağlamaq sərfəli deyildi. Rusiya ilə saziş bağlamaq onun nəyinə lazım idi? O nəyə görə Yaxın Şərqdə Rusiya və İngiltərənin mənafeləri ilə hesablaşmalı idi? Uzaq Şərq Rusiyanın gücünü sıxma-boğmaya salmışdı. Rusiya cəhd etdi ki, sultan konsessiya müqaviləsinin son variantını təsdiq etməsin. Lakin bu da nəticəsiz qurtardı.

1900-cü il aprelin 5-də Rusiya Xarici İşlər Nazirliyi direktiv məktubunda yazırdı ki, imperator hökumətinin qayğısı o olmalıdır ki, Kiçik Asiyada bu və ya digər dövlətin siyasi üstünlüyünə yol verilməsin. Əvvəllər də Türkiyə özü başqa dövlətləri ora buraxmırdı. İndi isə Muravyov göstərirdi ki, vəziyyət dəyişib. Buna görə də indi belə bir zərurət meydana çıxıb: Xaricilərin Qafqaz sərhəddinə və Qara dəniz sahillərinə yaxınlaşmalarına imkan verilməsin. Uzun təkidlərdən sonra Rusiya 1900-cü il martın 31-də Türkiyə hökumətindən belə bir və'din alınmasına nail oldu. Bu tərəflərdə tikiləcək bütün xətlər yalnız Rusiya kapitalistlərinə verilməlidir.

## Haaqa konfransı

90-cı illərdə quruda və suda silahlanma sür'ətlə gedirdi. Bütün bunlardan birinci yerdə Almaniya dururdu. Onun ardınca Fransa gəlirdi. Rusiya və Avstriya-Macarıstan artilleriyaya əsas diqqət verirdilər. Lakin onlar maliyyə çətinliyi ilə üzləşməli oldular. Hərbi nazir Kuropatkin ordunun artilleriya ilə yenidən silahlandırılmasının təxirə salınması barədə Avstriya-Macarıstanla danışığa gəlməyi təklif etdi. Bu ideya rədd edildi. Bu, rus ordusunun başqa ölkələrin ordusundan geri qalması ilə



nəticələnə bilərdi. Lakin Rusiya diplomatiyası bu məsələdə yeni silahlanma üzərində düşünürdü.

Maliyyə çətinliyi Rusiya hökumətini silahlanmanın məhdudlaşdırılması layihəsi üzrə beynəlxalq konfrans çağırılması təklifi ilə çıxış etmək fikrinə gətirdi. 1898-ci il avqustun 24-də Muravyov bütün xarici dövlətlərin Peterburqdakı diplomatik nümayəndəliklərinə memorandum verdi.

Rusiya hökuməti bütün xalqların mənafeyi naminə həqiqi və möhkəm sülhü tə'min etmək, hər şeydən əvvəl, getdikcə genişlənməkdə olan silahlanmanın inkişaf etdirilməsinə son qoymaq üçün daha tə'sirli vasitələr axtarıb tapmaq yolunda diskussiya üçün beynəlxalq konfrans çağırmağı təklif edirdi.

Bu təklif silahlanma məsələsində diplomatları manevr etmək məcburiyyəti qarşısında qoydu. Bu, iki məqsəd güdürdü: 1) Silahlanmaya qarşı xalqın e'tirazını zəiflətmək və kütləni aldatmaq; 2) qadağan və məhdudlaşdırma yolu ilə düşmənin daha güclü odlu silah növlərinin məhdudlaşdırılmasına nail olmaq. Hər iki halda hökumətlərin diplomatiyası qarşısında başqa məqsəd də qoyulmuşdu. Silahlanma işinin pozulmasını və silahlanmanın davam etdirilməsini bu və ya digər dövlətin üzərinə qoymaq.

Rusiyanın başlıca məqsədi ingilis hərbi dəniz donanmasının ümumi çəkisini aşağı salmaq, Almaniyanın və onun müttəfiqlərinin quru qoşunlarının silahlandırılmasının dayandırılmasına nail olmaq və nəhayət, Avropa dövlətlərini İngiltərəyə qarşı yönəltmək idi. Rusiyanın Maliyyə Naziri Vitte Almaniyanın Rusiyadakı səfiri Radolin ilə söhbətində bunları açıqcasına bildirmiş, İngiltərənin qüdrətli hərbi-dəniz

donanmasının Avropa dövlətləri üçün ciddi təhlükə olduğuna onu inandırmağa çalışmışdı. O bildirmişdi ki, indi İngiltərə və gələcəkdə Amerika və Yaponiya da belə təhlükə təşkil edə bilərlər.

Lakin Berlin Vittenin planına heç bir hüsnü-rəğbət göstərmədi. Qərbi Avropanın digər dövlətləri də bu planı qəzəblə qarşıladılar. Lakin heç bir dövlət açıqdan-açığa konfransda iştirakdan imtina edə bilmədi.

Rusiya tərəfindən irəli sürülən proqramda silahların azaldılması və müharibənin tənzimlənməsi normaları haqda məsələlərlə yanaşı, ixtilafların sülh yolu ilə nizama salınması üçün məhkəmənin yaradılması da irəli sürülürdü.

Rusiya hökuməti konfransa təqdim etdiyi proqramı 1899-cu il yanvarın 11-də daha da konkretləşdirdi. Birinci maddədə Rusiya təşəbbüsünün maliyyə cəhəti göstərilirdi. Onda sülh dövründə quru və dəniz qüvvələrinin mövcud həcmdə artırılmaması və onun müddətini müəyyən edən beynəlxalq sazişin bağlanması nəzərdə tutulurdu. Bu müddətdə hərbi büdcənin mövcud həcmdə dondurulması təklif olunurdu. Rus layihəsində gələcəkdə silahların dondurulması yox, həm də quru və dəniz qüvvələrinin, hərbi büdcələrin miqdarının ixtisara salınması imkanlarının öyrənilməsi də təklif edilirdi.

Başlıca məqsəd yeni xərclər çəkmədən mövcud qüvvələr nisbətini saxlamaq idi. Bu xərclərin öhdəsindən gəlmək İngiltərə və Almaniyaya nisbətən Rusiya üçün çətin idi. Rusiya ordusunun miqdarı da xeyli dərəcədə böyük idi. Onun artırılmasına heç bir hərbi zərurət yox idi. Belə vəziyyətdə hərbi xərcləri dondurmaq onun üçün xeyirli idi. Kayzer Vilhelm, rus



təklifinin mənasını yaxşı başa düşürdü. O yazmışdı ki, konfrans bütövlükdə az və çox dərəcədə bizim hərbi inkişafımıza qarşı yönəldilmişdi.

Vilhelm və onun müşavirləri qət'i surətdə Rusiya təklifinin əleyhinə idilər. Məhz bu məqsədlə o Haaqaya getdi. Vilhelm çox istəyirdi ki, silahlanmanın dondurulması haqda Rusiyanın təklifindən imtina olunmasını İngiltərənin üzərinə yıxsın. Lakin bunu edə bilmədi.

Fransa hökuməti də xüsusi ordu haqqında Rusiyanın təşəbbüsündən narazı idi. Fransa tərksilahı Elzas və Lotaringiyanın geri alınmasından imtina etmək kimi qiymətləndirirdi. Müttəfiqi Fransanı sakitləşdirmək üçün Muravyov və Kuropatkin dərhal Parisə getdilər. Elzas və Lotaringiya barədə Fransanın şübhəsinin aradan qaldırılmasına nail oldular. Lakin yeni silahların istehsalının dayandırılması barəsində onun müdafiəsini tə'min etmək mümkün olmadı.

İngiltərənin mövqeyi isə o qədər də mənfi deyildi.

Amerika nümayəndəsi bildirdi ki, ABŞ Avropadan çox uzaqdır. Buna görə də Avropa dövlətlərinin hərbi siyasəti ona aid deyil. Amerika nümayəndəliyinin üzvü kapitan Mexen ingilis nümayəndəsinə demişdi ki, onların dəniz qüvvələrinin hər hansı məhdudlaşdırılması barədə məsələni müzakirə etməyə belə razı ola bilməz. O göstərmişdi ki, əksinə, ABŞ özünün hərbi dəniz donanmasını xeyli artırmalıdı.

Konfrans 1899-cu il mayın 18-də Hollandiyanın Haaqa şəhərində öz işinə başladı və iyulun 27-dək davam etdi.

Konfransın elə ilk başlanğıcdan uğursuz qurtaracağı göz qabağında idi, Almaniyanın nümayən-

dəsi silahlı qüvvələrin məhdudlaşdırılmasının qət'i əleyhdarı kimi çıxış etdi. Konfransın digər iştirakçıları Almaniya nümayəndəsinin hay-küy qaldırmasına imkan verdilər. Özlərini bir qədər səbirli apardılar. Əslində isə onunla şərik idilər. Təkcə İtaliya nümayəndəsi Rusiyanın təklifini müdafiə etdi.

Nəticədə konfransda heç nəyə nail olunmadı. Yeni nə tərksilah, nə də silahların məhdudlaşdırılması haqqında heç bir saziş imzalanmadı. Doğrudur, o müharibənin aparılmasının beynəlxalq qaydaları, xəstələrin və yaralıların müdafiəsi haqqında qanunlar işləyib hazırladı.

Məcburi beynəlxalq arbitraj haqqında layihə xüsusi ilə ciddi mübahisəyə səbəb oldu. İngiltərə nümayəndəsi onun dövlətlər arasında kiçik mübahisəli məsələlərə aid edilməsini irəli sürdü.

Konfrans «Beynəlxalq mübahisələrin sülh yolu ilə həll edilməsi haqqında» konvensiya qəbul etdi. Onda münsiflər (tretey) məhkəməsinin daimi palatasının yaradılması, onun Haaqada yerləşməsi nəzərdə tutulurdu. Almaniyanın tə'kidi ilə məjburi arbitrac tamamilə rədd edildi. Aydın idi ki, Almaniya heç vəjhlə, heç bir şəraitdə, nə silahlanmanın məhdudlaşdırılmasında, nə də ixtisar edilməsində iştirak etməyəjək. Belə bir vəziyyətdə nə Rusiya, nə də Fransa silahlanmanın məhdudlaşdırılmasına və ixtisarına gedə bilməzdilər.

***

Transvaal böhranı İngiltərə və Almaniya arasında kəskin rəqabətin yeni əks-sədası idi. Doğrudur, bu



böhran müharibə ilə nəticələnmədi. Lakin bu bölünmüş dünyadan özü üçün də müəyyən pay almağa cəhd edən Almaniyanın xarici siyasətinin əsas mahiyyətini açıb göstərdi.

Bu dövrdə jərəyan edən hadisələr, beynəlxalq münasibətlərdəki müxtəlif istiqamətlər həm də göstərdi ki, Almaniya ilə Üçlər ittifaqının arasındakı münasibətlər heç də bərabər hüquq prinsipləri əsasında qurulmamışdır.

Bu dövrdə Osmanlı imperiyası kəskin böhran keçirirdi. Bu balkanlardakı vəziyyətdə, boğazlar və digər məsələlərdə özünü aydın göstərirdi.

Afrikada ingilis-alman ziddiyyətləri jiddi surətdə kəskinləşmişdi. Balkanlarda və boğazlar məsələsində özünün xüsusi mövqeyi olan Rusiya ilə Avstriya-Majarıstanın maraqlarının toqquşması, İngiltərə və Avstriya-Majarıstan arasında yaxınlaşmağa səbəb olmuşdur. Hər iki dövlət Rusiyaya qarşı birləşmək üçün yol axtarırdı. Almaniya isə bu yaxınlaşmaya müsbət yanaşırdı. O buna İngiltərəni Rusiyaya qarşı müharibəyə jəlb etmək üçün bir vasitə kimi baxırdı. İngiltərə də öz növbəsində Avstriya-Majarıstanı Rusiyaya qarşı müharibəyə başlamağa jəlb etmək və bunda Almaniyanın iştirak etməsinə nail olmaq məqsədini güdürdü.

Bu dövr həm də ABŞ və Yaponiyanın dünyanın müxtəlif hissələrində beynəlxalq münasibətlərdə fəal iştirak etmələri ilə xarakterizə olunur.

Beləliklə, XX əsrin sonlarında beynəlxalq münasibətlərin əsas mövzusunu təşkil edən hadisələrin təhlili göstərir ki, böyük dövlətlər arasındakı ziddiyyətlər ümumdünya miqyaslı xarakter almışdı.

### III FƏSİL

# DÜNYANIN MÜSTƏMLƏKƏLƏRƏ BÖLÜNMƏSİ UĞRUNDA MÜBARİZƏNİN SON MƏRHƏLƏSİNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

## 70-ci illərin sonlarında, 80-ci illərdə Asiyanın bölüşdürülməsi uğrunda mübarizə

70-ci illərin sonlarında və 80-ci illərdə müstəmləkəçilik siyasəti Afrikada olduğu kimi, Asiyada da ildırım sür'əti ilə yayılmağa başladı. Lakin burada tərkib başqa idi. Doğrudur, Afrikada olduğu kimi, Asiyada da İngiltərə və Fransa öndə gedirdilər. Burada, Afrikanın əsarətə alınmasında fəal iştirak etməyən Rusiya əlavə olunmuşdu. Bir az sonra Yaponiya və ABŞ-da bu dəstəyə qoşulur. İtaliya, Almaniya isə Asiyanın bölüşdürülməsində demək olar ki, iştirak etmirdilər. Almaniya bu dövrdə Okeaniya adaları və Sakit okean uğrunda mübarizə aparırdı.

İngilis, rus, fransız, yapon və amerikanların bu qitədə maraqları tez-tez toqquşurdu. Bu da onların arasında ziddiyyətlərin getdikcə artmasına səbəb olurdu. Digər tərəfdən onlar yerli əhalinin müqaviməti ilə də üz-üzə gəlirdilər.

70-80-ci illərdə Asiyada beynəlxalq ziddiyyətlərin bir neçə həlqəsi yaranmışdı. Ziddiyyətlərin kəskinliyi baxımından birinci yerdə Osmanlı imperiyası uğrunda mübarizədə yaranmış beynəlxalq ziddiyyətlər dururdu. Bunun son nöqtəsi rus-türk müharibəsi oldu.



İkinci yerdə Orta Asiya ilə bağlı ixtilaflar, ziddiyyətlər dururdu. Bura İran uğrunda rus-ingilis ziddiyyətləri daxil idi.

Üçüncü yeri Uzaq şərq ziddiyyətləri nöqtəsi təşkil edirdi.

Dördüncü nöqtə cənubi Şərqi Asiya-Hindistan, Birma, İndoneziya Malay adalarını tutmaq uğrunda mübarizədə yaranmışdı.

Birinci ziddiyyətlərin həlqəsi haqqında əvvəlki mühazirəmizdə, Yaxın Şərq problemi ilə əlaqədar bəhs etmişik.

Rusiya ilə müharibədəki məğlubiyyətdən sonra Türkiyənin Avropa kapitalı tərəfindən əsarətə alınması daha da gücləndirildi.

1875-ci il bankrotluğundan (müflüslüyündən) və rus-türk müharibəsindən sonra Türkiyənin maliyyə vəziyyəti tamam bərbad halda idi.

Türkiyə ikinci dəfə özünü bankrot (müflis) e'lan etdi. Bundan istifadə edən xarici kapital-bankir - kreditorlar Türkiyədə xarici maliyyə nəzarətini həyata keçirdilər.

İki il Türkiyə hökuməti ilə kreditorlar arasında danışıqlar getdi. Nəhayət, 1881-ci ilin dekabrında Sultan tərəfindən verilmiş Məhərrəm dekretində öz əksini tapdı.

Türkiyənin borcu 2,4 mlrd. frank müəyyən edilmişdi. Faizlərin və borc kapitalının ödənilməsini tə'min etmək üçün Osmanlı dövlət borcu idarəsi adlanan təşkilat yaradılmışdı. O, borc sahibləri olan müxtəlif millətlərin nümayəndələrindən təşkil edilmişdi. Lakin ona faktiki olaraq ingilis-fransız bankirləri rəhbərlik edirdilər. Həmin idarə Türkiyə xəzinəsinə gələn bütün mənbələri öz nəzarətləri altına almışdılar.

Fransız kapitalı Osman bankında və tütün inhisarında hakim mövqeyə malik idi.

Məhərrəm dekreti Türkiyənin Avropa kapitalının yarım müstəmləkəsinə çevrilməsi yolunda böyük addım idi.

Əgər Türkiyədə iqtisadi sahədə Fransa həlledici rol oynayırdısa, Berlin konqresindən sonra siyasi üstünlük ingilislərə məxsus idi. Burada həlledici rolu Aralıq dənizindəki ingilis hərbi dəniz donanması oynayırdı. Lakin İngiltərə tərəfindən Misir işğal olunduqdan sonra ingilis-türk münasibətləri hədsiz dərəcədə kəskinləşdi. 80-ci illərdə birinci yerə Rusiya keçdi.

## Aralıq dənizi Antantası

Müharibə təhlükəsi İngiltərə və Avstriya, İngiltərə və İtaliya arasında aparılan danışıqların canlanmasına səbəb oldu. Beynəlxalq şərait İngiltərənin Avstriya və İtaliyaya yaxınlaşmasını zəruri edirdi. Həm bu dövlətlərin, həm də Almaniyanın ümumi düşmənləri Rusiya və Fransa idi. Lakin İngiltərə öz üzərinə hərbi öhdəlik götürmək məqsədini güdən ittifaq müqaviləsi bağlamaq istəmirdi. O, Rusiya və Fransaya qarşı mübarizəni başqasının əli ilə aparmaq istəyirdi. Bunu Bismark yaxşı başa düşürdü. İngiltərə, Avstriya-Macarstan və İtaliya arasında ittifaq müqaviləsinin bağlanmasının tərəfdarı olan Bismark 1887-ci il fevralın əvvəllərində Solsberiyə bildirdi ki, əgər İngiltərə Avstriya və İtaliya ilə ittifaq müqaviləsi bağlamasa, o Misirdə maliyyə məsələlərində İngiltərəni müdafiə etməyəcək. Bu hədə öz rolunu oynadı. Fevralın 12-də İtaliya və İngiltərə arasında nota mübadiləsi oldu. Bu notalarda



hər iki tərəf Aralıq dənizi, Qara dəniz, Egey dənizi, Adriatik dənizləri sahillərində «Status-qvo»nu müdafiə etməkdə əməkdaşlıq etməyi öhdələrinə götürürdülər. İngiltərənin notasında bu ittifaqın mahiyyəti və məqsədi konkret olaraq açılmamışdı. Notada göstərildiyi kimi bu əməkdaşlığın xarakteri ona görə açılmamışdı ki, gələcəkdə, lazım gələrsə, hər bir mövcud şəraitə uyğun olaraq sərbəst surətdə ona müraciət etmək mümkün olsun. Solsberi bunu ingilis diplomatiyasının yaradıcılığının tipik nümunəsi adlandırmışdı. Kraliçaya yazdığı məktubunda Solsberi göstərmişdi ki, ingilis notası elə tərtib edilmişdi ki, sərbəst mühakimə yürütməyə imkan verilsin. Məs. İtaliya ilə əməkdaşlıq hər bir şəraitdə hərbi kömək göstərməyə gətirməlidirmi?

Martın 24-də Avstriya-Macarıstan ürəyindən olmasa da bu müqaviləyə qoşuldu. Avstriya hökuməti ehtiyat edirdi ki, İngiltərənin müəyyən hərbi öhdəlik götürmədiyi şəraitdə bu ittifaq Avstriyanın Rusiyaya qarşı münaqişəyə cəlb edilməsi ilə nəticələnər və beləliklə İtaliya təklikdə qala bilər.

## Əfqanıstan və Orta Asiyada Rusiya-İngiltərə münasibətləri

Orta Asiyada iki dövlətin – Rusiyanın və İngiltərənin mənafeləri ciddi surətdə toqquşurdu. Onlar bir-birilərindən qorxaraq, hər ikisi hücumçu siyasət yeridirdi.

Orta Asiyada, Əfqanıstanda, İranda İngiltərənin siyasəti yalnız ümumi xətti müəyyən etməyə yönəldilmişdi. Onun bilavasitə həyata keçirilməsi

Hindistanın vitse-kralının əlində idi. İngilis agentləri Əfqanıstanda məskən salmışdılar. Türküstana və qərbi Çinə soxulurdular. Kəşfiyyat zabitləri də bu agentlər kimi çıxış edirdilər. Onlar İngiltərə-Hindistan komandanlığına, deməli vitse krala tabe idilər. Onlar öz növbəsində yerli əhalidən də agentlər cəlb edirdilər.

İngilislərin Orta Asiyada ekspansiya siyasətinin mərkəzində qərbi Çin-Sinzyan yox, Əfqanıstan dururdu. Onun vasitəsi ilə İngiltərə Türkmənistana öz əlini uzatmaq istəyirdi.

1869-cu ildə Əfqanıstanda altı ilə qədər davam etmiş feodal ədavətinə son qoyuldu. Əmir Şir Əli öz düşmənlərinə qalib gəldi. Ölkəni siyasi cəhətdən birləşdirməyə girişdi. Hindistanın vitse-kralı lord Mayo Şir Əlini ələ almağı qərara aldı. O, Britaniya Hindistanının ərazisində Ambalda əmirlə görüşdü. Elə birinci iclasda Şir Əli dedi: «Mən hakimiyyətə başlayanda, Əfqanıstanda üsyan baş verəndə, İngiltərədən kömək xahiş etdim, lakin o, mənim xahişimi rədd etdi. Buna görə də Sizin yenicə göndərdiyiniz pulu və silahı özünüzə qaytarıram. Mən sizinlə müqavilə bağlaya bilmərəm». Əslində əmir çox yenilməz idi. Lakin uzun mübahisələrdən sonra, o ingilislərdən silahı və hər il pul yardımını qəbul etdi.

Şir Əli İttifaq müqaviləsi bağlamağı tə'kid edirdi. O, tələb edirdi ki, İngiltərə onun qanuni varislik hakimiyyətini tanımağı öhdəsinə götürməlidir. Lord Mayo bu təklifi rədd etdi. İngilis hökuməti öz oyunlarını davam etdirmək üçün imkanları bağlamaq istəmirdi. Lakin lord söz verdi ki, Əfqanıstanın xariji işlərinə qarışmayajaq. Bununla bərabər, Şir Əli söz verdi ki, o xariji



siyasətini Britaniya-Hindistan hökuməti ilə razılaşdırajaq.

Şir Əli ingilislərdən silah və pul almaqdan imtina etmədi. Lakin o ingilislərə qarşı narazılıq və şübhə yaradırdı. Əfqan xalqı isə əmiri ingilislərə satılmaqda təqsirləndirirdi.

1869-ju ilin əvvəllərində ingilis hökuməti çar hökumətinə Orta Asiyada bitərəf zona yaratmaq haqda təklif verdi. O, hər iki dövlət üçün toxunulmaz e'lan edilməlidir. Rusiya hökuməti buna razılıq verdi və bu zonaya Əfqanıstanı da daxil etməyi irəli sürdü. Bununla, Rusiya İngiltərə tərəfindən Əfqanıstanın işğal edilməsinin qarşısını almaq məqsədi güdürdü. İngiltərə buna qarşı Rusiyanın himayəsində olan Şimal vilayətləri hesabına bitərəf zonanı genişləndirməyi irəli sürdü. Onlar razılığa gələ bilmədilər.

1869-ju ilin payızında yenidən danışıqlar bərpa olundu. Bu danışıqlarda iştirak etmək üçün Hindistanın vitse-kralı Forsayt Sankt-Peterburqa gəldi. Onlar razılığa gəldilər. Saziş ingilis hökuməti tərəfindən təsdiq olundu. Həmin sazişə görə, Əfqanıstan Şir Əlinin hakimiyyəti altında olan vilayət kimi təsdiq olunur. İngiltərə hökuməti Əmirin öz ərazisini genişləndirmək jəhdlərinin qarşısını almaq üçün tədbirlər görəjəyini öhdəsinə götürür. Rusiya da söz verdi ki, o Buxara əmirinin Əfqanıstana hüjum etməsinə mane olajaq.

Lakin Şir Əlinin torpağının sərhəddinin haradan keçdiyini heç kim bilmirdi. Ona görə də hər iki tərəf bu yerlər haqda mə'lumat toplamaq qərarına gəldi.

Bir qədər sonra 1869-cu il sazişinin şərhi məsələsində iki dövlət arasında ixtilaflar meydana çıxdı. İngiltərə hökuməti təsdiq edirdi ki, ondan əvvəlki və

onun atası Əmir Dost Məhəmmədin ərazisi bütövlükdə Şir Əliyə məxsus olmalıdı. Lakin indi vəziyyət başqa cür idi. Dost Məhəmmədin idarəsinə daxil olan bir sıra xanlıqlar indi Şir Əlinin idarəsinə daxil deyildi.

1871-ci il noyabrın 1-də çar hökuməti Orta Asiyada «Status qvo»nun gözlənilməsi barədə İngiltərə hökumətinə mə'lumat verməyi Londondakı səfirinə tapşırıq verdi.

İngiltərə hökuməti bu təkliflə razılaşmadı, çünki o öz tə'sir dairəsinin şimalın hesabına genişləndirilməsinə tə'kid edirdi.

1872-ci il oktyabrın 17-də London sərhədin Əfqanıstanın şimalından Amu-Dərya çayı boyunca, onun yuxarısındakı Xoca Saleh məntəqəsinə və Türkmənistan düzənliyinə qədər tanınmasını irəli sürdü. Dekabrın 19-da Rusiya cavab verdi. O Bodaxşan və Vaxan xanlıqlarının ərazisindən aşağı Amu-Dərya çayı boyunca ərazini sərhəd kimi qəbul edirdi. Bu iki xanlığın Əfqanıstan xanlığına daxil olduğunu Rusiya qəbul etmirdi.

Lakin sonralar Rusiyanın mövqeyi dəyişdi. 1873-cü il yanvarın 31-də Rusiya İngiltərənin irəli sürdüyü təklifi qəbul etdi. Bunu qəbul etməklə, Rusiya başqa məqsəd güdürdü: Xivə xanlığını işğal etməklə, İngiltərənin əks müqavimətini zəiflətmək.

1872-ci il dekabrın 4-də II Aleksandrın sədrliyi ilə çağrılmış xüsusi müşavirə Xivə üzərinə yürüş təşkil etmək haqda qərar qəbul etdi. 1873-cü il iyunun 9-da Xivə xanlığının paytaxtı rus qoşunları tərəfindən tutuldu. Sonra müqavilə imzalandı. Müqaviləyə görə, Xivə Rusiyanın vassalı oldu. O, başqa dövlətlərlə müstəqil xarici siyasət apara bilməzdi.



Xivənin işğalı ciddi beynəlxalq təzyiq olmadan qəbul edildi.

Yalnız İngiltərə öz e'tirazını bildirdi. Doğrudur, 1874-cü il yanvarın 7-də, yə'ni bir il keçdikdən sonra İngiltərənin Xarici İşlər Naziri Qrenvil Sankt-Peterburqa çara məktub göndərdi. Məktubda göstərilirdi ki, əgər Rusiya Xivənin qonşusu Mərvə doğru hərəkət edərsə, onda türkmən qəbilələri xilas olmaq üçün Əfqanıstanda sığınacaq axtarmağa çalışacaqlar. Belə şərait Rusiya və Əfqanıstan orduları arasında toqquşma baş verməsinə səbəb ola bilər. İngiltərə hökuməti ümid edirdi ki, Hindistanın təhlükəsizliyi və sülh üçün vacib şərt kimi Rusiya Əfqanıstanın müstəqilliyini tanımaqdan imtina etməyəcəkdir. Bu məktubun məqsədi İngiltərənin öz tə'sir dairələrini Rusiyadan qorumaqdan ibarət idi. Xivə xanlığının Rusiyaya tabe olması barədə məktubda heç nə deyilmirdi.

İngiltərə ilə sonrakı danışıqlarda, habelə 1875-ci il 29 aprel tarixli memorandumda göstərilirdi ki, Rusiya və İngiltərə arasında rəqabət, hər iki dövlətin mənafelərinə ziddir. Qorçakov söz verdi ki, Rusiya Orta Asiyada nə Buxaraya doğru, nə də türkmən düzənliklərində malikanələrini genişləndirmək fikrində deyil.

Lakin 1874-cü ildə liberal Qladston kabinetini əvəz etmiş Dizraelinin mühafizəkar hökuməti Britaniya müstəmləkə imperiyasını genişləndirmək ruhunda çıxış edirdi.

Burada Orta Asiya müstəsnalıq təşkil etmirdi. O öz agentlərinin İrana və Türkmənistana göndərilməsini gücləndirirdi. O, bu barədə Rusiya ilə danışığa gəlmək istəyirdi. Lord Derbi 1875-ci il mayın 13-də bildirmişdi ki, İngiltərə və Rusiyanın Asiyada razılığa gəlmələrinə heç

kim mane ola bilməz. Derbinin sözlərinə görə, orada hər iki dövlət üçün yer tapılar. O, Orta Asiyanı birbaşa bölüşdürməyi Rusiyaya təklif etmişdi.

1876-cı ilin fevralında Qorçakov İngiltərənin yeni mövqeyi ilə əlaqədar olaraq 1873-cü ildə Əfqanıstanın sərhədləri haqqında sazişi müdafiə etdiyini bildirdi. Bununla yanaşı, göstərdi ki, hər iki dövlət sərbəst fəaliyyət göstərmək hüququnu özündə saxlayır. Bundan istifadə edərək Çar 1876-cı il fevralın 17-də Kokand xanlığının Rusiya imperiyasına birləşdirilməsi haqqında fərman verdi.

Dizraeli də tələsirdi. Lakin Rusiyaya nisbətən işğal etməyi nəzərdə tutduğu torpaqlara sahiblənmək İngiltərə üçün çətin idi.

Dizraelinin Baş nazir olduğu vaxta qədər İngiltərə ilə Şir Əli arasında münasibətlər Əfqanıstanın İngiltərənin himayəçiliyi formasında davam edirdi. 60-cı illərin sonlarından İngiltərəyə meyl edən Şir Əli Rusiyaya qarşı düşmənçilik siyasəti yeridirdi. O, Amu-Dəryanın cənub sahillərində möhkəmlənməklə yanaşı, Türkmənistanı da öz tə'siri altına almağa cəhd edirdi.

Lakin buna baxmayaraq, onu öz əlində möhkəm saxlamaq üçün İngiltərə Əfqanıstan feodalları arasında Şir Əli ilə rəqabət aparan feodallarla sıx əlaqə saxlayırdı. O, gizlində Heratın hakimi olan Şir Əlinin oğlu Yaqub xanı atasına qarşı müdafiə edirdi.

Şir Əli ingilislərlə sıx əlaqə saxlamaqla, həm də ona tabe olmaq istəmirdi. 1873-cü ilin iyulunda Hindistanın Siml şəhərində ingilis-əfqan konfransı oldu. Əmiri Səyid Nur-Məhəmməd təmsil edirdi. O, İngiltərədən əmirin sülaləsinin tanınmasını, ona pul və silahla daha çox kömək göstərilməsini tələb etmişdi. İngiltərə nümayəndəsi ingilis rezidentlərinin Herat və Qəndahara buraxılmasını bir daha tələb etdi. Əvvəllər bu tələb rədd edilmişdi.



İngilis hökuməti üçün öz agenturasını əmirə calamaq İngiltərə diplomatiyasının Əfqanıstana münasibətində əsas məsələ idi. Mərkəzi dövlətin zəif olduğu, feodallar arasında çəkişmə davam etdiyi bir ölkədə onu daxildən məhv etməyin və özünə tabe etməyin ən vacib yolu öz agentlərini onun daxilində yerləşdirmək idi.

İngiltərə hökumətinin bu təklifi qəbul edilmədi. Buna görə İngiltərə açıqdan-açığa ona qulaq asmayan Əmirə qarşı mübarizəyə başladı. Əmir də öz tədbirlərini görürdü. O, 1874-cü ildə kiçik oğlu Abdulla xanı özünün vəliəhdi e'lan etdi. 1874-cü ilin noyabrında Yaqub xan həbs edilib qazamata salındı.

Hindistan vitse kralı Lord Mayo və onun sələfi Norsbruk Əfqanıstanın tezliklə işğal olunmasının əlehinə idilər.

İngiltərə hökuməti tərəfindən Hindistanın vitse kralına həvalə edildi ki, bir daha ingilis rezidentlərinin Herata və Qəndahara buraxılmasını tələb etsin.

Norsbruk belə xəttə e'tirazını bildirdi. 1875-ci ilin noyabrında Dizraeli hökumətində Hindistan işləri üzrə nazir Solsberi vitse krala yazmışdı ki, o, əmiri Kabulda ingilis missiyasını qəbul etməyə məcbur etsin. Norsbruk yenə e'tiraz etdi. Buna görə Dizraeli onu iste'faya göndərdi.

1876-cı ilin aprelində vitse-kral vəzifəsini Dizraelinin yaxın adamı lord Litton tutdu. Hindistana getmək ərəfəsində hökumət tapşırığı aldı. O əmirə deməli idi ki, İngiltərə Əfqanıstanı «müdafiə etməyə»,

əmirə «kömək» etməyə» hazırdı, bu şərtlə ki, o Əfqanıstan sərhədlərində nə baş verdiyini bilməlidi. Buna görə də o, bütün sərhəd rayonlarında yoxlama aparmağı ingilis zabitlərinə icazə verməlidi. Eyni zamanda Meymeni, Əfqanıstanın şimali-qərb sərhədlərinə yaxın olan digər türkmən xanlıqlarını tutmağa əmiri şirnikdirməli idi.

Rus hərbi dairələrində olan mə'lumata görə, əfqan ordusunun yarısına qədər həmin yerlərdə cəmləşdirilmişdi. Yolun olmadığı və əsarət altına salınmış Amu-Dəryanın sol sahilindəki türkmənlərin, özbəklərin, taciklərin düşmənçiliyi şəraitində həmin ordunu Britaniya-Hindistanı sərhədlərinə geriyə qaytarmaq əmir üçün o qədər də asan deyildi.

1876-cı ilin mayında Litton ingilis səfirliyinin Kabulda qəbul edilməsini Əmirdən tələb etdi. Şir Əli xan vitse-kralın səfirliyini öz paytaxtında qəbul etməkdən imtina etdi. O, əmin idi ki, öz ölkəsinə ingilis rezidentlərinin buraxılması ölkəsində intriqa və təxribat mərkəzinin yaradılması demək idi. Bu isə ölkənin müstəqilliyi və Əmirin hakimiyyəti üçün təhlükəli idi. Lakin Şir Əli Hindistan ərazisində danışıqlar aparmağa razılıq verdi. Danışıqların Peşəvarda aparılması qərara alındı. Əmirin nümayəndəsi Nur Məhəmməd ora gəldi.

Danışıqlar 1877-ci ilin yanvarında başlandı. Əmirin nümayəndəsi Əfqanıstanın işlərinə İngiltərənin müdaxilə etməsi barədə uzun siyahıdan ibarət olan şikayəti oxudu. İngiltərənin məqsədi onu xarici dövlətlərlə münasibətlərdə müstəqil hərəkət etməkdən imtina etməyə məcbur etmək, ölkənin mühüm mərkəzlərində və sərhədlərində ingilis zabit-rezidentləri yerləşdirmək idi. Sonuncu ingilislər üçün Əmirə qarşı intriqa



törətməkdən ötəri yox, həm də Baxırıya və Türkmənistana daxil olmaq üçün lazım idi.

Şir Əli ingilislərin kələyini başa düşdü və Nur-Məhəmməd vasitəsilə bildirdi ki, o ölər, ancaq güzəştə getməz. Vitse-kral təhqiredici cavab verdi və danışıqların davam etdirilməsini əhəmiyyətsiz hesab etdi.

Əmirin nümayəndəsi Nur Məhəmməd qəribə şəraitdə Peşəvarda öldü. Əmir Peşəvara öz yeni nümayəndəsini göndərmək istədi və güzəştə getməyə hazır idi. Lakin vitse-kral danışıqları kəsdi. Əmirin nümayəndəsinin gəlməsinə ehtiyac olmadığını bildirdi.

Əfqanıstana qarşı müharibə hələ 1876-cı ildə İngiltərə hökuməti tərəfindən qərarlaşdırılmışdı.

İngilislər bilavasitə müharibə hazırlığına başladılar və Gelatda hakim feodallara qarşı narazılıqdan istifadə etdilər. 1876-cı ilin noyabrında onlar Əfqanıstanın qonşusu Gelat xanlığının hakimləri ilə onların ingilis protektoratlığını qəbul etmələri barədə müqavilə imzaladılar. Gelat öz ərazisində Hindistan-ingilis qoşununun yerləşdirilməsinə icazə verdi.

Xanla müqavilə imzalanan kimi vitse-kral Gelata ordu hissələri göndərdi və Əfqanıstanla müharibə zamanı çox mühüm olan Kvettanı tutdu. Kvetta Qəndəhara gedən yolda yerləşən Bolan keçidi üzərində hakim olmağa imkan verirdi. İngilislər Kvettanı möhkəmləndirdilər. Kvetta həm də Əmirə qarşı Qərbi Əfqanıstan feodalları arasında intriqa aparmaq üçün çox əlverişli idi. Əfqan sərhədinə doğru yollar tə'mir edildi. Hind çayı üzərində körpü salındı. 1876-cı ildə ingilislər Şərqdən Əfqanıstanla qonşu olan və Bodaxşana yol

açan Çitral knyazlığını işğal etdilər. Əfqanıstana hücum etmək üçün istinad meydanı belə yaradıldı.

1877-ci ilin əvvəllərində Əfqanıstana silah gətirmək üzərinə embarqo qoyuldu. Əfqanıstana aparan bütün dağ keçidlərinə ingilis-hind qoşun birləşmələri yerləşdirildi. Litton Heratı və Qəndaharı almaqla, Əfqanıstanı parçalamağı planlaşdırmışdı.

Hücuma hazırlaşan İngiltərə hökuməti, Türkiyə Sultanından xahiş etdi ki, Kabula nümayəndəlik göndərsin, Şir Əlini ingilislərə tabe olmağa və ruslara qarşı birlikdə çıxış etməyə inandırsın.

1877-ci ilin aprelində rus-türk müharibəsi başlanmışdı. Dizraeli Orta Asiyadan Rusiyaya zərbə endirmək haqda düşünürdü. İngilislərin hesabına Kabula nümayəndəlik göndərildi. Rusiya ilə müharibəyə hazırlaşan Sultan Əmirdən islam uğrunda mübarizə üçün xristian Rusiyaya və şiə İrana qarşı ittifaq bağlamağı təklif etdi. Lakin o müvəffəqiyyət qazanmadı. Əmir başa düşürdü ki, Rusiyaya qarşı İngiltərə ilə ittifaq və Əfqanıstanda ingilis qoşunlarının görünməsi ölkənin müstəqilliyinin sonu demək idi.

Hələ 1876-cı ilin iyulunda Şir Əli Türküstan general–qubernatoru Kaufmana məktub göndərmişdi və həmin məktubda Əfqanıstan və Rusiya arasında dostluq münasibətlərinə inam bəslədiyini bildirmişdi. İngilis təhlükəsinin gücləndiyini görən Şir Əli sentyabrın 15-də Kaufmana yeni məktub göndərdi. O, Rusiya ilə bilavasitə siyasi əlaqələrinin yaradılmasının arzu olunduğunu bildirirdi. Türküstan qubernatoru müsbət cavab verdi. Şübhəsizdir ki, Şir Əli İngiltərədən qorxurdu.

Türküstanda ingilis agentləri yerli xanları Rusiya əlehinə qaldırır və onları silahlandırırdı. Litton Mərvi



tutmağa cəhd edirdi. O, kapitan Betlerə tapşırıq verdi ki, Rusiyaya qarşı hərəkət etmək üçün türkmənlərdən silahlı dəstələr təşkil etsin. Rus kəşfiyyatı bundan xəbər tutdu. Çar hökuməti Betlerin fəaliyyəti barədə İngiltərə hökumətinə öz e'tirazını bildirdi. İngilislər Betleri geri çağırdılar. Özünün ifşa olunmasından qəzəblənən Betler mətbuatda çıxış edərək, öz missiyası barədə söz açdı, onun təşkilatçısı olan vitse-kralı ifşa etdi.

Rusların Xəzər arxası ərazilərə hücumu hələ 1869-cu ildə möhkəmləndirilmiş məntəqə kimi Krasnovodskinin bünövrəsinin qoyulmasından başlanmışdı. 1877-ci ildə Qızıl-Arvat işğal olundu. Türkmənistana əsas hücum 1877-1878-ci ildə oldu.

İngiltərə Əfqanıstanı, Orta Asiyanın digər vilayətlərini öz əsarəti altına almaq üçün rus-türk müharibəsindən istifadə etdi. Türkiyəni Rusiya ilə müharibəyə itələyən Bikonsfild hökuməti özünün əsas diqqətini Orta Şərqə yönəltdi.

Rusiya da ingilislərin Orta Asiyadakı planlarına mane olmaq üçün tədbirlər fikirləşirdi.

İngiltərədə ehtiyatda olanların orduya çağırışı e'lan olunan kimi Rusiya öz qüvvələrini, Türküstan hərbi dairəsində - Çarçu (Amu dəryada), cami, Alay vadisi rayonlarında cəmləşdirdi. İndi Əmir Rusiya ilə yaxınlaşmağa yollar axtarırdı. O, İngiltərənin e'tibarsızlığından və düşmənçiliyindən cana gəlmişdi. Əmir Türkiyə sultanına yazmışdı ki, mənə mə'lumdur ki, İngiltərə dostluq əlaqələrinə məhəl qoymur, özünü qeyri-səmimi aparır. Mən onları həmişə kənarda saxlamağa cəhd edirəm. Şir Əli göstərir ki, ingilislərin dostluğu quru sözdür, bu onların alnında yazılıb, sultanın köməyə daha çox ehtiyacı olduğu vaxtda İngiltərə

ona kömək göstərmədi. Əmir Sultanı ingilislərlə ittifaqdan imtina edib, ruslarla yaxınlaşmağa çağırırdı.

Əmir bir neçə müddət idi ki, Türküstan general qubernatoru ilə yazışma aparırdı. İndi artıq İngiltərə ilə müharibənin mümkünlüyünü yəqin edən Rusiya, general-mayor Stoletovun başçılığı altında Kabula nümayəndə göndərməyi qərara aldı. Bu qərar aprelin sonlarında qəbul olundu, nümayəndəlik isə 1878-ci il iyulun 9-da Daşkənddən çıxdı.

Bu iki tədbiri - qoşunların cəmləşdirilməsini və nümayəndəliyin göndərilməsini həyata keçirməklə Rusiya Balkanlarda da öz maraqlarını müdafiə etmək məqsədini güdürdü. Bu həm də İngiltərənin əvvəlcə Əfqanıstanı, sonra isə Orta Asiyanı işğal etmək cəhdlərinin qarşısının alınmasına yönəldilmişdi.

General Stoletovun Kabula gəlməsi ingilislərə qarşı mübarizədə Əfqanıstan üçün real kömək idi.

İngilis diplomatları belə təsəvvür yaratmağa çalışırdılar ki, guya İngiltərənin Əfqanıstana qarşı müharibəyə başlamasına general Stoletovun Kabula gəlməsi səbəb olmuşdu. Həqiqətdə isə bu heç də belə deyildi. İngiltərənin Əfqanıstanı işğal etməyə cəhd göstərməsinə hələ 1838-1842-ci illərdə olmuş birinci ingilis-əfqan müharibəsi zamanı, sonralar Kvettanın işğalı, ingilis qoşunlarının dağ keçidlərinə cəmləşdirilməsi. Peşavar konfransı və s. şahidlik edir.

Stoletovun missiyasının Əfqanıstana göndərilməsi, Rusiyanın ingilislərə qarşı mübarizədə Əmir Şir Əli ilə əməkdaşlıq etdiyini nümayiş etdirmək məqsədini güdürdü. Çar hökuməti Əfqanıstanda marağı olduğunu göstərməklə, İngiltərəni qorxutmaq, onu Yaxın Şərqdə güzəştə getməyə məcbur etmək idi.



1878-ci ilin yazında İngiltərənin Sankt-Peterburqdaki səfiri rus ordularının Orta Asiyada cəmləşdirilməsi barədə Rusiya Xarici İşlər Nazirliyinə sorğu verdi. Ona cavab verdilər ki, İngiltərənin Rusiyaya qarşı düşmənçilik siyasətinə cavabdır. Əgər İngiltərə öz münasibətini dəyişərsə, bu tədbirlər ləğv olunacaq.

Kaufman və Stoletov İngiltərəyə qarşı Əfqanıstana hərbi kömək göstərməyin tərəfdarı idilər. Əmir də bunu xahiş edirdi. Kabulda Stoletov Əmirlə birgə İttifaq müqaviləsinin layihəsini də hazırlamışdı.

1878-ci il avqustun sonlarında çara mə'ruzə etmək üçün Stoletov Kabuldan Peterburqa çağrıldı. Kabulu tərk edən Stoletov öz yerinə general Razqonovu qoydu. Stoletov Rusiyaya gələndə 1878-ci ilin oktyabrında Livadidə çarın sədrliyi ilə müşavirə toplandı. Orada iştirak etmək üçün Londondakı Rusiya səfiri Pyotr Şuvalov da də'vət edilmişdi. Stoletov Kaufmanın da fikrini ifadə edərək əmirlə müqavilə bağlamağı və ona hərbi kömək göstərməyi təklif etdi. Kaufman hesab edirdi ki, əgər ingilislər Əfqanıstanı işğal etsələr və Amu-Dəryada möhkəmlənsələr, onların bizə qarşı intriqalarının sonu olmayacaq.

Lakin hökumət buna getmədi. Çar hökuməti ingilislər tərəfindən çoxdan və dəqiq hazırlanmış ingilis təcavüzkarlığına qarşı çıxmağa cür'ət etmədi.

Kaufman vasitəsilə əmirə məsləhət gördülər ki, o əlini ingilislərə uzatsın. Burada həm də qərar qəbul edildi ki, Əfqanıstanın müstəqilliyini tə'min etmək üçün lazımi məqamda Londona diplomatik cəhdlər göstərilsin. Rusiya diplomatiyasının mövqeyi özünü doğrultmadı.

İngilis hökuməti Hindistanın vitse-kralı vasitəsilə 1878-ci ilin 14 avqustunda əmiri xəbərdar etdi ki, tə'xirə salınmaz məsələlər üzrə danışıqlar aparmaq üçün ingilis nümayəndəsi general Çemberleni Kabula göndərir. Əmir bu təklifi rədd etdi. O, bunu həm vəliəhdin matəmi ilə, həm də bu təklifi ona güclə qəbul etdirmək məqsədi güddüyü ilə əsaslandırdı və sonra göstərdi ki, qoy bir neçə müddət keçsin, sonra o özü İngiltərənin nümayəndəsini Kabula də'vət edər.

Lakin Əmirin rədd etməsinə Peşavar qubernatoru kobud məktubla cavab verdi və ingilis nümayəndəsini qəbul etməyə təkid etdi. Bu məktubu alan Əmir İngilis nümayəndəsini sərhəddən buraxmamaq əmrini verdi. Hindistanın vitse-kralı Əmirin qadağasına baxmayaraq, Çəmberlenə Kabula getməyi əmr etdi. Litton danışıqlara yox, müharibəyə başlamaq üçün bəhanə axtarırdı.

Sentyabrın 21-də Əfqanıstanın sərhəddini Çəmberlenin keçməsinə icazə verilmədi. Bununla bağlı ingilis hökuməti Əmirə ultimatum verdi. O, Littonun əmirə göndərdiyi 1878-ci il 2 noyabr tarixli məktubunda şərh edilmişdi. Həmin məktubda Əmir Əfqanıstan dövlətinin başçısı yox, Kabulun və ətrafındakı ərazinin valisi adlandırılırdı.

İngiltərə Hindistanla sərhəddə yaşayan bir çox qəbilələrin protektoratlığını da tələb edirdi. Ultimatumun müddəti 20 noyabra qədər müəyyən edilmişdi. Əlaqə vasitələrinin çox zəif olduğu dövr üçün bu böyük vaxt deyildi.

Rusların məsləhəti Əmirdə ümidsizlik yaratdı. O, bu məsləhətə qulaq asmadı. Lakin Littona cavabını bir qədər yumşaltdı. Əmirin cavabı hələ alınmamış İngiltərə-Hindistan qoşunları noyabrın 20-də üç



istiqamətdə Əfqanıstan ərazisinə soxulmağa başladılar. Çoxdan hazırlanan ingilis-əfqan müharibəsi başladı.

İngilis ordusu lazımi müqavimətə rast gəlmədi. Dekabrın əvvəllərində Qəndəharı, Peyvar-Kotal və Şutuqard keçidlərini, cəlalabadı tutdu.

Dekabrın əvvəllərində tezliklə Livadidə qəbul olunmuş qərara uyğun olaraq 1878-ci il dekabrın 9-da Qorçakov Şuvalova teleqram göndərdi.

Həmin teleqramda ingilislərə bildirilirdi ki, "İngiltərə ilə mövcud toqquşmaya son qoymağa çalışmaq barədə" Əmirə məsləhət verməyə hazırdı. O şərtlə ki, İngiltərə Əfqanıstanın müstəqilliyinə hörmət etməlidir. Əgər bu təklif qəbul edilsə, Rusiya nümayəndəsi tə'cili ölkəni tərk edəcək.

Şuvalov dərhal bu tapşırığı yerinə yetirdi. İngiltərənin birinci reaksiyası çox gözlənilməz oldu. O, Rusiya nümayəndəliyinin hələ Əmirin paytaxtında olmasına təəccüb etdiyini gizlədə bilmədi. O güman edirdi ki, rus nümayəndəliyi Kabulu çoxdan tərk edib. Özünün təəccübünü Şuvalova bildirən Solsberi rusların təklifinə keçdi. Tam aydınlığı ilə o bildirdi ki, ingilis səfirliyi həmişəlik Kabula buraxılmalıdır və Əfqanıstanın Britaniya Hindistanı ilə sərhədləri düzəldilməlidi. Solsberi Əfqanıstana daxil olmaq üçün çox vacib olan Xeyber keçidini və digər strateji məntəqələri tutmağı nəzərdə tuturdu. Bu yerlərə sahiblənməklə İngiltərə Əfqanıstanı daim qorxu altında saxlamaq imkanı qazanacaqdı. Solsberi sözünü onunla qurtardı ki, rusların təkliflərini kabinetə çatdıracaq. Sabahısı günü Şuvalova cavab verdi ki, kabinet çarın təklifini qəbul etməkdən imtina etdi və ingilis-əfqan ixtilafına Rusiyanın hər cür

qarışmasını rədd etdi. Rusiya nümayəndəliyinin Kabuldan geri çağrılmasını irəli sürdü.

Səfir Əfqanıstan sərhədinin yaxınlığında olan Mərvə rus qoşunlarının göndərilə biləcəyi ehtimalına işarə etdi.

Şuvalov və Solsberi arasında danışıqlar xeyli davam etdi.

Bir neçə gündən sonra Rusiyanın öz nümayəndəliyini Kabuldan geri çağırması əvəzində Şuvalov Əfqanıstan barəsində əvvəlki ingilis-rus sazişinə uyğun olaraq İngiltərənin üzərinə götürdüyü öhdəliyi Solsberinin yadına saldı və onun bunları təsdiqləməsinə nail oldu. Bu razılıq Şuvalov və Solsberi arasında 1878-ci ilin 19-u dekabr tarixli məktub mübadiləsi ilə təsdiqləndi.

İndi rəsmi surətdə təsdiq edilmiş əvvəlki sazişlərdə nələr nəzərdə tutulmuşdu? 1872-ci ildən başlanmış və uzun siyahını təşkil edən notalar 1875-ci il oktyabrın 25-də ingilis memorandumu ilə başa çatmışdı. Bu sənəddə İngiltərə hökuməti bildirirdi ki, hər iki hökumətin məqsədi "Əfqanıstanın bütövlüyünü müdafiə etmək idi". Bununla bərabər, İngiltərə bu siyasətin gələcəkdə davam etdirilməsinin zəruri olduğunu bəyan edirdi. Memorandumda göstərilirdi ki, Rusiya və İngiltərə arasındakı danışıqlarda Əfqanıstana «müstəqil dövlət» kimi baxılırdı. Əvvəlki sazişlərdə əsasən bunlar öz əksini tapmış və indi də təsdiqləndi. Hüquqi nöqteyi-nəzərdən onların təsdiqlənməsi Əfqanıstanın işğal edilməsini və onun bölünməsini formal cəhətdən sığorta edirdi. Lakin onu İngiltərənin qəyyumluğundan xilas etmirdi.

1878-ci il dekabrın 15 (3)-də rus nümayəndəliyinin Kabulu tərk etməsi barədə Peterburqdan Kabula göstəriş göndərildi. Bu göstəriş o vaxt verilmişdi ki,



ingilis qoşunlarının şəhərə yaxınlaşması üzündən Əmir Şir Əli Kabulu tərk etmək qərarına gəlmişdi. O, Peterburqa getməyi ingilislərin Əfqanıstana qarşı hərəkətlərini dünyaya bildirməyi və kömək axtarmağı qərara almışdı. Ölkəni tərk edən əmir, hakimiyyəti oğluna həvalə etdi. Rus nümayəndəliyi dövlətin başçısı ilə birlikdə Kabulu tərk etdi. Onlar şimala rus sərhəddinə doğru hərəkət etdilər. Lakin Şir Əli bunu görmədi, yolda xəstələndi və 1879-cu ilin fevralında Məzari-Şərifdə vəfat etdi.

Əfqanıstanın bütövlüyünə hörmət etmək barədə Rusiya hökumətinə verdiyi öhdəliyə baxmayaraq, Bikonsfild hökuməti 1878-ci il dekabrın 10-da Hindistanı Əfqanıstanla bağlayan üç başlıca dağ keçidinin tutulması barədə Parlamentə mə'lumat verdi.

Bikonsfild həm də ingilis nümayəndəliyinin Əfqanıstanda yerləşdirilməsi fikrində olduğunu da e'lan etdi. İngilis hökumətinin bu fikirdə olduğunu xəbər verən Şuvalov ingilislərin utanmazlığını qeyd etmişdi. O, şübhəli surətdə bildirirdi ki, Əfqanıstanın müstəqilliyini gözləməyə hazır olduqları barədə ingilislərin şifahi sözləri kifayətdirmi?

Şuvalovun bu şübhələrinə Peterburq da tam şərik çıxırdı. Bununla əlaqədar olaraq çar hökuməti yeni bir addım atmalı oldu. Bununla o, 1) ya ingilislərin Orta Asiyanı işğal etmələrinin qarşısını almaq, ya da 2) öz əl qolunu tamam açmaq məqsədini daşıyırdı.

1879-cu il fevralın 12-də Qorçakov İngilis hökumətinə yeni təqdimat vermək barədə Şuvalova göstəriş verdi. Əgər İngiltərə hökuməti Xeyber keçidi, Kuram vadisi, ola bilsin ki, Qəndəharla öz iddialarını məhdudlaşdırmasa, Əfqanıstanın müstəqilliyinə və

bütövlüyünə hörmət etmək barədə götürdüyü öhdəliyi yerinə yetirmədiyi üçün Rusiya Orta Asiyada sərbəst hərəkət etmək azadlığını özünə qaytarır. Bu xəbərdarlıqla Rusiya hökuməti ingilisləri dayandırmağa nail olmaq məqsədi güdürdü.

Lakin bu cəhd müvəffəqiyyət qazanmadı, ingilislər dayanmadılar. Yeni əmir Yaqub xan yaza qədər tab gətirdi. 1879-cu il mayın 8-də Yaqub xan general Brounun hərbi qərargahının yerləşdiyi Qandamaka gəldi və mayın 26-da Qandamakda sülh müqaviləsini imzaladı. Bu Əfqanstanın tarixində ən alçaldıcı, rəzil, əsarətedici müqavilə idi. Bu müqaviləyə görə İngiltərə-Hindistan hökumətinin razılığı olmadan xan heç bir xarici dövlətlə hər hansı münasibətlərə girə bilməzdi. Əfqanıstanı Hindistanla bağlayan, Əfqanıstana gedən ingilis-hind ordusunun yolunda olan əfqan ərazisinin bir hissəsi, bütün mühüm strateji əhəmiyyətli dağ keçidləri ingilislərə verilirdi. Əmirə pul köməyi müəyyən edilirdi. Kabulda daimi ingilis nümayəndəliyi yaradılır və onun öz silahlı müdafiəçiləri olurdu. Əmir yolları da ingilislərlə razılaşmaqla və onun köməyi ilə çəkməli idi. İngilislər Kabuldan Hindistana telefon xətti çəkmək ixtiyarı da aldılar. Lakin ingilis ordusu Əfqanıstanı tərk etməli idi.

Beləliklə, son illərdə, Şir Əli vaxtında Rusiyaya meyl göstərmək siyasəti, indi ingilislər qarşısında təslim olmaq siyasəti ilə əvəz edildi.

Qandamak müqaviləsi nəticəsində Əfqanıstan İngiltərənin protektoratı altına düşdü. 1879-cu ilin iyununda mayor Kavanyarinin şəxsində İngiltərənin daimi nümayəndəsi Kabulda əyləşdi. O, ölkənin bütün daxili işlərinə aramsız qarışırdı.



Qandamak müqaviləsi Əfqanıstanın müstəqilliyinə hörmət etmək barədə rus-ingilis sazişinin kobud surətdə pozulması demək idi.

İngiltərə hökuməti arxayın idi ki, Türkiyə ilə müharibədə zəif düşmüş, Berlin konfransında diplomatik məğlubiyyətə uğramış Rusiya, ingilis-əfqan ixtilafına qarışa bilməyəcək. İndi Rusiyanın bir əlacı qalmışdı. Necə etsin ki, İngiltərənin Türkmənistana təcavüzünün qarşısını alsın. O Axal-Tekinə ekspedisiya göndərmək hazırlığına başladı.

Tezliklə Əfqanıstanda vəziyyət, İngiltərənin əleyhinə dəyişdi. 1879-cu ilin avqustunda qarnizonun əsgərləri üsyan qaldırdılar. Sonra xalq üsyanı başladı. Sentyabrın 3-də Kabulda əfqan üsyançıları ingilis nümayəndəliyinin üzvlərini və Kabulda olan bütün ingilisləri məhv etdilər.

İngilis komandanlığı öz tədbirlərini gördü. 1879-cu ilin oktyabrında ingilis ordu dəstələri Kabula yaxınlaşdı. Əfqanıstan diplomatiyası iki qılınc arasında qalmışdı. Bir tərəfdən ölkənin müstəqilliyini qorumağa cəhd edir, digər tərəfdən xalq üsyanından ehtiyat edirdi.

Əmir Yaqub xan öz xalqına xain çıxdı. O, ingilis dəstəsinin rəisi Robertsin qərargahına gəldi və ona təslim oldu. Qanlı döyüşlərdən sonra ingilislər Kabulu tutdular, onu demək olar ki, dağıtdılar.

Bu hadisələrdən istifadə edərək, rus hökuməti yeni fənd işlətdi. O, Daşkənddə Rusiyanın himayəsi altında mühacirətdə yaşayan Əbdürrəhman xanın Əfqanıstana getməsinə icazə verdi. O, 1866-1867-ci illərdə Əfqanıstanın əmiri olmuş Məhəmməd Əfzəl xanın oğlu, məşhur Dost Məhəmmədin nəvəsi idi. O, Əfqanıstanda böyük tə'sirə və nüfuza malik idi. Qısa müddətdə o,

əfqan Türküstanını ələ keçirir və Əfqanıstanın şimal hissəsində ingilislərə qarşı müqavimətə başçılıq edir.

Hindistanın ingilis hökuməti Əbdürrəhman xanın müvəffəqiyyətlərindən qorxuya düşür. Özünün Əfqanıstandakı ordusunun çətin vəziyyətə düşdüyünü nəzərə alan İngiltərə hökuməti diplomatiyanın köməyinə əl atır. O, Əbdürrəhman xanı öz tərəfinə çəkməyi qərara alır.

Britaniyanın Kabuldakı nümayəndəsi Qriffin, Əbdürrəhman xanın Kabulda yaşayan bacısının qulluqçusu vasitəsi ilə ona məktub göndərir. Həmin məktubda Əbdürrəhmandan onun nə məqsədə Əfqanıstana gəldiyi soruşulurdu. Əbdürrəhman xan bunun məqsədini başa düşdü və cavab verdi ki, onun məqsədi babalarının ölkəsinin ona qaytarılmasını tələb etməkdi. Əgər ingilislər onunla dostluq və əməkdaşlıq yaratmaq istəyirlərsə, onlar qadın vasitəçiliyindən imtina etməli, layiqli və nüfuzlu nümayəndələrinin vasitəsi ilə ittifaq yaradılmasına başlamalıdırlar. cavab göndərən Əbdürrəhman mübarizəni davam etdirməkdə, ölkədə öz ağalığının ərazisini genişləndirməkdə davam edirdi. Qriffin ikinci məktubu göndərdi.

1880-cı ilin yazında Əbdürrəhman artıq Kabula yaxınlaşmışdı. O, burada daha bir yeni məktub aldı. Bu məktubu Qriffindən başqa, həm də ingilis ordusunun komandanı general Styuart da imzalamışdı. Həmin məktubda Əbdürrəhmana öz rəsmi nümayəndəsini Kabula göndərmək təklif olunurdu. Burada Əbdürrəhmanın əmir olması təntənəsində o iştirak etməli idi. Əbdürrəhman gözləmədi, öz-özünü Əfqanıstanın əmiri e'lan etdi.



Sonra ingilis tərəfinin təklifi ilə Əbdürrəhmanın ingilis generalları Roberts və Styuartla görüşü keçirildi. Hər iki tərəf güclü ordu dəstəsi ilə bu görüşə gəlmişdi.

Qriffin bildirdi ki, Əbdürrəhmanın əmir e'lan edilməsi ingilis hökumətinin arzusuna uyğundur. O, ümid bəslədiyini bildirdi ki, yeni əmir İngiltərə ilə dostluq siyasəti yeridəcək. Bunun əvəzində isə İngiltərə hökuməti, ona hərtərəfli kömək göstərəcək. Qriffin İngiltərə və Əfqanıstan arasında müqavilənin layihəsini müzakirə etmək üçün yeni görüş xahiş etdi. Əbdürrəhman əvvəlcə rədd etmək istədi, lakin bildi ki, bunsuz ingilislər onu Kabula buraxmayacaqlar, həm də sülhlə işi qurtarmaq arzusunda idi. O, xalq hərəkatının genişlənməsini istəmirdi. İngilislər Kabulu ona təhvil verməkdən əvvəl onu müqaviləni imzalamağa məcbur etdilər.

İngiltərə hökuməti Əbdürrəhmanı əmir kimi tanıyır, vergi ödəmək adı altında ona böyük həcmdə məbləğ verir, əfqanlardan alınmış artilleriya əfqanlara qaytarılır. O, əvvəllərdə olduğu kimi, yenə də əmirə subsudiya (kömək) verir. İngiltərə Kabulda öz ingilis rezidentini saxlamaqdan imtina edir. Onu Hindistan müsəlmanlarından olan nümayəndə əvəz edəcək. Bu nümayəndənin heç bir ordusu olmayacaq. Qalan hissəsində isə Qandamak müqaviləsinin şərtləri təsdiq edilirdi. Əfqanıstanın xarici siyasətinə nəzarət yenə İngiltərənin ixtiyarında qaldı. Əbdürrəhman ölkəsinin bölüşdürülməsinə sakitcə razılıq verdi. Kabula nisbətən ingilislər hərbi cəhətdən özlərini daha möhkəm hiss etdikləri Qəndəhar ona tabe olan vilayətlərlə birlikdə ayrıca vassal-knyazlıq oldu. Ora ingilis qarnizonu gətirildi, taxta ingilislərin istədiyi adam çıxarıldı.

Əfqanıstan taxtını iddia edən başqa şəxs-Əyyub xan Heratda həm ingilislərə, həm də Əbdürrəhmana qarşı mübarizəni davam etdirirdi. 1880-cı ilin yayında Əyyub xan öz ordusu ilə Qəndəhara yaxınlaşdı. Orada sentyabrın əvvəllərində Roberts tərəfindən məğlub edildi və qaçdı. Lakin yerli tayfalar mübarizəni davam etdirirdilər.

Bikonsfild və lord Litton Əfqanıstanın bölüşdürülməsi xəttini yeridirdilər. Onlar İrana da müdaxilə etmək istəyirdilər. Bununla əlaqədar Heratı Əfqanıstandan ayırmaq məqsədi güdürdülər. Lakin rus diplomatiyası İngiltərə-İran müqaviləsinin bağlanmasını pozdu.

Bikonsvild kabineti hakimiyyətdən getdikdən sonra Qladston uzun və ağır mübarizədən imtina etməyi qərara aldı. Yeni kabinet 1881-ci ilin yazında öz qoşunlarını Qəndəhardan Hindistana geri çağırdı.

Bikonsfild müxalifət adından e'tiraz etdi, lakin nəticəsi olmadı.

İngilislər gedəndən sonra Əbdürrəhman Herat və Qəndəhar uğrunda mübarizəyə başladı. 1881-ci ilin payızında həmin yerləri tutdu və ölkəni öz hakimiyyəti altında birləşdirdi. Lakin yenə də ölkə İngiltərənin protektoratlığı altında qaldı. Çar hökuməti ingilislərin Əfqanıstanı öz tə'cirləri altına salmalarına mane ola bilmədi.

Rusiya ingilislərin Əfqanıstandan şimala doğru irəliləməsinə imkan verməmək üçün Türkmənistanda möhkəmlənməyi qərara aldı. Rusiya ordusunun Türkmənistana birinci ekspedisiyası 1879-cu ildə təşkil edilmişdi. Lakin o, uğursuz qurtarmışdı. Türkmənistana ikinci yürüş 1880-cı ildə oldu. 1881-ci ildə Skobelovun



başçılığı altında Axal-Tekin düzənliyi, üç il sonra 1884-cü ildə Mərv tutuldu. Rus qoşunları bilavasitə Əfqanıstan sahillərinə çıxdılar. Lakin Əfqanıstanın sərhədləri hələ dəqiq müəyyən edilməmişdi.

1880-cı il əfqan-ingilis müqaviləsinə əsasən sərhədlərin müəyyən edilməsi üçün danışıqlar aparmağa səlahiyyəti öz üzərinə götürən ingilislər ruslarla danışıqlara başladılar. Birgə ingilis-rus komissiyası yaradıldı. Ona daxil olan ingilis zabitləri hər vasitə ilə Əbdürrəhmanı ruslara qarşı qaldırmağa çalışırdılar. İngilis hökuməti Əfqanıstanla Rusiya arasında dostluq, qonşuluq münasibətlərinin yaranmasını istəmirdi. İngilislərin qızışdırması ilə 1884-cü ildə əfqanlar Pencə düzənliyinə öz qoşunlarını göndərdilər. Bu vaxt rus qoşunları da bura yaxınlaşmaqda idi. Əbdürrəhman ingilislərdən hərbi kömək istədi. Əfqanların hərəkətlərinə ingilislər rəhbərlik edirdilər. Lakin ciddi kömək göstərməkdən imtina etdilər. Onlar dedilər ki, heç bir kömək verilmədən əfqanların tutduqları ərazilərə ruslar toxuna bilməzlər.

1885-ci ilin martında rus qoşunları Pencənin lap yaxınlığına gəldilər. Martın son günlərində əfqanlar Taş-Kepri rayonunda Kuşka çayının sol sahilinə keçdilər. O çay rus və əfqan qoşunlarının mövqelərini ayırırdı. Bir neçə gün sonra orada döyüş baş verdi. Əfqanlar məğlub oldular.

Əmir Əbdürrəhman öz tərcümeyi halında yazmışdı ki, döyüş başlayan kimi ingilislər öz qoşunları və adamları ilə Herata qaçdılar. Əfqanlar tutmuş olduqları türkmən torpaqlarını tərk etməli oldular. Bu hadisə ingilislərin Əfqanıstandankı nüfuzuna xeyli mənfi tə'sir göstərdi.

İngilis hökuməti Pencənin və bir neçə türkmən torpaqlarının Əfqanıstana verilməsini Rusiyadan tələb etdilər. Ruslar rədd etdilər. Bunu onunla əsaslandırdılar ki, bu torpaqlar heç vaxt Əfqanıstanın olmayıb, bura türkmənlərə məxsusdur.

İngilis-rus münasibətləri yenə də kəskinləşdi. Kuşka çayındakı döyüşdən sonra hətta müharibə təhlükəsi yaranmışdı.

Rusiyaya qarşı müharibəni planlaşdıran İngiltərə ona Krım müharibəsində olduğu kimi Qara dənizdən zərbə vurmağı nəzərdə tutmuşdu. Bununla əlaqədar olaraq London Türkiyə ilə sıx diplomatik əlaqələri də planlaşdırmışdı. İngilislər onun vasitəsi ilə Qafqazda (Zaqafqaziyada) Rusiyaya qarşı müharibə aparmaq istəyirdilər. Türkiyə ingilis donanmasını Qara dənizə buraxmalı, Odessaya dənizdən diversiya törətməli, Zaqafqaziya sahillərinə desant çıxarmalı idi.

İndi başlıca təhlükə ondan ibarət idi ki, Rusiya Qara dənizdə tam silahsız idi. Doğrudur, yuxarıda göstərdiyimiz kimi, 1881-ci il müşavirəsində Qara dənizdə donanma yaradılması qərara alınmışdı. 1885-ci ildə ingilis-rus müharibəsi təhlükəsi yarandığı vaxt, birinci rus brononesi suya buraxılmışdı. Lakin onun tam hazır olmasına hələ çox vaxt var idi. Qafqaza gəldikdə bura rus ordularının Türkmənistandakı əməliyyatı üçün başlıca baza idi. Onun kommunikasiyaları Krasnovodsk, Xəzər dənizi vasitəsi ilə Bakıya keçirdi. Orenburq-Daşkənd dəmiryolu hələ tikilməmişdi.

Rusiya hökuməti diplomatik vasitələrlə İngiltərənin planını pozmaq üçün cəhdlər göstərdi. Bu məqsədlə 1881-ci ildə bağlanmış və 1884-cü ildə üç illiyə uzadılmış Rusiya-Avstriya-Almaniya müqaviləsindən istifadə etdi.



1885-ci ilin aprelində Rusiya diplomatiyası Almaniyaya müraciət etdi və "üç imperator" müqaviləsinin 3-cü maddəsini yada saldı. Həmin maddədə göstərildiyi kimi Rusiya ilə birlikdə Türkiyəyə tə'sir etmək, sultanı boğazların bağlı olması haqqında prinsipinə riayət etməyə məcbur etmək irəli sürülürdü.

Almaniya hökuməti bu dəfə özünün müqavilə öhdəliyini yerinə yetirdi. Türkiyəyə təzyiq göstərmək üçün o nəinki Avstriya-Macarıstan, həm də İtaliyanı səfərbər etdi. Fransa da buna cəlb edildi.

Misiri işğal etdikdən sonra Fransanın İngiltərə ilə münasibətləri korlanmışdı. Rus diplomatiyasının fəaliyyəti nəticəsində özünü ingilis-türk dilbirliyindən sığorta edən Fransa Türkiyənin boğazlar haqqında prinsipinə riayət etməyi tələb etdi. Qafqaz və Qara dəniz ingilislər üçün əlçatmaz oldu. Rusiya Şvetsiyanın və Daniyanın ciddi bitərəfliyinə nail olmaqla, Baltik dənizinin də təhlükəsizliyini tə'min etmiş oldu.

İngilislərin hər cür təhrikinə baxmayaraq, Əfqanıstan əmiri sərhəd məsələlərində yumşaq mövqe tuturdu. O, Rusiya ilə müharibəyə girmək istəmirdi. O, Pencə düzənliyini Rusiyanın malikanəsi kimi tanıdı. Bunun əvəzində Rusiya Zülfüqar rayonunu Əfqanıstana verdi. Onun yalnız şimal dağ keçidi rusların əlində qaldı. Bu saziş 1885-ci il sentyabrın 10-da Londonda imzalandı. 1886-1888-ci illərdə sərhəd hissə-hissə dəqiqləşdirildi.

## İranda ingilis-rus rəqabəti və nəticələri

İranda nüfuz dairəsi uğrunda mübarizə İngiltərə və Rusiyanın xarici siyasətində mühüm əhəmiyyət kəsb

edirdi. İngiltərə üçün İran Hindistana qərbdən yol kimi vacib idi. İran körfəzində yerləşdirilmiş hərbi dəniz qüvvələrinin köməyi ilə İngiltərə Şimala doğru öz yürüşünü müvəffəqiyyətlə davam etdirə bilərdi. İran körfəzinin qərb sahilindəki ərəb şeyxlərinin böyük hissəsi İngiltərənin himayəsində idilər.

İran vasitəsi ilə İngiltərə Londonu Kəlküttə ilə birləşdirən Hindistan-Avropa teleqraf xəttini çəkmişdilər.

İngiltərə üçün İranın strateji əhəmiyyəti də böyük idi. İngiltərə İrana Rusiyanın cənubi Qafqazda və Türkmənistandaki siyasətinə qarşı bir plasdarm kimi baxırdı. Bu baxımdan İngiltərə üçün İran Azərbaycanı xüsusi əhəmiyyət kəsb edirdi. İranın cənub əyalətlərinə nisbətən İngiltərənin mövqeyi burada zəif idi. Hər cür cəhdlərinə baxmayaraq, İngiltərə burada mövqeyini möhkəmləndirə bilmirdi.

1857-ci ildə bağlanmış İngilis-İran müqaviləsinin 6-cı maddəsinə görə İran öz şərq sərhədləri barədə mübahisələri tənzim etmək üçün İngiltərənin vasitəçiliyindən istifadə etməli idi. Bundan istifadə edərək, İngiltərə daim İran və Əfqanıstan arasında çəkişmələr, düşmənçilik törətməyə çalışırdı.

1870-1871-ci illərdə ingilislər cənubi Belucistanda səddlər tikdilər. Bu vilayət İran və Herat arasında bölündü. Bu bölgü açıqdan-açığa Heratın, yə'ni İngiltərənin xeyrinə aparılmışdı. Herat xanlığı İngiltərənin tə'siri altında idi.

1872-ci ildə Qoldsmitin dəstəsi də Senstanın şimal hissəsində sədd tikdi. Bu vilayət İrana və Əfqanıstana aid idi. Çəkilən xətt Hilmend çayı boyunca, Əfqanıstan, İran, Herat sərhədlərinin qovuşduğu yerə qədər uzanmışdı. Sərhəddin müəyyən edilməsi İran və Əfqanıstan arasında ciddi ixtilafa səbəb oldu. İngiltərə üçün də elə



bu lazım idi: "Parçala hakim ol". Əfqanıstanın özünün hesab etdiyi torpaqların bir hissəsi İrana verilmişdi. Torpaq İranın, su isə Əfqanıstanın ixtiyarında idi. Əfqanları İran Hilmend çayına buraxmırdı.

Rusiyanın İrana marağı heç də ingilislərinkindən az deyildi. O, Rusiya üçün bir bazar kimi lazım idi. Rusiyanın İrana ixracı sür'ətlə artırdı. O XIX əsrin üçüncü rübündə - İranın ticarət dövriyyəsinin yarısını təşkil edirdi.

İran Rusiya üçün strateji cəhətdən də sərfəli idi. Hər iki dövlət bilavasitə vahid sərhədə malik idilər.

Rus-İran münasibətlərində İranın daim Türkiyə ilə ixtilafda olması da az əhəmiyyət kəsb etmirdi. Osmanlı imperiyası hər iki dövlətin ümumi düşməni idi.

cənubi Qafqazda güclü hərbi qüvvəyə malik olan Rusiya, İrana güclü tə'sir göstərmək imkanına malik idi. İranın Rusiya bazarından iqtisadi asılılığı Rusiyanın İrana tə'cirini artırırdı.

90-cı illərin ortalarına qədər Rusiya və İngiltərə İranda yeganə rəqiblər idilər. Bu rəqabət nəticəsində o dövlətlərin heç biri İranı işğal edə bilmədi.

Buna baxmayaraq, XIX əsrin sonlarında İran Avropa kapitalizminin yarımmüstəmləkəsinə çevrilmişdi. O, Rusiya və İngiltərə arasında manevr etməklə, güclə öz müstəqilliyini saxlaya bilirdi.

## Reyter konsessiyası

1872-ci ildə İngiltərə İranı tamamilə öz əsarəti altına almaq məqsədi ilə İrana qarşı hücuma keçdi. London, maliyyə oliqarxiyasının ən iri nümayəndəsi, bütün dünyada məşhur olan Reyter teleqraf agentliyinin

sahibinə şah hökumətinə çox böyük həcmdə konsessiya verilməsi barədə xahişlə müraciət etdi. Onun bu xahişinin yerinə yetirilməsi nəticəsində Reyter İranın iqtisadiyyatının mühüm sahələrini öz əlinə ala biləcəkdi. Ona bu işdə Sədr Əzəm Hüseyn xan və İngiltərədə İran səfiri Muksin xan kömək edirdilər.

Rus diplomatları ingilislərin Hüseyn xana 60 min tümən, Muksinə isə 30 min tümən verdikləri barədə mə'lumat əldə etmişdilər. Başqa iki diplomat da 4 min tümən miqdarında almışdı.

Reyter şahla müqavilə bağlamağa nail oldu. Bu müqavilədə aşağıdakılar nəzərdə tutulurdu. Reyterə:

a) İran ərazisində "ictimai-xeyirli işləri" aparmaq üçün bir və ya bir neçə kompaniya yaratmaq.

b) Xəzər dənizindən İran körfəzinə qədər dəmir yolu çəkmək üçün müstəsna səlahiyyət vermək. O dəmir yolunu Avropa və Hindistana gedən dəmir yolları ilə birləşdirmək (İranda dəmir yolu çəkilməsi inhisarı bütövlükdə Reyterin əlində cəmləşirdi) idi.

v) Tramvay xətlərinin çəkilməsini də tamamilə onun inhisarına vermək. İran hökuməti bütün bu işlərin görülməsi üçün Reyterə əvəzsiz torpaq sahələrinin verilməsini öz üzərinə götürdü.

70 illik müddətə bağlanmış bu müqaviləyə görə İran ərazisində daş kömür, dəmir filizi, neft və digər yeraltı sərvətlərin istifadə edilməsində də Reyterə tam hüquq verilirdi.

İran hökuməti dəmir yolundan gələn xalis gəlirin 20 faizini, şaxtalardan gələn xalis gəlirin 15 faizini almalı idi.

Bu heç də hamısı deyildi. Konsessiya sahibləri suvarma işlərini, körpülər, kəhrizlər, kanallar, hovuzlar



tikilməsini də həyata keçirməli idilər. Hətta suyun satış qiyməti də onlar tərəfindən müəyyən edilməli idi. Dövlət meşələrindən istifadə də onların ixtiyarına verilirdi.

İran hökuməti kompaniya tərəfindən qurulacaq kapitala tə'minat verirdi. Tə'minat Rəştdən Xəzər dəniz sahilinə İsfahana qədər dəmir yolu çəkilib qurtardıqdan sonra qüvvəyə minməli idi.

Bu əsarətedici müqavilə 1872-ci il iyulun 25-də imzalandı və şah tərəfindən təsdiq olundu. İran hökuməti onu uzun müddət gizli saxladı.

Əgər bu müqavilə həyata keçirilsəydi, onda İran İngiltərənin tam müstəmləkəsinə çevrilərdi. Ölkənin bütün iqtisadiyyatı ingilis kapitalının ixtiyarına verilərdi.

Konsessiya İran xalqı tərəfindən böyük narazılıqla qarşılandı.

Rusiya hökuməti şahın bu aktını çox böyük hiddətlə qarşıladı. O, İranla ticarətdə maraqlı olan Rusiya burjuaziyası üçün çox böyük məhrumiyyətlə nəticələnə bilərdi.

Rusiya Xarici İşlər Nazirliyi konsessiyanın həyata keçirilməsinə imkan verməmək üçün yollar axtarırdı. Reyterin Rəştə material və avadanlığın gətirilməsinə mane olmaq. Bu avadanlığın Rəştə gətirilməsinin ən asan yolu Rusiya ərazisindən keçirdi.

Şah 1873-cü ilin yazında Avropaya səfərə çıxdı və mayda Sankt-Peterburqa gəldi. Burada Korçakov ona dedi ki, konsessiya müqaviləsinin şah tərəfindən təsdiq olunması rus hökumətini çox heyrətləndirdi. Qorçakov birbaşa şaha dedi ki,bu akt onun nüfuzuna və ləyaqətinə hədsiz ziyan vurdu. Rus hökuməti çox çətin başa düşür, necə oldu şah belə müqaviləni imzaladı. O, əlavə etdi ki, əgər bu müqavilə gücündə saxlanarsa,

Rusiya və İran münasibətlərində çoxlu çətinliklər baş verə bilər.

Şah çox sarsıldı. Görünür Qorçakov onu çox qorxutdu. Nəsrəddin şah Reyterlə müqaviləni ləğv edəcəyini və'd etdi.

Şah Reyterin dəmir yolunu çəkmək işini genişləndirə bilmədiyindən istifadə edərək, müqaviləni rədd etdi. 1873-cü il oktyabrın 23-də şahın əmri ilə konsessiyanın ləğvi haqqında Reyterə teleqram vuruldu. Oktyabrın 28-də bu haqda "İran" qəzetində mə'lumat dərc olundu.

Reyter buna e'tirazını bildirdi, Tehranda ingilis missiyasına arxalanaraq, bunun əvəzinin ödənilməsini tələb etdi. Lakin onun bütün cəhdləri baş tutmadı.

Reyterin konsessiyasını pozan Rusiya hökuməti indi dəmir yolunun çəkilməsini öz əlinə almağa cəhd etdi. 1874-ci il yanvarın 1-də Qorçakovun sədrliyi ilə bu məsələni müzakirə etmək üçün xüsusi iclas çağrıldı. Tiflisdən Təbrizə qədər dəmir yolunun çəkilməsinin daha vacib olduğu qəbul edildi.

Əgər bu layihə həyata keçirilərdisə, Şimali İranda rus ticarəti xeyli genişlənər və Rusiyanın strateji mövqeyi möhkəmlənərdi.

1874-cü ilin payızında şah bu təklifi rədd etdi. Rusiyanın Tehrandakı səfiri bunun səbəbini Azərbaycanda Rusiyanın tə'cirinin güclənməsinə İranın ehtiyat etdiyi ilə izah etmişdi.

Bir neçə il sonra 1878-ci ildə Tehranda Şah ordusunda üsyan baş verdi. Bundan qorxuya düşən şah gələcəkdə daha təhlükəli hadisələrin baş verməsinə yol verməmək üçün ona kömək göstərmək və daha e'tibarlı



hərbi hissə yaratmaq barədə çar hökumətinə müraciət etdi.

Peterburq bunu yerinə yetirməyi qərara aldı. 1879-cu ildə polkovnik Domantoviç Tehrana gəldi, onu 3 nəfər rus zabiti və 4 nəfər kazak kiçik zabiti müşayiət edirdi. Onun rəhbərliyi altında kazak briqadası təşkil olundu. O, birbaşa şaha tabe idi və bilavasitə onu müdafiə etməli idi. O həm də iranlılardan zabitlər hazırlamalı idi.

1879-cu ildə rus zabitlərinin komandanlığı altında kazak briqadasının yaradılması Rusiyanın İranda tə'sirinin əhəmiyyətli dərəcədə güclənməsinə səbəb oldu. Bu briqada şah rejiminin İranda əsas dayağı idi. Türkmənistanın işğal edilməsi, Rusiyanın İranın şimal rayonları yaxınlığında mövqelərinin möhkəmlənməsinə səbəb oldu. İran Azərbaycanında, Gilanda və Mazandaranda, Türkmənistanda Rusiyanın möhkəmlənməsi onun Xorasanda da mövqeyini fövqəl'adə dərəjədə möhkəmləndirdi. Türkmən feodallarının qarşısını aldı və müəyyən sərhəd qoyuldu. 1881-ci il dekabrın 9-da Tehranda Xəzər dənizindən Şərqə rus və İran ərazilərinin müəyyən edilməsi haqqında konvensiya imzalandı. Türkmənlər tərəfindən əsir götürülmüş və türkmən xanlarının quluna çevrilmiş iranlılar öz vətənlərinə qaytarıldılar.

Rusiya Xorasanda xanları və müxtəlif tayfaların başçılarını öz agentlərinə çevirmək üçün fəaliyyətlərini genişləndirdilər. Onlar müxtəlif vasitələrdən - satın almaq, qorxutmaq torpaq və feodal hüquqlarını almaq, müxtəlif köməkliklər göstərmək və s.-dən istifadə edirdilər. Xorasanda belə fəaliyyət mərkəzi, Aşqabadda - yeni yaranmış Zakaspi vilayətinin inzibati mərkəzi, sonralar

Məşhəddə 1889-cu ildə rus general konsulluğu yaradılmışdı.

Xorasanda Rusiyanın öz tə'cirini genişləndirməsində, həm də Aşqabaddan Gilana qədər şosse yolunun çəkilməsi barədə konsessiya alması mühüm rol oynadı. 1882-ci ildə bu yol tikildi, o Rusiyanın, onun sahib olduğu torpaqların, Məşhədlə əlaqəsini tə'min etdi. İngilis tajirləri Xorasandan sıxışdırılıb çıxarıldı. Şimali İranda rus malları üstünlük qazandılar. İran Rusiya toxuculuq, şəkər, neft sənayesi üçün mühüm baza oldu.

1883-cü ildə Rusiya hökuməti cənubi Qafqaz vasitəsi ilə xarici malların kömrüksüz aparılmasını ləğv etdi. Bu Şimali və Mərkəzi İranda xarici malların rus mallarına qarşı rəqabətini dərhal zəiflətdi. İngilis hökuməti buna cavab olaraq, 1888-ci ildə İran körfəzindən bir az aralı Şatt-əl-Ərəbə tökülən Karun çayında gəmiçiliklə məşğul olmaq barədə şah hökumətinin razılığını aldı.

İngilislər həm də Karunda yerləşmiş Şuştər şəhərindən Tehrana şosse yolu çəkmək üçün konsessiya aldılar. Bu yol ingilis mallarının İran bazarına axması üçün mühüm kanal oldu.

İngilis kapitalının və ingilis hökumətinin ən böyük müvəffəqiyyəti Şahinşah bankının yaradılması oldu. 1889-cu ildə alınmış bu konsessiya 60 il müddətinə nəzərdə tutulmuşdu. Banka böyük hüquqlar verilmişdi. Bu İran hökuməti üzərində ingilislərin tə'cirinin xeyli güclənməsinə səbəb oldu.

1890-cı ildə İran hökuməti kapitalist Talbota tütünün alınması, e'mal edilməsi və satışının inhisarını verdi. Bu bütün ölkəni əhatə etmişdi. Lakin onun həyata



keçirdiyi bu siyasət ölkədə geniş narazılığa səbəb oldu. Buna görə şah tezliklə onu rədd etdi.

Rusiya kapitalı da öz fəallığına görə heç də ingilislərdən geri qalmırdı. Şahinşah bankına qarşı rus kapitalisti Polyakov 1890-cı ildə İran uçot-borc bankı yaratdı. Ondan bir az əvvəl başqa kapitalist Lianosov Xəzərin İran sahillərindəki balıq vətəgələri sahəsində konsessiya almışdı. Ümumiyyətlə, 90-cı ildə Rusiya şosse, dəmir yolu çəkmək sahəsində də konsessiyalar almışdı.

Rusiya 1889-cu ildə beş illiyə İranda dəmir yolu çəkilməsinin layihələrinin işlənməsinə dair müstəsna hüquq aldı. Doğrudur, rus sahibkarları Xemyakov, Tretyakov, Korf Trasse-İran dəmir yolunun çəkilməsi barədə şah hökuməti ilə danışıqlara başladılar. Bu yol Rəştdən İranın cənub sahillərinə qədər məsafəni əhatə etməli idi. Lakin sonra Rusiya hökuməti ehtiyat etdi ki, bu yolun çəkilməsi Rusiyadan daha çox İngiltərənin xeyrinə ola bilər. Buna görə də o Böyük Sibir dəmir yolunun çəkilməsini qabağa saldı. Bununla yanaşı, Rusiya şah hökumətindən belə bir öhdəlik aldı ki, o 10 il müddətinə heç kimə dəmir yolu çəkilməsini konsessiyaya verməyəcək. Əgər verməli olsa, yalnız Rusiyanın razılığı ilə olmalıdır. Bu fakt Rusiyanın Tehrana tə'sirinin nə qədər güclü olduğuna dəlalət edirdi.

Lakin cənubi, cənubi şərqi İranda və Mərkəzi İranın bir hissəsində ingilislərin tə'siri güclü idi. İngilis hərbi dəniz donanması İran körfəzində, Ərəb dənizində və Hind okeanında ağalıq edirdi. Bu ona imkan verirdi ki, istədiyi vaxtda Bombeydən və Karaçidən ingilis-hind qoşunlarını İrana gətirsin.

Beləliklə, faktiki olaraq, İran İngiltərə və Rusiya tə'sir dairəsinə bölünmüşdü. Şimali İran Rusiyanın, cənubi İran isə İngiltərənin tə'sir dairəsinə daxil idi. Tehranda hər iki dövlət şah hakimiyyəti üzərində daha güclü tə'sirə malik olmaq uğrunda mübarizə aparırdılar. Ümumiyyətlə, XIX əsrin sonlarında üstünlük Rusiyanın tərəfində idi.



## IV FƏSİL

## UZAQ ŞƏRQDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR (1870-1894)

Əgər Orta Asiyada tək iki başlıca dövlət - Rusiya və İngiltərə rəqabət aparırdılarsa, Uzaq Şərqdə rəqib dövlətlərin sayı xeyli çox idi. Uzaq Şərq, Çin uğrunda mübarizədə Rusiya İngiltərə ilə yanaşı ABŞ, Fransa və Yaponiya da fəal iştirak edirdilər.

Qərb dövlətlərinin Çinə qarşı talançı müstəmləkəçilik müharibəsi, "Tiryək müharibəsi" adı ilə tarixə daxil olmuş bu müharibə, xarici kapitalın zorla Şərqi Asiyaya soxulması, bu ölkələrlə qeyri-bərabər hüquqlu müqavilələrin bağlanması, İngiltərənin, Fransanın və ABŞ-ın Taypin üsyanı vaxtı Çinə silahlı müdaxilələri, Yaponiyada tamamlanmış burjua inqilabı - XIX əsrin 70-ci illərində Uzaq Şərqdə beynəlxalq münasibətlərin inkişafının yeni mərhələsinin başlıca tarixi şərtləri bunlar idi.

Avropanın güclü dövlətlərinin və ABŞ-ın Asiya ölkələrini istismar etmək, onlarda siyasi və strateji mövqeləri ələ keçirmək, onlara gələcəkdə tam yiyələnmək üçün ərazilərdə dayaq nöqtələri yaratmaq - Uzaq Şərqdə beynəlxalq münasibətlərin başlıca məzmununu təşkil etmişdi. O dövrdə ilk növbədə ingilis kapitalı Uzaq Şərq üçün başlıca təhlükə təşkil edirdi. İngiltərənin ardınca ABŞ, Fransa Uzaq Şərqə ayaq açdılar. Onlar Çini, Koreyanı, Hindi-Çini və Şərqi Asiyanın digər ölkələrini öz müstəmləkələrinə çevirməyə cəhd edirdilər.

## Avropa dövlətlərinin və ABŞ-ın Çində təcavüzkar siyasəti və onun nəticələri

XIX əsrdə Çini qarət etməkdə İngiltərə birinci yerdə gedirdi. 1864-cü ildə Çinə idxalın 85 faizi ingilislərin əlində idi. 1893-cü ildə beş xarici firmadan üçü ingilis firması idi. İngilislərin başlıca ticarət mərkəzləri Honkonq və Şanxay idi. İngilis-Çin ticarətində başlıca yeri Honkonq-Şanxay bankı tuturdu. O, Britaniyanın müstəmləkəçi siyasətinin aləti idi.

İngilislər özlərini Çində kobud aparırdılar. Onlar hərbi gəmilərini göndərərək, Çinin limanlarını bombardman edirdilər. Bununla onlar çinliləri müxtəlif güzəştlərə getməyə məcbur edirdilər.

1875-ci ilin fevralında "səyahətçilər" adı altında onlar Yuxarı Birmadan Çinin Sıcuan, Yunyan və Qutçou əyalətlərinədək olan ərazidə kəşfiyyat apardılar. Lakin onlar namə'lum adamlar tərəfindən öldürüldülər.

Bundan istifadə edən ingilislər 1876-cı ilin sentyabrında Çini cifu konvensiyasını bağlamağa məcbur etdilər. Çin hökuməti 200000 tael verməyə, dəniz sahilindən dörd limanı, Yansızı çayının girişində 6 limanı ticarət üçün və gəmilərin Yansızı çayına girmələri üçün açdılar, Birma və Yunyan arasında ticarətə icazə verdilər.

Bu saziş, konvensiya Fransa və Rusiyada narazılıqla qarşılandı.

40-cı illərdə Sakit okeanı sahillərində Kaliforniyanın işğal edilməsi ilə Amerika qit'əsinin tutulmasını başa çatdıran ABŞ-ın da Şərqi Asiyada fəallığı xeyli gücləndi.



ABŞ-ın ticarət donanmasının rəqabəti, onun sür'ətli iqtisadi inkişafı, Amerika qit'əsində onun tə'sirinin güclənməsi Britaniyada böyük narahatçılıqla qarşılanırdı.

Vətəndaş müharibəsi ABŞ-ın diqqətini müvəqqəti olaraq Sakit okeandakı işğalçılıq siyasətindən bir qədər yayındırdı. Lakin 1867-1871-ci illərdə ABŞ-ın təcavüzkarlıq siyasəti daha güclü və geniş vüs'ət aldı.

Respublikaçılar partiyasının sağ qanadının görkəmli xadimi, sonralar dövlət katibi olmuş Syuord Sakit okeanda işğalçılıq siyasətini genişləndirməyin qatı tərəfdarı idi.

ABŞ bu sahədəki siyasətini üç istiqamətdə aparırdı:

1) Şimali-qərb, Rusiya Alyaskası, Aleut adaları və Şərqi Sibir istiqamətində: 2) Yaponiya, Koreya, Çin istiqamətində, bu istiqamət ABŞ-ın Uzaq Şərq siyasətində başlıca istiqaməti idi: 3) cənubi-qərb istiqaməti - Sakit okeandakı çoxlu adaları, o cümlədən Samoa adasını işğal etmək.

Öz məsqsədlərinə nail olmaq üçün amerikanlılar özlərini çox kobud aparırdılar. Lakin onlar hər addımda İngiltərənin və Fransanın müqaviməti ilə rastlaşırdılar. Amerikan burjuaziyası ehtiyat edirdi ki, Avropa dövlətləri onu ötər, Çini öz aralarında bölər, Şərqi Asiya bazarlarını öz əllərinə keçirərlər.

ABŞ "daha geniş əlverişli" prinsipinin Çinə şamil edilməsinə nail olmaq, Böyük Britaniyanın hər hansı xüsusi üstünlüyə nail olmasına imkan verməmək üçün ABŞ dövlət katibi Syuord Çinlə "əməkdaşlıq siyasəti", yə'ni xarici dövlətlərin imtiyazlarına dair bütün işlərdə dövlətlərin razılaşdırılmış birgə təzyiq göstərilməsi

siyasəti yeridirdi. Bununla yanaşı, o, Çindəki siyasətində İngiltərənin yeni ərazilər tutmasında onunla əməkdaşlıq etməsini arzu edirdi. Bunun vasitəsi ilə o, öz işğalçılıq planlarını həyata keçirmək məqsədini güdürdü. Lakin ingilis diplomatiyası ABŞ-a qarşı dururdu.

ABŞ-ın Çindəki nümayəndəsi Berlinqem xüsusi fəallıq göstərirdi. O, Çin diplomatik xidməti tərəfindən qəbul edildi və Çinlə ABŞ arasında müqavilə bağlamaq üçün Amerikaya göndərildi. 1868-ci ildə ABŞ Çinlə «Berlinqem müqaviləsi»ni imzaladı. Bu müqavilə ilə ABŞ Çinin «ərazi bütövlüyünü», «suverenliyini» tanıyır, onun daxili işlərinə «qarışmamaq» tərəfdarı olduğunu bildirdi.

Lakin tezliklə ABŞ-ın ümidi, onun xarici kapitalının Çində yeni güzşətlər alacağı haqda qaldırılmış hay-küy boşa çıxdı. Çin hökuməti xarici dövlətlərin yeni güclü təzyiqlərinə mə'ruz qaldı. Sonralar 80-ci illərdə ABŞ-ın dövlət katibi özü təsdiq etməli oldu ki, Çinlə «dostluq» maskarad, sirk, müqavilə isə fırıldaqmış.

ABŞ Çində İngiltərənin üstün tə'sirini sındırmağa müvəffəq ola bilmədi. Bununla bərabər, ABŞ Çinin suverenliyi altında olan Koreyada da müvəffəqiyyət qazanmağa o qədər də ümid etmirdi.

Böyük Britaniyanın, Fransanın, ABŞ-ın və digər böyük dövlətlərin Çinə qarşı təcavüzkarlığı və xarici ticarət üçün Çin limanlarının açıq e'lan edilməsi Rusiya üçün heç də məqbul deyildi. Bütün bunlar Uzaq Şərqdə qüvvələr nisbətini xeyli pozurdu. Rusiya isə bu qüvvələrə qarşı durmağa hələ hazır deyildi. Çin limanlarının açılması və dəniz vasitəsi ilə xarici ticarətin genişlənməsi Rusiyanın quru yolla Çinlə olan ticarətinə ciddi zərbə ola bilərdi.



Çindən çox-çox uzaqlarda olan dövlətlərdən fərqli olan Rusiya Çinlə min kilometrlərlə quru sərhədə malik idi. Buna görə də Rusiya istəməzdi ki, Çində, bilavasitə onun sərhəddinin yaxınlığında Rusiyaya düşmən olan hər hansı bir dövlətin tə'siri yayılsın. Buna görə də Rusiya Çinlə olan sərhədlərin tənzimlənməsinə çox böyük diqqət verir və diplomatik yollarla, dəfələrlə sərhədlərin hər iki tərəf üçün xeyirli olan qaydada tənzimlənməsi üçün Çindən razılıq almışdı.

Rus-Çin münasibətlərində mühüm yeri ticarət tuturdu. Rusiyaya Çindən əsasən çay gətirilir, Çinə isə xəz dəri, mahud və pambıq parça malları ixrac edilirdi.

İngilis, amerikan və fransız kapitalının Çinə soxulması, qeyri-bərabər hüquqlu müqavilələrin imzalanması, Şərqi Sibirə ingilis və amerikan kəşfiyyatçılarının elmi-tədqiqat adı altında etdikləri şübhəli «səfərlər» Rusiyanın hakim dairələrini çox ciddi narahat edirdi.

Şərqi Sibirdə Sakit okeana tökülən yeganə böyük çay Amur idi. Şərqi Sibirin general qubernatoru N.N.Muravyov xəbərdarlıq edirdi ki, «Amurun sol sahili və mənbəyi kimin əlindədirsə, o Sibirin sahibidir». Buna görə də Amurun mənbəyinin və Saxalinin dəqiq tədqiq edilməsi, 1689-cu il Nerçinsk müqaviləsi əsasında itirilmiş Amur sahili vilayətinin Rusiyaya qaytarılması haqqında məsələ gündəliyə çıxarılmışdı.

Krım müharibəsi (1853-1856) zamanı ingilis və fransızların Sakit Okeanda Rusiya sahillərini hədələmələri, 1854-cü ildə ingilis-fransız donanmasının Kamçatkanın sahillərinə hücum etmələri Rusiyanı ciddi addımlar atmağa vadar edirdi.

50-ci illərin sonlarında İngiltərə və Fransanın Çinə qarşı müharibə apardıqları dövrdə Çin hökuməti Rusiya ilə mübahisəli məsələləri həll etməyə çalışırdı. 1858-ci il Aykun müqaviləsinə əsasən Çin Amur sahili vilayətini, 1860-cı il Pekin müqaviləsinə görə isə cənubi Ussuriya ölkəsini Rusiya əraziləri kimi tanıdı. 1860-cı ildə Vladivostok şəhərinin əsası qoyuldu.

50-60-cı illərdə Çinlə Rusiya arasında bağlanmış müqavilələrə görə bu iki ölkə arasında ticarətin genişləndirilməsi istiqamətində böyük addımlar atıldı.

### «Meydzi üsyanı»ndan sonra Yapon təcavüzkarlığı

Yaponiyada müstəqil və ən təcavüzkar xarici siyasət üçün tezliklə ilkin şərtlər yaradıldı. "Meydzi inqilabı"ndan sonra Yaponiya nəinki qeyri-bərabər hüquqlu müqavilələrə yenidən baxılmasına nail olur, həm də işğalçılıq planlarının həyata keçirilməsinə başlayır. Baxmayaraq ki, 70-80-ci illərdə Uzaq Şərqdə hər hansı bir yeri tutmaq üçün Yaponiya hələ zəif idi və onun güclənməsi qərb dövlətləri üçün o qədər də təhlükə təşkil etmirdi. Lakin onun xarici siyasətinin əsas istiqamətləri özünü göstərməkdə idi, bu 50-ci illərdə imzalanmış qeyri-bərabər müqavilələrin ləğv edilməsinə nail olmaqla yanaşı, Çinin və Koreyanın ona yaxın ərazilərini işğal etməkdən ibarət idi.

1871-ci ildə Yaponiya və Çin arasında ticarət haqqında müqavilə imzalandı. Artıq 1872 və 1873-cü illərdə samuraylar Sayqo Takamorinin başçılığı altında Koreyaya hərbi ekspedisiya göndərilməsini tələb edirdilər. Yaponiya hökuməti bəyanat verdi ki, əgər Rusiya Koreyanın işlərinə qarışmaqdan imtina edərsə



və Yaponiyanın Koreyaya daxil olmasını asanlaşdırmaq məqsədilə yapon desantlarının Rusiya ərazisinə keçməsinə razılıq verərsə, onda Yaponiya cənubi Saxalinə olan iddialarından əl çəkəcəkdi. Lakin Rusiya Yaponiyanın işğalçılıq planlarına hüsnü-rəğbət göstərmədi. O, Koreyada Status qvo-nun və Çinlə sülh münasibətlərinin saxlanmasında maraqlı idi. Rusiya rədd cavabı hazırladı, lakin onu verə bilmədi. Çünki Yaponiya kabineti öz planını tə'xirə saldı. Yaponiyada ehtiyatlı siyasət tərəfdarları üstünlük qazandılar. Yaponiya Çinlə daha ciddi və uzun müharibəyə hazırlaşmağı məqsədəuyğun hesab etdi.

Yaponiya Çinin zəifliyindən istifadə edərək, 1872-ci ildə Çinin vassal asılılığında olan Ryukyu adasını işğal etdi.

Ryukyu adasını işğal edən Yaponiya feodal diplomatiyası praktikasından istifadə etmişdi. Ryukyunun kralı aldadılaraq, Yaponiyaya gətirilib orada saxlanılaraq adanın Yaponiyanın protektoratlığı altına keçirilməsinə razılıq verməyə məcbur edilmişdi. 1879-cu ildə isə ada tamam işğal edilərək Okinavanın əyalətinə çevrilmişdi. Ryukyu adasını işğal etməklə Yaponiya Çinin Şərqi Çin dənizinə çıxışını öz nəzarəti altına almış oldu. Çin hökumətinin e'tirazına Yaponiya heç bir məhəl qoymadı.

1874-cü ildə Yaponiya Tayvanı tutmağa cəhd etdi. Bu bilavasitə Çin sahillərində əməliyyata meydan yaratmağa, Şərqi-Çin dənizinin cənubi-Çinə çıxan hissəsini nəzarət altına almağa ona imkan verərdi. Bunun üçün Ryukyu adasından olan balıqçıların Tayvanda təbii fəlakətə uğramasından bəhanə kimi istifadə edərək Yaponiya Tayvana 3600 nəfərlik silahlı dəstə göndərdi. Adanın əhalisi işğalçılara müqavimət

göstərdilər. Çin hökuməti də əks tədbirlər gördü. Tayvana 11 minlik döyüşçü göndərdi. Yaponiya hökuməti Tayvanı işğal etməkdən imtina etməli oldu və Çinlə danışıqlara başladı. Danışıqlar İngiltərənin Pekindəki nümayəndəsinin vasitəçiliyi ilə aparılırdı.

Çin hökumətini 1874-cü il oktyabrın 31-də Yaponiya ilə protokol imzalamağa Ryukyu adasının Yaponiya ərazisi olmasını tanımağa məcbur etdilər. Çin həm də vurulmuş ziyana görə Yaponiyaya yarım milyon tael verməli oldu. Bu işdə Yaponiyanın udduğu bunlar oldu.

### Koreya məsələsi

Yaponiya Koreyanın işğal edilməsinə daha çox diqqət verirdi.Çünki Yaponiyanın kontinentə, Çinin Şimali-şərq əyaləti olan Mancuriyaya çıxması üçün əsas körpü Çinin paytaxtına hücum etmək üçün ən yaxın əməliyyat meydanı idi. Bunlardan başqa, Koreya Yaponiya dənizinin çıxışında böyük strateji əhəmiyyətə malik idi.

70-ci illərin əvvəllərində Yaponiya Koreya ilə diplomatik əlaqələr yaratmağa cəhd etdi. Bu məqsədlə öz nümayəndəsini Koreyanın Pusan limanına göndərdi. Lakin Koreya hökuməti bu danışıqlara getmədi.

Bundan sonra Yaponiya digər «diplomatik manevrlər»ə əl atdı. 1875-ci ilin aprelində Yapon dənizçiləri Xançan çayının mənbəyinə daxil oldular. Yaponlar müəyyən bir hadisə törətmək və bundan istifadə edib Koreyaya güclü hərbi qüvvə göndərmək istəyirdilər. Yapon gəmiləri Xanqana daxil olub suyun dərinliyini ölçməyə başladıqda. Koreyanın sahil dəstələri xəbərdarlıq atəşi açdılar. Buna yaponlar güclü atəşlə



cavab verdilər, Yencondo adasına desant çıxararaq qarnizonu məhv etdilər, portu dağıtdılar.

Sentyabrda yaponlar yeni aksiya törətdilər. Yapon hərbi gəmiləri Kanxvado adasına yaxınlaşdılar, silahla hədələyərək, Koreyadan ticarət əlaqələri yaratmağı tələb etdilər, rədd cavabı aldılar.

1875-ci ilin sentyabrında və 1876-cı ilin yanvarında yaponlar Koreya sahillərində aksiyalar törətdilər, Kanxvado adasına desant çıxardılar. Onlar Koreyalıları qorxutmaq üçün belə tədbirlərə əl atırdılar.

Koreya hökuməti Kanxvado adasına çıxmış yaponlarla danışıq aparmaq üçün adaya iki nümayəndə göndərdi.

Elə həmin vaxt 1876-cı ilin yanvarında Yaponiya öz nümayəndəsi Mori Arinfi Pekinə göndərmişdi. O, buna nail olmaq istəyirdi ki, Çin Koreyaya Yaponiya üçün qapıları açmağı məsləhət görsün və Yaponiya ilə müqavilə imzalasın. Çin diplomatları e'tiraz etdilər və bildirdilər ki, Koreya ilə qarşılıqlı razılaşma əsasında danışıqlar aparılmalıdır, heç bir güc tətbiq edilməməlidir. Onlar Yaponiyanın Koreyaya hərbi gəmilər göndərilməsinin düzgün olmadığını bildirdilər və 1871-ci il yapon-çin müqaviləsinə istinad etdilər. Həmin müqavilədə hər iki tərəf bir-birinə hücum etməmək barədə öhdəlik götürmüşdülər.

Lakin Mori bildirdi ki, Çinin Koreya üzərində suverenliyi addadır, kağız üzərindədir. Buna görə də həmin müqaviləni Koreyaya aid etmək olmaz. Lakin Çin hökuməti yenə də güzəştə getməli oldu. O, Seula məsləhət bildi ki, Yaponiyanın təklifini qəbul etsin.

1876-cı il fevralın 26-da Kanxvado adasında Yaponiya ilə Koreya arasında ilk Koreya üçün qeyri-

bərabər hüquqlu Kanxvado müqaviləsi imzalandı. Həmin müqaviləyə əsasən Yaponiya ilə ticarət etmək hüququ alır

Müqavilə Koreya və Yaponiya arasında diplomatik əlaqələr yaradır və Yaponiyaya Seulda öz nümayəndəliyini təşkil etmək hüququ verirdi. Koreya da öz növbəsində Tokioda öz nümayəndəliyini aça bilərdi. Yaponiya ticarəti üçün üç liman - Pusan, İnçxon, Vonsan limanları açıq e'lan olunur. Həmin limanlarda yaponlar torpaq, bina, ev və i.a. icarəyə götürə bilərdilər. Azad ticarət müəyyən edildi. Yapon dənizçiləri Koreya sahillərində tədqiqat aparmaq və dəniz xəritələri tərtib etmək hüququ alırdılar. Bu məqsədlə yaponlar Koreya limanlarında konsul agentləri saxlaya bilərdilər. Doğrudur, Koreyalılar da Yaponiyada belə hüquqlar aldılar.

Azad ticarətin həyata keçirilməsi xarici malların Koreyaya axıb gəlməsinə səbəb oldu. 1876-cı ilin avqustunda bağlanmış müqaviləyə edilmiş əlavəyə görə yaponlar kömrük haqqından azad olunurdular.

Bu müqavilə ilə Koreyanın "bağlılığına", qapalı ölkə olduğuna son qoyuldu.

Yaponlara qarşı durmağa qabil olmalarına baxmayaraq, ABŞ və Avropa dövlətləri də Koreyada müəyyən mövqe tumağa cəhd edirdilər. Koreya-yapon müqavilələrinin ardınca müxtəlif dövlətlər ilə Koreya arasında müqavilələr imzalandı. Koreya uğrunda mübarizə də sür'ətlə kəskinləşirdi. Sakit okeanda "Koreya məsələsi" belə yarandı.



## Koreyada ABŞ-ın təcavüzkarlığı

Yaponiyanın ardınca ABŞ-da Koreyaya əl uzatmağa başladı. O da Koreya ilə qeyri-bərabər müqavilələr imzalamaq üçün müxtəlif üsullardan istifadə edirdi. 80-ci illərdə bu özünü xüsusi ilə büruzə verirdi.

Admiral Şufeldtin komandanlığı altında Pusana Amerika hərbi gəmiləri göndərildi. O, yaponların vasitəçiliyi ilə məqsədinə nail olmaq istəyirdi.

Lakin yaponlar amerikalıları müdafiə etmək fikrində deyildilər. Əksinə, onlar amerikalıların planlarının baş tutmasına imkan verməmək üçün Koreyadakı öz nüfuzlarından istifadə edirdilər.

Yaponiyada müvəffəqiyyət qazanmayan amerikan admiralı Çinə istiqamət aldı. O, Koreyanın syuzeranı (ağası) olan Çindən yardım almaq fikrində idi. Onunla danışıqları XIX əsrin ikinci yarısında Çinin ən böyük diplomatı olan Li-Xun-Çan aparırdı. Siyasətində Çinin «özünü gücləndirmək» nəzəriyyəsini rəhbər tutaraq müstəmləkəçilərə güzəştə getmək siyasəti yeridirdi. Bu nəzəriyyəyə görə özünün, Avropa dövlətlərində olduğu kimi güclü, silahlı qüvvəsinə malik olmayınca Çin xaricilərə güzəştə getməlidir. Bunu rəhbər tutaraq Li amerikanlara da güzəştə getdi.

Ədalət naminə demək lazımdır ki, Amerikaya güzəştə getməkdə Li gizli məqsəd güdürdü. O, həm də Çinin xeyrinə imperialist dövlətləri arasındakı ziddiyyətlərdən istifadə etməyə cəhd edirdi. Onun fikrincə, ABŞ Koreyada yapon tə'sirinə qarşı Çin üçün mənfəətli rol oynayacaq.

Yaponiyanın tə'sirinin güclənməsi ilə əlaqədar olaraq Li Koreyanın yüksək vəzifəli bir şəxsinə yazmışdı: «bir zəhərin köməyi ilə başqasını zəhərləmək, bir qüvvəni başqa qüvvəyə qarşı qoymaqla, onu bitərəfləşdirmək - bizim üçün ən yaxşı siyasət deyilmi? «Siz qərb ölkələri ilə müqavilə münasibətləri yaratmaq üçün mümkün olan bütün imkanlardan istifadə etməlisiniz. Siz onlardan Yaponiyanı cilovlamaq üçün istifadə edəcəksiniz?»

Şufeldt Li-Xun-canın köməkliyi ilə 1882-ci il mayın 22-də ABŞ və Koreya arasında diplomatik əlaqələr yaradılması haqqında müqavilə imzalanmasına nail oldu. Amerikanlara Konsulluq hüququ və yaponlara verilmiş imtiyazlar amerikanlara da verildi. Amerikan missionerləri və kapitalistləri Koreyaya axışmağa başladılar. ABŞ-ın ardınca İngiltərə və digər Avropa dövlətləri də Koreya ilə belə müqavilələr imzaladılar.

Bütün bunlara baxmayaraq, Yaponiya rəqiblərini üstələyirdi. Koreyada Yaponiya ticarəti hakim idi. Ölkə yapon tacirləri, sənətkarları, komissionçuları (ticarət işlərində müəyyən faiz almaq şərti ilə vasitəçilik edənlər) ilə dolmuşdu. Onların çoxu Yaponiya kəşfiyyatının agentləri idilər, sifariş ilə kəşfiyyat işləri aparır, təxribatlar törədirdilər. Satın almaq və hədə gəlmək yolu ilə Yaponiya Seulda kral sarayında öz partiyasını yaratmışdı. Yapon siyasəti Koreyanı və onun xalqını bütünlüklə öz əsarəti altına salmağa yönəldilmişdi.

Lakin tezliklə Koreya xalqı öz sözünü dedi. 1882-ci ildə Seulda yapon zülmünə və irticaçı rejiminə qarşı əsgərlərin üsyanı oldu. Şəhər yoxsulları da onlara qoşuldu. Üsyan nəticəsində bir neçə Koreya mə'muru



və çoxlu yapon öldürüldü. Yaponiya nümayəndəliyinin binası yandırıldı.

Yapon hökuməti bu hadisədən öz məqsədləri üçün istifadə etdi, Seulun yaxınlığında İncxon limanına öz hərbi gəmilərini göndərdi, iki gün müddətinə cavab vermək şərti ilə Koreya hökumətinə ultimatum verdi. Bunu rədd etdikdə Yaponiya müharibə ilə hədələdi.

Qorxuya düşmüş Koreya hökuməti güzəştə getməli oldu. Yapon nümayəndəliyinə və yapon vətəndaşlarına hücum edənləri cəzalandıracağına və dəymiş zərərin əvəzini ödəyəcəyinə söz verdi. Koreya hökuməti Tokiodan da üzr istəməli idi. Nümayəndəliyi qorumaq üçün Yaponiya Seula müəyyən miqdarda ordu gətirdi. 1882-ci il avqustun 30-da müqavilə imzalandı,bütün yuxarıda göstərdiklərimiz öz əksini tapdı.

Koreya hökuməti Çinə arxalanmağa cəhd etdi. Koreya kralının xahişi ilə üsyanı yatırmaq üçün Çin özünün üç min nəfərlik beş batalyonunu Koreyaya göndərdi. Sonra 1883-cü ildə ticarət haqqında Koreya-Çin müqaviləsi imzalandı. Həmin müqaviləyə görə Koreyanın Çindən asılı olduğu təsdiq edilirdi. Çin tacirlərinə təkcə limanlarda yox, həm də ölkənin içərilərinə gedib alver etmək ixtiyarı verilirdi. Bu yolla Seul və Pekin Yaponiyanın təzyiqinə qarşı durmağı nəzərdə tuturdular. Əlverişli ticarət hüququnu Çindən sonra Yaponiya və ABŞ da aldılar. Bunların nəticəsində Koreyanın qapıları xaricilərin üzünə daha geniş açıldı.

1884-cü il dekabrın 4-də Yaponiyanın Seuldakı nümayəndəliyi saray çevrilişi etdi. Yaponiyaya meylli olan yeni dövlət yaradıldı. Buna baxmayaraq, Yaponiya Koreyada tam ağalığa nail ola bilmədi. İki gün sonra Çin qoşunlarının köməyi ilə yapon meylli hökumət devrildi.

1885-ci il aprelin 18-də Çinlə Yaponiya arasında başlanmış danışıqlar nəticəsində Tyanszin müqaviləsi bağlandı. Hər iki tərəf dörd ay ərzində öz qoşunlarını Koreyadan çıxarmaq haqqında razılığa gəldilər, təlimatçı vəzifəsində Koreyaya öz zabitlərini göndərməməyi öhdələrinə götürdülər. Müqavilədə deyilirdi: «Razılığa gəliblər ki, əgər Koreyada hər hansı sarsıdıcı xarakterli hadisə baş verərsə və o tərəflərdən birini və ya hər ikisini oraya qoşun göndərməyə məcbur edərsə, onda onlar yazılı surətdə öz məqsədləri barədə bir-birilərinə xəbər verməlidirlər. O hadisə tənzimlənəndən sonra onlar qoşunlarını çıxaracaqlar».

Çinin vassalı sayılan Koreyaya Çin indi istədiyi vaxtı qoşun göndərə bilməzdi. Yaponiya isə Çini xəbərdarlıq etmək şərti ilə ora qoşun göndərmək hüququ aldı.

Buna baxmayaraq, 1884-cü il hadisəsindən sonra Koreyada Çinin tə'siri möhkəmləndi. Koreyaya Yuan Şi-Kay Çin «Kamsuk» vali tə'yin olundu. Bir neçə müddət o Koreya siyasətinin tam sahibi oldu. 1885-ci ildə Çin ticarəti Yaponiya ticarəti ilə bərabərləşdi. Hər iki tərəf hər vasitə ilə Koreyanın iqtisadiyyatında möhkəm mövqe tutmağa cəhd edirdi. Koreya uğrunda mübarizə kəskinləşirdi. Yaponiya Çini oradan sıxışdırıb çıxarmağa çalışırdı.

## 70-80-ci illərdə İngiltərənin Uzaq Şərq siyasəti

İngiltərənin də xarici siyasətində Uzaq Şərq mühüm yer tuturdu. Onun bu siyasətinin mərkəzində



yenə də Çin, xüsusilə Yanszı çayı hövzəsi dururdu. İngilis ticarəti həm idxal, həm də ixrac üzrə birinci yerdə idi. 1859-cu ildən Çin dəniz kömrüyünün başında baş inspektor vəzifəsində həmişə ingilis vətəndaşı olmuşdu. Beləliklə, Çin xəzinəsinin mühüm gəlir mənbələrindən birinə ingilislər nəzarət edirdilər. İngilis kapitalistləri Şanxayda xaricilərin yaşadığı beynəlxalq məhəllədə Çin imperiyasında xarici kapitalın istinadgahında ağalıq edirdilər. 1864-cü ildə Londonun maliyyə oliqarxiyası ilə sıx bağlı olan, Honkonq-Şanxay bankı onların əlində idi. Sonralar Yanszı çayında gəmiçilik onların əlinə keçmişdi. Avropadan Çinə və əksinə mallar daşınmasında birinci yer ingilis gəmilərinə məxsus idi. Ən yaxşı təchiz edilmiş böyük hərbi dəniz bazası Honkonq ingilislərin əlində idi. Uzun müddət Honkonq Uzaq Şərqdə vahid müasir hərbi baza idi. Sonralar Yaponiya öz limanlarında müasir hərbi bazalar yaratmışdı.

Yaponiyanın ardınca Rusiya və Almaniya öz bazalarını yaratdılar. Nəhayət, Sinqapura sahiblənməklə İngiltərə Avropadan Uzaq Şərqə darvazanı öz əlinə almış oldu.

İngiltərə cənubi və Mərkəzi Çinin sahillərini döyən bütün dənizlərin ağası olmuşdu. İngilis kapitalistləri Çinin istismar edilməsindən küllü gəlir götürmüşdülər. 70-80-ci illərdə ticarətin həcminə və siyasi tə'sirə görə ABŞ İngiltərədən xeyli geridə idi. Lakin bu ingilisləri kifayətləndirmirdi. Onlar deyirdilər ki, «Hindistan kimi Çin də bizim olmalıdır. Ancaq əgər ABŞ bizi ötməsə».

Suveyş kanalının çəkilməsi, Şanxayla teleqraf əlaqəsinin yaradılması, Misirin işğalı Çini əsarət altına salmaq üçün İngiltərənin imkanlarını xeyli artırmışdı.

İngiltərə 70-ci illərdə Çinin daxili rayonlarına girmək məqsədilə addımlar atdı. İngiltərə hökuməti və onun Hindistanın idarə orqanları Yuxarı Birmadan cənubi Çinə gedən quru yolu öyrənməyə böyük diqqət verirdilər. Bu Çinin daxili rayonlarından birində bazar açmağa imkan verə bilərdi. Həm də burada onun coğrafi vəziyyəti ingilisləri xarici rəqabətdən qoruyardı.

1875-ci ilin əvvəlində Bqamo - (Yuxarı Birma) dan Çinin Yunan əyalətinə gedən yolu öyrəndikdən sonra Çin ərazisinə keçəndə ingilis ekspedisiyası silahlı müqavimətlə rastlaşdı. Onlar geri qayıtmalı oldular. Lakin 1875-ci il fevralın 21-də baş vermiş toqquşmada tərcüməçi kimi ingilis ekspedisiyasını qarşılamağa gələn Pekindəki ingilis nümayəndəliyinin əməkdaşı öldürüldü. Bundan istifadə edərək ingilislər Çin hökumətindən yeni güzəştlər - Yanszı çayında ticarətə icazə verilməsini tələb etdilər. Bu ingilislərin sahildən ölkənin daxilinə iqtisadi soxulması demək idi. Çin hökumətinə təzyiq etmək və tələblərinin qəbul edilməsinə nail olmaq üçün ingilislər çinlilərə bildirdilər ki, Ranqundan Çin sərhədlərinə Hindistan-ingilis ordusunun güclü dəstəsi göndərilmişdi. Bu hədənin reallığını möhkəmləndirmək üçün ingilis nümayəndəsi paytaxtı tərk etdi və cifu limanındakı ingilis gəmisinə köçdü.

Lakin danışıqların davam etməsi uzanırdı. İngiltərənin Rusiya ilə Yaxın Şərqdəki ixtilafları İngiltərə hökumətini güzəştə getməyə və öz tələblərini yumşaltmağa məcbur etdi. 1876-cı ilin sentyabrında cifuda ingilis-çin konvensiyası imzalandı. Çin hökuməti bir qədər pul ödəməyə, sahillərdə əlavə bir liman açmağa və Yanszı çayında bir neçə punkt açmağı öhdəsinə götürdü. Çində ingilislər mühüm bir güzəştə - Çin tərəfindən idxal olunan anaşaya kömrüyü artırmağa nail oldular. Bu İngiltərədə böyük narazılığa səbəb oldu. İngiltərə hökuməti 1885-ci ildən onu təsdiqləmədi. Konvensiyanın qalan maddələrini Çin yerinə yetirdi.



## Rusiya və Çin münasibətləri

Çin hökuməti ehtiyat edirdi ki, ona edilən güzəştlər ölkədə onun vəziyyətinə və nüfuzuna çox mənfi, pis tə'cir edə bilər. Çin Rusiyaya qarşı münasibətdə də bu əhval ruhiyyədən çıxış edirdi. Rusiyanın və Çinin birgə fəaliyyəti nəticəsində ingilislərin Kaşqariyaya və Sinszyana soxulmalarının qarşısının alınması və Yaqub bəyin dövlətinin ləğv edilməsindən sonra rus hökumətinin İliy ölkəsinin Çinə qatılması barədə verdiyi sözü yerinə yetirmək vaxtı çatdı. Lakin o, Çin ərazisinin bir hissəsini işğal etməsindən xeyir götürmək qərarına gəldi. Rusiya hökumətinin başlıca məqsədi çox böyük quru sərhədləri boyu ərazidə Çinlə ticarətin genişləndirilməsinə və bu ticarətin hələ də Çində davam edən məhdudiyyətlərdən azad edilməsinə nail olmaq idi. Buna Rusiya kapitalistləri xüsusi ilə Moskva rayonunun, Uralın, Sibirin və Orta Asiyanın kapitalistləri çox maraqlı idilər. Orta Asiyada olduğu kimi, daxili və qərbi Çin, habelə Monqolustan bazar kimi böyük əhəmiyyət kəsb edirdi. Çünki onlar Qərbin rəqabətindən tamam kənarda idilər.

İliy ölkəsi ilə əlaqədar olaraq Çinin nümayəndəsi Çun Xou danışıqlar aparmaq üçün Peterburqa gəldi. Rusiya tərəfinin irəli sürdüyü şərtlər 1876-1879-cu illərdə Milyutinin sədrliyi ilə dəfələrlə olmuş xüsusi

müşavirələrdə müəyyən edilmişdi. Onlar aşağıdakılardan ibarət idi: Rus ticarəti üçün məhdudiyyətlərin ləğv edilməsi, o cümlədən rus tacirlərinə daxili Çinə karvanlar göndərilməsi hüququnun verilməsi, Kulci və İliy ölkəsinin Çinə qaytarılması, o şərtlə ki, Tekes çayı vadisinin və İliy ölkəsindən, Muzartdağ keçidindən Tyan-Şana gedən, Çindən Türkmənistana qədər olan mühüm yolun Rusiyada qalması.

Çun Xou Rusiya hökumətinə əhəmiyyətli güzəştlərə getdi. 1879-cu il oktyabrın 2-də (20 oktyabr) Çun-Xou və Qirs arasında Livadi müqaviləsi imzalandı. Bu müqaviləyə görə İliy ölkəsində Çinin hakimiyyəti bərpa olunur və onun təhvil verilməsi şərtləri müəyyən edilirdi. Livadi müqaviləsinə əsasən İliy vadisinin qərbində kiçik bir sahə Tekes çayı hövzəsi və Muzart keçidi Rusiyaya güzəşt edilirdi.

Müqavilə Rusiya vətəndaşlarına Monqolustanda, qərbi Çinin hasarları arxasında kömrüksüz ticarət etmək, Kalqan vasitəsilə Tyaszinə, habelə Tszyayuy-Quan (Suçjou) vasitəsilə Xankouya karvan göndərmək, müqavilədə adları çəkilən bir çox Çin şəhərlərində ticarət etmək hüququ verilirdi. Qərbi Çinin şəhərlərində və Monqolustanda yeni rus konsulluqları yaradılırdı.

Lakin Livadi müqaviləsi Pekində bəyənilmədi. Xüsusilə Tekes çayı vadisində sərhəddin dəyişdirilməsi Çin hökumətinin narazılığına səbəb oldu. Çin hökuməti Livadi müqaviləsini təsdiq etmədi.

Diplomat Çun Xou başının kəsilməsi ilə ölüm cəzasına məhkum olundu.

Qərbi Çində ordu komandanı Szo Szun-Tan Rusiya ilə müharibə başlamağa çağırdı. Buna cavab olaraq



Rusiya donanma eskadrasını Uzaq Şərq sularına göndərdi. Lakin ixtilaf sülhlə həll edildi. Rusiya Livadi müqaviləsinə yenidən baxmağa razı olduğunu bildirdi. Çun Xou bəraət aldı. Lakin Peterburqa danışıqlar üçün başqa şəxs Szen-Szi-tsze göndərildi.

1881-ci il fevralın 24-də Peterburqda Çin və Rusiya arasında yeni müqavilə imzalandı. Ruslar Tekes vadisindən və Muzart keçidindən imtina etdilər. Rusiyaya ancaq İliy vadisinin kiçik hissəsi qaldı. Rus karvanları üçün təkcə bir yol – Kalqan və Tun-Çjou vasitəsi ilə Tyanszinə gedən yol qaldı. Rus tacirləri Suçoşouya ticarət işi üçün gedə bilərdilər. Lakin karvan göndərə bilməzdilər. Rusiya vətəndaşlarının Monqolustanda və Qərbi Çin hasar divarları ətrafında kömrüksüz ticarət etmək hüququ saxlanıldı. Konsulluq açmaq barədə maddə aşağıdakı məzmunda müqavilədə öz əksini tapdı: «Rusiya hökumətinə müqavilələr üzrə verilmiş İliy, Tarbaqata və Urqedə konsulluq açmaq hüququ bundan sonra Suçjou (Tszyayuy-Quan) və Turfan şəhərlərinə də aid edilir. Kobdo, Ulyasuta və Xami, Urumçi və Quçen şəhərlərində də ticarət inkişaf etdikcə və Çin hökuməti ilə saziş bağlamaqla Rusiya hökuməti konsulluqlar açacaqdır».

## Uzaq Şərq məsələsinin kəskinləşməsi

Rusiya diplomatiyasının Çində fəaliyyəti İngiltərə hökumətini ciddi narahat edirdi. Buna mane olmaq üçün o, hər cür vasitələrə əl atırdı.

1885-ci ildə Əfqanıstan uğrunda ingilis-rus ixtilafları zamanı İngiltərə hökuməti Rusiyanın vəziyyətini çətinləşdirməyə çalışırdı. O, Mancuriya

hakimlərini Rusiya əlehinə qaldırmağa təşəbbüs göstərmiş, lakin baş tutmamışdı. İngiltərə həm də Vladivostoka qarşı hərəkət etmək üçün baza hazırlayırdı. Bunun üçün o Koreyanın cənub sahilində olan Komundo adasını tutur. Lakin sonralar (1887-ci ildə) Rusiyanın və Çinin təkidi nəticəsində həmin adanı boşaltmalı olur.

Bütün dövr ərzində, xüsusi ilə Rusiya-Çin münasibətlərinin kəskinləşdiyi anlarda İngiltərə diplomatiyası Türkiyədə, İranda, Əfqanıstanda olduğu kimi hərəkət edir, Çini Rusiyaya qarşı ixtilafa itələyirdi. Lakin onun bu cəhdləri bütövlükdə uğursuz olmuşdu. Çinin Tsin hökuməti Rusiya ilə ciddi ixtilaflara girməkdən qorxurdu. Orta Asiyada Rusiya Çinə nisbətən hərbi cəhətdən qat-qat güclü idi.

Doğrudur, bunu Uzaq Şərqdə, Sibirin və Zabaykalın cənub sərhədləri boyunda demək olmazdı. Çar hökuməti burada ciddi qüvvəyə, onları daşımaq vasitələrinə malik deyildi. Vladivostokda Rusiyanın hərbi dəniz qüvvəsi az idi və Çin sularında davranma qabiliyyətində deyildi. Çin ilə çox böyük sərhədi qorumaq da Rusiya üçün o qədər də asan deyildi. Bütün bunlar Çar Rusiyasının işğalçılığına mane olurdu.

Rusiya hökuməti Çinlə ticarətin genişləndirilməsində çox maraqlı idi. Buna görə də Rusiya diplomatiyası 80-cı illərdə Çinlə sülh münasibətlərinin saxlanmasına üstünlük verirdi. Həm də Rusiya hökuməti başa düşürdü ki, Çinlə onun münasibətlərinin kəskinləşməsi, hər bir ixtilaf Avropada, Yaxın şərqdə, Orta Asiyada Rusiyanın vəziyyətini çətinləşdirə bilərdi.

Çin hökumətinə gəldikdə o da başa düşürdü ki, Rusiya ilə ixtilaf Çinə ona tabe olan dövlətlərə yeni-yeni



iddialar irəli sürməyə imkan yaradar. İngiltərə, ABŞ, Fransa və Yaponiya qarşısında onu daha artıq köməksiz edərdi. Ona görə də o, Rusiya ilə münasibətlərini sülh yolu ilə nizama salmağa üstünlük verirdi. Buna nümunə Çin və Rusiya arasında 1886-cı ildə Pekində imzalanmış saziş ola bilər. Həmin sazişə görə, Çin və Rusiya Koreyanın mövcud vəziyyətini və onun ərazi bütövlüyünü dəyişdirməməyi öhdələrinə götürmüşdülər.

İngiltərənin Əfqanıstanda, Uzaq Şərqdə fəallaşması, Rusiyanın Uzaq şərq sərhədlərinə onun yaxınlaşması Rusiyanı narahat etməyə bilməzdi. Koreyanın dünya kapitalist iqtisadi meridianına cəlb edilməsi, bu ölkə uğrunda böyük dövlətlərin mübarizəsinin kəskinləşməsi, Uzaq Şərq üçün yeni siyasi və strateji şərait yaradırdı. Bütün bunlar Rusiya üçün xoşagəlməz vəziyyət törədirdi. Əhalisinin çox seyrək olması, çox zəif hərbi qüvvə ilə təchiz olunması, Uzaq Şərqə və Şərqi Sibirə ordunun aparılmasının çətinliyi, ordunun hələ tam tanış olmayan quru yolla ya piyada, ya da atla daşınması Rusiyanı çətin vəziyyətdə qoyurdu. Bütün bunları nəzərə alaraq, Rusiya hökuməti əfqan ixtilafından az sonra Sibirdən Vladivostoka qədər nəhəng dəmiryolunun çəkilməsi məsələsini qoydu. Rusiya kapitalının marağı da bu yolun çəkilməsini zəruri edirdi. Buna hələ çox əvvəllərdən bazarın genişləndirilməsini istəyən, xüsusilə Moskva və Uralın sənayeçiləri nail olmağa can atırdılar.

1891-ci ildə Fransadan pulun gəlməsi ilə əlaqədar olaraq, Rusiya Sibir dəmir yolunun çəkilməsinə başladı. 1892-ci ildə Rusiya imperiyasının maliyyə naziri S.Y.Vitte təyin olundu. 1892-ci il noyabrın 18-də o, Uzaq

Şərq haqqında III Aleksandra mə'lumat təqdim etdi. Həmin təqdimatda geniş maliyyə və siyasi proqram öz əksini tapmışdı. Vittenin təbirincə Sibir dəmir yolunun çəkilməsi Suveyş kanalından malın göndərilməsini dayandırar və rus sənaye mallarının Çin bazarlarına aparılması üçün əsas yol olar. «Bu yol rus hərbi donanmasını da zəruri mallarla tə'min edər və bütün Şərq limanlarında onun mövqeyinin xeyli möhkəmlənməsində ona möhkəm dayaq nöqtəsi yaradar» – deyə Vitte məktubda qeyd edirdi. Vittenin mə'lumatı Rusiya hökumətinin Uzaq Şərqdə fəaliyyət proqramının ilk qeydləri idi.

Rusiya Sibir yolunu qurtarmağa, Uzaq Şərqi hərbi cəhətdən möhkəmləndirməyə macal tapmamış yeni tufan baş verdi. 1893-cü ildə Koreyada üsyan başladı. Koreya hökuməti təklikdə onun öhdəsindən gəlmək qabiliyyətində deyildi. Buna görə də ağası Çinə müraciət etməli oldu. Çin hökuməti Koreyaya üç minə yaxın əsgər göndərdi. Yaponiya da təcili surətdə öz qoşununu göndərdi, bir sıra limanları və paytaxtın ətrafını işğal etdi. Çin hökuməti qorxuya düşdü. Üsyanın yatırıldığını təsdiq edən Çin hər iki ölkənin Koreyadan qoşunlarını çıxarmağı Yaponiya hökumətinə təklif etdi. Lakin Yaponiya imtina etdi. O, Koreyada islahat keçirilməyincə, qayda yaradılmayınca, bu məqsədlə yerli idarəçiliyin yenidən qurulması həyata keçirilməyincə, qoşunlarını çıxarmayacağını bildirdi. Yaponiya Çini birlikdə Koreyada islahat aparmağa də'vət etdi. Çin hökuməti başa düşürdü ki, «islahat» Yaponiya üçün Koreya siyasətində rəhbərliyi ələ keçirmək və ölkənin faktiki sahibi olmaq üçün bir əl yeri idi. Çin hökuməti Ya-



poniyanın təklifini rədd etdi və bildirdi ki, bu Koreyanın daxili işlərinə qarışmaq deməkdir.

İyulun 25-də Yaponiya Çinə qarşı hərbi əməliyyata başladı. Lakin bir neçə gün sonra 1894-cü il avqustun 1-də Çinə müharibə e'lan etdi.

Mə'lum olduğu kimi, bu dövrə qədər Çində iqtisadi və siyasi üstünlük ingilislərə məxsus idi. Buna görə də Yapon-Çin müharibəsi Britaniyanın mənafeyinə hiss ediləcək dərəcədə toxunurdu. Lakin İngiltərədə ağır sənaye nümayəndələri və ingilis-hind dairələrində əsas təhlükə Rusiyanı hesab edirdilər, buna görə də Yaponiya ilə barışmağa hazır idilər. Ondan gələcəkdə köhnə rəqibləri Rusiyaya qarşı istifadə etmək fikrində idilər.

Rusiyanın mövqeyi isə tam başqa idi. Uzaq Şərqdəki əyalətlərinin təhlükəsizliyindən ehtiyat edən Rusiya Yaponiyanı öz qonşusu kimi görmək istəmirdi. Özünü necə aparmalı? Bu məsələ xüsusi müşavirələrin müzakirə obyekti oldu. Rusiyada vahid Nazirlər Kabineti olmadığından ən vacib siyasi qərarlar qəbul etmək üçün xüsusi müşavirələr toplanırdı. Orada nazirlər, imperiyanın digər yüksək vəzifəli şəxsləri iştirak edirdilər. Onun iclaslarına çox vaxt çar sədrlik edirdi. Yapon-Çin müharibəsi dövründə 4 dəfə xüsusi müşavirə toplanmışdı. Onlardan biri 1894-cü il avqustun 21-də olmuşdu. Qirsin təklifi ilə müşavirə heç bir tərəfə üstünlük verilmədən İngiltərə ilə birlikdə «Status qvo»nu saxlamaq şərti ilə müharibənin dayandırılmasına cəhd etmək barədə qərar qəbul etmişdi. Lakin bundan heç nə çıxmadı. Yaponiya müharibəni davam etdirirdi.

Çin məğlub oldu və sülh xahiş etdi. Yaponiya xaricilərin qarışmasına imkan verməmək üçün elə üz

göstərdi ki, guya o, danışıqlara hazırdır. Lakin əslində o, danışıqları axıra qədər çatdırmaq istəmirdi və müharibəni davam etdirirdi. 1895-ci il yanvarın 30-da Çin nümayəndəsi Kobe gəldi. Lakin müharibəni açıqdan-açığa uzatmaq istəyən yapon diplomatiyası e'lan etdi ki, onun səlahiyyətləri kifayətləndirici deyil. Bu bəhanə altında yaponlar müharibəni davam etdirirdilər.

1895-ci il fevralın 1-də Peterburqda ikinci xüsusi müşavirə toplandı. Müşavirə yaponlar tərəfindən Koreyanın, Mancuriyanın bir hissəsinin, Lyaodun və Vey-Xay-Veyin işğal olunması faktı ilə hesablaşmalı oldu. Xarici İşlər Nazirliyi Karqodo adasını işğal etməyi təklif etdi. Onun fikrincə, bu, strateji cəhətdən Rusiyanı tə'min edər. Bu haqda müşavirədə qızğın mübahisə getdi. Dəniz naziri Tırtov donanmanın hazır olduğuna etibar etmədiyindən təklif etdi ki, quruda hərəkət etmək, Mancuriyanın bir hissəsini tutmaq məqbuldur. Sonra çıxış edən hərbi nazir Vankovski Yaponiyaya qarşı quru qüvvələrdən istifadə etməyin əleyhinə çıxdı. Nəhayət, Koreyanın müstəqilliyini tə'min etmək üçün Yaponiyaya təzyiq göstərmək məqsədi ilə İngiltərə və Fransa ilə sazişə gəlmək barədə qərar qəbul edildi.

1895-ci ilin martında Peterburq, Paris və London arasında bu haqda saziş imzalandı.

Yapon diplomatiyası ingilis-rus yaxınlaşmasının mümkünlüyündən qorxuya düşdü. O, təsdiq etdi ki, Koreyanı işğal etmək fikrində deyil.

1895-ci il martın 13-də Yapon sülh şərtlərinin mətni Çinə təqdim edildi. Mətndə Çinin Koreya üzərində vassalığından imtina etməsi və Koreyanın müstəqil e'lan edilməsi təklif edilirdi. Əslində Koreyanın müstəqilliyi bir pərdə idi, Yaponiyanın Koreyada ağalığını ört-basdır et-



mək idi. Sonra Yaponiya cənubi Mancuriya sahilləri ilə birlikdə Lyaodunu, Koreya sərhədindən İnkouya qədər Formozanı, Peskador adalarını, 300 milyon tayel müharibə xərci və bir sıra kommersiya, imtiyazlar, o cümlədən xarici ticarət üçün yeddi yeni limanın açılmasını, Yan-Szi çayının yuxarı hissəsində gəmiçilik hüququ verilməsini tələb edirdi.

1895-ci il martın 20-də Simonosekidə sülh haqqında Çin-yapon danışıqları başlandı. Çinin müqavimət göstərmək üçün gücü yox idi. O, bu ağır şərtləri qəbul etməli oldu. 1895-ci il aprelin 17-də Simonosekidə sülh müqaviləsi imzalandı. Bu alçaldıcı sülhü imzalamaqla, Çinin nümayəndəsi Li-Xun Çjan xarici dövlətlərin qarışacağına ümid edirdi. Onun buna əsası var idi.

Müqavilənin şərtlərinin yerinə yetirilməsinə tə'minat olaraq Yaponiya Vey Xayveyi işğal etmişdi.

Avropa dövlətləri Simonoseksdə gedən danışıqları diqqətlə izləyirdilər. ABŞ isə «məsləhətçi» Fosterin şəxsində orada qeyri-rəsmi surətdə təmsil olunmuşdu.

Çinin Yaponiyaya etdiyi güzəştlərə dövlətlərin münasibətləri eyni deyildi. Avropa dövlətləri, habelə ABŞ üçün Çinin «daha da» açılması və orada sənaye müəssisələri yaradılması mahiyyətcə mənfəətli idi. Amerikan və ingilis kapitalı yaranmış şəraitdən Koreyaya müvəffəqiyyətlə daxil olmaq üçün istifadə etmək istəyirdilər. Onlar hesab edirdilər ki, Yaponiyanın əlinə keçirdiyi ərazilərdən Rusiyaya qarşı istifadə edəcək və onların təhlükəsizliyi üçün heç bir təhlükə təşkil etmirlər. Yaponiya bazarından geniş istifadə edən ABŞ Yaponiyanın köməkliyi ilə Çinə daxil olmağa ümid bəsləyirdi. ABŞ-ın mövqeyini Simonoseks danışıqlarının

iştirakçısı Foster aydın ifadə edirdi. O, özünün «vasitəçilik» rolundan Çində və Yaponiyada ABŞ-ın tə'sirini gücləndirmək üçün istifadə edirdi. Yaponiyanın Baş naziri açıqca bildirmişdi ki, Fosterin fəaliyyəti yapon nümayəndəliyini tam qənaətləndirirdi. Li Xun Çjan da qeyd etmişdi ki, Foster məsələlərin çoxunun müzakirələrində, mübahisələrdə Yaponiyanın mövqeyində durmuşdu.

İmperialist dövlətlər Yaponiyanın ərazi işğallarını özlərinin işğalçı məqsədləri üçün əlverişli bir bəhanə hesab edirdilər. 1885-ci ilin əvvəllərində Almaniyanın Xarici İşlər Naziri Hollman Şimalda Çjouşan, cənubda Qulansu adası ilə Amoy limanını, Tszyao Çjou buxtasını, Mirsbey və Peskador adalarını Almaniya üçün arzu edilən punktlar hesab edirdi.

Təkcə Rusiya bu müqavilə şərtlərinə biganə qalmadı. Uzun tərəddüddən sonra özünü və Çini Asiya materikinə Yaponiyanın daxil olmasından qorumaq qərarına gəldi.

Bu vaxt İngiltərə hökuməti Yapon-Çin işinə qarışmaqdan imtina etdi. Həm də artıq sülh bağlanmışdı. Rusiyaya yubanmaq, ləngimək olmazdı. Bu dövrdə Qirs ölmüş, onun yerinə Rusiyanın Vyanadakı keçmiş səfiri knyaz Lobanov-Rostovski təyin olunmuşdu. Yeni nazir Fransanın və Almaniyanın mövqelərinin aydın olmaması üzündən Yaponiyaya qarşı çıxış etmək qərarına dərhal gələ bilmədi. O, çox təcrübəli diplomat idi. Hətta o fikirləşirdi ki, Çini birlikdə bölmək məqsədilə Rusiyanı Yaponiya ilə «əməkdaşlıq» mövqeyində durmağa məcbur etsin. O, Yaponiyanın işğal etdiyi yerlərin əvəzində Sakit Okeanda və Şimali Mancuriyada donmayan limanları almağı təklif edirdi. Bu



həm də Sibir dəmir yol xəttinin çəkilməsinə də imkan verərdi. II Nikolay bu təklifi bəyəndi. O, Lazareva limanını onu rus əyalətləri ilə birləşdirən torpaqla birlikdə tutmaq təklifini irəli sürdü. Lakin bir neçə gün keçəndən sonra Lobanov 11 apreldə xüsusi müşavirədə bildirdi ki, Yaponiyanın işğallarını məhdudlaşdırmaq üçün Almaniya Rusiya ilə həmrəydi. Lobanov Fransanın da Rusiya ilə həmrəy olduğunu bildirdi. Belə əlverişli şəraitdən istifadə edərək, Vittenin başçılığı altında xüsusi müşavirə Yaponiyanı materikdən qovmaq haqqında razılığa gəldi.

Beləliklə, Rusiya Çinin müdafiəçisi rolunu öz üzərinə götürdü.

1895-ci il aprelin 23-də Rusiyanın, Almaniyanın, Fransanın Pekindəki nümayəndələri eyni vaxtda, lakin hər biri ayrılıqda Yapon hökumətindən Lyaodun yarımadasından imtina etməyi tələb etdilər.

Yaponiyaya qarşı Almaniyanın notası daha təhqiredici mətndə tərtib edilmişdi.

Rusiya, Fransa, Almaniya Uzaq Şərq sularında birlikdə çox güclü hərbi dəniz qüvvəsinə malik idilər. Bütün bunları nəzərə alaraq Yaponiya güzəştə getməli oldu. 1895-ci il mayın 10-da Yaponiya e'lan etdi ki, o, Lyaodun yarımadasını Çinə qaytarır. Lakin müharibə xərcini 30 miylon tael artırır.

Yapon-Çin münasibətlərinə qarışmamaq Lobanov tərəfindən böyük məharətlə həyata keçirildi. Bu, Rusiya diplomatiyasının böyük müvəffəqiyyəti, qüvvələr nisbətini düzgün qiymətləndirə bilməyən Yaponiyanın məğlubiyyəti idi. 1895-ci ilin noyabrında Simonoseks müqaviləsinə yenidən baxmaq haqqında Yapon-Çin müqaviləsi imzalandı.

Yaponiyaya qarşı Rusiyanı müdafiə etməkdə Almaniyanın xüsusi məqsədi Rusiyanı Uzaq Şərq ixtilafına qoşmaqla, onun diqqətini Almaniya və Avstriya sərhədlərindən yayındırmaq idi.

II Vilhelm Nikolayı inandırdı ki, O, Avropada sakitliyi saxlamaq və Rusiyanı müdafiə etmək üçün hər şey edəcəkdir ki, onun Uzaq Şərqdəki fəaliyyətinə heç kim mane ola bilməsin. Sonra kayzer davam etdi, «Rusiyanın gələcək üçün böyük vəzifəsi Asiya materikinin sivilizasiyasını və Avropanı bu sarı irqin Avropaya soxulmasından qorumaqdır. Bu işdə mən sənə köməkçi olacağam».

Bununla yanaşı, Almaniya Çindən nə isə qoparmağa cəhd edirdi.

Lobanovun nail olduğu uğur Rusiyanın Çinə qarşı işğalçılıq planlarında ilk addım idi. Sonralar Rusiya diplomatiyası Çinin Yaponiyaya müharibə xərci verməsindən də istifadə etmişdi. Çin hökuməti London, Paris, Berlin bankirləri ilə danışıqlara başladı. Onlar isə Çini əsarət altına salmağa çalışırdılar. Onlar Çin maliyyəsi üzərində beynəlxalq nəzarət tətbiq etmək şərti ilə ona istiqraz verməyi nəzərdə tuturdular. Belə nəzarət Çin hökumətinin rus tə'sirinə düşməsinə ciddi maneə ola bilərdi. Vitte bu işə qarışmağı qərara aldı. Fransız və alman bankirlərinin rəqabətindən istifadə edərək, Vitte Rusiya hökumətinin qarantiyası altında Çinə 150 milyonluq istiqraz tapmağı təklif etdi. Çin illik 4 faizlə istiqraz aldı. Fransız bankirləri bu istiqrazı realizə etməyi öz üzərlərinə götürdülər. 1895-ci il iyulun 6-da kontrakt imzalandı. Kontraktda göstərilirdi ki, Çinə Rusiyanın daxil olmadığı heç bir xarici nəzarətə razı olmayacaq.



Beləliklə, almanlar və ingilislər bu maliyyə kombinasiyasından kənarlaşdırıldılar.

1895-ci ilin sonlarında Vittenin təşəbbüsü ilə rus-çin bankının əsası qoyuldu. O, bir qrup fransız və bir rus bankı tərəfindən yaradılmışdı. İdarə heyətində rus nümayəndəsi hakim idi. Bankın nizamnaməsində Uzaq Şərqdə müxtəlif maliyyə əməliyyatları aparmaq nəzərdə tutulurdu.

Vittenin təşəbbüsü ilə xüsusi fond da yaradıldı. O, Çini Manjuriyaya dəmir yolu çəkilməsinə razı salmaq üçün məmurları satın almaq məqsədi üçün idi. Vittenin planı Çində dəmir yolu çəkmək uğrunda İngiltərə, Fransa, Almaniya və ABŞ kapitalistlərinin mübarizəyə başladığı vaxtla eyni dövrə düşürdü.

Mancuriyada dəmir yolunun çəkilməsində Rusiyanın rəqibi Amerika bank sindikatı idi. O, Kanton-Xankou-Pekin nəhəng dəmir yolu xəttini layihələşdirmişdi. Bu sonra Sibir magistiralı ilə birləşməli idi. Bu layihə Mancuriyanın Mərkəzi və cənubi Çinlə, onun Avropa kapitalının ağalıq etdiyi açıq limanları ilə dəmiryol əlaqəsinin yaradılması demək idi. Bu Avropa və Amerika mallarının Mancuriyaya axmasına səbəb olardı. Rus sənayesi isə onunla rəqabət aparmaq qabiliyyətində deyildi. O həm də Şimali Çində Rusiyanın siyasi üstünlük qazanmasına ciddi maneəçilik törədərdi. Vitte öz növbəsində Çindəki xarici kapitalın tə'sirindən Mancuriyanı ayırmaq və onu Sibir magistralına qoşmaq istəyirdi. Danışıqları Pekindən Peterburqa, rəqiblərdən uzağa keçirmək qərara alındı. Bu danışıqlarda iştirak etmək üçün Li Xu-Çzan aprelin sonlarında Peterburqa gəldi. O, rəsmi olaraq II Nikolayın taxta çıxması təntənələrində iştirak etmək üçün gəlmişdi. Xaricilər Pekində

Çin nazirlərini satın alırdılar. Vitte də Li Xun Çzana böyük məbləğdə rüşvət vermişdi.

Danışıqlar 1896-cı il iyunun 3-də (mayın 22-də) Yaponiyaya qarşı müdafiə ittifaqı haqqında müqavilə ilə başa çatdı. Çinə, Koreyaya və Rusiyanın Şərqi Asiya əyalətlərinə hücum olarsa, onlar bir-birilərinə hərbi kömək göstərməyi öhdələrinə götürdülər. Belə halda, ordunun daşınmasını asanlaşdırmaq üçün Çin Mancuriyadan keçməklə, Vladivostoka dəmiryolu çəkməyi Rusiyaya icazə verirdi. Bunun xərcini rus-çin bankı ödəyirdi. Vitte həm də cənubi Lyaoduna da dəmiryolu xətti çəkilməsinə nail oldu. Rüşvət verməsinə baxmayaraq, o bu konsessiyanı ala bilmədi. Liyə üç milyon manat və'd edilmişdi. Lakin onun 2 milyonu bir qədər gecikdirilmişdi. Bu dövrdə Li Xun-Çzan öldü.

Konsessiya müqaviləsi Çin hökuməti və rus-çin bankı tərəfindən 1895-ci il sentyabrın 8-də imzalandı. Dəmir yolunu çəkmək və onu istismar etmək üçün Şərqi Çin dəmiryolu cəmiyyəti yaradıldı. Bu cəmiyyət faktiki olaraq, Rusiya xəzinəsi hesabına işləyirdi. Ona dəmiryolu tariflərini müstəqil həll etmək hüququ verilmişdi. O hətta özünün müstəqil silahlı qüvvəsini yarada və saxlaya bilərdi.

Böyük dövlətlərin təzyiqi altında güzəştə gedən Yaponiya dərhal yeni müharibəyə hazırlaşmağa başladı. Yaponiya 1895-ci ilin əvvəllərində Çindən aldığı kontribusiya (təzminat) hesabına nəhəng silahlanma proqramı hazırladı. Proqram dəmir yolunun tikintisinin qurtarmasına qədər Rusiyaya hücum etməyə hazır olmağı nəzərdə tuturdu.



Belə ciddi silahlanmağa başlamış Yaponiya müvəqqəti olaraq Mancuriyanı işğal etməyə məcbur oldu.

Koreyanın «müstəqilliyini» tanımaqla Yaponiya ilk növbədə Çinə meyl edənlərlə hesablaşmağa girişir. Bu qrup Kraliça Minin ətrafında cəmləşmişdilər.

Yaponlar hətta Kraliçanı öldürməkdən belə çəkinmədilər. 1895-ci il oktyabrın 8-də gecə yapon əsgərləri saraya soxularaq, kraliçaya və onun tərəfdarlarına divan tutdular. Qorxuya düşmüş kral İ.Xıy hüquqsuz əl quluna çevrildi. Yaponiya Koreyanı tamamilə özünə tabe etmək üçün təcili tədbirlər gördü.

Lakin yaponların vəhşi ağalığı ölkədə Yaponiya əleyhinə əhval-ruhiyyənin güclənməsinə səbəb olmuşdu. Koreyanın dövlət xadimlərinin çoxu Rusiyaya özlərinin təbii müdafiəçiləri kimi baxırdılar. Bundan Rusiya diplomatiyası istifadə etdi.

1896-cı ilin fevralında Kral Yaponiyanın nəzarəti altından qaçdı. Rusiya nümayəndəliyində gizlənən kral onun adı ilə yaponların keçirdikləri tədbirləri etibarsız e'lan etdi və yapon meylli kabineti dəyişdirdi. Yeni Koreya hökuməti ölkədə hərbi, maliyyə işlərinin idarə olunmasını rusların əlinə verməyə, rus bankını yapon banklarına qarşı qoymağa hazır idilər.

1896-cı il mayın 14-də bağlanmış sazişə görə, Yaponiya yeni kabineti tanımalı oldu və Rusiya ilə birlikdə Koreya kralına məsləhətlər verməyə razılaşdı. Bu sazişə 1896-cı ilin iyununda Moskvada imzalanmış Lobanov-Rostovski-Yamaqata protokolu əlavə edilmişdi. Bu əlavəyə görə Rusiya və Yaponiya birlikdə xarici istiqraz almaqda Koreyaya kömək etməlidirlər. Koreya kralının xahişi ilə Koreyaya gəlmiş rus hərbi və

maliyyə müşavirlərinin nüfuzu Koreyada getdikcə güclənirdi.

1897-ci il oktyabrın 26-da kral K.A.Alekseyevi Maliyyə nazirliyinin baş müşaviri və kömrük idarəsinin baş komandanı təyin etdi. Eyni vaxtda ingilis Braunu bu vəzifədən azad etdi. Bu Rusiya tə'sirinin möhkəmlənməsi üçün geniş imkanlar açdı. Rusiya-Koreya bankının yaradılmasına şərait yaratdı.

Yaponiya, İngiltərə, ABŞ hər biri öz üsulları ilə Rusiyanın tə'sirini ləğv etməyə çalışırdı. İngilis Braun kral hökumətinin sərəncamını sadəcə olaraq yerinə yetirməkdən imtina etdi. Bu isə açıqdan-açığa Koreyanın suverenliyini inkar etmək demək idi.

ABŞ öz siyasətini Koreya ziyalılarının bir hissəsinə istinadən həyata keçirməyə üstünlük verirdi. O, bu məqsədlə 1896-cı ildə yaradılmış «Müstəqillik klubundan» istifadə etməyə cəhd göstərirdi. Onun rəhbəri on ildən artıq ABŞ-da yaşamış, orada tərbiyə almış, Amerika vətəndaşlığını və familiyasını qəbul etmiş şəxs idi.

Amerikan və ingilis nümayəndələrinin iştirakı ilə klub Rusiyanın «təzyiqinə» qarşı petisiya hazırlamışdı.

Koreyada möhkəmlənməkdə Rusiyanın böyük marağı olmasına baxmayaraq, Çar hökuməti Yaponiyanın ABŞ və İngiltərə tərəfindən müdafiə olunan intriqasına qarşı tab gətirə bilmədi. Digər tərəfdən Çində ziddiyyətlərin aramsız kəskinləşməsi ilə müqayisədə Koreyada tə'sir uğrunda mübarizə ikinci plana keçmişdi. Mancuriyanın Rusiya ilə sərhəd rayonlarında vəziyyət xüsusilə gərgin idi.



## Çini bölmək uğrunda mübarizə

1894-1895-ci il müharibəsi və Simonoseki müqaviləsi Çinin zəifliyini bütünlüklə ortaya çıxardı. O, nəticəsiz qurtarsa da, Yaponiyanın materikdə ərazilər tutmaq cəhdi Çin ərazisinin parçalanmasının yetişdiyinə işarə idi.

Yaponiyanın Tayvan və Peskador adalarını işğal etməsi elə əslində Çinin bölüşdürülməsinin başlanması demək idi. Digər tərəfdən Rusiyanın, Fransanın və Almaniyanın təzyiqi altında Yaponiyanın geri çəkilməsi Avropa dövlətlərinə nisbətən onun gücünün məhdud olduğunu göstərdi.

Uzaq Şərqdə Rusiyanın təcirinə qarşı mübarizədə bir alət kimi Yaponiyanın güclənməsində İngiltərə və ABŞ maraqlı idilər. Buna görə də onlar Yaponiyanın silahlanmasını bəyənirdilər.

Yapon-Çin müharibəsindən sonra Çində Rusiyanın təciri güclənmişdi. Rusiyanın qarışması nəticəsində Lyadunun Çində qalmasından sonra Rusiya ilə Çin arasındakı münasibətlər xeyli yaxşılaşmışdı.

Rusiya hökuməti 1895-ci il 6 iyul sazişinə əsasən Çinə verilmiş 400 milyon rus-fransız istiqrazının tə'minatçısı kimi çıxış etmişdi. Həmin istiqrazın ardınca Çində rus-çin bankı açılmışdı. Nizamnaməsinə əsasən həmin bank geniş fəaliyyət dairəsinə malik idi.

Çinin «müdafiəçiləri» və ya bitərəf müşahidəçilər sifətində çıxış edən Avropanın böyük dövlətləri 1894-1895-ci il müharibəsindən sonra yaranmış şəraitdən öz mənafeləri üçün istifadə etməyə çalışırdılar. Yapon-Çin müharibəsi rəqabət aparan dövlətlər arasındakı ziddiyyətləri kəskinləşdirmişdi. Çinin düşmüş olduğu çətin

vəziyyətdən istifadə edərək, onlar Çinin yaxınlığında öz mövqelərini möhkəmləndirməyə yönəldilmiş müqavilə və sazişlər bağlayırdılar.

Artıq 1895-ci ilin iyununda Fransa Pekində imzaladığı iki xüsusi konvensiya ilə Tonkinlə sərhəd rayonlarda bir sıra xeyirli imtiyazlar almışdılar. Bu Fransanın Çinin cənub əyalətlərinə daxil olması üçün həlledici addım idi.

Çin və Tonkin arasındakı sərhəd Fransanın xeyrinə düzəldilmişdi. Ticarət üçün bir sıra sərhəd şəhərləri açılmışdı.

Fransa Yunnan, Quandun, Quansin dağ mədən sənayesində imtiyazlar, Çin ərazisində mövcud olan və gələcəkdə Annamda tikilməli olacaq dəmiryolunu çəkmək hüququ almışdı.

Gələcək illərdə Çində dəmiryol konsessiyası uğrunda mübarizə imperialist dövlətləri arasında ən mühüm ziddiyyətlərdən biri olmuşdu.

Fransa-Çin konvensiyaları Çinə məxsus olan o sahələri əhatə etmişdi ki, Fransa onlara bilavasitə özünün mənafeləri baxımından yanaşmışdı. Bu sazişlərdə imperialist dövlətlərinə elə hüquq və imtiyazlar sisteminin verilməsinin başlanğıcı qoyulmuşdur ki, bu elə sonralar Çinin bölüşdürülməsinin özünəməxsus forması olduğunu büruzə vermişdi. Bu sistem Çinin sonralar başqa dövlətlərlə bağladığı sazişlərdə öz inkişafını tapmışdı. Çin həmin sazişlərdə o vilayətləri üçüncü dövlətə güzəştə getməyəcəyi barədə öhdəlik götürmüşdü.

Çinin «tə'sir dairəsinə» bölüşdürülməsi imperialist dövlətlərin qarşılıqlı, əlbəttə Çinin hesabına, güzəştlərə getmək yolu ilə davam etdirilmişdi. Kəskin rəqabət



mübarizəsində imperialist dövlətlər, özlərinə başqa rayonda oxşar hüquq almaq şərti ilə biri digərinə güzəştə getdirdilər.

İngiltərənin 1895-ci ildə bağlanmış Fransa-Çin konvensiyasına 1997-ci ilin fevralında bağlanmış ingilis-çin konvensiyası əlavə olundu. Həmin konvensiyaya əsasən 1894-cü il müqaviləsinə əlavə olaraq, Çinin Yunnan ərazisinin bir hissəsini tutmaq və sərhəd rayonlarda İngiltərənin hüquqlarını genişləndirmək yolu ilə Birma-Çin sərhədində «düzəliş» edilmişdi. Fevralın 4-ü tarixli konvensiyasının giriş hissəsində göstərilirdi ki, Fransa Çinin İngiltərəyə etdiyi güzəştlərə e'tiraz etmir.

Rusiya da Yapon-Çin müharibəsindən sonra Yaponiyanın ola biləcək təcavüzkarlığına qarşı ittifaq bağlamağı Çinə təklif etdi. Vladivostok-Çin dəmir yolunun çəkilməsi barədə məsələ qaldırdı və buna nail oldu. Biz bu barədə yuxarıda demişik.

Rusiya ilə Çinin yaxınlaşması qısa müddətə olsa da, Almaniyanın Şandun sahilinə hücumu zamanı ən yüksək səviyyəyə çatmışdı.

1895-ci ildə Almaniyanın maliyyə dairələrinin istiqrazdan kənarlaşdırılması Almaniyada narazılıqla qarşılandı və onun İngiltərə ilə yaxınlaşmasına səbəb oldu. Almaniya nəticəsi olmasa da, Pekində İngilis səfirliyinin Rusiya-Fransa istiqrazına qarşı e'tirazını ciddi surətdə mudafiə etdi. Yaponiyaya vermək üçün Çin ikinci istiqrazı ingilis və alman bankları ilə bağladı (1896-cı ildə). Lakin bu Almaniya kapitalını kifayətləndirmirdi.

Almaniya göstərdiyi «xidmətə» daha dəyərli əvəz almağa nail olmaq istəyirdi. O, Veyxayvey limanının işğal edilməsini təkid edirdi. Halbuki Simonoseks müqaviləsinə görə, yapon silahlı qüvvələri hələ orada

qalmaqda idi. O sübut edirdi ki, bu işğal ən məqsədəuyğundu, çünki dövlətlər baş vermiş faktla hesablaşmalı olajaqlar. Vilhelm hələ 1895-ji ilin avqustunda göstəriş vermişdi ki, eskadra hazır olsun, Veyxayveyin yaxınlığında Çcili boğazında dolaşsın.

Yaponiya tərəfindən Veyxayvey işğal olunduğundan Almaniya öz diqqətini Tsyaoçcou buxtasına yönəltdi. Artıq 1896-jı ilin iyulunda Kononerka (iti gedən orta kalibrli topları olan sahil keşikçi gəmi) "İltis" keşikçi gəmisi bura göndərildi. Lakin yolda qəzaya uğradı.

1897-ji ilin noyabrında Şandunda iki alman missioneri öldürüldü və qarət edildi. Bu xəbər Berlinə çatan kimi II Vilhelm dedi: «İndi, ya heç vaxt!». Alman eskadrası ilə Uzaq Şərqdə olan admiral Diderixs təcili desant çıxardı və Tsindao adasını tutdu. Almaniya Syaoçjou buxtası sahilini uzun müddətə ona icarəyə verilməsini tələb etdi. Çin hökuməti hərbi ixtilaflardan kənar qaçaraq öldürülmüş missionerlərə görə yaranmış ixtilafı pul verməklə ləğv etməyə ümid edərək, yerli hakimiyyət orqanlarına almanlara müqavimət göstərməmək barədə göstəriş verdi.

Szyaoçjounun Almaniya tərəfindən işğal olunması həm Çin hökuməti, həm də xarici dövlətlər üçün gözlənilməz oldu.

Çin hökuməti rus-çin müqaviləsinə istinad edərək, Rusiyanın onu müdafiə etməsinə nail olmaq məqsədi ilə Rusiyanın Pekindəki işlər vəkilinə müraciət etdi, almanların hərəkətlərinə nəzarət etmək üçün Rusiya gəmilərinin göndərilməsini xahiş etdi. Rusiya nümayəndəsi Pavlov ona müəyyən vəd verdi. Rusiya Xarici İşlər Nazirliyi Çini inandırdı ki, Berlində danışıqlar



aparılır və o Szyaoçjouda vəziyyətin normallaşdırılması ilə nəticələnməlidi.

Rusiyanın Berlində narahatlığa səbəb olmuş bir sıra diplomatik addımlar atmasına baxmayaraq, Rusiya Xarici İşlər Naziri Muravyov Rusiyanın Çində ərazilər tutmasının fəal tərəfdarı idi. 1897-ci il noyabrın 11-də o, öz məruzəsində göstərirdi ki, kömək üçün Çinin Rusiyaya etdiyi müraciətdən istifadə edərək, Çindən müəyyən güzəştlər almaq lazımdır. İlk növbədə söhbət Port Arturdan gedirdi. Lakin noyabrdakı müşavirədə hərbi nazir Tırtov Port Arturun tutulmasına ciddi ehtiyatla yanaşmaq barədə Vittenin təklifinə tərəfdar çıxdı. Beləliklə, Vittenin təklifi keçdi.

Lakin 1898-ci ilin əvvəllərində artıq aydın oldu ki, Almaniya özünün işğalçılıq planlarından imtina etmək, tutduğu ərazini boşaltmaq fikrində deyil. Onun bu məqsədləri «icarə» haqqında müqavilədə nə qədər ört-basdır edilsə də, almanlara Şandun əyalətində elə üstünlüklər verilirdi ki, onun əsl məqsədi artıq hamı üçün aydın idi.

Son müqavilə 1898-ci ilin martında Pekində imzalandı. Həmin müqaviləyə görə, Szyaoçjau buxtası 99 illiyə Almaniyaya icarəyə verilir və Almaniya orada sədlər tikə bilərdi. Almaniya Şandun əyalətində xarici kapitalın cəlb olunduğu bütün tədbirlərdə iştirak etmək, dəmiryolu çəkmək hüququ alırdı.

Beləliklə, «icarə» adı altında Çini parçalamaq təşəbbüsü Almaniyaya məxsus oldu. Çinin öz ərazisinin Almaniya tərəfindən bölünməsinə başlanması Çində, xüsusilə Mancuriya və Koreyada imperialist dövlətləri arasında mübarizənin kəskinləşməsinin yeni mərhələsinin başlanmasına səbəb oldu. Özünün Çində

müstəsna hüquqlarını saxlamağa və genişləndirməyə cəhd edən ingilislər son dərəcə fəallıq göstərməyə başladı.

Xarici siyasət ziddiyyətləri İngiltərəni dövlətlərin əksəriyyəti ilə toqquşdururdu. Yaxın və Uzaq Şərqdə köhnə rus-ingilis ziddiyyətləri qalmaqda idi.

Afrikadakı ziddiyyətlər Fransa ilə qarşılıqlı münasibətləri kəskinləşdirmişdi. Latın Amerikası ölkələrində ingilis-amerikan rəqabəti kəskin dərəcəyə çatmışdı.

ABŞ-ın getdikcə daha geniş surətdə Latın Amerikasına daxil olması Monro doktrinasını amerikan imperializminin silahına çevirmişdi. «Amerika amerikanlar üçündür» tezisini əsas götürərək, Monro doktrinasından istifadə edərək, ABŞ nəinki Qvineya-Venesuela konfliktində arbitr rolunu iddia edirdi, həm də İngiltərəyə qarşı təhlükəli mövqe tutmuşdu.

Almaniyanın dünya siyasəti səhnəsinə çıxması əvvəllərdə bir neçə ildən sonra olduğu kimi, İngiltərə üçün o qədər də təhlüküəli görünmürdü. Lakin II Vilhelmin cənubi Afrika işlərinə qarışması, Mozambikdə və Ekvator Afrikasının başqa yerlərində kəskin rəqabət, Almaniyanın Yaxın və Uzaq Şərqə soxulması, Okeaniyada onun işğalçılıq intriqaları – bütün bunlar Almaniyanın, İngiltərənin ən təhlükəli rəqibinə çevrildiyinə dəlalət edirdi.

1898-ci ildə alman reyxstaqı dəniz donanması yaratmaq proqramını qəbul etdi. Almaniyanın Çin ərazisində görünməsi, burada ingilis maraqları üçün artıq müəyyən təhlükə yaradırdı.

Bununla bərabər, İngiltərə Rusiya və Almaniyanın birgə hərəkət etmələrinin mümkünlüyündən də ehtiyat



edirdi. II Vilhelmin qətiyyətlə yeritdiyi siyasət, Rusiyanı Uzaq Şərqdə öz rəqibləri ilə toqquşdurmaq siyasəti müəyyən dərəcədə öz bəhrəsini vermiş, Uzaq Şərqdə rus-ingilis ziddiyyətlərinin kəskinləşməsinə səbəb olmuşdu.

İngiltərə təklənməkdən xilas olmaq, Avropa rəqabətinə qarşı mübarizədə uğur qazanmaq üçün yeganə çıxış yolunu Yaponiya ilə yaxınlaşmaqda görürdü. Lakin Yaponiya ilə yaxınlaşma Avropa və Yaxın Şərq problemlərini həll etməyə qabil deyildi. Şərait İngiltərəni başqa yerdə müttəfiq axtarmağa məcbur edirdi.

1897-ci ilin əvvəli və 1898-ci il ingilis xarici siyasətində yeni mərhələnin başlanğıcı oldu. 1898-ci ildə Uzaq Şərqdə beynəlxalq münasibətlər bu yeni xətti əks etdirirdi.

İngilis-rus ziddiyyətlərinin kəskin olmasına baxmayaraq, ingilis diplomatiyası Rusiya ilə dil birliyinə gəlməyi mümkün hesab edirdi.

Heç də tüsadüfi deyil ki, 1898-ci ilin yanvarında Solsberi İngiltərənin Peterburqdakı səfirinə tapşırdı ki, «Rusiya və İngiltərənin Çində birgə fəaliyyətlərinin mümkün olması» barədə Vittedən soruşsun. Səfir O'Konorun Vitte ilə ilk söhbəti müsbət nəticələndi. Vitte qeyd etdi ki, əgər Rusiya və İngiltərə razılığa gələrlərsə, «Uzaq Şərqdə onların sözü qanun olacaq»dır.

İngiltərə istəyirdi ki, mümkün olacaq sazişin əsası prinsiplərindən biri «müqavilə hüquqları»nın pozulmazlığı əsasında mövcud qüvvələr nisbətinin müvəqqəti saxlanması olsun. Bu İngiltərənin mənafelərinə tam cavab verirdi. Çünki İngiltərə qeyri-bərabər hüquqlu müqavilələr sisteminə nail olmaq

əsasında Şərq ölkələrində özü üçün tam xeyirli mövqeyə nail olmuşdur.

Rusiya ilə yaxınlaşmaqla, İngiltərə nəinki əldə etmiş olduğu mövqeləri saxlamaq, həm də iqtisadi cəhətdən İngiltərədən zəif olan Rusiyanın köməyi ilə öz mövqelərini genişləndirmək məqsədini güdürdü.

Rusiya ilə saziş tərəfdarları başa düşürdülər ki, o təkcə Uzaq Şərqlə məhdudlaşmamalı, həm də Yaxın Şərqə də aid olmalıdır.

Çində tə'sir dairələrinin konturu aşağıdakı kimi müəyyən edilmişdi: Xuanxedən şimala Rusiyanın təcir dairəsinə, Xuanxedən cənuba və Yantszi vadisi ingilis tə'sir dairəsinə aid edilirdi. Lakin ingilis-rus müqaviləsi haqqında danışıqlar o dövrdə, yalnız on il sonra mümkün ola biləcək nəticələrə gətirə bilərdi. Əsas səbəb ondan ibarət idi ki, hələ ingilis-alman ziddiyyətləri o dərəcəyə çatmamışdı ki, İngiltərənin Rusiyanı kifayətləndirəcək güzəştlərə getməli olsun. Buna görə də mümkün ola biləcək sazişə gəlmək üçün danışıqlar diplomatik kanallarla yox, Vitte ilə şəxsi danışıqlar yolu ilə aparılırdı.

Bununla yanaşı, Rusiya, Yaponiya-Rusiya müharibəsinədək Uzaq şərqdə özünün geniş işğalçılıq planlarından imtina etmək fikrində deyildi.

Rusiyanın İngiltərənin təklifinə münasibətini II Nikolayın II Vilhelmə yazdığı məktubda açıq ifadə etmişdi. II Nikolay yazmışdı: «bu təkliflər o qədər yeni xarakterli idilər ki, mən boynuma alıram ki, biz mat qalmışdıq, çünki onların təbiəti, məzmunu şübhəli görünürdü, əvvəllər heç vaxt İngiltərə Rusiyaya belə təkliflər etməmişdi. Bu bizə aydın göstərdi ki, o anda İngiltərəyə bizim dostluğumuz lazım idi. O, maskalanmış



formada bizim Uzaq Şərqə hərəkətimizin qabağını alsın».

İngilis-rus, ingilis-fransız ziddiyyətləri bu dövrdə ingilis hökuməti üçün daha aydın hiss edilirdi. İngiltərənin hakim dairələri Fransa-Rusiya ittifaqına qarşı ABŞ-Almaniya yaxınlaşmasını görürdülər.

1898-ci ilin noyabrında Çemberlen Almaniyanın səfiri Qotsfeltlə söhbətində Rusiya və Fransaya qarşı ingilis-alman ittifaqını təklif etmişdi.

Çində ingilis-rus rəqabəti davam etməkdə idi. Ən kəskin ixtilaf istiqrazla bağlı baş vermişdi. Çin hökuməti Simonoseks müqaviləsinə əsasən Yaponiyaya axırıncı borcunu vermək üçün pula ehtiyacı var idi. Hələ 1897-ci ilin sonlarında Çinə 100 mln. tayel istiqraza tə'minat verməsi haqqında Rusiya hökumətinə müraciət etmişdi. Lakin Rusiya buna razı olacağı halda, Çindən güzəştlər almağa səy göstərdi.

Müxtəlif imtiyazlarla Şərqi Çin dəmir yolunun çəkilməsi üçün istiqraz verilməsi ilə yanaşı, həm də Çin hökuməti üçün Yapon dövlətinin dəmir yol tikintisinə, Mancuriya və Monqolustanda sənaye müəssisələrinin istismar edilməsinə buraxılmaması barədə öhdəçilik götürməli idi. Sarı dənizin sahillərinə qədər əsas xəttdən dəmir yolunun çəkilməsi barədə konsessiyanı imzalamalı idi. Burada xaricilərə limanların bağlanması üçün tədbirlər görülməsinə də Çin imkan verməlidi.

İngiltərənin Pekindəki səfiri Çinin Rusiyadan istiqraz almasına hər vasitə ilə mane olurdu. O bilavasitə İngiltərə tərəfindən tə'minat verilən istiqraz almağı irəli sürürdü.

1898-ci ilin yanvarında ingilis səfiri Klod Makdonald Çinə 12 mln. tayel istiqraz təklif etdi. O həm

də Birma-Yunnon dəmiryolunun çəkilməsi konsessiyasının İngiltərəyə verilməsi, Dalyanvan limanının açıq limana çevrilməsi və digər təkliflər irəli sürürdü.

Lakin 1898-ci ilin fevralında Rusiya tərəfindən Port-Arturun və Dalyanvanın tutulması planı və Port-Arturdan Xarbinə dəmiryolunun çəkilməsi başqa şəkil almışdı. Böyük knyaz Aleksey Aleksandroviçin sədrliyi altında keçirilmiş xüsusi müşavirədə Rusiya tərəfindən Port-Arturun və Dalyanvanın tutulması nöqteyi-nəzəri üstünlük qazandı. Müşavirə Rusiyanın Uzaq Şərq vilayətlərinin müdafiəsi üçün Port-Arturun müstəsna əhəmiyyəti olduğunu qeyd etdi. Port-Arturun güzəştə gedilməsi, dəmiryol xəttinin çəkilməsi və i.a. indi artıq istiqraz məsələsi ilə əlaqələndirilmirdi. Bununla əlaqədar olaraq, Rusiya hökuməti istiqraz haqda danışıqlardan imtina etməyi və Çinin ingilis-alman maliyyə qruppası ilə istiqraz haqqında saziş bağlamasına mane olmamağı qərara aldı.

İngiltərə hökuməti bu imkandan Yantszi vadisində öz mövqeyini möhkəmləndirmək üçün istifadə etməyə tələsdi. Buna 1898-ci ilin fevralında Makdonaldla Çinin Xarici İşlər Nazirliyi arasındakı nota mübadiləsi nəticəsində nail olundu. Çin öhdəsinə götürdü ki, Yanszi çayı hövzəsinə yaxın heç bir ərazinin özgələşdirilməsinə bu və ya digər formada güzəştə getməsin.

Çar hökuməti işlər vəkilinə təlimat göndərdi ki, qəti tələb etsin ki, Çin Lyaodun yarımadası barədə Peterburqun tələbini yerinə yetirsin.

Müqavilənin imzalanmasının son vaxtı martın 27-nə təyin edilmişdi.



Qeyd etmək lazımdır ki, İngiltərənin Peterburqdakı səfiri Rusiyanın Uzaq Şərqdə atacağı addımlardan xəbərdar idi. Bundan əlavə, Port-Arturun Rusiya tərəfindən əldə edilməsi, İngiltərə hökumətinə əlavə tələblər qoymağa bəhanə verirdi. O, qətiyyətlə Vey-xay-vey limanını «icarəyə» götürməyə cəhd edirdi.

Yaponiya isə İngiltərənin köməyi olmadan Port-Arturun icarəyə verilməsinə qarşı heç bir addım ata bilmirdi. Həm də o dövrdə Mancuriya haqqında məsələ Koreya haqqında məsələ ilə çulğalaşmışdı. Bu an çar hökuməti Yaponiyaya ciddi güzəştlərə getməyə hazır idi. Elə bu vaxt Koreyaya aid rus-yapon danışıqları gedirdi. 1898-ci il aprelin 25-də Nisi-Rozen protokolu imzalandı. Yaponiya və Rusiya Koreyanın dövlət hüququnu və müstəqilliyini tam tanıdılar və bu ölkənin daxili işlərinə qarışmayacaqlarını öhdələrinə götürdülər. Onlar həm də biri-biri ilə razılaşmadan Koreyaya heç bir hərbi və maliyyə müşavirləri təyin etməyəcəklərini bildirdilər. Rusiya həm də Yaponiyanın Koreya ilə sənaye və ticarət sahəsində münasibətlərə girməsinə mane olmayacağını öhdəsinə götürdü.

Rusiyanın Koreyadakı hərbi və maliyyə müşavirləri geri çağrıldı.

Rus-Koreya bankı da öz fəaliyyətini dayandırdı.

Müəyyən edilmiş vaxtda 1898-ci il martın 27-də rus-çin müqaviləsi imzalandı. Port-Artur və Dalyanvan istifadə edilmək üçün Rusiyaya icarəyə verildi. İcarəyə götürülmüş ərazidən şimalda bitərəf zona yaradılır. Burada Çinin qanunları işləyəcək, lakin Rusiyanın razılığı olmadan Çin bu zonada qoşun saxlaya bilməzdi. Port-Artur yalnız Rusiya və Çin gəmiləri üçün açıq idi.

Rusiya Şərqi Çin dəmir yolundan Lyaodun yarımadasına dəmiryol xətti çəkmək hüququ aldı.

Elə həmin vaxt Fransa Annamdan Çin ərazisi ilə Xayfon-Yunnanfu dəmiryolunun çəkilməsi hüququnu aldı. Bəzi əyalətlər Fransaya icarəyə verildi. Bunlar cənubi Çində Fransanın mövqeyini xeyli möhkəmləndirdi.

İngiltərə isə Veyxayvey və Qonkonqun cənubundakı Koulun haqda məsələni qətiyyətlə qoydu. Çin razılıq verdi. Mayın 30-da Veyxayvey, iyunun 2-də Qonkonqun yaxınlığındakı ərazidə ingilis bayrağı qaldırıldı.

Yaponiya da nəhayət 1898-ci il avqustun 26-da Funtezyan əyalətində üçüncü dövlətin xeyrinə özgələşdirmə aparılmaması barədə Çindən öhdəlik almağa nail oldu.

Rusiya və İngiltərə dövlətlərinin maraqlarının bütövlükdə Asiyada tənzimlənməsi barədə cəhdlərin baş tutmasına baxmayaraq, qarşılıqlı maraqların Çində nəzərə alınması barədə İngiltərənin təklifi Rusiyanı qane etməyə bilməzdi.

Uzun danışıqlar 1899-cu il aprelin 28-də saziş imzalanması ilə nəticələndi. Bu sazişə görə, İngiltərə öhdəsinə götürdü ki, Çin səddindən Şimala heç bir dəmiryolu konsessiyası almağa və orada Rusiya mənafeyinə mane olmağa cəhd etməyəcək. Rusiya da Yantszi hövzəsi rayonunda İngiltərə qarşısında eyni ilə belə öhdəlik götürürdü.

Beləliklə, 1899-cu il üçün bütün böyük dövlətlər Çində özlərinin «tə'sir dairələri»nə malik idilər.

Bu dövrdə ABŞ da Çinə özünün gələcək mühüm bazarlarından biri kimi baxırdı. Çinin tə'sir dairələrinə



bölünməsi ABŞ-ın mənafeyinə uyğun gəlmirdi. Lakin ABŞ hələlik Çində özü üçün arzu etdiyi mövqeyi tutmağa qabil deyildi. O, Uzaq Şərq sularında kifayət dərəcədə hərbi dəniz qüvvəsinə malik deyildi. ABŞ hərbi cəhətdən Çində Yaponiyadan, Rusiyadan, İngiltərədən, hətta Fransadan da xeyli zəif idi.

1899-cu il sentyabrın 6-da ABŞ-ın dövlət katibi Xey böyük dövlətlərə nota ilə müraciət etdi. Həmin notada o Çində «açıq qapılar» doktrinasını irəli sürdü.

1. O, icarəyə götürülmüş ərazilərdə heç bir müqavilə hüquqlarına və maraqlar dairəsi daxilində əsaslandırılmış maraqlara mane olmayacaq;

2. İndi Çində mövcud olan müqavilə kömrük tarifi bütün mallara tətbiq ediləcək;

3. Belə tə'sir dairəsinə aid olan limana daxil olan başqa millətin gəmisindən kömrük alınmayacaq.

İngilis, fransız, alman, yapon və italyan dövlətləri Xeyin notası ilə razı olduqlarını bildirdilər. Rusiya isə qeyri-müəyyən cavab verdi. Mancuriyadakı Rusiya mallarının tariflərinin müdafiəsinə ehtiyacı daha çox idi. ABŞ əvvəldə belə düşünürdü ki, Çində ABŞ-ın başlıca düşməni Rusiyadır. İndi isə Rusiyanın belə mövqeyi bunu təsdiq etdi. Bu isə nəticədə ABŞ-ın Uzaq Şərqdə ingilis-yapon qrupuna qoşulması ilə nəticələndi. Gələcəkdə o, Yaponiya ilə birlikdə Rusiyaya qarşı hərəkət edəcək.

***

Uzaq Şərqdə dövlətlər arasında ziddiyyətlərin inkişafı gedişində qüvvələr nisbəti dəfələrlə dəyişilmişdi.

İngiltərə daha cavan kapitalist dövlətlərinin rəqabəti ilə üzləşərək, kapitalizmin «azad» inkişafı dövründə əldə etmiş mövqelərinin onlar tərəfindən təhlükə altına alındığını hiss edirdi. Onun yetirmiş olduğu qüvvələr nisbətində üstünlüyə nail olmaq və təklikdə fəaliyyət göstərmək siyasəti onun təklənməsinə gətirib çıxara bilərdi.

Uzaq Şərqdə beynəlxalq münasibətlər İngiltərənin böyük dövlətlərdən biri ilə ittifaqa cəhd etmək şansı yaratdı. Buna nail olmaqla o öz mövqeyini möhkəmlədə bilərdi. Rusiyanın Uzaq Şərqdə, xüsusilə Mancuriyada yeritdiyi siyasət, Çində bölünməz ağalığı iddia edən İngiltərə üçün belə bir müttəfiqin əldə edilməsini çox vacib hesab edirdi. Belə dövlət Yaponiya idi.

Rusiya isə Uzaq Şərqdə öz mövqelərini, maraqlarını lazımi dərəcədə müdafiə edə bilmirdi.

Asiyada yeni müstəmləkələrə sahiblənməyin geniş yoluna çıxmış ABŞ, Asiyanı və Çini özünə tabe etmək uğrunda mübarizə aparırdı. Onun Sakit Okeanda Filippin adalarını və İspaniyanın digər müstəmləkələrini işğal etməsi ABŞ-ın Çinə soxulması üçün əlverişli şərait yaratdı. O ilk vaxtlarda bunu «açıq qapı» siyasəti vasitəsi ilə həyata keçirməyə cəhd edirdi.

Beləliklə, Çinə və Mancuriyaya soxulmasını gücləndirən ABŞ, Rusiyanın Uzaq Şərqdə darmadağın edilməsinin tərəfdarı idi. İstər ABŞ, istərsə də İngiltərə hələlik Yaponiyanı təhlükəli rəqib hesab etmirdilər. Onlar Yaponiyadan Rusiyaya qarşı bir silah kimi istifadə etmək məqsədini güdürdülər. Buna nail olmaq üçün Yaponiyanın Uzaq Şərqdəki işğalçılıq planlarına rəvac verməyi zəruri sayırdılar.



İngilislər və amerikanlar Yaponiyanın hərbi cəhətdən güclənməsinə də hərtərəfli kömək göstərirdilər.

Lakin Uzaq Şərqdə hakim olmağın ən böyük iddiaçısına çevrilmiş Yaponiya, öz nailiyyətlərini heç vəchlə amerikanlılarla bölüşmək fikrində deyildi. Bu isə mütləq Yaponiya və ABŞ arasında ziddiyyətlərin getdikcə güclənməsinə səbəb olmaya bilməzdi.

## V FƏSİL

# XIX ƏSRİN SONLARINDA VƏ XX ƏSRİN İLK İLLƏRİNDƏ MƏRKƏZİ VƏ CƏNUBİ AMERİKA UĞRUNDA MÜBARİZƏ DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

Amerika qit'əsində başlıca rol ABŞ-a məxsus idi. Avropa dövlətlərinə nisbətən müstəmləkəçilik siyasətinə daha gec başlamış ABŞ əsas diqqətini Mərkəzi və cənubi Amerikaya yönəltmişdi. Lakin bu heç də o demək deyildi ki, ABŞ bölünmüş dünyadan öz payını almaq istəmirdi. XIX əsrin 90-cı illərində və XX əsrin ilk illərində ABŞ-ın yeni-yeni ərazilər işğal etməyə daha çox meyl göstərdiyi özünü büruzə vermişdi. Lakin ABŞ-ın bu arzuya nail olması Avropa dövlətlərinin müxtəlif istiqamətli diplomatik manevrləri ilə üz-üzə gəlmişdi. Qərb dövlətləri heç də asanlıqla Mərkəzi və cənubi Amerikanı ABŞ-a güzəşt etmək istəmirdilər.

ABŞ hökuməti yaxşı bilirdi ki, Avropa, Birləşmiş Ştatların güclənməsini istəmir. Həm də onu da bilirdi ki, Avropa dövlətlərinin aralarındakı rəqabət onların ABŞ-la birləşmələrinə imkan verməyəcək.

Bütün bunları nəzərə alaraq, ABŞ qətiyyətlə hərəkət etdi. Böyük dövlətlər arasındakı ziddiyyətlərdən bacarıqla istifadə edərək, öz planlarını həyata keçirdi.

Beləliklə, XIX əsrin sonlarında və XX əsrin ilk illərində Amerika qit'əsi beynəlxalq münasibətlərin kəsişdiyi kəskin nöqtəyə çevrildi.



## Kuba və Filippin uğrunda mübarizə

ABŞ özünün işğalçılıq siyasətində əsas diqqətini Mərkəzi Amerikaya, Karib dənizi hövzəsinə, Jənubi Amerikaya və Uzaq Şərqə yönəltmişdi. O bu məqsədini həyata keçirmək üçün 90-jı illərdə birinji növbədə güjlü donanma yaradır. Sakit Okeanı Atlantik Okeanına birləşdirəjək kanal çəkmək haqqında düşünür. Buna görə də o Karib dənizi hövzəsindəki adalara xüsusi diqqət yetirirdi. Bu heç də təsadüfi deyildi. İlk dövrlərdə, ABŞ İngiltərənin, Fransanın müstəmləkələrini işğal etmək barədə düşünə bilməzdi. Buna görə də o nisbətən zəif olan İspaniyanın müstəmləkələrinə sahib olmaq istəyirdi.

Karib dənizindəki ən böyük adalardan olan Kuba İspaniyaya məxsus idi. İspaniya ona qonşu olan Puerto-Riko adasının da sahibi idi. Hər iki ada Karib dənizində və ABŞ-ın Atlantik okeanı sahilindəki Panama kanalına çıxışda hakim mövqeyə malik idilər. 90-cı illərdə ABŞ-ın imperializm mərhələsinə keçməsi ilə əlaqədar olaraq onun bu adalara marağı daha da artmışdı. İspaniyanın bu adalarda tətbiq etdiyi ağır müstəmləkə recimi onlarda İspaniyanın mövqeyinə xeyli zərbə endirmişdi. 1868-ci ildə Kubada olmuş üsyan, üsyançıların 10 il müddətində öz azadlıqları uğrunda apardıqları müharibə Kubada İspaniyanın mövqeyini tamam sarsıtmışdı.

Amerikanın nümunəsində kubalıların yeni düşməni meydana gəlmişdi.

Amerika kapitalının Kubada böyük iqtisadi maraqları var idi. 90-cı illərdə ora qoyulan kapital 50 mln. dollara çatmışdı. Kuba əsasən şəkər qamışını ixrac edirdi. 1890-cı ildə həyata keçirilən tarif əsasında şəkərə gömrük müəyyən edildi. Lakin şəkər qamışı gömrüksüz ABŞ-a aparılırdı.

İspaniyanın müstəmləkəsində iqtisadiyyatın ABŞ kapitalının əlinə keçməsi onu çox narahat edirdi. 1890-cı ildə İspaniya hökuməti Kubadan gətirilən xariji malların gömrük haqqını 25 faiz artırdı.

Bu Amerikanın mənafeyinə toxunurdu. 1890-cı il qanununa görə, Amerika Prezidentinə belə hüquq verilmişdi ki, ABŞ üçün mənfəətli olmayan gömrük müəyyən etmiş ölkələrdən gətirilən şəkərin, çayın, kofenin, dərinin və bir sıra digər malların gömrüklərini artıra bilərdi.

Kuba gömrüyü üzərində İspan-Amerika ixtilafı baş verən kimi ABŞ Prezidenti Harrison bu hüquqdan istifadə etdi. O, Kubanın ixraj etdiyi əsas mallar – tütün və şəkər qamışı üzərində gömrüyü artırdı.

Amerika bazarının Kubanın üzünə bağlanması Kubanın və Puerto-Rikonun iqtisadiyyatını bərbad hala saldı. Bu təhlükəni dərk edən İspan hökuməti güzəştə getməli oldu. 1891-ci il iyulun 31-də Kanovasa-Foster sazişi imzalandı.

Lakin az sonra yenə vəziyyət kəskinləşdi. 1894-cü ildə ABŞ yeni tarif tətbiq etdi. Bu tarif şəkər qamışının satış qiymətinin 40 faizini təşkil edirdi. Rafinada tarif tətbiq edildi. Vilsonun tarifi Konavasa-Foster sazişinə son qoydu.

ABŞ-ın həyata keçirdiyi gömrük tədbirləri Kubanın iqtisadiyyatına məhvediji tə'sir göstərdi. Şəkərin satışı faciəli dərəcədə azaldı, onun istehsalı sür'ətlə düşdü, Kubada dilənçilik və işsizlik artdı. Ölkədə geniş xalq kütləsinin narazılığı güclənməyə başladı.

1895-ci ilin fevralında İspan hökuməti Kubada general-qubernatorun yanında Məsləhət Şurasının yaradılması haqqında qanun verdi. Bu İspaniya hökumətinin Kubaya daha geniş muxtariyyat verilməsi haqqındakı vədinin pozulması demək idi. 1895-ci ilin



fevralında İspaniya ağalığına qarşı Kubada üsyan başladı.

ABŞ hökuməti bildirdi ki, o Kuba hadisələrində bitərəf mövqe tutacaq. Üsyançılar Amerikadan silah alırdılar. Lakin Amerika hökuməti Kuba üsyançılarına kömək edənləri təqib edir, ora silah aparılmasına imkan vermirdi. Çünki amerikalılar Kubanın müstəqil olmasından ehtiyat edirdilər. Onlar həm də Kubada İspaniya ağalığının saxlanmasını da istəmirdilər. ABŞ-ın məqsədi Kubanı öz əlinə keçirmək idi. Bununla bərabər, İspan rejiminin ləğv edilməsi ilə ABŞ kapitalına dəyə biləcək zərər onu narahat edirdi. Buna görə də o, İspaniyanın tezliklə üsyanı yatırtmasına tərəfdar idi. Lakin aydın olanda ki, İspaniya üsyanı yatırtmaq qabiliyyətində deyil, onda ABŞ-ın mövqeyi dəyişdi. İndi o Kubaya müdaxilə etməyə, müharibə vasitəsi ilə Kubanı işğal etməyə üstünlük verdi.

Lakin bu ciddi fikir ayrılığına səbəb oldu. Müharibəyə nüfuzlu senator Lodc başda olmaqla qatı imperialist dairələri və o qədər də nüfuz sahibi olmayan Dəniz nazirinin müavini Teodor Ruzvelt tərəfdar idilər.

Bəzi dairələr isə Kubada ABŞ-ın tabeçiliyində olacaq oyuncaq hökumət qurulmasını istəyirdilər.

Kuba və Puerto-Rikodan başqa, İspaniya müstəmləkə imperiyası süqut etdiyi halda, onun Sakit okeandakı müstəmləkələrini, birinci növbədə Filippin adalarını tutmağı ABŞ hökuməti nəzərdə tuturdu. ABŞ onlardan Şərqi Asiyada özünün dayaq məntəqəsi kimi istifadə etmək məqsədində idi.

ABŞ-da onun işğalçılıq siyasətinə qarşı qəti əleyhdarlar var idi. Amerika kapitalının xeyli hissəsi geniş sahəyə malik olan daxili bazarla kifayətlənirdi.

80-ci illərdən başlayaraq, Amerikanın işğalçılıq siyasəti xeyrinə ideoloji hazırlıq başlamışdı. Bu işdə

Teodor Ruzveltin və Lodcun dostu Maxenin «Dəniz qüvvələrinin tarixə tə'siri haqqında» kitabı birinci yerdə dururdu. Müharibə tərəfdarları «yaşamaq uğrunda» mübarizə haqda Darvin nəzəriyyəsindən də öz xeyirlərinə istifadə edirdilər. Paster Stronq «başqa xalqlar üzərində anqlo-saksların rəhbərliyinin Allah tərəfindən müəyyən edildiyini» yazırdı.

1896-cı ilin payızında olacaq Prezident seçkilərinə Respublikaçılar Partiyası «möhkəm, cəsarətli, ləyaqətli» xarici siyasət yeritmək şüarı altında hazırlaşırdılar. Respublikaçılar gələcək okeanlararası kanal üzərində nəzarəti tə'min etmək, Hindi-Çindəki hərbi bazaları işğal etmək üçün hərbi-dəniz donanmasını gücləndirmək tələbini irəli sürürdülər.

1896-cı ilin fevralında Kuba məsələsi konqresdə müzakirə edildi. ABŞ-ın Kubaya silahlı müdaxilə təşkil etməsi tələbləri irəli sürülürdü. Hər iki palata buna oxşar qətnamə qəbul etdilər. Qətnamədə üsyançıları müharibə aparan tərəf kimi tanımaq və Kubada sülhə nail olmaq üçün İspaniyaya xeyirxah xidmət göstərmək məsləhət bilinirdi.

Lakin Prezident bu məsləhətlərə qulaq asmadı. Kuba üsyançılarını tanımaqda tərəddüd edən ABŞ Prezidenti başqa yol seçdi. Bu işdə ona diplomatiya kömək etməli idi.

1896-cı il aprelin 4-də dövlət departamenti İspaniyanın Vaşinqtondakı səfirinə nota göndərdi. Notada «Adanı yubanmadan tabe etmək üçün» ABŞ-ın İspaniya ilə əməkdaşlığı təklif edilirdi. Kubaya özünü idarə hüququ verilməklə, İspaniyanın Kuba üzərində suveren hüquqlarının saxlanılması bu əməkdaşlığın əsas şərti hesab edilirdi. ABŞ sülhə nail olmaqda «xeyirxah xidməti» öz üzərinə götürdü.



Vaşinqtonun məqsədi aydın idi. İspaniyanın Amerikanın təklifini qəbul etməsi, ABŞ-ın Kuba işlərinə daha geniş surətdə qarışmasına imkan verərdi. Bundan istifadə edərək, ABŞ Kuba məsələsini bütövlükdə öz əlinə keçirə bilərdi.

İspaniya hökuməti həmin notadan dövlət departamentinin öz «xeyirxah xidmətlərini» təklif etməkdə nəyə cəhd etdiyini dərhal başa düşdü. Buna görə də həmin təklifi rədd etdi. Bu haqda İspaniyanın Xarici İşlər naziri Hersoq Petuanski 1896-cı il may ayının 22-də ABŞ hökumətinə mə'lumat verdi, O yazmışdı ki, Kubada siyasi rejim orada üsyan yatırıldıqdan sonra dəyişdirilə bilər.

İspaniyanın vəziyyəti isə getdikcə kəskinləşirdi. 1896-cı ilin yayında ispan ağalığına qarşı Filippin adalarında da üsyan başlandı.

ABŞ ispan müstəmləkələrini işğal etməkdə İngiltərənin xoş məramlı siyasətinə arxalanırdı. Həqiqətdə İngiltərə ABŞ ilə çoxlu miqdarda fikir ayrılıqlarını, mübahisələrini tənzimləmək xətti götürmüşdü. Lakin onunla yaxınlaşmaq xəttini yox. Ən kəskin ixtilaflardan biri Venesuelanın sərhəddi üzərində idi. Burada söhbət bu cənubi Amerika Respublikası ilə Britaniya Qvianası arasındakı sərhəddən gedirdi. 1895-ci ildə ABŞ bu mübahisəyə qoşuldu. Prezident bildirdi ki, ingilislərin iddialarının yerinə yetirilməsinə o yol verə bilməz, çünki bu Monro doktrinası ilə ziddiyyət təşkil edir.

1896-cı ildə İngiltərə Venesuela ilə ixtilaflarda ABŞ-a güzəştə getdi. Bu addım İngiltərənin ABŞ ilə sazişə cəhd etdiyini göstərirdi. Bu saziş ABŞ və İngiltərə arasında ziddiyyətləri nisbətən aradan götürdü.

1896-cı il Prezident seçkilərinin nəticələri ingilis-amerikan əməkdaşlıq xəttini möhkəmləndirdi.

ABŞ və İngiltərə arasındakı əməkdaşlıq hər iki dövlətin gələcək siyasəti və ümumdünyada vəziyyəti üçün böyük əhəmiyyətə malik idi. Avropa dövlətlərindən yalnız İngiltərənin gücü çatardı ki, Qərb yarımkürəsində ABŞ-ın siyasətinə mane ola bilsin.

Mak-Kinli vəzifəyə təsdiq olunan kimi İngiltərə ilə əməkdaşlıq tərəfdarı olan Xeyi Londona səfir göndərdi. İngiltərə hökuməti Karib hövzəsində ABŞ-ın tə'sirinin üstünlüyünü tanımağa, İspaniyaya qarşı onun sərbəst hərəkət etməsinə kömək göstərməyə meyl edirdi. Bu şərtlə ki, Uzaq Şərq məsələlərində ABŞ Rusiyaya qarşı İngiltərəni müdafiə etməli idi.

Almaniya ilə münasibətlərin kəskinləşməsi və İngiltərənin beynəlxalq təklənməsi də onu ABŞ ilə yaxınlaşmağa vadar edirdi. İspaniyaya hüsnü-rəğbət bəsləyən Fransa ABŞ-ın və İngiltərənin ümumi düşməni olmuşdu. Londonda Kayzerin Kryuqerə teleqramını yadda saxlamışdılar. İngiltərədə burlara qarşı müharibəyə və Tunis uğrunda Fransa ilə həlledici döyüşə hazırlaşırdılar. Rusiya Şərqi Asiyada İngiltərəni özünün başlıca düşməni hesab edirdi. Belə münasibət getdikcə ABŞ-a da aid edilirdi. Ümumi düşmənlərin yaranması əməkdaşlıq üçün əsas yaradırdı. Əlbəttə, üç Avropa dövlətinin hər birinə anqlo-saks dövlətlərinin düşmənçilik dərəcəsi müxtəlif idi. ABŞ-a nisbətən İngiltərənin onlara münasibəti daha gərgin və kəskin idi.

Lakin ABŞ və İngiltərənin yaxınlaşması ingilis-amerikan ziddiyyətlərini heç də silmirdi. Bu əsasən, Latın Amerikası ölkələrinə tə'sir uğrunda idi. Bura ticarət sahəsində rəqabət, ingilis mallarının daxili bazarlara daxil olmasının qarşısını almaq, amerikan proteksionizmi və s. daxil idi. Onlar arasındakı ziddiyyətlər dəfələrlə ABŞ və İngiltərə arasında münasibətlərin kəskinləşməsi ilə nəticələnmişdi. Lakin bütün bunlara



baxmayaraq, onlar arasında əməkdaşlıq, Kuba məsələsində özünü xüsusilə göstərirdi, İngiltərə ilə yaxınlaşmaq ABŞ-ın əl-qolunu açırdı.

Seçkiqabağı mübarizədə respublikaçılar Klivlendi tənqid edirdilər. Onu İspaniya ilə münasibətdə zəiflik göstərməkdə, Kubada Amerikanın maraqlarını pis müdafiə etməkdə təqsirləndirirdilər.

Yeni Prezident Mak-Kinli və onun dövlət katibi Şerman ağır sənaye maqnatlarının və Rokfellerin adamı idilər.

Konstitusiyaya görə, yeni Prezident seçiləndən sonra 1897-ci ilin martında öz vəzifəsinin icrasına başlamalı idi. Klivlend Kubanı İspaniyadan satın almaq istəyirdi. Mak-Kinli də əvvəlcə bu fikrə düşdü. Lakin sonra bunun real olmadığına inandı.

Mak Kinli Kuba məsələsinə Kuba hadisələrindən zərər çəkmiş amerikan vətəndaşlarına kömək üçün konqresdən 50 min dollar xahiş edib almaqla başladı. Müzakirə zamanı çıxışlarda Kuba əlehinə hərbi təbliğat üstünlük təşkil etmişdi.

Konqresdə yenə də Kubanı döyüşən tərəf kimi tanımaq haqqında məsələ qaldırıldı. 1897-ci il mayın 20-də senat ikinci dəfə bu təklifin xeyrinə səs verdi. Nümayəndələr Palatası senatı müdafiə etmədi. Yeni prezident keçmiş prezident kimi üsyançıları tanımaq tərəfdarı deyildi.

1897-ci ilin yayında Mak-Kinli general Vudfordu Madriddə öz səfiri tə'yin etdi. O dövlət departamentinə mə'lumatlar verməklə yanaşı, həm də birbaşa prezidentə mə'ruzə etməli idi. Vudforda 1897-ci il iyulun 16-da dövlət katibi tərəfindən imzalanmış təlimat verildi. Təlimatda göstərilirdi ki, İspaniya dağıdıcı müharibəyə son qoymalıdır. O həm özü, həm də Kuba üçün məqbul

olan saziş təklif etməlidir. Bu məqsədə çatmaq üçün ABŞ öz «xeyirxah xidmət»ini təklif edir.

Vudford Madridə gələn kimi ingilis səfiri Drummond Volfla əlaqə yaratdı və onu Amerikanın mövqeyi ilə tanış etdi.

1897-ci il sentyabrın 23-də Vudford Amerikanın təklifini İspaniyaya çatdırdı.

«Xeyirxah xidmət» vasitəsilə Kubada sülhün bərpa edilməsi praktiki olaraq Kubanın Amerikanın protektoratlığına keçməsi ilə nəticələnərdi. Beləliklə, Ağ ev və onun Madriddəki nümayəndəsinin məqsədi, işi bu və ya digər formada Kubanın işğal olunması istiqamətində aparmaq idi.

Bu vaxt İspaniyada hökumət böhranı baş verdi. 1897-ci il oktyabrın 14-də mühafizəkarların yerinə hakimiyyətə başda Saqast olmaqla, liberallar gəldilər. Qulon Xarici İşlər naziri tə'yin olundu. Yeni hökumət islahatlar yolu ilə üsyançıları parçalamaq və zəiflətməklə Kubanı sakitləşdirməyə cəhd etdi. Kubada öz qəddarlığı ilə fərqlənən qubernator general Veyler geri çağırıldı. İspaniya hökuməti bəyan etdi ki, həbs düşərgələri ləğv ediləcək, Kuba üzərində İspaniyanın suverenliyinin saxlanması şərti ilə Kuba üçün muxtariyyat üsuli-idarəsinin yaradılması layihəsi hazırlanır.

Bu islahatdan İspaniya hökuməti öz diplomatiyası üçün istifadə etməyə cəhd etdi. O, həmin layihəni Kortesin (parlamentin) müzakirəsinə verməzdən əvvəl, Amerikaya cavab verdi. 1897-ci il oktyabrın 23-də ABŞ-a təqdim edilən həmin cavabda İspaniya hökuməti ətraflı sübut edirdi ki, muxtariyyat verilməsi Kubanı sakitləşdirəcək. ABŞ-ın «Xeyirxah xidməti» haqqında heç nə deyilmirdi.



Üsyançılar İspaniyanın «islahatlarına» mənfi yanaşdılar. Kuba inqilabçıları Kubaya tam müstəqillik verilməsini tələb edirdilər.

1898-ci ilin əvvəllərində Havanadakı Amerika kəşfiyyatı, İspaniyanın diplomatik nümayəndəsinin tanış ispan jurnalistinə şəxsi məktubunu poçtdan oğurlayaraq, Kuba millətçilərinə verir. Fevralın 9-da həmin məktub Amerika qəzetlərində dərc olundu.

Diplomat Lom öz məktubunda ABŞ Prezidenti haqqında da o qədər hörmətlə yazmırdı. O, İngiltərəyə də toxunurdu, göstərirdi ki, İngiltərə ABŞ-ı İspaniya ilə müharibəyə çəkməyə cəhd edir, bununla onun əl-qolunu bağlamaq istəyir. İngiltərədə də müharibə olmasını şadlıqla qarşılayırlar.

Amerika mətbuatında ələ keçirilmiş məktub böyük hay-küyə səbəb oldu. ABŞ hökuməti bundan istifadə etdi. O, Vudford vasitəsi ilə de Lomun geri çağırılmasını tələb etdi.

Lakin İspaniyanın diplomatik nümayəndəsi özü onun geri çağırılmasını öz hökuməti qarşısında qoymuşdu. Vudford amerikan hökumətinin tələbi haqqında İspaniyanın Xarici İşlər Nazirliyinə bildirdi. Nazir cavab verdi ki, öz nümayəndəsinin hərəkətinə təəssüflənir, de Lom artıq istefa verib.

Senator Proktorun çıxışı da az hay-küyə səbəb olmadı. Kubada olmuş senator ispanların qəddarlığını və əhalinin əzab-əziyyətinin şahidi kimi senatda çıxış etmişdi.

«Men» zirehli gəmisinin də məhvi İspaniyaya qarşı təbliğatın güclənməsinə səbəb oldu. Bu gəmi, guya dostluq səfəri ilə prezident tərəfindən Kubaya göndərilmişdi. 1898-ci il fevralın 15-də zirehli gəmidə dəhşətli partlayış baş verdi, 266 nəfər həlak oldu.

1898-ci il martın 28-də komissiyanın verdiyi hesabatda onun xarici səbəbdən partladıldığı göstərilirdi. Bu isə ancaq sualtı mina ola bilərdi. ABŞ hökuməti İspaniya hökumətinə nota verdi. Bu partlayış İspaniya hökuməti üzərinə qoyulurdu.

İspaniya hökuməti də komissiya təşkil etdi. O göstərdi ki, partlayış daxili səbəblər üzündən olmuşdu. Xeyli sonra 1911-ci ildə «Men» gəmisi suyun üzərinə çıxarılandan sonra ispanların göstərdikləri sübut edildi. Amerikan tarixçisi conson hesab edir ki, bu partlayışı Amerikada müharibə tərəfdarları qəsdən təşkil ediblər.

İspaniya hökuməti açıqdan-açığa cuğulluqla və təxribatçılıqla məşğul olan Amerikanın Kubadakı səfirini - general Lini geri çağırmağı ABŞ hökumətindən tələb etdi. Lakin beynəlxalq qaydaların ziddinə olaraq ABŞ hökuməti buna əməl etməkdən imtina etdi.

Beləliklə, ABŞ hökuməti hər vasitə ilə amerikan-ispan münasibətlərini maksimum kəskinləşdirməyə çalışırdı.

Filippin adalarındakı üsyançılara göstərdiyi hərbi kömək də Amerikanı müharibəyə hazırlaşmağa sövq edirdi. O, İngiltərənin razılığı ilə filippinlilərə daha yaxın və əlverişli baza olan Honkonqa öz Sakit Okean ekskadriliyasını göndərdi. O, burada filippinlilərlə əlaqə yaratdı. Filippin millətçilərinin mühacirətdə yaşayan lideri Aqinaldo Honkonqda idi. Hələ 1897-ci ilin payızında Honkonqdakı amerikan səfiri onunla əlaqə yaratmışdı. Onun eskadrası Honkonqa çatmamış amerikan eskadrasının komandanı Dyui öz zabitlərindən birini gizli əlaqə yaratmaq üçün Aqinaldonun yanına göndərmişdi.

1898-ci il martın 16-da görüş baş tutdu. Zabit ona məsləhət gördü ki, o Filippinə qayıtsın, müstəqillik uğrunda İspaniyaya qarşı müharibəyə başçılıq etsin. O, ABŞ tərəfindən kömək göstəriləcəyini vəd etdi və onu



inandırdı ki, ABŞ-ın heç bir müstəmləkəyə ehtiyacı yoxdur. Aprelin 1-dək bu danışıqlar davam etdi. Dyui Honkonqa gələn kimi vətənpərvər Xunta ilə əlaqəyə girdi, Xunta onun rəhbəri oradan gedəndən sonra yaradılmışdı.

Sinqapurda amerikan səfiri Pratt Aqinaldonu axtarmağa başladı. Onlar arasındakı danışıqlar saziş imzalamaqla başa çatdı. Sazişdə Filippinin müstəqil e'lan edilməsi və Filippin Federativ Respublikasının yaradılması nəzərdə tutulurdu. Seçkilər keçirilənədək Aqinaldo Filippin hökumətini təşkil etməli idi. Filippin dövlətinin yaradılmasında komandor Dyuinin tə'yin etdiyi amerikanlılardan və avropalılardan ibarət komissiya da iştirak etməli idi. Kubada olduğu kimi Filippində də amerikan protektoratlığı yaradıldı.

Kubanın taleyi barədə aprelin 19-da iki palatanın birgə iclasında qətnamə qəbul edilmişdi. Həmin qətnamədə göstərilirdi ki, ABŞ Kubada özünün heç bir nəzarətini və hüquqi qaydasını qurmaq fikrində deyil, onun məqsədi adada sülhə nail olmaqdır. Amerikan nəzarəti ancaq müvəqqəti xarakter daşıyır.

Filippini də belə tale gözləyirdi. Hələ ispan-amerikan müharibəsinin əvvəllərində bu aldatma hiss olunmurdu. Amerikanlılara hələ orada inanırdılar. Dyui Pratt vasitəsi ilə Aqinaldonu ölkəyə qayıtmağa tələsdirirdi. Amerikanlar istəyirdilər ki, müharibənin törədilməsini filippinlilərin üzərinə qoysunlar.

1898-ci ilin əvvəllərində ABŞ hökuməti müharibəyə başlamağa tələsirdi. Kubada üsyançılar çox böyük uğurlar əldə etmişdilər. Müharibənin uzadılması o demək idi ki, Kuba xalqı özü-özünü azad edə bilər və həqiqətən müstəqil ola bilər. Bu isə Vaşinqton üçün gərəkli deyildi.

1898-ci il martın 9-da konqres hərbi hazırlıq üçün əlavə kredit buraxdı. Ordu hissələrində və hərbi-dəniz donanmasında hərbi hazırlıq tədbirləri görüldü. Martın sonlarında Atlantika donanması Floridanın yanındakı Ki-Uestə gətirildi. Bura Kuba sahillərinin yaxınlığında idi. Başqa eskadriliya Honkonqda müharibəyə başlamaq üçün əmr gözləyirdi.

Martın 20-də dövlət departamenti Vudforda teleqram göndərdi. Teleqramda deyilirdi ki, əgər İspaniya Kubada təcili sülhü bərpa etməsə, ABŞ işə qarışmalı olacaq. Bunu Kubadakı vəziyyət tələb edirdi.

## Kuba hadisələri Avropa dövlətlərinin diplomatik meridianında

Avropanın böyük dövlətləri Kuba ətrafında baş verən hadisələri, ispan-amerikan münasibətlərini özünəməxsus maraqla sakit izləyirdi.

1898-ci il martın 23-də Vudford müstəmləkə naziri Maretin iştirakı ilə Qolonla görüşdü. Vudford bildirdi ki, əgər İspaniya hökuməti Kubada sülh barəsində kifayətləndirici nəticəyə nail olmasa, prezident İspaniya ilə münasibətlər məsələsini konqresin müzakirəsinə verəcək. ABŞ hökuməti istəyirdi ki, İspaniya tezliklə Kuba ilə müharibəni dayandırsın.

Kuba üsyançıları İspaniya tərəfindən verilən muxtariyyat haqqında təklifi rədd edirdilər. Onlar İspaniyanın Kubadan tamam əl çəkməsini tələb edirdilər. Belə şəraitdə ABŞ-ın təklifini qəbul etmək İspaniya üçün təslim olmaq demək idi. Uzun illər müharibədən sonra özünün üsyan etmiş əhalisindən sülh istəmək alçalmaq demək idi. Bu İspaniya monarxiyasının devrilməsi ilə nəticələnə bilərdi. Daxili inqilab qorxusu altında İspaniya hökuməti hər bir güzəşti rədd edirdi.



Bir neçə gün İspaniya hökuməti tərəddüd etdi. Martın 29-da Amerika nümayəndəsi oktyabrın 1-dən barışıq bağlanmasını təklif etdi. cavab üçün iki sutka vaxt verilmişdi. Martın 31-də Saqast, Qulon və Moret Vudfordla görüşdülər. Onlar bildirdilər ki, İspaniya müharibənin dayandırılmasına razıdır,o şərtlə ki, Kuba üsyançıları barışıq haqqında İspan hökumətinə müraciət etsinlər.

Lakin İspaniya hökuməti Amerikanın vasitəçiliyindən istifadə etmək istəmədi. Bunun nəticələrini yüngülləşdirmək üçün aprelin 3-də Qulon Vudford qarşısında Papanın vasitəçiliyi fikrini irəli sürdü. O dedi ki, Papa XIII Lev, guya Prezident Mak-Kinlin təşəbbüsü ilə, özü bu təklifi irəli sürmüşdü.

Amerikanın cavabında isə deyilirdi ki, ABŞ Papanın vasitəçiliyini irəli sürməmişdir və o, özünün əvvəlki fikrində qalır. Barışıq üsyançılar tərəfindən yox, İspaniya tərəfindən irəli sürülməlidir. Bunu isə təcili etmək lazımdır. Vəziyyətin gərginliyini qeyd edərək, Şerman aprelin 4 və 5-də Vudforda təlimat göndərdi ki, münasibətlər kəsildiyi şəraitdə o, ölkəni tərk etsin.

İspan hökuməti ABŞ-ın hərəkətlərindən ciddi qorxuya düşmüşdü. O, Avropa dövlətlərinə müraciət etməli oldu. İspaniya hökuməti onlardan xahiş edirdi ki, ABŞ-a məsləhət bilsinlər ki, o onun 23 mart tarixli bəyanatından meydana çıxmış ixtilaflı məsələni Tretey məhkəməsinə versin. Arbitr göstərilməmişdi. Lakin Roma Papası nəzərdə tutulurdu.

1897-ci ilin yayında gömrük qiymətlərinin artırılması nəticəsində ABŞ-ın beynəlxalq vəziyyəti bir qədər kəskinləşmişdi. Onun ardınca iyulun 25-də Dinqli tarifi qəbul edildi və bu Avropada ABŞ-a qarşı mənfi münasibət yaratdı. Avqustda II Vilhelm Petroqradda olarkən çara və Vitteyə Avropanın ABŞ-a qarşı gömrük

birləşməsinin layihəsini şərh etdi. Lakin o, rəğbətlə qarşılanmadı və danışıq olaraq qaldı. Aqrarçıların lideri qraf Kanits Avropa dövlətlərini «ABŞ senatında birləşmiş» amerikan trestlərinə qarşı əməkdaşlığa çağırdı. Almaniya ABŞ-dan ət idxalını sıxışdırdı, tərəvəzin gətirilməsini qadağan etdi. Bütün mətbuat ABŞ-a düşmən mövqedən çıxış etməyə başladı.

Nisbətən cavan, lakin sür'ətlə inkişaf edən iki dövlət – ABŞ və Almaniya arasında da dərin ziddiyyətlər mövcud idi. Bunu hər iki tərəfin diplomatları tam dərk edirdilər. 1898-ci il yanvarın 1-də Almaniyanın Vaşinqtondakı səfiri Xolleben bununla əlaqədar olaraq yazmışdı: «Almaniya və Birləşmiş Ştatlar arasında böyük yüksəliş dövründən iqtisadi ziddiyyətlər getdikcə kəskinləşir, indi isə kəskin mərhələyə daxil olmuşdu. Buradakı mətbuat və ara söhbətlərində Almaniya ən nifrət edilən dövlət kimi təsvir olunur. Bu nifrət birinci növbədə sıxışdıran rəqabətçiyə aiddir. O həm də xalis siyasi əsasa keçirilir. Bizi quldur və qarətçi adlandırırlar. Bizə qarşı narazılıq və onun getdikcə güclənməsinə səbəb təsərrüfat sahəsində bizim rəqabət aparmaq qabiliyyətimizin getdikcə güclənməsində, energiyamızın, maddi və siyasi sahədə qüdrətimizin artmasındadır».

Amerika bazarının Almaniya üçün əhəmiyyəti çox böyük idi. Almaniyanın bura ixracatı 90-cı illərdə ildə 90 mln. dollar və yaxud 360 mln. marka təşkil edirdi. Amerikanın Almaniyaya ixracı hətta bu rəqəmi keçirdi. Beləliklə, alman diplomatlarının təsdiq etdikləri kimi alman kapitalistlərinin ABŞ bazarlarına marağı da böyük idi.

Almaniya diplomatiyası ispan-amerikan ixtilaflarından istifadə edərək müstəmləkə ərazilərindən bir parça ələ keçirməyə cəhd edirdi. Dövlətlərin İspaniyanın xeyrinə qarışmaları müharibənin qarşısının alınmasına



kömək edirdi. Bu heç də Almaniyanın ürəyindən deyildi. Almaniya məhz İspaniya-Amerika ixtilaflarından əlini isitmək istəyirdi.

Müəyyən müddət tərəddüddən sonra Almaniya hökuməti səbirlilik göstərməyi və ABŞ-ın İspaniya üzərinə hücum etməsinə mane olmamağı qərara aldı.

İspaniya hökuməti hələ 1898-ci ilin fevralında amerikan donanmasının hərbi hazırlığından təşvişə düşərək, Almaniya hökumətindən soruşmuşdu: Amerika Respublikasının hücumundan İspaniya monarxiya rejimini müdafiə etmək üçün Almaniya Avropa dövlətləri aksiyasına başçılıq etməyə razılıq verərmi? Byulov bu şərəfdən imtina etdi və onu Fransa Respublikasına istiqamətləndirdi. Parisdə İspaniya hökuməti hüsnü-rəğbətlə qarşılandı. Fransa kapitalının iqtisadi mənafeləri onu İspaniyanı müdafiə etməyə sövq etdi. Fransız kapitalı onun başlıca kreditoru, ispan qiymətli kağızlarının ən iri sahibləri idilər. Fransa kapitalı Kubaya qarşı müharibədə onu maliyyələşdirirdi. Belə ki, 1896-cı ilin əvvəllərində o ispan hökumətinə 25 mln. peset vermişdir ki, bu da hərbi məqsədlər üçün xərclənmişdi. Fransada ictimai fikir ABŞ-a qarşı düşmən mövqedə idi.

Lakin bütün bunlara baxmayaraq, Fransa hökuməti İspaniyanın xeyrinə diplomatik yolla qarışmağı öz üzərinə götürməyə cürət etmədi. Paris birjası və onun dalınca Fransa hökuməti Kubanın Amerikaya satılmasına tərəfdar idi. Kubada müharibənin dayandırılması İspaniya qiymətli kağızlarının kursunu xeyli artıra bilərdi. Lakin Madriddə buna razılaşmadılar.

Fransa hökuməti də Almaniya kimi hərəkət etdi. Onu başqa dövlətin üstünə göndərdi. Byulov Fransanı göstərdiyi halda Fransa – Vyananı göstərdi. Vyana sarayı guya İspaniya kral sarayına xüsusi maraq

göstərirdi. İspaniyanın kraliça-regenti doğulduğu gündən Habsburq hersoqinyası idi.

Avstriya-Macarıstan Xarici İşlər Naziri Qraf Qoluxovski tərəfindən Amerika əleyhinə münasibət daha kəskin şəkildə ifadə edilmişdi. 1897-ci il noyabrın 20-də o macar nümayəndəliyinin xarici işlər üzrə komissiyasındakı çıxışında Avropa dövlətlərini Amerikaya qarşı birləşməyə çağırmışdı.

Lakin avstriyalılar təşəbbüs göstərməkdən imtina etmişdilər. Vyana İspan hökumətinə məsləhət bilmişdi ki, o, Roma Papasına müraciət etsin.

Papa diplomatiyası təklif qəbul etməyə meyilli idi, o şərtlə ki, İspaniya gizli qaydada bildirsin ki, o, Kubadan imtina etməyə razıdır. Lakin Madrid buna getmədi.

Peterburqda da Amerika əleyhinə hər bir çıxışa hədsiz mənfi münasibət bəsləyirdilər. Rusiyanın Amerika ilə münasibətləri ənənəvi dostluq münasibətlərinə əsaslanırdı və onunla pozuluşmaq istəmirdi. Uzaq Şərqdə mübarizənin kəskinləşdiyi şəraitdə bu heç də Rusiya üçün xeyirli ola bilməzdi. Bu ABŞ-ın İngiltərə və Yaponiya ilə yaxınlaşmasına səbəb ola bilərdi.

İngiltərə hökuməti də ABŞ-a qarşı çıxmaq fikrində deyildi. O, Uzaq şərqdə ABŞ ilə nəzərdə tutulmuş əməkdaşlığı möhkəmləndirmək fikrində idi. 1898-ci ilin yayında Almaniyanın Tszyao-Çjounu, Rusiyanın Port-Arturu tutmasından sonra İngiltərə ABŞ-la birlikdə çıxış etməyi təklif etmişdi.

Beləliklə, qarşılıqlı rəqabət İngiltərə və Rusiyanı məcbur etmişdi ki, ABŞ ilə yaxşı münasibətdə olsunlar.

Avstriya-Macarıstan İspaniya hökumətinin xahişi qarşısında aciz qalmışdı. Fransanın köməkliyi ilə Avstriya Rusiyanın formal olaraq Avropa dövlətlərinin kollektiv çıxışında iştirak etməsinə nail oldu.



Vatikan da nə isə bir şey etməyə cəhd etdi. O, İspaniyadakı katolik monarxiyanı müdafiə etməkdə maraqlı idi. O, ABŞ-dakı katolik seçicilərə də böyük ümid bəsləyirdi. Onlar seçkilərdə Mak-Kinliyə xeyli kömək etmişdilər. Papa mübahisəni yoluna qoymaq üçün öz nümayəndəsini Vaşinqtona göndərdi. Lakin bu müvəffəqiyyətlə qurtarmadı.

Nəhayət, Avstriya-Macarıstan təşəbbüsü öz üzərinə götürməyi qərara aldı. 1898-ci il aprelin 2-də Qoluxovski Avropa dövlətlərinə xüsusi nota ilə müraciət etdi. O Avropa dövlətlərini birgə çıxış etməyə də'vət edirdi.

Bu müraciət işi həll etdi. Qalan beş dövlət o şərtlə razı oldular ki, hər biri hamının razı olmasını başlıca şərt kimi irəli sürürdü.

1898-ci il aprelin 5-6-da altı dövlətin Vaşinqtondakı səfirləri kollektiv notanın layihəsini hazırladılar. 1898-ci il aprelin 7-də rus səfiri də notanın verilməsində iştirak etmək barədə səlahiyyət aldı. Həmin gün altı səfir tərəfindən nota Vaşinqtona təqdim edildi. O, şəxsən prezidentə verildi. İngilis səfiri əvvəlcədən notanın məzmunu barədə ABŞ hökumətinə mə'lumat vermişdi.

Öz hökumətləri adından onlar Amerika hökumətini və Amerika xalqını humanist hisslərə və mülayim olmağa çağırırdılar. Onlar ümid etdiklərini bildirirdilər ki, ABŞ-ın İspaniya ilə danışıqları sazişlə nəticələnə bilər, sülhün saxlanılmasını tə'min edər və Kubada da qaydanın bərpa olunmasına lazımı tə'minat verər.

Mak-Kinli səfirlərə ətraflı bəyanatla cavab verdi. O, altı səfirə bildirdi ki, Amerika hökuməti onların çıxışlarının humanist və qərəzsiz xarakterini yüksək qiymətləndirir. O həm də ümid edir ki, onlar da Kubada yaranmış dözülməz şəraitə son qoymaq üçün ABŞ-ın «qərəzsiz» səylərini də qiymətləndirəcəklər.

ABŞ hökuməti yaxşı başa düşürdü ki, Avropa dövlətləri ABŞ-ın güclənməsini istəmirlər. O həm də İngiltərə və Rusiyanın ona xeyirxah münasibət bəslədiklərini yaxşı bilirdi, həm də bilirdi ki, Avropa dövlətləri arasındakı rəqabət onların heç vaxt Amerika işlərinə fəal qarışmalarına imkan verməyəcək. Onların heç biri separat çıxış etməyə, ABŞ-a rəqib olan hər bir dövlətə yaxınlaşmağa cəsarət edə bilməz.

## İspan –Amerikan müharibəsi

İspaniya hər vasitə ilə müharibədən yan keçməyə cəhd edirdi. ABŞ-ın öz tələblərində qətiyyətlə durduğunu görən İspaniya daha tə'kid etmədi. Madrid Amerikanın tələblərinin xeyli hissəsini qəbul etdi. Vudford aprelin 5-də bildirdi ki, İspaniya bu yaxınlarda barışıq e'lan edəcək və Kuba ilə danışıqlara başlayacaq. Qulon kraliça-regentin hazırlanmış manifestini Vudforda verdi. Vudford boynuna aldı ki, manifest ABŞ-ın tələblərinə cavab verir və bu güzəştlərlə kifayətlənmək lazımdır. Bir neçə gün sonra aprelin 10-da İspaniya səfiri rəsmi surətdə bu güzəştlər barədə dövlət departamentinə mə'lumat verdi.

Əgər doğurdan da, ABŞ hökuməti Kubanın mənafeyini güdürdüsə, onda bu güzəştlərlə kifayətlənərdi. Lakin bu güzəştlərdə Mak-Kinli hökumətinin istədiyi ABŞ-ın «xeyirxah xidməti»ni qəbul etmək yox idi. ABŞ Kuba üçün nə sülh, nə də müstəqillik istəmirdi, onun məqsədi onun işinə qarışmaq hüququ almaq idi. Buna görə də Vaşinqton İspaniya hökumətinin mə'lumatını nəzərə almadı.

Aprelin 11-də Amerikanın Kubadakı general-konsulu dövlət departamentinin göstərişi ilə Kubanı tərk



etdi. Onun ardınca amerikan vətəndaşları Kubadan getdilər. Bu müharibə ərəfəsi demək idi.

Həmin gün prezident Kubada müharibə ilə əlaqədar olaraq ABŞ və İspaniya münasibətləri haqqında konqresə müraciət göndərdi.

İspaniyanın barışıq e'lan etdiyini və üsyançılarla danışıqlara başlamağa hazır olduğunu bilə-bilə prezident yazırdı ki, onun inamına görə Kubada müharibə axıra qədər, onlardan birinin tam əldən düşəcəyi vaxta qədər davam etdiriləcəkdi. Belə perspektiv, sivil cəmiyyət üçün yaramaz. Buna görə də, tezliklə sülhə nail olmaq üçün tədbirlər görmək vacibdi. Sonra İspaniyaya cavab verilməlidi ki, onun cavabları ABŞ üçün qeyri-kafidir.

Bütün bunları sadalayaraq, prezident ABŞ-ın hüquqlarını əsaslandırmağa keçir. O, dörd dəlil gətirir. **Birincisi,** ABŞ-ın qapısı ağzında törədilən qəddarlığa son qoymaq zəruriliyi, **ikincisi,** Kubada amerikan vətəndaşlarının və onların əmlakının qorunması, **üçüncüsü**, ABŞ ticarət və biznesinin mənafelərinin pozulması, **dördüncüsü,** Kubadakı hadisələrin ABŞ-ın təhlükəsizliyini qorxu altına alması və onu yeni xərclər çəkməyə vadar etməsi. Bunlardan sonra prezident xahiş edir ki, müharibənin dayandırılmasına nail olmaq üçün ona müəyyən ölçülər götürməyə icazə verilsin. Bu məqsədə nail olmaq naminə prezident ona silahlı qüvvə tətbiq etmək hüququ verilməsini də xahiş edir. Mə'lumatın sonunda prezident qısaca olaraq bildirir ki, dünən, yəni aprelin 10-da İspaniyanın müharibənin dayandırılmasını e'lan etmək barədə rəsmi mə'lumatını almışdı. Lakin senat bunu nəzərə belə almadı. Aprelin 19-da hər iki palata birgə qətnamə qəbul etdi. Konqresin sənədində İspaniyaya yeni tələblər irəli sürülürdü. İspaniya təcili surətdə Kuba üzərindəki hakimiyyətindən

imtina etsin, silahlı qüvvələrini adadan və onun ərazi sularından geri çağırsın. Bu qətnaməni həyata keçirmək naminə konqres prezidentə quru və dəniz qüvvələrindən istifadə etmək səlahiyyəti verdi.

Konqres beynəlxalq fikri nəzərə alaraq öz qətnaməsində göstərirdi ki, o, Kuba xalqının müstəqillik haqqında hüququnu tanıyır. Konqres həm də ABŞ-ın Kubaya qarşı nəzarət və s. digər hüquqlar istədiyini danırdı. Bu həm də ABŞ-a başqa səbəbdən, Kuba və Filippinin üsyançılarından hərbi kömək almaq üçün lazım idi.

Prezident dərhal aprelin 20-də konqresin qətnaməsini təsdiq etdi.

Qətnamədə Kuba inqilabı hökumətini və onun tərəfindən e'lan olunmuş Kuba Respublikasını tanımaq haqqında heç nə deyilmirdi.

Konqresin qətnaməsi İspaniya hökumətinə göndərildi. Həmin sənədlə göndərilən teleqramda deyilirdi ki, əgər aprelin 23-ü günortaya qədər kifayətləndirici cavab verilməsə, prezident Birləşmiş Ştatların silahlı qüvvələrindən istifadə etməyə məcbur olacaq.

Teleqram açıqdan-açığa müharibəyə çağırış demək idi.

Ölkə daxilində mövqeyinin zəif olduğunu hiss edən İspaniya hökuməti ABŞ-ın ultimatum verməsini gözləmədən aprelin 21-də Vudforda nota göndərərək diplomatik münasibətlərin kəsildiyini ona bildirdi. Çünki prezident konqresin qətnaməsini təsdiq etmişdi. Bu isə müharibə e'lan etmək demək idi.

Aprelin 22-də ultimatum müddətinin qurtarmasını gözləmədən ABŞ hərbi əməliyyata başladı. ABŞ donanması Kubanı blokadaya almaq üçün Ki-Uestdən çıxdı. Elə həmin gün Amerikanın hərbi gəmiləri İspaniyaya məxsus ticarət gəmisini zəbt etdi.



1898-ci il aprelin 23-də hərbi əməliyyata başlamaqla İspaniya ABŞ-a cavab verdi, müharibə vəziyyəti e'lan etdi. Aprelin 25-də Amerika da belə hərəkət etdi.

Avropa dövlətləri ispan-amerikan müharibəsində bitərəf mövqedə dayandılar. İngiltərənin mövqeyi isə Çemberlenin 1898-ci ilin mayında Birminhamda etdiyi nitqində öz əksini tapmışdı. O, anqlosakson ittifaqının arzu olunduğunu bildirmişdi. Bu amerikan-ingilis dostluğuna nümayiş olmaqla, həm də Birləşmiş Ştatların beynəlxalq vəziyyətini möhkəmlədirdi. İspaniya ilə ixtilafların lap başlandığı andan Londondan Nyu-Yorka ingilis kapitalının axını başlamışdı. Bu təkcə müharibəni maliyyələşdirmək üçün deyil, həm də uzun müddətə qoyulmaq üçün idi.

İspaniya isə əksinə, böyük ehtiyac hiss edirdi. London pul bazarı onun xahişlərinə məhəl qoymurdu. Fransız bankları da vəsait qoymaqdan yayınırdılar. İngiltərə və Rusiyanı çıxmaq şərti ilə hər yerdə Birləşmiş Ştatlara düşmən münasibət mövcud idi. Qərbi Avropada da belə idi. Latın Amerikasında daha kəskin düşmən münasibəti bəslənilirdi. Onlar ehtiyat edirdilər ki, müharibənin qələbə ilə qurtarması «şimal təkərini» genişləndirər. Buna görə də, onlar Avropa dövlətləri ilə yaxınlaşmaq üçün yol axtarırdılar. Almaniya bu təsadüfi əldən buraxmaq istəmədi, öz mövqeyini Latın Amerikası ölkələrində möhkəmləndirmək üçün bundan istifadə etməyi lazım bildi. Diplomatiya məqam gələndə, «dost» «dostu»nun kürəyinə xəncər vurmağı heç də istisna etmir. Almaniya da, İngiltərə də, Fransa da Latın Amerikasında Amerikaya qarşı düşmən mövqedə idilər. Amerikanın diplomatik nümayəndələri tərəfindən bəzi orqanların satın alınması da kömək etmədi. Mərkəzi və cənubi Amerika ölkələrinin ABŞ-a qarşı birləşməsi xeyrinə səslər getdikcə güclənirdi.

Müxtəlif ölkələrin diplomatları təbliğatdan və mətbuatdan öz ölkələrinin xeyrinə geniş istifadə edirdilər.

İspaniya diplomatiyası belə bir şayə yaymışdı ki, guya ABŞ Avropanın başqa dövlətlərinin mənafelərinə toxunmağa hazırlaşır: guya o Tanjer və Mərakeşi tutmaq istəyir.

İngiltərənin nüfuzlu dairələri, hökumətin özü, «Tayms» qəzeti və digər mətbuat orqanları müharibə şəraitindən istifadə edərək, bütün Avropa dövlətlərinin ABŞ-a qarşı düşmən mövqeləri haqqında həqiqi və uydurulmuş mə'lumatlar yayırdılar. Təkcə İngiltərə müstəsnalıq təşkil edirdi. Bununla əlaqədar olaraq, İngiltərənin ABŞ-a xeyirxah münasibəti hədsiz dərəcədə reklam edilirdi.

Amerikanın Berlindəki səfiri Uayt Avropa dövlətləri ilə münasibətlərin belə pisləşdiyi və mətbuatın geniş düşmənçilik kompaniyasına başladığı şəraitdə belə bir təklif irəli sürdü: Almaniyaya əslən alman olan bir amerikan jurnalisti göndərilsin və o, alman mətbuatına tə'sir etmək və Almaniyanın ABŞ-a xeyirxah münasibətinə dair material toplayıb Amerika mətbuatını tə'min etməklə məşğul olsun. İngilis tə'sirindən azad olan amerikan-alman mə'lumat xidməti yaradılsın. Lakin Vaşinqtonda bu təklif bəyənilmədi.

ABŞ-ın İspaniyaya qarşı müharibəsi dörd aydan az çəkdi. Qat-qat güclü olan amerikan hərbi donanması iki ispan eskadrasını 1898-ci il martın 1-də Filippində Manil buxtasında, başqasını iyunun 3-də Santyaqo-na Kubada darmadağın etdi. Nəticədə suda hakim mövqe Amerikanın əlinə keçdi. İspaniya müharibə meydanına qüvvələr göndərmək imkanından məhrum edildi.

İngilis hökuməti Amerikanın hərbi gəmilərini Honkonqda daş kömürlə və hərbi sursatla tə'min etdiyi



halda, İspaniyaya kömək etməkdən imtina edirdi. Avropadan Uzaq şərqə gedən yolları öz nəzarəti altına alan İngiltərə, Suveyş kanalı vasitəsi ilə ispan donanmasının Filippinə gəlməsinə qətiyyətlə mane olurdu. İspan gəmiləri geriyə qayıtmalı olurdular.

Müharibənin bütün ağırlığı quruda Kubada və Filippin adalarında üsyançı ordunun üzərinə düşmüşdü. ABŞ hökuməti Milli-azadlıq hərəkatından öz xeyrinə istifadə edirdi.

Quruda ABŞ-ın fəaliyyəti tam məhdud idi. 1898-ci il iyulun 21-də onlar Puerto-Rikoya çıxdılar və bu limanı tutdular. Kubada Santyaqonu tutmaq isə üsyançıların köməyi olmadan mümkün ola bilməzdi.

Filippinin paytaxtı isə saziş haqda gizli danışıqlar zamanı işğal olundu. Məqsəd o idi ki, bu iri şəhər üsyançıların əlinə keçməsin. İspan və amerikan komandanlığının birgə səyləri nəticəsində üsyançılar Kubada Santyaqoda şəhəri idarə etməkdən kənarlaşdırıldılar.

Üsyanın bəzi liderləri tezliklə başa düşdülər ki, ABŞ onları aldatdı. Kubada və Filippində milli orduların komandanlığı ölkənin mühüm mərkəzlərinin tutulmasında inqilabi ordunun kənarlaşdırılmasına qarşı öz e'tirazlarını bildirdi. Lakin bu e'tiraza məhəl qoyulmadı.

Böyük dövlətlərdən Amerika-ispan müharibəsi ilə əlaqədar olaraq, daha çox fəallıq göstərən Almaniya idi. O öz diqqətini xüsusilə Filippinə yönəltmişdi. Çindən Manila buxtasına alman eskadrası göndərildi.

1898-ci il iyunun 12-də o Manilaya yaxınlaşdı və Amerika gəmiləri yaxınlığında lövbər saldı. Öz gücünə görə eskadra Amerikanınkını ötürdü. Bu isə ABŞ-ın təlaş keçirməsinə səbəb olmaya bilməzdi. ABŞ

mətbuatı Almaniya əleyhinə kompaniyaya başladı. Almaniya mətbuatı da ona cavab kompaniyasına girişdi.

Filippin adalarına bütövlükdə, yaxud onun bir hissəsinə sahiblənmək arzusu ilə Alman diplomatiyası bir neçə dövlətin birgə zəmanəti ilə arxipelağı neytrallaşdırmaq ideyasını irəli sürdü. Bu Almaniyaya, o adaya soxulmaq, orada möhkəmlənmək və öz mövqeyini genişləndirmək üçün münasib vaxt gözləməyə imkan verərdi.

Öz eskadrasını Manilaya göndərmək barədə əmr verməklə Almaniya fəal diplomatik fəaliyyətə başlamışdı. Londondan səfir Qatsfeldə tapşırıq verilmişdi ki, o, Filippinin taleyi barədə ingilis hökuməti ilə danışıqlar aparsın. Vaxt Berlin üçün sərfəli idi. Çünki İngiltərə də Almaniya ilə yaxınlaşmağa cəhd edirdi, hətta iki ölkə arasında bu barədə danışıqlar gedirdi. Lakin buna baxmayaraq, Filippin barəsində danışıqlar bir nəticə vermədi.

Berlin bilavasitə ABŞ ilə sazişə gəlməyi qərara aldı. İyulun 9-da stats katibin müavini Rixtkofen amerikan səfiri Uayta Almaniyanın iddialarını şərh etdi. Almaniya Samoa arxipelağı üzərində üç dövlətin birlikdə idarəsinin ləğv edilməsini və onun Almaniyanın mülkiyyətinə verilməsini iddia edirdi. Bundan başqa, Almaniya, İspaniyanın Sakit Okeandakı müstəmləkələrinin bir hissəsinə və Karolina adalarına sahiblənmək istəyirdi. Rixtkofen Almaniyanın Filippin adalarında, əgər mümkün olarsa, Zulu adalarında e'tibarlı dəniz bazalarına yiyələnmək istə'yində olduğunu da bildirmişdi.

İyulun 13-də Vaşinqtonun cavabında deyilirdi ki, Filippin hələ ABŞ-ın deyil və orada o, heç bir bazanı paylaya bilməz. Karolina adaları da, onun deyil. Samoa adasının isə ABŞ-İspaniya ixtilaflarına heç bir aidiyyatı



yoxdur. Bununla bərabər, ABŞ Almaniyadan eskadrasını Filippindən geri çağırmasını tə'kid edirdi. Almaniyada isə qatı imperialist dairələri Filippinin işğal edilməsini tələb edirdilər.

Almaniya hökuməti eskadranı geri çağırmaqdan imtina etdi. Vəziyyəti bir qədər yüngülləşdirmək üçün Rixtkofen Uayta bildirdi ki, Almaniya Filippindən bir gəmisini çıxarmağa hazırdı. Amerikanların əlinə keçməsinə imkan verməmək üçün 1898-ci ilin yayında Almaniya Manilanın İspaniyaya təhvil verilməsini təklif etdi.

Filippin üsyançılarının lideri Aqinaldo Almaniya ilə sazişə gəlməyə tərəfdar idi. Amerikanın onları aldatdığını hiss edən filippinlilər Amerikaya qarşı onun rəqibləri arasında əlaqəyə girmək üçün dövlət axtarırdılar. Buna görə də onlar Manilada Almaniya konsulu və alman eskadrasının komandiri vasitəsi ilə Berlinə müraciət etdilər. Onlar Filippin üzərində Almaniya protektoratlığını və hətta alman vəliəhdinin Filippin taxtına çıxarılmasını təklif edirdilər.

Lakin Almaniya ABŞ-a təcir göstərmək üçün öz eskadrasının Filippində qalması ilə kifayətləndi. Almaniya, eskadranın Filippində qalmasından və ABŞ ilə çəkişmədən birinci dərəcəli alman donanması yaradılmasının xeyrinə istifadə edirdi.

ABŞ-da işğal tərəfdarları daha böyük fəallıq göstərirdilər. Prezident və hökumət şansı əlindən buraxmamağı, nəinki Kuba və Puerto-Riko üzərində nəzarətə nail olmağı, həm də Filippin adalarına sahiblənməyi zəruri sayırdılar. Onlar Almaniyanın şantajından da ehtiyat etmirdilər. Bilirdilər ki, Almaniyanı nə İngiltərə, nə də Rusiya müdafiə edəcək.

İyulun sonlarında Almaniya yenə öz iddialarını təkrar etdi. Lakin Vaşinqtondan rədd cavabı aldı. Ona

bildirdilər ki, Filippinin taleyi iki döyüşən dövlət tərəfindən həll ediləcək. Almaniya indi Filippinin bitərəfliyi haqqında məsələ qaldırdı. Lakin bu barədə təklif müdafiə edilmədi.

ABŞ Filippinə soxulmaq barədə Yaponiyanın cəhdlərini də rədd etdi.

İspaniya hökuməti müharibə aparmağın onun üçün heç bir şansı olmadığını artıq başa düşmüşdü. Çörəyin çatmaması və hərbi məğlubiyyət ölkədə narazılığın güclənməsinə səbəb olmuşdu. İspaniyanın kreditoru - Fransa da ürəkdən sülh arzu edirdi.

Fransa hökuməti ABŞ və İspaniya arasında vasitəçi kimi çıxış etdi. O, İngiltərəni bu işdən müvəffəqiyyətlə kənarlaşdırdı. Madrid və Paris arasında razılaşmaya görə Fransanın Vaşinqtondakı səfiri Jyül Kambona bunun üçün bünövrə yaratmaq tapşırıldı. İyulun 26-da İspaniya hökumətinin xahişi ilə o, sülh müqaviləsi bağlamaq haqqında İspaniya hökumətinin notasını ABŞ dövlət katibinə təqdim etdi. Müqavilənin əsasını Kubanın statusunun müəyyən edilməsi təşkil etməli idi.

Lakin sülh müqaviləsini Kuba məsələsi ilə məhdudlaşdırmaq və Filippinin İspaniyada qalmasını tə'min etmək uğur qazanmadı. Filippin arxipelağının taleyini həll etmək üçün beynəlxalq konfrans çağırmaq barədə Fransanın təşəbbüsü də baş tutmadı.

Bununla yanaşı, ABŞ sülhə maraqlı idi. Amerika xalqı arasında da narazılıq əhval-ruhiyyəsi güclənmişdi.

İspaniyanın sülh təkliflərini aldıqdan sonra Ağ evdə Mak-Kinlinin sədrliyi altında ABŞ-ın cavabının hazırlanmasına həsr edilmiş müşavirə toplandı. Hökumət üzvlərinin bir hissəsi Filippin arxipelağının işğal edilməsini irəli sürürdü. Bir hissə orada hərbi-dəniz bazası əldə etməklə kifayətlənməyi təklif edirdi.



İyulun 30-da Kambona Amerikanın cavabı təqdim olundu.

Həmin cavabda göstərilirdi ki, İspaniya Kuba üzərində hər cür hüquqdan imtina etməlidir. Puerto-Riko və Şərqi Hindistandakı bütün kiçik adalar Birləşmiş Ştatlara güzəştə gedilməlidir. Bunlar müharibə nəticəsində Amerikanın çəkmiş olduğu zərəri ödəmək üçün verilir. Gələcəkdə sülh müqaviləsində Filippin arxipelağı üzərində nəzarətin və idarə edilmənin xarakteri müəyyən edilincəyədək ABŞ-a Manilanı işğal etmək hüququ verilməsi tələb edilirdi.

Kambon Filippinə dair formulirovkanı dəyişdirməyə Mak-Kinlini inandırmağa çalışdı. Səfir arxipelaq üzərində İspaniyanın suverenliyinin saxlanmasına nail olacağına inanırdı. Səfir «malikanəsinə» sözü əvəzinə «sərəncamına» sözünün işlədilməsini məqsədəuyğun sayırdı. O, bütün bunlarla Fransa kapitalına borclu olan İspaniyanın krediti ödəyə bilmək qabiliyyətinin saxlanmasına cəhd edirdi.

Mak-Kinli bəzi sahələrdə güzəştə getməli oldu. Çünki onun hökumətində də bu məsələlərdə fikir ayrılığı var idi.

Kambon yenə də mübahisəni davam etdirdi. O, Puerto-Rikonu da İspaniya üçün saxlamaq istəyirdi. Lakin Prezident dedi ki, Puerto-Riko barədə heç bir mübahisə ola bilməz.

Avqustun 7-də İspaniya hökuməti Amerikanın şərtlərini qəbul etdi. Bununla yanaşı, o əlavə etdi ki, bu Filippinə də aid idi. Filippin barəsində Amerikanın tələbinə razılıq verməsi, heç də onun Filippin üzərində suverenlikdən imtina etməsi demək deyildi.

Beləliklə, əsas mübahisə Filippin üzərində idi. ABŞ Manilanı sonra işğal etməyə hazırlaşmağa başladı və Aqinaldoya təklif etdi ki, o Filippin qoşunlarını Manilaya

yeritməsin. O e'tiraz etdi. Lakin sonra tabe oldu, avqustun 12-də Vaşinqtonda barışıq haqqında protokol imzalandıqdan bir gün sonra Filippinin paytaxtına hücum avqustun 13-də səhər başladı. Protokolun məzmunu Amerika tərəfinin irəli sürdüyü təkliflərlə uyğun gəlirdi. Protokolda Filippin haqqında deyilirdi ki, onun taleyi sülh müqaviləsində müəyyən ediləcək. Hərbi əməliyyat dayandırıldı. Sülh danışıqlarının oktyabrın 1-dən gec olmayaraq Parisdə başlanması müəyyən edildi.

İspaniya əvəzindən protokolu imzalamaq səlahiyyəti Fransa səfirinə verilmişdi.

İspaniya hökuməti Manilanın təslim olması haqda aktın qanunu olmasına e'tiraz etdi. O göstərirdi ki, bu akt protokol imzalanandan və hərbi əməliyyatlar dayandırıldıqdan sonra baş verdiyinə görə qanunu sayıla bilməz.

Bir neçə gündən sonra İspaniya hökumətinin Karolina və Mariana adalarının satılmasına razılıq verdiyi xəbəri Berlinə çatdı. Beləliklə, İspaniya hökuməti Sakit Okeanda müstəmləkələrinin qalıqlarını da ləğv etməyə üstünlük verdi. Çünki müdafiəsiz qalmış həmin adaları da Amerika işğal edə bilərdi. Adaların satılması haqqında ilk ispan-alman sazişi 1898-ci il sentyabrın 10-da imzalandı.

Filippinin işğalına e'tiraz edən Almaniyadakı müxalifətin qüvvələrini zəiflətmək üçün ABŞ Dyunə əmr etdi ki, hələlik Karolina və Mariana adalarını tutmağı dayandırsın. Lakin o, Quam adasını özünə götürdü. Nəhayət, Almaniya və İspaniya qiymət məsələsində razılığa gəldilər və adalar 17 mln. markaya dəyərləndirildi.

Daxili auditoriyada Mak-Kinli Filippini işğal etmək qərarına gəlməsini belə izah etmişdi. "həqiqət ondan



ibarətdi ki, o, Allah bəxşeyişi kimi bizə veriləndə mən heç də Filippini istəmirdim, onunla nə etməli olduğumu bilmirdim. Hər yerdə məsləhət axtarırdım; lakin kömək az alırdım. Əvvəlcə, mən düşünürdüm ki, biz ancaq Manilanı götürərik. Mən gecələr Ağ evdə var-gəl edirdim. Heç utanmadan sizə bildirirəm ki, centilimentlər, mən diz üstə Allahdan mənə işıq və rəhbərlik üçün məsləhət verməsini xahiş edirdim. Nəhayət, bir gecə mənə agah oldu. Bilmədim bu necə oldu. Lakin mənə agah oldu: birincisi, onu biz İspaniyaya qaytara bilmərik, bu həm qorxaqlıq və həm də şərəfsizlik olar; ikincisi, biz Filippini Almaniyaya da, Şərqdə bizim ticarət rəqibimizə də verə bilmərik; bu isə pis biznes demək olardı; üçüncüsü, biz onları özbaşına da buraxa bilmərik, çünki onlar özlərini idarə etmək üçün hələ yetişməyiblər, orada anarxiya baş verər, ispan dövründəkindən daha pis vəziyyət yaranar; dördüncüsü, bizə yalnız o qalır ki, oranı işğal edək, oranı xristianlaşdıraq, Allahın köməkliyi ilə onları sivilizasiyaya qovuşduraq; hansı ki onun uğrunda Xristos canını verib. Ondan sonra mən yatdım, yuxuya getdim, sağlam yuxu ilə yuxuladım».

1898-ci il oktyabrın 1-də Parisdə ispan-amerikan sülh konfransı öz işinə başladı. Hər bir nümayəndəlik 5 nəfərdən ibarət idi. ABŞ nümayəndəliyinə dövlət katibinin keçmiş müavini Dey başçılıq edirdi. Onun üzvləri içərisində sənətkar diplomatlar yox idi. Nümayəndəliyə iki senator, «Nyu-York-tribun» qəzetinin redaktoru və Ali Məhkəmənin üzvü daxil idilər.

Nə Kubaya, nə də Filippinə öz nümayəndələrini göndərməyə icazə verilmədi.

Əsas problem Filippin məsələsi idi. Gərginliyi yumşaltmaq üçün ABŞ Filippinə görə İspaniyaya 20 mln. dollar təklif etdi.

Noyabrın 20-də İspaniya hökuməti Amerikanın şərtinə razı olduğunu bildirdi. 1898-ci il dekabrın 10-da sülh müqaviləsi imzalandı. ABŞ və İspaniya arasında müharibə başa çatdı.

Müqavilədə göstərilirdi:

**Maddə 1.** İspaniya Kuba üzərində suverenlik iddiasından və adanın ABŞ tərəfindən işğal edilməsinə qarşı iddiasından əl çəkir.

**Maddə 2.** İspaniya Puerto-Rikonu və Vest-Hindistanda olan bütün mülklərini və Quam adasını ABŞ-a güzəştə gedir.

**Maddə 3.** Filippin arxipelağı da ABŞ-a güzəşt edilir. Onun əvəzində ABŞ 20 mln. dollar verir.

## Kuba və Filippin milli hökumətlərinin diplomatiyası

Hələ İspaniyaya qarşı müharibənin qızğın vaxtında 1898-ci il iyunun 12-də Kavito şəhərində Filippinin müstəqilliyi e'lan edildi və Filippin Respublikası yaradıldı. Müharibə davam etdiyi dövr ərzində ABŞ - komandanlığı bildirmişdi ki, o, Filippinin müstəqilliyini tanıyır, bu müstəqilliyi tə'min etməyi öz məqsədi sayır. Müharibə qurtaran kimi Filippində və Kubada işğal rejimi müəyyən edildi.

Sentyabrın 8-də general Otis hökm formasında tələb etdi ki, Filippin qoşunları Maniladan çıxarılsın. O, güc tətbiq etməklə hədələdi. Aqinaldo Otisin təəccüb doğuran tələbini xalqdan və ordudan gizlədi. O, Amerika generalı ilə danışıq aparmağa başladı. Lakin Filippin prezidenti ona nail oldu ki, general öz tələbini bir qədər ədəblə şərh etməli oldu. Bundan sonra Aqinaldo öz ordusunu geri çağırdı.



1896-cı il avqustun 2-də Kuba inqilabi hökuməti xaricdəki nümayəndəlikləri barədə əsasnaməni təsdiq etdi. Onun mərkəzi Nyu-York oldu. Nümayəndəliyin tərkibi 6 nəfərdən ibarət idi. Katiblərdən biri daim Vaşinqtonda oturmalı idi. Kuba nümayəndəliyi dəfələrlə Kuba üsyançılarını döyüşən tərəf kimi tanımaq məsələsini ABŞ hökuməti qarşısına qoymuşdu.

1898-ci il mayın ortalarında Kuba Respublikası hökuməti vitse-prezident Kapotu Vaşinqtona göndərir. O, rəsmi surətdə bildirməli idi ki, Kuba üsyanının məqsədi tam müstəqilliyə nail olmaqdır.

Filippin Respublikası da öz milli diplomatiyasını yaratmış, Amerikanın rəqibləri olan dövlətlərlə əlaqə yaratmağa sə'y göstərmişdi. O, 1898-1900-cü illərdə Almaniyadan müəyyən miqdarda silah göndərilməsini tə'min etmiş, gənc respublikanın beynəlxalq aləmdə tanınmasına nail olmaq üçün fəaliyyətini genişləndirmişdi.

1898-ci il avqustun 6-da respublikanın prezidenti Aqinaldo xarici dövlətlərin hökumətlərinə formal da olsa, Filippin Respublikasının müstəqilliyini tanımaları barədə müraciət etmişdi.

1898-ci il sentyabrın 27-də Aqinaldonun nümayəndəsi Aqonsilo Vaşinqtona gəldi. Oktyabrın 1-də Mak-Kinli onu qəbul etdi. Mak-Kinli özünü elə apardı ki, guya o, Filippinin müstəqilliyini tanıyır.

Paris sülh danışıqları başlandı. Filippin hökumətinin nümayəndəsi kimi Aqonsilo Parisə göndərildi. Amerikan nümayəndəliyi onu qəbul etməkdən imtina etdi. O, öz təkliflərini yazılı şəkildə verdi. Lakin ona heç məhəl qoyulmadı.

Müqavilə imzalandıqdan sonra Aqonsilo dekabrın 12-də Fransa mətbuatında öz e'tirazını bildirdi. Filippin hökuməti Aqonsiloya göstəriş verdi ki, o, Avropadan

Amerikaya getsin və orada Paris müqaviləsinə qarşı mübarizəni davam etdirsin.

Senat müqaviləni təsdiq etdi. Aqonsilo bildirdi ki, onun Filippin xalqı üçün heç bir hüququ gücü yoxdur.

Bununla yanaşı, Filippin komandanlığı general Otis ilə də danışıqları davam etdirirdi. O həm də Filippinin general-qubernatoru idi. Filippin hökuməti onu tanımaqdan imtina etdi.

Otisin ordusu az idi, o kömək gözləyirdi. Buna görə toqquşmadan qorxaraq, Vaşinqtondan xahiş etdi ki, vaxt udmaq üçün filippinlilərlə danışığa girməyə icazə verilsin. Yanvarın 11-də danışıqlar başlandı. Amerikan tərəfi Filippin üzərində ABŞ-ın suveren hüququnun tanınmasını, Filippin tərəfi isə onun müstəqilliyinin tanınmasını tələb edirdilər. Filippin tərəfi bildirdi ki, ölkənin müstəqilliyi tanınandan sonra Filippin Respublikası və ABŞ arasında münasibətlərin xarakterini müzakirə etmək olar. ABŞ ilə ixtilafdan ehtiyat edən Filippin tərəfi bildirirdi ki, o ABŞ-ın protektoratlığını da qəbul etməyə hazırdı, lakin o şərtlə ki, ABŞ formal da olsa, Filippin dövlətini tanısın. Lakin ABŞ buna da razı olmadı. 1899-cu il yanvarın 31-də danışıqlar kəsildi.

1899-cu il fevralın 4-də Filippində silahlı mübarizə başlandı. Nəticədə 1901-ci ilin aprelində Aqinaldo təslim oldu. Lakin mübarizə 1902-ci ilə qədər davam etdi. Müqavimət sındırıldı.

### Panama uğrunda mübarizə və onun nəticəsi

İspan–amerikan müharibəsi Birləşmiş Ştatların işğalçılıq planlarının həyata keçirilməsinin başlanğıcı oldu. Kuba, Puerto-Riko, Filippin və Quam adalarının ardınca Havay adaları, sonra isə 1899-cu ildə Sakit



okeanda başqa bir baza- Samao və Ueyk adasında bir dayaq məntəqəsi işğal olundu.

ABŞ xarici siyasətinin növbəti vəzifəsinə Çin bazarlarında Amerika kapitalının mövqeyini tə'min etmək, Atlantik və Sakit okeanlarını birləşdirəcək kanal tikintisi zonasını ələ keçirmək, bu gələcəyin böyük su yoluna girişdə, yə'ni Karib dənizində və Mərkəzi Amerika ölkələrində möhkəmlənmək daxil idi.

Bu sadalanan vəzifələrdən birincisinin həllinə «açıq qapılar doktrinası» xidmət etməli idi.

Bu illərdə ABŞ artıq Çinə gələcəyin ən mühüm bazarı kimi baxırdı. Amerikanın iştahasından Çinin bu və digər hissəsini deyil, ona bütövlükdə yiyələnmək keçirdi. ABŞ özünün nüfuz dairəsi kimi bütövlükdə Çinə sahiblənmək istəyirdi. Amerikanı, Tszuaçjou və Port-Arturun tutulması, Mancuriyada Rusiya konsessiyası, dəmir yolunun istifadə dairəsinin müəyyən edilməsi haqqında ingilis-alman, ingilis-rus sazişləri çox narahat edirdi.

1899-cu il sentyabrın 6-da ABŞ-ın dövlət katibi öz səfirlərinə tapşırdı ki, onlar İngiltərə, Almaniya, Fransa, Rusiya və Yaponiya hökumətlərinə nota ilə müraciət etsinlər. Həmin notada Çində «açıq qapılar» doktrinasının e'lan edilməsi təklifi irəli sürülməli idi.

«Açıq qapılar» doktrinası haqqında biz əvvəllərdə bəhs etmişik. Bu bütün böyük dövlətlərin mənafelərinə cavab verdiyi üçün onlar ABŞ-ın təklifi ilə razılaşdılar.

«Açıq qapılar» doktrinası ABŞ-ın xarici siyasətində əhəmiyyətli mərhələni təşkil edirdi.

ABŞ hökumətinin başqa məqsədi, gələcək okeanlararası kanal üzərində ABŞ-ın tək ağalığını tə'min etmək idi.

ABŞ-ın müstəmləkəçilik siyasətində Panama kanalı xüsusi əhəmiyyət kəsb edirdi. O kanalın çəkil-

məsi birincisi, iki okeanı birləşdirər, Sakit Okeana yolu xeyli qısaldar, ikinci ABŞ-ın donanmasının iki hissəyə parçalanmasına son qoyar və onun hərbi dəniz qüvvələrinin vahid yumruq kimi birləşməsinə, sərbəst manevr edərək istədiyi vaxtda onu Sakit və Atlantik okeanlarına göndərməsinə imkan verərdi. İndi isə ABŞ öz donanmasını iki hissəyə Sakit Okeanı və Atlantik Okeanı sektorlarına bölməyə məcbur olmuşdu.

Çinə getdikcə artmaqda olan maraq ABŞ-ın Atlantik okeanından Sakit okeana yolun yaxınlaşdırılması cəhdini daha da gücləndirdi.

Kanalın çəkilməsi məsələsi bir neçə on illiklər idi ki, müzakirə edilirdi. 1850-ci ildə İngiltərə və ABŞ Kleyton-Bulver adlanan müqaviləni - gələcək kanalın bitərəfləşdirilməsi və onda azad üzmək haqda müqaviləni imzaladılar. Hər iki dövlət kanalın bitərəfliliyinin, təhlükəsizliyinin müdafiəsini öhdələrinə götürdülər və bütün başqa dövlətləri də onlara qoşulmağa də'vət etdilər. Müqavilənin diplomatik və hüququ formulları gələcək kanalda ABŞ-ın vahid nəzarətini tə'min edirdi.

Prezident Qrant hələ XIX əsrin 60-cı illərində okeanlararası yollarda ABŞ-ın tam ağalığı fikrini irəli sürmüşdü.

ABŞ hökuməti Kleyton-Bulver müqaviləsinin dəyişdirilməsinə nail olmağa cəhd edirdi. 1850-ci il müqaviləsinin 1-ci maddəsi Mərkəzi Amerikanın hər hansı bir hissəsinin işğal edilməsini, möhkəmləndirilməsini və müstəmləkəyə çevrilməsini qadağan edirdi. Halbuki, İngiltərə həmin müqavilədən keçən dövr ərzində bu rayonda bir sıra ərazini işğal etmişdi. Buna görə də ABŞ hesab edirdi ki, həmin müqavilə pozulmuş və gücdən düşmüşdü.

cənubi Afrikada müharibə və İngiltərənin təklənməsi onu ABŞ-ın arzusuna qulaq asmağa məcbur etdi.



Mak-Kinli 1898-ci ildə əlverişli məqamdan istifadə edərək İngiltərədən müqaviləyə yenidən baxmağı tələb etdi. Britaniya kabineti razılaşdı. 1900-cu il aprelin 5-də ABŞ-ın dövlət katibi Xey və İngiltərənin Birləşmiş Ştatlardakı səfiri Paunsfot hələ mövcud olmayan kanalın rejimi haqqında müqaviləni imzaladılar. Müqavilədə göstərilirdi ki, kanal ABŞ-ın rəhbərliyi altında, ya onun, ya xüsusi şəxslərin, ya da səhmdar cəmiyyətlərin hesabına tikilməlidir. Hər iki dövlət kanalın bitərəfliyini təsdiq edirdilər. Kanal, həm müharibə, həm də sülh dövründə ondan keçmə qaydalarına əməl edən bütün millətlərin hərbi və ticarət gəmiləri üçün açıq e'lan edilirdi. Kanalı blokada e'lan etmək, kanalda sədlər çəkmək qadağan edilirdi. Başqa dövlətlər bu müqaviləyə qoşulmağa də'vət edilirdi.

Yeni müqaviləyə görə, kanalın idarə edilməsi bütövlükdə ABŞ-a keçirdi. Kleyton-Bulver müqaviləsindən bu müqavilənin üstünlüyü bundan ibarət idi.

Müqavilə ABŞ-da e'tirazlara səbəb oldu. Xüsusilə başda Teodor Ruzvelt olmaqla, ifratçılar qətiyyətlə e'tiraz edirdilər. T.Ruzvelt o vaxt Nyu-Yorkun qubernatoru idi. Xeyə məktubunda Ruzvelt göstərirdi ki, ABŞ-ın kanalı möhkəmləndirmək hüququ olmalıdır. Digər tərəfdən müqavilə Monro doktrinası ilə ziddiyyət təşkil edir. Monro doktrinasına görə Avropa dövlətlərinin bu və ya digər formada Qərb yarımkürəsinin istənilən hissəsində nəzarət həyata keçirmək hüququ yoxdur. Burada ancaq onların əvvəllərdə malik olduqları ərazilər müstəsnalıq təşkil edir. Yeni müqavilə isə Avropa dövlətlərinin Yeni dünyanın ən mühüm hissəsinə, okeanlararası kanal zonasına nəzarətdə iştiraklarını nəzərdə tutur. Senat düzəlişlərlə müqaviləni qəbul etdi. Bu dəyişikliklər onun məzmununu dəyişdirdi. O ABŞ-a müstəsna və bölünməz nəzarət hüququ verirdi.

İngiltərə hökuməti Birləşmiş Ştatların bir tərəfli qəbul etdiyi dəyişikliyi müqaviləyə daxil etməkdən imtina etdi. Lakin müqaviləyə yenidən baxmaq barədə danışıqlara başlamağa razılıq verdi. cənubi Afrikada vəziyyətin mürəkkəbləşdiyi şəraitdə İngiltərə güzəştə getməli oldu. Yenidən baxılmış müqavilə 1901-ci il noyabrın 18-də Xey və Paunsfot tərəfindən imzalandı. Müqavilədə göstərilirdi ki, o, bütövlükdə Kleyton-Bulver müqaviləsini əvəz edir. Müqavilənin birinci variantında bu müddəa yox idi. Beləliklə, ABŞ üçün sərfəli olmayan 1850-ci il müqaviləsi tamamilə sıradan çıxarıldı. Doğrudur, kanalın bitərəfliyi prinsipi saxlanıldı. Lakin onun tə'min edilməsi yalnız ABŞ-ın ixtiyarına verilirdi. Kanalın möhkəmləndirilməsinin qadağan edilməsi, onun həm müharibə, həm də sülh dövründə bütün gəmilər üçün açıq olması müddəaları da yeni müqavilədə öz əksini tapmamışdı. Bütün bunların nəticəsində kanalın bitərəfliyi prinsipi heçə endirilmişdi. Üçüncü dövlətin müqaviləyə qoşulması təklifi də müqavilədən çıxarılmışdı.

Yeni ingilis-amerikan müqaviləsi Xey-Paunsfot adı ilə adlanmağa başladı. O, ABŞ-ı gələcək okeanlararası kanalın yeganə sahibi etdi.

Fransız «Panama kanalı» kompaniyasının iflasından sonra «Panama kanalının yeni kompaniyası» adı altında yeni kompaniya yaradıldı. O yenə də fransızlara məxsus idi. O kanalın tikintisinə konsessiyaya malik idi. Bunu ona Kolumbiya Respublikası hökuməti vermişdi. Panama keçidi də onun ərazisinə daxil idi. Lakin yeni kompaniya da əvvəlki kompaniya kimi konsessiyadan istifadə etmək və kanalı çəkmək iqtidarında olmadı. O konsessiyanın müddəti qurtarana qədər onu satmağa cəhd edirdi.



Bu keçiddən başqa xətt çəkmək üçün ikinci texniki imkan var idi. Bu Nikaraqua Respublikası ərazisindən keçirdi. Orada da konsessiya var idi. Lakin o da onu çəkmək iqtidarında deyildi, o «Nikaraqua dəniz kanalı kompaniyası» idi. O amerikalılara məxsus idi. Lakin o da ABŞ hökumətinin maddi yardımı olmadan heç nə etmək iqtidarında deyildi. Konqresdə, ondan kənarda xəttin haradan çəkilməsi - Panamadan, yoxsa Nikaraquadan çəkilməsi üzərində kəskin mübarizə başladı.

Fransa kompaniyasının qatı tərəfdarı kimi ən məşhur vəkil - "Kromvel və Salliven" kontorunun sahibi Kromvel çıxış edirdi. Sonralar D.F.Dalles bu kontoraya qoşulmuşdu. Panama layihəsinin tərəfdarları sırasına respublikaçılar partiyasının ən nüfuzlu rəhbərlərindən olan Mark Xanna və Teodor Ruzvelt də cəlb edilmişdi. 1900-cü ildə Teodor Ruzvelt vitse-prezident seçilmiş, Mak-Kinlinin ölümündən sonra BŞ-ların prezidenti olmuşdu. Alabama ştatından olan senator Morqan başda olmaqla, Nikaraqua kompaniyasının da öz himayədarları var idi. Mübarizə 1899-cu ildən 1902-ci ilin yayına qədər davam etdi. ABŞ hökuməti də paralel surətdə fransız kompaniyası ilə danışıqlar aparırdı. Kompaniya adından danışıqlarda ən iri aksioner, baş mühəndis, fırıldaqçı və alverçi Byuno-Varilya iştirak edirdi.

Amerikan konqresinin Nümayəndələr palatasında Nikaraqua kompaniyasının tərəfdarları cəmləşmişdilər. Palata Nikaraquadan keçməklə kanalın çəkilməsi haqqında bill-qanun qəbul etdi.

Bu fransız kompaniyasını çox narahat etdi. Qanun layihəsi senata daxil olanda, həlledici məqamda 1902-ci ilin əvvəlində fransız kompaniyası 40 milyon dollara qədər qiyməti aşağı saldı. Bu addım Panama variantı

xeyrinə məsələnin həllinə kömək etdi. Prezidentin və Mark Xannanın müdafiə etməsi işi həll etdi. 1902-ci il iyunun 28-də "Supunera akt" qanunu verildi. Bu qanun Prezidentə fransız kompaniyasının hüququnu 40 milyon dollara, ona mənsub olan panama boynunu kəsən dəmir yolunu almaq səlahiyyəti verirdi. Prezident kanalı çəkmək üçün torpaq sahəsinin ABŞ-ın daimi mülkiyyətinə verilməsi haqqında Kolumbiya hökuməti ilə razılığa gəlməli idi. Əgər bu iki vəzifə həll edilməsə, onda Nikaraquadan xəttin çəkilməsi barədə prezident Nikaraqua və Kosto-Riko hökumətləri ilə danışıqlara başlanmalı idi. Panamadan keçəcək xəttin tikintisi üçün 130 mln. dollara qədər, Nikaraquadan keçən xəttin tikintisi üzrə isə 180 mln. dollar vəsait ayrılmışdı.

Fransız kompaniyası ilə artıq razılığa gəlinmişdi. İndi qalırdı Kolumbiya hökuməti. Liberalizm, «açıq qapılar» burada artıq unudulmuşdu. Güc tətbiq etmək və dollar diplomatiyası əlbir işləyirdi. Bu işlərə ümumi rəhbərliyi prezident Teodor Ruzvelt edirdi.

Kolumbiya hökuməti və onun prezidenti Marrokin ikili mövqe tutur, tərəddüd edirdi. Bir tərəfdən o Nikaraqua ərazisindən kanal çəkilməsi nəticəsində ziyana düşəcəyindən ehtiyat edir və Birləşmiş Ştatların bu ölkəyə münasibətlərinə qısqanclıqla baxırdı. Digər tərəfdən Amerikanın Panama boynuna soxulması onu dəhşətə gətirirdi. Əvvəlcə danışıqları o, Kolumbiyanın Xarici İşlər Naziri Marinesa Silva vasitəsi ilə aparırdı. Buna görə də Vaşinqtona ezam edilmişdi. Amerikanın Kolumbiyaya tələbi açıqdan-açığa müstəmləkəçilik xarakteri daşıyırdı. Danışıqlar baş tutmadı. Silva geri qayıtdı. Danışıqlar Kolumbiyanın Vaşinqtondakı səfiri Konça tərəfindən bərpa olundu Dövlət departamenti onunla da sazişə gələ bilmədi. T.Ruzveltin tələbi ilə Konça öz dövləti tərəfindən geri çağrıldı. Sonra danışıqlar işlər vəkili



Erran vasitəsi ilə davam etdirildi. 1903-cü il yanvarın 22-də dövlət katibi Xey müqaviləni imzaladı. Bu, Xey-Erran müqaviləsi adlandı. Hələ müqavilənin mürəkkəbi quruma-mışdı ki, Erran öz ölkəsindən onu imzalamamaq haqda göstəriş aldı. Göstəriş gecikmişdi. Erran artıq ona imzasını atmışdı.

Xey-Erran müqaviləsi Yeni Panama kanalı kompaniyasının konsessiyası hüququnu və əmlakının dəmir yolu da daxil olmaqla, artıq ABŞ-a verilməsini təsdiqləmişdi. ABŞ yüz illiyə kanalın çəkilməsi, ondan istifadə edilməsi və onun üzərində nəzarət hüququ aldı. Kanalın sahili boyu 5 km sahə ABŞ-ın ixtiyarına və istifadəsinə verilirdi. Kanalın rejimi Xey və Paunsfot tərəfindən 1901-ci il noyabrın 18-də imzalanmış müqavilə əsasında müəyyən edilirdi, ABŞ hətta kanal sahəsində hərbi polk saxlamaq ixtiyarına da malik idi. Müqaviləyə görə ola bilər ki, Kolumbiya kanalı müdafiə etmək vəziyyətində olmasın. Buna görə də ona nəzarət bütövlükdə ABŞ-ın silahlı qüvvələri üzərinə qoyulurdu. ABŞ konsessiyanın əvəzində Kolumbiyaya bir dəfəlik 10 mln. dollar və ildə isə 250 mln. dollar verməli idi.

ABŞ senatı müqaviləni təsdiq etdi. Kolumbiyada isə narazılıq gücləndi. Prezident tərəddüd edirdi.

Buna görə dövlət katibi Xey bildirdi ki, əgər müqavilə təsdiq edilməsə Birləşmiş Ştatlar qarşıdakı qışda elə ölçülər görəcək ki, cənubi Amerikanın hər bir dostu müqavilədən onun imtina etməsinə təəssüflənəcək.

Bu hədə əks tə'sir bağışladı. 1903-cü il avqustun 12-də Kolumbiya senatı bir səslə Xey-Erran müqaviləsini rədd etdi.

Bunu eşidən T.Ruzvelt qəzəbləndi. Kolumbiya prezidentini hər cür çirkin sözlərlə təhqir etməyə başladı. "Spuner aktı" prezidentə səlahiyyət vermişdi ki, o Nikaraqua variantına müraciət edə bilər. Lakin

T.Ruzvelt öz fikrindən çəkinmək istəmirdi. Kanal Panama ərazisindən çəkilməlidir. Ruzvelt öz məqsədinə nail olmaq üçün hətta Panamaya qoşun göndərmək fikrinə də düşmüşdü. O, bu haqda konqresə göndərəcəyi məktubun layihəsini də tərtib etmişdi.

Lakin ABŞ hökumətinin Panamadan çəkiləcək kanalın məsələsini həll etmək üçün başqa variantı da var idi. Byuno-Varilya onun kompaniyasına çatacaq 40 milyon dolları yaddan çıxarmamışdı. Bir müddət o prezident Marrokini keçiddə üsyan baş verəcəyi və onun Kolumbiyadan ayrılacağı ilə qorxudurdu. Lakin bu hədə Kolumbiyaya heç bir tə'sir etmirdi. Panama dəmir yolu işçiləri vasitəsilə o yerli separatçılarla əlaqə yaratdı. Panama boynundakı Amerika kəşfiyyatı da rahat oturmurdu. O orada xeyli agent şəbəkəsi yaratmışdı. Onun sıralarında iri mülkədar Aranqo və bir neçə dəmir yol xidmətçiləri var idi. Onların arasında ən fəalı keçmiş həkim, dəmir yolunda işləyən Amador Qerraro adlı bir nəfər idi. Sentyabrın 17-də Xey prezident T.Ruzveltə aşağıdakı fəaliyyət proqramını təqdim etdi: üsyanın başlamasını gözləmək, hazırlaşmaq və üsyan başlanan kimi, onları müdafiə etmək üçün çıxış etmək. Prezident buna meyl göstərdi.

1903-cü il sentyabrda Amador oğlunu müalicə etdirmək adı ilə Panamadan Nyu-Yorka gəldi. Bura gələn kimi o Kromvellə əlaqə yaratdı, sentyabrın 23-də Byuno-Varilya da bura gəldi. Üçlük birgə fəaliyyət haqda razılığa gəldilər. Byuno-Varilya Nyu-Yorkdan Vaşinqtona gəldi və dövlət departamenti ilə əlaqə yaratdı. Oktyabrın 9-da prezident onu qəbul etdi. Ruzvelt və dövlət katibi ilə söhbətdən Byuno-Varilya başa düşdü ki, əgər üsyan başlayarsa, ABŞ işə qarışacaq və Kolumbiyaya üsyanı yatırmaq üçün qoşun



göndərməyə imkan verməyəcək. Elə ona da bu lazım idi.

Ruzvelt və Xey bilirdilər ki, qiyamçılar Byuno-Varilyanın şəxsində xalis fırıldaqçılardır. Buna görə onlar ehtiyatla hərəkət edirdilər. Bununla belə Xey Panamada gizli iş aparanlarla məktublaşmaqdan da çəkinmirdi. Qabriel Dyuk adlı birisi ondan Panama qarnizonun zabitlərini satın almaq üçün pul xahiş etdikdə o cavab verməkdən çəkindi. Lakin onlar öz işlərini gizli agentlər vasitəsi ilə görürdülər.

Prezident və Xey Kolumbiyaya Panama boynundan keçən hissədə tranzitin sərbəstliyini tə'min etmək adı altında intervensiyanı həyata keçirməyi nəzərdə tuturdular.

Vaşinqtonda işini görəndən sonra Byuno-Varilya Nyu-Yorka qayıtdı. Burada o, qiyamı təşkil etmək üçün ilk xərclərdən ötəri Amadora 100 min dollar verdi.

Onlar xalqa müraciəti və yeni dövlətin konstitusiyası layihəsini belə hazırlamışdılar. Byuno-Varilyanın arvadı yeni dövlətin bayrağını da tikmişdi. Qiyam noyabrın 3-nə tə'yin edilmişdi. Oktyabrın 15-16-da hərbi və dəniz kəşfiyyatı hazırlığının gedişi barədə prezidentə mə'lumat vermişdilər. Oktyabrın 19-da amerikan donanmasının üç gəmisinə kanalın çəkiləcəyi yerə getməyi və onun yaxınlığında dayanmaq əmri verildi.

Oktyabrın 20-də Amador Qerraro Nyu-Yorku tərk edərək Panamaya qayıtdı. Orada dollar öz işini gördü. Amerika kəşfiyyatı və sui-qəsdçilər Panama qubernatorunu ələ aldılar. O, general, şəhərin hərbi qarnizonunun rəisi, Panama reydində dayanan sahil keşikçi gəmisinin komandiri idi. Bir sıra zabitlər də ələ alınmışdı.

Panamada xoşagəlməz nə isə hazırlandığı barədə xəbər Boqota çatdı. Kolumbiya hökuməti özünə

sədaqətli olan ordunu ora göndərməyi qərara aldı. Həm də o dövlət departamentinə sorğu göndərdi ki, əgər Panamada qarışıqlıq baş verərsə, ABŞ hansı mövqeyi tutacaq?

cavabda deyilirdi: ABŞ yalnız tranzit azadlığını tə'min etmək məqsədilə işə qarışacaq. Bu 1846-cı il müqaviləsinə görə ABŞ-ın borcudur. ABŞ-ın məqsədi aydın idi.

1903-cü il noyabrın 1-də kanalın çəkilməsi haqqında danışıqları davam etdirmək fikrində olduğunu Kolumbiya hökuməti ABŞ hökumətinə bildirdi. Lakin bu güzəşt ona kömək etmədi. ABŞ qətiyyətlə Panama keçidini Kolumbiyadan almaq mövqeyində möhkəm dayanmışdı, oranı özünün mühüm strateji rayonuna çevirmək istəyirdi. Qiyam vaxtı yaxınlaşdıqca ABŞ hərbi gəmisinin birini Karib dənizi sahilindəki Kolon limanına, digərini isə Sakit okeana - Panama sahilinə göndərdi. Onlar Panamadan 50 mil aralı sahəyə Kolumbiyanın qoşun göndərməsinə mane olmalı idilər. ABŞ-ın hərbi gəmisi «Naşvill» noyabrın 2-də gecə Kolon limanına daxil oldu. Sabahısı səhər Kolumbiya gəmisi limana daxil oldu. 400 nəfərlik Kolumbiya silahlı dəstəsi sahilə çıxdı. O, Panamaya getməli idi. Lakin dəmiryolunu idarə edən amerikanlı, vaqon olmadığını bəhanə edərək əsgərləri aparmaqdan imtina etdi. O ancaq iki Kolumbiya generalını aparmalı oldu. Əvvəlcə onları vağzalda təntənə ilə qarşıladılar; iki saat sonra isə sui-qəsdçi kimi onları həbs etdilər.

Noyabrın 3-də həmin gün Panamada dövlət çevrilişi edildi. Ələ alınmış qubernator, bir neçə zabit həbs edildi; «hökumət komissiyası» yaradıldı. Aranqo özünün bir neçə tərəfdarı ilə onun tərkibinə daxil oldular. Sabahısı günü Yeni dövlətin - Panama Respublikasının yaradıldığı e'lan olundu. Amador Qerraro prezident oldu.



Həmin gün Kolumbiyanın ordu dəstəsi dayandığı Kolon şəhəri Amerika gəmilərindən gələn desant tərəfindən tutuldu. «Naşvill» Kolumbiyanın gözətçi gəmilərini atəşə tutdu. Kolumbiya polkovniki qorxuya düşdü. Ona 8 min dollar verdilər ki, o öz əsgərlərini gəmiyə doldurub buradan getsin. Amerika gəmiləri Panamaya yaxınlaşdılar.

Yeni Panama dövləti ABŞ-ın Panamadakı vitse-konsulu vasitəsi ilə ABŞ-dan xahiş etdi ki, onu tanısın. Noyabrın 6-da ABŞ onu tanıdı.

Çevrilişin sabahısı günü Byuno-Varilya ABŞ-da Panama Respublikasının səfiri tə'yin olundu.

Kolumbiyanın bütün e'tirazları, protestləri cavabsız qaldı.

Yeni səfirin əsas vəzifəsi Panama kanalının çəkilməsi haqda ABŞ ilə müqavilə bağlamaq idi. 1903-cü il noyabrın 18-də müqavilə imzalandı. Öz kompaniyası üçün 40 milyon dollar qazanan Byuno-Varilya az sonra səfirlikdən istefa vermək haqqında Panama hökumətinə mə'lumat verdi. 1904-cü ilin yayında Fransaya qayıtdı.

Xey-Byuno-Varilya müqaviləsinə əsasən ABŞ Xey-Errana müqaviləsindən daha çox imtiyazlar aldı. Yeni müqaviləyə görə (maddə 1) ABŞ Panama Respublikasının müstəqilliyinə tə'minat verirdi. Respublikanın ərazisi 6 mildən 10 milə (16 km-ə) çatdırıldı. Bütün zona ABŞ-a 100 illiyə verilirdi. Panama Respublikası bu torpaqdan istifadə və nəzarət hüququnu, onun istismar və sanitariya vəziyyətinə, müdafiəsinə nəzarəti, tikinti işlərini aparmaq hüququnu ABŞ-a güzəştə gedirdi. ABŞ, Sakit və Atlantik okeanları arasında dəmir yolu və əlaqə vasitələri çəkmək ixtiyarına malik idi. Kanal zonasında yerləşən Panama və Kolon şəhərlərində ABŞ-ın tərpənməz əmlak almaq hüququ var idi. Hər iki

şəhər onun sanitar normalarına tabe olmalı idi. Panama Respublikasının imkanı çatmadıqda bu şəhərlərdə ictimai asayişin qorunması da ABŞ-a verilirdi. 1903-cü il noyabrın 18-i müqaviləsində Panama kanalının yeni kompaniyasının pul hüquqlarının ABŞ-a verilməsi, edilən güzəştlərə görə onun tərəfindən veriləcək pul ödənişləri haqqında, (lakin indi o Kolumbiyaya yox, Panama Respublikasına verilməli idi) kanalın bitərəfləşdirilməsi haqqında Xey-Erran müqaviləsindəki maddələr təkrar olunurdu. Əgər zərurət yaranarsa, ABŞ istədiyi vaxtı kanalın təhlükəsizliyini tə'min etmək üçün öz polisindən, quru və dəniz qüvvələrindən istifadə edə bilərdi. Beləliklə, elə ilk gündən yeni dövlət ABŞ tərəfindən işğal olunmuşdu.

Xey-Byuno-Varilya müqaviləsi ABŞ senatı tərəfindən 1904-cü il fevralın 23-də təsdiq edildi. Kanalın inşası 1914-cü ildə başa çatdırılmışdı.

Panama ilə yanaşı, ABŞ Kubanı da öz müstəmləkəsinə çevirməyə cəhd edirdi. İspan-amerikan müharibəsi gedişində Kuba amerikan qoşunları tərəfindən işğal olunmuşdu. İnqilabı hökuməti tanımaqdan imtina edən ABŞ başda general qubernator olmaqla, Kubada özünün işğalçı hakimiyyətini qurmuşdu. Prezident və konqresin dəfələrlə Kubanın müstəqilliyi haqda vəd vermələrinə baxmayaraq bu vədə əməl etmirdilər. Bu Paris sülh müqaviləsində də öz əksini tapmamışdı.

### Kubanın əsarət altına alınması

Kubada örtülü şəkildə işğal rejimini saxlamaq ABŞ-a o qədər də asan deyildi. Burada milli özünüdərketmə çox güclü idi; azadlığa cəhd əhval-ruhiyyəsi çox yüksək idi. ABŞ kubalıların tələbləri qarşısında güzəştə gedərək təsis məclisinə seçkiləri



tə'yin etməyə razılıq verdi. Bu haqda 1900-cü il iyulun 25-də Qubernatorun əmri e'lan edildi. Həmin əmrlə Məclisin qarşısına iki məqsəd qoyulurdu: 1. Kubanın konstitusiyasını hazırlamaq;

2. Konstitusiyaya Kuba ilə ABŞ arasındakı münasibətlərin xarakteri haqqında xüsusi bölmə daxil etmək. Bu bölmənin mətni əvvəlcədən ABŞ ilə razılaşdırılmalı idi.

Təsis məclisi 1900-cü ilin noyabrında işə başladı. O konstitusiyanı hazırladı və 1901-ci il fevralın 21-də qəbul etdi. Lakin konstitusiyada ABŞ ilə münasibətlər haqqında heç nə deyilmirdi. Konstitusiyada Kuba Respublikası tam müstəqil dövlət kimi təsvir edilirdi. Təsis məclisi qubernatorun əmrindən tamam yan keçmişdi.

Buna cavab olaraq ABŞ təzyiq üsulundan istifadə etməyə başladı. Bu dövrdə konqress orduya xərcləri təsdiq etməli idi. Hərbi nazir Rut bu qanuna düzəliş layihəsi hazırladı. Düzəlişdə deyilirdi ki, prezidentə ABŞ ilə Kuba arasında münasibətlərin xarakterini müəyyən edən konstitusiya əsasında orada hökumət yaradılana qədər Kubanın işğalını dayandırmaq səlahiyyəti verilir.

Bu münasibətlərin xarakteri aşağıdakı kimi şərh edilirdi:

Birincisi - Kuba xarici dövlətlə onun müstəqilliyini poza bilən, və ya onun ərazisinin müəyyən hissəsini xarici dövlətin nəzarətinə verə bilən müqavilə bağlamamalıdı.

İkincisi - Kuba, onun ödəmə qabiliyyətindən artıq olan məbləğdə istiqrazlar almamağı öhdəsinə götürməlidi.

Üçüncüsü - Kubanın müstəqilliyini qorumaq və adada hökuməti müdafiə etmək məqsədi ilə ABŞ-a Kubaya intervensiya təşkil etmək hüququ verilirdi.

Dördüncü - ABŞ-ın müxtəlif ehtiyacları üçün Kubanın üzərinə ABŞ-a torpaq satmaq öhdəliyi qoyulurdu. Bütün bunlar Kubanın Konstitusiyasında öz əksini tapmalı və xüsusi müqavilə ilə sənədləşdirilməli idi.

Bu düzəliş senator Platt tərəfindən senata təqdim edildiyinə görə tarixə "Plattın düzəlişi" kimi daxil olmuşdu.

Amerika senatı düzəlişi qəbul etdi. Lakin Kubanın Təsis məclisi onun məzmununu pislədi. ABŞ-ın Kubanın işlərinə qarışmaq iddiası xüsusi narazılıqla qarşılandı.

Danışıqlar üçün Vaşinqtona xüsusi nümayəndəlik göndərildi. Lakin Amerika paytaxtında Kuba nümayəndələri inandılar ki, güzəşt gözləmək əbəsdi. Ölkənin işğaldan azad olması «Plattın düzəlişi»nin qəbul edilməsindən asılıdı. Təcis məclisi güzəştə getməli oldu və düzəlişləri qəbul etdi. Həmin düzəlişlər Kuba Konstitusiyasına dail edildi. 1903-cü il mayın 22-də Kuba-ABŞ münasibətlərinin xarakterini müəyyən edən müqavilə bağlandı. Hələ bu müqavilə bağlanana qədər fevral ayında Kubanı Quantanomada və Baya-Onda da iki hərbi dəniz bazasının ABŞ-a icarəyə verilməsi haqqında saziş imzalanmışdı. E.Palma Kuba Respublikasının prezidenti seçildi. O, ABŞ-a xidmət edən şəxs idi.

1906-cı ildə o özünün yenidən seçilməsini təşkil etdi. Buna nail olmaq üçün ən çirkin üsullardan istifadə etdi. Amerikanın Kubada ağalığından cana gəlmiş kubalılar üsyan qaldırdılar. Palma kömək üçün T.Ruzveltə müraciət etdi. Kuba sahillərinə hərbi gəmilər göndərildi. Onlar sentyabrın 12-də Kuba paytaxtının girəcəyində lövbər saldılar. Bir neçə gündən sonra hərbi nazir Rut və dövlət katibinin köməkçisi R.Bekon bura gəldilər. Taft Kubanın qubernatoru tə'yin olundu, o hətta



bir neçə müddət adanın müvəqqəti hökumətinə başçılıq etdi. Amerikan ordusu 1909-cu ilin yanvarına qədər Kuba Respublikasında qaldı. Zənci əhalisinin üsyanını yatırmaq üçün 1912-ci ilin iyununda ABŞ dəniz piyadası yenidən Kubaya gətirildi.

Amerika diplomatiyası daima Kubanın daxili işlərinə qarışırdı. Ona xüsusi nəzarət edilirdi ki, Kuba başqa ölkələrə öz kapitalını konsessiyaya verməsin, bütün qapılar yalnız ABŞ kapitalı üçün açıq olsun. Beləliklə, Kuba həm maliyyə, həm iqtisadi, həm də siyasi cəhətdən ABŞ-dan asılı idi.

## XIX əsrin sonlarında, XX əsrin əvvəllərində Latın Amerikasında beynəlxalq vəziyyət

hələ 1895-ci ildə ABŞ-ın dövlət katibi Riçard Monro doktrinasına istinad edərək qüvvələr nisbətinin ABŞ-ın xeyrinə dəyişdiyini böyük dövlətlərin, birinci növbədə İngiltərənin nəzərinə çatdıraraq yazmışdı ki, bu gün mövcud qitədə (Amerika qit'əsində) Birləşmiş Ştatlar tam müstəqildir və onun hər bir göstərişi bu dövlətin nüfuz dairəsində olan bütün ölkələrin şəxsləri üçün qanundur.

Amerikanın tükənməz sərvəti, onun ayrıca, təcrid olunmuş ərazidə yerləşməsi onu şəraitin sahibi, bütövlükdə və ayrılıqda hər bir digər dövlət üçün əlçatmaz edir.

Gələcəkdə hadisələrin gedişi Odninin haqlı olduğunu göstərdi.

1902-ci ildə Böyük Britaniya Mərkəzi Amerikada aparıcı rol iddiasından imtina etməli oldu.

XIX əsrin dördüncü rübündə və XX əsrin əvvəllərində dünyada baş verən hadisələr Latın Amerikasından da yan keçməmişdi. O beynəlxalq münasibətlərin

mərkəzi nöqtələrindən biri olmuşdur. Qərb dövlətləri, xüsusi ilə İngiltərə, Almaniya Latın Amerikasını da öz nüfuz dairələrinə salmağa cəhd edir, ABŞ isə hər vasitə ilə onların bu cəhdlərinə mane olurdu.

ABŞ hökuməti bu məqsədinə nail olmaq üçün Monro doktrinasından bir silah kimi istifadə edirdi. Mə'lum olduğu kimi, hələ 1823-cü il dekabrın 2-də ABŞ prezidenti c.Monro tərəfindən irəli sürülmüş bu doktrina Müqəddəs ittifaqın Latın Amerikasına qarşı güclənməkdə olan müdaxiləsinin qarşısını almaq məqsədini güdmüşdür. Monro doktrinasında dünyanın Avropa və Amerikaya bölünməsi və onların bir-birlərinin işlərinə qarışmamaları prinsipi öz əksini tapmışdı. Onun əsas mənasını «Amerika amerikalılar üçündür» ideyası təşkil etmişdi.

ABŞ məhz bu doktrinadan istifadə edərək, Latın Amerikası ölkələrində getdikcə öz tə'sirini gücləndirmişdi.

Teodor Ruzvelt (1902-1909-cu illər) prezident olduğu vaxt Monro doktrinasını ABŞ-ın xarici siyasətinin məhək daşı olduğunu bir daha təsdiq etmişdi.

O hələ prezident seçilməmişdən əvvəl ordunun, xüsusi ilə hərbi-dəniz donanmasının inkişaf etdirilməsinin zəruri olduğunu qeyd etmişdi. O, qubernator olarkən 1899-cu ilin aprelində e'lan etmişdi ki, ordu və donanma qılınc və qalxandır. Əgər millət dünya xalqları arasında öz borcunu yerinə yetirmək istəyirsə, bunları daşımalıdır. O təsdiq edirdi ki, millətin böyüklüyü yalnız mübarizədə özünü büruzə verə bilər. «Biz yalnız mübarizədə, ağır və təhlükəli təcrübədə nəhayət məqsədimizə – həqiqi milli böyüklüyə çata bilərik».

Prezident seçiləndən sonra Ruzvelt bunları gerçəkləşdirməyə başladı. O 1904-cü ilin dekabrında konqresə etdiyi növbəti bəyanatında Monro doktrinasına



etdiyi əlavələri bildirdi. O göstərirdi ki: «ABŞ beynəlxalq polis qüvvəsi kimi bütün Latın Amerikasında qayda-qanuna nəzarət etmək hüququna malik olan yeganə dövlətdir».

Beləliklə, ABŞ Latın Amerikasının jandarma rolunu öz üzərinə götürmüş, XIX əsrin sonlarında Orinoko çayında gəmiçilik hüququ almış, ABŞ inhisarları tərəfindən bu çayın dənizə töküldüyü sahədəki iri torpaq sahələrinin, qızıl mədənlərinin istismar edilməsinin gücləndirilməsinə, ingilis-amerikan rəqabətinin daha da kəskinləşməsinə səbəb olmuşdur. Bu, Venesuela və Britaniya Qvianası sərhəddindəki mübahisəli ərazilər uğrunda İngiltərə–Venesuela arasında meydana gəlmiş ixtilaflar zamanı özünü daha aydın göstərdi və iki ölkə arasında diplomatik əlaqələrin kəsilməsinə səbəb oldu.

Sərhəd mübahisələrinə qarışan ABŞ hökumətinin dövlət katibi 1895-ci ildə bildirdi ki, İngiltərə tərəfindən Venesuela ərazisinin hər hansı hissəsinin işğal edilməsi Monro doktrinasının pozulması deməkdir və mübahisəli məsələ üzrə beynəlxalq arbitrajın keçirilməsini tələb etdi. Vaşinqtonun təzyiqi altında Böyük Britaniya güzəştə getməli oldu və 1897-ci ilin fevralında Xoakina Kresko (1892-1898) hökuməti ilə tretey araşdırılmasının şərtləri haqqında saziş imzaladı. O 1899-cu ildə mübahisəli rayonun böyük bir hissəsinin Britaniya Qvianasına birləşdirilməsi haqqında qərar qəbul edilməsi ilə qurtardı.

Venesuelada neft yataqları aşkara çıxarılandan sonra 70-ci illərdə xarici kapitalın bu ölkəyə axını daha da gücləndi. O Avropa dövlətləri və Şimali Amerikanın kompaniyaları ilə sazişlər bağlayır, onlara xeyirli şərtlərlə konsessiya verirdi. Daha çox ingilis kapitalı konsessiyalar alırdı. Belə ki, 1880-ci ildə bu 1,1 mln. funt sterlinq təşkil etmişdi.

1901-ci ilin əvvəllərində ABŞ-ın sür'ətlə öz əlinə keçirdiyi Karib hövzəsində Avropa dövlətlərinin iştirakı ilə beynəlxalq ixtilaf meydana çıxdı. Almaniya, İngiltərə və İtaliya Venesuelaya maddi iddialar irəli sürdülər. Burada söhbət ölkədə baş vermiş daxili çaxnaşma zamanı bu ölkələrin vətəndaşlarına dəymiş ziyanın ödənilməsindən, Venesuela hərbi gəmiləri tərəfindən ticarət gəmilərinin dayandırılması üçün konsensassiya haqqında, vaxtı keçmiş borcların ödənilməsindən gedirdi. Almaniya hökuməti hətta güc tətbiq etmək, Venesuelanın sahillərini mühasirəyə almaq, hətta bir neçə limanı işğal etmək kimi tədbirlərə əl atmağı qərara almışdı. 1902-ci ildə o, bunları həyata keçirməyi İngiltərə hökumətinə təklif etmişdi. London bir sıra düzəlişlərlə buna razı oldu. O limanların işğal edilməsi əvəzində, bura çoxlu miqdarda ordu cəlb edilməsini, keşikçi sahil gəmilərini tutmağı irəli sürdü. 1902-ci il dekabrın 7-də iki dövlət birlikdə onların iddialarının ödənilməsi haqqında Venesuela hökumətinə ultimatum verdilər. cavab gözləmədən onlar Venesuela donanmasının bir hissəsini ələ keçirdilər, bir hissəsini batırdılar, sahilləri atəşə tutdular. Dekabrın 20-də Almaniya və İngiltərə Venesuelanın sahillərini mühasirəyə aldılar. İtaliya da onlara qoşuldu.

Venesuelaya qarşı ekspansiya siyasətini genişləndirən Böyük Britaniya, Almaniya və İtaliya 1902-1903-cü illərdə onun limanlarını blokadaya alırlar. Buna bəhanə o olur ki, guya 1899-1902-ci illərdə Venesuelada vətəndaş müharibəsinin gedişində onlar hədsiz zərər çəkmişlər və Venesuela bunu ödəməlidir. 1902-ci ilin dekabrında Almaniya və Böyük Britaniya dərhal borcları ödəmək haqqında Venesuelaya ultimatum verdilər. İtaliya isə 3 Venesuela gəmisini batırdı və desant çıxardı. Karib dənizi hövzəsində



ağalığa nail olmaq üçün ABŞ Venesuelanın blokadasının götürülməsinə nail oldu. Bunun əvəzində Venesueladan tələb etdi ki, Avropa dövlətlərinin borclarını ödəsin. ABŞ-ın diplomatik təzyiqi nəticəsində 1903-cü ilin fevralında Avropa dövlətləri - Böyük Britaniya, Almaniya, İtaliya ilə Venesuela arasında saziş imzalandı. Həmin sazişə əsasən Puerto-Kabelo və La-Quara limanlarında kömrükdən gələn gəlirin 30 faizindən həmin dövlətlər istifadə etməli idilər.

Beləliklə, 1902-ci ildə ikinci Venesuela böhranı zamanı Venesuela ilə Almaniya, İngiltərə, İtaliya arasında ixtilaflar başlayanda, Avropa dövlətlərinin Venesuelaya ultimatum verdiyi zaman ABŞ arbitr missiyasını öz üzərinə götürdü.

İngilis və alman hökumətləri bu barədə əvvəlcədən ABŞ hökumətinə mə'lumat vermişdilər. T.Ruzvelt və onun hökuməti buna e'tiraz etməmişdi.

Lakin Avropanın böyük dövlətlərinin Karib dənizində güc nümayiş etdirmələri amerikan hökuməti və şəxsən prezident üçün xoşagəlməz idi. ABŞ-da üç dövlətin bu hərəkətlərinə qarşı narazılıq başlandı. Bu narazılıq daha çox Almaniyaya qarşı idi. Argentinanın çıxışı ilə vəziyyət daha da mürəkkəbləşdi. Xarici İşlər Naziri Draqo 1902-ci il dekabrın 29-da Venesuelaya qarşı Avropa dövlətlərinin hərəkətləri barədə ABŞ hökumətinə nota verdi. Həmin notada Avropa dövlətlərinin hərəkətləri pislənirdi. Argentina beynəlxalq siyasətdə güc tətbiq etməyin yolverilməz olduğunu göstərirdi.

Həmin notada dövlət istiqrazları nəticəsində yaranmış borcun ödənilməsi üçün müdaxilədən bir vasitə kimi istifadə edilməsinin beynəlxalq praktikadan çıxarılması təklifi irəli sürülürdü. Tarixə Draqo doktrinası kimi daxil olmuş bu təklifi Latın Amerikası dövlətləri müdafiə etdilər. Lakin ABŞ-ın onu qəbul etməsinə bax-

mayaraq, ona əsaslı dəyişikliklər etdi. Ona əlavə edildi ki, borclu dövlət arbitraj qərarına tabe olmayanda, silahlı müdaxilə həyata keçirilə bilər.

T.Ruzvelitin Latın Amerikası ölkələri ilə siyasəti bütövlükdə "Draqo doktrinası" ilə ziddiyyət təşkil edirdi. Bu Latın Amerikasında ABŞ-ın nüfuzunu sala bilərdi.

Yaranmış vəziyyətdən çıxmaq üçün T.Ruzvelt Venesuelaya məsləhət bildi ki, məsələni münsiflər məhkəməsinə versin. Əgər o, bu vəzifəni öz öhdəsinə götürmək istəməsə, onda yenicə yaradılmış Haaqa məhkəməsinə müraciət etsin.

Vaşinqtonda Almaniya, İngiltərə səfirləri ilə Venesuela səfiri arasında danışıqlar başlandı. Almaniya nümayəndəsi daha barışmaz mövqe tuturdu.

Danışıqlar getdiyi dövrdə alman gəmiləri Venesuela sahillərini atəşə tutdu. İngilis eskadrası ona qoşulmadı. Bu ingilis-alman münasibətlərinin kəskinləşməsinə səbəb oldu. İngilis səfiri Vaşinqtonda alman səfirindən gizlin dövlət departamenti ilə əlaqəyə girdi. Almaniyanın Vaşinqton danışıqlarında Venesuelaya qarşı münasibətlərdə barışmaz mövqe tutması Ruzveltin e'tirazına səbəb oldu. İngilislər razılaşma əsasında 1903-cü il yanvarın 31-də Almaniya hökumətinə müraciət etdi. O Venesuela ilə ixtilafın tezliklə nizama salınmasına tə'kid edirdi. Mayın 7-də Venesuela və üç dövlət arasında onların iddialarının ödənilməsi haqqında müqavilə imzalandı. Venesuela sahillərinin mühasirəsi götürüldü.

Bütün bu hadisələrdən istifadə edərək, T.Ruzvelt «Monra doktrinası»na yeni məzmun verdi. Latın Amerikası ölkələrində gedən hadisələrə ABŞ-ın qarışması yeni şəraitdə Monro doktrinasının əsas istiqamətini təşkil etməli idi.



ABŞ Dominikan Respublikasının maliyyə vəziyyətindən istifadə edərək, onu öz əsarəti altına almağa girişdi. O fransız, belçika, alman kapitalistlərinə borclu idi. Lakin onun ən çox borclu olduğu Nyu-Yorkun «San-Dominqonun inkişafı üzrə kompaniya»sı idi. 1903-1904-cü illərdə Dominikan Respublikası bir sıra limanlarda kömrüyün bu kompaniyaya verilməsinə nail oldu. Bu ayrı-seçkilik Dominikan Respublikasının borclu olduğu digər dövlətlərin e'tirazlarına səbəb oldu. Avropa dövlətləri yenə Karib dənizi hövzəsində fəallaşdılar.

Dövlət departamentinin göstərişi ilə Amerikanın Dominikan Respublikasındakı diplomatik nümayəndəsi prezident Moralesə məsləhət bildi ki, o kömrüklərə və qarşılıqlı kömrük rüsumlarına rəhbərliyi öz üzərinə götürməsi barədə təkliflərlə ABŞ hökumətinə müraciət etsin. Buradan gələn gəlir hesabına bütün borc verənlərin iddialarını ödəsin. 1905-ci il yanvarın 20-də Dominikan Respublikasının paytaxtı San-Dominqoda ABŞ hökuməti ilə saziş imzalandı. ABŞ Dominikan Respublikasının ərazi bütövlüyünə tə'minat verir, onun daxili və xarici borclarının tənzimlənməsini, habelə kömrüklər və kömrük gəlirlərini öz üzərinə götürürdü. Gələn gəlirin 45 faizi Dominikan Respublikasının büdcəsinə keçməli, qalanı isə borclara verilməli idi. Ruzvelt bu sazişi sınaqdan keçirməklə yanaşı, həm də onu icra hökumətinin sərəncamı ilə təsdiq etmək istəyirdi. Lakin bu konqress tərəfindən güclü e'tirazlarla qarşılandı. ABŞ-ın Dominikan Respublikasının ərazi bütövlüyünə tə'minat verməsi barədə götürdüyü öhdəlik «Onun bütövlüyünə hörmət etmək» ilə əvəz edildi. Sazişin təsdiq edilməsinin uzadılması ilə əlaqədar olaraq ABŞ Dominikan Respublikasına dəniz piyadası göndərdi. Amerika zabiti kömrük idarəsinin başçısı tə'yin olundu.

1907-ci ildə senat müqaviləni təsdiq etdi. Elə bu vaxt Nyu-York birjasında Dominikan Respublikasının borcunun konversiyası dəyişdirilmişdi. «Kun, Leb iK°» bankir evi yeni istiqraz buraxmışdı. Bütün bunlar Dominikan Respublikasının maliyyə vəziyyətini daha da dolaşdırdı. O, Kubada və Panamada olduğu kimi, ABŞ-ın iqtisadi və maliyyə toruna düşdü.

Kubanın, Panamanın, Dominikan Respublikasının ardınca Mərkəzi Amerikanın digər dövlətləri də ABŞ-ın nüfuz dairəsi altına keçdilər. Mak-Kinlinin və T.Ruzveltin prezidentlikləri dövründə Mərkəzi Amerika və Karib dənizi ABŞ-ın nüfuz dairəsi altında idilər.

***

XIX əsrin ikinci yarısı Kuba və Filippin adalarında İspaniya ağalığına qarşı arası kəsilməz üsyanlar səhnəsi meydanı olmuşdu. Filippin və Kuba xalqları öz ölkələrinin müstəqilliyinə nail olmaq uğrunda mübarizə aparırdılar. Bütün bunlardan ABŞ bacarıqla istifadə etdi. 1898-ci ilin aprelində O İspaniyaya müharibə e'lan etdi. İspan-ABŞ müharibəsi başladı. 1898-ci ilin dekabrında, ABŞ və İspaniya arasında bağlanmış Paris sülh müqaviləsi nəticəsində ABŞ-ın protektoratlığı altında Kuba Respublikası e'lan edildi. İspaniya Porto-Riko, Quam, Filippin adalarını da ABŞ-a verməyə məcbur oldu.

Hələ 1893-cü ildə ABŞ Havay adalarını da işğal etmişdi.

Müxtəlif vasitələrdən və üsullardan istifadə edərək, ABŞ Panama kanalının çəkilməsini də öz əlinə aldı və onu çəkdi. ABŞ özünün işğalçılıq siyasətində «Açıq qapılar» siyasətini irəli sürmüşdü.

Mərkəzi Amerikada, Sakit okeanda, Uzaq Şərqdə gedən bu münasibətlərdə qərb dövlətləri öz maraqları



və mənafeləri çərçivəsində müxtəlif formada və səviyyədə iştirak edirdilər.

İspaniya 1899-cu ildə Sakit okeanda özünün sonuncu müstəmləkəsini Karolina, Mariana və Marşal adalarını Almaniyaya satdı.

Avropanın böyük dövlətlərinin güzəştə getmələri nəticəsində Mərkəzi və cənubi Amerikada üstünlük ABŞ-ın əlinə keçdi. Beləliklə, bu qitədə dünyanın bölüşdürülməsi başa çatmış oldu.

ABŞ Latın Amerikası ölkələrini həmişə öz tə'siri altında saxlamağa böyük diqqət verir və bu məqsədlə müxtəlif vasitələrdən istifadə edirdi. Belə ki, ABŞ-ın təşəbbüsü ilə 1889-cu ildə Vaşinqtonda birinci Panamerika Konfransı çağrıldı. Həmin konfransda Amerika respublikalarının beynəlxalq ittifaqı yaradıldı. 1910-cu ildə dördüncü Buenos-Ayres panamerika konqresində onun adı dəyişdirildi. Panamerikan ittifaqı adlandı.

Birinci dünya müharibəsində Latın Amerikası dövlətləri ya bitərəf qalmış, ya da döyüşən tərəflərdən birinə qoşulub müharibədə iştirak etmişlər. Məs.: Argentina, Venesuela bitərəf qalmış, Braziliya Antanta tərəfində müharibədə iştirak etmişdir.

Birinci Dünya müharibəsinin ilk illərində İngiltərənin və ABŞ-ın Latın Amerikası ölkələrinə etdikləri pisliklərə görə həmin ölkələrdə Almaniyaya hüsnü-rəğbət güclü olmuşdu. Çilidə, Argentinada, Braziliyada yaşayan almanların apardıqları təbliğat da bu işdə öz rolunu oynamışdı. Lakin sonralar Almaniyanın genişləndirdiyi amansız sualtı müharibə, bu müharibənin Latın Amerikası ölkələrinin ticarət əlaqələrinə vurduğu zərbə, habelə onların ABŞ ilə iqtisadi əlaqələrinin möhkəmlənməsi əhval-ruhiyyəsinin dəyişməsi ilə nəticələnmişdi. Buna görə də 1917-ci il

aprelin 6-da ABŞ Almaniyaya müharibə e'lan edəndə, Latın Amerikası ölkələrinin çoxu onun kimi hərəkət etdi. Peru, Uruqvay, Ekvador, Donimikan Respublikası Almaniya ilə diplomatik əlaqəni kəsdilər. Kuba və Braziliya müttəfiqlərin tərəfində çıxış etdilər. Qalan ölkələr bitərəf qaldılar.

Braziliya da bitərəf qala bilərdi, əgər onun böyük «Parana» gəmisini və bir neçə başqa gəmilərini almanlar batırmasaydılar.

Müharibə dövründə qərb yarımkürəsinin təhlükəsizliyini qorumaq adı altında ABŞ 1914-1915-ci illərdə Haitiyə hərbi müdaxilə etdi. Müxtəlif bəhanələrlə Dominikan Respublikasına və digər Latın Amerikası ölkələrinə ABŞ hərbi müdaxilələr təşkil etmişdi.

Dollar «diplomatiyası», monro doktrinası və «açıq qapılar» siyasəti ABŞ-ı Mərkəzi və cənubi Amerikanın hakiminə çevirmişdi.



# VI FƏSİL

# AFRİKANIN BÖLÜŞDÜRÜLMƏSİNİN BAŞA ÇATDIRILMASI VƏ CƏNUBİ ASİYA UĞRUNDA MÜBARİZƏ DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

## Faşod münaqişəsi

Amerika-İspaniya müharibəsi qurtaran kimi Fransa və İngiltərə Nilin yuxarı hissəsinə sahiblənmək üçün həlledici döyüşə başladılar. Burada söhbət Sudanda ağalığa nail olmaqdan, ingilislər tərəfindən Qahirədən Kapştadta qədər dəmir yolu çəkilən ərazini işğal etməkdən, İngiltərənin Misir üzərində ağalığını möhkəmləndirməkdən, Süveyiş kanalından gedirdi.

Mərkəzi Afrikanın cəngəlliklərini, bataqlıqlarını keçərək iki illik ağır, çətin yürüşdən sonra fransız kapitanı Marşanın ekspedisiyası Nilə çatdı. 1898-ci il iyulun 10-da çayın sağ sahilində Faşod adlı yeri tutdu. Burada köhnə Misir qalasının xarabalıqları üzərində fransız bayrağı qaldırıldı. O həm Həbəşistan, həm də Konqo yolu ilə bu xəbəri Fransaya çatdırmaq üçün iki kuryer göndərdi. Yerli tayfaların başçıları ilə o protektoratlıq haqqında müqavilə imzaladı.

Bu zaman Nilin şimalından ingilis generalı Kitçenerin ingilis və Misir hissələrindən ibarət ekspedisiya korpusu Misir ordusu zabiti paltarında onlara doğru hərəkət edirdi. 1898-ci il sentyabrın 2-də Kitçener Omdurman yanında Nilin qərb sahilində ərəbləri məğlub etdi. Sudanın paytaxtı Xartum şəhəri işğal edildi. Sudan dövlətinin başçısı xəlif Abdallah qaçdı. Onun ordusu dağıldı.

Omdurman döyüşündən dörd gün sonra Kitçener fransızların Faşoda gəlməsindən xəbər tutdu. Dərhal

ora ingilis donanmasını göndərdi. Faşoda yaxınlaşanda sentyabrın 18-də Kitçener Marşana məktub göndərdi. O, dərvişlər üzərində qələbə çaldığını bildirir və yaxınlarda Faşoda gələcəyini xəbər verirdi. Onun donanması sentyabrın 19-da ora gəldi. Marşan Kitçenerin görüşünə gələrək ingilis komandanına bildirdi ki, onun hökuməti ona Baxr-el-Qazal vilayətini və şillukların ölkəsini – Ağ Nilin sol sahillərini Faşoda qədər işğal etmək tapşırığı vermişdi.

Kitçener e'tiraz edərək bildirdi ki, fransız ordusunun burada olması Misir və İngiltərə hökumətlərinin hüquqlarına müdaxilə etmək deməkdi.

Marşan javabında bildirir ki, onun hökumətinin əmri olmadan onun dəstəsi Faşodu tərk etməyəjək.

Kitçener şillukların başçısını Marşanla müqavilədən imtina etməyə məjbur etdi. Qorxuya düşmüş başçı bildirdi ki, o fransız dəstəsini ingilis dəstəsi hesab etdiyinə görə onunla müqavilə bağlamışdı.

Sabahısı gün Kitçener jənuba doğru Ağ Nil vasitəsi ilə Sobat çayının ona tökülən yerinə qədər hərəkət etdi. Çayın sahilində post yaratdı və orada bir batalyon və bir gəmi qoyaraq geri qayıtdı. Geri qayıdarkən Faşodun yanından keçəndə, yenə Marşana xəbər göndərdi ki, ölkə İngiltərənin idarəsi altındadı.

Oktyabrın 9-da Faşoda ingilis gəmisi gəldi və Marşanın zabitlərindən birini Qahirəyə apardı. O buradan Fransa hökuməti ilə danışmalı, vəziyyəti bildirməli idi. Sudanda hadisələr belə cərəyan edirdi, diplomatların rolunu hərbçilər icra edirdilər.

Vəziyyət heç də bərabər deyildi. İngilislərin Sudanda 20 minlik yaxşı silahlanmış və Misirdə təchizat vasitələri ilə tə'min olunmuş bazaları olduğu halda, fransızların 100-ə qədər dəstəsi, bir çay gəmisi, bir neçə barjı var idi.



Nilin yuxarıları uğrunda Fransa ilə toqquşma baş verdiyi dövrdə İngiltərə müvəqqəti olsa da, Almaniya ilə münasibətlərini yaxşılaşdırmış, ABŞ ilə də münasibətlərini normaya sala bilmişdi. Dənizdə isə o Fransadan qat-qat güclü idi. 1898-ci ildə onun gücü birlikdə götürüldükdə Fransa, Rusiya və Almaniyadan çox idi.

Nilin yuxarınlarına sahiblənmək Misir üzərində, Süveyiş kanalı üzərində Hindistana, Şərqi Afrikaya, Avstraliyaya, Uzaq Şərqə gedən yollar üzərində İngiltərənin ağalığını möhkəmləndirərdi.

Buna görə də həm mühafizəkarlar, həm də liberallar bütün Nil hövzəsinə sahiblənməyin tərəfdarı idilər.

İngiltərədən fərqli olaraq, Fransada vəziyyət başqa idi. Onun diqqəti müstəmləkələr və Elzas-Lotaringiya arasında bölünmüşdü. Parisi kütləvi nümayişlər bürümüşdü. Daxili böhran hökumətin əl-qolunu açmağa imkan vermirdi. Onu da yaddan çıxarmaq olmazdı ki, fransızların ingilis bazarlarına böyük ehtiyacı var idi. Fransanın sənaye və kənd təsərrüfatı məhsullarının 25% İngiltərə bazarlarına ixrac edilirdi. Sudan məsələsində də hökumətdə birlik yox idi.

Belə şəraitdə Fransa hökuməti Marşanı Faşoda göndərməkdə nəyə ümid bəsləyirdi?

1896-cı ilin iyulunda, yəni Marşan yola salınanda Fransanın Xarici İşlər Naziri Anato idi. O, Marşanı göndərməklə, ondan İngiltərəyə tə'sir göstərmək üçün bir vasitə kimi istifadə etmək məqsədini güdürdü.

Anatoya görə, şərait Fransa üçün əlverişli idi. O hesab edirdi ki, Yunanıstanla sülh müqaviləsi imzaladıqdan sonra Türkiyə sultanı Misir məsələsinə qarışacaq. Çində rəqabət rus-ingilis münasibətlərini kəskinləşdirmişdi. Sudanın paytaxtının (Xortumun) işğal edilməsi başqa dövlətlərin də qarışmasına səbəb olacaq. Bütün Misir məsələsinin əsas mövzu olacağı

danışıqlarda Misir məsələsində maraqları olan bütün dövlətlər iştirak edəcək. Anato bütün bu danışıqlardan ən ciddi nəticələr gözləyirdi.

Əlbəttə, Anato, fərziyyələrə əsaslanırdı. Sultan heç bir ciddi tədbir görmədi. Doğrudur, Həbəşistan padşahı Nilə ekspedisiya göndərdi. 1898-ci ilin iyununda o Sobat çayının töküldüyü yerin yaxınlığına çatdı. Bura Faşoda lap yaxın idi. Lakin xəstəlik və yeməyin çatışmaması üzündən o geri qayıtdı. Beləliklə, Marşan Həbəşistandan da heç bir kömək almadı. Rus-ingilis münasibətləri kəskinləşdi. Anato təkcə bunda səhv etməmişdi. Rusiya hökuməti Fransanın Misirdə hər bir təşəbbüsünə kömək etməyə hazır idi.

Beləliklə, Anato şəraiti düzgün qiymətləndirə bilməmişdi. 1898-ci ilin iyununda Fransada dövlət dəyişikliyi baş verdi. Yeni hökumətə radikal Brisson başçılıq etdi. Xarici İşlər Naziri Teofil Delkasse oldu. Delkasse bu vəzifədə 1906-cı ilə qədər qaldı.

Delkasse Almaniyanı Fransanın başlıca düşməni hesab edirdi. Buna görə də İngiltərə ilə ixtilafa girməyin tərəfdarı deyildi.

Bununla yanaşı, Delkasse də Marşan ekspedisiyasının köməyi ilə İngiltərədən nə isə bir şey qoparmaq istəyirdi.

Brissonun kabineti öz vəzifəsinin icrasına başlayandan bir neçə gün sonra Marşanın yanvarın 1-də yola saldığı mə'lumat daxil oldu. O, Sus çayı üzrə post yaratdığını və Nil ilə hərəkət etməyə hazırlaşdığını xəbər verirdi. O Faşodda mayın 15-20-də olacağını güman edirdi. Lakin öz hesablamalarında iki ay səhv etmişdi. Onun Parisdə mə'lumatı alınanda o artıq Faşodda idi. Fransa hökumətinin isə bundan xəbəri yox idi.

Müstəmləkə naziri hesab edirdi ki, Marşan Faşodu tutmaqla kifayətlənməli və irəli getməməlidi. Çünki onun



qüvvəsi azdı. O hesab edirdi ki, Marşan gec-tez Kitçenerin ordusu ilə rastlaşacaq. Buna görə də o Fransanın öz mövqeyini müəyyən etməyi təklif edirdi. O, Türkiyə Sultanından Sudan üzərində nominal syuzerenlik (formal protektoratlıq) almağın zəruri olduğunu göstərirdi. Sultanın bu addımı fransız ordusunun Nilin yuxarılarında olmasını qanuniləşdirərdi.

Bu təklifləri alandan sonra Delkasse lazımi materiallar hazırlamağı öz aparatına tapşırdı. Həmin material 1898-ci il iyunun 18-də nazirə təqdim edildi. Materialda göstərilirdi ki, beynəlxalq hüquq baxımından bizim qarışmağımız mübahisəlidi. Lakin Yuxarı Ubanqada fransız müstəmləkəsinin genişləndirilməsi Süveyiş kanalının və Qırmızı dənizin bitərəfləşdirilməsi, Yuxarı Nildə Fransanın ciddi bir beh almasını zəruri edirdi. Buna nail olmaq üçün Fransa Konqo dövlətinin sərhəddindən cənuba, Faşod və Baxr-el-Qazel vilayətini, habelə Şari çayı hövzəsi də daxil olmaqla, Yuxarı Nilin sol sahili boyu ərazini - 10-cu paraleldən şimala olan hissəni tutmalıdı. Fransa Sudanın İngiltərənin olmasını hesab etməyə hazır idi. Bunun əvəzində o Misirin və Sudanın evakuasiyasına və Suveyiş kanalının bitərəfləşdirilməsinə nail olmağa ümid bəsləyirdi. Buna görə də Marşan Yuxarı Nildə möhkəmlənməli idi. Buna nail olmaq üçün dəstənin miqdarı 150 nəfərə qaldırılmalıdır.

Müstəmləkə Nazirliyi Delkassedən cavab gözləyirdi. Lakin oləngidirdi.

Kitçener isə Xartuma yaxınlaşırdı. Sentyabrın 1-də Delkasse Peturburqa sorğu göndərdi. O, Fransanın səfiri qraf Montebelloya tapşırdı ki, mövcud vəziyyətdə Çar hökumətinin nöqteyi-nəzərini öyrənsin.

Delkasse hələ cavab gözləyirdi. Müstəmləkə Nazirliyi onu cavab verməyə tələsdirirdi. Daha ləngitmək olmazdı. Sentyabrın 7-də o rəsmi cavab verdi.

Delkasse göstərirdi ki, son vaxtlarda beynəlxalq şərait Fransanın zərərinə dəyişmişdi. Almaniya Misirin syuzereni (sahibi) olan Türkiyə ilə yaxınlaşmışdı, Marşan ingilis-misir qoşunları ilə qarşılaşmalı idi. Alınan mə'lumatlar göstərirdi ki, Marşan Həbəşistandan da heç bir kömək almağa ümid bəsləyə bilməzdi. Bundan belə nəticə çıxırdı ki, Marşana yerində dayanmaq, əlaqə vasitələri yaratmaqla məşğul olmaq göstərişi verilməli idi.

Nazirlər Soveti Delkasseni müdafiə etdi. 1898-ci il sentyabrın 9-da müstəmləkə naziri Fransanın Konqodakı general-konsulu Libervilə teleqram göndərərək, Delkassenin təklifi ruhunda təlimatı Marşana çatdırmağı tapşırdı.

Təlimat Marşana çatmadı. Bir neçə gündən sonra Fransa dəstəsinin komandiri ilə Sərdarın görüşü oldu.

Sentyabrın 7-də Delkasse ingilis səfiri Monsonu qəbul etdi. Fransız naziri hər vasitə ilə şəraiti yumşaltmağa cəhd edirdi. Delkasse dedi ki, Marşan Nilə fransız müstəmləkələrini dərvişlərdən qorumaq üçün daxil olub. İndi onun harada olduğunu o bilmir. Nə Marşan, nə də Kitçener siyasi nəticələr çıxarmamalıdırlar. Bu iki dövlətin işidir. Delkasse hərbi ixtilafın olmamasını arzu edir və ümid bəsləyirdi ki, İngiltərə hökuməti Kitçenerə də belə göstəriş verəcək. Fransa hökumətinin fikrincə, bütün fikir ayrılıqları iki ölkə tərəfindən dostluq şəraitində həll ediləcək.

Bu birinci söhbət çox şeydən xəbər verir. O, göstərir ki, Delkasse müdafiə mövqeyindən çıxış edir. O, hər vasitə ilə ixtilafdan qaçmağa çalışırdı.

Monson söz verdi ki, onun Bəyanatını London hökumətinə çatdıracaq. Özünün mə'lumatlarında səfir işin mahiyyətini düzgün tutmuşdu. Fransa şəraiti kəskinləşdirmək istəmirdi.

İngiltərə kabineti də öz üstünlüyünü yaxşı dərk edirdi. Sentyabrın 9-da Solsberi Monsona direktiv



göstəriş verdi: «Əgər Delkasse məsələyə qayıtsa, mən sənə göstəriş verirəm ona aydınlaşdır ki, son həftənin hərbi hadisələri nətijəsində, xəlifəyə, yəni dərvişlərə tabe olmuş ərazilər işğal qanununa uğyun olaraq, Britaniya və Misir hökumətlərinin ixtiyarına keçirilir. Əlahəzrət Britaniya hökuməti hesab edir ki, bu hüquq müzakirə edilə bilməz». Lakin Delkasse indi mövcud olan müxtəlif ərazi mübahisələrini Nil hövzəsindən kənarda olan ərazilər məsələsini müzakirə etməyə razı olduğunu bildirirdi.

1898-ci il sentyabrın 9-da Monson bir qədər dəyişdirilmiş formada Solsberinin teleqramının mətnini Delkasseyə təqdim etdi. Delkasse dərvişlərə məxsus olan ərazidə sərhəddin qeyri-müəyyən olduğunu səfirin nəzər-diqqətinə çatdırmaqla kifayətləndi. Delkasse Rusiyaya verdiyi sorğuya Muravyovun cavabını sentyabrın 13-də aldı. cavab müsbət idi. Rusiya naziri bildirirdi ki, bu işdə və Misirə aid olan məsələlərdə Rusiya imperator hökuməti Fransa ilə birlikdə getməyə və Fransa ilə öz mövqeyini razılaşdırmağa hazırdı.

Rusiya naziri Faşod konfliktinin ən qızğın dövründə 1898-ci il sentyabrın 15-də Parisə gəlmişdi. Həmin gün o fransız kolleqası ilə uzun davam edən söhbət aparmışdı. İlk sözə başlayanda Delkasse Muravyova Fransa–Rusiya ittifaqına tərəfdar olduğunu bildirmişdi. O, bildirmişdi ki, onun siyasəti rus siyasəti ilə əlbir aparılacaq.

Söhbət əvvəlcə Haaqa konfransını çağırmaq haqqında Rusiyanın təklifi ətrafında getmişdi. Sonra Delkasse fransızların Faşodu tutması məsələsinə keçmişdi. O, Muravyovu ingilis-fransız danışıqlarının gedişi ilə tanış etmişdi.

Muravyov gözləyirdi ki, Delkasse Rusiyadan İngiltərə ilə danışıqlarda Fransanı müdafiə etməyi xahiş edəcək. Lakin bu baş vermədi.

Prezident F.For Muravyovla görüşü zamanı Faşod məsələsini heç qaldırmadı, İngiltərənin onun ölkəsinə qarşı düşmənçiliyindən dedi.

Sentyabrın 18-də Delkasse yenidən İngiltərənin Fransadakı səfiri Monsonla görüşdü. Nazir Solsberinin teleqramında şərh olunmuş bəyanatına belə cavab verdi: bunu heç də fransız orduları tərəfindən tutulmuş Faşoda aid etmək olmaz.

Bir sözlə, Delkasse işarə vurdu ki, Fransa güzəştə getməyə hazırdı, Fransa Faşoddan getməyə razıdır. Lakin bunu o ancaq təzyiqlə yox, danışıqlar və sazişlər nəticəsində edə bilər.

Monson cavab verdi ki, Delkassenin arzusunu baş nazirə çatdırmağa hazırdı. Sabahısı günü Monson ingilis hökumətinin cavabını - İngiltərə baş nazirinin teleqramının mətnini Delkasseyə verdi. cavabda deyilirdi ki, əgər Marşan tutmuş olduğu ərazini azad etməsə, İngiltərə Marşanın sağlamlığına və təhlükəsizliyinə tə'minat verməyəcəkdi. Bu sözlərdə hədə hiss olunurdu.

Son vaxtlarda Fransanın Londondakı səfiri de Kursel danışıqları bərpa etdi. Marşan hansı nöqtəyə qədər geri çəkilməlidi? deyə o, ingilis səfirindən soruşdu. Bu haqda danışığa gəlməyin zəruri olduğunu tə'kid etdi. Delkasse ilə razılaşma əsasında de Kursel aşağıdakıları təklif etməli idi: Fransa Faşoddan gedir. Lakin Nilə girişi, yəni Nilin Faşoddan cənuba - Konqonun sərhəddinə qədər hissəsini əlində saxlayır.

Solsberi de Kurselə cavab verdi ki, o Afrikanın coğrafiyası ilə tanış deyil. Buna görə də sərhədlərin müəyyən edilməsini müzakirə edə bilməz. O həm də kabinetlə məsləhətləşməlidi.

Lakin İngiltərə hökuməti güzəştə getmək fikrində deyildi. Oktyabrın 20-də xəzinədarın sədri Xiks-Biç açıq nitqində bildirdi ki, Böyük Britaniya güzəştə getməməyi



qərara aldı. Müharibə təhlükəsi hiss edilməkdə idi. O, davam edərək göstərmişdi ki, elə olur ki, müharibədən pis olur. Biz öz borcumuzu yerinə yetirəcəyik.

Fransanın Londondakı hərbi-dəniz attaşesi oktyabrın 18-də dəniz qərargahının rəisinə xəbər verdi ki, İngiltərə mütləq müharibəyə başlamaq istəyir. Dənizdə o bizdən demək olar iki dəfə güclüdür.

1898-ci il oktyabrın 23-də Delkasse tam aydınlığı ilə Monsona bildirmişdi ki, Fransanın Nilə daxil olmasına razılıq verilərsə, Fransa hökuməti dərhal Marşana yazar ki, o Faşodu təmizləsin.

Britaniya kabineti bu məsələyə 1898-ci il oktyabrın 27-də öz yığıncağında baxdı. Elə həmin gün İngiltərənin baş naziri ilə Fransanın Londondakı səfiri görüşdülər. Solsberi köhnə mövqeyini təkrar etdi. "Marşana geri çəkilmək barədə teleqram göndərildiyinə inanmayınca, gələcək danışıqlar barədə heç nə deyə bilməz. O, Faşodun tərk edilməsi əvəzində razılığa gəlmək üçün alver edə bilməz və ya nə isə təklif edə bilməz."

De Kursel cavab verdi ki, bunu heç kim demir ki, Fransa öz xoşuna Faşodu tərk edəcək. Lakin bunu etməzdən əvvəl o, İngiltərə hökumətinin ərazi bölgüsü barədə nə fikirdə olduğunu bilməlidi.

Belə cavab verməklə de Kursel ən incə diplomatik gediş göstərdi.

Həm də Kursel öz cavabında göstərdi ki, Faşodu o pulsuz vermək fikrində deyildi. O, Solsberidən gizli öhdəlik qoparmaq fikrində idi. Digər tərəfdən Kurselin təklifi Fransaya imkan verirdi ki, Faşodu "könüllü" tərk etsin və bununla öz "nüfuzunu"da saxlasın.

Onlar yenə xeyli mübahisə etdilər. Söhbət onunla qurtardı ki, Solsberi böhrandan çıxmağa imkan verə biləcək forma axtaracağını vəd etdi.

Baş nazir çox fikirləşmədi elə həmin günü cavab verdi. Həmin gizli məktubda deyilirdi ki, Faşod tərk olunmadan danışıqlardan imtina edilir.

Bununla yanaşı, həmin məktubda xəbər verilirdi ki, əgər Marşan Faşodu azad etmək haqqında əmr alardısa, onda sərhəd ayırmaq məsələsi haqqında mübahisələrə ehtiyac qalmayacaq. Fransa hökuməti "bu yerlərdə" sərhəd haqqında İngiltərə ilə danışıqlara başlamaq imkanı qazanacaq. Solsberi göstərirdi ki, bu danışıqlar həm də uzun çəkəcək, çünki tarixi və coğrafi mə'lumatlar toplamaq lazım gələcək, guya onlar indi yoxdur. Belə mə'lumat daxil olmadan, müəyyən nəticəyə gəlmək, İngiltərə hökumətinin öz üzərinə müəyyən öhdəliklər götürmək vəziyyətində deyil.

Solsberinin məktubunda bəzi güzəştlər edilirdi. Lakin bunlar çox az idi. Solsberi özünün xatırlatma məktubunda Fransanın Nilə buraxılması barədə heç bir vəd vermirdi.

Bu zaman Brisson kabineti hakimiyyətdən getdi. Sentyabrın 1-də onu Dyupyui hökuməti əvəz etdi. Yeni hökumət dərhal çoxdan nəzərdə tutulmuş qərar qəbul etdi: fransız dəstəsini geri çağırmaq. Noyabrın 3-də, öz vəzifəsində qalan Delkasse diplomatik kanal vasitəsi ilə Qahirəyə Marşana əmr göndərdi. Ona bildirilirdi ki, o Faşodu tərk etsin və özünün bütün adamları ilə Fransaya qayıtsın. Səbəb dəstənin sanitariya vəziyyətinin pis olması ilə izah edilirdi. Noyabrın 4-də Kursel bu haqda İngiltərə hökumətinə bildirdi. Lakin Solsberi Fransa səfirinə bildirdi ki, "Hər iki ölkədə müəyyən fikir formalaşmadığından" sərhədlər haqda danışıqlara başlamaq hələ mümkün deyil.

Noyabrın 5-də Solsberi Sitidə çıxış etdi. O, çıxışında Sudandakı qələbəni, Kitçeneri təriflədi, Marşanın geri çağırılmasını xəbər verdi. Həm də göstərdi ki, Fransa və İngiltərə arasında mübahisəli



məsələlər qalmaqdadı. Onları həll etmək üçün uzun danışıqlar, diskussiyalar aparmaq lazım gələcək. Beləliklə, Solsberi danışıqlara başlamağa hazır olduğunu bəyan etdi.

Noyabrın 5-də Londonda lord Merinin banketindəki çıxışında Solsberi yenidən bildirdi ki, ingilislər Faşodda fransızlarla qarşılaşanda müharibə imkanı yarandı. Lakin onun qarşısını almaq mümkün oldu. "Sağlam fikir qalib gəldi". Lakin dünyada mövcud olan ümumi vəziyyət, onun hərbi hazırlıq sahəsində gördüyü tədbirləri ləğv etməyə imkan vermir.

Doğrudan da, ingilis hərbi donanması tam hərbi hazırlıq vəziyyətində saxlanmışdı. Bu təkcə burlara qarşı müharibəyə hazırlıqla yox, həm də Fransa ilə qarşıdakı danışıqlarla bağlı idi. Noyabrın 15-də Çemberlen Mançestrdəki çıxışında Fransadan təkcə Nil hövzəsi ilə əlaqədar məsələlərdə yox, bütün mübahisəli məsələlərdə güzəştə getməyi tələb etdi.

Parisdəki ingilis səfiri Monson açıq aşkar bildirmişdi ki, Fransa hökuməti guya İngiltərə ilə münasibətlərində "sancaqvari" siyasət yeridir.

İngiltərə-Fransa münasibətləri gərgin olaraq qalmaqda idi. Fransanın Londondakı səfiri de Kursel hesab edirdi ki, İngiltərə ilə müharibədən o vaxt yan keçmək olar ki, Fransa müharibəyə tam hazır olduğunu nümayiş etdirsin. Səfirin mə'lumatının üzərində Delkasse yazmışdı: "Bununla nəyə nail olmaq olar. Söhbət birinci dəniz dövlətindən gedir".

1898-ci ilin dekabrında Fransanın yeni səfiri Pol Kambon Londona gəldi. Onu xoş üzlə qarşıladılar. Lakin İngiltərə naziri danışıqlar üçün cüzi meyli olduğunu belə bildirmədi. O gözləyirdi ki, Fransa Baxr-el-Qazel vilayətindən, yəni Nilə çıxmaqdan imtina etsin. Fransanın İngiltərəyə qarşı ciddi mübarizə aparmaq üçün gücü yox idi.

Fransa həm də bilirdi ki, İngiltərə onun əsas düşməni olan Almaniyanı da dalınca çəkə bilərdi. Delkasse Almaniya ilə danışığa girməyi vacib saydı. Fransa-Almaniya münasibətlərində o qədər də aydınlıq yox idi. Lakin Delkasse Berlinə rəsmi surətdə sorğu verməyə cürət etmədi. O, qeyri-rəsmi vasitəçidən istifadə etdi. «Kolnişe Saytunq» qəzetinin Londondakı müxbiri vasitəsi ilə Fransa-alman yaxınlaşmasını arzu etdiyi barədə dekabrın əvvəllərində Almaniya hökumətinə xəbər verdi. cavab həmin qəzetin 1898-ci il 15 dekabr tarixli nömrəsində verildi. Məqalədə deyilirdi: «Fransa-alman danışıqları o vaxt mümkün ola bilər ki, Elzas və Lotaringiya Fransa dövlət xadimlərinin və Fransa mətbuatının lüğətindən çıxarılacaq».

Delkasse başqa bir cəhd göstərdi. O varlı və nüfuzlu tərsanə sahibi vasitəsi ilə Berlinə təklif etdi ki, Elzas və Lotaringiya Fransa müstəmləkələrinin biri ilə dəyişdirilsin. Buna isə mənfi cavab aldı.

Fransa İngiltərənin qarşısında geri çəkilməyə məcbur oldu. O, Baxr-el-Qazel əyalətindən və Nilə çıxmaqdan imtina etdi. Beləliklə, Fransa Britaniya qarşısında təslim oldu. Bu İngiltərənin Fransaya qarşı xəttini dəyişməyə səbəb oldu. 1899-cu ilin fevralında danışıqlar başladı. 1899-cu il martın 21-də İngiltərə və Fransa arasında saziş imzalandı.

Hər iki dövlətin Afrikadakı ərazilərinin sərhədləri müəyyən edildi. Fransa Nil vadisindən tamam kənarlaşdırıldı.

Fransa və İngiltərənin Afrikadakı torpaqlarının sərhədləri - bir tərəfdən Çad gölü və Konqo çayı hövzəsi, digər tərəfdən isə Nil hövzəsi müəyyən edildi. Fransa imtina etdiklərinin əvəzində Darfurun qərbində Sudanın xeyli hissəsini aldı.

1899-cu il ingilis-fransız sazişi ilə Mərkəzi Afrikanın bölünməsi başa çatmış oldu.



## İngiltərə-Bur müharibəsi

Qərb yarımkürəsində hərbi əməliyyatların dayandırılmasından bir ildən də az vaxt keçirdi. İndi cənubi Afrikada yeni müharibə ocağı yaranmaqda idi.

Ultvateranda qızıl mədənlərinin işə düşməsindən sonra Transvaala işləməyə çoxlu xaricilər gəlmişdilər. Onları Uentlenderlər adlandırırdılar. Onların da əksəriyyətini ingilislər təşkil edirdilər. Bur hökuməti qızıl axtaranlara qazanc əldə etmək hüququ verilməsindən imtina etmişdi. İngiltərə hökuməti burlara qarşı müharibəyə başlamaq üçün bu məsələdən bir bəhanə kimi istifadə etməyi qərara aldı.

Doğrudur İngiltərə hökuməti Bur hökuməti ilə danışıqlar aparırdı. Lakin bu danışıqlar elə davam edirdi ki, İngiltərə hökumətinin müharibəyə cəhd etdiyi açıqdan-açığa özünü büruzə verirdi. İngiltərə hökuməti danışıqları kəsmək üçün hər cür vasitədən istifadə edirdi.

İngiltərədə müharibənin zəruri olması haqqında ictimaiyyəti hazırlamaq lazım idi. İngilislərin bu və ya digər tələblərini qəbul edən kimi ingilis diplomatiyası bur hökumətinə yeni tələblər verirdi. Onların məqsədi ixtilafın sönməsinə imkan verməmək idi. İngiltərənin hərbi hazırlığının hələ başa çatmadığını bilən hər iki Bur dövləti 1899-cu il oktyabrın 11-də İngiltərəyə müharibə e'lan etdilər. İngilis ordusu kəskin döyüşlərdən sonra Bur Respublikalarının paytaxtlarını - Pretoriya və Blyumfonteyn şəhərlərini tutdular. Lakin bir az sonra ingilislər başa düşdülər ki, düşmənin müqaviməti hələ sındırılmayıb. Bur partizanlarının öhdəsindən gəlmək o qədər də asan deyildi. 31 aylıq gərgin mübarizədən sonra 1902-ci il mayın 31-də sülh imzalandı. Burlar öz

müstəqilliklərindən imtina edib, Britaniya krallığı vətəndaşlığını qəbul etməli oldular.

Zənci əhalisi içərisində burlar və ingilislər azlıq təşkil edirdilər. Məğlub olanları sakitləşdirmək üçün mümkün olan hər şey edilirdi. Burlar 1906-cı ildə dominion - özünü idarə hüququ aldılar 1909-cu ildə isə cənubi-Afrika ittifaqı yaradıldı. İstər burlar, istərsə də ingilislər yerli əhaliyə qarşı eyni siyasəti yeridirdilər. Onlar ağır vəziyyətdə yaşayırdılar.

İngilis-bur müharibəsi ingilis-rus, ingilis-fransız münasibətlərinin kəskinləşdiyi vaxta düşmüşdü.

Fransada ingilislər əlehinə təbliğat son həddinə çatmışdı. İngiltərə hökuməti ehtiyat edirdi ki, burlarla müharibə nəticəsində onun düşmüş olduğu çətin vəziyyətdən Fransa və Rusiya istifadə edə bilərlər.

Avropa dövlətlərinin ingilis-bur münasibətlərinə qarışmalarına imkan verməmək üçün İngiltərə ittifaq haqqında Almaniya ilə danışıqlara başladı. Avropanın iki böyük dövlətinin dilbirliyə gəlməsinə heç vəchlə yol vermək olmazdı. Bu nə Rusiya, nə də Fransa üçün məqbul idi.

Portuqaliya müstəmləkələrinin bölüşdürülməsi Almaniyanı kifayətləndirmirdi. Bu ancaq gələcəyə bir yol idi. Almanlar İngiltərənin çətinliyindən istifadə edib daha yağlı tikə qoparmaq iştahasında idilər.

1898-ci ildə Samoa adalarında hərc-mərçiliyin başlanmasından istifadə edərək alman diplomatiyası həmin arxipelaqı bölmək məsələsini qoydu. 1889-cu ildən Samoada üç dövlətin - Almaniyanın, İngiltərənin, ABŞ-ın nəzarəti müəyyən edilmişdi. İndi Almaniyanı Samoaya bütövlükdə, ya da onun bir hissəsinə sahiblənmək düşündürürdü. Almaniya orada Sakit okeandakı donanması üçün baza yaratmaq fikrində idi. Lakin İngiltərə heç vəchlə Samoanı Almaniyaya vermək istəmirdi. Arxipelaqın bölünməsi haqqında Almaniyanın



təklifi Avstriyanın və Yeni Ze'landiyanın ciddi e'tirazlarına səbəb oldu. İngiltərə hökuməti ABŞ-ı da alman planına qarşı səfərbər etməyə ciddi cəhd göstərirdi.

Alman diplomatiyası bu məqsədinə nail olmaq üçün gözlənilmədən İngiltərənin ən nüfuzlu kapitalistlərinin biri ilə gizli əlaqələrindən istifadə etmək imkanı qazandı.

1899-cu ilin yazında Sesil Rods Avropaya gəldi. O neçə illərdi ki, hazırlamış olduğu layihəsinin həyata keçirilməsinə nail olmaq istəyirdi. Burada söhbət Kapdan Qahirəyə qədər, Bulavayo və Rodeziyadan Misir dəmir yolu şəbəkəsinə qədər yolun çəkilməsindən gedirdi. Çünki Kapdan Bulavayo qədər artıq dəmir yol var idi. Rods İngiltərə hökumətindən tə'minat almağa çalışırdı. Lakin bunu İngiltərə hökumətindən ala bilmirdi. Rods Brüsselə-Belçikaya getdi. Lakin kral Leopoldla da razılığa gələ bilmədi.

Almaniya hökuməti Rodsu Berlinə də'vət etdi. O imperatorla görüşdü, Rodsa alman ərazilərində teleqraf xətti çəkməyə razılıq verdi. Almanlar Rodsun imkanı olan kimi dəmir yolu haqda da danışıq aparmaqdan imtina etmədilər. Rods da öz tərəfindən Samoanın Almaniyaya verilməsi barədə İngiltərə hökumətini yola gətirməyi vəd etdi. Lakin o nə Çemberlini, nə də Solsberini razı sala bilmədi. Buna baxmayaraq Almaniya ABŞ-ın razılığını almışdı.

London və Berlin arasındakı danışıqlar kəskin xarakter aldı. Almanları gah rus-alman, gah da Fransa-alman yaxınlaşması ilə qorxudurdular. İngiltərəyə mə'lum oldu ki, Byulov diplomatik münasibətləri kəsməyə hazırdır. Vilhelm İngiltərəyə getməkdən nümayişkaranə imtina etdi.

Nəhayət, Bur müharibəsi ilə yaranmış çətinlikləri nəzərə alaraq, Solsberi güzəştə getməli oldu. 1899-cu il

noyabrın 14-də saziş imzalandı. Bu sazişə görə Samoa arxipelaqında Almaniya bir neçə ada aldı. Qalanları isə ABŞ-a verildi. İngiltərə Samoaya dair bütün iddialarından imtina etdi. Bunun əvəzində o, Tonqa adasını, Fil sümüyü adalarının bir hissəsini, Afrikada, Toqoda ingilis-alman malikanələrinin sərhəddində kiçik mübahisəli ərazilərə sahibləndi.

Samoa üzərində ixtilaf hər iki tərəfi hədsiz qıcıqlandırırdı. Almaniyanın inadkarlığı İngiltərəni əndazədən çıxarırdı. 1899-cu ilin sentyabrında Çemberlen Solsberiyə yazmışdı: «Alman siyasəti açıq şantajdı».

Beləliklə, növbəti ixtilaf söndürüldü. Vilhelm 1899-cu ilin noyabrında Vindzora, İngiltərəyə gəldi.

Çemberlen yenə Almaniya ilə ittifaq haqqında söz saldı. Bu ittifaq Rusiyaya qarşı olmalı və onu Uzaq Şərqdəki işğalçılıq siyasətini dayandırmağa məcbur etməli idi. Çemberlen Mərakeşin bir hissəsini Almaniyaya təklif etdi, bu şərtlə ki, Almaniya Bağdad dəmir yolunun çəkilməsini müdafiə etsin. Kayzer və Byulov bildirirdilər ki, onlar Rusiya ilə küsüşmək istəmirlər. Onlar öz tərəflərindən müstəmləkə problemləri barədə sazişin genişləndirilməsini təklif etdilər. Bunun əsası Portuqaliya mülkləri və Samoa adaları haqqında sazişlərdə qoyulmuşdur. Lakin ittifaq haqqında bu danışıqlardan bir şey çıxmadı.

Nəzərə almaq lazımdır ki, ingilis - bur müharibəsində Almaniya bitərəf mövqedə dayanmışdı. Lakin o başqa dövlətləri İngiltərəyə qarşı qızışdırırdı. Bu öz nəticəsini verdi.

Artıq 1900-cü il fevralın sonunda Rusiyanın xarici işlər naziri Muravyov İngiltərəyə qarşı birgə çıxış etmək barədə Fransada fikir yaratmışdı. Fransa o şərtlə razılıq vermişdi ki, Rusiya Almaniya ilə razılığa gəlsin. Özünün Şərq sərhəddinin təhlükəsizliyinə inanmadan Fransa



"dənizlər ağası"na qarşı ixtilafa girməyə cürət edə bilməzdi. Ümumiyyətlə, Delkasse şərtsiz razılığını vermişdi, ona görə ki, o Fransa-Rusiya ittifaqının zəifləməsini istəmirdi. Bu vaxt İngiltərəyə Fransanın Britaniya adalarına girməsi barədə şayiələr çatmışdı.

Delkasse ilə danışdıqdan sonra Muravyov Berlinə müraciət etdi. Ona cavab verdilər ki, Almaniya ingilislərin əleyhinə ittifaqa o vaxt qoşula bilər ki, Fransa Elzas və Lotaringiyaya olan iddialarından imtina etsin. Muravyov buna e'tiraz etdi və bildirdi ki, Fransa hökuməti buna getsə o, bir gündə hakimiyyətdə qala bilməz.

Almaniya diplomatiyası Muravyov ilə danışıqlardan yenə də qazanmağa tələsdi. Bundan, II Vilhelm ingilis-rus münasibətlərini daha da kəskinləşdirmək üçün istifadə etməyi qərara aldı. O ingilislər qarşısında öyünməyə başladı ki, İngiltərəni düşmən koalisiyasından xilas etmişdi.

Kayzer krala və vəliəhdinə Muravyovun təklifi haqqında mə'lumat verdi. Lakin Rusiya diplomatiyası mürgüləmirdi. O da öz növbəsində ingilislərə bildirmişdi ki, almanlar Rusiyadan burların xeyrinə işə qarışmasını təklif etmişdilər. Lakin Rusiya bunu rədd etmişdi. Beləliklə, Avropa dövlətlərinin ingilis - bur müharibəsinə qarışması baş tutmadı. Elzas-Lotaringiya bütün müstəmləkə problemlərini üstələdi.

## Birinci Mərakeş böhranı

Fransanın Mərakeşi işğal etməsi sür'ətlə gedirdi. 1905-ci ilin yayında Parisdə Mərakeş işləri üzrə komitə adlanan bir orqan yaradıldı. Kapitalistlər və digər maraqlı tərəflər bu komitədə birləşdilər. Şneyder-Kredo firması daha artıq fəallıq göstərirdi. Əlcəzairlə əlaqədə olan kapitalistlər də Şneyderdən geri qalmırdılar. Hələ 1903-cü

ildə Fransa maliyyəçiləri Mərakeş sultanına 21 mln. frank həcmində istiqraz verdilər. Fransa 1904-cü il oktyabrın 5-də Mərakeşdə tə'sir dairələrinin müəyyən edilməsi haqqında İspaniya ilə saziş bağladı. İspaniya heç vaxt başqa bir dövlətin köməyinə müraciət etməyəcəyi barədə öhdəlik götürdü. Bu İspaniyanın Fransanın qərb qonşusu Almaniya ilə müqavilə bağlamasını qeyri-mümkün edirdi. 1905-ci ilin fevralında Fransa öz məqsədlərini İngiltərə vasitəsi ilə həyata keçirməyə girişdi. Mərakeş sultanına «islahat proqramı» təqdim edildi. Onun qəbul edilməsi Tunisdə olduğu kimi, Mərakeş üzərində də Fransanın protektoratlığının həyata keçirilməsi demək idi.

Almaniya ingilis-fransız oyununu pozmağa cəhd etdi. Qolşteyn və Ali qərargahın rəisi Şliffen hesab edirdilər ki, Fransaya qarşı müharibəyə başlamaq üçün şərait əlverişlidir. Byulov onların nöqteyi-nəzərlərinə meyl edirdi. Fransa «islahat»ından imtina etmək üçün Almaniya sultanı dilə tuturdu.

Byulovun təhriki ilə kayzer dəniz səfərinə çıxmaq adı ilə Aralıq dənizindəki yaxtasına getdi. 1905-ci il martın 31-də kayzer Tanjer sahilinə çıxdı. Onu təntənəli surətdə qarşıladılar. Mərakeş sultanı imperatoru qarşılamaq üçün dayısını göndərdi, o kayzeri Mərakeş torpağına qədəm basdığına görə təbrik etdi.

Mərakeşdəki balaca alman koloniyası da kayzeri qarşılamağa çıxmışdı. Onu firmanın nümayəndəsi Krupp təbrik etdi.

Təbriklərə cavab verərək Kayzer nitq söylədi. O dedi ki, sultanı müstəqil dövlətin başçısı kimi təbrik etmək üçün gəlib. O ümid etdiyini bildirir ki, sultanın hakimiyyəti altında Mərakeş inhisarsız, bu və ya digər dövlətin üstünlüyü olmayan ölkə kimi bütün millətlərin dinc rəqabəti üçün açıq olaraq qalacaq. Kayzer əlavə etdi ki, o Mərakeşdə alman mənafelərini müdafiə



etməyə hazırdı və bunun üçün sultanla bilavasitə görüşəcək. Kayzer nitqini onunla qurtardı ki, Mərakeşdə islahat keçirməkdə ehtiyatlı olmaq lazımdır. Fransanın diplomatik nümayəndəsinin təbrikinə cavab verərək, Vilhelm bildirdi ki, o bilir ki, Almaniyanın hüququnu necə müdafiə etmək lazım idi və ümid edir ki, Fransa onlara hörmət edəcək.

Kayzerin nitqi o demək idi ki, Almaniya İngiltərə və Fransaya müraciət edərək, onları Mərakeşdəki sövdələşmələrindən imtina etməyə çağırırdı. Bu Fransaya və İngiltərəyə meydan oxumaq demək idi.

Onun ardınca Byulov Madrid müqaviləsinin iştirakçılarına müraciət edərək, Mərakeş məsələsinin beynəlxalq konfransda müzakirə edilməsini irəli sürdü. 1880-ci ildə bağlanmış Madrid müqaviləsi bütün xarici dövlətlər və onların vətəndaşları üçün Mərakeşdə ticarət və digər sahələrdə bərabər hüquq müəyyən etmişdi. Almaniya özünün qəti e'tirazını bildirdi. Mərakeşin beynəlxalq müqavilə tərəfindən müəyyən edilmiş statusu, İngiltərə və Fransa tərəfindən müzakirə hədəfinə çevrilmişdi.

Delkasse alman təklifini qətiyyətlə rədd etdi. O inanırdı ki, Almaniyanın hədəsi boş şeydir, Almaniya müharibəyə başlamaz, Almaniya heç vaxt gənc donanmanın darmadağın edilməsinə razı olmaz. O bildirirdi ki, bütün Avropa mənim tərəfimdədi. İngiltərə tamamilə məni müdafiə edir.

Lakin Fransanın çoxlu nüfuzlu siyasətçiləri başda Nazirlər Sovetinin sədri Ruvye olmaqla Almaniya ilə didişməyi arzu etmirdilər, müharibə olmasından qorxurdular. Bu an Almaniya üçün daha artıq əlverişli idi. Ruvye göstərirdi ki, ingilis donanması Mancuriya çöllərində döyüşən rus ordusunun əvəzini verə bilməz.

Alman səfiri Parisdə nümayişkaranə Fransa Xarici İşlər Nazirinin qəbuluna gəlmədi. Buna baxmayaraq

Ruvye həmin axşam səfirin yanında şam etdi. O, öz Xarici İşlər Nazirinin başı üzərində onunla danışıqlara girərək alman səfirini məsələni sülh yolu ilə həll etmək üçün dilə tuturdu. Nazirlər Sovetinin sədri alman səfirinə vəd etdi ki, Delkasse bir müddətdən sonra tutduğu vəzifədən gedəcək. İri bank xadimi kimi Ruvye alman kapitalı ilə əməkdaşlığa cəhd edən kapitalist dairələri ilə bağlı idi.

O, Bağdad dəmir yolunun çəkilməsi və onun qiymətli kağızlarının Paris birjasına buraxılması üçün maraqlı idi. Buna baxmayaraq, Mərakeş haqqında konfrans çağırılmasına öz razılığını verməyi yubadırdı. Bunun əvəzində Mərakeş məsələsini tənzimləmək üçün ikitərəfli sövdələşmə aparmağı təklif edirdi.

Byulov belə əməkdaşlığa tərəfdar idi. Bununla bərabər o beynəlxalq konfransın çağırılmasına tə'kid edir və Delkassenin istefacını sür'ətləndirməyi tələb edirdi.

Londondan Rotşild, Kral VII Eduard Delkasseni müdafiəyə qalxmışdılar.

İngiltərə hökuməti Almaniyanın təzyiqi qarşısında güzəştə getməyi qeyri-mümkün sayırdı. O, hesab edirdi ki, Fransa kiminlə - İngiltərə ilə, yaxud Almaniya ilə gedəcək; Məsələ belə qoyulurdu. İngiltərənin hakim dairələrində Almaniyanın hərbi və ticarət donanmasının axırına çıxmaq vaxtının yetişdiyini irəli sürürdülər.

Mərakeş böhranına münasibət ingilis diplomatı, Ruzveltin dostu Sprinq-Raysonun ABŞ prezidentinə yazdığı məktubda aydın göstərilmişdi. Sənədin əvvəlində (bu sənəd Xarici İşlər Naziri Lensdaunun dedikləri əsasında tərtib edilmişdi) deyilirdi: «1870-ci ildən sonra Almaniyada hərbi partiya iki dəfə (1875 və 1887-ci illərdə) Fransanı ölüncəyə qədər döymək və onun revanş tələblərinə son qoymaq üçün hadisələri Fransa ilə müharibə həddinə çatdırmışdı. Hər iki halda



Rusiya və İngiltərə dövlətlərinin başçıları qoca imperatora müraciət etdilər və onda belə cinayətə yol verməmək həvəsi oyatdılar. Həm də onların müraciəti nəhəng dəniz və quru qüvvələri tərəfindən müdafiə olunurdu. Hər iki halda müraciət uğurlu oldu. Lakin indi Avropada rus ordusu yoxdur. İngilis donanması isə Fransaya soxulmağın qarşısını ala bilməz. Almaniya Mərakeşdə onun mənafelərinə toxunulmaması barədə dediyi sözlərdən bir il sonra qəflətən bildirdi ki, onun həyatı mənafeləri təhlükə altındadır və o müharibəyə başlamalı olsa da, öz mənafeyini qoruyacaqdı. Fransa xalqı müharibə risqindən imtina etdi. O güzəştə getməli oldu. Bu xarici düşmən tərəfindən Rusiyanın hərbi gücü sındırılandan sonra bütün dünyaya mə'lum oldu. Almaniya Fransanı müharibə ilə hədələmək iqtidarında olduğunu bəyan etdi. İngiltərə Fransanın məhv olmasına, onun Almaniyanın əyalətinə çevrilməsinə yol verə bilməzdi. İngiltərə mütləq müharibə etməlidi. Buna görə də biz Fransaya kömək üçün güjlü quru qüvvələri yaratmalıyıq.»

İngiltərə hökuməti Fransaya hərtərəfli kömək göstərəcəyini vəd etmişdi. 1905-ci il aprelin 22-də Lensdaun İngiltərənin Parisdəki səfirinə teleqram göndərmişdi. Teleqramda deyilirdi ki, bizdə olan mə'lumata görə Almaniya hökuməti Mərakeşin Atlantika sahillərindən özünə liman tələb etməyə hazırlaşır. Lensdaun səfirə tapşırdı ki, Fransa hökumətinə bildirsin ki, bu tələbə ciddi mane olmaq üçün İngiltərə Fransa hökumətinə qoşulmağa hazırdı. İngiltərə hökuməti almanların bu tələbinə qarşı durmaq üçün tələb olunan tədbirləri görmək məsələsini razılaşdırmaq üçün hazırdı.

Bir aydan sonra mayın 24-25-də Fransa səfiri və İngiltərənin Xarici İşlər Naziri arasında rəsmi məktub mübadiləsi oldu. İngiltərə hökuməti Fransaya hərtərəfli kömək göstərməyə hazır olduğunu bir daha bildirir, iki

ölkə arasında saziş bağlamağı təklif edirdi. Elə bu vaxt Almaniyanın Mərakeşdəki diplomatik nümayəndəsi fon Tattenbax Tanjerdən sultanın yanına, onun paytaxtı Fesə getdi. O sultana dedi ki, onun fransız həmkarı «Avropanın adından çıxış edərək, sultana «islahat» qəbul etdirmək istəyir. Dövlətlər isə Fransa nümayəndəsini vəkil etməyiblər.

Tattenbaxın təzyiqi altında sultan bildirdi ki, o islahat proqramı haqqında Fransaya nə söz verib, nə də verəcək. Mərakeşin hakimi beynəlxalq konfrans haqqında almanların təklifini təbrik etdi. 1905-ci il mayın 31-də sultan 1880-cı il Madrid müqaviləsini imzalayan dövlətlərə onun dövlətində islahat məsələsini müzakirə etmək barədə müraciət etdi.

İstə'yinə nail olmaq üçün Almaniya Fransa dövlətini müharibə ilə hədələməyə başladı. Byulov Almaniyanın Fransadakı səfirinə teleqramla bildirdi ki, qraf Tattenbax xəbər verir ki, Fransa hərəkətləri ilə Əlcəzair sərhədlərindən Mərakeş sultanını ardı-arası kəsilmədən hədələyir. Lakin sultan mayın 28-də fransız nümayəndəsinə bildirdi ki; «islahat» haqqında Fransanın təklifinə müqavilə iştirakçısı dövlətlərinin müzakirəsindən və bəyənilməsindən sonra baxılacaq. Byulov hədələyici tonda əlavə etmişdi ki, biz lazımi nəticələr çıxarmalıyıq.

Bir neçə gündən sonra İtaliya hökuməti Fransa hökumətinə bildirdi ki, Almaniyanın Romadakı səfiri ona demişdir ki, Fransa qoşunu Mərakeş sərhədini keçən kimi Alman qoşunu da Fransa sərhədini keçəcək.

Elə həmin günlər Byulov Parisdə alman səfirliyində müşavir işləmiş Mikel adlı bir nəfəri Ruvyenin yanına göndərdi. Mikel Delkassenin istefasını tələb etdi və göstərdi ki, Almaniya ona e'tibar etmir. Bu tələb böyük dövlətlər tarixində görünməz hadisə idi.



Qorxuya düşmüş Ruvye qeyri-rəsmi, vasitəçinin köməyindən istifadə etməli oldu. O öz dostu, iri kapitalist «Pti Parizen» qəzetinin sahibi, Fransada alman tərəfdarları, və ingilis əleyhdarlarının rəhbəri Dyupyunu alman səfiri Radolinin yanına göndərdi. Dyupyun səfirlə Delkassenin tə'cili istefası haqda razılığa gəldi.

Ruvye Yelisey sarayına tələsirdi. O, prezidentə bildirdi ki, Xarici İşlər nazirinin siyasəti ilə razı deyil. Lubenin razılığını aldıqdan sonra Ruvye iyunun 6-da Nazirlər Sovetinin iclasını çağırdı. O bildirdi ki, əgər onun kabinetdəki həmkarları Delkasse ilə həmrəy olsalar, o, iste'faya gedəcək. Sovetin üzvlərinin əksəriyyəti Xarici İşlər Nazirinin əleyhinə çıxdılar. Delkasse istefa verdi. Ruvye Xarici İşlər Naziri vəzifəsini öz üzərinə götürdü və Berlinlə danışıqlara başladı.

O, Radolinə çatdırdı ki, beynəlxalq konfrans ideyasını bəyənir. Hətta o işarə vurdu ki, Fransanın Mərakeşi işğal etmək əvəzini o Almaniyaya ödəməyə hazırdı.

Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, Ruvyenin bu cəhdləri əbəsdi. Almaniya hər vasitə ilə vəziyyəti gərginləşdirməyə çalışırdı. O Fransadan qeyd-şərtsiz beynəlxalq konfrans çağırılmasına tərəfdar çıxmağı tələb edirdi. İyunun 11-də alman səfiri Ruvyeyə bildirdi ki, Almaniya Mərakeş sultanını «özünün bütün gücü» ilə müdafiə edir.

Almaniyanın beynəlxalq konfrans haqqında tələbi gözlənilmədən Ruzvelt tərəfindən müdafiə olundu. İyunun 21-də Fransa razı olduğunu bildirdi və göstərdi ki, axırıncı, qəti söz almanların nə istədiklərini bildikdən sonra veriləcək. İngilis hökuməti Fransanın cavabını müdafiə etdi.

Almaniya diplomatiyası isə qorxutmaqda davam edirdi.

Byulovun məqsədi nə idi? Onun düşündüyü Almaniya-Mərakeş İttifaqı iki şeylə nəticələnə bilərdi. Ya Fransa geriyə çəkilər, Mərakeşdən imtina edər, ya da Almaniya Fransaya qarşı müharibəyə başlayar. Byulov 1905-ci il iyunun 23-də Fransa səfirinə demişdi: «odla oynamaq lazım deyil».

Lakin birdən Almaniyanın taktikasında gözlənilməz dönüş baş verdi. Byulov barışdırıcı xətt götürdü. Doğrudur, o konfransın çağırılmasını tə'kid edirdi. Lakin kansler bildirdi ki, Fransa ilə onun proqramını əvvəlcədən razılaşdırmağa və hətta Fransanın Mərakeşdə xüsusi maraqlarını tanımağa hazırdır. 1905-ci il iyulun 8-də Almaniya və Fransa konfransın çağırılması şərtləri barədə ilkin razılığa gəldilər.

## Alxesiras konfransı

1906-cı ilin yanvarında Mərakeş böhranı son həddinə çatmışdı. Almaniya və Fransa arasındakı 1905-ci ilin iyulunda əldə olunmuş razılaşmaya əsasən İspaniyanın Alxesiras şəhərində Madrid müqaviləsi iştirakçılarının konfransı toplandı.

Hələ 1905-ci ilin dekabrında alman Baş qərargahının rəisi feldmarşal Şliffen Belçika vasitəsi ilə şərq cəbhəsindən ayrılmış 10 diviziya ilə Fransaya daxil olmaq haqqında özünün məşhur planını kayzerə təqdim etmişdi. Qolşteyn də feldmarşalla həmrəy idi. Qeyd etmək lazımdır ki, konfrans həyəcanlı günlərdə toplanmışdı. Onun iştirakçıları ehtiyat edirdilər ki, Almaniya konfransı danışıqların pozulmasına, hətta müharibəyə apara bilər.

Lakin burada Almaniya onun üçün daha həyəcanlı vəziyyətlə üzləşdi. O, tam təklənmişdi. Təkcə İngiltərə deyil, ABŞ da Fransanı müdafiə edirdi. Rusiya və İtaliya



da Fransanın tərəfində idilər. Təkcə Avstriya-Macarıstan Almaniyanı müdafiə edirdi.

Belə beynəlxalq vəziyyətdə, Byulov və kayzer Fransaya qarşı müharibəyə cəsarət etmədilər. Mərakeş uğrunda müharibə isə indi heç də populyar deyildi. Byulov öz memuarlarında yeni il münasibəti ilə Kayzerin ona yazdığı məktubun məzmununu vermişdi. Həmin məktubda kayzer göstərirdi ki, «Türkiyə ilə, habelə bütün ərəb və Mavritaniya dövlətləri ilə ittifaq bağlamayınca, o, müharibə etmək istəmir».

1905-ci ilin dekabrında Kayzer Şliffeni vəzifədən azad etdi. Bir neçə gün sonra Qolşteyn istefaya getməli idi.

Konfrans öz işini 1906-cı il aprelin 7-də qurtardı. Konfransda Mərakeş dövlətinin vəziyyətini müəyyən edən traktat imzalandı. Traktat sultanın müstəqilliyini, onun dövlətinin bütövlüyünü, iqtisadi münasibətlərdə Mərakeşin bütün millətlər üçün azad və tam bərabər olduğunu müəyyən etdi. Buna uyğun olaraq xarici bankların - ingilis, fransız, alman və ispan banklarının nəzarəti altında Mərakeş dövlət bankı yaradıldı. Ən kəskin ixtilaf Mərakeş polisinin yaradılması üzərində oldu. Almaniya Mərakeşin daxilində qaydanın qorunmasına nəzarəti Fransanın əlinə vermək istəmirdi. Almaniya müharibə ilə hədələyə bilərdi. Lakin təklənməsi buna imkan vermədi. İspaniya ilə birlikdə Fransaya Mərakeş polisinə rəhbərlik etmək tapşırıldı. Traktatda göstərilirdi ki, polisi yaratmaq üçün kömək məqsədi ilə sultanın ixtiyarına İspaniya və Fransa hökumətləri tərəfindən zabitlər və unter zabitlər göndəriləcək. Doğrudur, Mərakeş polisinin başına «baş inspektor» rütbəsi ilə İsveçrə zabiti qoyulmuşdu. Lakin əslində o heç bir rol oynamırdı. Tranştatda gömrük üzərində beynəlxalq nəzarət müəyyən edilmişdi. Lakin

Əlcəzair sərhədində gömrük Fransanın, Riff vilayətində isə İspaniyanın nəzarəti altında idi.

Almaniya bu dövrdə onun üçün əlverişli şəraitdən - rus-yapon müharibəsində Rusiyanın zəifləməsindən istifadə edə bilmədi. Əksinə Mərakeş böhranı nəticəsində Antanta möhkəmləndi. Baxmayaraq ki, o, hələ hərbi ittifaq kimi formalaşmamışdı.

### Cənubi-Asiya uğrunda (Hindi-Çin, Birma, İndoneziya, Malay adaları) mübarizə. cənubi-şərqi Asiyanı bölmək sahəsində diplomatik ziddiyyətlərin kəskinləşməsi

Cənubi Asiyanı bölmək, burada yerləşən ölkələri zəbt etmək, əhalisini əsarət altına almaq uğrunda mübarizənin başlıca iştirakçıları İngiltərə, Fransa və Niderland idi. Mə'lum olduğu kimi, Fransa hələ 60-cı illərdə cənubi Vyetnamda (Koxinxində) və Kambocada məskən salmış, möhkəmlənmişdi. İndi Fransa öz mövqeyini genişləndirməyə, Hindi-Çinin bütün sərvətinə sahıblənməyə, Annamı, xüsusi ilə onun ən zəngin hissəsi olan Tonkini (Şimali Vyetnamı) ələ keçirmək istəyirdi. Niderland müstəmləkəçiləri hələ çoxdan İndoneziyanın sahillərindəki adalara yiyələnmişdilər. İndi isə bütün İndoneziyanı əsarət altına almaq fikrində idilər. İndi onlar ölkənin daxilinə, içərilərinə doğru hərəkət edirdilər.

İngiltərəyə gəldikdə isə o hələ 50-ci illərdə Ranqunla birlikdə Aşağı Birmanı işğal etmişdi. Onun qarşıdakı planında Yuxarı Birmanı tutmaq dururdu. O, buradan cənubi Çinə soxulmaq fikrində idi. cənubi Çində isə artıq 70-ci illərdən fransız və ingilis mənafelərinin toqquşduğu göz qabağında idi.

Lakin ingilis diplomatiyasının planı bunlarla məhdudlaşmırdı. O, xeyli mürkkəb və müxtəlif idi.



Özünün tə'sir, nüfuz dairəsini genişləndirmək barədə düşünməklə İngiltərə siyasətçilərini həm də Hindistanın təhlükəsizliyini tə'min etmək, fransızların Hindistan sahillərinə yaxınlaşmasına mane olmaq da düşündürürdü. İngilis hökumətinin digər məqsədi Uzaq Şərqə gedən dəniz yollarını öz nəzarəti altında saxlamaq idi. Bunun üçün isə Sinqapura sahiblənmək çox vacib idi. Bu mühüm strateji ərazidə öz ağalığını möhkəmləndirmək üçün İngiltərə 70-ci illərdə Malay yarımadasını işğal etmiş və orada yerləşən sultanlıq üzərində öz protektoratlığını qurmuşdu. Qalay və kauçukla zəngin olan Malay yarımadası ingilis kapitalına böyük gəlir gətirirdi.

1874-cü il martın 15-də fransızlar Vyetnamın Mərkəzi hissəsində yerləşmiş Annam krallığını qeyri-bərabər müqavilə əsasında öz əsarəti altına aldılar. Bununla Fransa bütün Vyetnamda öz protektoratlığını başa çatdırmış oldu. Bu müqavilə ilə Fransa hökuməti Annam krallığının müstəqilliyini tanıdı. Bununla Çinin krallıq üzərindəki suverenlik hüququna zərbə endirdi. Fransızlar kralın xahişi ilə ölkədə qayda və sakitlik yaranmasında, krallığın sahillərində dəniz quldurlarına qarşı mübarizədə ona yardım etməyi vəd etmişdilər. Məhz bunların əvəzində kral özünün xarici siyasətini Fransa hökuməti ilə razılaşdırmalı idi. Annamda səfir səlahiyyətində Fransanın nümayəndəsi yerləşdirildi. Fransa Annama müəyyən miqdarda silah, mühəndislər, vergiləri və gömrük işlərini təşkil etmək üçün maliyyə məsələləri üzrə ekspertlər göndərirdi. Üç liman, Xanoy, Tonkin də daxil olmaqla ticarət üçün açılmışdı. Katolik missionerlərin və katolik kilsəsinin sərbəst fəaliyyəti tə'min olunurdu. Qırmızı çayda onun başlanğıjından başlamış Çinin Yunnan əyalətinə qədər gəmiçilik ijarəyə verilirdi və s.

Çin hökuməti Annam kralını Çinin vassalı hesab etdiyi üçün Fransa - Annam müqaviləsini tanımaqdan imtina etdi. Bir az sonra Vyetnam hökuməti fransızların əməllərinə qarşı Çindən kömək xahiş etməyə məjbur oldu. 1876-jı ildə Çin hökuməti dayandırmış olduğu xərajı bərpa etdi. Bu onun Çinin vassallığını tanıdığını bildirdiyi demək idi. 1879-ju ildə o Tsin sarayına xüsusi nümayəndə göndərərək, ondan kömək göstərməyi xahiş etmişdi. Tsin hakimiyyətinin məsləhəti ilə Vyetnam Yunnan və Vyetnam arasındakı sərhəddə yerləşmiş və orada əkinçiliklə, maldarlıqla məşğul olan orduların keçmiş generalı Lyu Yun-fuya mürajiət etdi. Bu generalın «qara bayraqlar» adlanan ordusu də'vəti qəbul edərək, Vyetnama getdi və Qırmızı çay boyunca yerləşdi. Fransızlar «qara bayraqlar»a qarşı hərbi yürüşə hazırlaşmağa başladılar.

Çin hökuməti Parisdəki səfiri vasitəsi ilə Fransa hökumətinə bildirdi ki, Vyetnam Çinin vassalıdı və buna görə də o, Fransa və Vyetnam arasında bağlanmış müqaviləni tanıya bilməz. Li Xun Çjan Fransa səfirinə bildirdi ki, «Vyetnam çoxdandır ki, Çinə məxsusdur və əgər Fransa Vyetnamı işğal etməyə cəhd etsə, Çin bunu öz diqqətindən yayındıra bilməz».

Fransa hökuməti 1874-cü il müqaviləsinin saxlanmasına tə'kid edirdi. O, Tonkinə ordu göndərdi, ölkənin içərilərinə soxulmağa və Qırmızı çayda gəmiçiliyi təşkil etməyə cəhd göstərdi.

Fransızlar Vyetnam xalqının və «qara bayraqlar»ın müqaviməti ilə rastlaşdılar. Onlar yalnız bəzi mərkəzlərdə, başlıca olaraq Xayfonda və Xanoyda qərar tutdular. 1875 və 1877-ci illərdə Fransaya qarşı alman təhlükəsi, Tunisin işğal edilməsi o dövrdə Fransanın Vyetnamı işğal etmək üçün güclü yürüş təşkil etməsini çətinləşdirdi.



Fransa öz məqsədlərinə diplomatik yolla nail olmağa səy göstərdi. 1882-ci ildə öz nümayəndəsi vasitəsi ilə Pekindən «qara bayraqlar»ın və nizami Çin ordusunun Vyetnamdan aparılmasını tələb etdi. Fransa və Çin arasında danışıqlar başlandı.

Çin ordunu Vyetnamdan çəkmək əvəzində bəzi tə'minatlar almağı arzu edirdi. Fransa Vyetnama qarşı təcavüzkar hərəkətlər və Çinin Vyetnam üzərindəki səlahiyyətinə sui-qəsd etməyəcəyini bildirdi. Lakin Çin tərəfinin bu danışıqlarda mövqeyi heç də ardıcıl deyildi.

Tsin imperiyasındakı hakim dairələr arasındakı daxili mübarizə Çin üçün danışıqları mürəkkəbləşdirirdi.

Danışıqlarda Çin əhəmiyyətli güzəştlərə getdi. Buna baxmayaraq, Fransa 1874-cü il müqaviləsinin tanınmasına tə'kid edirdi.

Vyetnam xalqı isə mübarizəni davam etdirirdi. Fransız dəstələri Xanoyda «qara bayraqlar» və vyetnamlılar tərəfindən məğlub edildilər. 1883-cü ilin iyununda Annam hökuməti fransız qoşunlarının Tonkindən çıxarılmasını tələb etdi.

Lakin fransızlar hərbi əməliyyatı fəallaşdırırdılar. Onlar Pekindən tələb etməkdə davam edirdilər ki, Çin Tonkindən öz qoşunlarını geri çağırsın. 1883-cü il noyabrın 16-da Çin hökuməti bildirdi ki, fransız ordusunun Tonkində qalması Fransa tərəfindən müqavilənin pozulması deməkdir.

Tsin imperiyasının hakim dairələrində əvvəldə olduğu kimi, birlik yox idi. Li Xun Çjan Çini təslimçiliyə aparırdı. O, 1884-cü il mayın 11-də Fransanın nümayəndəsi Furne ilə konvensiyanı imzaladı. Çin öz qoşunlarını Tonkindən çıxarmaq və Fransa-Vyetnam arasındakı hər hansı müqaviləni tanımağı öhdəsinə götürdü. Çin-Tonkin sərhəddi xarici ticarət üçün açıldı. Fransa isə Çinin Tonkinlə sərhədinin toxunulmazlığına tə'minat verdi. Bu, Çinin təslim olması demək idi.

Bu dövrdə Fransada dəyişiklik baş verdi. 1883-cü ildə hakimiyyətə Hindi-Çinin istismar olunmasına maraqlı olan dairələrin nümayəndələri gəldilər.

Yeni hökumət nəyin hesabına olursa-olsun Şimali Vyetnamın işğalını başa çatdırmağı qərara aldı. 1884-cü ilin yayında Baş nazir Jyül Ferri hesab edirdi ki, artıq Fransa Çinlə müharibəyə hazırdır.

1884-cü il iyunun 6-da Fransa Annama yeni müqavilə qəbul etdirdi. O müqaviləyə görə ölkə bütövlükdə və rəsmi olaraq Fransanın protektoratlığına keçirdi. Çinin Vyetnam üzərində vassal hüququ ləğv edilirdi. Fransa ordusu Vyetnamda istədiyi məntəqəni tuta bilərdi. Şimali Vyetnamda (Tonkində) vergilərin yığılması fransızların əlinə keçdi.

Fransa komandanlığı Lanksonda fırıldaq törətdi. Bunu isə Çinin üzərinə atdı. Bundan istifadə edərək iyulun 12-də Ferri hökuməti Çinə ultimatum verdi və Çindən 250 mln. frank təzminat tələb etdi. Çin bu ultimatumu rədd etdi.

Fransızlar Çin sərhəddini keçdilər. Çin sahillərinə admiral Kurbenin komandanlığı altında hərbi-dəniz donanması çıxarıldı. Mövcud vəziyyət heç də Çin üçün əlverişli deyildi.

Fransa - Çin arasında müharibə getdiyi dövrdə də diplomatik danışıqlar kəsilməmişdi. O, ingilislər vasitəsilə aparılırdı.

Fransa hökuməti tələb edirdi ki, Çin-Vyetnam üzərindəki syuzerenliyindən imtina etsin, «Qara bayraqlar»ı müdafiə etməkdən əl çəksin.

Fransızlar Çinə qarşı müharibədə görünməmiş çətinliklərlə üzləşirdilər.

1885-ci il martın 28-də Lanqson altında çinlilər fransızları məğlub etdi və fransızlar oranı tərk etməli oldular. Bu xəbər Parisə çatan kimi Ferri hökuməti devrildi.



Ölkədə milli yüksəliş hiss edilməkdə idi. Tsin hökuməti öz hakimiyyətindən qorxaraq Lanq-Son altındakı qələbədən istifadə etmədi və fransızlarla sülh bağlamağa tələsdi. 1885-ci il iyulun 9-da sülh müqaviləsi imzalandı. Çin tamamilə Tonkin üzərindəki syuzeren hüququndan imtina etdi. Tonkin-Çin sərhədində xarici ticarət üçün iki məntəqə açıldı. Yunnan-Quansi arasında dəmir yol çəkilməsi zərurəti yaranarsa, Çin onu fransızlara həvalə edəcəyini vəd etdi. Fransızların Tayvanda tutduqları məntəqələr, Penxuledao adası fransızlara qaytarıldı.

Çinlə ticarətdə maraqlı olan İngiltərə Fransanın Hindi-Çindəki işğalçılıq fəaliyyətini bəyənmirdi. Buna görə də o, Fransa-Çin müharibəsini pisləyirdi və ehtiyat edirdi ki, bu müharibə onun ticarətinə zərər vura bilər. Bununla yanaşı, onun ürəyindən idi ki, onun müstəmləkəçi rəqibi özünü uzunmüddətli avantüraya qoşmuşdu. İngiltərə hökuməti Fransanın qələbə çalmağını əsla istəmirdi.

Fransa–Çin müharibəsindən ingilislər öz ticarət əlaqələrində istifadə etməyə cəhd göstərirdilər. Çinliləri tiryəklə zəhərləmək üçün əlverişli şəraitə nail olan İngiltərə 1885-ci ildə Çifus konvensiyasını təsdiqlədi.

Fransızların Annamı və Tonkini işğal etməsi ingilislərin yuxarı Birmanı işğal etməsini sür'ətləndirdi. Kral Txibov Fransaya və digər Avropa dövlətlərinə arxalanmağa cəhd etdi. Bu məqsədlə o, 1883-cü ildə Avropa ölkələrinin paytaxtlarına nümayəndəlik göndərdi. 1885-ci il yanvarın 15-də Parisdə Fransa-Birma müqaviləsi imzalandı. Konsul nümayəndəliklərinin tə'yin edilməsində Fransa ən əlverişli hüquq aldı. Fransızlara Yuxarı Birmada yaşamağa, orada kommersiya işləri ilə məşğul olmağa, əmlak almağa icazə verildi. Fransanın bu ölkəyə soxulması İngiltərənin tə'sirini təhlükə altına alırdı.

İngiltərə hökuməti Yuxarı Birmanı işğal etməyi qərar aldı. 1885-ci ildə İravadi çayı vadisinə on minlik ingilis-hind ordusu göndərildi. Yuxarı Birma asanlıqla işğal olundu. Txibov əsir götürüldü. Onun paytaxtı qarət edildi. 1886-cı il yanvarın 1-də Birmanın işğal olunduğu e'lan edildi. Hindistanın vitse-kralı Yuxarı Birmanın Britaniya imperiyasına birləşdirildiyini e'lan etdi.

Yuxarı Birma formal olaraq Çinin vassalı sayılırdı. Vyetnamdan fərqli olaraq Çin hökuməti burada lazımi müqavimət göstərmədi 1888-ci ildə ingilis ordusu Sikkim və Himalay knyazlıqlarını işğal etdi. 1891-ci ildə Tsin hökuməti İngiltərənin Sikkim üzərində protektoratlığını tanıdı və onun işğal olunduğuna razılıq verdi.

Asiyanı bölmək uğrunda mübarizə, 70-80-ci illərdə Əfqanıstanın İngiltərə əsarətinə keçməsi, Türkmənistanın Rusiya tərəfindən, Vyetnamın Fransa, Ryukyu adalarının Yaponiya tərəfindən işğal olunması ilə nəticələndi.

Asiya uğrunda beynəlxalq mübarizə Sakit okeanın şimal-qərb rayonunu da əhatə etdi. Çar hökuməti Yaponiyanın Saxalinə iddiasından xilas olmaq istəyirdi. Saxalindən imtina etmək əvəzinə Çar Rusiyası 1875-ci il 7 may müqaviləsinə əsasən çoxdan Rusiyaya mənsub olan Kuril adalarından imtina etdi.

### Avstraliyanın müstəmləkəyə çevrilməsi

İngiltərənin Avstraliyada müstəmləkəçiliyinin inkişafı özünəməxsus xarakterdə olmuşdur. Bu ayrıca, materiklərdən uzaq ada, uzun müddət avropalıların diqqətini özünə cəlb etməmişdi. Onlar XVI və XVII əsrlərdən Hindistanda nağıllarda deyilən sərvəti axtarmaqla, oranın sərvətindən istifadə etməklə yanaşı, Amerikanın kəşfi ilə də məşğul olmuşlar. Yalnız köhnə



bir nəzəriyyə «cənub torpağın» olması haqqında mə'lumat verirdi: Şimal yarım adasında olan qurunun həcmini ölçmək üçün guya bu cənub torpağı lazım imiş. cənub torpaq - Terra australes sözündən Avstraliya meydana gəlmişdi. Avstraliya kəşf edildikdən hələ çox-çox əvvəllərdən mövcud olmuşdu.

Avropanın dəniz səfərlərinə çıxmış səyyahları XVII əsrin əvvəllərində Avstraliya sahillərinə gəlib çıxmışlar. Hollandiyalı Tasman bir neçə müddət sonra axınla cənubdan Avstraliyaya gəlmişdi. İndi Avstraliyanın cənubundakı ada onun adını daşıyır. Lakin xeyli müddət keçdikdən sonra, yəni dünyanı dolanmış ingilis dənizçisi Kukun XVII əsrin 70-ci illərində Sakit okeanda etdiyi kəşflərdən sonra buraya əhalinin gəlməsi başlandı. İngilislər Amerika müstəmləkələrini itirdikdən sonra müxtəlif cinayətlərə görə əsasən Vircinaya göndərilmiş, həbsxanalarda ağzına qədər dolmuş dustaqları boş yerlərə göndərmək zərurəti ilə üzləşdilər. İlk dəstə 1787-ci ildə Sidneyə gətirildi. İlk vaxtlar bura katorqa diyarına oxşayırdı. Bura ən qəddar adamlar qubernator tə'yin olunurdu. Onlar hədsiz səlahiyyətlərə malik idilər. Dustaqlar həmişə zəncirlərdə saxlanır, onlara hədsiz əzablar verilirdi. Onlar örkənlərlə bir-birilərinə bağlanmış halda işə aparılırdılar.

Lakin tədricən, azad adamlar gəldikcə, müstəmləkələr canlanmağa, bura gələnlər ölkənin yerli şəraitinə uyğunlaşmağa başladılar. İqliminə görə Avstraliyanın cənub-şərq hissəsi avropalıları qane edirdi. İndi məhz bu hissədə, yəni cənubi Uelsdə və Viktoriyada əhali daha sıx idi. Avstraliyanın bütün mərkəzi hissəsində dağlar uzanıb gedirdi, şimalı və qərbi isə heç bir suvarma vasitələri olmayan boş səhralardan ibarət idi. Bura əsasən, yerlilərin köç yerləri idi. Onlar çox aşağı inkişaf səviyyəsində idi. Şimal hissəsi tropik zona idi, o da avropalıların həyat tərzinə uyğun gəlmirdi. Avropada

və Şimali Amerikada olduğu kimi, Avstraliyada böyük meşəliklər, tikinti, inşaat işləri üçün lazımi material yox idi. Gözlənilməz şıdırğı yağışlar, hədsiz uzun müddət davam edən quraqlıq heç nəyə ümid etməyə imkan vermirdi. Elə olurdu ki, bir gündə illik normanın üçdə biri qədər yağış yağırdı. Onda çaylar daşır, hədsiz ziyanlar vururdu. Qısa vaxt ərzində sürülər məhv olur, əkinlər yoxa çıxırdı. Sonra isə illərlə bir damcı da yağış yağmırdı.

Avropalılar Avstraliyaya ənənəvi əkinçilik növləri ilə yanaşı, at, qoyun, dəvə, tütün, şəkər qamışı, banan gətirmişdilər. XIX əsrin əvvəllərində sahibkar Mak Arçer cənubi Afrikadan Avstraliyaya bir neçə merinos gətirmiş, bununla Avstraliyanın başlıca mədəni təsərrüfatının, yun istehsalının əsasını qoymuşdu. Burada qoyunçuluğu inkişaf etdirmək üçün çox əlverişli şərait var idi. Bununla yanaşı, iri əkinçilik təsərrüfatı da yaranmağa başlamışdı. İngilis qubernatoru hakimiyyətin mülkiyyəti e'lan etdiyi torpaqlardan sürgün edilənlərə və sərbəst insanlara 40-60 akr miqdarında kiçik sahələr vermişdi. Sonra ayrı-ayrı sahibkarlar üçün onun miqdarı 5000 akra çatdırılmışdı. Bununla Avstraliya aristokratiyasının yaranmasının bünövrəsi qoyulmuşdu.

XIX əsrin I yarısında İngiltərədə olduğu kimi Avstraliyada da siniflər və partiyalar yaranmağa başlamışdı. «İlk avstraliyalı» Uentuorq demokratik qəzetlər nəşr etməyə başlayır, sürgün edilənlərin azad olunması məsələsini qoyurdu. İri sahibkarlar üçün sürgün edilənlərin ucuz əməyi daha sərfəli idi. Uentuorq koloniyalar üçün muxtariyyat da tələb edirdi. İngiltərə hökuməti XVIII əsrdə Amerikanın acı təcrübəsindən nəticə çıxararaq (O, Kapda üsyandan sonra ona təcili özünü idarə hüququ verməyə məcbur oldu) Yeni Cənubi Uelsə özünü idarə etmək hüququ verdi. Qubernatorun yanında Qanunverici Şura yaradıldı. Bu vaxtdan



başlayaraq, Avstraliya daha sürgün edilənlərin yeri olmadı.

Avstraliyada qızıl yataqlarının tapılması buranın vəziyyətinə həllediji tə'sir göstərdi. 1851-ci ildən Avstraliyada qızıl istehsalına başlanıldı. Bu xəbər avropalıların bura olan marağını gücləndirdi. 1851-1861-ci illərdə buranın əhalisi cənubi koloniyalardan iki dəfə, Viktoriyadan altı dəfə artdı. XIX əsrin sonlarında Avstraliyanın artıq 4,5 milyon əhalisi var idi. Ayrı-ayrı koloniyalar arasında işgüzar əlaqələr yaranır və getdikcə genişlənirdi. Bununla yanaşı, onlarda birləşmə həvəsi də güclənirdi. 1891-ci ildə Yeni Uelsin naziri Parksın təşəbbüsü ilə Avstraliya koloniyaları nümayəndələrinin birinci konqresi toplandı. Yalnız 90-cı illərin əvvəllərində olmuş II konqresdə Avstraliya ittifaqının konstitusiyası işlənib hazırlandı. 1901-ci ildə Altı koloniyanın Avstraliya Federativ İttifaqı yaradıldı. Ora Yeni cənubi Uels, Viktoriya, cənubi Avstraliya, Qərbi Avstraliya, Kvinslend, Tasmaniya daxil oldu. Avstraliyalılar həm qanunvericilikdə, həm də idarə etməkdə müstəqil hüquqa malik idilər. İngiltərədən göndərilən hakimiyyət nümayəndəsinin Avstraliyanın işlərinə qarışması çox zəif idi. Hakimiyyət palatalarda əksəriyyət qazanmış partiyadan yaradılmış kabinetin əlində idi. Deputatlar Palatası, koloniyalarda proporsional əsasda seçilmiş nümayəndələrdən təşkil olunurdu. Senat isə hər bir koloniyadan bərabər miqdarda olan nümayəndələrdən təşkil olunurdu.

## VII FƏSİL

# RUS-YAPON MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ VƏ MÜHARİBƏ DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

### 1900-1901-ci illərdə Mancuriya uğrunda Rusiya-Yaponiya mübarizəsi

cənubi Afrikadakı hadisələr gah İranda, gah Əfqanıstanda, gah Mərakeşdə, bütün dünyanın ən qaynar ucqarlarında öz əks-sədasını tapırdı. Bu dövrdə böyük hadisələr baş verirdi. Yapon–Çin müharibəsi və onun ardınca Çinin bölüşdürülməsi Çində qəsbkarlara qarşı əhval-ruhiyyənin getdikcə güclənməsinə səbəb oldu. 1900-cu ilin mayında Bao-dinfu yaxınlığında dəmir yolunun dağıdılması ümumi üsyan üçün işarə oldu. İyunun 14-də üsyançılar Pekinə daxil oldular. Xarici dövlətlər Çində baş verən hadisələri diqqətlə izləyirdilər. İyunun sonlarında onlar 14 minlik ordu yaradaraq, ingilis admiralı Seymurun komandanlığı altında Pekinə göndərdilər. Lakin Pekinə çata bilmədilər. Üsyançıların ciddi müqavimətinə rast gələrək, Tyansizinə çəkilməyə məcbur oldular. Pekinlə xarici aləmin əlaqəsi kəsildi. Çin hakimiyyət orqanlarının xəbərdarlığına baxmayaraq, səfirlikdən şəhərə çıxarkən küçədə Almaniyanın diplomatik nümayəndəsi fon Kettler öldürüldü. Az sonra səfirlik kvartalı bütövlükdə mühasirəyə alındı.

Xarici dövlətlər isə Çinə hərbi müdaxilədə hansı dövlətin əsas rol oynayacağı üzərində mübahisə edirdilər. Nəhayət böyük dövlətlər Beyxe çayının ağzına öz hərbi gəmilərini topladılar. İngilislər öz dənizçilərini sahilə çıxardılar. Lakin yenə Pekinə girə bilmədilər. Afrikada müharibəyə başı qarışan İngiltərə «boksiyorlar» üsyanının yatırılmasını Yaponiyaya həvalə



etməyin tərəfdarı idi. Yaponiya özü də buna razı idi. Lakin bu hüsnü-rəğbətlə qarşılanmadı. Almaniya və Rusiya bu təklifə razı olmadılar; Bütün böyük dövlətlər, habelə ABŞ da pay qoparmaq naminə hərbi müdaxilədə iştirak etməyi arzu edirdilər.

Nəhayət, böyük dövlətlər onların hamısının hərbi hissələrinin daxil olduğu birləşmiş vahid ordu yaradılması qərarına gəldilər. 19 min nəfərdən ibarət belə bir ordu yaradıldı. II Vilhelmin təklifi ilə alman feldmarşalı Valderze birləşmiş qoşunun baş komandanı tə'yin olundu. Həmin ordu avqustun 6-da Tyansizindən Pekin istiqamətinə doğru hərəkət etdi. Bir həftə sonra Pekinə yaxınlaşdı və avqustun 14-də Pekinə daxil oldu. Pekin xaricilərin hakimiyyəti altına düşdü. Sonra isə hər yerdə üsyan yatırıldı. Xarici qoşunlar Şanxayı da tutdular. İngiltərə Yanszı hövzəsinin canişini ilə əlaqəni möhkəmləndirdi.

İngiltərənin ardınca fransızlar və almanlar Şanxaya öz qoşunlarını göndərdilər. Yanszı çayı ağzına bu dövlətlərin gəmiləri cəmləşmişdi.

Rusiya hökuməti ölkənin şimalında beynəlxalq intervensiyanı böyük əsəbiliklə izləyirdi. Rusiya Mancuriyada möhkəmlənmişdi. Lakin Pekinin, Tyansizin və Çjili əyalətinin boş yerlərinin beynəlxalq ekspedisiya korpusu tərəfindən işğal olunması ilə o heç vəchlə razılaşmaq istəmirdi. Rusiya hökuməti belə qonşulardan yaxasını qurtarmaq istəyirdi. Başqa dövlətlərlə birlikdə Rusiya da ora öz qoşununu göndərmişdi. Rusiya hökuməti xarici dövlətlərin ordularının Çindən çıxarılması təklifini irəli sürdü. O öz qonşuluğunda altı böyük dövlətin hərbi hakimiyyətini yox, zəif Çini görmək istəyirdi. Rusiya Çinlə separat dilbirliyinə çox ümid edirdi. Dövlətlər Rusiyanın təklifini rədd etdilər. Təkcə Rusiya öz qoşununu Çindən çıxardı.

Çin hökuməti xarici dövlətlərə müharibə e'lan etdi. 1900-cü ilin payızında Çinlə qərb dövlətləri arasında sülh danışıqları başlandı. Almaniya Çinə qarşı ən qatı repressiya tədbirləri tətbiq etməyi irəli sürürdü. Rusiya və Amerika hökumətləri isə Çinlə yaxınlaşmağa meyl edirdilər. İngiltərə isə işğalın müddətini uzatmağa cəhd edirdi. Danışıqlar uzun çəkdi. 1901-ci il sentyabrın 7-də qurtardı, protokol imzalandı. Çin 450 mln. tael (650 mln. dollara yaxın) təzminat verməli idi. Bu 35 il müddətində ödənilməli idi. Çin, üsyanın rəhbərlərini cəzalandırmalı, zərər çəkmiş xarici diplomatların şərəfinə heykəl qoymalı idi.

Beləliklə, üsyandan istifadə edərək, xarici dövlətlər Çinə qarşı yeni əsarətedici tədbirlər gördülər.

Rusiya tərəfindən Manjuriyanın tutulması ABŞ-ı, İngiltərəni, Yaponiyanı ciddi narahat edirdi. Kvantun vilayətinin baş rəisi admiral Alekseyevin və general Qrodskovun bilavasitə yerli mancur hökumət nümayəndələri ilə Pekində gedən danışıqlarla eyni vaxtda danışıqlar aparmaları vəziyyəti daha da kəskinləşdirdi. Noyabrın 9-da Alekseyev Mukden qubernatoru ilə yerli xarakterli saziş imzaladı. O faktiki olaraq Rusiyanın nəzarətini qəbul etdi. Rus ordusu bir sıra məntəqələrdə qalmalı idilər. Çin ordusu isə tərksilah edildi və buraxıldı.

Bunun ardınca Peterburqda Vitte, Lamzdorf və Kuropatkin Mərkəzi Çin hökuməti ilə Mancuriya barəsində ümumi sazişin layihəsini hazırladılar. Layihədə formal olaraq Mancuriyada Çinin hakimiyyətinin bərpa edilməsi nəzərdə tutulurdu. Lakin onda irəli sürülən bir sıra şərtlər şimali-şərq əyalətlərində Rusiyanın mövqeyini möhkəmləndirirdi. Layihədə «sakitlik yaradılması» və Şərqi Çin dəmir yolunun çəkilib başa çatdırılmasına qədər dəmir yolunun müdafiəsi üçün orada rus qoşunlarının saxlanması nəzərdə tutulurdu.



Bundan sonra Çin qoşunlarının sayı Çin hökuməti tərəfindən ayrıca həll edilməli idi. O isə Rusiya ilə bağlanmış xüsusi sazişlə müəyyən edilməli idi. Çin hökuməti Mancuriyanın üç əyalətində başçıları dəyişdirməyi öz üzərinə götürməli idi. Layihədə həm də Çin hökuməti Rusiyanın razılığı olmadan Rusiyaya sərhəd rayonlarını xarici dövlətlərə və onların vətəndaşlarına konsessiya verməyəcəyini öhdəsinə götürməli idi. Layihədə həm də ŞÇDY-nin xəttlərindən birinin Çin səddinə qədər Pekin istiqamətinə gedən dəmir yolunun Rusiyaya konsessiya verilməsi qeyd olunurdu.

Mancuriyada Rusiyanın bu siyasəti Qərbdə böyük hay-küyə səbəb oldu. «Tayms» qəzetində, tam dəqiq olmasa da Alekseyevin Mukden qubernatoru ilə sazişinin mətninin dərc edilməsi İngiltərədə təcili əks-sədaya səbəb oldu.

Markiz Lensdaun 1901-ci il yanvarın 5-də Peterburq və Pekindəki ingilis səfirlərinə tapşırdı ki, sazişin olduğunu yoxlasınlar. Bununla kifayətlənməyərək, İngiltərə hökuməti 1901-ci ilin yanvarında birbaşa işə qarışmaq və hətta ikilikdə Rusiya əleyhinə ittifaq bağlamaq təklifi ilə Almaniya və Yaponiya ilə danışıqlara başladı. Bu separat müqavilənin əsasını Çini yuxarıda adı çəkilən layihəni qəbul etməməyə məcbur etmək təşkil edirdi.

Rusiya hökuməti Yaponiya ilə əlaqələri düzəltməyə cəhd etdi. 1901-ci ilin yanvarında Koreya hökuməti böyük dövlətlərin tə'minatı altında ölkənin neytrallaşdırılması ideyasını irəli sürdü. Rusiya diplomatik nümayəndəsi Tokioda bu təklifi müdafiə etdi. Hətta Rusiya Yaponiyanın Koreyada tə'sirinin əhəmiyyətli dərəcədə genişləndirilməsinə də razı idi. Əvvəlcə Yaponiya tərəfi danışıqlara razılıq verdi. Çünki Yaponiya hökuməti ehtiyat edirdi ki, Rusiya Almaniya və Fransanı müdafiə edə bilər. Belə hal 1895-ci ildə də ol-

muşdu. Lakin 1901-ci il yanvarın 17-də Yaponiya bildirdi ki, Mancuriyada vəziyyət düzəlməyincə Rusiya ilə heç bir danışıqlar olmayacaq.

Yaponlar təkcə Koreyanı deyil, həm də Şimali şərqi Çini işğal etmək fikrində idilər. 1901-ci ilin yanvar və fevralında Yaponiya İngiltərə hökumətinə təklif etdi ki, Çinin şimali-şərq əyalətlərinə dair Rusiyanın separat danışıqlarına qarşı birlikdə Peterburqa protest versinlər. Lakin London bununla razılaşmadı. London yalnız Pekinə protest verməyə tərəfdar çıxdı. Yaponiya və İngiltərəyə Almaniya və ABŞ da qoşuldu. Onlar Rusiya və Çin arasında gedən danışıqlara öz e'tirazlarını bildirdilər. Beləliklə, Fransa istisna olmaqla, bütün böyük dövlətlər Rusiyanın əleyhinə çıxdılar. 1901-ci ilin yanvarında Fransa Rusiyanın Mancuriyadakı siyasətini müdafiə edəcəyini öhdəsinə götürdü.

Yuxarıda göstərdiyimiz layihə əsasında danışıqlar nəticəsiz qurtardı.

Çin hökuməti dövlətlərin tutduqları mövqelərə əsaslanaraq, konvensiya haqqında rus layihəsindən imtina etdi. 1901-ci ilin ortalarında Rusiya hökuməti Çin nümayəndəsinə bəyanatla birlikdə yumşaldılmış layihəni təqdim etdi. Bəyanatda deyilirdi ki, əgər Çin iki həftə ərzində konvensiyanı imzalamasa Rusiya Manjuriyada tam sərbəst hərəkət etmək hüququnu özündə saxlayır. İngiltərə, Yaponiya, Almaniya və ABŞ-ın təzyiqi altında Çin 1901-ci il martın 24-də bu layihəni də rədd etdi.

Yaponiya hökuməti bununla da kifayətlənmədi. O, 1901-ci il aprelin 6-da Peterburqa yeni nota göndərdi. Rus-yapon münasibətlərinin ciddi kəskinləşməsi başlandı.

Hətta Rusiya öz qoşunlarını Mancuriyadan çıxarmağa hazır olduğunu bildirdikdən sonra belə, sazişin bir sıra maddələri Mancuriyaya soxulmaq arzusunda



olan dövlətlərin ciddi əks müqavimətinə rast gəldi. E'tiraz doğuran maddələr əsasən aşağıdakılar idi.

Maddə 15. Rusiyaya düşmən münasibət bəsləyən məmurların Mancuriyadan uzaqlaşdırılması.

Maddə 6. Şimali Çində xarici təlimatçılardan istifadə etməkdən Çinin imtina etməsi;

Maddə 8. Mancuriyada, Monqolustanda və Rusiya ilə həmsərhəd olan digər vilayətlərdə başqa dövlətlərə konsessiyaya verilməsinin Çinə qadağan edilməsi və s.

Çin sazişi imzalamadı. Bundan sonra 1901-ci il aprelin 5-də «Hökumət xəbərləri»ndə Uzaq Şərqdə Rusiya siyasəti haqqında iki dövlət arasında danışıqları şərh edən ətraflı material dərc olundu. Həmin materiallarda xarici səbəblər üzündən Çinin danışıqları pozduğu aydın göstərilirdi.

Artıq apreldə Çinin hakim dairələrində rus təkliflərinə münasibətdə fikir aydınlığı özünü göstərirdi. Əvvəllər Rusiya təkliflərinin yumşaldılması üçün dövlətlər arasındakı ziddiyyətlərdən istifadə edən Li Xun-Çjan Yaponiya tərəfindən Mancuriyaya olan təhlükəni nəzərə alaraq, Rusiya ilə sazişə getməyə meyl göstərirdi. Digər qrup isə bunun qəti əlehinə idi.

Manjuriya məsələsinin açıq qalmasına baxmayaraq Rusiyanın burada hakim mövqeyi şübhəsiz idi.

Rus-Çin danışıqlarının kəsilməsinə baxmayaraq Rusiya qoşunları Mancuriyada qaldı.

## ABŞ və Mancuriya məsələsi

ABŞ-ın Mancuriyada xeyli dərəcədə iqtisadi maraqları var idi. Mancuriyada yeganə açıq Liman olan Nyucuan Çinlə ticarətdə birinci yerdə idi. ABŞ gələcəyə daha böyük ümidlər bəsləyirdi. Buna görə də o, Rus-Çin sazişinin baş tutmasında fəal rol oynamışdı. Bununla yanaşı dövlət katibi Rusiyanın səfiri Kassinin vasitəsi ilə

razılığa gəlmək arzusunda olduğunu bildirmişdi. Amerika diplomatiyasının məqsədi Amerika kapitalının Mancuriyaya daha çox daxil olmasına nail olmaq idi. Kassinin verdiyi mə'lumata görə, martın sonlarında dövlət katibi Xey birbaşa bildirmişdi ki, xarakterindən asılı olmayaraq ABŞ bizim Mancuriyada başlayacağımız işə e'tiraz etməyəcək, o şərtlə ki, Amerikanın ticarət maraqlarına toxunulmasın.

Rusiya hökuməti bu təklifə müsbət yanaşdı. Buna inanan Xey 1901-ci il aprelin 20-də aşağıdakı addımı atdı, o, Kassinə məxfi məktub göndərdi. Məktubda deyilirdi ki, prezident arzu edir ki, rus hökuməti təsdiq etsin ki, Mancuriya və Şimali Çin haqqında Rusiya və Çin arasında saziş bağlanması nəticəsində Çinin heç bir yerində habelə Mancuriyada ABŞ-ın vətəndaşlarının ticarət mənafeləri zərər çəkməyəcək və bu sazişdə qeyd olunacaq. Lakin Xey bunu açıqlamaq istəmədi. Rusiya hökuməti Kassinə tapşırdı ki, şifahi olaraq Vaşinqtona müsbət cavab versin və bildirsin ki, Mancuriyada Amerika ticarət maraqlarının genişləndirilməsinə heç bir maneçilik törədilməyəcək.

## İngilis-alman ittifaqı haqqında danışıqlar (1901-ci ilin yazı)

İlk baxışdan separat Rus-Çin sazişinə qarşı Almaniyanın e'tirazı təəccüblü görünə bilərdi. Çünki Almaniya dəfələrlə Peterburqa bildirmişdi ki, onu Mancuriya maraqlandırmır. Almaniyanın Çinə qarşı aqressivliyi də məsələni aydınlaşdırmırdı. Çünki dövlətlərin Çinə e'tiraz e'lan etmələrinə baxmayaraq, əslində o, Rusiyaya qarşı idi. Almaniya həm də dəfələrlə bəyan etmişdi ki, o Rusiyanın Uzaq Şərqdə siyasətinə əks getməyəcək.



Almaniya diplomatiyası Rusiyanın Şərqi Asiyada siyasətinə rəvac verirdi. O formalardan biri kayzerlə çarın məktublaşmaları idi. Vilhelm Nikolayı inandırırdı ki, o, Avropanı «sarılardan» qorumaq missiyasını öz üzərinə götürməlidi. O, yaponları biabır edirdi və vəd edirdi ki, Avropa sərhədlərində Rusiyanın arxasının təhlükəsizliyini tə'min edəcək.

Almaniya diplomatiyasının ikiüzlülüyü heç də ingilis hökumətini kifayətləndirmirdi. Tokiodan isə Londona müharibə iyi gələn xəbərlər gəlirdi. Yaponiya tələb edirdi ki, İngiltərə Yaponiya ilə birlikdə Rusiyaya qarşı mübarizəni genişləndirməyə hazır olduğunu göstərməlidir. Lakin İngiltərə Yaponiyanın Koreyanı, Uzaq Şərqdə digər hansısa əyaləti tutmaq naminə müharibəyə risk etmək fikrində deyildi.

Yaponiyanın İngiltərəni müharibəyə təhriki Fransanın maliyyə təzyiqi ilə qarşılaşırdı, İngiltərə Uzaq Şərqdə Rusiyaya qarşı çoxsaylı ingilis banklarındakı fransız valyutası dondurulacaqdı. Bu isə İngiltərəni daha çox qorxudurdu.

London tam başqa şeyə nail olmaq istəyirdi: O, Asiyada Rusiyanın zəifləməsini çox arzu edirdi. Lakin bunu başqalarının əli ilə etmək istəyirdi. Bu məqsəd üçün Yaponiyanın gərəkli olmasına İngiltərə inanmırdı. Yaponiya Rusiyanın öhdəsindən gələ bilərmi? Buna o, şübhə ilə baxırdı. Hələ cənubi Afrikada müharibə getdiyi bir dövrdə London hədsiz ehtiyatlı olmağa daha çox üstünlük verirdi.

Digər tərəfdən İngiltərə hökuməti çox qorxurdu ki, öz passivliyi nəticəsində Yaponiyanı Rusiya ilə saziş bağlamağa itələsin. İngilis kabineti mürəkkəb vəziyyətdə qalmışdı. Çıxış yolu Yaponiyadan başqa digər bir dövləti Rusiyaya qarşı ələ almaq idi. Belə bir dövlət Almaniya ola bilərdi. Belə şəraitdə İngiltərə daha cəsarətli hərəkət edə bilərdi.

Berlin, London heç vəchlə Yaponiyanın Rusiya ilə barışmasını istəmirdilər. Almaniya hökuməti bir tərəfdən Rusiyanı yaponları sıxışdırmağa, yeni işğalçılığa təhrik edirdi, digər tərəfdən kayzer çara öz xeyirxah münasibətlərini izhar edirdi. Kayzer və onun müşavirləri Uzaq Şərqdə müharibəni qızışdırmağa cəhd edirdilər. Almaniyanın başlıca məqsədi Rusiyanın Uzaq Şərqdə başını qatmaq, alman sərhədlərindən onun diqqətini yayındırmaq, Rusiyanı, habelə Fransa-Rusiya ittifaqını zəiflətmək idi. Berlində və Londonda İto (Yaponiyanın Baş naziri) siyasətinin Rusiya ilə sazişlə nəticələnməsindən çox ehtiyat edirdilər. Məhz Yaponiyanı şirnikdirmək arzusu, Almaniyanın Mancuriya haqqında Rus-Çin sazişinə qarşı siyasəti dövlətlərin e'tirazına səbəb olmuşdu.

Yaponiyanın Baş naziri İtonun Rusiya ilə saziş bağlamasına imkan verməmək üçün Almaniya başqa bir addım da atdı. O, şifahi surətdə Yaponiyaya bildirdi ki, rus-yapon müharibəsi olarsa Almaniya Yaponiyaya qarşı xeyirxah bitərəflik saxlayacaq.

Lakin Yaponiyanı təkcə Almaniyanın mövqeyi narahat etmirdi. Onu narahat edən həm də Fransa idi. Axı, Fransa Rusiyanın müttəfiqi idi. Öz səfiri Xayasi (Londonda Yaponiyanın səfiri) vasitəsilə o, Londondan soruşdu ki, Yaponiya ilə Rusiya arasında müharibə olarsa, İngiltərə Fransanı bu müharibəyə qarışmaqdan saxlamağı öz üzərinə götürürmü?

İngiltərə hökuməti cavab verməzdən əvvəl, yenə Berlinə müraciət etdi: Əgər o, Parisdə rus-yapon müharibəsinin lokalizasiyası (qarşısını almaq) haqqında bəyanatla çıxış edərsə, Almaniya hökuməti ingilis bəyanatına qoşularmı?

Byulov bu dəfə bundan qətiyyətlə imtina etdi. Byulov Yaponiyanı Rusiyaya qarşı müharibəyə qızışdırırdı. Bununla yanaşı, Kayzer cavab verdi ki, Fransa Rusiya



tərəfindən müharibəyə qoşulmağa cəsarət edə bilməz. O, bitərəfliyi gözləyəcək.

Rus-Yapon müharibəsi ilə əlaqədar olaraq Almaniya hökumətinin məqsədi ingilislərdən fərqli olaraq heç də müharibənin qarşısını almaq yox, onun daha güclü getməsinə nail olmaq idi. Almaniya bilirdi ki, əgər o, Fransanın ünvanına nə isə desəydi, açıqdan-açığa onu Rusiyanın qucağına atardı. Lakin çox təəccüblü olsa da 1901-ci il martın 15-də Byulov İngiltərə üçün heç də xoş olmayan bir bəyanatla çıxış etdi. O bildirdi ki, Çində «açıq qapılar» haqqında və onun ərazi bütövlüyü haqqında 1900-cü ilin sentyabrında bağlanmış saziş heç bir mənada Mancuriyaya aid edilməməlidir.

İngiltərənin hakim dairələrində Byulovun nitqi ciddi narazılıqla qarşılandı. 1901-ci il martın 18-də İngiltərənin Xarici İşlər Naziri Lord Lensdaun və Almaniyanın Londondakı səfirliyinin birinci katibi Ekkardşteyn arasında söhbət oldu. Lensdaun Uzaq Şərq məsələsində Almaniyanın mövqeyinə dair öz iradı ilə sözə başladı: «Mən gördüm ki, Byulovun nitqi Rusiya və Yaponiya arasında müharibənin qabağını almaq naminə İngiltərənin və Almaniyanın birləşməsinin mümkünlüyü haqqında ideyaya son qoyur».

Ekkardşteyn onunla razılaşdı. Lakin bildirdi ki, Almaniya Çindəki mövcud vəziyyəti nəzərə alaraq İngiltərə ilə sazişə girmək məqsədində deyil, lakin iki dövlət arasında uzun müddətli və geniş xarakterli müdafiə ittifaqı bağlamağa razıdır. Bu ittifaq yalnız Rusiya və Fransaya qarşı olmalıdı.

Lensdau bildirdi ki, həmkarları ilə məsləhətləşmədən bu suala cavab verə bilməz.

Lakin sonrakı hadisələrin təhlili və sənədlər təsdiq edir ki, alman-rus ittifaqının qatı tərəfdarı olan Ekkardşteynin Berlinə göndərdiyi mə'lumatdan elə

nəticə çıxarılır ki, guya bu təklifi o yox, ingilislər ona veriblər.

Martın 20-də Ekkardşteynin teleqramına reyxsfurer Byulov özü cavab vermişdi. İngilislər ilə müdafiə xarakterli ittifaqın bağlanmasına Almaniya hökuməti prinsipcə müsbət yanaşmır. Lakin onunla da hesablaşmaq lazımdır ki, belə ittifaq təkcə Almaniyanı deyil, onun müttəfiqlərini də müharibəyə cəlb edə bilər. Sonra Byulov davam edərək yazırdı, Almaniya İngiltərə ilə ittifaqa yalnız Üçlər İttifaqı üzrə müttəfiqlərinin razılığı ilə daxil ola bilər. Yaxşı olardı ki, İngiltərə özü Vyanaya müraciət edərdi. Avstriya-Macarıstan hökuməti ingilis-alman ittifaqına razı olarmı? Belə halda Yaponiyanı da bu ittifaqa cəlb etmək olar. İngiltərə ilə ittifaq haqqında məsələdə Almaniyanın mövqeyi belə idi.

Beləliklə, bu haqda danışıqlara Avstriya-Macarıstan, sonra isə İtaliya da cəlb olunmalı idi.

Byulov qeyd edirdi ki, o vaxt ideal, yaxşı olardı ki, İngiltərə ilə ittifaqa Üçlər ittifaqı bütövlükdə qoşulsunlar.

Ekkardşteyn İngiltərəni Üçlər ittifaqına qoşulmağa də'vət etdi. Bunun üçün İngiltərə əvvəlcə Vyana ilə danışmalı idi.

Almaniyanın bu təklifinin mənası tam aydın idi. Almaniya diplomatiyası elə bir müqavilə forması təklif edirdi ki, o Rusiyaya qarşı mübarizədən yan keçməyə imkan verməsin.

Byulovun təklifinə İngiltərə necə münasibət bəslədi?

Əvvəlcə Lensdaun Berlinin təklifinə müəyyən maraq göstərdi. Lakin bir neçə gündən sonra 1901-ci il martın 29-da İngiltərə danışıqları davam etdirməkdən boyun qaçırdı, İngiltərə hökuməti Almaniya ilə ittifaq ideyasını qəti rədd etdi. 1901-ci il mayın 29-da Solsberi kabinetə memorandum təqdim etdi; həmin sənəddə o, ingilis-alman ittifaqının əleyhinə öz fikrini bildirdi. O,



yazırdı: Almaniya və Avstriyanın sərhədlərini Rusiyadan qorumaq Fransaya qarşı Britaniya adalarını qorumaqdan ağırdı.

İngiltərənin məqsədi Uzaq Şərqdə Almaniyanı Rusiyaya qarşı müharibəyə cəlb etmək idi. Lakin Almaniya ilə ittifaq bağlamaq fikrində deyildi. İngiltərənin məqsədi Almaniyanı Mancuriya uğrunda Rusiya ilə, Mərakeş uğrunda Fransaya qarşı mübarizəyə qoşmaq idi.

İngilis-bur müharibəsi dövründə Fransanın diplomatik fəaliyyəti xeyli fəallaşmışdı. Bu illərdə o, Mərakeşə diqqətini artırmışdı. Mərakeşi işğal etməklə onun Şimali Afrika imperiyası tamamlanmış olar, Aralıq dənizinin qərb hissəsində onun strateji mövqeyini möhkəmlədərdi.

1900-cü ilin yazında Fransa Mərakeşdən Saxara və irəliyə, Nigeriya hövzəsinə gedən yolun üzərində yerləşən Tuat ərazisini işğal etdi. Beləliklə, o, Mərakeşi cənubdan əhatəyə aldı.

Bununla bərabər o, İtaliya ilə müqavilə bağlamaq haqqında diplomatik hazırlıq aparırdı. Fransa 1901-ci ildə sərhəd qəbilələrinin Əlcəzairə keçmələrini bəhanə edərək, Mərakeşə qarşı hədələyici hərbi-dəniz nümayişini düzəltdi.

İngiltərə hökuməti də cəbəllütariq boğazında öz mövqelərini çox sayıqlıqla qoruyurdu.

Sultan Əbdül Əzizini diplomatiyası Fransa, Almaniya, İngiltərə və İspaniya arasındakı ziddiyyətlərdən istifadə etməyə cəhd göstərirdi. Almaniyanı Fransaya qarşı yönəltmək İngiltərənin də xeyrinə idi. Mərakeşdə Almaniya-Fransa əməkdaşlığı barədə qızğın söhbət gedirdi. Çemberlen hələ 1899-cu ildə Mərakeş məsələsində kayzerlə əməkdaşlığa səy göstərmişdi. Lakin bu uğursuz qurtarmışdı. Almaniya gözləyirdi ki, Mərakeşdə İngiltərə-Fransa ziddiyyətləri o qədər

keskinləşsin ki, o, öz əməkdaşlığını daha yüksək qiymətə sata bilsin. Getdikcə Mərakeşi bölməkdə iştirak etmək Almaniyanın da iştahından keçməyə başladı.

İngilislərlə almanlar arasındakı uğursuz danışıqlarla yanaşı, ingilis-yapon danışıqları da gedirdi. 1901-ci il martın 9-da Yaponiyanın Xarici İşlər Naziri Kato Yaponiyanın Londondakı səfiri Xayasiyə göstəriş verdi ki, o Lensdaudan soruşsun ki, Yaponiya Rusiyaya qarşı durmaq zərurəti qarşısında qalarsa, o, Böyük Britaniyadan hansı ölçüdə kömək gözləyə bilər?

Martın 16-da cavab verildi. İngiltərə hökuməti bildirdi ki, o, bitərəf olmaq fikrindədi. Sonra bildirdi ki, o, bu xətti qəti hesab etmir, onu hadisələrin gedişi müəyyən edəcək. Belə cavab Yaponiyanı qane edə bilməzdi.

Yaponiya İngiltərə hökumətinə öz sorğusunu təkrar etdi. 1901-ci il aprelin 17-də Xayasi bildirdi ki, hər iki tərəfin mənafelərinin müdafiəsi üçün İngiltərə ilə daimi sazişin bağlanması arzu ediləndir. Bu dəfə də o, qaneedici cavab almadı.

İngiltərənin mövqeyi 1901-ci ilin yayında dəyişdi. İyulda Vitte Koreyada ona bəzi güzəştlərə getmək şərti ilə Yaponiya ilə saziş bağlamağa cəhd etdi. Bu İngiltərəni təşvişə saldı. İyulun 31-də Lensdaun Xayasiyə bildirdi ki, əgər Yaponiya hökuməti arzu edirsə, o, İngiltərə və Yaponiya arasında müqavilə bağlamağın mümkünlüyünü müzakirə etməyə hazırdı. 1901-ci il avqustun 14-də Xayasi razı olduğunu bildirdi. O Lensdaundan şərtlərini bildirməyi xahiş etdi. İngiltərə naziri bildirdi ki, Yaponiya daha çox maraqlı tərəfdir, buna görə də o, şərtləri bildirməlidir.

Elə bu dövrdə Yaponiyada ciddi dəyişiklik baş vermişdi. 1901-ci ilin iyununda İto hökuməti hakimiyyətdən getmişdi. Onu qraf Katsura, marşal Yamaqatanın adamı əvəz etdi. Yaponiya hökuməti daha



təcavüzkar xətt yeritməyə başladı. Katsura hökuməti İngiltərə ilə Rusiya əleyhinə ittifaq bağlamağı zəruri hesab edirdi.

İto ingilislərin səmimiliyinə şübhə etdiyini bildirdi: doğrudanmı o Yaponiyanın naminə ənənəvi bitərəflik siyasətindən imtina etməyə hazır idi? O ingiltərə ilə ittifaqa e'tiraz etmirdi. Lakin Rusiya ilə razılığa gəlməyə üstünlük verirdi.

Yamaqatanın, Katsuranın, İtonun və onun tərəfdarı İnouenin iştirak etdikləri müşavirədə İtonun Peterburqa getməsi və çar hökuməti ilə razılığa gəlməyə jəhd göstərməsi qərara alındı. Yamaqata və Katsura İtonun uzun müddətdə Tokiodan getməsinə maraqlı idilər. Yapon diplomatları İngiltərə hökumətinə bildirdilər ki, İtoya Yaponiya hökuməti adından bu və ya digər saziş haqqında danışıqlar aparmaq səlahiyyəti verilməyib.

Ölkədə hakim dairələr arasında mübarizə İngiltərə ilə danışıqların inkişafını bir qədər ləngitdi. Yalnız 1901-ci il oktyabrın 8-də Xayasi danışıqları bərpa etmək haqqında göstəriş aldı. Oktyabrın 16-da o, Yaponiyanın şərtlərini təqdim etdi: Yaponiyanı daha çox Koreya maraqlandırır, Manjuriya isə onu o qədər də maraqlandırmırdı. Lakin oranı işğal edəndən sonra o Koreyanı da tuta bilərdi. Yaponiya hökuməti İngiltərə ilə elə bir ittifaqın tərəfdarı idi ki, o, hər iki tərəfi hərbi köməklə tə'min etmiş olsun.

Noyabrın 6-da Lensdaun Xayasi ilə görüşdü və ittifaq müqaviləsinin ingilis layihəsini ona verdi. Britaniya hökuməti ittifaq müqaviləsinin tə'sir dairəsini Uzaq Şərq çərçivəsindən kənara çıxarmağı təklif edirdi. O, Hindistan uğrunda müharibə olarsa, Yaponiyanın kömək göstərməsini nəzərdə tuturdu. Koreyada isə Rusiyanın oranı işğal etməsinin qarşısını almaq üçün birgə fəaliyyət irəli sürülürdü.

Yaponiya hökuməti e'tiraz etdi. O, sazişin tə'sir dairəsinin Çin və Koreya sərhədlərindən kənara genişləndirilməsi ilə razılaşmırdı. Başqa sözlə, Yaponiya Koreyanı faktiki olaraq işğal etməkdə İngiltərənin kömək göstərməsini istəyirdi.

Yaponiyanın keçmiş baş naziri İto əvvəljə 1901-ci noyabrın 13-də Parisə gəldi və Delkasse ilə görüşdü. Fransa naziri Yaponiyanın Rusiya ilə barışmasının qızğın tərəfdarı idi. O, Rusiya ilə sazişi müdafiə etdi.

İto ümid etdiyini bildirdi ki, saziş əldə ediləjək, zəruri olarsa, Fransanın vasitəçiliyinə də mürajiət edəjək.

Noyabrın 14-də Xayasi Londondan Parisə gəldi. İngiltərə hökuməti ilə danışıqlar barədə İtoya mə'lumat verdi. İto gözləmirdi ki, onun ölkədə olmadığı müddətdə Katsura işi belə dərinliyə aparar. Xayasinin gəlməsi yapon hökumətinin diplomatik manevri idi.

Noyabrın 24-də İto Peterburqa gəldi. O çox yüksək səviyyədə qarşılandı. İto çar, Lamzdorf və Vitte ilə söhbət etdi. O, Koreyada Yaponiyanın tam tə'sirini tələb etdi. Ona bildirdilər ki, Rusiyanın mənafeyi Koreya körfəzində onun sərbəst üzməsini tələb edir. Əgər bu təklif qəbul edilərsə, onda Rusiya Koreyada Yaponiyanın sənaye və ticarət maraqlarını qəbul edər. Çar hökuməti Koreya hökumətinə məsləhətlər verməyə, hərbi sahə də daxil olmaqla Koreya hökumətinə kömək göstərməyə tam üstünlük verməyə hazırdı. O, Yaponiyanın Koreyaya qoşun hissələri yeritmək «hüququnu» da tanıyır. Ancaq onun miqdarı və orada qalma müddəti məhdud olmalıdı. Yaponiya hissələri rus sərhəddində müəyyən edilmiş zonanı keçməməlidirlər. Rusiya Yaponiyanın Koreyadan ona qarşı öz strateji məqsədləri üçün istifadə etməsini istəmirdi. Yaponiya Mancuriyada və Çinin başqa əyalətlərində Rusiyanın mövqelərini tanımalıdı.



Peterburqa İtonun yanına Londondan Yaponiya səfirliyinin əməkdaşı göndərildi. Ona ingilis-yapon müqaviləsinin layihəsi təqdim olundu.

İto öz hökumətinə həmin sazişi imzalamamağı, onu Rusiya ilə Yaponiyaya mənfəətli olan sazişin bağlanması imkanının tam aydınlaşdırılmasına qədər saxlamağı məsləhət bildi. Lakin Yamaqata və Katsura onun məsləhətinə əməl etmədilər. İto vasitəsilə Peterburqla danışıq aparmaqda Yapon hökumətinin məqsədi İngiltərəyə təzyiq göstərmək idi.

Dekabrın 7-də Şura Yaponiya ilə ittifaq müqaviləsini imzalamaq haqda qərar qəbul etdi. Dekabrın 19-da İngiltərə kabineti də Yaponiya ilə ittifaq bağlamaq haqqında qərar qəbul etdi. İngilis-yapon ittifaqının yaradılması Rusiyaya qarşı müharibə xətti demək idi.

### İngilis-yapon müqaviləsi

1902-ci il yanvarın 30-da Lensdaun və Xayasi ittifaq müqaviləsini imzaladılar. Hər iki tərəf Koreyada və Çində maraqlarını qorumağı öhdələrinə götürdülər. Bu müqavilə Yapon diplomatiyasının böyük qələbəsi idi. O, Yaponiyanın Rusiyaya qarşı müharibəyə başlamasına imkan verirdi. Yaponiya inanırdı ki, təkcə Yaponiya ilə deyil, həm də İngiltərə ilə toqquşa biləcəyindən ehtiyat edən heç bir dövlət Rusiyaya silahlı kömək göstərməyəcək. İttifaq müqaviləsini bağlamaqla yanaşı iki dövlət arasında məxfi nota mübadiləsi də olmuşdu. Həmin sənəddə göstərilirdi ki, «sülh vaxtında nə qədər mümkün olarsa, hər iki dövlət hərbi-dəniz qüvvələrinin hərəkətlərini bir-biri ilə razılaşdıracaqlar. Doklardan, yeni gəmi təmir olunan yerlərdən, daş kömürlə tə'min edilməsindən imtiyazlı şərtlərlə istifadə edəcəklər. Hər iki dövlətin hərbi-dəniz qüvvələri hər hansı başqa

dövlətin qüvvələrindən güclü olmasına baxmayaraq, onu olduğu kimi saxlayacaqlar».

İttifaq müqaviləsi London sitinin (bankların yerləşdiyi məhəllə) Yaponiyaya maliyyə köməyini tə'min etdi.

İngilis-yapon ittifaqı Rusiyanı bərk qorxuya saldı.

İngilis-yapon ittifaqı şübhəsiz, Mancuriya probleminə də tə'sir etməli idi.

Vitte 1902-ci ilin ortalarında Manjuriya səfərindən sonra geniş mə'ruzə ilə çıxış etdi. Yaponiya ilə qarşılıqlı münasibətləri götür-qoy edərək, Vitte göstərirdi ki, yaxın illərdə Yaponiya ilə silahlı mübarizə bizim üçün böyük fəlakət ola bilər.

Bununla yanaşı, o, Koreya məsələsində daha ehtiyatlı xətt irəli sürürdü. «İki ziyandan - Yaponiya ilə silahlı toqquşmadan və Koreyanın ona güzəştə getməkdən hansı, ikincisi yaxın gələcəkdə Rusiya üçün daha az ziyanlı ola bilər. Yaddan çıxartmaq lazım deyil ki, o həm də Qərbdə və Yaxın Şərqdə bizi zəiflədə bilər». Lamzdorfa xüsusi məktubunda Vitte hətta Yaponiya ilə müvəqqəti müqavilə bağlanmasının zəruriliyini də irəli sürürdü.

Yaponiya ilə müharibədən yan keçmək daha mümkün deyildi. Ona görə ki, Yaponiya artıq bu müharibəyə ciddi hazırlıq görürdü.

Yaponiyanın düşmənçilik mövqeyi Rusiyanın öz qoşunlarını Mancuriyadan çıxarmağa da imkan vermirdi. Yaponiya xalis fitnəkarlıq baxımından Rusiyanın öz öhdəliyini yerinə yetirməsində maraqlı deyildi.

1902-ci ildə Yaponiyanın diplomatik nümayəndəsi Koreya məsələsi üzrə sazişin layihəsini Rusiya hökumətinə verdi. Layihədən Koreyada Yaponiyanın tam nəzarəti ilə yanaşı, həm də onun Mancuriyada işğalçılıq məqsədləri güddüyü də duyulurdu. Rusiyanın Koreyadan tam imtina etməsinə cavab olaraq, Yaponiya



Mancuriyada onun təkcə dəmir yol marağını tanıdığını bildirirdi.

İngiltərə ilə Yaponiya arasında ittifaq bağlamaq haqqında danışıqlar getdiyi dövrdə, 1901-ci il avqustun əvvəllərində Li Xun-Çjan Mancuriyanı boşaltmağın şərtləri haqqında danışıqlara başlamağı Rusiya hökumətinə təklif etdi. Bu dəfə Peterburq daha böyük güzəşt etməyi qərara aldı. Xarici İşlər Naziri Lamzdorf heç bir müqavilə bağlamadan, Çindən heç bir güzəşt tələb etmədən, Mancuriyanı könüllü surətdə boşaltmağı məsləhət bilirdi. Çünki o yaranmış vəziyyətin mürəkkəbliyini hamıdan yaxşı dərk edirdi. Lakin onun həmkarları Vitte və Kuropatkin Çinlə müqavilə bağlamağı təklif edirdilər. Rusiya Yaponiyanın düşmənçilik mövqeyinə baxmayaraq, Yaponiya ilə razılığa gəlməyin mümkün olduğuna inanırdı.

Bunlarla yanaşı, 1901-ci ilin iyununda Lamzdorf Priamur rayonunda tədricən və ehtiyatla qoşunu hərbi vəziyyətə gətirməyi təklif edirdi.

Çinlə danışıqların bərpa edilməsində Çinin təşəbbüs göstərdiyini nəzərə alaraq, çar hökuməti qoşunu çıxarmaq üçün çəkiləcək xərci ödəməyi ona təklif etdi. Rusiya hökuməti yeni sazişin layihəsini təqdim etdi. O üç müddətə 18 ayın ərzində Mancuriyanı boşaltmağa hazır olduğunu bildirirdi. Çin qoşunlarının Mancuriyaya buraxılması layihədə yox idi.

Mancuriyanı boşaltmaq haqqında Lamzdorfla Vitte də şərik idi.

İngiltərənin, Yaponiyanın və ABŞ-ın tə'siri altında Çin hökuməti yenə Rusiyanın təkliflərini rədd etdi. 1902-ci il fevralın 3-də ABŞ, Rus-Çin bankının Mancuriyada inhisarının layihələşdirilməsinin «açıq qapılar» prinsipinə zidd olduğuna dair Peterburqa və Pekinə protest verdi. Çar hökuməti eyni vaxtda Rusiya üçün mənfi olan üç fakt qarşısında Yapon-ingilis ittifaqının bağlanması,

ABŞ-ın protesti və Çinin təkrar imtinası faktları qarşısında qaldı. Rus-Çin danışıqları yenidən kəsildi.

Amerika notası göstərirdi ki, ABŞ Rusiyaya qarşı təzyiqi gücləndirir. Xey Kassiniyə bildirdi ki, çinlilərin mə'lumatına görə, rus-Çin sazişi Mancuriyada amerikan ticarətinin gələcəyinə ciddi təhlükə təşkil edir. Amerikanı rus-Çin bankının inhisarı haqqında Vittenin layihəsi həyəcanlandırır. Vaşinqton həm də ondan ehtiyat edirdi ki, rus-Çin sazişi imzalandıqdan sonra Almaniya və Yaponiya da Şandunda və Fuezyanda özlərinə imtiyazlar istəyərlər. Belə olanda Amerika Çində bütün bazarını itirmiş olardı.

Bunları şərh etdikdən sonra dövlət katibi Çinin hesabına razılığa gəlmək barədə danışıqlara başlamağı təklif etdi. O Rusiyanın Mancuriyanı tamam tutmasına e'tiraz etmir. Onda burada sakit idarə üsulu yaranar. Rusiya tərəfinə Amerikanın nəyə işarə etdiyi aydın idi. O, Amerika kapitalının zəngin şimali- şərqə buraxılmasını istəyirdi.

Çinin ikinci dəfə imtina etməsindən sonra Vitte yeni güzəştlərə getməyin zəruri olduğunu vacib bildi. Çinin Rusiya ilə məsləhətləşməsi nəticəsində xaricilərə konsessiya verilməsi haqda tələb çıxarıldı. Bu məsələni həll etdi.

1902-ci il aprelin 8-də rus qoşunlarının Mancuriyadan çıxarılması qaydaları haqqında saziş imzalandı. Mancuriyanın boşaldılması 18 ay müddətində başa çatdırılmalı idi. Birinci mərhələ 1902-ci ilin payızında başa çatdı.

İkinci mərhələ 1903-cü il 8 apreldə başlamalı idi. Bu vaxtın yaxınlaşması ilə əlaqədar olaraq fevralın 7-də Peterburqda Lamzdorfun sədrliyi ilə xüsusi müşavirə çağırıldı. Müşavirədə Vitte, Kuropatkin, Dəniz nazirliyinin işlər müdiri Tırnov və Rusiyanın Çindəki, Yaponiyadakı və Koreyadakı səfirləri iştirak edirdilər. Müşavirədə



Rusiyanın Mancuriyada qarantiyası haqqında məsələ müzakirə edilirdi. Orduların Mancuriyadan bütövlükdə çıxarılmasından əvvəl, Çindən tə'minat alınmalı idi ki, o, Rusiyanın ona qaytardığı torpaqları icarəyə və ya konsessiyaya verməyəcəyi barədə öhdəlik götürməlidir. Ondan həm də tələb edilsin ki, Çin imperiyasının bu və ya digər idarəsinə rəhbərliyə xarici şəxs də'vət edilərsə, onda Şimali Çin o idarənin nəzarəti altından çıxarılmalıdır. Bu iş xüsusi təşkil edilmiş orqana tapşırılmalı, o idarənin başına da mütləq rus qoyulmalıdı. Çin beynəlxalq ticarət üçün Mancuriyada yeni punktlar açmamalıdı. Hərbi nazir Mancuriyanın boşaldılmasını dayandırmağı təklif etdi və dedi ki, indi yalnız Muqden əyalətini boşaltmaqla kifayətlənmək lazımdı. Müşavirə bu təklifi qəbul etdi. Dəmir yolu, habelə Amur və Sunqari çayları boyunca qoşun hissələri saxlamağı da Kropatkin təklif etdi. Bu təklif də qəbul edildi.

Lakin onun Şimali Mancuriyanı işğal etmək təklifi Vitte və Lamzdorf tərəfindən qətiyyətlə rədd edildi.

Çar müşavirənin təkliflərini təsdiq etdi. 1903-cü il aprelin 5-də həmin təkliflər Çinə təqdim edildi. Lakin bir neçə gündən sonra o rədd edildi.

## Rusiya-ABŞ-İngiltərə münasibətləri

Çar hökuməti təhlükəli oyun oynayırdı. Rusiyanın hərbi hazırlığı Uzaq Şərqdə hədsiz geri qalırdı, onun işğalçılıq planlarına qətiyyən uyğun gəlmirdi.

1901-ci il sentyabrın 7-də imzalanmış nəticə protokoluna görə Çinin başqa dövlətlərlə ticarət müqavilələrinə əlavələr haqqında danışıqlar apara bilərdi. Nəticədə Çin İngiltərə, Yaponiya, ABŞ ilə yeni müqavilələr imzalamışdı. Çinin 1903-cü il 8 oktyabr tarixdə ABŞ və Yaponiya ilə bağladığı müqavilələrə görə Çin beynəlxalq ticarət üçün yeni məntəqələr, o

cümlədən ikisini Mancuriya ərazisində açmağı öhdəsinə götürmüşdü. Bu bilavasitə Rusiyanın Mancuriyadakı mənafeyinə qarşı yönəldilmişdi.

Çar hökuməti bu prosesin qarşısını almağa cəhd etdi. Lakin uğur qazana bilmədi. Əksinə, bu ABŞ ilə Rusiya münasibətlərinin daha da kəskinləşməsinə səbəb oldu.

Peterburqun Vaşinqtondakı səfiri həmişə məsləhət görürdü ki, açıq şəhərlər haqqında məsələdə güzəştə getmək lazımdı.

Çar hökuməti belə də etdi. Lakin bu da ABŞ-ın düşmənçiliyini azaltmadı, onun İngiltərə və Yaponiyaya yaxınlaşmasının qarşısını ala bilmədi.

İngiltərə ilə Rusiyanın münasibətləri bir qədər başqa cür cərəyan edirdi.

Yaponiya ilə ittifaq bağladıqdan sonra, indi İngiltərə bildi ki, kimin əli ilə rəqibi Rusiyanı döyə bilər. İngiltərə 1902-ci il mayın 31-də Bur Respublikası ilə sülh müqaviləsi imzaladıqdan sonra cənubi Afrikada əl-qolunu açdı. O artıq 90-cı illərin ortalarından onu izləyən çətinliklərdən yaxasını qurtarmış oldu. Təhlükəli düşmən olan Almaniya ilə dil tapmağa çalışmaq zərurəti də aradan qalxmış oldu. Bununla yanaşı, İngiltərə üçün tam aydın oldu ki, ikinci alman dəniz proqramı onun üçün ən ciddi təhlükədir. Buna görə də o Fransa və Rusiya ilə yaxınlaşmağa barışmağa cəhd edir, İngiltərə, Fransanın 1903-cü ildə irəli sürdüyü təklifə həvəslə səs verir. Fransa mübahisəli müstəmləkə problemlərinə dair danışığa başlamağı təklif edirdi. İngiltərədə Rusiya ilə də yaxınlaşmaq əhval-ruhiyyəsi güclənirdi. Mətbuat da bunu müdafiə edirdi.

Fransa diplomatiyası ingilis-rus yaxınlaşmasını dəfələrlə tövsiyə edirdi. 1903-cü ilin yayında Londonda olmuş Delkasse bir neçə dəfə Peterburqa işarə



vurmuşdu ki, İngiltərə Rusiya ilə saziş imzalamağa hazırdı.

Lamzdorf Delkassenin çağırışına qoşuldu. İngilis-rus danışıqları başlandı.

İngilis-rus ziddiyyətlərinin başlıca nöqtəsi Mancuriya deyildi. İngiltərəni şimali-şərqi Çin maraqlandırırdı. Rusiya buradan istifadə edib Çin paytaxtına zərbə endirər və sonra bütün Çini işğal edərdi. 1903-cü ilin noyabrında kral Eduard Rusiyanın yeni səfiri Benkendorfa Rusiya və İngiltərə arasında mübahisəli məsələlərdə qarşılıqlı anlaşılma yaratmağa tərəfdar olduğunu bildirdi. Bir neçə gündən sonra Lensdaun bildirdi ki, bu məsələləri səfirlə müzakirə etməyə hazırdı. Benkendorf həvəslə razılaşdı. Lensdaun dedi ki, Rusiya Əfqanıstanın bütünlükdə İngiltərənin tə'sir dairəsində olduğunu təsdiq etməlidi. Rusiya onunla yalnız yerli xarakterli məsələlərdə münasibət saxlaya bilər. Rusiya Tibeti də İngiltərənin tə'sir dairəsi hesab etməli və ora öz agentlərini göndərməməlidi.

Uzaq Şərq məsələlərinə keçərək nazir bildirdi ki, qonşu dövlət kimi Rusiyanın Mancuriyada üstünlük mənafeyini tanımağa hazırdı. Dəmir yolu, onun şəbəkələri, xətlərin üzərində nəzarət Rusiyaya məxsusdur və onların müdafiəsi üçün müəyyən ölçülər götürə bilər. Lakin Mancuriyada İngiltərənin müqavilə mənafelərinə hörmət edilməlidi, İngiltərə orada bərabər hüquqlu ticarət aparmalıdır. Lensdaun rus ordularının köçürülməsinin ləngidilməsindən də gileyləndi. Lakin o açıq liman olan Nyuçuanın boşaldılmasının sür'ətləndirilməsini tələb etdi. İranı bölməyi təklif etdi. Rusiyaya İranın Şimal hissəsi nəzərdə tutulurdu. Lakin o cənubi İranda və İran körfəzində ticarət edə bilər. Əgər ora dəmir yol çəkilməsi zərurəti yaranarsa, onda bu İngiltərə ilə «dostluq sazişi» əsasında olmalıdı. Dəmir yolunun cənub hissəsi və İran körfəzinə çıxış İngiltərənin

nəzarəti altında olmalıdı. İranın şərqində, Əfqanıstan sərhədinə yaxın olan Semstan İngiltərənin tə'sir dairəsində hesab edilməlidir.

Rusiya bütün bunları qəbul edə bilməzdi. O, Əfqanıstanla mövcud olan əlaqələrdən imtina edə bilməzdi, İranın cənubunu ingilislərə verə bilməzdi. İngiltərənin razı olub-olmamasından asılı olmayaraq İranın şimalı Rusiyanın tə'sir dairəsində idi. Ona görə də İngiltərə təkliflərinin onun üçün xeyirli olmadığını görürdü. Lakin buna baxmayaraq, danışıqları davam etdirməyi zəruri saydı. Yaponiyanın qəfləti hücumu bu danışıqları kəsdi. İngilis-rus danışıqları Yaponiyanın öz hərbi hazırlığını başa çatdırmaq üçün bir stimul idi.

Rusiyaya qarşı fəal surətdə müharibəyə hazırlaşan Yaponiya da Rusiya ilə danışıqlara başlamağı zəruri hesab edirdi. O qəsdən bu danışıqları uzadar, bunun səbəbini Rusiyanın üzərinə yıxar, beynəlxalq ictimaiyyət qarşısında beləliklə, Rusiyaya müharibə e'lan etməsini doğrultmalı olardı.

Yaponiya Uzaq Şərq problemlərini müzakirə etmək üçün 1903-cü ilin iyulunda Rusiyaya müraciət etdi. 1903-cü il avqustun 12-də o öz təkliflərini Yaponiya səfiri vasitəsi ilə Peterburqa təqdim etdi. O təkliflərdə Rusiyanın Mancuriyada əldə etmiş mövqelərindən əl çəkməsi, Yaponiyanın həm Koreyada, həm də Mancuriyada geniş maraqlarının tanınması irəli sürülürdü. Bununla yanaşı, Nyuçquana gedən Koreya dəmir yolunun Çinin Şanxay-quan-Sinmintin dəmir yolu xəttinə birləşməsinə qədər çəkilməsinə Rusiyanın razılıq verməsi irəli sürülürdü. O həm də Mancuriyada "açıq qapı" prinsipinə əməl edilməsini də tələb edirdi.

Çar diplomatiyası Yaponiya variantını qəbul etməkdən imtina etdi və yapon variantı ilə yanaşı, rus variantının da müzakirə edilməsini təklif etdi. Rusiya



müzakirələrin yalnız Koreya ilə məhdudlaşdırılmasını irəli sürürdü.

Avqustun 14-də «Nazirlərin xüsusi müşavirə»si Mancuriyaya dair - xarici, maliyyə və hərbi sahədə qərar qəbul etdi.

Oktyabrın 3-də Yaponiyaya cavab verildi. Əvvəllərdə olduğu kimi, Rusiya Koreya üzərində Yaponiyanın protektoratlığını tanımağa hazır idi. O şərtlə ki, Koreya körfəzində sərbəst üzmək, Rusiya və Çin sərhədlərinə yapon ordusunu gətirməmək, Mancuriyanı onun tə'sir dairəsindən kənarda qalması haqda təklifləri Yaponiya qəbul etsin.

Dekabrın 23-də Yaponiya hökuməti Rusiya hökumətindən öz təkliflərinə yenidən baxmağı xahiş etdi. Dekabrın 28-də xüsusi müşavirə çarın sədrliyi ilə demək olar ki, Yaponiyanın bütün təkliflərini qəbul etdi. Lakin bu güzəştlərin heç bir əhəmiyyəti yox idi.

## Müharibə dövründə beynəlxalq münasibətlər

Yaponiyanın məqsədi Rusiyanın müharibəyə hazır olmasını gözləmədən müharibəni başlamaq idi. Buna görə də o hər vasitə ilə Rusiya ilə münasibətləri kəskinləşdirməyə çalışırdı.

1904-cü il yanvarın 13-də Yaponiya öz iddialarını daha da artırdı. Özünün hərbi zəifliyini hiss edən Rusiya yeni güzəştlərə getməsi haqda fevralın 3-də teleqrafla xəbər verdi. Lakin yapon teleqrafında cavab fevralın 7-dək saxlanıldı. Bundan istifadə edərək, Yaponiya fevralın 6-da Rusiya ilə diplomatik əlaqələri kəsdi, yapon hərbi gəmiləri dənizə çıxdılar. Yaponiya fevralın 8-dən 9-na keçən gecə müharibə e'lan etmədən Port-Arturda və Çemulpoda reyddə olan Rusiya donanmasına qəflətən hücum etdi. Rusiya və Yaponiya arasında müharibə belə başladı.

Elə həmin gecə Yaponiya Koreyada da hərbi əməliyyata başladı, Koreyanın paytaxtı Seul dərhal işğal olundu.

İngiltərə və ABŞ Yaponiyanı müharibəyə təhrik edirdilər. Buna da nail oldular.

Almaniya Rusiyaya bitərəf qalacağını bildirdi. Lakin kayzer Uzaq Şərqdə müharibənin başlamasından məmnun idi.

Rusiya Avstriya-Macarıstan tərəfindən Balkanlarda gözlənilməz hadisələrdən ehtiyat edirdi. Lakin ölkənin daxilində milli mübarizə kəskinləşdiyindən Avstriya-Macarıstana sülh lazım idi.

Müharibə başlanandan bir az sonra Nyu-Yorkda Rusiyaya qarşı əhval-ruhiyyə bir qədər dəyişdi. 1904-cü ilin aprelində bankir Şiff və «Kui, Leb və kompaniyası» adlı iri bankir evi, Honkonq-Şanxay da daxil olmaqla, ingilis bankları sindikatları ilə birlikdə Yaponiyaya 50 mln. dollar məbləğində yüksək faizlə istiqraz vermişdilər. İstiqrazın yarısı İngiltərədə, yarısı ABŞ-da yerləşdirilmişdi. Yapon kreditinə inamsızlıq o qədər güclü idi ki, bankirlər yapon hökumətindən gəlirin konkret mənbələrinin göstərilməsini tələb etdilər. Bu istiqraz üzrə ödənişlərin qaydaya salınmasına imkan verərdi. Kontraktda belə mənbə kömrükdən gələn gəlir göstərilmişdi.

1904-cü ilin noyabrında İngiltərə və ABŞ-da yenə 6 faizlə 60 mln. dollar yapon istiqrazı yerləşdirildi. 1905-ci ilin martında 150 mln. dollarlıq üçüncü ingilis-amerika istiqrazı yerləşdirildi. Burada mənbə tütün inhisarları göstərilirdi. Bu dəfə istiqrazın yerləşdirilməsində alman bankları da iştirak etmişdilər. Xarici istiqrazlardan Yaponiya 697 mln. ien xalis gəlir əldə edirdi ki, bu da onun hərbi xərclərinin 40 faizini örtürdü. Yaponiyaya İngiltərə və Amerikanın maliyyə köməyi olmadan Rusiyaya qarşı çətin döyüşə bilərdi.



ABŞ, İngiltərə və Almaniyanın Yaponiyaya göndərdikləri hərbi sursat da böyük əhəmiyyət kəsb edirdi. 1904-1905-ci ildə vəziyyət belə idi. O məhz ABŞ və İngiltərənin köməyi nəticəsində qələbə qazandı. Rus-yapon müharibəsi ABŞ-ın və İngiltərənin maliyyə oliqariyası üçün biznesdən daha gəlirli idi.

Yaponiyanın Rusiyaya hücumunu eşidəndə prezident Ruzvelt hədsiz dərəcədə məmnun oldu. Bu dövrdə Uzaq Şərqdə Rusiya onun üçün başlıca təhlükəni təşkil edirdi.

Beləliklə, beynəlxalq siyasi baxımdan Yaponiyanın təkbətək Rusiyaya qarşı müharibə aparması əlverişli idi. Burada başlıca rolu İngiltərə-Yaponiya ittifaqı oynadı. Fransa isə Uzaq Şərqdə müharibə etmək fikrində deyildi.

Almaniya yaranmış vəziyyətdən həm Fransaya, həm də Rusiyaya təzyiq etmək üçün istifadə etdi. Bu müharibə Fransa-rus koalisiyasının zəifləməsi nəticəsində Avropada Almaniyaya böyük üstünlük verdi. Nəticədə 1905-ci ilin yazı fransız-alman ziddiyyətlərinin ciddi kəskinləşməsi ilə nəticələndi.

Parisdə çoxdan görürdülər ki, Rusiyanın qüvvələrini Şərqi Asiyaya yönəldilməsindən Almaniya Fransaya qarşı istifadə edəcək. Fransa öz ehtiyat tədbirlərini görməyi qərara aldı. O, İngiltərə və İtaliya ilə yaxınlaşmağa doğru addımladı. Bunun təşəbbüsçüsü və rəhbəri Xarici İşlər Naziri Teofil Delkasse oldu. Onunla Fransanın Londonda və Romadakı səfirləri – Pol Kambon və Barrer bu yaxınlaşmağa nail olmaqda fəal iştirak etdilər.

Hər iki ölkənin paytaxtında mövcud vəziyyət Fransa siyasətinin uğur qazanması üçün əlverişli idi.

Fransada İngiltərə ilə yaxınlaşmanın ən fəal tərəfdarları hakimiyyətdə olan radikallar (Komb, Klemanso) və sağ sosialistlər (Jores) idi.

1902-ci ilin avqustunda Delkassenin tapşırığı ilə Pol Kambon Fransa hökumətinin «İngiltərə ilə razılıqda hərəkət etmək» arzusunda olduğunu Lensdauna (İngiltərənin Xarici İşlər Naziri) bildirdi. Fransa Xarici İşlər Nazirinin fikrincə İngiltərə və Fransa arasında ciddi rəqabət yoxdur. Fransa İngiltərənin istehsal etdiyi malları istehsal etmir ki, dünya bazarlarında konkurent olsunlar. İngiltərə və Fransa yalnız Mərakeş və Siam haqqında məsələlər üzrə razılığa gəlməlidirlər. Birlikdə ona çalışmaq lazımdır ki, almanlar ora buraxılmasınlar.

Məhz elə bu məqsədlə İngiltərə özünə tərəfdarlar toplamağa çalışırdı. İngiltərə 1902-ci ildə Yaponiya ilə ittifaq bağladıqdan, cənubi Afrikadakı qayğılardan azad olduqdan sonra bütün gücünü başlıca düşmənə - Almaniyaya qarşı yönəltməyə başladı. İngiltərəni hər şeydən əvvəl güclü alman donanmasının yaradılması narahat edirdi.

Mə'lum olduğu kimi, hələ 90-cı illərdə və əsrin ilk illərində İngiltərə Almaniya ilə yaxınlaşmağa çalışırdı. O, 1903-cü ildə Bağdad dəmir yolunun İran körfəzi sahillərinə gedən hissəsini İngiltərəyə güzəştə gedilməsini istəyirdi. Lakin Almaniya bunu etmədi.

Ümumiyyətlə, bütövlükdə götürdükdə Bağdad yolu ətrafında ingilis-alman ziddiyyətləri mühüm məsələ idi. Lakin tabe məsələ idi. İngiltərə və Almaniya arasında başlıca mübarizə dünyanın bölünməsi məsələsi idi. Bu mübarizə İngiltərəni Fransa ilə yaxınlaşdırdı.

İngiltərə öz müstəmləkələrini Almaniyaya güzəştə getmək fikrində deyildi. O, ölüm, ya olum uğrunda mübarizə aparırdı. Buna görə də o, Fransa, sonra isə Rusiya ilə yaxınlaşmağa çalışırdı.

Rusiyaya nisbətən Fransa ilə danışmaq asan idi. Lakin Rusiyaya qarşı Yaponiyanı müdafiə etməklə İngiltərə Rusiyanı güzəştə getməyə məcbur etmək istəyirdi.



Rus-yapon müharibəsi ingilis-rus danışıqlarını yarımçıq qoydu. Lakin o, İngiltərənin Fransa ilə yaxınlaşmasını sür'ətləndirdi. Lensdaun hesab edirdi ki, Fransa ilə saziş Fransanın bitərəfliliyini rus-yapon müharibəsində daha möhkəm edər. Çünki müqaviləyə görə, hər hansı dövlət Rusiya tərəfində müharibəyə qoşulardısa, İngiltərə də mütləq Yaponiya tərəfində müharibəyə qoşulmalı idi. Fransa ilə saziş, Rusiya qələbə çalardısa, İngiltərənin mənafelərini müdafiə edərdi. Çoxları isə Rusiyanın qalib gələcəyinə inanırdılar. Beləliklə, müharibə bütövlükdə qüvvələrin bir-birinə əks olan mərkəzdə - İngiltərə və Almaniya ətrafında qruplaşmasını sür'ətləndirdi.

Vaxtilə Rusiyaya qarşı Almaniyada və Avstriya - Macarıstanda kömək axtaran İngiltərənin Mühafizəkarlar partiyası indi Almaniya əleyhinə xəttin ən fəal tərəfdarı kimi çıxış edirdi.

İngilis-fransız və ingilis-rus yaxınlaşmasının həqiqi tərəfdarı Kral VII Eduard idi. Onun fikrincə, bu yaxınlaşmanı Britaniyanın mənafeləri tələb edir. Kral VII Eduard İngiltərənin köhnə rəqibləri ilə barışmasında əhəmiyyətli rol oynadı. Kralın geniş əlaqələri onun diplomatik vəzifləri yerinə yetirməsini asanlaşdırırdı. Onun dostlarından London Siti də, maliyyə oliqarxiyasında əhəmiyyətli rol oynayanlar az deyildi.

Fransa ilə sazişə sonra Kromer titulunu almış, Misirin faktiki hakimi, ən iri Berinqlər bankir evinin nümayəndəsi Evelinq Berinq də tərəfdar çıxdı. Bu firmanın başçısı Lord Revelston Kral Eduardın yaxın dostları siyahısına daxil idi. Kromer çalışırdı ki, Fransanın təcirini onun malikanəsi olan Misirdən kənarlaşdırsın. Buna görə də, o, Fransa ilə yaxınlaşmağı arzu edirdi. Yalnız bu yolla o, öz məqsədinə nail ola bilərdi.

Fransa üçün İngiltərə ilə yaxınlaşmaq daha kəskin durmuşdu. Rus-yapon müharibəsinin başlanması ilə Fransa özünün təhlükəli düşməni Şərq qonşusu – Almaniya ilə üzbəüz, təkbətək qalmışdı. Faşoddakı qanı qaralığı unutmaq lazım idi.

Fransa diplomatiyası İtaliyanı da üçlük itifaqından ayırmaq sahəsində müvəffəqiyyətli iş aparırdı.

Kömrük müharibəsindən yoxsul İtaliya hamıdan çox əziyyət çəkmişdi. Fransa bankları İtaliyaya dövlət krediti vermək əleyhinə kompaniyaya başladılar. İtaliyanın qiymətli kağızlarının kursunu aşağı saldılar. Ölkədə kütləvi yoxsulluq başladı. Ölkənin maliyyə vəziyyəti daha bərbad hala düşdü.

İtaliya tab gətirə bilmədi. 90-cı illərdə o, Fransa ilə yaxınlaşmağa cəhd etdi. O, bununla Almaniyanı şantaj etdi, ondan iqtisadi kömək və siyasi qarantiya aldı.

1896-1898-ci illərdə iqtisadi və maliyyə ehtiyacı, Həbəşistanda məğlubiyyət İtaliyanı Fransa ilə barışmaq üçün daha qəti addımlar atmağa məcbur etdi. 1896-cı ildə İtaliya Fransanın Tunis üzərində protektoratlığını tanıdı. Buna görə iki il sonra o, Fransa ilə ticarət müqaviləsinə nail oldu. Bu gömrük müharibəsinə son qoydu. 1900-cü il böhranı İtaliyanın pula olan ehtiyacını daha da gücləndirdi. Delkassenin diplomatiyası bundan istifadə etdi.

Fransa krediti İtaliyanı maliyyə iflasından xilas etdi. Delkasse Şimali Afrikanı bölmək haqqında saziş imzalamağı İtaliyaya təklif etdi. O, Tripoli üzərində İtaliyanın hüququnu tanımağa hazır olduğunu bildirdi. Bunun əvəzində İtaliya Fransanın Mərakeşi işğal etməsinə razılıq verməli idi. Müqavilə 1900-cü il dekabrın 14-16-da imzalandı.

1902-ci il noyabrın 1-də Fransa İtaliya ilə yeni saziş imzaladı. Hər iki tərəf ciddi bitərəflik saxlamağı öhdələrinə götürdülər.



Bu saziş mahiyyətcə Üçlər ittifaqını qiymətdən saldı. Müqavilənin şərtlərinə görə əgər Almaniya Fransanın hücumuna mə'ruz qalardısa, İtaliya Almaniyaya hərbi kömək göstərməli idi. İndi isə İtaliya Fransaya qarşı bitərəfliyi saxlamağı öhdəsinə götürürdü. Bu göstərir ki, İtaliyanın Üçlər ittifaqında iştirak etməsi həm şübhəli, həm də e'tibarsız idi.

1902-ci il sazişi Fransa diplomatiyasının mühüm nailiyyəti idi.

1903-cü ilin yazında Kral VII Eduard Parisə gəldi. O, Parisdə dəfələrlə dedi ki, İngiltərə Fransa arasında düşmənçilik artıq keçmişdə qalıb, indi ingilis-fransız dostluğu erası başlamalıdı.

Yayda Fransa prezidenti Lube ingilis kralının görüşünə gəldi. Onu Delkasse müşayiət edirdi. Delkasse ilə Lensdaun arasında işgüzar danışıqlar başladı. Qonaqlar gedəndən sonra Lensdaun və Kambon arasında danışıqlar davam etdirildi. Birinci növbədə indiyədək İngiltərə və Fransa arasındakı müstəmləkə mübahisələrini aradan qaldırmaq lazım idi. Delkasse Mərakeş və Siam haqqında məsələni qaldıranda İngiltərə Misir məsələsini ortalığa atdı. 1904-cü il aprelin 8-də saziş imzalandı. Mətbuat onu «Ürək razılığı» adlandırdı. O, iki hissədən ibarət idi. Biri mətbuatda dərc olunmaq üçün, digəri isə məxfi. Açıq hissəsində «Misir və Mərakeş haqqında bəyanatda» İngiltərə hökuməti bildirirdi ki, o, Misirin siyasi statusunu dəyişmək fikrində deyil. Bəyanatın I maddəsində davam edilərək deyilirdi ki, Fransa Respublikasının hökuməti İngiltərənin bu ölkədəki hərəkətlərinə mane olmayacaq. Beləliklə, Fransa Misirdə İngiltərəyə qarşı durmaqdan imtina etdi.

İngiltərə isə Mərakeşin böyük hissəsini işğal etməyə Fransaya imkan verdi. Bəyanatın 2-ci maddəsində deyilirdi ki, Fransa Mərakeşin siyasi statusunu dəyişmək fikrində deyil. Ali həzrət Britaniya hökuməti

Fransanın bu ölkədə sakitliyi qorumağa kömək etmək səlahiyyətini tanıyır, qəbul edir. Bu mənada İngiltərə Fransanın bu ölkədəki hərəkətlərinə mane olmayacaq.

Məxfi hissədə isə yuxarıda göstərilənlərin tam ziddinə olaraq Misirin və Mərakeşin siyasi statuslarının dəyişdirilməsi imkanı nəzərdə tutulurdu.

Bəyannamənin məxfi hissəsinin 3-cü maddəsində göstərilirdi ki, Melilye, Seute və digərlərinə qonşu əyalətlərdə sultanın hakimiyyətinə son qoyulduqdan sonra, onlar İspaniyanın tə'sir dairəsinə keçəcəklər. Beləliklə, məxfi müqavilədə sultan hakimiyyətinin ləğv edilməsi nəzərdə tutulurdu.

Ayrıca Bəyannamədə isə Menam çayı boyunca Siamın İngiltərə və Fransa arasında bölünməsi göstərilirdi. Ölkənin Birma ilə sərhəd olan hissəsi İngiltərənin, şərq, hindi-çinlə qarışıq hissəsi Fransanın tə'sir dairəsinə daxil edilirdi.

Beləliklə, Antanta iki dövlət arasında çoxdan mövcud olan ixtilafları aradan qaldırmağa yönəldilmişdi.

Heç də təəccüblü deyildi ki, ingilis-fransız sazişi Almaniyanı dərindən təşvişə saldı.

Fransa ilə sazişdən sonra ingilis admiraliteti 160-dək hərbi gəmiləri ona məxsus olan sulara cəmləşdirdi. Antanta yaradıldıqdan sonra İngiltərənin bütün kommunikasiyaları nisbətən təhlükəsiz şəraitdə idi. İndi İngiltərənin dostu Fransa donanması bunlardan istifadə edirdi. 1903-cü ildə Almaniya iri hərbi dəniz bazaları tikməyə başladı. Əvvəlcə belə baza, Fransa sahilləri yaxınlığında, La-Manşda idi.

Əvvəlcə Almaniya xaricən Antantanın yaradılmasına o qədər də məhəl qoymadı. Yaponiya ilə müharibədə Rusiyanın məğlub olması Almaniyanı cürətləndirdi. İndi diplomatik manevrlər etməyə başladı. O, hətta Rusiya ilə ittifaq bağlamağa cəhd etdi. Gec də olsa Byulov və Qolşteyn başa düşdülər ki, Rusiya və



İngiltərə arasında tarazlığı saxlamaq siyasəti kobud səhvdir.

Vaxt Almaniya üçün məqbul idi. Yaponiya ilə müharibə dövründə Rusiya Almaniya ilə dostluq münasibətlərinə möhtac idi. 1904-cü il oktyabrın 15-də Rusiya və Almaniyanın müttəfiqi olan Avstriya-Macarıstan birgə bəyanatlarında bildirdilər ki, üçünjü dövlətin müharibəyə jəlb edilməsi şəraitində bir-birinə qarşı loyal və mütləq bitərəflik münasibətlərini saxlayajaqlar. Bu Balkan rəqibi tərəfindən Rusiyanın arxasının tə'min edilməsi demək idi.

Almaniya Rusiyanın çətin vəziyyətindən istifadə edib ondan maksimum güzəştlər əldə etmək fürsətini bada vermədi. 1904-cü ilin yayında bağlanmış ticarət müqaviləsi nəticəsində alman fabrikatlarından alınan rüsum aşağı salındı.

1904-cü ilin payızında admiral Rojestvenskinin eskadrası Baltikdən Uzaq Şərqə göndəriləndə Almaniya öz tərsanə sahiblərini səfər zamanı rus gəmilərini daş kömürlə təchiz etməyə icazə verdi.

Gözlənilməz toqquşma kəskin rus-ingilis ixtilafına səbəb oldu. Admiral Rojestvenski agentura mə'lumatı almışdı ki, guya Şimal dənizində yapon mina gəmisi onu vurmaq istəyir. Beləliklə, ingilis limanı Qullun yaxınlığında 1904-cü il oktyabrın 21-dən 22-nə keçən gecə hansısa gəminin işıq siqnalı görünür. Bu onları şübhəyə salır. Yapon esminesinin olduğunu güman edən və onun hücumundan ehtiyat edən Rojestvenski onu güllləbaran etdi. O dəqiqə ingilis teleqraf agentliyi bütün dünyaya hay saldı ki, rus eskadrası balıqçı gəmilərinə hücum etmişdi. Qull münaqişəsi belə baş verdi.

İngiltərə ilə hərbi münaqişə çarı və onun hökumətini qorxuya saldı. İngilis mətbuatında Rusiyaya qarşı çağırışlar səslənməyə başladı.

Bu təsadüfdən istifadə edərək, kayzer oktyabrın 27-də çara şəxsən teleqram vuraraq bildirdi ki, İngiltərə bilərəkdən Almaniyaya rus hərbi donanmasını təchiz etməyə mane olur. Kayzer bunu aradan qaldırmağı, İngiltərəyə qarşı «güclü kombinasiya» qurmağı təklif edir. Fransanı da Rusiya və Almaniyaya qoşulmağa məcbur etməyi irəli sürür.

Nikolay müsbət cavab verir və müqavilənin layihəsini göndərməyi xahiş edir.

Müqavilənin layihəsi göndərilir. Layihədə deyilirdi: «Əgər iki imperiyadan birinin üzərinə Avropa dövlətlərindən biri hücum edərsə, müttəfiq bütün quru və dəniz qüvvələri ilə onun köməyinə gəlir. Əgər zərurət doğarsa, hər iki tərəf birlikdə Fransa-rus müqaviləsi əsasında Fransanın üzərinə götürdüyü öhdəliyi onun yadına salmalıdırlar». Alman layihəsinin həyata keçirilməsi ya İngiltərə əlehinə kontinental blokun yaradılması, ya da Fransa-Rusiya ittifaqının pozulması demək idi.

Fransa hökuməti hadisələrin gedişini çox sayıqlıqla izləyirdi. İngilis-rus ixtilafı almanların lap ürəyindən idi. Fransa üçün isə qəti arzuedilməz idi. Fransanın məqsədi ingilis-rus yaxınlaşmasına nail olmaq, Rusiyanın qüdrətini tezliklə bərpa etmək və rus qüvvələrini Almaniya sərhədlərinə qaytarmaq idi. Bunları nəzərə alaraq, oktyabrın 28-də Pol Kambon Lensdaunun yanına gəldi və ona bildirdi ki, ingilis-fransız «ürək razılığı» İngiltərənin onun müttəfiqi üzərinə hücum etməsinə tab gətirə bilməz. Bu London banklarından küllü miqdarda fransız kapitalının götürülməsi ilə nəticələnə bilər. Bu isə Sitidə faciəyəyə səbəb ola bilər. Kambonun bəyanatı İngiltərəni təmkinli hərəkət etməyə məjbur etdi.

Bu vaxt artıq kayzerin layihəsi çara çatdırılmışdı. O, o qədər kobud tərtib edilmişdi ki, II Nikolay onu



kənara atdı. Çar və Lamzdorf o layihəni düzəltməyi almanlara təklif etdilər. Sonra tezliklə Peterburqda rə'y yarandı: onu əvvəlcə fransızlara göstərmək yaxşı olmazmı? Bu haqda çar Vilhelmə bildirdi.

Almaniya üçün bu onun məqsədlərinin baş tutmaması demək idi. Almaniya istəyirdi ki, Fransanı fakt qarşısında qoysun.

İş onunla qurtardı ki, almanların qəti tələbi nəticəsində 1904-cü il dekabrın 12-də, əgər İngiltərə ilə Almaniya arasında daş kömür üzərində ixtilaf baş verərsə, Rusiya ona silahlı kömək göstərəcəyini vəd etdi.

Nə üçün Rusiya Fransadan xəbərsiz Almaniya ilə ittifaq bağlamaqdan imtina etdi?

Belə ittifaqın bağlanması bir tərəfdən Fransa-Rusiya ittifaqının dağılması demək idi, digər tərəfdən Rusiya mütləq Almaniyanın siyasətinin əlavəsinə çevrilərdi. Fransa ilə ixtilaf İngiltərə ilə konfliktin daha da dərinləşməsi demək idi. Bu Rusiyanı həm iqtisadi, həm də siyasi cəhətdən Almaniyanın tam asılılığına sala bilərdi.

Az əhəmiyyəti olmayan digər səbəb də Rusiyanın Fransadan maliyyə asılılığı idi. Rusiyanın 1904-cü ilin mayında Fransadan aldığı 300 milyon rub. xərclənib qurtarmışdı. Almaniya ilə danışıqlar ketdiyi dövrdə Maliyyə naziri Kokovsev çara mə'lumat vermişdi. Mə'lumatda deyilirdi ki, Rusiya üçün əlverişli, əl çatan üç mənbədən – Paris, Berlin, Amsterdam – pul bazarlarından 1905-ci il ərzində 500 mln. rub yığmaq olar, bu da yalnız müharibənin 8 ayına çatar. Almaniya bazarından mümkün olan nə varsa, alınmışdı. 1904-cü ilin dekabrında 231 mln. rub Mendelson bankir evi ilə bağlanan istiqraz vasitəsilə alınmışdı, qalan 270 milyonu onun verməyə imkanı yox idi. Onu yalnız Parisdən almaq olardı.

Belə şəraitdə Fransa ilə dalaşmaq olmazdı. 1905-ci il yanvarın 15 (2)də Port-Artur təslim oldu.

Rusiyanın Fransa maliyyə oliqarxiyasından asılılığını aşağıdakı fakt göstərir. Fransız bankirləri Peterburqa gəldilər. Uzun danışıqlardan sonra 300 mln. rub istiqraz vermək haqda razılıq əldə edildi. Axşam onlar Maliyyə nazirinin yanında şam etdilər. Sabahısı gün saat 11-də kontrakt imzalanmalı idi. Bankirlər gəlmədilər. Hətta onlar şəxsi üzrhaqlıq da etmədilər. Yalnız məktub göndərdilər ki, həmin sənədi imzalamamaq barədə Parisdən axşam göstəriş gəlib. Bu Muqden ətrafında məğlubiyyətdən sonra olmuşdu.

Bununla Fransa hökuməti Rusiyanı Yaponiya ilə sülh bağlamağa məjbur etməyə jəhd edirdi.

Fransa ilə yaranmış vəziyyətdən Almaniya yenə istifdə etməyə səy göstərdi. O, Rusiyaya məsləhət bildi ki, alman pul bazarına müraciət etsin. Berlin Mendelson bankir evi ən yüksək sələmlə Rusiya hökumətinə yeni 150 mln. rub pul verdi.

Fransa isə özünün ağır vəziyyətə düşmüş müttəfiqinə kömək etməyə hələ tələsmirdi.

Lakin Almaniya - Qolşteyn və Byulov silahı yerə qoymamışdılar. Rusiyanın zəifləməsindən istifadə edərək, onlar Fransaya zərbə endirməyi qərara aldılar. Onların məqsədi ondan ibarət idi ki, göstərsinlər ki, İngiltərə ilə yaxınlaşmaq risqə getmək, sərfəsiz hərəkət etmək nə deməkdi. Onlar göstərirdilər ki, əgər Almaniya istəməsə, Fransa Mərakeşi ala bilməz. Onlar Fransanı inandırmaq istəyirdilər İngiltərə ilə Almaniyaya qarşı getmək nəinki xeyirli deyil, əksinə təhlükəlidir; o mütləq İngiltərə ilə əlaqəni kəsməlidir.

Avropada 1904-cü il 8 aprel tarixli ingilis-fransız müqaviləsi ətrafında diplomatik döyüş genişləndi.

Uzaq Şərqdə Rusiya və Yaponiya arasında müharibə davam edirdi. Rusiya bir-birinin ardınca məğlub



olurdu. Port-Arturun ardınca Müqden ətrafında məğlub oldu. 1905-ci il mayın sonlarında Tsusima ətrafında Rusiya donanmasının məhvi haqqında xəbər daxil oldu. Rusiyanın ağır vəziyyəti Kayzerə bəhanə verdi ki, Fransa-Rusiya ittifaqını dağıtmaq üçün daha bir cəhd göstərsin. Növbəti dəniz gəzintisi zamanı Vilhelm Nikolaydan Baltikdə görüşməyi təklif etdi. Görüş 1905-ci il iyulun 23-24-də Byork adasında, Finlandiya qayalıqlarında baş tutdu. Vilhelm Nikolaya keçənilki ittifaq müqaviləsinin layihəsinə qayıtmağı təklif etdi. O, çarı 1904-cü ilin sonlarında müzakirə edilmiş sənədə oxşamayan sənədi imzalamağa inandırdı. Müqaviləni imzaladı və çarı müşayiət edən Dəniz naziri Birilyevi çağırdı, əli ilə mətni örtərək, ona göstəriş verdi ki, mətni oxumadan ona qol çəksin. O qol çəkdi.

İndi Kayzer və Byulov hesab edirdilər ki, onlar Fransanın Byork müqaviləsinə qoşulmasına nail ola bilərlər.

Əgər bu baş tutardısa, Almaniya başda olmaqla, Avropada İngiltərə əlehinə blok yaradılmış olar.

Lakin bu plan baş tutmadı. Peterburqa qayıtdıqdan sonra Nikolay Lamzdorfu müqavilə ilə tanış etdi. Nazir vəlvələyə düşdü. O səfirə tapşırıq verdi ki, öyrənsin Fransa Avropa kontinenti blokuna necə baxır? cavabda deyilir: Rusiya ilə ittifaq Fransaya bəs edər.

Həmin vaxtda sentyabrın 5-də Vitte Yaponiya və Amerika ilə sülh danışıqları aparırdı. Geriyə qayıdanda o Vilhelm tərəfindən qəbul edildi. Kayzer kontinent dövlətləri blokunun yaradılmasının arzu olunduğu barədə ona dedi. Vitte bunu rəğbətlə qarşıladı. Sentyabrın 28-də o Peterburqa qayıtdı. Byork müqaviləsi ilə tanış olduqdan sonra bildirdi ki, o qəbul edilə bilməz. Bundan sonra Vitte və Lamzdorf böyük knyaz Nikolay Nikolayeviçlə Çarın yanına gəldilər. Hər üçü II Nikolayı inandırdılar ki, müqavilə ləğv edilsin.

Nikolay güzəştə getdi. O, Vilhelmə yazdı ki, Fransa ilə uzunmüddətli danışıqlar aparılmalıdır. O, qurtarmayınca müqavilə qüvvəyə minməməlidi. Əlbəttə, bu rədd etməyin diplomatik forması idi. Kayzer cavabında yazmışdı: «Biz əl-ələ tutduq və Allah qarşısında öz imzamızı atdıq. Nə imzalanıb, imzalanıb». Lakin kayzerin çağırışı cavabsız qaldı.

O vaxt artıq Yaponiya ilə sülh bağlanmışdı. Rusiya Almaniyadan az asılı idi. Sülh Fransa ilə danışıqlara və yeni istiqraz almağa imkan verdi.

Muqden altındaki döyüşdən və Tsusimada dəniz döyüşlərindən sonra Rusiya və Yaponiya arasında sülh haqqında məsələ durdu. Donanmanı itirdikdən sonra onun Port-Arturu almağa ümidi yox idi. Başqa cəbhələrdə də vəziyyət Rusiyanın xeyrinə deyildi. Yaponiya Amur çayının başlanğıcını, Kamçatkanı, Vladivostoku, bütün Amur sahilini, Saxalin adasını hədələyirdi. Rusiyanın geniş dəniz sahili- Yapon, Oxot və Berinq dənizləri sahilləri düşmənin zərbəsi üçün açıq idi. Sahilləri müdafiə etmək üçün hərbi-dəniz donanması lazım idi. O isə dənizin dibində idi. Əgər Yaponiya bu yerlərə donanma çıxarsaydı, yolların olmadığı bu yerləri müdafiə etmək mümkün olmayacaqdı. Tsusima döyüşündən sonra, yəni 1905-ci ilin may ayının sonlarında Rusiyanın strateji vəziyyəti belə idi.

Rusiyanın daxili siyasi vəziyyəti də daha pis idi. Rusiyada inqilab başlanmışdı.

Qalib gəlməsinə baxmayaraq, Yaponiya üçün də sülh lazım idi. O dövrdə Rusiyanın böyük ehtiyatı var idi, əsas məsələ onu cəbhəyə gətirmək idi. Yaponiyanın isə gücü tükənməkdə idi. Hətta elə hallar olurdu ki, yapon əsgərləri hücuma getməkdən imtina edirdilər.

1905-ci il martın 8-də Yaponiyanın hərbi naziri Terausi yemək zamanı Amerikanın səfiri ilə görüşdü. Ondan xahiş etdi ki, «xüsusi şəxs kimi» onun,



Terausinin fikrini ABŞ prezidentinə çatdırsın: müharibəni qurtarmaq lazım idi.

Lakin nə Rusiya, nə də Yaponiya rəsmi qaydada sülh haqqında məsələni qoymaq istəmirdilər. Bu danışıqlar zamanı onların mövqeyini zəiflədə bilərdi.

## Teodor Ruzveltin vasitəçiliyi. Portsmut sülhü

Yaponiya Rusiya ilə müharibəyə hazırlaşanda, İngiltərə, ABŞ, Fransa ona böyük maliyyə yardımı göstərirdilər. Yalnız bu köməyin nəticəsində Yaponiya müharibəyə hazırlaşdı və onu başladı. Lakin Yaponiyanın iştahı isə çox böyük idi. Onun sülh proqramı - Koreyanın, Çinin, Rusiyanın qarət edilməsi proqramı idi. O geniş ərazini, protektorat adı altında bütün Koreyaya sahiblənmək, Port-Arturla birlikdə Lyaodun yarımadasını, Mancuriyadakı Rusiya dəmir yolunu, hətta Rusiya ərazisi olan Saxalin adasını işğal etmək, Vladivostoku möhkəmləndirməyi və Sakit okeanda donanmanı saxlamağı Rusiyaya qadağan etmək iddiasında idi. Rusiyanın ərazilərində balıq ovlamaq və böyük miqdarda müharibə xərci tələb etmək də yaponların proqramına daxil idi.

Rusiya və Yaponiya arasında sülhün bağlanmasına başqa dövlətlərin mövqeyi necə idi? Amerikanın mövqeyi belə idi: Hər iki dövlət maksimum bir-birini zəif salsın, bundan istifadə edib Şərqi Asiyada və Sakit okeanda o, öz təcirini artırsın.

Rusiya qələbə çalsa, o, bu məqsədlərinə nail ola bilməzdi. Buna görə də o, Yaponiyanı maliyyələşdirirdi. Lakin, Yaponiyanın həddən artıq güclənməsi də ABŞ-ın ürəyindən deyildi. Müharibə başlananda 1904-cü ilin martında Ruzvelt Almaniya səfirinə demişdi ki, Amerikanın mənafeyi Rusiya və Yaponiya arsında müharibənin uzanmasını tələb edir.

Ruzvelt 1904-cü ilin dekabrında Rusiya və Yaponiya arasındakı gələcək sülhün şərtlərini aşağıdakı kimi təsvir etmişdi, Mancuriyanı Çinə qaytarmaq və maraqlı dövlətlər tərəfindən onu bitərəfləşdirmək. Koreyanı Yaponiyaya vermək. Rusiya tərəfindən Koreyanın işğal edilməsinə razı olmamaq. Port-Arturu isə dağıdılmış halda saxlamaq. Port-Arturun tutulmasından sonra Ruzvelt onun Yaponiyada qalmasına tərəfdar idi.

Prezident həm də müharibədən sonra Rusiya-Yaponiya ittifaqının yaradılmasından da çox ehtiyat edirdi.

Ruzvelt getdikcə Çində və Sakit okeanda Amerika-Yaponiya ziddiyyətlərinin artdığını başa düşməkdə idi.

Lakin Ruzvelt hesab edirdi ki, Yaponiya Koreyaya, Mancuriyaya, ümumiyyətlə Çinə göz dikdikcə Rusiya Yaponiyanın təbii düşməni olaraq qalacaq. Buna görə də Ruzvelt Yaponiyanın işğalçılıq planlarından imtina etməsini istəmirdi. Buna görə də o, Yaponiyanı müdafiə edirdi.

Bütün bu mülahizələrə görə, Ruzvelt sülh barəsində danışıqlara başlamaq üçün iki döyüşən dövlət arasında vasitəçi kimi çıxış etməyi məqsədəuyğun saydı.

Rusiyanın gələcəkdə Yaponiyanın düşməni olaraq qalması üçün o, Yaponiyanın qələbələrinin əksəriyyətini müdafiə etməyi qərara almışdı.

Yaponiya tərəfinin Amerikaya müraciətindən sonra Ruzvelt 1905-ci ilin martında Rusiya səfiri ilə danışdı. O, nail olmağa çalışdı ki, sülh təşəbbüsü Rusiya tərəfindən meydana atılsın. Lakin Rusiya özünün zəifliyini büruzə verməmək üçün çox ehtiyatla davranırdı. O, əvvəlcə öz müttəfiqi Fransaya müraciət etməyi lazım bildi. Buna görə də Ruzveltə yayğın cavab verirdi.

1905-ci il martın 21-də Lamzdorf Parisdəki səfirinə tapşırdı ki, o, Rusiyanın sülh bağlamağa hazır olduğu



barədə Delkasseyə mə'lumat versin. Lakin Rusiya bu şərtlə sülhə gedər ki, aşağıdakı tələblər irəli sürülməsin:

1. Rusiya ərazisinin bu və ya digər hissəsini güzəştə getmək; 2. Müharibə xərji ödəmək; 3. Vladivostok istiqamətinə gedən dəmir yolunun Rusiyanın himayəsindən çıxarılması; 4. Sakit okeanda hərbi donanmanı məhv etmək. Bütün bunları eşitdikdən sonra Delkasse aprelin 5-də Yaponiya səfiri Motona mürajiət etdi. O, səfirə dedi ki, sülh danışıqlarına vasitəçi ola bilər. O şərtlə ki, Rusiya üçün qəbul edilməyən təkliflər irəli sürülməsin.

Yaponiya hökuməti danışıqlara başlamağa razı olduğunu bildirdi. Lakin qeyd etdi ki, sülhün şərtlərindən özünü asılı hesab etmir.

Delkassenin təklifini Tokio Vaşinqtona bildirdi. Bu mə'lumatla Yaponiyanın Vaşinqtona gələn nümayəndəsini hərbi nazir Taft qəbul etdi.

Yaponiya indi Ruzveltə bilavasitə vasitəçi kimi çıxış etməyi təklif etdi. Ruzvelt o şərtlə bunu öhdəsinə götürür ki, Mancuriyada «açıq qapı» prinsipinə əməl olunsun. 1905-ci il aprelin 25-də Yaponiya buna razı olduğunu bildirdi.

Yaponiya hökuməti sülhün şərtlərini Ruzveltə təqdim etdi.

Müharibə xərcindən və Saxalinin işğal edilməsindən başqa digər şərtləri Ruzvelt qəbul etdi. Rusiyanın təklifləri Ruzveltə mə'lum idi. Onlar Fransa hökumətinə verilmişdi. Lakin o, özünü bu məsələlərdən asılı etmək istəmirdi. Buna görə də o tələsmirdi.

Delkasse rus-yapon sülhünün hazırlığında təşəbbüsü öz əlinə aldı.

Bu vaxt Rojestvenskinin eskadrası Yaponiya sularına yaxınlaşmaqda idi. Düşmən donanması ilə onun görüşünün nə ilə qurtaracağını hələ bilmək çətin idi.

İngiltərənin və Almaniyanın mövqeləri, Amerikanınkından mahiyyətcə fərqlənirdi. Şərqi Asiyada müharibənin uzanması Almaniya üçün xeyirli idi. O, bundan istifadə edib Mərakeş məsələsində Fransaya təzyiqi gücləndirə bilərdi.

İngiltərə Fransa ilə bağladığı «ürək razılığı»nı zəif Rusiya ilə tamamlamaq istəyirdi. Buna görə də o, müharibənin davam etməsinə maraqlı deyildi. Çünki onun müttəfiqi Fransa, rus ordusunun bütün gücü ilə Almaniya sərhəddinə qayıtmasını istəyirdi.

Bununla bərabər, İngiltərə hökuməti müharibə və sülh məsələlərinə qarışmaq istəmirdi. Fransa hökuməti tezliklə Uzaq Şərqdə müharibənin qurtarmasını istəyirdi.

İyunun 5-də Ruzvelt ABŞ-ın Peterburqdakı səfirinə tapşırdı ki, o, çarın qəbuluna getsin. Sülh bağlamaq üçün danışıqlara başlamaq barədə prezidentin təklifini ona versin.

1905-ci il iyunun 6-da çarın sədrliyi ilə Peterburqda hərbi müşavirə çağrıldı. Böyük knyaz Aleksey dedi ki, əgər müharibə davam edərsə, onda Vladivostokun, Amur və Kamçatkanın vəziyyəti təhlükəli olacaq. Hələlik bizə son zərbə vurulmayıb danışıq üçün bünövrə hazırlamaq lazımdı. Knyaz Saxalinin bir hissəsini yaponlara verməyə hazır olduğunu da bildirdi.

Nikolayın dayısı böyük knyaz Vladimir Aleksandroviç müşavirəyə əsas ton verdi. O, qətiyyətlə sülh bağlamağa tərəfdar çıxdı.

Daxildə də inqilab yetişməkdə idi. Vladimir dedi ki, bizə qələbədən çox ölkənin daxilində sakitlik lazımdı. İki faciədən azını seçmək lazım idi. Nikolay öz dayısı ilə razılaşdı. Lakin yenə Mancuriyaya qüvvə göndərmək qərara alındı.

Sabahısı günü, iyunun 7-də Nikolay Amerika səfirini qəbul etdi. O, sülh danışıqlarına başlamaq barədə ABŞ prezidentinin məsləhətini Nikolaya çatdırdı. Çar



dedi ki, bu təklif barədə fikirləşər və tezliklə cavab verər. Lakin səfir təcili olaraq qərara gəlməyi tə'kid etdi. Nikolay razılığını bildirdi. Lamzdorf vəziyyəti dəyişmək və vasitəçilik üçün Fransaya müraciət etməyə cəhd etdi. Lakin Ruzvelt çarın razılığını aldıqdan sonra döyüşən tərəflərə danışıqlara başlamaq barədə rəsmi surətdə müraciət etdi və özünün xidmətini təklif etdi.

1905-ci ilin iyulunda hərbi nazir Taft Yaponiyaya gəldi. İyulun 24-də Katsura ilə görüşdü. Katsura Tafta söz verdi ki, Filippin adalarını işğal etməyəcək. Bunun əvəzində Taft dedi ki, Koreya üzərində Yaponiyanın protektoratlığının qəbul edilməsinə, Koreyanı müstəqil müqavilələr bağlamaqdan məhrum etməyə Uzaq Şərqdə möhkəm sülhün yaranmasına xidmət edəcək. Beləliklə, iki dövlət arasında Filippin və Koreya məsələsinə dair saziş bağlandı.

Taft-Katsura sazişi Koreyanın müstəqilliyinə qarşı ölüm hökmü idi.

Bir neçə gündən sonra, 1905-ci il avqustun 12-də Yaponiya bu sazişi İngiltərəyə təqdim etdi. Elə həmin günü İngiltərə-Yaponiya ittifaqı təzələndi.

1905-ci il noyabrın 17-də Yaponiya-Koreya müqaviləsi imzalandı. Müqaviləyə əsasən Koreyanın xarici siyasətinə rəhbərlik Yaponiyaya həvalə edilirdi.

Yaponiya danışıqlara öz nümayəndələrini - Xarici İşlər Naziri Komuranı və ABŞ-dakı səfiri Takaxiranı tə'yin etdi. Yaponiya hökumətinin təlimatında sülhün şərtləri iki kateqoriyaya ayrılırdı. 1. Mütləq öhdəliklər, 2. ikinci məsələləri nümayəndəliklər mümkün olan səviyyədə özləri müəyyən etməli idilər. Bura müharibə xərci, rus hərbi gəmilərinin qaytarılması, Saxalinin işğalı, Rusiyanın Uzaq Şərq sahillərində balıq ovlamaq hüququ almaq, Vladivostokun tərk-silah edilməsi daxil idi.

Çar öz nümayəndəliyinə Vitteni və ABŞ-dakı səfiri Rozeni tə'yin etdi. İyulun 26-da Rusiya nümayəndəliyi Şerburdan Nyu-Yorka yola düşdü.

Ruzvelt hər iki nümayəndəliyi qəbul etdi. Ruzvelt tə'kidlə Vitteni inandırmağa çalışırdı ki, Rusiya müharibə xərci – kontribusiya verməlidi. Yapon nümayəndəliyinə isə məsləhət görürdü ki, o, Vladivostokun tərksilah edilməsini qoymasın. Yaponlar buna razılaşdılar.

1905-ci il avqustun 9-da ABŞ-ın Atlantika sahilində kurort şəhəri Portsmutda sülh konfransı açıldı.

Birinci iclasda yalnız bir neçə məsələ razılaşdırıldı. Rəsmi danışıq dili ruslar üçün fransız, yaponlar üçün ingilis dili qəbul olundu. Bu o dövr üçün diplomatiyada yenilik idi. Adətən, diplomatiya təcrübəsində yalnız bir dil – fransız dili tətbiq olunurdu. Vitte faktiki olaraq fransızca danışırdı. Ona çatmayan fransız kəlmələrini rusca işlədirdi. Kamura yapon dilində izah edirdi.

Sabahı ikinci iclasda yapon nümayəndəliyi sülhün şərtlərini Rusiya nümayəndəliyinə təqdim etdi. Bura daxil idi: Rusiya Yaponiyanın Koreyada siyasi, hərbi, iqtisadi üstünlüyünü qəbul edir; Yaponiyanın burada həyata keçirəcəyi himayədarlıq, rəhbərlik və nəzarət tədbirlərinə mane olmayacağını öhdəsinə götürür; Mancuriyada sabit, mükəmməl idarə sistemi yaratmaq şərti ilə oradan tamam çıxıb gedir; Yaponiya Mancuriyanı Çinə qaytarır; Bütün millətlər üçün ticarətin, sənayenin inkişafına yönəldilmiş tədbirlər həyata keçirərkən tərəflər Çinə mane olmamağı öhdələrinə götürür. Saxalin adasının Yaponiyaya güzəşt edilməsi, ətraf ərazisi ilə birlikdə Port-Artur və Dalniy, Xarbin-Port-Artur dəmir yolu üzərində ticarət hüququ, Şərqi-Çin dəmir yolunun şimal hissəsindən (Vladivostoka gedən) hərbi məqsədlər üçün istifadə edilməməsi (m.6-8), tərksilah edilib bitərəf limanlarda saxlanılan gəmilərin Yaponiyaya verilməsi (m.10), Uzaq Şərq sularında



Rusiyanın hərbi-dəniz donanmasının məhdudlaşdırılması (m-11), Rusiyanın ərazi sularında, Yapon, Oxot və Berinq dənizlərində yapon balıqçılarına maneəsiz balıq ovu ilə məşğul olmaq hüququ verilməsi də həmin şərtlərə daxil idi.

1905-ci il avqusutn 12-də Vitte Rusiya nümayəndəliyinin cavabını verdi. 4 məsələdən başqa qalan bütün şərtlər qəbul olunurdu: Saxalin haqqında, müharibə xərcini vermək, Sakit okeanda hərbi-dəniz donanmasının məhdudlaşdırılması və tərksilah edilib bitərəf limanlarda saxlanılan gəmilərin yaponlara verilməsi. Vitte bildirdi ki, Rusiya məğlub olmayıb, o, nə kontribusiya, nə də torpaqlarını verəcək.

Vitte cənubi-Mancuriya dəmir yolunun yalnız yaponlar tərəfindən işğal olunmuş hissəsinin verilməsinə razı olduğunu bildirdi.

Koreya haqqında sərhədlərin təhlükəsizliyi haqqında Vittenin təklifini Yaponiya qəbul etdi. Lakin yaponlar Koreya imperatorunun suverenliyi haqqında heç eşitmək də istəmədilər. Razılaşdılar ki, konfransın protokolunda Koreyanın suverenliyini məhdudlaşdıran ölçülər yazılsın. Bu məhdudiyyətləri isə Yaponiya Koreya hökumətinin razılığı ilə həyata keçirməlidir.

Dəmir yolu Xarbinə qədər yalnız Çançundan Port-Artura qədər yaponlara güzəşt edildi.

Avqustun 15-də Saxalinin taleyi məsələsinin müzakirəsinə keçəndə vəziyyət çətinləşdi. Göstərmək lazımdır ki, konfrans hələ müharibənin davam etdiyi şəraitdə işləyirdi. Yaponiya barışıq bağlamağa razılıq vermirdi. İyulda onlar Saxalinə ordu çıxarmışdılar. Vitte dedi ki, Rusiya bu ərazini verə bilməz. Bu mübahisəli məsələni başqa vaxta keçirmək qərara alındı. Heç bir çətinliyə rast gəlinmədən Port-Arturun və Dalninin Yaponiyaya verilməsi qərara alındı. Lakin buna Çinin razılığı lazım idi. Axırıncı balıqçılıqla məşğul olmaq tələbi

də asanlıqla həll edildi. Lakin göstərildi ki, rus balıqçıları da yapon sularında sərbəst balıq ovlamaq hüququna malikdirlər.

Mübahisəli məsələlər – Saxalin haqqında, kontribusiya (təzminat) haqqında, Rusiya hərbi-dəniz qüvvələrinin məhdudlaşdırılması haqqında və tərksilah edilmiş gəmilərin Yaponiyaya verilməsi haqqında məsələlər qalmışdı. Bu məsələlərdə rus tərəfi güzəştə getmədi. Vitte Amerika mətbuatı ilə sıx əlaqə yaradaraq ondan bacarıqla istifadə etdi. O, danışıqların dayandırılmasını Yaponiyanın üzərinə yıxmağa ciddi hazırlıq aparırdı. Vitte belə bir mə'lumat yaydı ki, başqasının ərazisinə göz dikdiyinə, qarətçi müharibə xərcinə görə konfrans pozulmaq təhlükəsi qarşısındadır.

Konfransın gedişi dövründə ABŞ-da ictimai fikir Yaponiyaya qarşı xeyli soyumuşdu. Buna səbəb təkcə onun tələblərinin təcavüzkar təbiətindən yox, həm də Uzaq Şərqdə ABŞ-ın rəqibi kimi onun güclənməsi təhlükəsi idi. Vitte və rus diplomatiyası bu soyuqluğun güclənməsinə çox bacarıqla kömək edirdi. Vitte özünü çox demokrat kimi aparırdı. Məsələn, onu aparan maşinistin əlini sıxır, jurnalistlərlə təmasda olurdu. Yapon nümayəndəliyi isə əksinə özünü dartır və qapalı aparırdı.

1905-ci il avqustun 18-dəki iclasda Kamura kompromiss təkliflə çıxış etdi: Yaponiya Rusiyanın hərbi dəniz qüvvələrinin məhdudlaşdırılmasından, tərksilah edilmiş gəmilərin Yaponiyaya verilməsindən imtina edirdi. Bunun əvəzində ruslar Saxalin haqqında və təzminat vermək haqqında məsələlərdə barışdırıcı ruhda çıxış etməlidirlər.

Bunlara qulaq asandan sonra Vitte katibləri zaldan çıxardı və bir saata qədər dörd səlahiyyətli şəxslər söhbət etdilər. Onun nəticəsi mənfi oldu. Yaponlar təzminatdan imtina etdilər, o şərtlə ki, Saxalinin yarısı



Yaponiyaya verilsin. Saxalinin şimal hissəsinin Rusiyanın əlində qalması əvəzində Rusiya külli miqdarda Yaponiyaya pul verməli idi. Vitte pul verməyi qətiyyətlə rədd etdi. Konfrans küncə dirənmişdi.

1905-ci il avqustun 18-də ABŞ prezidenti işə qarışdı. O Rusiyanın səfiri Rozeni – rus nümayəndəliyinin ikinci şəxsini özünün Oyster-beytdəki yay iqamətgahına də'vət etdi. Ruzvelt Saxalini Yaponiyaya verməyə onu inandırmağa çalışırdı.Pul əvəzi vermək haqda məsələni isə Rusiyanı və Yaponiyanı təmsil edəcək iki dövlətin nümayəndəsinin rəyinə verməyi məsləhət bildi.

Hər iki təklif həm Ruzveltin, həm də Kamuranın təklifi telerqamla Peterburqa verildi. 1905-ci il avqustun 22-də danışıqları dayandırmaq haqqında cavab gəldi.

Yaponiya hökuməti də çətin vəziyyət qarşısında qalmışdı: kontribusiyaya və Saxalinə görə müharibəni davam etdirməkmi? Hökumət yaranmış vəziyyəti bir neçə dəfə müzakirə etməli oldu.

Əslində Ruzvelt Yaponiyaya kontribusiya verilməsinin tərəfdarı deyildi. Çünki o, bundan öz hərbidəniz donanmasının gücləndirilməsi üçün istifadə edərdi. Bu isə ABŞ üçün məqbul deyildi.

Yaponlar isə pulu almaq naminə Saxalindən imtina etməyə üstünlük verirdilər.

İki gün sonra avqustun 25-də Yaponiyaya daha güclü tə'sir göstərildi. Bankir Ykob Şiff Takaxiriyə çox mənalı məktub göndərdi. Şiff ona xəbərdarlıq edirdi ki, əgər müharibə davam edərsə, Rusiya özünün bütün böyük qızıl ehtiyatından istifadə edəcək. Digər tərəfdən Amerikanın, İngiltərənin və Almaniyanın pul bazarlarının Yaponiyanı maliyyələşdirməyəcəkləri təhlükəsi də yarana bilər.

Ruzvelt bir neçə dəfə Rusiya hökumətinə, çara teleqram göndərərək Saxalinin qalan hissəsinin xərcini verməyə razı olmağa təhrik edirdi.

Ruzvelt hər vəchlə çalışırdı ki, onun sülh vasitəçiliyi uğurla qurtarsın.

1905-ci il avqustun 22-də çar ABŞ-ın səfirini qəbul etdi. Əvvəlcə o, barışmaz mövqedən çıxış etdi. Nəhayət, 2 saatlıq mübahisədən sonra çar Saxalinə razılıq verdi.

Lakin yaponlar təzminatsız sülhü bağlamağa razı olarlarmı? Əsas məsələ indi bu idi.

Avqustun 26-daki iclasda Vitte güzəştlərdən imtina etdiyini bildirdi və nümayəndəliyin yığışmasına göstəriş verdi. Yaponlar danışıqları 2 gün də uzatmağı xahiş etdilər, avqustun 27-də Yaponiya hökuməti toplaşaraq yaranmış vəziyyəti müzakirə etdi. Müşavirə gecə keçənə qədər davam etdi. Qərara alındı ki, kontribusiyaya tə'kid edilməsin. Katsura bunu Portsmuta xəbər verdi.

Avqustun 29-da səhər konfrans öz iclasını bərpa etdi. Bütün dünya böyük həyəcanla gözləyirdi. İclas başlanan kimi yapon nümayəndəsi Rusiyanın təklifi ilə razı olduğunu bildirdi.

Bundan sonra hər iki tərəf Laperuzov və Tatarsk boğazlarında sərbəst üzgüçülük haqqında qarşılıqlı tə'minat barədə razılığa gəldilər.

Bir neçə gün sonra ekspertlər müqavilənin mətninin redaktə edilməsinə keçdilər. 1905-ci il sentyabrın 5-də Rusiya və Yaponiya nümayəndələri tərəfindən Portsmut sülh müqaviləsi imzalandı. Onun şərtləri aşağıdakılardan ibarət idi. Rusiya Koreyanı Yaponiyanın tə'sir dairəsində olduğunu tanıdı.

M.2 – Rusiya imperator hökuməti Yaponiyanın Koreyada siyasi, hərbi və iqtisadi mənafelərinin üstünlüyünü tanıyır, Yaponiyanın Koreyada rəhbərlik,



himayədarlıq və nəzarət tədbirlərinə qarşı çıxmayacağını və mane olmayacağını Rusiya öhdəsinə götürür.

M.3. Hər iki tərəf qarşılıqlı surətdə və eyni vaxtda Mancuriyadan tamam getməyi və onu Çinin müstəsna idarəsinə verməyi öhdələrinə götürür.

M.5. Rusiya Port-Artur və Dalniylə birlikdə Lyaodun yarımadasında icarə hüququnu Yaponiyaya güzəştə gedir.

M.6. cənubi Mancuriya dəmir yolu Çançundan Port-Artura qədər Yaponiyanın icarəsinə verilir. Beləliklə, bütün cənubi Mancuriya Yaponiyanın tə'sir dairəsinə verilir.

M.7. Hər iki tərəf öhdələrinə götürürlər ki, Mancuriyada onlara məxsus dəmir yolundan yalnız kommersiya və sənaye məqsədləri üçün istifadə edəcəklər.

M.9. Rusiya 50-ci paralellə Saxalinin cənub hissəsini Yaponiyaya verir. Lakin hər iki tərəf öhdələrinə götürürlər ki, Saxalində sədlər tikməyəcək, gəmiçiliyin sərbəst inkişafına mane olmayacaqlar.

M.11. Balıqçılıq konvensiyası imzalandı. Bu konvensiya ilə Rusiya sahillərində - Yapon, Oxot, Berinq dənizlərində hər iki ölkə əhalisinin sərbəst surətdə balıqçılıqla məşğul olması tənzimlənirdi. Bu konvensiya Rusiyanın və digər xarici ölkələrin burada əvvəllərdə balıqçılıqla məşğul olmaq hüququ olan vətəndaşlarına toxunmur.

Rus-yapon müharibəsi belə qurtardı.

## Fransa və İngiltərə hərbi əməkdaşlığı. İngiltərənin Antantaya qoşulması

Almaniya rus-yapon müharibəsindən sonra Rusiyanın zəifləməsi nəticəsində yaranmış əlverişli şəraitdən

istifadə edə bilmədi. Fransanı Rusiyadan ayıra bilmədi, Antantanı poza bilmədi. Əksinə, Mərakeş böhranı nəticəsində Antanta möhkəmləndi.

1905-ci ilin aprelində Fransa və İngiltərə Almaniyaya qarşı hərbi əməkdaşlıq haqqında danışıqlara başladılar. Ruvye ilə mübarizə apardığı dövrdə Delkasse təsdiq edirdi ki, Lord Lensdaun Fransaya hərbi kömək göstərmək barədə ona vəd vermişdi. Həqiqətən də belə olmuşdu. Lakin 1905-ci ilin dekabrında İngiltərədə mühafizəkarlar hakimiyyətdən getdilər. Hakimiyyətə liberallar gəldilər. Lensdaunu Eduard Qrey əvəz etdi.

1906-cı il yanvarın 10-da Fransanın Londondakı səfiri Pol Kambon Alxesiras konfransının yaxınlaşması ilə əlaqədar olaraq Qreydən soruşmuşdu ki, əgər konfrans pozularsa, o, İngiltərənin Fransaya hərbi kömək göstərəcəyinə tə'minat verirmi? Qrey qeyd etmişdi ki, əgər müharibə baş verərsə, İngiltərənin ictimai fikri Fransanın tərəfində olacaq. Lakin o, formal tə'minat verə bilməz. Kambon xahiş etdi ki, belə olan təqdirdə ali qərargahlar arasında danışıqlar başlanılsın. O sübut edirdi ki, hərbi-texniki cəhətdən hazırlaşmaq lazımdır. Çünki elə şərait yaranar ki, İngiltərə müharibəyə qoşular.

Az sonra Qrey hərbi nazirlə danışdı və göstəriş verdi ki, Ali qərargah Fransanın hərbi attaşesi ilə danışıqlara başlasın. Danışıq gizli aparılırdı. İngiltərənin baş naziri Kempbell-Bannermanın özünün belə danışıqlar barəsində tam mə'luması yox idi. 1906-cı il yanvar-fevral aylarında gedən məktublaşmalardan mə'lum olur ki, əgər müharibə olarsa, İngiltərə Fransaya 4 diviziya göndərəjəyini vəd etdi. Onun müddəti və göndərmə formaları müəyyən olundu. 1906-jı il yanvarın 18-də Qreyin və Xoldenin razılığı ilə İngiltərə ali qərargahı



Belçika ali qərargahı ilə eyni məzmunda danışıqlara başladı.

Fransa və Belçika ilə danışıqlar eyni məzmunda aparılırdı. Tərəflər hərbi və dəniz əməkdaşlığının ətraflı planını hazırlayırdılar. Lakin bu planlar Qrey tərəfindən o şərtlə qəbul edilirdi ki, müharibə o vaxt başlana bilər ki, onu Britaniya kabineti qəbul etmiş olsun. Döyüşmək barədə İngiltərə öz üzərinə konkret öhdəlik götürmürdü. İngiltərə buna Fransaya tə'sir göstərmək üçün əlavə bir vasitə kimi baxırdı. Kambon nə qədər çalışdısa, Qreydən ittifaq müqaviləsi bağlamağa razılıq ala bilmədi.

1906-cı il aprelin 8-11-də Fransa və Rusiya Ali qərargahlarının rəisləri görüşdülər. 90-cı illərdə onlar ardıcıl olaraq məsləhətləşmələr keçirirdilər. İndi isə həmin danışıqlar bərpa edildi. Nəticədə Fransa-Rusiya ittifaqı daha da möhkəmləndi. Fransızlar ona nail olmağa çalışdılar ki, əgər müharibə olarsa, Rusiya Almaniyaya qarşı maksimum qüvvə göndərsin. Fransızların fikrincə, ruslar Avstriyaya qarşı isə imkan daxilində az qüvvə göndərməlidirlər. Fransa ali qərargahı eyni zamanda Rusiyanın son illərdə hərbi qüdrətinin bərpa edilməsini tə'kid edirdilər.

### İngilis-rus sazişi və Antanta blokunun formalaşması

İngilis diplomatiyası Fransa ilə sazişi Rusiya ilə əlavə müqavilə ilə tamamlamaq istəyirdi.

Bu daha mürəkkəb vəzifə idi. İngilis-rus ziddiyyətləri ingilis-fransız ziddiyyətlərindən dərin idi. İngilis-rus yaxınlaşması barədə dəfələrlə edilən təşəbbüslər nəticəsiz qurtarmışdı. Buna baxmayaraq, rus-yapon müharibəsi qurtaran kimi İngiltərə Rusiya ilə əməkdaşlıq yaratmaq üçün yeni cəhd etdi. Belə ki, İngiltərə 1906-cı

ilin əvvəllərində Rusiyaya verilən istiqrazda Fransa ilə birlikdə iştirak etdi.

1905-ci il Rusiya inqilabı İngiltərənin Rusiya ilə yaxınlaşmasının zəruri olması inamını daha da artırdı. İki dövlət arasında Uzaq Şərq ziddiyyəti yaponların qələbəsi nəticəsində öz kəsərini itirdi. Yaxın Şərqdə də rəqabət bir qədər zəifləmişdi. İndi İngiltərə və Rusiyanın başlıca düşməni Almaniya idi. Əvvəlki kəskinlik yalnız Orta Asiyada, xüsusi ilə Əfqanıstanda və İranda qalırdı. Alxesiras konfransında İngiltərə ingilis-rus sazişinin mümkünlüyü barədə təməl qoymuşdu. 1906-cı ilin əvvəllərində Rusiyanın Xarici İşlər Naziri Lamzdorf istefaya getdi. Onu İzvolski əvəz etdi. O ingilis-rus yaxınlaşmasının tərəfdarı idi, Yaponiya ilə yeni üzləşmələrdən qorxurdu və buna görə də onu İngiltərə ilə ittifaq vasitəsi ilə aradan qaldırmağa cəhd edirdi. O həm də bu saziş vasitəsi ilə boğazlar məsələsinin həll edilməsinə ümid bəsləyirdi.

1907-ci ilin martında rus donanması İngiltərəyə səfər etdi. Kralın də'vəti ilə bir qrup Rusiya zabitləri Londona gəldilər. Onlar burada çox yaxşı qarşılandılar. Rusiya dənizçilərinin şərəfinə verilən konsertdə Qrey də iştirak etmişdi.

Yaponiya barəsində İzvolskinin ehtiyat etməsi heç də əsassız deyildi. Portsmut müqaviləsinə əsasən balıq ovu konvensiyası haqqında danışıqlar çox ləng gedirdi. 1907-ci ilin əvvəllərində o yeni rus-yapon münasibətlərinin kəskinləşməsinə gətirib çıxardı. Peterburqda qorxurdular ki, Rusiyanın zəifliyindən istifadə edən Yaponiya onun Uzaq Şərqdə ərazilərini öz əlinə keçirə bilər. İzvolski hesab edirdi ki, rus-ingilis sazişi Yaponiyaya qarşı İngiltərədən mə'lum tə'minat almağa imkan verər. İngiltərədə də başa düşürdülər ki, Rusiyanın arxasını möhkəmləndirmək lazımdır. Yalnız belə halda, Almaniyaya qarşı Rusiyanın gücündən tam



istifadə etmək olardı. Lakin İngiltərə və Yaponiya hələ müttəfiq olaraq qalırdılar. Beləliklə, İngiltərə Yaponiyadan Rusiyaya, Almaniyaya qarşı planlarında istifadə etməkdə davam edirdi. İndi o, həm də rus-yapon münasibətlərini də qaydasına qoymağa cəhd edirdi.

1907-ci il iyulun 28-də balıq ovu konvensiyası imzalandı. İyulun 30-da rus-yapon siyasi sazişi də imzalandı. Yaponiya Xunçun xəttindən şimala - Şimali Mancuriyanı, Birten gölünü, Nonnı çayı mənbəyini, Rusiyanın tə'sir dairəsində, Rusiya isə cənubi Mancuriyanı və Koreyanı Yaponiyanın təcir dairəsində olduğunu təsdiq etdilər. Bu saziş rus-yapon münasibətlərini xeyli yaxşılaşdırdı. Rus-yapon sazişindən bir az əvvəl 1907-ci il iyunun 10-da Fransa və Yaponiya arasında saziş imzalanmışdı.

Nəhayət, 1907-ci il avqustun 31-də ingilis-rus sazişi imzalandı.

1907-ci il sazişi nəticəsində İngiltərə, Fransa və Rusiyanın daxil olduğu Antanta yaradıldı. Bu Almaniyanın, Avstriya-Macarıstanın və İtaliyanın daxil olduğu «Üçlər ittifaqı»na qarşı idi.

Saziş Əfqanıstana, Tibetə və İrana aid idi. İran üç hissəyə bölünürdü: Şimal - Rusiyanın, cənub – İngiltərənin, mərkəz isə bitərəf e'lan olunurdu. Sazişə əsasən, heç bir tərəf başqa tərəfə aid olan ərazidə siyasi və kommersiya məqsədli konsessiyalara cəhd etməməlidi. Bu bitərəf zonaya aid deyildi. İngilis və rus zonasında gəlirlərə İran hökuməti nəzarət etməli idi.

Rusiya Əfqanıstanı öz tə'sir dairəsi hesab etmirdi.

Rusiya və İngiltərə Tibetin işlərinə qarışmamaq barədə öhdəlik götürdülər.

## Yaponiya-Amerika münasibətlərinin kəskinləşməsi

Rus-yapon müharibəsindən sonra Uzaq Şərqdə imperialist dövlətlər arasında rəqabət yenidən alovlanmağa başladı. Bu rəqabətin mərkəzində yapon-amerikan ziddiyyətləri dururdu.

Mə'lum olduğu kimi rus-yapon müharibəsi dövründə ABŞ və Yaponiya müttəfiq kimi çıxış edirdilər. Məhz ABŞ-ın köməyi və təhriki ilə Yaponiya Rusiyaya qarşı müharibəyə başlamışdı.

Yaponiyanın Mancuriyada möhkəmlənməsini ABŞ ciddi narahatçılıqla izləyirdi.

Amerikanın dəmir yolu maqnatı Harrimanın Mancuriya, Sibir vasitəsi ilə Avropaya yol çəkmək planına yapon hökumətinin ciddi mane olması və yaponların kütləvi surətdə Kaliforniyaya emiqrasiyası da amerikan-yapon münasibətlərinin kəskinləşməsinə səbəb olmuşdu.

T.Ruzvelt Yaponiyanın Fillipinə hücumunun qarşısını almaq üçün hazırlaşmaq barədə göstəriş verdi.

Lakin 1906-1908-ci illərdə Yaponiya-Amerika arasındakı ziddiyyətlər müharibə ilə nəticələnmədi. Hər iki tərəfin heç biri müharibəyə hazır deyildi. Buna görə də onlar hər vasitə ilə müharibədən qaçmağa çalışırdılar. Yaponiya ilə münasibətlərindəki gərginliyi zəiflətmək üçün ABŞ Yaponiyanın Koreyaya qarşı işğalçılıq planlarını müdafiə etdi.

ABŞ-Yaponiya münasibətlərini yaxşılaşdırmaq üçün bir neçə siyasi sazişlər imzalandı. Belə ki, 1907-ci ilin sonu, 1908-ci ilin əvvəlində bağlanmış «centiliment sazişi»nə görə yapon hökuməti yaponların ABŞ-a emiqrasiyasının qarşısını almağı öhdəsinə götürdü. Yaponiyanın ABŞ-dakı səfiri Takaxira və ABŞ-ın dövlət katibi Rüt arasında 1908-ci il 30 noyabr tarixli nota mübadiləsində Sakit okeanda hər iki dövlətin malikanələrinin toxunulmazlığına, Çində «açıq qapılar» siyasətinə hörmət etmək öz əksini tapmışdı.



Lakin bu diplomatik aktlar ABŞ-Yaponiya münasibətlərinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına kömək etmədi. Hər iki tərəf Sakit okeanda hakim olmağa cəhd edirdi.

Avropada isə Fransa, Rusiya, Yaponiya arasında yaxınlaşmaq meylləri özünü göstərməkdə idi. Fransa çalışırdı ki, Rusiyanın və Fransanın hərbi qüvvələri Avropada da cəmləşsin. Fransanı Yaponiya ilə də yaxınlaşmaq düşündürürdü. Yaponiyanın Fransadan güclü istiqraz almaq arzusu bu yaxınlaşmanın reallığına əsas verirdi.

1907-ci il iyunun 10-da Fransa-Yaponiya sazişi imzalandı. Hər iki dövlət «açıq qapılar» siyasətini və Çinin ərazisinin toxunulmazlığını təsdiq etdilər.

Yaponiya-Rusiya danışıqları daha gərgin gedirdi. Yapon qoşunlarının Mancuriyadan çıxarılması haqqında Portsmut müqaviləsinin şərtlərinin yerinə yetirilməsini yaponlar ləngidirdilər, halbuki ruslar buna vaxtından əvvəl əməl etmişdilər. Portsmut müqaviləsində həmçinin Rusiya və Yaponiya arasında ticarət müqaviləsi və balıq ovu haqqında konvensiyalara baxmaq barədə danışıqlarda da bir irəliləyiş hiss edilmirdi.

Nəhayət 1907-ci il iyulun 30-da rus-yapon ümumi siyasi konvensiyası imzalandı. O iki hissədən ibarət idi. Birinci hissədə «açıq qapılar» və Çinin ərazisinin toxunulmazlığı siyasəti təsdiq edilirdi. İkinci məxfi hissədə isə Mancuriyanın yapon (cənub) və rus (şimal) nüfuz dairələrinə bölünməsi öz əksini tapmışdı.

1907-ci ildə ingilis-rus sazişi də imzalanmışdı. Bu sazişlər Uzaq Şərqdə Antantanın mövqeyinin möhkəmlənməsinə səbəb olmuşdu. Bu Çin və Almaniya hökumətlərini ciddi narahat edirdi. Almaniya

diplomatiyası fəallaşmağa başladı. O hər vasitə ilə Antantanın dağılmasına və heç olmasa zəifləməsinə nail olmağa çalışırdı. Bu məqsədlə Almaniya ABŞ ilə yaxınlaşmağa üstünlük verirdi. ABŞ ilə saziş Uzaq Şərqdə Antantaya qarşı bir qüvvənin yaranmasını tə'min edərdi.

Almaniya Vaşinqtondakı və Pekindəki səfirləri vasitəsi ilə tezliklə Almaniya-ABŞ-Çin arasında saziş bağlamağın zəruriliyi haqda təklifini həmin hökumətlərin nəzərinə çatdırdı. Vilhelm Amerikanın Atlantika sahillərini alman donanması vasitəsi ilə qorumağı, əgər yaponlar Amerika sahillərinə qoşun çıxarardılarsa, Vilhelm ABŞ sahillərinə qoşun göndərməyə razı olduğunu da T. Rüzveltə və'd edirdi.

T.Rüzvelt bu məsələni Almaniya səfiri ilə müzakirə etdi.

Lakin Berlinin gözlədiyinin əksinə olaraq ABŞ 1908-ci ildə Yaponiya ilə saziş imzaladı.

Almaniyanın planının belə iflasa uğramasına baxmayaraq Vilhelm ABŞ ilə yaxınlaşmağa olan ümidini hələ itirməmişdi. Birinci dünya müharibəsinədək o ABŞ ilə əlaqəyə girmək üçün hər an bəhanə axtarmışdı.

1909-1913-cü illərdə prezident Taft dövründə ABŞ Uzaq Şərq problemlərinə daha artıq diqqət vermişdi. İndi Mancuriya məsələsi Amerika və Yaponiya arasındaki ziddiyyətlərin mərkəzinə keçmişdi. Bu rayonda Amerika özünün tam ağalığını tə'min etməyi qarşısına məqsəd qoymuşdu. Taft və onun dövlət katibi Noks öz siyasətlərində ABŞ kapitalının maraqlarına üstünlük vermişdilər.

Filippinin keçmiş qubernatoru, T.Ruzvelt dövründə hərbi nazir olmuş Taft bir neçə dəfə Yaponiyada olmuş və Uzaq Şərqə yaxşı bələd idi.

ABŞ-ın maliyyə maraqlarını nəzərə alaraq Taft Çinə xüsusi diqqət yetirirdi. Bu məqsədlə o, Nyu-Yorkun



maliyyə dairələrinin güclü bank qrupu yaradılmasını tə'kid edirdi. Bu dövrdə İngiltərə, Almaniya və Fransa arasında da Mərkəzi Çində dəmir yolu çəkmək üçün bank birləşməsi yaradılması haqqında danışıqlar gedirdi.

1909-cu ilin mayında Xuçuan dəmir yolunun çəkilməsinin maliyyələşdirilməsi haqqında Alman-Asiya, Honkonq-Şanxay və Hind-Çin bankları arasında danışıqlar getdiyi ABŞ-a mə'lum oldu. İyunun 6-da həmin üç bank arasında saziş imzalandı. Bir aydan sonra daha geniş saziş bağlandı. Bu saziş faktiki olaraq bank konsorsiumunun başlanğıcını qoydu.

Londonda, Parisdə, Berlində uğur qazanmayan ABŞ diplomatiyası bilavasitə Çinə təzyiq göstərməyə girişdi. Taft 1909-cu il iyulun 6-da Çinin vəliəhdi Çunya şəxsi məktub göndərdi və Amerikanın xuçuan istiqrazında iştirakının tə'min edilməsini qətiyyətlə tə'kid etdi. Əvvəlcə İngiltərə, Fransa və Almaniya hökumətləri buna razılıq verdilər. Lakin diplomatlarla bank birlikləri arasındakı danışıqlar ciddi çətinliklərlə üzləşdi. ABŞ həm istiqrazda, həm də tikintidə bərabər surətdə iştirak etməyi tə'kid edirdi. Nəhayət danışıqlar 1910-cu ilin mayında qurtardı. ABŞ konsorsiuma daxil edildi. Dörd dövlətin bank konsorsiumu belə yarandı.

ABŞ bununla yanaşı həm də Mancuriyanı Amerika kapitalının tə'sir dairəsinə çevirmək planını həyata keçirmək sahəsində öz fəaliyyətini gücləndirmişdi. 1909-cu il noyabrın 6-da ABŞ dövlət departamenti İngiltərə və bir sıra başqa dövlətlərə memorandumla müraciət etmişdi Tarixə «Noks memorandumu» adı ilə daxil olmuş bu sənəddə Mancuriyada Çinin suverenliyini və «açıq qapılar» siyasətinin həyata keçmirilməsini tə'min etmək adı altında ABŞ Mancuriyada Çin-Rusiya sərhəddinə qədər dəmir yolu xəttinin çəkilməsinə başlamağa nail olmaq məqsədini güdürdü. Lakin «Noks memorandumu» uğur

qazanmadı. Rusiya, Fransa, İngiltərə, Yaponiya onu rədd etdilər.

Rusiya və Yaponiya onların iştirakı olmadan bank konsorsiumunun yaradılmasına qət'i e'tirazlarını bildirdilər. Uzun danışıqlardan sonra 1912-ci ildə Rusiya və Yaponiya da konsorsiuma daxil oldular. Dördlər konsorsiumu altılar konsorsiumuna çevrildi. Bundan sonra konsorsiumda ABŞ-ın həlledici roluna son qoyuldu.

Yaponiyanın xarici siyasətində Koreya mühüm yer tuturdu. 1904-1905-ci il rus-yapon müharibəsindən sonra 1905-ci il noyabrın 17-də imzalanmış Yaponiya-Koreya müqaviləsinə görə Koreya başqa dövlətlərlə diplomatik münasibətlərə girmək hüququndan məhrum edilmişdi.

1907-ci ildə Haaqa sülh konfransına müraciət etməyə təşəbbüs etdiyinə görə Yaponiya imperatorun hakimiyyətdən kənar edilməsini Koreyadan tələb etmişdi. Getdikcə Koreyada bütün səlahiyyətləri Yaponiya öz əlinə keçirirdi. Nəhayət, 1910-cu il avqustun 22-də Koreyanı işğal etdi. Həmin tarixdə bağlanmış müqaviləyə əsasən Koreyanın Yaponiya tərəfindən işğal edilməsi təsdiq olundu.

Uzaq Şərqdə gedən proseslər, ABŞ-ın bu rayonda öz fəallığını artırması İngiltərəni narahat etməyə bilməzdi. Belə şəraitdə İngiltərə Yaponiya ilə ittifaqın nə qədər zəruri olduğunu aydın təsəvvür edirdi. 1911-ci il iyulun 13-də üçüncü ingilis-yapon ittifaq müqaviləsi imzalandı. Yeni müqavilə Uzaq Şərqdə hər iki dövlətin mövqeyini xeyli möhkəmləndirdi. Əgər bu müqavilə bağlanmasaydı İngiltərə Uzaq Şərqdə 12 ağır kreyser saxlamalı idi. Yaponiya isə İngiltərənin və Fransanın maliyyə köməyinə ümid bəsləyirdi.

Rus-yapon müharibəsindən sonra Çin hökuməti Rusiya ilə sərhəd olan Monqolustanda öz iqtisadi və



siyasi tə'sirini gücləndirməyə çalışırdı. Beləliklə, tədricən rus-Çin münaqişəsi reallaşırdı. Xarici Monqolustan ərazisi Rusiya, xüsusi ilə onun Sibir və Sibir magistralının təhlükəsizliyi üçün böyük əhəmiyyəti olan starteji rayon idi.

1907-ci il Rus-yapon məxfi sazişinə görə Yaponiya Xarici Monqolustanın Rusiyanın nüfuz dairəsində olduğunu təsdiq etmişdi. Lakin çar hökuməti bunun reallaşması üçün heç bir tə'sirli tədbirlər görmədi.

Uzun danışıqlardan sonra Rus-Çin bəyannaməsində (1913-cü il 5 noyabr) və Rusiya, Çin və Xarici Monqolustan (1915-ci il 7 noyabr) arasında bağlanmış sazişdə Xarici Monqolustanın Çinin ərazisinin bir hissəsi olduğu təsdiq edildi. Çin və Rusiya Xarici Monqolustanın muxtariyyatanı tanıdılar və onun daxili işlərinə qarışmayacaqlarını, ora ordu göndərməyəcəklərini öhdələrinə götürdülər.

***

Beləliklə, bütövlükdə Avropanı götürdükdə burada beynəlxalq münasibətlərdə həlledici rol oynayan dövlətlər iki qrupa bölünmüşdülər. Birinciyə - Antantaya Rusiya, Fransa və İngiltərə, ikinciyə – Üçlər ittifaqına isə Almaniya-Avstriya-Macarıstan və İtaliya daxil idilər. Antanta dövlətlərindən birincisi, yəni Rusiya başlıca olaraq, Avstriya-Macarıstana, ikinci və üçüncü dövlətlər, yəni Fransa və İngiltərə isə Almaniyaya, İtaliyaya qarşı idilər. Üçlər ittifaqının üzvləri isə lazım gələrsə, öz qüvvələrini həm Şərqə - Rusiyaya qarşı, həm də Qərbə Fransa və İngiltərəyə qarşı yönəltməyə hazır idilər.

Başdan-ayağa qədər silahlanmış bu iki qrup bir-birilərini həmişə nəzarətləri altında saxlayır, müharibəyə başlamaq üçün məqam gözləyirdilər. Lakin hələlik

qruplardan heç biri və onlara daxil olan heç bir dövlət bu təşəbbüsü öz üzərinə götürmək istəmirdi.

Onu da qeyd etmək lazımdır ki, 1902-ci il Fransa-İtaliya sazişinin bağlanması nəticəsində İtaliya əslində üçlər ittifaqından uzaqlaşmışdı. Beləliklə, Almaniya öz zəif müttəfiqi Avstriya-Macarıstanla təklikdə qalmışdı. Antanta isə Yaponiya ilə birlikdə bu sazişlərlə Uzaq Şərqdə öz arxalarını möhkəmləndirmişdilər.

Bu dövrdə Qərbi Avropada müvəffəqiyyətsizliyə uğrayan ABŞ əsas diqqətini Yaponiyaya verir. Çinə təzyiq göstərməyə girişir. Bu maliyyə oliqarxiyasının, dollar diplomatiyasının maraqlarına daha çox cavab verirdi. Bu sahədə Uzaq Şərqdə və Çində ABŞ diplomatiyası əhəmiyyətli uğurlar qazandı.

Beləliklə, hələlik böyük dövlətlər bir-birilərini qorxu altında saxlayırdılar. Avropa həyəcanlı sabitlik şəraitində yaşayırdı.

Bu uzunmu çəkəcək? Bunu heç kim deyə bilməzdi.



# VIII FƏSİL

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

Artıq rus-yapon müharibəsinin axırıncı illərində böyük dövlətlərin diqqəti əsasən Avropaya və Aralıq dənizi ətrafında baş verən hadisələrə yönəldilmişdi. Mərakeş böhranı Fransa-Almaniya ziddiyyətlərinin daha da kəskinləşməsinə səbəb olmuşdu. Alman donanmasının getdikcə güclənməsindən təşvişə düşən İngiltərə Avropa sularında öz mövqeyini möhkəmləndirmək üçün Uzaq Şərqdən donanmasını geri çağırmağa məcbur olmuşdu. Bütün bunlar Avropada beynəlxalq vəziyyətin gərgin olduğunu göstərirdi.

Belə şəraitdə diplomatiyanın başlıca vəzifəsi Avropada hadisələrin gedişindən düzgün nəticə çıxarmaq, ağıllı siyasət yeritmək idi. Hadisələr göstərdi ki, ingilis-alman ziddiyyətləri ingilis-rus, ingilis-fransız ziddiyyətlərindən daha dərindir. İngiltərə Almaniyanı özünün başlıca düşməni olduğunu boynuna almağa və beləliklə Fransa-Rusiya tərəfi ilə alman təhlükəsinə qarşı birləşməyə məcbur oldu. İngiltərənin Xarici İşlər Nazirliyinin rəhbər məmurlarından olan Eyr Krou 1907-ci il yanvarın 1-də memuarında yazmışdı ki, vaxtı ilə böyük kansler Bismark İngiltərəni onun tələblərinə güzəştə getməyə məcbur edəndə özünü mahiyyətdən daha çox formasına görə Annanın pərəstişkarı hesab edən III Riçard kimi aparırdı. Onun varislərində də belə inam yaranmışdı ki, təhqiramiz hədələr və usandırıcı, təngə gətirən söz atmalarla, dolaşmaqla İngiltərədən mühüm güzəştlər almaq olar. 1890-cı ildən sonra Almaniyanın bizim ölkəmizə münasibəti peşəkar şantajistin hərəkətlərinə bənzəyirdi. Almaniyanın dənizdə birinciliyi

Britaniya imperiyasının mövcudluğu ilə bir yerə sığa bilməzdi. Əgər Böyük Britaniya yox olsa, həm quruda, həm də dənizdə bir dövlətin əlində nəhəng hərbi qüvvənin cəmləşməsi bütün dünyanı bu xaosdan öz yaxalarını qurtarmaq üçün bir xəttə birləşməyə məcbur edəcək.

Foreyn ofisin stats-katibi Eduard Qrey, Kral VII Eduard Kroun bu fikirləri ilə şərik olduqlarını bildirdilər.

Almaniyanın hərbi donanmasının inkişafı ingilisləri daha çox narahat edirdi. 1905-1907-ci illər böhranından sonra İngiltərə və Almaniya dəniz silahlarını daha sür'ətlə artırmağa başladılar.

Vergilərin artırılmasının və müharibə təhlükəsinin getdikcə artmasının səbəbkarının Almaniya olduğu barədə ictimaiyyət arasında fikir yaratmaq lazım idi. Bu məqsədlə İngiltərə yeni gəmilərin yaradılmasını dayandırmaq barədə Almaniyaya müraciət etməyi qərara aldı. Əgər almanlar razı olmasalar, onda ingilis xalqına demək mümkün olacaq ki, o almanların günahı üzündən belə əziyyət çəkir. Əgər razı olsalar, onda dənizdə qüvvələr nisbəti indi olduğu kimi saxlanılacaq. Bu İngiltərə üçün məqbul idi, çünki dənizdə üstünlük hələlik İngiltərənin tərəfində idi. İngiltərə hökuməti belə düşünürdü.

İngilis diplomatiyası 1907-ci ilin ikinci yarısında Haaqa konfransında dəniz silahlı qüvvələrini məhdudlaşdırmaq təklifi ilə çıxış etdi.

1908-ci ilin avqustunda VII Eduard Kronberqə II Vilhelmin yanına getdi. Kralı Qardinq müşayiət edirdi. Mənbələrdən mə'lum olduğu kimi, II Vilhelm özünü hədsiz dərəcədə barışmaz apardı. Qardinq dənizdə silahlanmanın sür'ətlə artırılmasının məhdudlaşdırılması barədə kayzeri dilə tutmağa başladı. Danışıqlar heç bir nəticə vermədi. Kayzer hədələyici tonla dedi: «Biz nə vaxtsa döyüşəcəyik, bu milli şərəf və ləyaqət



məsələsidir». Qardinq söhbətin mövzusunu dərhal dəyişdi.

Danışıqlardan bu cür kobudcasına imtina etməyin tərəfdarı olmayan bəzi alman diplomatları başqa manevrə əl atdılar. Onlar elə yol seçdilər ki, danışıqların pozulmasını İngiltərənin üzərinə ata bilsinlər. Onlar dənizdə silahlanmanın məhdudlaşdırılması əvəzində İngiltərədən onu Antantadan-Fransa və Rusiyadan imtina etməyi irəli sürdülər. Əlbəttə, bu təklifi İngiltərə qəbul edə bilməzdi.

Almaniya ilə danışıqların uğursuz qurtarmasından sonra İngiltərə hökuməti açıqdan-açığa e'lan etdi ki, bir alman gəmisinə qarşı iki gəmi istehsal edəcək.

## Balkanlar uğrunda mübarizə

Dənizdə birinjilik uğrunda mübarizə ingilis-alman rəqabətində yeganə deyildi. Yaxın Şərq uğrunda mübarizə də bu iki dövlətin münasibətlərində mühüm yer tuturdu. Bağdad dəmir yolu konsessiyasını alandan sonra Almaniya Türkiyəyə bütövlükdə sahiblənmək və onu özünün müstəmləkəsinə çevirmək üçün fəaliyyətini güjləndirmişdi. Türkiyə sultanı Əbdül-Həmid də özünün laxlamış hakimiyyətini Almaniyanın və alman kapitalının köməyi ilə möhkəmləndirmək haqda düşünürdü. O Almaniyadan Balkanlarda slavyanların milli azadlıq hərəkatına qarşı istifadə etmək məqsədini güdürdü.

Almaniya sultanının bu istə'yinə həvəslə tərəfdar çıxırdı. Almaniyanın müttəfiqi – Avstriya-Majarıstan da onunla həmrəy idi.

Çar hökumətinin səhvləri nəticəsində keçən əsrin 80-ci illərində Avstriya-Macarıstan Serbiya və Bolqarıstanda öz mövqelərini möhkəmləndirdi. Lakin bir az sonra Serbiyanın kralı Milan və Bolqarıstanın kralı Stambulov inandılar ki, Avstriya-Macarıstan və onun

müttəfiqi Almaniya onların milli müstəqilliyinin qatı düşmənləridir. Buna görə də Avstriyanın əli ilə Bolqarıstan taxtına gətirilmiş knyaz Ferdinand Rusiya ilə barışmağa cəhd etməli oldu. Nəticədə 1896-cı ildə Rusiya Ferdinandı bolqar knyazı kimi tanıdı. Serbiya da Rusiya tərəfinə daha qəti dönüş etdi.

1903-cü ildə Bolqarıstanda dövlət çevrilişi baş verdi. Obrenoviçlər sülaləsini Qarakeorkiyevçilər sülaləsi əvəz etdi. Bunun ardınca Türkiyəyə və Avstriya-Macarıstana qarşı təbliğat gücləndirildi. 1906-cı ilin əvvəllərində Avstriya-Macarıstan və Serbiya arasında kömrük müharibəsi başlandı. Avstriyada Rusiyanın zəifləməsindən istifadə edərək, Serb vilayətlərini işğal edib Habsburqlar monarxiyasının tərkibinə daxil etməyin tərəfdarlarının tə'siri güclənmişdi. Bu dairələrin başında vəliəhd Frans-Ferdinand, ali qərargahın rəisi feldmarşal Konrad fon Hebsendorf, Xarici İşlər Naziri Erental dururdular.

Onlar hələ 1878-ci ildə Avstriya tərəfindən işğal olunmuş, lakin Berlin traktatının 25-ci maddəsinə əsasən Türkiyənin suverenliyində qalan Bosniya və Herseqovinanı işğal etmək üzərində düşünürdülər. Beləliklə, onlar bu vilayətləri özünə birləşdirmək arzusunda olan Serbiyanın ümidini kəsmək istəyirdilər. Sonuncu mərhələ isə Serbiyanın işğal edilməsi idi.

Erentalın fəaliyyətində serb-bolqar ziddiyyətlərinin daha da kəskinləşdirilməsi mühüm yer tuturdu. O da Serbiyanın müstəqilliyinin ləğv edilməsi fikrində idi.

Əgər Almaniyaya Türkiyəni öz əsarəti altına almaq nəsib olarsa, onda onun müttəfiqi Avstriya-Macarıstan Balkan yarımadasında, bütün Yaxın Şərqdə öz planlarını həyata keçirərdi. İngiltərə bununla barışa bilməzdi. O Yaxın Şərqə Avropadan Hindistana bir körpü kimi baxırdı. Rusiya da buna yol verə bilməzdi. Türkiyənin və Balkanın Almaniya və Avstriyaya tabe olması Rusiyanın



Qafqaza qədər bütün cənub hissəsinin, Qara dəniz sahillərinin təhlükəsizliyinə böyük təhlükə yaranması demək idi.

İngiltərə hökuməti Almaniyanın Türkiyəni işğal etməsi qarşısında sədd kimi dayanmışdı. Bunun üçün o müxtəlif formalardan istifadə edirdi. O ilk növbədə maliyyə tə'sirinə əl atır. 1903-cü ilin aprelində ingilis bankirləri Bağdad dəmir yolunu maliyyələşdirməkdən imtina etdilər. Halbuki bu yol Türkiyə üçün böyük gəlir verərdi. Onun tikilməsi isə pul və müxtəlif vəsaitlər tələb edirdi. Türkiyədə isə bunlar yox idi. O, bunu yalnız vergiləri artırmaq, gömrükdən gələn gəlir hesabına əldə edə bilərdi. Gömrük siyasətindən Türkiyə asılı idi. Gətirilən mallara kömrük haqqı onun dəyərinin 8 faizindən artıq ola bilməzdi. Onu ancaq Türkiyə böyük dövlətlərin razılığı ilə qaldıra bilərdi. İngiltərə buna qəti surətdə e'tiraz edirdi. Fransa və Rusiyada da ingilis-rus münasibətlərinin gərgin olmasına baxmayaraq, İngiltərənin mövqeyini bütünlüklə müdafiə edirdilər. Beləliklə, Bağdad yolunun çəkilməsinin maliyyələşdirilməsi dayandırıldı. Almaniya üçün isə bunu həll etmək o qədər də asan deyildi.

Nəhayət, 1902-1903-cü illərdə Makedoniyada başlanmış çaxnaşmadan istifadə edərək sultana siyasi təzyiq gücləndirildi. Mə'lum olduğu kimi, 1903-cü ildə Myurtsşteqdə Rusiya və Avstriya Makedoniyada islahat proqramı barədə razılığa gəlmişdilər. O vaxtdan başlayaraq, Balkan qazanının yenidən qaynamasına imkan verməmək üçün bu və ya digər formada Makedoniyada sakitlik yaratmağa cəhd edirdilər. İngiltərə hökuməti, Lensdaun daha radikal reforma proqramını irəli sürdü. Onun məqsədi sultanı Makedoniyada real hakimiyyətdən məhrum etmək idi. İndi İngiltərə Almaniyaya meyl edən sultana təzyiqi artırdı. O yenidən Makedoniya məsələsini qaldırdı. Bu

işdə birlikdə sultana təzyiq göstərilməsində o Rusiyanın köməyinə nail olmağa cəhd edirdi. 1903-cü ilin iyununda Reveldə VII Eduard II Nikolayla görüşdü. Kralı Foreyn Ofisin stat-katibinin köməkçisi Qordinq, admiral Fişer, general Frenq müşayiət edirdilər. Qordinq İzvolskini Makedoniyada islahat haqda ingilis proqramını müdafiə etməyə inandırmağa çalışırdı. O, buna nail oldu. Bununla əlaqədar olaraq e'lan edilmiş sənəddə göstərilirdi ki, Rusiya və İngiltərə bütün beynəlxalq problemlər üzrə tam razılığa gəldilər.

Makedoniya məsələsi üzrə diskussiyaların gedişində İzvolski ingilis proqramına daha yumşaq xarakter verməyə cəhd edirdi. Almaniyanın hərbi üstünlüyündən Rusiyanın ehtiyat etdiyini Britaniya həmkarından gizlətmək istəmirdi. Bunu nəzərə alaraq, Rusiyanın Xarici İşlər naziri öz işini o qədər ehtiyatla aparmalı idi ki, Rusiyanın İngiltərə ilə yaxınlaşması Almaniya-Rusiya münasibətlərinin kəskinləşməsinə imkan verilməsin. Qordinq onunla razılaşdı ki, Almaniyanın ehtiyatlı hərəkət etməsi İngiltərə üçün də zəruri idi. O Rusiya nazirinə məsləhət bildi ki, öz hərbi qüvvəsini bərpa etməyə Rusiya tələsməlidir. Almaniyanın öz dəniz qüdrətini getdikcə gücləndirməsinə İngiltərə hədsiz təşvişlə yanaşırdı. Buna görə də İngiltərə əks tədbirlər gördü. Rusiya da öz gücünü bərpa etməlidir. 7-8 ildən sonra elə bir böhran vəziyyəti yarana bilər ki, Rusiya Avropada güclü olarsa, sülh işində arbitr rolunu oynaya bilər və Haaqa konfransında daha çox o sülhün möhkəmlənməsini tə'min edə bilər.

Beləliklə, Rusiyanın qarşısında Yaponiya ilə müharibə nəticəsində zəifləmiş gücünü bərpa etmək vəzifəsi dururdu. Hələlik onun düşmənləri əlverişli vəziyyətdən istifadə edib balkanlarda öz mövqelərini möhkəmləndirməyə tələsirdilər. Bu işdə Avstriya birincilər sırasında gedirdi.



Erental 1908-ci ilin əvvəllərində bu vəzifəni həyata keçirməyə girişdi. O, Avstriya sərhəddində Yeni Bazardan keçərək, Salonik vilayətinə dəmir yolu çəkilməsi layihəsini irəli sürdü. Bu Avstriyanı Egey dənizi ilə birləşdirməli idi. 1908-ci il yanvarın 27-də Erental bu planını açıqladı.

Erentalın çıxışı Rusiyada hədsiz narahatlıqla qarşılandı. Salonikə yolun çəkilməsi Balkan yarımadasının qərb yarısında Avstriyanın tə'sirini xeyli möhkəmləndirə bilərdi. Beləliklə, Rusiya bu layihəyə biganə qala bilməzdi. Fevralın 3-də Peterburqda Nazirlər Şurasının iclası çağırıldı. İzvolski bu işdə İngiltərə ilə yaxınlaşmaqdan istifadə etməyi və bununla son illərdə Rusiyanın şərqdə yeritdiyi müdafiə olunmaq siyasətindən imtina etməsini irəli sürdü. Hələ 1907-ci ildə ingilislərlə danışıqlar zamanı İzvolski boğazların beynəlxalq – hüquq rejiminin dəyişdirilməsi barədə İngiltərənin razılığını almışdı. O istəyirdi ki, Rusiya Qara dənizdə və boğazlarda Rusiya gəmilərinin sərbəst gediş-gəlişinə nail olsun. İngiltərə formal saziş bağlamaqdan imtina etdi. Lakin İngiltərənin nümayəndəsi Rusiyanın ümidini tamamilə sındırmadı. Məhz İzvolski bunu nəzərə alaraq, Rusiyanın Yaxın Şərqdə daha cəsarətli siyasət yeritməsi təklifini irəli sürmüşdü. Lakin müşavirədə iştirak edən digər nazirlər İzvolskinin təklifini rədd etdilər. Hərbi nazirin köməkçisi Polivanov, Maliyyə naziri Kokovskov, Stolıpin onun təklifinin əleyhinə çıxış etdilər.

İndi İzvolski yalnız diplomatik kanallardan istifadə etməli idi. O Avstriyanın layihəsinə qarşı öz layihəsini irəli sürməkdən başladı. O dəmir yolunu Adriatik dənizi limanlarının birindən Dunaya qədər çəkməyi irəli sürdü. Bu Serbiyanın dənizə çıxmasına imkan verər, Avstriyadan iqtisadi və siyasi müstəqilliyini tə'min edərdi. Dunay-Adriatik dəmir yolu Avstriya üçün heç də

mənfəətli deyildi. İngiltərə bu layihəni müdafiə etməyə söz verdi, o şərtlə ki, Rusiya İngiltərənin Makedoniyada islahat keçirmək haqda layihəsinə tərəfdar çıxsın.

Elə bu günlərdə Türkiyədə burjua inqilabı baş verdi. İyulun 3-də Makedoniyada, Resn qalasında gənc türklərdən olan zabitlərin başçılığı altında qarnizon üsyan qaldırdı. İyulun 24-də sultan konstitusiya qəbul etməyə məcbur oldu. İngilispərəst Kamil paşa baş vəzir oldu. Bu İngiltərənin qələbəsi idi.

## 1908-ci ildə Buxlauda Rusiya-Avstriya sazişi

Erental qorxurdu ki, Türkiyənin yeni hökuməti İngiltərəyə istinad edərək, Bosniya və Herseqovinanın qaytarılmasını tələb edər. Digər tərəfdən isə Erental hesab edirdi ki, Türkiyədə hökumət böhranından istifadə edərək, onun ərazisinə soxulmaq üçün əlverişli şərait yaranmışdır. Avstriya-Macarıstan hökuməti hesab edirdi ki, Bosniya və Herseqovinanı işğal etmək vaxtı çatıbdır. Erental bu məqsədinə Rusiyanın razılığı ilə nail olmaq istəyirdi. O, ümid edirdi ki, əgər Rusiya buna razılıq verərsə, onda o cənub slavyanlarının gözündən düşər və Balkanlarda onun tə'siri azalardı. Beləliklə Avstriyanın hər iki əyaləti işğal etməsini asanlaşdırardı. Bunun naminə Avstriya hətta boğazların rejiminin dəyişdirilməsinə razılıq verməyə belə hazır idi. Bosfor və Dardaneldən sərbəst keçmək üçün ciddi cəhd göstərmək İngiltərə və Türkiyə ilə ixtilafa girmək demək idi. Bunu Erental yaxşı bilirdi və onu da bilirdi ki, İngiltərə boğazlar məsələsində heç vaxt Rusiyaya güzəştə getməz.

1908-ci il iyulun 2-də İzvolski Yaxın Şərq məsələsi üzrə Erentala məktub göndərmişdi. O məktubda Balkanlarda mövcud vəziyyətin saxlanılmasını yazırdı.



Bununla bərabər, o bildirirdi ki, həm Bosniyanın işğalı və həm də boğazlar məsələsi ümumi Avropa əhəmiyyətli məsələlərdi. Rusiya və Avstriya ikilikdə Berlin traktatını dəyişdirmək səlahiyyətinə malik deyillər. Bununla bərabər, dostluq şəraitində bu məsələləri müzakirə etməyə razılığını bildirdi. 1908-ci il sentyabrın 15-də iki nazir Buxlauda görüşdülər. Buxlau Erentalın malikanəsi idi. Onlar şifahi razılığa gəldilər. Avstriya-Macarıstan öhdəsinə götürdü ki, boğazların Rusiya gəmiləri üçün açılmasına e'tiraz etməyəcək. Bunun əvəzində Rusiya Avstriya-Macarıstan tərəfindən Bosniya və Herseqovinanın işğalına razılıq verdi. Əlbəttə, bütün bunlar Osmanlı imperiyasının müstəqilliyinə və təhlükəsizliyinə toxunmamalı idi. Hər iki tərəf belə qərara gəldilər ki, əgər Bolqarıstan Türkiyədən asılılığının ləğv edilməsini e'lan edərsə, onlar e'tiraz etməycəklər.

İzvolski bunların əvəzində Avstriya-Macarıstan hesabına Serbiya və Çernoqoriyaya əvəz verilməsini irəli sürdü. Erental bu təklifi rədd etdi. İzvolski Berlin traktatına yenidən baxmaq üçün beynəlxalq konfransın çağırılmasını irəli sürdü. Lakin bu iki məsələ barəsində heç bir razılıq əldə edilmədi.

İzvolski boğazların rejiminin dəyişdirilməsinə nail olmaq üçün Buxlaudan Avropa dövlətlərinə səfərə çıxdı. Sentyabrın 26-da Almaniya Xarici İşlər Nazirliyinin statskatibi Şyonla görüşdü. O dedi ki, Almaniya boğazların açılmasına e'tiraz etməyəcək, lakin onun əvəzi verilməlidir.

İzvolski buradan İtaliyaya getdi və İtaliyanın Xarici İşlər Naziri Tittoni ilə görüşdü. Bosniya və Herseqovinanın qəsb edilməsinə Rusiyanın razılıq verdiyini eşidən kimi o çox pərt oldu, lakin boğazlar məsələsinə müsbət yanaşdığını bildirdi. O şərtlə ki, Rusiya Tripolitaniyanın İtaliya tərəfindən işğalına

razılığını bildirsin. Böyük dövlətlərin Türkiyəyə qarşı sui-qəsdi hazırlanırdı.

İtaliyadan İzvolski Fransaya getdi. Parisə yaxınlaşarkən vağzallardan birində qəzet aldı və ona mə'lum oldu ki, Avstriya tezliklə Bosniya və Herseqovinanı zəbt edəcək. Həqiqətən də oktyabrın 6-da Bosniya və Herseqovinanın Avstriya-Macarıstan monarxiyasına qatılması haqda İmperator Frans-İosifin fərmanı e'lan olundu. Görünür ki, Erental İzvolskini və bütün dünyanı fakt qarşısında qoymağı qərara almışdı. İzvolski başa düşdü ki, Erental onu qabaqlayıb. Doğrudur, o rusların sərbəst surətdə boğazlarda üzməsini vəd etmişdi, bu Rusiya üçün Türkiyənin iki əyalətinin qəsb edilməsindən qat-qat qiymətli idi.

Parisdə İzvolski ümidverici cavab ala bilmədi. Doğrudur, Fransanın Xarici İşlər Naziri sözdə Rusiyanın planlarına rəğbətlə yanaşdığını bildirirdi. Lakin onların həyata keçirilməsinə fəal kömək edəcəyi barədə heç nə demədi. Əksinə, o bu işdə İngiltərənin razılığının vacibliyini bildirdi.

İzvolski Londona getdi. Qrey bildirdi ki, boğazların statusuna baxmağın mümkünlüyünü istina etmir. Lakin bunun üçün hələ vaxt yetişməyib. Qreyin belə mövqeyinin səbəbləri aydın idi. Gənc türklər inqilabından sonra İngiltərənin tə'siri Türkiyədə güjlənməkdə idi. İngiltərə diplomatiyası belə hesab edirdi ki, indi Türkiyəni Almaniyadan uzaqlaşdırmaq asandır. Belə halda boğazlar məsələsini qaldırmaq İngiltərə üçün məqbul deyildi. Həm də İngiltərə boğazlar reciminin əvəzsiz dəyişdirilməsinə razılıq vermək istəmirdi. Qrey dedi ki, İngiltərə bütün dövlətlər üçün boğazların açılmasına o vaxt həvəslə gedər ki, ingilis donanması Qara dənizə buraxılsın.

Qreylə görüşündən sonra İzvolski boğazlar barəsində öz məqsədinə çatmaq ümidini tamam itirdi. O,



belə qərara gəldi ki, Avstriya-Majarıstan ya Bosniya və Herseqovinanı qəsb etməkdən imtina etsin, ya da əvəzində Serbiyanı Rusiyaya versin. Qrey İzvolskinin bu qərarını bəyəndi. Kral VII Eduard Avstriya-Macarıstan səfirinə bildirdi ki, iki əyalətin qəsb edilməsi yeni Türkiyə hökumətinə zərbə endirər.

İzvolski Avstriya-Macarıstanın özbaşınalığı barədə qərar qəbul etmək üçün Berlin traktatı iştirakçıları olan dövlətlərin konfransının çağırılması planını Qreyə izah edəndə İngiltərə naziri dərhal onun fikrini anladı. Konfransın köməkliyi ilə o, birincisi, Almaniyanın müttəfiqi Avstriya-Macarıstanı tapdalayar, ikincisi, boğazlar barəsində onun Peterburqdakı mövqeyinə görə yaranmış xoşagəlməz əhval-ruhiyyəni bir qədər yumşaldar və nəhayət üçüncüsü, Türkiyəni öz tərəfinə çəkər, heç olmasa ondan alınmış əyalətlərin əvəzində nə isə əldə edə bilər. Buna görə də Qrey beynəlxalq konfrans layihəsini ürəkdən müdafiə etdi.

Erentala qarşı mübarizədə İzvolski Serbiyaya da istinad edə bilərdi. Avstriya tərəfindən serblərin yaşadıqları vilayətlərin işğal edilməsi əleyhinə Serbiyada milli e'tiraz dalğası başlamışdı. İzvolski serblərə təskinlik verdi, kompensasiya (əvəz) almaq üçün onlara kömək edəcəyini vəd etdi. Lakin onlara xəbərdarlıq etdi ki, indi müharibədən qaçmaq lazımdır, çünki Rusiya hələ ona vurulmuş zərbədən ayıla bilməyib. Avstriyaya qarşı narazılıq Türkiyədə heç də Serbiyadan az deyildi. Türkiyə Avstriya mallarını boykot etməyə başladı.

İzvolski qəsb etməyə razılıq verdiyini inkar etmirdi. Lakin ilkin şərt kimi beynəlxalq konfransın çağırılması məsələsini qoymuşdu. Bosniya və Herseqovinanın qəsb edilməsi Berlin traktatının pozulması demək idi, buna görə də bu qəsb üçün təkcə Rusiyanın razılığı kifayət deyildi. Buna traktatın bütün iştirakçılarının razılığı lazım idi. İzvolski konfransın proqramını da işləyib hazır-

lamışdı. Maraqlı odur ki, həmin proqramda boğazlar məsələsinin heç adı belə çəkilmirdi.

Fransa da konfrans məsələsində İngiltərə və Rusiyanın mövqeyində durdu. Avstriyanın güclənməsini istəməyən İtaliya da Antantanı müdafiə etdi. Aydın oldu ki, Erental təkcə İzvolskini aldatmayıb. Tittoni də Avstriya nazirinin vicdansızlığının qurbanı olmuşdu. İzvolski Türkiyənin iki əyalətinin qəsb edilməsi barədə Tittoniyə mə'lumat verərkən, bir müddət əvvəl Zalsburqda görüşü zamanı Tittoninin buna razılıq verdiyini xatırlatmışdı. Lakin cavabında Tittoni Türkiyə əyalətlərini zəbt etməsinə razılıq verdiyini qətiyyətlə rədd etmişdi.

Avstriya-Macarıstan rəsmi surətdə bildirdi ki, o bu iki əyalətin zəbt edilməsi məsələsini beynəlxalq konfransa verilməsindən imtina edir. O bildirdi ki, beynəlxalq konfransın çağırılmasına o vaxt razılıq verər ki, konfrans artıq baş vermiş bu zəbt aktına e'tiraz etməyəcəyini əvvəlcədən bilsin. O, Almaniyanın Avstriya-Macarıstanı müdafiə etdiyini də bilirdi. Dekabrın 8-də bunu Byulov açıqcasına bildirmişdi. Byulovun Peterburqdakı Almaniya səfirinə 1908-ci il oktyabrın 28-də göndərdiyi tə'limatda deyilirdi ki, Rusiyanın siyasətinin müvəffəqiyyət qazanmamasının səbəbi onun İngiltərə tərəfinə keçməsidir. İstər Avstriyanın, istərsə də Almaniyanın məqsədi Rusiyanı İngiltərədən ayırmaq idi.

Serbiyada Avstriya əlehinə başlanmış hərəkata qarşı Avstriya-Macarıstan hərbi hazırlıqla cavab verdi. Bu 1908-ci ilin dekabrında baş verdi. Əvvəlcə güman edilirdi ki, Avstriya-Macarıstan Serbiyaya hücum edəcək.

Macarların tə'siri ilə Erental Serbiyanın Avstriya, Bolqarıstan və Rusiya arasında bölünməsi planını irəli sürdü.



Elə bu vaxt Türkiyədə yeni dəyişiklik baş verdi. Kamil paşa hakimiyyətdən kənarlaşdırıldı. 1909-cu il fevralın 26-da Avstriya diplomatiyası Almaniyanın köməkliyi ilə böyük müvəffəqiyyət qazandı. Türkiyə hökuməti ilə saziş bağlandı. 2,5 milyon funt-sterlinq əvəzində Türkiyə Bosniya və Herseqovina üzərində formal suzerenliyindən imtina etdi. Avstriya-Macarıstan da Berlin traktatının ona verdiyi Yeni Bazar sancağını işğal etmək hüququndan imtina etdi. Avstriya gömrüyün artırılmasına və təslim rejiminin ləğv edilməsinə də razılıq verdi. Lakin son güzəştlər o vaxt qüvvəyə minə bilərdi ki, qalan maraqlı dövlətlər ona razılıq vermiş olsunlar. Buna isə hələ çox var idi.

Serbiyada və Rusiyada qıcıqlanma getdikcə güclənirdi. Avstriyanın hərbi hazırlığı və Serbiyanın e'tirazı həm mətbuatda, həm də diplomatik dairələrdə ciddi müzakirə olunurdu. Vəziyyət o dərəcədə kəskinləşmişdi ki, martın 17-də Peterburqda Nazirlər Şurasında müharibənin mümkünlüyü haqda məsələ müzakirəyə çıxarılmışdı. Nazirlər belə qənaətə gəlmişdilər ki, Rusiya müharibə etməyə hazır deyil. Almaniya Avstriyanı şirnikdirirdi. 1909-cu ilin yanvar-mart aylarında Almaniya və Avstriya-Macarıstan Ali qərargahlarının rəisləri arasında məktub mübadiləsi olmuşdu.

Almaniyanın Ali qərargahının rəisi Moltke yanvarın 21-də Konrad fon Getsendorfa[1] yazmışdı: «Onu nəzərə almaq vacibdir ki, elə bir an yarana bilər ki, monarxiyanın (Avstriya-Macarıstan) Serbiyanın fitnəkarlığına qarşı dözməsi sona çatar. Onda, onun Serbiyaya daxil olmaqdan başqa digər əlacı qalmaz. Mən hesab edirəm ki, yalnız belə daxil olmaq Rusiyanın fəal çıxış etməsinə səbəb olar. Belə halda Almaniya üçün Casus foederus başlanır».

---

[1] Konrad fon Getsendorf - Avstriya Ali qərargahının rəisi idi.

Həmin məktubda Almaniya və Avstriyanın Rusiya əleyhinə müharibəsinə Fransanın qarışması istisna edilmirdi. Həmin məktublaşmada Fransaya, Rusiyaya və Serbiyaya qarşı müharibənin ümumi strategiyası qeyd olunurdu. İtaliyaya münasibət isə onun özünü necə aparmasından asılı olmalı idi. Vilhelm və Frans İosif, Erental və Byulov ali qərargah rəislərinin məktublarında şərh olunmuş bütün şərtləri bəyənmişdilər.

Fevralın 20-də Erental Byulova mə'lumat verdi ki, Serbiyaya qarşı çıxmaq martın ortalarına müəyyən edilmişdi. Serbiyaya aşağıdakı tələb veriləcək: kompensasiya (əvəz) almaqdan, zəbtə qarşı e'tiraz etməkdən imtina etsin və söz versin ki, o Avstriyaya qarşı işğalçılıq münasibətləri bəsləmir. Əgər Serbiya bu tələblərə əməl etməsə Avstriyanın verdiyi ultimatum rədd olunarsa, müharibə başlanmalıdı. Erental göstərirdi ki, Berlindən Peterburqa ediləcək tə'sirin böyük əhəmiyyəti olacaq.

Avstriya-Macarıstanı müdafiə etməklə Byulov təkcə onunla ittifaqı möhkəmləndirmək haqda düşünmürdü. O güman edirdi ki, Rusiya bu hədələrə tab gətirə bilməz, güzəştə gedər və bununla öz zəifliyini nümayiş etdirmiş olar. Bununla Almaniya hökuməti Rusiyanın Balkanlara və Türkiyəyə diqqətinin, təcirinin zəifləməsinə nail olar. Beləliklə, Bosniya məsələsi Yaxın Şərqdə üstünlüyə nail olmaq uğrunda mübarizə hədəfinə çevrildi.

1909-cu il martın 21-də Byulov özünün Peterburqdakı səfirinə göstəriş verdi ki, İzvolskidən aşağıdakı suala aydın cavab alsın: Rusiya Berlin traktatının 25-ci paraqrafının ləğv edilməsinə razıdırmı? Bosniya və Herseqovinanın zəbt edilməsini tanıyırmı? Və Serbiyanın da bunu tanımasına nail olmaq istəyirmi, ya da tə'kid etmək fikrindədirmi?



İzvolski bunlara aydın hə və ya yox cavabı verməli idi. Martın 22-də Almaniya səfiri Purtales bu tələbləri İzvolskiyə verdi. Onun forması ultimatumu xatırladırdı. Elə həmin günü martın 22-də Avstriya-Macarıstan 7-ci və 13-cü korpuslarda «həyəcan vəziyyəti» e'lan etdi.

İzvolski Purtalesə cavab verdi ki, belə ciddi tələbə cavab vermək üçün o çara mə'lumat verməlidir. II Nikolaya mə'lumat verdikdən sonra o kayzerə teleqram göndərdi ki, Rusiya Almaniyanın tələblərini qəbul edir.

Rusiya Almaniya şantajı qarşısında belə təslim oldu. Martın 29-da Avstriya-Macarıstan 5 korpusunda hissəvi səfərbərlik apardı. Martın 31-də Serbiya öz mövqeyindən əl çəkdi. Almaniya diplomatiyası qələbə çaldı.

Lakin bu qələbə heç də möhkəm deyildi. Serbiya da Rusiyanın mövqeyinə tə'sir edə bilmədi. Bu aydın idi. Onun Rusiyadan və onun müttəfiqi Fransadan başqa digər yerdən umacağı yox idi. Başqa bir cəhət də vacib idi. Byulovun həddən artıq Avstriya-Macarıstan işlərinə kobudcasına müdaxilə etməsi Almaniya və Rusiya arasında münasibətlərin kəskinləşməsinə səbəb oldu.

Rusiya diplomatiyası revanş almağı heç də yubatmadı. 1909-cu ilin oktyabrında Rakkonicdə II Nikolayla İtaliyanın kralı III Viktor-Emanuil görüşdülər. Burada İtaliya və Rusiya, Avstriya-Macarıstanın balkanlarda işğalçılığına qarşı birlikdə mane olmaq haqda razılığa gəldilər. Diplomatik dildə bu aşağıdakılardan ibarət idi.

1. Rusiya və İtaliya birinci növbədə Balkan yarımadasında Status qvo-nu saxlamağa cəhd etməlidirlər.
2. Hər bir təsadüfdə, onlar Balkanlarda milli prinsipə əməl etməli, hər hansı dövlətin burada üstünlük qazanmasına mane olmalıdırlar.
3. Hər iki dövlət əks cəhdlərə qarşı birlikdə mane olmağı öhdələrinə götürürlər.

Sonra İtaliya boğazlar məsələsində Rusiyanın mənafeyinə müsbət yanaşacağını öhdəsinə götürürdü. Rusiya da Tripolitaniyada və Kirenaikdə İtaliyanın mənafelərinə belə münasibət bəsləyəcəyinə söz verirdi. Rakkonic sazişi məxfi idi. O İtaliyanın Üçlər ittifaqından uzaqlaşmasının ilk əlaməti idi.

## Kasablankada toqquşma

1908-ci ildə Mərakeş məsələsi yenidən kəskinləşdi. Fransa Alxesirassk aktından istifadə edərək, tədricən Mərakeşi öz əlinə keçirirdi. Bəhanələr isə kifayət qədər idi. Mərakeş sultanının qardaşı Mulay-Hafiz qiyam qaldıraraq taxtı öz əlinə keçirdi. Qarışıqlıqda bir fransız zabiti öldürülmüşdü. Bu hadisədən istifadə edərək Fransa ordusu Mərakeşin Əlcəzairlə qarışıq vilayətlərini, bir az sonra isə 1908-ci ilin avqustunda Kasablanka limanını, onun ətrafındakı əraziləri tutdu.

Bunu görən Byulov sakit dayanmadı. 1908-ci il sentyabrın 25-də Kasablankada böyük insident baş verdi. Yerli alman konsulu Fransanın xarici regionundan 6 fərarinin qaçmasını təşkil etdi. Onlar gəmiyə oturub üzməyə hazırlaşdıqları vaxt fransızlar tərəfindən tutuldular, atışma başladı, alman konsulluğunun katibi zədə aldı.

Alman diplomatiyası Fransanın işğal qoşunları tərəfindən saxlanılmış üç alman vətəndaşının azad edilməsini, konsulluğun işçilərinə güc tətbiq edildiyinə görə üzr istəmələrini tələb etdi. Fransa hökuməti bunu qətiyyətlə rədd etdi. Elə təsəvvür yaranmışdı ki, Almaniya və Fransa arasında ixtilaf zəruridir. Lakin vaxt heç də bunun üçün əlverişli deyildi. Bosniya böhranı alovlanmaqda idi. Avstriya-Macarıstan qərb dövlətlərinin Rusiyanı müdafiə edəcəklərindən qorxurdu. Avstriya-Macarıstan diplomatiyasının təzyiqi ilə Almaniya



güzəştə getməli oldu. Noyabrda Almaniya Kasablanka işinin Haaqa məhkəməsinə verilməsinə razılıq verdi. Məhkəmə Fransanın xeyrinə qərar çıxardı.

Kasablanka toqquşmasından sonra Almaniya və Fransa Mərakeş məsələsi üzrə danışıqlara başladılar. 1909-cu il fevralın 9-da sazişə gəldilər. Fransa alman vətəndaşları üçün Mərakeşdə ticarət və sənaye fəaliyyətində bərabər hüquq tə'min edəcəyini vəd etdi. Bunun əvəzində Almaniya bildirdi ki, o Mərakeşdə ancaq «iqtisadi mənafe» güdür. Ölkədə daxili qayda-qanunu möhkəmləndirməkdə Fransanın «xüsusi siyasi marağını» təsdiqləyir. Bundan sonra alman firmalarının Fransa kapitalının nümayəndələri ilə müvəqqəti əməkdaşlığı yarandı.

## Potsdam görüşü

1910-cu ildə İzvolski bəzi uğursuzluğa görə nazir vəzifəsini tərk etdi və Parisə səfir getdi.

Sazonov onu əvəz etdi. Sazonov rus ordusu və donanmasını bərpa etmək üçün vaxt qazanmaq naminə öz fəaliyyətinə Almaniya ilə münasibətləri yaxşılaşdırmaq cəhdindən başladı. İngiltərə ilə İranda ciddi ixtilaflar, İngiltərə-Fransa köməyinin kifayət dərəcədə olmaması boğazlar məsələsində Rusiyanı Almaniya ilə yaxınlaşmağa vadar etdi. Almaniyada da siyasi rəhbərlik dəyişilmişdi. 1909-cu ildə Bosniya böhranının aradan qaldırılmasından sonra Byulov istefaya getdi. Onu Betman-Qolveq əvəz etdi. Almaniyanın vəziyyəti heç də yaxşı deyildi. O, qıcıqlandırıcı siyasəti ilə Rusiya və İngiltərəni özünə qarşı qaldırmışdı. Beləliklə təklənməşdi. Belə şəraitdə ölkəyə çevik diplomat lazım idi. Betman siyasi hissdən məhrum idi, ona görə də fövqəladə dərəcədə qətiyyətsiz idi. O həmişə tərəddüd edirdi.

Onun əvəzində ölkənin xarici siyasətini xarici idarənin stats-katibi Kiderlen-Vexter idarə edirdi. O çox çevik, lakin hədsiz kobud idi. O Betman-Qolveqi «torpaq qurdu» adlandırırdı.

1910-cu ilin noyabrında II Nikolay Sazonovun müşayiəti ilə Almaniyaya gəldi. Potsdamda iki ölkənin Xarici İşlər nazirlərinin görüşü oldu. Kiderlen Rusiyanı İngiltərədən ayırmaq üçün növbəti təşəbbüs etdi. O Sazonovu inandırırdı ki, o, Avstriya-Macarıstanın Balkan yarımadasında təcavüzkar məqsədlərini müdafiə etmək fikrində deyil. O Şimali İranda da Rusiyaya mane olmayacağını vəd edirdi. Sazonov öz növbəsində Bağdad dəmir yolunun bir xəttinin Xanekenə çəkilməsinə mane olmayacağını bildirdi. Betman rus-alman müqaviləsinin layihəsini hazırladı. İrana və Türkiyəyə aid məsələlərlə yanaşı, kansler bir-birinə düşmən olan qruplaşmalarda iştirak etməmək barədə qarşılıqlı öhdəliyin müqaviləyə daxil edilməsini də təklif etdi. Belə öhdəliyin qəbul edilməsi Rusiyanın İngiltərədən ayrılması demək idi.

Sazonov Potsdam müqaviləsini imzalamağa cəsarət etmədi. O layihəni özü ilə Rusiyaya gətirdi. Peterburqa qayıdan kimi «Novoe vremya» qəzetinin nümayəndəsinə müsahibə verdi. Həmin müsahibədə Sazonov Almaniyaya güzəştləri lap minimuma endirdi. Bununla o, Rusiyada öz mövqeyini möhkəmləndirmək məqsədini güdürdü. O alman səfirinə izah etdi ki, güzəştləri azaltmadan o rus ictimaiyyəti arasında sazişi müdafiə edə bilməz. Əslində də Almaniya ilə yeni sazişin bağlanması xəbəri Rusiyada böyük tufan qoparmışdı. Moskvanın ticarət-sənaye dairələri İrana dəmir yolunun çəkilməsi nəticəsində alman mallarının İrana axınının başlanmasından ehtiyat edirdilər. Sazonov başqa məsələlərə də ehtiyat edirdi. O Antantadan imtina etməyə yönəldilmiş sazişə qol çəkə



bilməzdi. Buna görə də o danışıqları uzadır, alman səfirliyinə müəmmalı cavablar verirdi.

Betman qəflətən Reyxstaqda çıxış edərək bildirdi ki, Rusiya və Almaniya bir-birinə qarşı düşmən kombinasiyalarda iştirak etməmək barədə Potsdamda bir-birilərinə söz veriblər. Bu çıxışla alman kansleri özü öz işini korladı. Onun çıxışı Londonda və Parisdə həyəcanla qarşılandı. Peterburqa yeni tə'yin edilmiş ingilis səfiri ser corc Byukenen özünün etimadnaməsini II Nikolaya təqdim edəndə Potsdam danışıqları barədə öz həyəcanını bildirdi. Çar isə səfiri inandırdı ki, İngiltərə hökumətini əvvəlcədən tanış etmədən Almaniya ilə heç bir saziş bağlamayacaq.

Aydın idi ki, Sazonov Almaniya ilə ümumi siyasi saziş imzalamayacaq. Bundan sonra Almaniya İran və Bağdad dəmir yolu ilə məhdudlaşan sazişlə kifayətlənməli oldu. İngiltərənin bu məzmunda da müqavilə bağlanmasını pozmağa ciddi cəhd göstərməsinə baxmayaraq, saziş, nəhayət, 1911-ci il avqustun 19-da imzalandı.

Birinci maddəyə əsasən Almaniya İranda Rusiyanın tə'sir dairəsində olan ərazidə konsessiya almağa cəhd göstərməyəcək. Bunun əvəzində Rusiya Bağdad dəmir yolunun çəkilməsinə mane olmayacağını vəd edirdi (3-cü maddə). Lakin gömrük vergilərinin artırılmasına Türkiyənin razı olması müqavilədə yox idi. Rusiya hökuməti bəyanat vermişdi ki, Bağdad dəmir yolunda Sadicdən Xanekenə İran-Türkiyə sərhədinədək dəmir yolu xətti çəkilib qurtarandan sonra Almaniya bu xəttin Xanekendən Tehrana qədər çəkilməsi (maddə 2) barədə İrandan konsessiya istəməyəcək. Rusiya diplomatiyası tə'kidlə ona nail oldu ki, Almaniya Bağdad yolundan, Sadidq-Xanekendən şimala, yəni Rusiya sərhəddi yaxınlığına dəmir yolu xətti çəkməyəcəyini

öhdəsinə götürdü. Almaniya başlıca məqsədinə, Rusiyanı Antantadan ayırmağa nail ola bilmədi.

Rus-alman danışıqlarının qurtarması üçüncü dəfə Mərakeş böhranının kəskinləşməsi dövrünə düşdü.

1911-ci ilin yazında Mərakeşin paytaxtı Fesin ətrafında üsyan baş verdi. Bundan istifadə edərək, fransız vətəndaşlarını müdafiə etmək bəhanəsi ilə 1911-ci ilin mayında Fransa Fesi işğal etdi. Bu Mərakeşin Fransanın ixtiyarına keçməsi demək idi.

Almaniyanın imperialist dairələri hökumətə qarşı hücuma başladılar. Buna görə Vilhelm hökuməti vəziyyəti düzəltməyə cəhd etdi. O ya Mərakeşin bir hissəsini almaq, ya da bunun əvəzində yaxşı başqa nəyəsə nail olmaq ümidində idi.

Fransızlar hələ apreldə alman hökumətini xəbərdar etmişdilər ki, avropalıları müdafiə etmək məqsədi ilə bəlkə onlar müvəqqəti olaraq öz qoşunlarını Fesə yeritsinlər. Kiderlen e'tiraz etmədi. O yalnız qeyd etdi ki, Fransanın loyallığına şübhə etmir. Sonra o əlavə etmişdi ki, əgər Fransa ordusu Fesdə qalarsa, onda Mərakeşin müstəqilliyindən söhbət gedə bilməz. Bu həm də Alxesirass traktatının faktiki olaraq öz əhəmiyyətini itirməsi demək idi. Onda Almaniya özünü Alxesirass traktatından asılı hesab etməyəcək və sərbəst hərəkət edəcək.

Kiderlen kayzerə Aqadir və Moqadoru işğal etməyi təklif etdi. Bunlara sahiblənəndən sonra sakitcə gözləmək lazımdır ki, görək Fransa nə təklif edəcək. Kiderlen yazmışdı: «Fesin işğalı Fransanın Mərakeşi udmasına hazırlıq demək idi. Biz e'tirazla heç nəyə nail ola bilmərik, biz ancaq mənəviyyatca məğlub olarıq. Buna görə də biz özümüzü elə obyektlə tə'min etməliyik ki, gələcək danışıqlarda Fransanı əvəz verməyə məcbur etsin. Əgər fransızlar öz vətəndaşlarını müdafiə etmək üçün Fesə daxil olsalar, biz də təhlükəyə mə'ruz qalan



vətəndaşlarımızı müdafiə etməyə borcluyuq. Bizim Moqadorda və Aqadirdə iri alman firmalarımız var. Bu firmaları qorumaq məqsədilə alman gəmiləri bu limanlara istiqamət ala bilərlər. cənubi Mərakeşin bu vacib limanlarına başqa dövlətlərin soxulmalarına imkan verməmək üçün onlar sakit surətdə burada qala bilərlər. Bunlara nail olandan sonra Mərakeşdə hadisələrin gedişini sakitcə izləyə bilər və gözləyə bilərik, görək bizim həmin limanları tərk etməyimizin əvəzində Fransa öz müstəmləkələrindən Almaniyaya güzəşt etmək üçün hansı gərəkli təklif edəcək».

II Vilhelm bu planı qəbul etdi. Fesin işğalından sonra Berlində bir həftə müəmmalı sakitlik hökm sürdü. Alman mətbuatı isə özündən çıxmışdı: onlar başqa müstəmləkələr hesabına geniş əvəz, hətta Mərakeşin bölünməsini tələb edirdilər. Almaniyanın mövqeyi Parisi həyəcanlandırmaya bilməzdi. 1905-ci ildə olduğu kimi indi də Fransa özü Almaniyaya əvəz haqqında, hətta Almaniya Kamerununda Konqo çayınadək dəmir yolu çəkilməsi barədə fikir yürütməyə təşəbbüs etdi. Sonralar Nazirlər Şurasının sədri olmuş Maliyyə naziri Kayo daha çox ciddi-cəhd edirdi. O qeyri-rəsmi agent, Konqoda gəmiçilik kompaniyasının sədri Frondeye vasitəsi ilə fransız Konqosunun bir hissəsini almanlara təklif etdi. Bu təklifə maraq göstərmədiklərini nümayiş etdirmək üçün Kiderlen mayın 15-də məzuniyyətə getdi. Bu məzuniyyət dövrü o Aqadirin işğalı planını işləyib hazırladı. Fransanın Berlindəki səfiri Jyül Kambon Almaniyanın mövqeyini bilmək üçün Kissinqenə - Kiderlenin yanına getdi. Nazirlə söhbət iyunun 21-də baş tutdu. Kambon sazişə yol axtarırdı, o hətta əvəz haqqında söhbət açırdı və onu da gizlətmirdi ki, almanların Mərakeşdə möhkəmlənməsi haqqında heç söhbət belə ola bilməz. Kiderlen susurdu, o konkret təklif gözləyirdi. «Parisdən bizə nə isə gətirin» deyə Kambondan ayrıldı.

Kambonun, geri qayıtmasını gözləmədən Kiderlen fransızları həqiqi mənada qorxutmağı qərara aldı. 1911-ci il iyulun 1-də Almaniyanın Kanoner «Pantera» qayığı Aqadirə gəldi. Onun ardınca yüngül Kreyser "Berlin" gəldi. Bu bütün dünyanı həyəcana saldı. Bu kobud fitnəkarlıq idi. Artıq ondan barıt qoxusu gəlirdi.

Qorxuya düşmüş Kambon iyulun 9-da Kiderlenin yanına gəldi. Salamlaşıb əyləşdilər. Sükut davam etdi. Onu Kambon pozdu.

Bir müddət davam edən sual-cavabdan sonra Kambon mümkün olan bir neçə variantı irəli sürdü. Türkiyədə dəmir yol tikintisi məsələsini, Osmanlı imperiyası borclarının idarə edilməsində almanların iştirakının genişləndirilməsi və i.a. Kiderlen bütün «kiçik» kompensasiyaları laqeydliklə qarşıladı.

Söhbət uzandı. Hər iki diplomat susdular. Nəhayət Fransa Konqosunun adı çəkildi. Kiderlen dedi ki, bu barədə danışmaq olar. Lakin danışıq davam etdirilmədi. Almaniyanın nə istədiyi namə'lum qaldı. Kambon başa düşdü ki, Almaniya Mərakeşdə qalmaq məramında deyil. Kambonla söhbətdə Kiderlenə aydın oldu ki, İngiltərə cəbəllütariqin qonşuluğunda Almaniyanın qalmasına razı ola bilməz. Yəqin bu da onun mövqeyinə tə'sir etdi. Nəhayət, iyulun 15-də Kiderlen Kambona bildirdi ki, Almaniya bütün fransız Konqosunu almalıdı. Kambon əvvəlcə özünü tamam itirdi. Sakitləşəndən sonra bildirdi ki, bu mümkün olan iş deyil. Bundan sonra Kiderlen Betmana bildirdi ki, görünür daha energiyalı hərəkət etmək lazımdır.

Elə bu vaxt diplomatik səhnəyə İngiltərə çıxdı. Hələ iyulun əvvəllərində İngiltərənin Xarici İşlər Naziri Qrey Almaniyanın səfirini xəbərdar etmişdi ki, İngiltərə Almaniyanın Mərakeşdə möhkəmlənməsinə yol verə bilməz. İyulun 21-də kabinetin göstərişi ilə xəzinənin Kansleri Lloyd corc Mərakeş məsələsinə dair açıq çıxış



etdi. O bildirdi ki, İngiltərə onun iştirakı olmadan Mərakeş məsələsinin həll edilməsinə yol verə bilməz. O bildirdi ki, mən ən böyük qurbanlar hesabına sülhü saxlamağa hazıram. Lakin İngiltərənin həyatı məsələlərinə toxunulduğu şəraitdə (hansı ki, onlar yüz illər ərzində çoxlu qan tökülməsi nəticəsində əldə edilmişdir) sülh İngiltərə üçün təhqir olar.

Bu Almaniya hökumətini qorxuya saldı. Betman İngiltərəyə bildirdi ki, Almaniya heç də Mərakeşin qərb sahillərinə iddia etmir. O fransızlarla münasib əvəz haqqında danışıqlar aparır. Uzun mübahisədən sonra 1911-ci ilin noyabrında Fransa-Almaniya sazişi imzalandı. Almaniya Mərakeşdə Fransanın protektoratlığını sözsüz tanıdı, bunun əvəzində Fransa Konqosunun bir hissəsini aldı. Bu heç də Almaniyanın ürəyindən deyildi. Kanslerin reyxstaqda Fransa ilə müqavilə haqqında mə'lumatı ölü sakitliyi ilə qarşılandı. Bu vaxt 1912-ci ilin əvvəllərində Puankare Fransanın baş naziri, sonra isə prezidenti oldu. Yeni prezidentin başlıca məqsədi Elzas-Lotaringiyanı geri qaytarmaq üçün müharibəyə hazırlaşmaq idi. Aqadir böhranı da məhz İngiltərəyə belə tə'sir etmişdi. İngiltərədə də Almaniya əlehinə təşviqat geniş vüsət almışdı. Aqadir böhranı bütün böyük dövlətlərin silahlanmasının gücləndirilməsinə səbəb oldu. 1912-1914-cü illərdə bu silahlanma yarışında Almaniya hamıdan irəlidə gedirdi.

## İtaliya-Türkiyə müharibəsi və beynəlxalq nəticələri

1911-ci ildən başlayaraq, yeni müharibə təhlükəsi Avropanın başı üzərini almışdı. Bir böhranı həll edib qurtarmamış yeni böhran başlanırdı.

Doğrudan da Mərakeş böhranı qurtaran kimi İtaliya Türkiyəyə qarşı müharibəyə başladı. İtaliya

Tripoliyə yiyələnmək istəyirdi. Bu vilayətin böyük strateji əhəmiyyəti var idi. O Siciliya ilə birlikdə Aralıq dənizinin nisbətən dar yerində hakim olmağa imkan verirdi. İtaliya ona həm də gələcək işğallar üçün çıxış meydanı kimi baxırdı. Vatikanla bağlı olan Roma bankının da Tripolidə xüsusi maraqları var idi.

Hələ 1900-cü ildə İtaliya Tripoli və Kirena -iki işğal etmək barədə Fransanın razılığını almışdı. 1909-cu ildə o Rusiyanın da razılığını əldə etdi. İtaliya hesab edirdi ki, Almaniya və Avstriya Macarıstanda da ona e'tiraz etməyəcəklər.

Beləliklə İtaliya diplomatiyası məqam gözləyirdi. Belə məqam Aqadir böhranı vaxtı yetişdi. Almaniyanın, Fransanın və İngiltərənin başı öz aralarında çəkişmələrə qarışdığına görə onları Tripoli heç düşündürmürdü. İtaliya indi hərəkət edə bilərdi.

Sentyabrın 28-də İtaliya Türkiyəyə ultimatum verdi. Ultimatumda deyilirdi ki, Türkiyə Tripoli və Kirenaiki hərc-mərclik və dilənçilik vəziyyətində saxlayır, İtaliyanın Tripolidəki müəssisələrinə mane olur. İtaliya öz ləyaqəti və öz maraqlarını qorumaq üçün Tripoli və Kirenaiki işğal etməyə başlayır.

Əlbəttə, nə qədər çətin olsa da, Türkiyə belə tələbi qəbul edə bilməzdi. Nəticədə müharibə başladı. İtaliya ordusu az miqdarlı türk qarnizonu ilə qısa müddətdə haqq-hesab çəkdi. Lakin sonra yerli ərəb əhalisinə qarşı ağır müharibə aparmalı oldu. Müharibə uzandı. Türkiyə sülhə razı olmaq istəmirdi. Ərəblər müqaviməti davam etdirirdilər. İtaliya Dodekanez adasını tutdu, dənizdən Beyrutu və Türkiyənin digər limanlarını bombardman etdi. 1912-ci ilin aprelində İtaliya donanması Dardanelin girişini bombaladı. Lakin boğazlarda daha ciddi hərəkət etməyə İtaliya cəsarət etmədi.

Çar hökuməti İtaliya-Türkiyə müharibəsindən istifadə edərək, Rus donanması üçün boğazların açılması



istiqamətində yeni bir cəhd göstərdi. 1911-ci ilin oktyabrında İstanbuldakı Rusiya səfiri Çarıkov Türkiyə hökuməti ilə danışıq aparmaq haqda tapşırıq aldı. Çarıkov rus-türk sazişinin layihəsini böyük vəzir Səid paşaya təqdim etdi. Rusiya hökuməti qadağan olunmuş zonanın xeyli hissəsində 1900-cü il rus–türk sazişinə əsasən tikilməsi nəzərdə tutulan dəmir yolunun çəkilməsinə mane olmaqdan imtina etməyə hazır olduğunu bildirirdi. Bu təkcə Türkiyəyə güzəştə getmək demək deyildi. Fransız kapitalistləri də Şimali Anadoluda dəmir yolu çəkməyə maraqlı idilər. Rusiya bunun əvəzində Türkiyənin müqavilədə nəzərdə tutulmuş ən mühüm məsələnin həllində razılıq verəcəyinə ümid bəsləyirdi.

Bu şərt aşağıdakından ibarət idi: «Rusiya imperator hökuməti öhdəsinə götürür ki, Bosfor və Dardanel boğazlarında mövcud rejimi saxlamaqda, habelə onun ətraf ərazisində xarici dövlətin hücumuna mə'ruz qaldıqda osmanlı hökumətini müdafiə edəcək».

Yuxarıda göstərilən şərtlərin əvəzində Türkiyə Rusiyanın hərbi gəmilərinin boğazlardan keçməsinə mane olmayacaq. O şərtlə ki, əgər razılıq yoxdursa, həmin gəmilər boğazlarda dayanmayacaqlar.

1871-ci il martın 13-də Londonda bağlanmış konvensiyanın belə variantda tətbiq edilməsi həmin konvensiyanı imzalamış digər dövlətlərin razılığından asılı olacaqdır.

Rusiya hökuməti Türkiyə xalqının milli müstəqilliyini məhdudlaşdıran aktların ləğv edilməsi və Status qvo əsasında Osmanlı imperiyası və Balkan dövlətləri arasında «Möhkəm xeyirxah qonşuluq münasibətlərinin yaradılması haqqında» danışıqlara başlamağa razı olduğunu bildirdi. Bu axırıncı şərtlər Türkiyə üçün böyük əhəmiyyət kəsb edirdi.

Lakin baş vəzir cavab verməkdə tərəddüd edir və danışıqları ləngidirdi. Çarıkovun təşəbbüsü Fransada narahatlıqla qarşılandı. Lakin Fransa hökuməti rus layihəsinə razı olduğunu bildirdi. Ancaq məsləhət bildi ki, bu Londonla da razılaşdırılsın. London heç də əvəzsiz Rusiyanın boğazlardan keçməsinə razılıq verə bilməzdi. Buna baxmayaraq London da Rusiya və Türkiyənin yaxınlaşmasını təbrik etdi. Qrey təkcə Rusiya üçün yox, bütün dövlətlər üçün boğazların açılmasının tərəfdarı idi. Qreyin təklifinin qəbul edilməsi Rusiya üçün daha baha başa gələrdi.

Almaniyanın tə'siri altında olan Türkiyə hökuməti Rusiyanın təklifinə mənfi yanaşdı. O Almaniyanın səfiri baron Marşalla müraciət etdi. O, öz hökumətinə tə'cili Rusiya təklifinə qarşı çıxmağı məsləhət bildi. Lakin Berlin başqa cür mühakimə edirdi. O güman edirdi ki, Rusiyanın planı İngiltərəni özündən çıxarar. Almanlar səhv etməmişdilər. Qrey Türkiyədəki səfirinə bildirdi ki, İngiltərə Rusiya təklifinin qəbul edilməsini məqbul saymır. Rusiya yeni diplomatik maneə ilə rastlaşdı. Lakin açıq mübarizəyə o cürət edə bilməzdi. Sazonov başqa yol seçdi. O Fransanın məşhur «Matin» jurnalının müxbiri Stefan Lozanna verdiyi müsahibəsində bildirdi ki, Rusiya boğazlar haqqında heç nə xahiş etmir, bu haqda heç bir danışıqlar aparmır, heç bir diplomatik addımlar atmır. Belə bir şayiə yayıldı ki, guya Çarıkov öz səlahiyyətini aşıb. Bundan bir az sonra Çarıkov öz vəzifəsindən geri çağrıldı.

Almaniyanın İngiltərənin dənizdə birinciliyini təhlükə altına almasını və Yaxın və Orta Şərqdə onun mənafelərinə göz dikməsinə baxmayaraq İngiltərədə də Almaniya ilə yaxınlaşmağın tərəfdarları var idi. Bunlar əsasən, liberal partiyaya tə'sir göstərirdilər. Onlar hətta Askvitin başçılıq etdiyi kabinetdə də təmsil olunmuşdular. 1913-cü il martın 5-də Qrey yazmışdı ki, 7 il müddətində bə'zi panalmançılar bizim alman tərəfdarlarını bişirməkdə davam etmişlər.



Qrey həm də təsdiq edirdi ki, guya bu almanpərəstlər heç vaxt Britaniya hökumətinin xarici siyasətinə tə'sir etməyə müəssər olmamışlar. O, İngiltərənin siyasətində Antantaya üstünlük verməyin başlıca xətt olduğunu göstərmişdi. Lakin kabinetdə və liberal partiyada birliyi saxlamaq naminə Qrey ingilis nazirlərindən birinin Berlinə getməsi ideyasını rədd etmədi. Bu ideya 1912-ci ilin əvvəllərində peyda olmuşdu.

Mə'lum olmuşdu ki, Almaniya gəmi quruculuğunu artırmaq proqramını qəbul etməyi nəzərdə tutur. Doğrudan da, 1912-ci ildə Almaniya hökuməti Reyxstaqa 1912-1917-ci illərdə üç əlavə drednaut (böyük zirehli hərbi gəmi) hazırlamaq haqqında qanun təqdim etmişdi. İngiltərə buna özünün hərbi dəniz silahlı qüvvələrini artırmaqla cavab verməyə hazırlaşırdı. Lakin ona o lazım idi ki, beynəlxalq ictimaiyyətə bunun Almaniya səbəbkar olduğunu nümayiş etdirsin.

Danışıqlar – mülki adamların, iri nüfuzlu kapitalistlərin vasitəçiliyi ilə başlandı. Onlardan biri Hamburq-Amerika kompaniyasının direktoru, İngiltərə ilə yaxınlaşmanın tərəfdarı Ballin, digəri isə Kral VII Eduardın şəxsi dostu bankir Ernst Kassel idi. Ballinin vasitəçiliyi ilə Kassel Betman-Holveqlə (Almaniyanın kansleri) görüşdülər.

Belə razılığa gəldilər ki, Eduard Qreyin Berlinə gəlməsi məsləhətdir. Lakin Qrey Berlinə gəlməkdən imtina etdi. O şəxsən Almaniya ilə barışığa inanmırdı, həm də ehtiyat edirdi ki, onun Berlinə gəlməsi Parisi hədsiz qorxudar. Kabinet Qreyin əvəzində hərbi nazir Xoldenin Berlinə getməsini qərara aldı. Onun səfəri ərəfəsi Qrey Fransa hökumətini nəzərdə tutulmuş danışıqlar barədə xəbərdar etdi və onu inandırdı ki,

almanlarla heç bir sənəd imzalanmayacaq, Xoldenin səfəri sadəcə mə'lumat xarakteri daşıyır.

1912-ci il fevralın 8-də səhər Xolden Berlinə gəldi. Həmin gün Betman-Holveqlə görüşdü. Söhbət əvvəlcə bitərəflik haqqında siyasi saziş üzərində getdi. Betmanı bu daha çox maraqlandırırdı, çünki o İngiltərəni Rusiya və Fransadan ayırmaq istəyirdi. Betman aşağıdakı formulirovkanı irəli sürdü: əgər tərəflərdən biri müharibəyə cəlb edilərsə, başqa tərəf bitərəf qalmağı öhdəsinə götürür. Bu isə İngiltərənin Antantadan imtina etməsi demək idi. Xolden Betmanın layihəsini rədd etdi, bildirdi ki, İngiltərə Fransanın darmadağın edilməsinə razı ola bilməz. O, başqa formulirovka irəli sürdü: iki dövlətdən hər biri başqasına qəsdən edilməmiş hücumda iştirak etməməyi öhdəsinə götürür. Betman Xoldenin təklifinin səmərə verəcəyinə şübhə etdiyini bildirdi. O qeyd etdi ki, təcavüz və ya qəsdən törədilməmiş hücum adı altında nəyi başa düşməyi müəyyənləşdirmək çox çətindi. Sonra Betman sözünü onunla qurtardı ki, o, belə saziş problemi üzərində bir də «düşünər». Bundan sonra onlar donanma üzərinə keçdilər. Betman bildirdi ki, o, yeni dəniz qanunundan imtina edə bilməz. Onda Xolden belə sual qoydu: heç olmasa, onun müddətini başqa vaxta keçirmək olmazmı? Sonra Xolden əlavə etdi ki, qaldırılmış hər iki məsələ həll edildikdən sonra Almaniyanın müstəmləkə tələblərinin bir hissəsini həll etmək mümkün olacaq. Bununla o, Portuqaliya müstəmləkələrinin bölünməsi haqqında məsələyə işarə etdi. Bağdad dəmir yolunun çəkilməsi məsələsinə də toxunuldu. O, İngiltərənin maneçiliyi nəticəsində yubadılırdı. Onun əvəzində İngiltərə Bağdaddan-İran körfəzinədək yolun sol sahəsini almaq istəyirdi.

Sabahısı günü, Xolden kayzerlə və admiral Tirpis ilə görüşdü. Söhbət dəniz məsələləri üzərində gedirdi.



Tirpis barışdırıcı mövqe tuturdu. Uzun və səmərəsiz söhbətlərdən sonra kayzer aşağıdakı çıxış yolunu təklif etdi: əvvəlcə bitərəflik haqqında müqavilə və müstəmləkə məsələləri haqqında saziş imzalanmalıdı. Bunun əvəzində Almaniya gəmilərinin inşasını bir il geriyə çəkər, inşa 1912-ci ildən yox, 1913-cü ildən başlanılar. Xolden bu güzəşti heç də kifayətləndirici hesab etmədi. Kayzerlə görüşdən sonra, Xolden yenidən Betmanla söhbət etdi. O bildirdi ki, İngiltərə hökumətinin bu cüzi güzəşt əvəzinə nə isə edəcəyinə inanmır. Betman-Holveqin əhvalı yaxşı deyildi. Tirpis isə danışıqların baş tutmamasından çox razı idi.

Xolden və İngiltərə kabinetinin əksəriyyəti də bundan narazı deyildi. İngiltərə öz işini görmüşdü. İndi işə başlamaq olardı. Həm də Xolden Almaniyanın dəniz qanunu, bütövlükdə alman donanması haqqında qiymətli mə'lumatlar gətirmişdi.

Tezliklə Qrey rəsmi surətdə Almaniya hökumətinə bitərəflik haqqında sazişi imzalamağın mümkün olmadığını bildirdi, xüsusilə ilə dəniz silahı haqqında yarış getdiyi şəraitdə. Betman daha əhəmiyyətli güzəştlərə getməyə Vilhelmi və Tirpisi inandırmağa çalışırdı. Bunun əvəzində kayzer Londondakı səfirə daha sərt təlimat göndərdi. Buna görə, Betman hətta istefa vermək istədi. Lakin Vilhelmin tə'kidi ilə onu geri götürdü.

Lakin bu danışıqlar heç də hədər getmədi. Müstəmləkələrə dair bir sıra müqavilələr imzalandı. Bağdad dəmir yolunu ölü nöqtədən çıxarmaq haqda danışıqlar üçün başlanğıc nöqtəsi oldu.

## İngilis-fransız Antantasının möhkəmləndirilməsi

Qrey Xoldenin missiyasının nəticələri haqqında, İngiltərənin bitərəflik haqqında sazişin imzalanması barədə Kambona mə'lumat verdi.

Lakin İngiltərə Fransa diplomatiyasını heç də tam arxayınlaşdırmaq istəmirdi. O Fransanı İngiltərə ilə daha möhkəm dostluq əlaqələrinə sövq etməyə çalışırdı.

1912-ci ilin martında İngiltərə hökuməti Almaniyanın inşa etməyə hazırlaşdığı bir gəmiyə qarşı iki gəminin inşa edilməsi haqqında qanunu parlamentin müzakirəsinə verdi. Mayın əvvəllərində İngiltərə cəbəllütariq boğazındakı gəmilərini Şimal dənizinə gətirilməsini qərara almışdı. Onun yeri Fransa donanmasına verildi. Buna görə avqust ayında ingilis və fransız admiralitetləri arasında danışıqlar başlandı. İngiltərə Fransanı özünün Atlantik okeanında yerləşən eskadrilyasını Aralıq dənizinə gətirməyə inandırdı.

Xarici İşlər Nazirliyinin rəhbərliyi Fransa ilə ittifaq müqaviləsinin bağlanmasını zəruri hesab edirdi. Lakin Qrey buna getmədi. O bilirdi ki, bu Askvit kabinetinin süqutuna səbəb olar. Çünki kabinetdə Almaniya tərəfdarları güclü idi.

Qrey 1912-ci il noyabrın 12-də Fransanın Londondakı səfiri Kambona məktub göndərməklə bu məsələyə son qoydu. Qrey göstərdi ki, hər iki dövlət arasında rəsmi sənəd olmasa da, onlar üçüncü dövlət tərəfindən ediləcək hücum zamanı bir-birilərinə kömək etməlidirlər. Kambon noyabrın 23-ü tarixli cavabında bununla razı olduğunu bildirdi.

Kambon və Qrey arasında məktublaşma dəniz qərargahları arasında hərbi-dəniz konvensiyasının bağlanması ilə nəticələndi. Həmin sənədə görə, Fransa donanması Aralıq dənizində İngiltərənin mənafelərini,



İngiltərə isə Fransanın Atlantik okeanı sahillərini müdafiə etməyi öz üzərlərinə götürürdülər.

Maraqlıdır ki, parlamentin bu aktdan xəbəri yox idi. Kabinetdə də bütövlükdə onu bilmirdilər. Konvensiya haqqında dörd nazir – Qrey, Çerçill, Askvit və Xolden bilirdi.

Böyük müharibə üçün hərbi-dəniz qüvvələrinin hazırlanmasında İngiltərə lazım olan hər şeyi edirdi. Quruda isə bu cüz'i idi. Fransaya kömək üçün cəmisi 4-6 diviziya hazırlanmışdı.

1914-cü ilin avqustunda Almaniyanın qərbdə 80 diviziyası var idi.

cərəyan edən hadisələrdən görünürdü ki, Birinci Dünya Müharibəsi ərəfəsində böyük dövlətlərin diqqətləri üç ən mühüm münaqişəli məsələlərdə cəmlənmişdi. Onlardan:

Birincisi, İngiltərə və Almaniya arasındakı ziddiyyətlər idi. İngiltərə çalışırdı ki, Almaniyanı müstəmləkə və yarımmüstəmləkə ölkələrindən sıxışdırsın, Almaniya isə öz növbəsində Balkan və Türkiyə vasitəsilə İngiltərənin cənubi-şərqdə mövqeyinə zərbə endirməyə cəhd edirdi.

İkincisi, Fransa-Almaniya ziddiyyətləri idi. Bura ərazi problemi ilə yanaşı, iqtisadi problemlər də əlavə edilmişdi. Şərqi Fransada zəngin dəmir külçəsi olduğu halda, kömür yox idi, Qərbi Almaniyada isə kömür olduğu halda, dəmir külçəsi yox idi. Hər iki dövlət bu iki sənaye rayonunu öz nəzarəti altına almağa çalışırdı.

Üçüncüsü, Balkanlar idi. Rusiya hər vasitə ilə boğazlara sahiblənmək istəyirdi. Buna görə də o Balkanlarda aramsız olaraq, öz tə'sirini gücləndirməyə çalışırdı. Buna görə də o əhalisinin əksəriyyətini slavyanların və rumınların təşkil etdiyi Avstriya Macarıstanı parçalamağa çalışırdı. Bütün bunlar isə

Almaniyanın və Avstriya-Macarıstanın maraqları ilə üst-üstə düşmürdü.

Balkan müharibəsi belə şəraitdə baş vermişdi.

## Birinci Balkan müharibəsi

İtaliya-Türkiyə müharibəsi artıq çoxdan yetişmiş bir böhranın başlanmasını sür'ətləndirdi. Balkan dövlətləri bu müharibədən istifadə edərək, Türkiyəyə qarşı bir ittifaqda birləşmək və müharibəyə başlamaq barədə öz aralarında razılığa gəldilər.

Rus diplomatiyası fəal surətdə bu blokun yaradılmasına kömək etdi. Lakin o, bu bloka Türkiyədən daha çox Almaniya və Avstriyaya qarşı bir silah kimi baxırdı. Hətta Rusiyanın Türkiyədəki səfiri Çarıkov Türkiyənin də bu bloka daxil olmasını təklif etdi. Lakin bu plan bir sıra maneələrlə rastlaşdı. Birincisi, Türkiyə Almaniyanın güclü tə'siri altında olduğu üçün bu bloka daxil ola bilməzdi. İkincisi, Bolqarıstan Türkiyənin bu bloka daxil olmasını istəmirdi. Çünki o, Türkiyəsiz bu blokdan çox şey qazana bilərdi. Türkiyə bu bloka daxil olsaydı, o heç nəyə nail ola bilməzdi. Nəhayət, üçüncüsü, Peterburqda başqa bir nöqteyi-nəzər qalib gəldi: onun tərəfdarları Balkan yarımadasında xristian dövlətlərinin birləşməsini irəli sürürdülər. Bunun təşəbbüskarı Serbiyanın nümayəndəsi Qartviq idi. Balkan dövlətlərindən Avstriyaya qarşı mübarizənin qatı tərəfdarı Serbiya idi. Beləliklə, onun mövqeyi Rusiyanın mövqeyi ilə üst-üstə düşürdü. Lakin nə Yunanıstanı, nə də Bolqarıstanı Avstriyaya qarşı ittifaqa istiqamətləndirmək mümkün olmadı. Onların milli arzuları yalnız Türkiyə üzərində qələbədən sonra yerinə yetirilə bilərdi.

Balkan ittifaqının yaradılmasını çətinləşdirən ən başlıca amil Makedoniyanın Serbiya, Bolqarıstan və Yunanıstan arasında bölüşdürülməsi barədə razılığa gəlinməməsi idi.



Türkiyənin mirasının gələcəkdə bölünməsi də digər çətinliklər yaradardı. Bu Albaniyanın taleyi məsələsi idi.

Serbiya, Albaniyanı işğal etməklə dənizə çıxmış olardı. Buna görə də Avstriya-Macarıstan Albaniyanın serblərə verilməsinə razı ola bilməzdi. Serbiyanın iddialarına qarşı Avstriya-Macarıstan İtaliya ilə birlikdə çıxa bilərdi. Lakin Adriatik dənizində onların maraqlarının toqquşması və hər birinin Albaniyaya sahiblənməyə cəhd etməsi buna imkan vermirdi.

Serbiyanın təşəbbüsü ilə Balkan blokunun yaradılması barədə danışıqlar başlandı. 1911-ci ilin aprelində Serbiyanın baş naziri Milovanoviç Bolqarıstan səfiri Toşevə təklif etdi ki, «Makedoniyanı istədikləri kimi tə'sir dairəsinə bölmək» haqqında saziş bağlasınlar. Bu saziş Türkiyəyə qarşı hərbi sahədə birlikdə çıxmaq üçün əsas ola bilərdi. Bolqarıstan hökuməti əvvəlcə serblərin təklifinə mənfi yanaşdı. Lakin İtaliya-Türkiyə müharibəsi ilə əlaqədar olaraq danışıqlar təzələndi. Rusiyanın Xarici İşlər Nazirliyi serb-bolqar sazişi ideyasını bəyəndi.

Balkan blokunun yaradılmasında Rusiya çox maraqlı idi. Lakin bu bir sıra risklə də bağlı idi. Əgər Serbiya və Bolqarıstan bir-biri ilə razılığa gəlib Türkiyəyə qarşı müharibəyə başlayarlarsa, onda Almaniya və Avstriya-Macarıstan da bu müharibəyə qoşula bilərdilər. Rusiya da mütləq slavyan dövlətlərini müdafiə etmək naminə müharibəyə qarışmalı idi.Rusiya isə öz hərbi qüvvələrini bərpa etmək və yenidən qurmaq planını hələ başa çatdıra bilməmişdi.

Balkan blokunun yaradılması çar diplomatiyası üçün o qədər vacib idi ki, onun ciddi təhlükəli cəhətlərinə baxmayaraq, Rusiya onun yaradılmasına üstünlük verirdi.

1911-ci ilin payızında danışıqlar zamanı Bolqarıstan çarı Ferdinand özünün macar malikanəsində idi. Qəti qərara gəlmək üçün Baş nazir Qeşov onun yanına gəldi. Geriyə isə o Belqraddan qayıtdı. Bir gün sonra Belqrad vağzalında Milovanoviç Qeşovun vaqonunda bir neçə dəfə danışıqlar apardılar. Qeşov bildirdi ki, Ferdinand Serbiya ilə sazişi bəyənir. Bundan sonra hər iki nazir Makedoniyada serb və bolqar maraqlarını araşdırmaqla məşğul oldular. Bolqarıstan Makedoniyanı bütünlüklə tələb edirdi. Serbiya isə onun bölünməsinə tə'kid edirdi. Razılığa gəlmək heç də asan deyildi. Lakin burada hələlik Osmanlı imperiyasının ərazisinin bölünməsi ilə razılığa gəlməklə kifayətləndilər. Milonoviçin fikrincə mübahisəli zonalar məsələsi Türkiyə ilə gələcək müharibədən sonra həll edilməli idi. Məsələ Rusiyanın qərarına verilməli idi.

1911-ci il noyabrın ikinci yarısında Serbiya kralı və Milovanoviç Parisə gəldilər. Onlar burada inandılar ki, Fransa Balkan dövlətlərinin blokunu bəyənir.

Milovanoviç tərəfindən irəli sürülən mübahisəli zonalar və Rusiyanın arbitr olması ideyası Sofiya tərəfindən rəğbətlə qarşılanmadı. Onlar hesab edirdilər ki, Rusiya mütləq serblərin tərəfində olacaq. Mübahisəli zonaları bölmək üçün özləri birbaşa danışıqlara başladılar. 1911-ci ilin sonu və 1912-ci ilin əvvəlində bu barədə ciddi danışıqlar getdi.

Nəhayət, 1912-ci il martın 13-də aşağıdakı məzmunda serb-bolqar müqaviləsi imzalandı:

**Maddə 1.** Bolqarıstan çarlığı və Serb krallığı bir-birinin müstəqilliyinə və ərazi bütövlüyünə tə'minat verirlər. Onların üzərinə bir və ya bir neçə dövlət tərəfindən hücum edilərsə, özlərinin bütün qüvvələri ilə bir-birinin köməyinə gələcəklərini öhdələrinə götürürlər.

**Maddə 2.** Hər iki razılığa gəlmiş dövlətlər öhdələrinə götürürlər: əgər bu və ya digər böyük dövlət



hazırda türklərin hakimiyyəti altında olan Balkan ərazilərinin bu və ya digər hissəsini, hətta müvəqqəti olsa da özünə birləşdirmək üçün özünün silahlı qüvvələri ilə, işğal etməyə cəhd edərsə, razılığa gəlmiş tərəflərə qarşı buna oxşar digər hərəkətlər edərlərsə, özlərinin bütün silahlı qüvvələri ilə bir-birinin köməyinə gələcəklər.

Sonrakı maddələrdən birində hərbi konvensiya bağlamaq nəzərdə tutulurdu.

Müqavilədə xüsusi məxfi əlavələr də var idi. Onun birinci maddəsində deyilirdi ki, əgər Türkiyənin daxilində, razılığa gəlmiş dövlətlərin hər ikisinin və yaxud onlardan birinin dövlət və milli mənafelərinə təhlükə törədə bilən qarışıqlıq baş verərsə, yaxud da Türkiyə üçün daxili və xarici çətinliklər baş verərsə, o Balkanlarda Status qvo-nun pozulmasına səbəb olarsa, hərbi əməliyyatın zəruri olduğunu birinci başa düşən tərəf, əsaslandırılmış təkliflərlə digər tərəfə müraciət edərsə, o tərəf dərhal fikir mübadiləsinə başlamalı, əgər müttəfiqin fikri ilə razı olmasa, dərhal cavab verməlidi.

Əgər razılıq əldə edilərsə, o halda Rusiyaya xəbər verilməli, əgər onun tərəfindən maneçilik olmazsa, onda əldə edilmiş müqavilə əsasında tərəflər hərəkət etməlidirlər. Əks təqdirdə əgər razılıq əldə edilməzsə, məsələ Rusiyaya həvalə edilməli və onun fikri hər iki tərəf üçün məcburi olmalıdı. Əgər Rusiya öz fikrini söyləmək istəməsə, bundan sonra da tərəflər razılığa gələ bilməsələr, onda tərəflərdən biri Türkiyəyə qarşı müstəqil surətdə müharibəyə başlayarsa, digər tərəf öz müttəfiqinə qarşı dostluq bitərəfliyi saxlamalıdı». Bu geniş maddənin mahiyyəti aydın idi. Serbiya və Bolqarıstan onlar üçün əlverişli məqamda Türkiyəyə hücuma keçməyə hazır idilər. Bu nöqteyi-nəzər Rusiya üçün daha təhlükəli idi. Bunun arxasında Rusiya üçün

münasib olmayan vaxtda Rusiyaya lazım olmayan müharibəyə risk etmək faktı gizlənmişdi.

Əlavənin 2-ci maddəsi gələcək qazancın bölünməsinə həsr edilmişdi.

Birgə fəaliyyət nəticəsində qazanılmış bütün qənimət, hər iki müttəfiqin idarəsi altına keçir. Kondominimum (birgə idarə edilmə) sülh bağlandıqdan üç ay sonra aşağıdakı əsaslarla ləğv edilir:

Serbiya Rodon və Strum çayından şərqə olan ərazinin Bolqarıstana verilməsini qəbul edir. Bolqarıstan isə Şar-Planindən şimala və qərbə olan ərazidə Serbiyanın hüququnu tanıyır;

Şar-Planin, Rodon arxipelaqı və Oxrid gölü arasındakı ərazinin taleyi isə Rusiya hökumətinin mövqeyindən asılı olacaqdı.

4-cü maddə müəyyən edirdi ki, bu müqavilənin şərhində və icrasında müəyyən mübahisələr meydana çıxardısa, son qəti sözü demək Rusiyanın ixtiyarına verilirdi.

Serb-bolqar müqaviləsinin bağlanması haqqında İngiltərə və Fransaya da mə'lumat verildi. Onlar dərhal onu bəyəndiklərini bildirdilər. Müqavilə Bolqarıstanın üzünə Paris birjasını açdı. Fransa hökuməti Bolqarıstana istiqraz verməyi bəyəndi.

Martda imzalanmış ittifaq müqaviləsi 1912-ci il mayın 12-də serb-bolqar hərbi konvensiyası ilə tamamlandı. Türkiyəyə və ya Avstriya-Macarıstana qarşı müharibə olarsa, onlar qarşılıqlı kömək haqqında razılığa gəldilər. Bununla yanaşı, ayrı-ayrılıqda Türkiyə və Avstriya-Macarıstanla müharibə olardısa, hər bir tərəf nə qədər və hansı müddətə ordu verməsi də dəqiq müəyyən edilmişdi.

Serb-bolqar danışıqları ilə yanaşı, yunan-bolqar danışıqları da gedirdi. Bu danışıqlarda Rusiya diplomatiyası fəal iştirak etmirdi. 1912-ci ilin mayında



Yunanıstan Bolqarıstana ittifaq müqaviləsinin aşağıdakı layihəsini təqdim etdi. Türkiyənin hücumu zamanı, Türkiyə tərəfindən onların hər hansının hüququnun pozulması zamanı hər iki tərəf bir-birilərinə hərbi kömək göstərməyi öhdələrinə götürürdülər. Bolqarlar tərəfindən layihə Rusiya hökumətinə çatdırıldı. Çar hökuməti həmin layihənin təcavüzkar xarakterini bir qədər yumşaltmağa cəhd etdi və bunu bolqar tərəfə həvalə etdi. Lakin bu heç bir nəticə vermədi. Mayın 20-də yunan-bolqar müqaviləsi imzalandı.

Rusiya yaxınlaşmaqda olan dünya müharibəsində bir silah kimi bolqar blokunu yaratdı. Lakin o bu bloka tə'sirinin hədsiz olmasında səhv etdiyini başa düşdü. Rusiyanın hərbi və diplomatik hazırlığının başa çatmasından əvvəl balkan bloku hərəkət etməyə başladı. Payızda blok Türkiyə ilə ciddi ixtilaf yaratdı. Rusiya hökuməti Türkiyə-İtaliya arasında sülhün bağlanmasını sür'ətləndirməyə çalışırdı. Bu boğazların Rusiya ticarəti üçün açılmasını, Balkan ittifaqının müharibə səylərinin səngiməsini tə'min edə bilərdi. Avstriya-Macarıstan da müharibə istəmirdi. Lakin Fransa tərəfindən müdafiə edilən Rusiyanın cəhdləri hədər getdi. Avstriyanın cəhdləri də fayda vermədi. 1912-ci il oktyabrın 9-da səhər Çernoqoriya hərbi əməliyyata başladı. Oktyabrın 17-də Serbiya və Bolqarıstan, 18-də isə Yunanıstan Türkiyəyə müharibə e'lan etdilər və hərbi əməliyyata başladılar.

Türkiyə ordusu məğlub edildi. Müttəfiqlərin qoşunları Türkiyənin Avropa ərazisinin xeyli hissəsini tutdular. Bolqarıstan ordusu birbaşa Türkiyənin paytaxtına doğru hərəkət edirdi. Türkiyənin sülh xahiş etməkdən başqa digər əlacı qalmadı. 1912-ci il noyabrın 3-də, o bu sahədə vasitəçilik etmək üçün böyük dövlətlərə müraciət etdi.

Türkiyənin müraciəti müsbət qarşılandı. Balkan işlərində daha çox maraqlı olan iki dövlət – Rusiya və Avstriya müharibənin dayandırılmasını səbirsizliklə gözləyirdilər.

Çar hökuməti qorxurdu ki, İstanbulun işğal edilməsi böyük dövlətlərin öz hərbi dəniz qüvvələrini boğazlara yeritmələrinə səbəb olar. Bolqarlar Türkiyənin paytaxtında görünən kimi böyük dövlətlər müharibəyə qarışa bilərlər.

Peterburq Sofiyaya ordunun irəliləməsini dayandırmağı tə'kidlə məsləhət görürdü. Lakin gözlənilmədən məsələ başqa cür həll edildi. Çatalçı mövqelərində türklər bolqar qoşunlarının hücumunu dayandıra bildilər.

Serblərin Adriatik sahillərində görünmələri də Avstriya –Macarıstanı narahat edirdi. Noyabrda Avstriya-Macarıstan öz ordusunun xeyli hissəsini səfərbər etdi və serb sərhədlərinə güclü qüvvə topladı. Almaniya Avstriya-Macarıstanı müdafiə etdi. II Vilhelm Frans-Ferdinanda bildirdi ki, serb məsələsində geriyə çəkilmək olmaz. O, işarə vurdu ki, əgər lazım gələrsə, Avropa miqyasında müharibəyə başlamaqdan qorxmur. Noyabrın 22-də Frans-Ferdinand və qərargah rəisi Berlinə gəldilər. Onlar kayzerlə, Moltke və Betmanla danışıqlar apardılar. Moltke əgər Avropa miqyasında müharibə olarsa, öz strateji planını Şemuaya-Avstriyanın ali qərargahının rəisinə ətraflı şərh etdi.

Rusiya hökuməti Serbiyanın iddialarını müdafiə edirdi. Lakin özünün hazır olmadığını hiss edərək, müharibədən qaçmağa çalışırdı. Sazonov Bolqarıstana güzəştə getməyi qətiyyətlə məsləhət görürdü.

Rusiyadan fərqli olaraq, Puankarenin başçılıq etdiyi Fransa hökumətində müharibə əhval-ruhiyyəsi güclü idi. Hələ avqustda Puankare Peterburqa gəlmişdi. O rus müttəfiqini xəbərdar etmişdi ki, təkcə balkan işlərinə görə, Fransa müharibəyə başlamaz. Bununla



belə bildirmişdi ki, əgər Almaniya müharibəyə qoşularsa, Fransa da özünün ittifaq öhdəliyini tamam yerinə yetirəcək. Bununla belə, Puankare Balkan müharibəsinin söndürülməsinə nail olmaqda Rusiyanın ciddi-cəhdinə kömək edirdi. Lakin bolqar və serb ordusunun yüksək hərbi keyfiyyətinə inandıqdan sonra Puankare daha təcavüzkar siyasətə meyl etməyə başladı. O, Rusiyaya da tə'sir etməyə girişdi.

Öz silahlı qüvvələrini yaradıb başa çatdırmaq üçün Fransa Rusiyaya növbəti istiqraz verdi. 1913-cü ildə də bunu davam etdirdi. İngiltərə Avstriya serb konfliktində qeyri-müəyyən mövqe tuturdu. O Avstriya-Macarıstanla öz müttəfiqləri arasında arbitr rolunu oynamaq istəyirdi.

Həm də İngiltərə başa düşürdü ki, müstəmləkə siyasəti baxımından indi onun Balkan bloku xeyrinə Türkiyəyə qarşı çıxması üçün vaxt münasib deyildi. Bu ingilis-hind hökumətini Hindistanın nüfuzlu müsəlman ünsürlərinin köməyindən məhrum edə bilərdi.

Rusiyanın tə'siri ilə Serbiya təslim oldu və Adriatik dənizinə çıxmaqdan imtina etdi.

Rusiya bütün mübahisəli məsələləri böyük dövlətlərin iştirakı ilə həll etmək təklifi ilə çıxış etdi.

İngiltərə hökuməti bu təşəbbüsü bəyəndi. Almaniya isə özünü başqa cür apardı. O cavab verdi ki, onun mövqeyi Avstriya-Macarıstanın tutduğu mövqedən asılı olacaq. Avstriya–Macarıstan isə öz razılığını bildirməyi ləngidir.

1912-ci il dekabrın 2-də alman kansleri bəyan etdi ki, Avstriya üzərinə hücum edilərsə, Almaniya öz müttəfiqlik öhdəliyini yerinə yetirəcək. Dekabrın 12-də Avstriyanın hərbi partiyasının liderlərindən biri Konrad fon Hetsendorf ali qərargahın rəisi (bu vəzifəni o, 1911-ci ildə tərk etmişdi) vəzifəsinə qaytarıldı.

Alman kansleri Betmanın çıxışına cavab olaraq, Qrey Berlinə bildirdi ki, iş Almaniya və Fransa arasında

müharibə ilə nəticələnsə, İngiltərə heç də bitərəf qalmayacaq. Dekabrın əvvəllərində Vilhelmin qardaşı vəliəhd Henrix Londona gəlir. Qreyin bəyanatından sonra Almaniyanın mövqeyi dəyişdi. O Vyanaya tə'sir etməyə başladı. Almaniya ilə birlikdə Avstriya da mübahisəli məsələləri böyük dövlətlərin səfirlərinin London müşavirəsinə verməyə razı olduqlarını bildirdilər. Onlar yalnız onu tələb edirdilər ki, Serbiyanın dənizə çıxmasına imkan verilməsin.

## Londonda səfirlərin müşavirəsi

1912-ci ilin dekabrında Londonda eyni vaxtda iki beynəlxalq konfrans işə başladı. Birində Türkiyə və Balkan ölkələri blokunun – yəni döyüşən tərəflərinin nümayəndələri görüşürdülər. İkincisində isə Avropanın altı böyük dövlətinin nümayəndələri iclas edirdilər. Londondakı böyük dövlətlərin səfirlərinin toplandığı bu konfransa Qrey sədrlik edirdi. Qərarlar yekdilliklə qəbul edilməli idi. Qərar qəbul ediləndən sonra o təsdiq edilmək üçün səfirlər tərəfindən öz dövlətlərinə təqdim edilirdi. Türkiyə və onun Balkan düşmənləri böyük dövlətlər tərəfindən himayə edilirdilər. Türkiyəni-Almaniya və Avstriya-Macarıstan, Balkan blokunu isə Rusiya və İngiltərə müdafiə edirdilər.

Səfirlərin birinci iclasında, dekabrın 27-də Avstriya və İtaliyanın xeyrinə olaraq sultanın ali hakimiyyəti və altı böyük dövlətin nəzarəti altında muxtar Albaniyanın yaradılması qərara alındı. Albaniya Serbiyanın Adriaktik dənizinə çıxmasına imkan verməyən sədd olmalı idi.

Bu qərarın olmasına baxmayaraq, Avstriya ordunu tərxis etmək, Serbiya isə Albaniyanı boşaltmaq istəmirdilər. Rusiyanın məsləhəti ilə Serbiya e'lan etdi ki, sülh müqaviləsi bağlanan kimi o Albaniyanı boşaldacaq. Lakin buna baxmayaraq, London müşavirəsi qərar çıxardı ki, böyük dövlətlərin tələb etdikləri anda Serbiya Albaniyanı boşaltmalıdı.



Beləliklə, Serbiyanın Adriatik dənizinə çıxması mümkün olmadı. Lakin mübahisələr heç də bununla qurtarmadı. «Sülh» müqaviləsi əsasında intriqalar davam etməkdə idi. Qaliblər tələb edirdilər ki, Avropa Türkiyəsinin sərhəddi Midiya – Rodost xətti olmalıdır. Onlar hələ müqavimət göstərməkdə olan Adrianopolun təhvil verilməsini və Egey dənizindəki adalardan Türkiyənin imtina etməsini tə'kid edirdilər. Türkiyə isə bu iki məsələ üzrə heç bir güzəştə getmirdi. Adrianopol məsələsində Rusiya və Avstriyanın mövqeyi eyni idi. Hər iki tərəf Adrianopolu tələb edən Bolqarıstanı müdafiə edirdi. Bununla Rusiya Bolqarıstanı Avstriya-Macarıstan tərəfinə keçməyə imkan verməmək, Avstriya-Macarıstan isə Bolqarıstanı öz tərəfinə çəkmək məqsədini güdürdülər.

Çar hökuməti Türkiyəyə bildirdi ki, əgər o güzəştə getməsə müharibə başlanacaq və Rusiya bitərəf qalacağına tə'minat vermir. Artıq rus qoşunları Qafqaz sərhədlərinə gətirilməkdə idi. Türkiyə hökuməti güzəştə getməyə meyl edirdi.

1913-cü il yanvarın 23-də Türkiyədə dövlət çevrilişi baş verdi. Mahmud Şevket paşanın başçılığı ilə gənc türklər hakimiyyətə gəldilər.

Almaniya hökuməti Rusiya hökumətinə xəbərdarlıq etdi ki, Rusiyanın Türkiyəyə qarşı çıxması Avropada sülh üçün böyük təhlükə yarada bilər. Almaniya kabineti barışmaz mövqe tutmağa hazırlaşırdı. Fevralın 3-də Balkan bloku hərbi əməliyyatı bərpa etdi. Türkiyə dalbadal məğlubiyyətə uğradı.

Mart ayında Adrianopol təslim oldu. Türklər ikinci dəfə sülh xahiş etməyə məcbur oldular.

Türkiyəyə onun düşmənləri olan Bolqarıstan, Serbiya və Yunanıstan arasındakı mübahisələr kömək etdi.

Qənimət bölmək uğrunda çəkişmə başladı. Rumıniya da bitərəf qaldığına görə əvəz kimi Bolqarıstandan Dobrucu tələb edirdi. Adrianopolun süqutundan sonra bolqarlar qoşunlarını Çatalçeyə yeritməyə başladılar. Bundan Rusiya narahat oldu. Bolqarıstan qoşunlarının boğazlara və İstanbulun sahillərinə yaxınlaşması təhlükəsi yaranırdı. Qara dəniz donanması Bosfora daxil olmağa hazırlaşırdı. Çar hökuməti diplomatik addımlar atdı, tezliklə barışığa gəlməyi tələb etdi. Bunun əvəzində o Bolqarıstana vəd etdi ki, Serbiya ilə qənimətin bölünməsində ona kömək edəcək.

1913-cü il aprelin 16-da Bolqarıstan və Türkiyə arasında barışıq bağlandı. Başqa müttəfiqlərlə aprelin 20-də barışıq əldə edildi. Təkcə Çernoqoriya Skutarı mühasirədə saxlamaqda davam edirdi. Danışıqlar yenə Londonda bərpa edildi. Bu danışıqlarda da ixtilaflar davam etməkdə idi. Yunanıstan Albaniya ilə sərhəddini Ximmariya keçirmək istəyirdi. İtaliya Yunanıstanın qənimətini hər vəchlə kəsməyə çalışırdı. Yunanıstanı Fransa ciddi müdafiə edirdi. O Yunanıstana Aralıq dənizində İtaliyaya qarşı rəqib kimi baxırdı. Bundan başqa Yunanıstan Egey adalarını tələb edirdi. Lakin onun bu tələbləri təkcə Türkiyə tərəfindən yox, həm də Rusiya tərəfindən güclü müqavimətlə rastlaşırdı. Rusiya Dardaneli qoruyan İmbors, Lemnos, Tenedos və Samofrank adalarının Yunanıstana verilməsindən ehtiyat edirdi. O qorxurdu ki, bu adalara sahiblənən Yunanıstan və onun himayədarları boğazları bağlaya bilərlər. Türkiyəni müdafiə edən Almaniya Yunanıstanın iddialarının ödənilməsinə getmədi. İtaliyanın tutmuş olduğu mövqe nəticəsində Egey dəniz adaları məsələsi mürəkkəbləşdi. Türkiyə-İtaliya müharibəsinə son qoymuş Lozanno sülh müqaviləsinə (1912-ci il 18 oktyabr) əsasən, İtaliya işğal etdiyi Dodekanez adasını



Türkiyəyə qaytarmalı idi. Lakin indi o adanı nə Türkiyəyə, nə də Yunanıstana qaytarmaq istəmirdi.

Danışıqlar uzanırdı, hətta sonu görünmürdü. Qrey bildirdi ki, arzu edənlər sülh müqaviləsini imzalamağa də'vət edilir. Kim bunu istəmirsə, dərhal Londonu tərk etməlidir. Bu hədə öz rolunu oynadı. Sülh müqaviləsi 1913-cü il mayın 30-da imzalandı.

London müqaviləsinə görə, demək olar ki, Türkiyənin Avropa hissəsindəki bütün ərazisi qaliblərin ixtiyarına keçdi.

London müqaviləsindən sonra, qüdrətli Osman imperiyasına Avropa hissəsindəki İstanbul və Rodost-Midiya xətti əvəzində (o Bolqarıstana verilmişdi). Enos-Midiya xətti üzrə boğazların sahilində kiçik bir ərazi qalmışdı. Albaniyanın sərhəddi və daxili quruluşu barədə məsələ böyük dövlətlərə həvalə edilmişdi.

Türkiyə və Balkan müttəfiqləri arasında müharibə getdiyi vaxt Balkanın qərb hissəsində kiçik bir şəhər uğrunda yeni konflikt alovlanmağa başladı. Söhbət Albaniyanın şimal sərhədləri və Çernoqoriya tərəfindən mühasirəyə alınmış Skutari şəhəri haqqında gedirdi. Çernoqoriya mühasirəni götürmək istəmirdi. Rusiya onu müdafiə edirdi. Rusiya və Avstriya arasında kəskin konflikt yetişirdi. Nəhayət, İngiltərənin təzyiqi ilə Avstriya 1913-cü ilin martında ordunu tərxis etməli oldu. Rusiya da öz ehtiyatda olanlarını buraxdı. Avstriyanın Çernoqoriyaya müəyyən əvəz verməsi şərti ilə o Skutaridə mühasirəni götürməli idi.

Lakin az sonra aydın oldu ki, böyük dövlətlərin çıxardığı qərar heç də Skutari məsələsini tam həll etməyib. Türk qarnizonunun mühasirəsini davam etdirən Çernoqoriyanı cilovlamaq üçün London konfransı Avropanın böyük dövlətlərinin birləşmiş qüvvələri ilə Çernoqoriyaya güc tətbiq etməyi qərara aldı. Hərbi-dəniz qüvvələri Çernoqoriyanın sahillərini

blokadaya aldı. Lakin Çernoqoriya heç buna məhəl qoymadı. O, Skutarini güzəştə getmək barədə mühasirədə olan türk qarnizonun rəisi Essad paşa ilə sənəd imzaladı. O həm də alban feodal başçılarından biri idi. Buna görə də Çernoqoriya Essad paşanı Albaniyanın kralı kimi tanıdı.

Lakin nəhayət, Rusiyanın təzyiqi ilə Çernoqoriya Skutaridən getdi.

## İkinci Balkan müharibəsi

Birinci Balkan müharibəsi Avstriya-alman qruplaşmasını zəiflətdi. Serbiyanın güclənməsi Avstriya-Macarıstanı məcbur etdi ki, Qalisiyadan öz qüvvələrinin çoxunu Balkan cəbhəsinə gətirsin.

Müharibədə məğlub olan Türkiyə xeyli zəifləmişdi. İndi Avstriya-Macarıstan ona çalışırdı ki, Bolqarıstanı Serbiyadan ayırsın. Bununla o Balkan blokunu dağıtmaq, arxada, Serbiyaya düşmən ola biləcək Bolqarıstandan onun üçün təhlükə yaratmaq məqsədini güdürdü.

Balkan ittifaqının şəxsində Antanta tərəfdə güclü hərbi qüvvə dururdu. Avstriya diplomatiyasının vəzifəsi bu qüvvəni parçalamaq idi. Lakin buna nail olmaq o qədər də asan deyildi.

Dənizə çıxışa nail ola bilməyən Serbiya onun əvəzini Makedoniyadan çıxmaq istəyirdi. 1913-cü ilin fevralında o, 1912-ci il 13 mart tarixli serb-bolqar ittifaq müqaviləsinin ərazilərə dair şərtlərinə yenidən baxmaq təklifi ilə Bolqarıstana müraciət etdi. Bolqarıstan və Yunanıstan arasında kəskin çəkişmə başlamışdı. Şimali Epirdə heç nə ala bilməyən Yunanıstan Bolqarıstanın hesabına Makedoniyanın cənubundan və Frakiyadan almaq istəyirdi. Bolqarıstan və Yunanıstan arasında



Salonikin taleyi uğrunda da mübarizə gedirdi. Bunlara baxmayaraq, Serbiya və Yunanıstan Bolqarıstanla birlikdə Türkiyəyə qarşı müharibəni davam etdirirdilər. Türkiyə ilə London müqaviləsi imzalanandan bir gün sonra, yəni 1913-cü il iyulun 1-də yunan-serb müqaviləsi imzalandı. Rumıniya da ona qoşuldu.

Türkiyə ilə müharibə ərzində Rumıniya öz bitərəfliyinə görə Bolqarıstandan Dobrudçi tələb edirdi. Rusiyanın işə qarışması nəticəsində Silistri şəhərini Rumıniyaya verməklə iş bitmiş sayıldı. Lakin Rumıniya bununla kifayətlənmək istəmirdi. Buna görə də o Serbiya və Yunanıstanın təklifinə dərhal cavab verdi. Bu yolla o, Bolqarıstandan ərazi qoparmaq ümidində idi.

Rusiya hər vəchlə Balkan birliyini saxlamağa cəhd edirdi. O çalışırdı ki, Serbiya və Yunanıstan öz tələblərini azaltsınlar. Bolqarıstan isə güzəştə getsin.

Avstriya-Macarıstan isə əksinə, Bolqarıstanı müharibəyə təhrik edirdi, ona istiqraz verməyi, ərazisinin bütövlüyünü qorumağı vəd edirdi.

Bolqarıstan hökuməti əvvəlcə cəhd etdi ki, Rusiyanı bolqar-serb konfliktində Serbiya əleyhinə mövqe tutmağa cəlb etsin. Lakin Rusiya diplomatiyası buna getmədi. Peterburqda başa düşürdülər ki, Balkan dövlətləri içərisində ona ən yaxını Serbiyadır. Sazonov bolqarların təklifini rədd etdi və bildirdi ki, onlar serblərlə danışığa gəlməyincə Rusiya ilə danışıqlar mümkün olmayacaq. O isə yalnız Rusiyanın vasitəçiliyini təklif etdi. Lakin slavyan dövlətlərinin birliyini saxlamaq uğrunda Rusiyanın səyləri müvəffəqiyyət qazanmadı. Bolqarıstan Avstriyanın tərəfinə keçdi. 1913-cü il iyunun 29-da o, serblərə və yunanlara qarşı hərbi əməliyyata başladı.

Özünün əvvəlki müttəfiqlərinə hücum edən Bolqarıstan hesab edirdi ki, Almaniya və Avstriya

Rumıniyanın müharibəyə qoşulmasının qarşısını ala biləcəklər. Lakin bu baş vermədi. 1913-cü il iyulun 3-də Rumıniya səfərbərlik e'lan etdi və iyulun 10-da Bolqarıstana qarşı müharibəyə başladı.

Avstriya-Macarıstan hökuməti II Balkan müharibəsinə qatılmağa hazır idi. O Bolqarıstanın qələbəsini gözləyirdi. Lakin az sonra aydın oldu ki, Bolqarıstan məğlub olacaq. İndi Avstriya onun müdafiəsinə hazırlaşmağa başladı. O Almaniyanın köməyinə ümid bəsləyirdi. Lakin müxtəlif bəhanələrlə Almaniya Avstriya-Macarıstanı müdafiə etməkdən imtina etdi.

Bolqarıstanın ağır vəziyyətindən Türkiyə istifadə etdi. İyulun 16-da iki Balkan dövləti ilə birlikdə Bolqarıstana hücum etdi. İyulun 20-də türklər Adrianopolu bolqarlardan aldılar.

Avstriya Bolqarıstana gözlənilən köməyi göstərmədi. Avstriyanın bu mövqeyi Sofiyanı məyus etdi.

Rusiya diplomatiyası üçün Bolqarıstanı Antanta tərəfinə qaytarmaq üçün əlverişli şərait yaranmış oldu. Bunun naminə o, Adrianopolu Bolqarıstana qaytarmağa cəhd etdi. Londonda səfirlərin yeni müşavirəsi toplandı. London sülh müqaviləsi Enos-Midiya xətti üzrə sərhəd məsələsinə dair qərarını Türkiyəyə xatırlatdı. Lakin güc tətbiq etmədən Türkiyəni məcbur etmək mümkün olmadı. Adrianopolu Bolqarıstana qaytarmaq Rusiyaya müəssər olmadı. Lakin Rusiya Bolqarıstanı daha çox itirməkdən xilas etdi.

Nəhayət, məğlub olan Bolqarıstan sülh təklif etdi. İyulun 30-da Buxarestdə sülh konfransı açıldı. Sülh danışıqları zamanı Bolqarıstan və Yunanıstan arasında Kavoll limanı uğrunda kəskin mübarizə genişləndi. Rusiya və Avstriya, öz tərəflərinə çəkmək üçün Bolqarıstanı müdafiə edirdilər. Almaniya isə Kavolldan istifadə edib Yunanıstanı öz tərəfinə çəkməyə cəhd



edirdi. Fransa da Yunanıstanı müdafiə edirdi. İtaliya isə Bolqarıstanın tərəfində idi. İngiltərənin də müdafiə etməsi nəticəsində iş Yunanıstanın qələbəsi ilə qurtardı.

**Buxarest sülhü**

Sülh Buxarestdə 1913-cü il avqustun 10-da imzalandı. Serbiya Makedoniyadan nəinki mübahisəli, hətta mübahisəli olmayan zonaları da aldı: Yunanıstan cənubi Makedoniyanı, Saloniklə birlikdə Frakiyanın bir hissəsini aldı. Adrianopol Frakiyanın bir hissəsi ilə Türkiyəyə qaytarıldı. Beləliklə, Bolqarıstan uduzdu.

İkinci Balkan müharibəsi Balkanlarda qüvvələr nisbətinin yeni istiqamətini müəyyən etdi. Vahid Balkan bloku əvəzində iki qruplaşma yarandı: Serbiya, Yunanıstan, Rumıniya bir tərəfdə, Bolqarıstan, Türkiyə isə digər tərəfdə. Blokun dağılması faktı Almaniya və Avstriya-Macarıstan üçün xeyirli idi. Lakin Rumıniyanın Antanta tərəfinə keçməsi isə bu qiymətini bir qədər itirirdi.

Az sonra Balkanlarda yeni beynəlxalq konflikt alovlandı. İkinci müharibə nəticəsində xeyli güclənmiş Serbiya Adriatik dənizinə çıxmağa yenə təşəbbüs etdi. Buna görə, Albaniyanın bir hissəsini tutdu. Bununla yanaşı, 1913-cü ilin yayında səfirlərin London konfransı «Alban dövlətinin məhdud statutusu»nu qəbul etdi. Albaniya «altı dövlətin qarantiyası» altında müstəqil knyazlıq e'lan edilirdi. Alban dövlətinin sərhədlərinin müəyyən edilməsi uzun mübahisələrə səbəb oldu. Axırda böyük dövlətlərin müzakirəsinə verildi. Sərhədlərin müəyyən edilməsində Rusiya və Fransa Serbiya və Yunanıstanı müdafiə edirdilər. Almaniya, Avstriya və İtaliya Bolqarıstanın tərəfində idilər. İngiltərə, Almaniya, Avstriya və İtaliyanın mövqeyində idi. Av-

qustun 11-də sərhədlərin əsas istiqamətləri haqqında konfrans qərar çıxardı. İki komissiya yaradıldı. Onlar beynəlxalq konfransın qərarını həyata keçirmək üçün yerlərə getdilər.

Komissiyanın işi uzandıqca serblər və albanlar arasında aramsız ixtilaflar baş verirdi. Albanların bir hücumundan sonra oktyabrda Serb hökuməti hissəvi səfərbərlik keçirdi və alban ərazisinin bir hissəsini işğal etdi. O, həm də e'lan etdi ki, Albaniyada qayda yaradılmayınca, bu ərazini azad etməyəcək. Avstriya hökuməti bundan istifadə edərək, serblərə dərs verməyi, onu tamam darmadağın etməyi qərara aldı. Berlin bu dəfə tamamilə Avstriya tərəfində durduğunu bəyan etdi. Bu oktyabrın 16-da teleqrafla Vyanaya bildirildi. Oktyabrın 17-dən 18-nə keçən gecə Avstriyanın Xarici İşlər Naziri qraf Berxtold Avstriyanın Belqraddakı səfirinə təlimat göndərdi. Təlimatda serb hökumətinə ultimatum vermək göstərilirdi. Avstriya Serbiyadan tezliklə Albaniyanı təmizləməyi tələb edirdi. Əks təqdirdə müharibə olacağı bildirilirdi. Rusiya hökuməti ilə məsləhətləşdikdən sonra Serbiya Avstriyanın ultimatumunu qəbul etdi və ordusunu geri çağırdı.

Serbiyada Avstriya ultimatumundan bir ay sonra yenə beynəlxlaq konflikt baş verdi. 1913-cü ilin noyabrında Türkiyəyə 42 zabitdən ibarət Almaniya hərbi nümayəndəliyinin göndərilməsi barədə Almaniya və Türkiyə arasında saziş imzalandı. Missiyaya general Liman fon Sanders başçılıq edirdi. Missiya türk ordusunun yenidən təşkili ilə məşğul olmalı idi. Liman fon Sanders boğazların sahilində yerləşən korpusa komandan tə'yin olundu. Dekabrın 14-də Liman İstanbula gəldi.

Limanın missiyası Peterburqun böyük hiddətinə səbəb oldu. Belə çıxırdı ki, Bosfor sahillərində



Almaniyanın komandanlıq etdiyi qüvvə peyda olurdu. Parisə gedən, Nazirlər Sovetinin sədri Berlində dayandı və Limanın missiyası haqqında şəxsən Vilhelmlə danışıqlar apardı. O tələb etdi ki, Liman heç olmasa, korpus komandanlığından (paytaxtda) imtina etsin. Guya alman dövləti bu tələblə razılaşdı. Liman başqa yerdə də korpusa komandanlıq edə bilərdi. Lakin Türkiyə Rusiyanın onun işlərinə qarışmasına qəti e'tiraz etdi. Çar hökuməti kömək üçün Parisə və Londona müraciət etdi. Fransa ürəyindən olmasa da, Rusiyanı müdafiə etməyə hazır olduğunu bildirdi. İngiltərə isə tərəddüd edirdi. Kəskin danışıqlardan sonra Almaniya və Türkiyə Rusiyaya güzəştə getməli oldular. Limanın rütbəsi aşağı salındı. Bu onu həmin vəzifədən azad etməyə imkan verdi. Beləliklə, paytaxtda komandanlıq vəzifəsindən Liman imtina etdi. Lakin faktiki olaraq, Almaniya missiyası türk ordusunda rəhbər rol oynamaqda davam etməkdə idi.

Liman fon Sandersin işi Almaniyanın növbəti fitnəsi idi. Almaniya fitnə törətməkdə usta idi. O dəfələrlə öz məqsədlərini həyata keçirmək üçün belə fitnəkarlıqlara əl atmışdı. Kayzerin Tanjerdəki çıxışı, Kasablanka, Bosniya böhranı zamanı Byulovun ultimatumu, «Pantera», Serbiyanın iki dəfə hədələnməsi və i.a. alman fitnəkarlığının nümunələridir.

***

Bu dövrdə cərəyan edən beynəlxalq münasibətlər göstərdi ki, ingilis-alman ziddiyyətləri ingilis-rus və ingilis-fransız, Avstriya-Macarıstan və rus ziddiyyətlərindən daha kəskin və dərin idi.

Türkiyə ilə münasibətlər, Balkan müharibələri, sularda, Aralıq dənizində hakim olmaq uğrunda mübarizə beynəlxalq vəziyyətin daha da kəskinləşməsinə səbəb olmuşdu.

Dünya yeni müharibə ərəfəsində idi. Bunu görən və dərk edən böyük dövlətlər öz mövqelərini möhkəmləndirməyə ciddi-cəhd edirdilər. Bu, Antanta və Üçlər ittifaqı dövlətlərinin fəaliyyətində özünü aydın büruzə verirdi.



# IX FƏSİL

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİNƏ HAZIRLIQ VƏ GEDİŞİ DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

Müharibə bəşər cəmiyyətinin zəruri atributlarından biridir. O bütün canlı orqanizmə, həmçinin bəşər cəmiyyətinə xasdır. Bəzi siyasətçilər, alimlər, tədqiqatçılar iddia edirlər ki, insanlar, onları təmsil edən dövlətlər, onların liderləri istəsələr, müdrik hərəkət etsələr, ağıllı siyasət yürütsələr müharibələrdən qaçmaq, onların baş verməsinə imkan verməmək olar. Fikrimizcə liderlər, dövlətlər yalnız müharibələrarası fasilələrin müddətini uzada bilərlər, onların tamamilə baş verməsinə mane ola bilməzlər. Müharibələr tarixi zərurətdir, cəmiyyətlərin inkişafının qanuna uyğun nəticəsidir.

İnsanların, onların yetişdirmiş olduqları liderlərin, dövlətlərin təbiəti elədir ki, onlar heç vaxt mövcud vəziyyətlə, nail olduqları ilə kifayətlənmək, qənaətlənmək istəmirlər. Bu isə mütləq müharibələrə gətirib çıxarır. Birinci Dünya Müharibəsi də məhz belə müharibələrdən biridir.

Bunu nəzərə almayaraq bəzi tədqiqatçılar, alimlər, siyasətçilər Birinci dünya müharibəsinin başlanmasının məsuliyyətini bu və ya digər dövlətin, bu və ya digər siyasətçinin üzərinə qoymaq üçün çoxlu cəhdlər göstərmiş, əmək sərf etmişlər. Əslində isə onun səbəbini dünyanın böyük dövlətlərinin mövcud vəziyyətlə razılaşmamalarında, qitələrdə, müstəmləkələrdə iqtisadi-siyasi, hərbi üstünlüyə nail olmaq uğrunda onların arasında gedən rəqabətdə və mübarizədə axtarmaq lazımdır. Birinci Dünya müharibəsinin hazırlanmasında və başlanmasında iki qütbə bölünmüş

böyük dövlətlərin hamısı fəal iştirak etmişlər. Məhz bu məqsədlə onlar həddən artıq silahlanmışdılar. 1913-cü ildə Almaniya hərbi xərclər üçün 50 milyon funt-sterlinq pul ayırmışdı. Fransa hərbi xidmətin müddətini 2 ildən 3 ilə uzatmışdı. Rusiya hərbi xidmətin müddətini 6 ay artırmışdı. Son on ildə Fransada və Rusiyada orduya çəkilən xərc 842 mln. funt-sterlinq, Almaniya və Avstriyada isə 682 mln. funt-sterlinq olmuşdu. İngiltərə və Almaniya hərbi donanmanı silahlandırmaq proqramını həyata keçirməyə tələsirdilər.

1913-cü ildə Almaniya Türkiyə ordusunun yenidən qurulmasına böyük fəallıqla girişdi. Rusiyanın köməyi ilə balkan slavyanları da silahlanırdılar. Hər yerdə terror aktları gücləndirilirdi. Belə terror aktlarının birində Avstriya taxtının vəliəhdi Frans Ferdinand öldürüldü. Bu akt heç də dünyada gedən proseslərdən təcrid edilmiş akt deyildi, ümumi zəncirin həlqələrindən biri idi. Və bu da çoxdan hazırlanmış, artıq yetişmiş birinci Dünya müharibəsini başlamaq üçün bəhanə oldu.

### 1914-cü ilin yayında beynəlxalq vəziyyət

Balkan müharibələri beynəlxalq vəziyyətin daha da kəskinləşməsinə səbəb oldu. Doğrudur, bu müharibələr Balkan yarımadasında Türkiyənin ağalığına son qoydu. Lakin bununla bərabər, Balkan dövlətləri arasında ziddiyyətlərin kəskinləşməsinə səbəb oldu. Türkiyə məqam gözləyirdi ki, Egey dənizindəki adaları Yunanıstandan geri alsın. İtaliya tutmuş olduğu Dodekanezi boşaltmaq istəmirdi: Yunanıstan və Serbiya Albaniyanın yeni sərhədləri ilə razılaşmaq istəmirdilər; Bu heç də hamısı deyildi. Balkan dövlətlərinin arxalarında böyük dövlətlər dururdular, bir-biriləri ilə Yaxın Şərqdə nüfuz uğrunda mübarizə aparırdılar. Balkan dövlətlərini öz tə'sirləri altına salmaq uğrunda



Antanta və Avstriya-Almaniya bloku arasında qızğın mübarizə gedirdi. Avstriya Serbiyadan hayıf çıxmaq üçün fürsət axtarırdı, Serbiya Avstriya-Macarıstandan yuqoslavları azad etməyə cəhd edirdi. Rusiya Serbiyaya himayədarlıq edirdi. Avstriya Serbiyanın şəxsində özünün gələcəyi üçün ciddi təhlükə görürdü. Rusiya isə balkanlarda Serbiyanı ən yaxşı dayaq hesab edirdi. Avstriya-Serbiya müharibəsi başlanan kimi Rusiyanın bu müharibəyə qoşulacağı şəksiz idi. Avstriya isə Almaniyanın razılığı olmadan Serbiyaya qarşı müharibəyə başlaya bilməzdi. Əgər belə müharibə başlayardısa, onu dünyanın bölüşdürülməsi üçün ən əlverişli məqam hesab edərdi. Fransa isə Rusiyanı müdafiə etməyə bilməzdi. Rusiyanın məğlubiyyəti onun revanş şansını yox edər, onun Almaniya qarşısında tək qalması demək olardı. İngiltərə özünün qədim rəqibi Almaniyaya qarşı Fransanı müdafiə etməyə bilməzdi. Beləliklə, Balkan Avropada barıt anbarına çevrilmişdi. Alışqanı yandıran kimi Ümumavropa partlayışı baş verə bilərdi.

1914-cü ilin yayında qruplaşmalar öz mövqelərini möhkəmləndirməyi sür'ətlə davam etdirirdilər. Həmin ilin iyulunda Rusiya çarı II Nikolay Konstansda Rumıniya kralı ilə görüşəndə Sazonov Rumıniyanı Antanta tərəfə çəkməyə ciddi cəhd göstərdi. Avstriya Macarıstan da Bolqarıstanı öz tərəfinə çəkmək üzərində iş aparırdı. Birinci növbədə onun Türkiyəyə yaxınlaşmasına sə'y edilirdi.

Transilvaniyada Rumıniya ilə Macarıstan arasında ciddi mübarizə gedirdi. Bu isə heç vaxt Rumıniyanın Avstriya-Macarıstan tərəfinə keçməsinə imkan verməzdi. Almaniya isə hesab edirdi ki, nəyin hesabına olursa-olsun Rumıniyanı öz tərəfinə çəkməlidir. Hətta Transilvaniyanı da güzəştə getməyə razı salmağı da irəli sürürdü. Konopiştdə görüşərkən II Vilhelm Frans-Ferdinandla aşağıdakı diplomatik proqram üzərində

razılığa gəldilər: Rumıniya ilə ittifaqın möhkəmləndirilməsi; bolqar-türk yaxınlaşmasının genişləndirilməsi; Rumıniyanın Bolqarıstanla barışdırılması.

Gərgin beynəlxalq mübarizədə başlıca rəqiblər Almaniya və İngiltərə idi. Lakin 1913-1914-cü illər diplomatik fəaliyyətində İngiltərə bu rəqibliyin kəskinliyini ört-basdır etməyə cəhd edirdi. Qrey kabinetdəki panalman müxalifətdən qorxduğu üçün İngiltərə-alman münasibətlərinin yumşalmasına çalışırdı. İngiltərə-Almaniya yaxınlaşmasının ilk cücərtiləri Parisi və Peterburqu çox narahat edirdi. İngiltərə həm də Almaniya ilə danışıqlar aparmaqla Antantada öz çəkisini artırmaq məqsədini güdürdü. Lakin bu heç də o demək deyildi ki, ingilislər onları özlərindən uzaqlaşdırmaq istəyirdilər. Buna görə də fransızları sakitləşdirmək üçün 1914-cü ilin yazında İngilis kralı V Georgi Qreylə birlikdə Parisə gəldi.

Parisdə Puankare Qreyi inandırmağa çalışmışdı ki, Rusiya ilə daha sıx əlaqələr yaratmaq lazımdı. Bunun naminə Rusiya ilə hərbi-dəniz konvensiyasının imzalanmasının zəruriliyini də qeyd etmişdi. Qrey bu məsələni müzakirə etməyə hazır olduğunu bildirmişdi. Londonda rus səfirliyində olan agentləri vasitəsilə bundan xəbər tutan Almaniya mətbuatında ifşaedici materiallar getməyə başladı. İngilislər danışıqları kəsdilər. İyulun 11-də Qrey parlamentdə Rusiya ilə konvensiya haqqında bu və ya digər danışıqlar olduğunu qətiyyətlə dandı. 1914-cü ildə quruda hərbi hazırlıq vəziyyətində üstünlük Almaniyanın tərəfində idi.

Almaniyanın mövqeyini 1914-cü ilin iyulunda Xarici İşlər idarəsinin stats-katibi Yaqov aydın şərh etmişdi. O, Londondakı səfirə yazmışdı ki, Rusiya indi əsasən müharibəyə hazır deyil. Fransa və İngiltərə də müharibə istəmirlər. Mütəxəssislərin təsdiq etdikləri kimi bir neçə ildən sonra Rusiya döyüş qabiliyyətli olacaq. Onun



Baltik donanması yaradılacaq və strateji dəmir yolları artıq tikiləcək. Əsgərlərinin sayına görə o bizi ötəcək. Bizim qrup isə getdikcə zəifləyir. Yaqov davam edərək yazırdı: «Rusiyada bunu yaxşı bilirlər və bir neçə illik sakitlik istəyirlər. Mən Əmimoğlu Benkendorfun fikrinə həvəslə inanıram ki, Rusiya indi bizimlə müharibə istəmir.»

Avstriya taxtının vəliəhdinin öldürülməsi ərəfəsində beynəlxalq vəziyyət belə idi.

## Sarayeva qətli

Serbiyada bütün cənubi slavyanları birləşdirmək «Böyük Serbiya» yaratmaq tərəfdarları olan bir sıra millətçi təşkilatlar var idi. Zabitlər arasında da «Qara əl» adlanan belə millətçi təşkilat fəaliyyət göstərirdi. Onun məqsədi Avstriya-Macarıstanın hakimiyyəti altında olan serbləri azad etmək idi. «Qara əl»in rəhbəri «Apis» ləqəbli polkovnik Draqutin Dmitriyeviç idi. O serb əks-kəşfiyatının rəisi idi. Paniç hökuməti ondan ehtiyat edirdi.

Avstriyanın qoja imperatoru son günlərini yaşayırdı. Avstriya-Majarıstanın siyasi həyatında, vəliəhd hərbi partiyanın başçısı Ershersoq - Frans-Ferdinand daha fəal rol oynamağa başlayırdı. O Serbiyaya qarşı müharibə hazırlayırdı. Serb hökumətinin hazırlanan sui-qəsdən xəbəri var idi. Lakin ona mane olmaq istəmirdi. Çünki Rusiya hələ ordusunun yenidən qurulmasını başa çatırmamışdı, Serbiya isə Balkan müharibələrində almış yaraları hələ sağalda bilməmişdi.

Bununla yanaşı, serblər də əks tədbirlər görürdülər. Onların həyata keçirdikləri terror aktları nətijəsində bir neçə Avstriya zabitləri öldürülmüşdü.

1914-jü il iyunun 28-də serb şəhəri Sarayevada Frans-Ferdinand qətlə yetirildi. O Avstriya Majarıstan

qoşunlarının hərbi manevrlərində iştirak etmək üçün bura gəlmişdi.

Almaniya, serb terrorçularının törətdikləri vəziyyətdən öz xeyiri üçün istifadə etmək fikrində idi. Rusiyanın da vəziyyəti aydın idi. Müharibəyə qoşulmamaq, Serbiyanın məğlub edilməsinə mane olmamaq, İstanbulun qapısını tamamilə Almaniyanın üzünə açmaq, boğazlara sahiblənmək ümidini itirmək və Avstriyanı parçalamaq planlarından imtina etmək demək olardı. Beləliklə, Rusiya da mütləq müharibəyə qoşulmalı, ya da Şərqi Avropada üstünlük uğrunda Mərkəzi Avropa dövlətləri ilə mübarizədən imtina etməli idi. Fransa isə balkanlarda baş verən ixtilaflarla bilavasitə bağlı deyildi, Rusiya ilə sıx bağlı idi. Rusiyanın təkbaşına döyüşə qoşulması isə onun Avropada təklənməsi demək idi. Fransa hökuməti isə heç vəjhlə buna razı ola bilməzdi.

Sarayev qətli ilk vaxtlarda İngiltərədə elə bir jiddi əks-səda doğurmadı. Bu balkanlarda vəhşiliyin bir təzahürü kimi qiymətləndirildi.

İyunun 11-də Qrey İjmalar palatasında təntənəli surətdə e'lan etdi ki, Avropa dövlətləri arasında müharibə baş verərsə, hökumət və parlament Böyük Britaniyanın müharibəyə qatılıb və ya qatılmaması məsələsini sərbəst həll edə bilər, çünki onların iradəsi heç bir gizli sazişlərlə bağlı deyil. Bu gün də belədir və gələcəkdə də belə olacaq. İndi heç bir məxfi danışıqlar aparılmır, yəqin ki, gələcəkdə də belə danışıqlar aparılmayacaqdır.

Lakin vaxt keçdikcə, artıq İngiltərədə yeni müharibə qoxusu hiss edilməyə başladı.

Fransa və Rusiya bilirdilər ki, Böyük Britaniya onların tərəfində müharibəyə qoşulacaq. Almaniyaya isə işarə vermişdilər ki, o bitərəf qala bilər.



Ershersoqun öldürülməsindən sonra Vyanada çaşqınlıq hökm sürürdü. Ali Qərargahın rəisi Konrad fon Hetsendorf Serbiyaya qarşı müharibəyə başlamağı tələb edirdi. Onu hərbi nazir müdafiə edirdi. Təkcə Macarıstanın Baş naziri qraf Tissa müharibənin əlehinə idi. Qoca İmperator tərəddüd edirdi. Almaniyanın fikrini öyrənmək məsləhət bilindi. Frans İosif II Vilhelmə şəxsi məktub və Avstriya-Macarıstanın balkan siyasəti haqqında memorandumunu göndərdi. O, öz məktubunda yazırdı ki, Sarayev işində Serb hökumətinin iştirak etdiyini sübut etmək çətindir. Lakin Serbiyanın cənubi slavyanları birləşdirmək siyasəti yeritdiyinə şübhə etmək olmaz. Bu isə Habsburqlar evinə qarşıdır. Qoca İmperator belə nəticəyə gəlirdi ki, siyasi faktor kimi Serbiya balkanlardan yox edilməlidi.

Almaniya hökuməti vəziyyətin münasib olduğunu bildirdi. Rusiya müharibəyə hazır deyildi, indi o Serbiyanın müdafiəsinə qalxmayacaq. Vyananın Berlindəki səfiri bunları öz hökumətinə çatdırdı.

1914-cü il iyulun 5-də II Vilhelm Potsdam sarayında Avstriya səfiri Seqeni qəbul etdi və ona aydın cavab verdi: Serbiyaya qarşı çıxmağı yubatmaq olmaz.

Avstriyanın Serbiyaya divan tutmaq planını bəyənən II Vilhelm hərbi və dəniz komandanlığını öz yanına Potsdama çağırdı. O, müharibə olacağını güman etdiyini onlara bildirdi. Ona cavab verdilər ki, hər şey hazırdı. Səfərbərlik planı 1914-cü il martın 31-də qurtarmışdı. Həmişə olduğu kimi ordu hazır idi.

Berlindən cavabı alan kimi 1914-cü il iyulun 7-də Vyanada Nazirlər Sovetinin iclası toplandı. Orada qərara alındı ki, Serbiyaya belə şərtlərlə ultimatum verilsin ki, Serbiya onları rədd etsin və bundan sonra onlar o şərtləri hərbi yolla həll etməyə başlasınlar.

Lakin Vyanada işə dərhal başlamadılar. Hələ Tissa müharibəyə e'tiraz edirdi. Onu böyük çətinliklə razı saldılar.

Avstriya- Macarıstan Serbiyaya qarşı təbliğatı şişirtdiyi məqamda Antanta dövlətləri diplomatiyası da dinc dayanmamışdı. İngiltərə diplomatiyası yenə mürəkkəb oyun oynayırdı. 1905-ci ilin sonundan 1916-cı ilədək İngiltərə Xarici İşlər Naziri ser Eduard Qrey olmuşdu.

Britaniya Xarici İşlər Nazirliyi mövcud vəziyyəti aydın təsəvvür edirdi. Sarayev qətlindən az sonra Qrey bilirdi ki, Vyana hökuməti bu terror aktından Serbiyaya qarşı istifadə edəcək. Almaniya da onu müdafiə edəcək. Bir müddət sonra Qreyə mə'lum oldu ki, Rusiya da Avstriya-alman bloku qarşısında daha geri çəkilmək məqsədində deyil. Sülhü qoruyub saxlamaq üçün Qrey necə hərəkət etməlidi? Onun bu sualına özünün təcrübəsi cavab verirdi. 1911-ci ildə ümumavropa müharibəsi təhlükəsi yarananda, İngiltərə hökumətinin xəzinədar kansleri Lloyd corc Almaniyaya xəbərdarlıq etdi ki, İngiltərə Fransanın tərəfindən çıxış edəcək. Almaniya geri çəkildi.

Əgər Qrey sülhü xilas etmək istəyirsə, indi də 1914-cü ilin yayında məhz belə hərəkət etməli idi. Bunun üçün Berlində İngiltərənin bitərəf qalacağı barədə yaranmış xülyanı dağıtmaq lazım idi.

Eduard Qrey necə hərəkət etdi? 1914-cü il iyunun 29-da parlamentdə imperator Frans-İosifin dərdinə şərik olduğunu bildirdi. Lakin bundan sonra o heç nə etmədi, mə'lumatlar toplamaqla məşğul oldu.

1914-cü il iyulun 6-da Vilhelmin Potstamda Seqenlə görüşündən sonra Qrey Almaniyanın səfiri knyaz Lixnovski ilə görüşdü. Səfir ingilis eskadrasının Kil kanalına səfərindən Vilhelmin dərin razılığını Qreyə bildirdi. Bundan sonra Lixnovski İngiltərənin mövqeyini



bilməyə cəhd etdi. Qrey Avstriya-Macarıstanın Serbiyaya qarşı çıxmağa hazırlaşdığını dedi. Lixnovski onu inandırmağa çalışdı ki, Avstriyanın heç bir ərazi iddiası yoxdur. Sonra o, Almaniyanın mövqeyini ətraflı şərh edərək göstərdi ki, əgər Almaniya Avstriya-Macarıstana kömək göstərməsə, Avstriya bundan inciyər. Əgər o kömək göstərərsə, Rusiya ilə münasibətlər mürəkkəbləşəcək. Səfiri əsasən narahat edən o idi ki, əgər İngiltərə və Rusiya arasında hardasa dəniz konvensiyası haqqında danışıqlar gedirsə bu Rusiyanı Avstriyaya müqavimət göstərməyə şirnikdirər. Qrey Rusiyanın sülhsevər olduğuna Lixnovskini inandırdı. Əgər mürəkkəblik baş verərsə, Qrey təhlükəni aradan qaldırmaq üçün mümkün olacaq hər şey edəcək. Qrey həm də bildirdi ki, İngiltərə hökuməti Fransaya divan tutulmasına yol verə bilməz. Qrey bundan artıq heç nə demədi.

İki gün sonra iyulun 8-də Qrey Rusiyanın səfiri Benkendorfla söhbət etdi. O vəziyyətin çox mürəkkəb və ciddi olduğunu Qreyə bildirdi. Qrey e'tiraz etdi.

İyulun 9-da Qrey yenidən Lixnovski ilə görüşdü. Bu onun səfirlə qətldən sonra ikinci görüşü idi. İngilis naziri yenə də Rusiyanın sülhsevərliyi haqda dedi və inandırdı ki, Rusiya və Fransa ilə heç bir müttəfiqlik öhdəliyində olmayan İngiltərə öz fəaliyyətində tam sərbəstdi. Alman səfiri bilməyə cəhd etdi ki, Avstriya-Serbiya ixtilafında o Rusiyanı sakit etməyə təşəbbüs göstərəcəkmi? Qrey ona dedi ki, əgər Avstriya Serbiyaya qarşı siyasətdə müəyyən səddi gözləyərsə, onda Peterburqu dözməyə sövq etmək olar. Avstriya müəyyən həddi keçməməlidi. Əgər keçərsə, slavyanlara münasibət Rusiyanı işə qoşulmağa məcbur edər.

Avstriyanın Serbiyaya ultimatum verməsindən bir az əvvəl Vyana hökumətinə kollektiv tə'sir göstərmək üçün İngiltərə, Fransa və Rusiyanın birlikdə hərəkət

etmələri barədə Sazonovun təklifini Qrey rədd etmişdi. İyulun 23-də, ultimatumun verildiyi gün Qrey ilk dəfə Avstriyanın səfiri ilə görüşdü. Səfir Mensdorf ultimatumun əsas maddələri barədə Qreyə mə'lumat verdi. Qrey ultimatuma cavab vermək üçün qoyulan müddətin çox qısa olduğunu dedi, bununla kifayətləndi. Məsələni mahiyyətcə müzakirə etməkdən imtina etdi. O yalnız sənədi gördükdən sonra bu haqda müzakirənin mümkün olduğunu dedi.

Yetişməkdə olan müharibənin başlanmasına mane olmaq üçün əlverişli vəziyyətdə olan Böyük Britaniya tərəddüd edirdi. Onun Balkan böhranı ilə bağlı heç bir marağı yox idi. O, həm də Almaniyanın qələbə çalacağından ehtiyat edirdi. Əgər Qrey aydın və birmənalı Böyük Britaniyanın müharibəyə qoşulacağını e'lan etsəydi və bunu Almaniyanın nəzərinə çatdırsaydı, bəlkə də kayzer qarşı durmadan yan keçərdi və məharibə də başlamazdı.

Böyük Britaniya böhranın ilk mərhələsində bitərəf mövqe tutmaqla gələcəkdə müəyyən qərar qəbul edilməsində orbitr rolunda çıxış etməyə üstünlük verirdi.

## Puankarenin Peterburqa gəlməsi

Ershersoqun ölümündən sonra birinci günlərdə Peterburqda tam sakitlik idi. Rusiya diplomatiyası öz adi gedişi ilə işləyirdi. Birinci həyəcan siqnalı Londondan, Benkendorfdan daxil oldu. Sonra İtaliyanın səfiri müttəfiqi olan Avstriyanın təhlükəli mövqeyi haqqında Peterburqa mə'lumat verdi. İyulun 20-də Puankare Peterburqa gəldi. O bildirdi ki, Almaniya ilə müharibədə Fransa öz müttəfiqlik borcunu yerinə yetirəcək. Çar hökuməti indiki müharibə təhlükəsi qarşısında geri çəkilməməyi qərara aldı.



Fransa Respublikasının prezidenti Puankarenin Peterburqu tərk etməsinə qədər Avstriya hökuməti ultimatumu ləngitdi. Vyana siyasətçiləri güman edirdilər ki, Puankarenin şəxsi tə'siri olmadan Rusiya asanlıqla Avstriya ultimatumu ilə razılaşa bilər. Puankare Peterburqdan gedən kimi 28 saat müddətində cavab vermək şərti ilə Avstriya Serbiyaya ultumatum verdi.

Ultimatumda deyilirdi ki, 28 iyun qəsdinin səbəbkarlarının dediklərindən və təsdiq etdiklərindən aydın olur ki, Sarayev qətli Belqradda hazırlanmışdı, qatillərin təchiz edildikləri silah və partlayıcı maddələr serb zabitləri və məmurları tərəfindən gətirilmiş, serb sərhəd xidmətinin rəhbər rəisləri tərəfindən həyata keçirilib. Buna görə Avstriya-Macarıstan Serb hökuməti tərəfindən Avstriyaya qarşı aparılan təbliğat və təşviqatın açıq surətdə pislənilməsini və bunun kralın əmri ilə sənədləşdirilməsini tələb edir. Sonra ultumatumda 10 konkret tələb irəli sürülürdü. Serb mətbuatında Avstriya-Macarıstan əlehinə düşmənçilik təbliğatının yol verilməzliyi, Avstriya əlehinə olan təşkilatların qadağan edilməsi, Avstriya əlehinə fəaliyyətdə və təbliğatda iştirak edən zabitlərin ordudan tərxis edilməsi, onların siyahısının Avstriya-Macarıstana verilməsi, məktəb təhsili prosesindən Avstriya əlehinə təbliğatın bütün ünsürlərinin çıxarılması, Serbiyada Avstriya əlehinə hərəkatın yatırılmasında Avstriya-Macarıstanın iştirakı: Sarayev qətlində iştirak edən şəxslərin ciddi cəzalandırılması.

Serb hökuməti müdafiə üçün Rusiya hökumətinə müraciət etdi.

İyulun 24-də Çarskoe Selodan Sazonov dərhal Peterburqa gəldi. Ultimatum haqqında Belqraddan gələn mə'lumatı oxuyan kimi Sazonov dedi, bu müharibədi. Həmin gün Nazirlər Sovetinin iclası oldu. Sovet qərara aldı ki, əgər Serbiya müdafiə olunmağa qabil

deyilsə, onda o, müqavimət göstərməsin, lakin bildirsin ki, güc qarşısında geri çəkilir və öz taleyini böyük dövlətlərə həvalə edir. Sonra «işin gedişindən asılı olaraq» dörd hərbi okruqda səfərbərlik keçirmək haqda qərar qəbul olundu. İclasdan sonra Sazonov serb səfirinə məsləhət gördü ki, ordunu geri çəksin, ultimatuma yumşaq cavab versin. Alman səfiri ilə Sazonov çox sərt danışdı. Əgər o, bundan istifadə edib Avstriyaya tə'sir etməyə ümid bəsləyirsə, o çox səhv edir.

İyulun 25-də müəyyən edilmiş vaxtda Serbiyanın baş naziri Başiç Avstriyanın səfiri baron Qilzə Serb hökumətinin cavabını gətirdi. Doğrudur, Serbiya Vyananın tələblərini rədd etmirdi. Lakin qeyd şərtlərlə Avstriya ultimatumunun 9 maddəsini qəbul edirdi. O yalnız Avstriya nümayəndəsini sui-qəsdin istintaq edilməsinə buraxmaq istəmirdi. Çünki bu ölkənin qanunvericiliyinə zidd idi. Baron Qilz cavabı ötəri gözdən keçirdi. İnandı ki, bəzi şərtlər qəbul edilmir, dərhal pasportunu tələb etdi. Elə həmin gün axşam Avstriya-Macarıstan səfirliyi Belqradı tərk etdi.

Baron Qilz hələ əvvəldən cavab gözləmədən özünün arxivini və digər əşyalarını yığışdırmağı əmr etmişdi.

İyulun 25-də Sazonov Avstriya qarşısında onun siyasətini aydın və möhkəm surətdə pisləməyi Qreydən xahiş etmişdi. Belə xahiş Parisdən də Londona daxil olmuşdu.

İyulun 24-də Avstriya səfiri Mensdorf ultimatumun surətini Qreyə gətirdi. Qrey ümidsizliyini ifadə etdi. O, bildirdi ki, «Bu diplomatiya tarixində ən dəhşətli sənədlərdən biridi». Həmin günü Qrey Lixnovskini qəbul etdi. O, bildirdi ki, indi Avstriya və Serbiya arasında açıq toqquşma gedir. Bunun ona dəxli yoxdur. Əgər Rusiyanın ictimai fikri Rusiyanı müharibəyə qoşulmağa məcbur edərsə, onda məsələ başqa cür durar. Əgər



Avstriya Serbiya ərazisinə daxil olarsa, Avropa müharibəsi təhlükəsi lap yaxınlaşmış olar. Sonra Qrey müharibənin dağıdıcı nəticələrindən söz açdı.

Nəhayət, iyulun 26-da V Georgi kayzerin qardaşı Prins henrix ilə danışdı. Prins cavab verdi ki, kral onu inandırıb ki, müharibənin baş verməməsi üçün o mümkün olan hər şeyi edəcək.

Qrey, Lixnovski vasitəsi ilə təklif etdi ki, Almaniya Vyanaya mülayim olmaq ruhunda tə'sir etsin.

Bu günlərdə Berlinə mə'lum oldu ki, İtaliya öz müttəfiqləri tərəfində müharibədə iştirak etmək meylində deyil. İtaliya hökuməti narazı halda bildirmişdi ki, Avstriya Serbiyaya qarşı çıxmaq barədə o, əvvəlcədən İtaliya ilə məsləhətləşməyib.

Bütün bunlar Almaniyaya soyuq su kimi tə'sir etdi. Vəziyyət birdən dəyişdi.

Berlin çaxnaşmaya düşmüşdü. İyulun 29-dan 30-na keçən gecə saat 3-də Qreyin Fransanın müharibəyə cəlb edildiyi şəraitdə İngiltərə kənarda qala bilməyəcəyi haqda xəbərdarlığı (o, bu sözləri Almaniyanın səfiri Lixnovskiyə demişdi) Vyanaya çatdırıldı. İyulun 30-da bütün günü Berlin Vyanaya ardı-arası kəsilməyən teleqramlar göndərdi. Lakin Vyana Almaniyanın təklifini rədd etdi.

### Almaniyanın Rusiyaya ultimatumu

Almaniya Avstriyaya öz təzyiqini davam etdirsəydi, nəticədə Avstriya özünü necə apara bilərdi? Lakin Ali qərargahın tə'siri nəticəsində kayzer əvvəlki vəziyyətinə qaytarıldı. İyulun 30-da gecə yarısı bu təzyiq dayandırıldı. Almaniyanın strateji məqsədi aydın idi. Rusiya ordusunun səfərbər edilməsi, hazır vəziyyətə gətirilməsi ən azı 40 gün çəkəcəkdi. Bundan istifadə edib Almaniya ildırım sür'əti ilə Fransanı diz çökdürərdi.

Fransa ilə qurtardıqdan sonra o, bütün gücünü Rusiyaya qarşı çevirər.

Serbiyanı müdafiə etməyi qərara alan Rusiya gücünə inanmırdı. Bu heç də təəccüblü deyildi. Rusiya ordusunun yenidən qurulmasının başa çatdırılmasının qurtarması hələ çox çəkəcəkdi. İngiltərənin mövqeyi isə aydın deyildi. Sazonov əsəbləşirdi. O, tə'kid edirdi ki, dövlətlər kollektiv surətdə Avstriyaya təcir etsinlər ki, o, cavabın müddətini uzatsın, vasitəçiliyi isə İngiltərə və İtaliya öz üzərlərinə götürsünlər. Nəhayət, iyulun 28-də çar Vilhelmdən xahiş etdi ki, o, Avstriyanı sakitləşdirsin. Lakin hamısı əbəs idi. Müharibə yaxınlaşırdı, çünki bunu almanlar da istəyirdilər. Məhz buna görə də Rusiya səfərbərliyi sür'ətləndirməyi qərara aldı.

Alman diplomatiyası isə müxtəlif vasitələrlə Rusiyanın hərbi hazırlığının müddətini ləngitməyə çalışırdı. II Vilhelm həmin gün iyulun 28-də gecə II Nikolaya teleqram göndərdi və Vyanaya tə'sir edəcəyini vəd etdi. İyulun 29-da səfir Purtales Sazonovun yanına gedərək Betman Qolveqin teleqramını ona oxudu. Betman hərbi hazırlığı dayandırmağı tələb edirdi, əks təqdirdə Almaniya səfərbərlik e'lan edəcək və bu müharibəyə gətirəcək. Sazonov dedi: İndi mənə Avstriyanın barışmaz mövqe tutmasının səbəbləri aydındı. Purtales qışqıra-qışqıra dedi: «Mən bütün gücümlə bu təhqiredici iddiaya e'tiraz edirəm» həmsöhbətlər çox soyuq surətdə bir-birini tərk etdilər.

Həmin gün, iyulun 29-da Ali qərargahın№ rəisi Yanuşkeviçin tə'kidi ilə II Nikolay səfərbərlik haqqında fərmana qol çəkdi. Lakin onun icrasına başlanılan məqamda çarın onu dayandırmaq haqqında göstərişi daxil oldu. Demə, çar Vilhelmdən teleqram alıb. Həmin teleqramda kayzer yenə inandırırdı ki, o, Rusiya və Avstriya arasında sazişin bağlanmasına nail olunmasına çalışacaq. Teleqramla tanış olan çar ümumi səfərbərlik



haqda fərmanı ləğv etdi. O, yalnız Avstriyaya qarşı qismən səfərbərlik etməklə, öz qərarını məhdudlaşdırdı.

Sazonov və Ali qərargah Nikolayın Vilhelmin tə'siri altına düşməsindən çox narahat idilər. Onlar qorxurdular ki, Almaniya hərbi hazırlıqda Rusiyanı qabaqlaya bilər. İyulun 30-da onlar görüşməyi və çarı öz fikrindən döndərməyi qərara aldılar. Telofonda çar, generalları heç eşitmək istəmədi. Sonra Sazonovun xahişi ilə onları qəbul etdi. Bir saata yaxın Sazonov çarı inandırmağa çalışdı ki, müharibə zəruridi, çünki Almaniya bunu istəyir. Nəhayət, Nikolay razılaşdı. İyulun 30-da axşam saat 5-də teleqraflar işə başladı. İyulun 31-də çarın ümumi səfərbərlik haqda fərmanı hər yerə çatdırıldı.

İyulun 31-də gecə yarısı Almaniyanın səfiri Sazonovun yanına gələrək dedi ki, əgər səfərbərlik dayandırılmasa, Almaniya da səfərbərlik e'lan edəcək. Sazonov soruşdu: bu müharibəmi deməkdi? Səfir ona rədd cavabı verdi. Avqustun 1-də alman səfiri yenə Sazonovun yanına gəldi, yenə rədd cavabı aldı. Bundan sonra o nəfəsi kəsilə-kəsilə dedi – bu notanı sizə verməliyəm.cibindən bir kağız çıxarıb Sazonova verdi. O müharibə e'lan edilməsi haqqında nota idi.

Rus-alman müharibəsi başladı. Alman ali qərargahının məqsədi Rusiyada səfərbərliyi dayandırmaq idi.

Yalnız iyulun 27-də Britaniya kabineti ilk dəfə beynəlxalq vəziyyəti müzakirəyə çıxardı. Qrey öz mə'ruzəsinə İngiltərənin Peterburqdakı səfiri Byukenenin teleqramının şərhi ilə başladı. Səfir göstərirdi ki, müharibə olarsa, Sazonov İngiltərənin hərbi köməyinə ümid bəslədiyini bildirir. Qrey göstərdi ki, kabinet qərar çıxarmalıdı. İngiltərə Antantanın iki dövləti Rusiya və Fransa ilə böyük müharibədə iştirak edəcək, yaxud bitərəf qalacaq? İngiltərə daha qərarını ləngidə bilməzdi. Qrey xəbərdarlıq etdi ki, əgər kabinet

bitərəfliyə səs verərsə, o istefaya gedəcək. Sükut başladı.

Bu sükutu birinci lord Morley pozdu. O İngiltərənin müharibəyə qoşulmasının əlehinə çıxdı. Kabinetin əksəriyyəti 11 nəfəri bu təklifi müdafiə etdi. Qreyi yalnız üç nəfər: Baş nazir Askvit, Çerçil və Xolden müdafiə etdi. Lloyd corc və bir neçə nazir gözləmə mövqeyi tutdular.

Qreyin vəziyyəti o qədər də yüngül deyildi. Rusiya və Fransa qəti cavab istəyirdilər. İngiltərə yaxınlaşmaqda olan müharibədə onlara kömək edəcəkmi? Foreyn ofisinin məmurları Ali qərargah nazirini tələsdirirdilər. Morleyin qruppası isə əksinə, Almaniya ilə sülh tələb edirdilər. Kabinetdə diskussiya o birisi gün də başladı və hər gün davam etdi. Kabinetdəki qüvvələr nisbəti Qreyi ehtiyatlı hərəkət etməyə vadar edirdi.

Öz tələblərində hədlərini aşan alman diplomatiyası da Qreyə kömək edirdi. Betman ona xas olan yöndəmsizliklə ingilis səfiri Qoşenlə söhbətində hələ iyulun 29-da Fransaya qarşı müharibə məsələsinə toxunmuş və Belçika vasitəsilə ora daxil olacaqlarını bildirmişdi. Əgər İngiltərə bitərəf qalarsa, o Fransa və Belçika ərazilərinin toxunulmazlığına söz verirdi. Elə buradaca kansler demişdi ki, bu toxunulmazlıq Fransanın müstəmləkələrinə aid deyil.

Qoşenin Betmanla söhbəti barədə teleqram iyulun 30-da səhər Londona gəldi. Qrey buna mənfi cavab hazırladı. İyulun 31-də Qrey Berlindən və Parisdən soruşdu; onlar Belçikanın bitərəfliyinə hörmət edəcəklərmi? Kambon qətiyyətlə hə cavabını verdi, Lixnovski suala sualla cavab verdi. Əgər Almaniya Belçikanın bitərəfliyini pozmasa, İngiltərə bitərəfliyə əməl edəcəkmi? Qrey belə öhdəlik götürməkdən imtina etdi və əlavə etdi ki, Belçikanın bitərəfliyinə Almaniyanın İngiltərəyə tə'minat verməsi Almaniyanın özünə də



vacibdi. Bu İngiltərədə ictimai fikrin Almaniyanın xeyrinə dəyişməsinə kömək edərdi.

Rusiya və Fransa isə İngiltərədən aydın cavab tələb edirdilər. Britaniya kabineti isə qərar qəbul etməyi ləngidirdi.

Morleyin qruppası kabineti parçalamaqla hədələyirdi. Onlar 1914-cü il avqustun 1-də alman tərəfdarlarına təslim oldular. Həmin gün Qrey Lixnovskiyə təklif etdi ki, aşağıdakı layihəni müzakirə etsin. O İngiltərə və Fransanın bitərəfliyinə tə'minat verir, o şərtlə ki, sonuncuya hücum etməsin. Beləliklə, Qrey Rusiyaya qarşı satqın çıxdı. Onun məqsədi o idi ki, Almaniyanı Rusiya üzərinə qaldırsın, özü kənarda qalsın. Kayzer Qreyin layihəsini hədsiz sevinclə qarşıladı. Lakin onu həyata keçirmək mümkün olmadı.

Birinci növbədə fransızlar mane oldular. Kambon çəkinmədən Qreyə bildirdi ki, əgər İngiltərə öz dostlarını satsa, müharibədən sonra kimin — Almaniyanın, yoxsa Rusiya və Fransanın qalib gəlməsindən asılı olmayaraq, onun özünə yaxşı olmayacaq. Qrey başa düşdü ki, bu uzaq görən fikirdi.

Fransanın hakim dairələri, o cümlədən Puankare çoxdan Almaniya ilə müharibə istəyirdilər. Lakin bunun günahını almanların üzərinə yıxmaq fikrində idilər. Buna nail olmaq isə çox çətin idi. Fransanı məğlub etmək üçün Almaniya Qərb cəbhəsində müharibəni başlamağı tezləşdirməyə çalışardı. 1914-cü il iyulun 30-da fransızlar öz qoşunlarını sərhəddən 10 km geriyə çəkdilər. Məqsəd hər cür sərhəd qalmaqalına yol verməmək idi. Almaniya artıq iyulun 31-də səfərbərliyi dayandırmaq haqqında Rusiyaya tələb verməklə eyni vaxtda Fransanın Xarici İşlər Nazirliyinə də nota vermişdi. Bu notada Almaniyanın Rusiyaya verdiyi tələb Fransa hökumətinin nəzərinə çatdırılırdı. Həm də Fransaya sual

verilirdi o bitərəfliyi saxlayacaqmı? cavab üçün 18 saat vaxt verilmişdi.

Fransa cavab verdi ki, o öz hərəkətləri barədə əvvəlcədən heç nə deyə bilməz, o sərbəst hərəkət etmək hüququnu özündə saxlayır. Avqustun 1-də Puankare səfərbərlik haqda göstəriş verdi. Almanlar buna mane ola bilmədilər. Həmin gün Almaniya da səfərbərlik e'lan etdi.

Ali qərargahın rəisi qərb cəbhəsində dərhal hərbi əməliyyata başlamağı tələb edirdi. Avqustun 1-də Betman Fransaya müharibə haqda notanın mətnini hazırladı. Bunu e'lan etmək üçün sərhəddə qarışıqlıq olması haqda xəbəri gözləyirdi. Lakin bu baş vermədi. Nota Fransaya 1914-cü il avqustun 3-də axşamçağı verildi.

Betman indi Belçika sərhədinə keçməyə əsas verən bəhanə hazırlamalı idi. Hələ iyulun 29-da ultimatumun mətni Belçika hökumətinin Xarici İşlər Nazirliyinə göndərilmişdi. Mətndə deyilirdi, guya Almaniyada belə bir mə'lumat var ki, Fransa öz qoşunlarını Namyura hücum etmək üçün Maaseyə cəmləşdirir. Belçika isə öz qüvvəsi ilə buna mane olmağa qabil deyil. Buna görə də Almaniya qoşunu Belçikaya girməyə məcburdur. Lakin bu heç də Belçikaya qarşı düşmənçilik aktı deyil. O Belçikadan tələb edir ki, o öz qoşunlarını Antverpenə çəksin və alman qoşunlarının irəliləməsinə mane olmasın. cavab üçün Belçikaya bir sutka vaxt verilirdi. Ultimatum avqustun 2-də Belçika hökumətinə təqdim edildi.

Belçika iyulun 31-də səfərbərlik e'lan etmişdi. Brüssel hökuməti həmin ultimatumu rədd etdi və kömək üçün İngiltərəyə müraciət etdi.

İndi Qrey qalib gəldi. Belçika sahillərinin İngiltərə üçün əhəmiyyəti hər bir ingilisə aydın idi. Avqustun 2-də mühafizəkarların liderləri Askvit hökumətini tam müdafiə



etdiklərini bildirdilər. Bu andan Morley nə Qrey, nə də Askvit üçün təhlükə təşkil etmədi.

Avqustun 2-də Qrey Kambona yazılı surətdə bildirdi ki, dəniz konvensiyanın şərtlərinə uyğun olaraq İngiltərə donanması Fransanın kanal və Atlantikanın sahillərindəki ərazilərini müdafiə edəcək. Həmin gün müharibənin əlehinə olan nazirlərdən biri con Berns istefa verdi. Kabinetin avqustun 3-dəki iclası müharibəyə girmək haqda qərar qəbul etdi. Bernsdən sonra Morley və digər iki nazir də istefaya getdilər. Lloyd corc hərbi partiyanın tərəfinə keçdi.

Qrey gündüz palamentdə çıxış etdi. Bütün dünya səbirsizliklə bu çıxış gözləyirdi. Xüsusilə, Almaniya.

Qrey göstərdi ki, təəssüflər olsun ki, Avropada sülhü saxlamaq mümkün olmadı. O bildirdi ki, onun siyasəti əvvəldən axıra sülhün saxlanmasına yönəldilmişdi. Lakin buna nail olmaq mümkün olmadı, çünki bəzi dövlətlər müharibəyə cəhd edirdilər.

Qrey çıxışının sonunu Belçikaya həsr etdi. O sübut etdi ki, Belçika xarici hücuma mə'ruz qalanda İngiltərə bitərəf qala bilməzdi. Qrey çıxışının sonunda parlamentdən xahiş etdi ki, Böyük Britaniyanın bütün quru və dəniz qüvvələrindən istifadə etmək üçün kabinetə qeyri-məhdud səlahiyyət verilsin. Belə səlahiyyət verildi.

Sabahısı gün avqustun 4-də Britaniya hökuməti Belçikanın bitərəfliyinə əməl etmək barədə Almaniya hökumətinə nota verdi. London vaxtı ilə saat 11-dək cavab verilməli idi.

Həmin gün axşam kabinet toplandı. Qrey inanırdı ki, cavab gəlməyəcək. Saatın əqrəbi 11-ə yaxınlaşırdı. Müddət qurtardı. Qrey alman səfirliyinə Lixnovskiyə aşağıdakı məzmunda məktub göndərdi. «Əlahəzrət hökumət hesab edir ki, hər iki dövlət arasında saat 11-

dən müharibə vəziyyəti mövcuddur». Məktuba səfirliyin adamlarının pasportları əlavə edilmişdi.

## Müharibə dövründə beynəlxalq münasibətlər

Müharibəyə hazırlığın son illərində müxtəlif qütblərdə birləşmiş dövlətlərin hərbi mütəxəssisləri öz ölkələrinin hərbi fəaliyyət planlarını hazırlamışdılar. Almanlar Elzas-Lotarinkiya sərhəddindən, yəni möhkəmləndirilmiş xəttdən deyil, Belçika ərazisindən hücuma keçməyi planlaşdırmışdılar. Elzas-Lotaringiya xəttində isə onlar müdafiə taktikası yeritməyi qərara almışdılar, Rusiya sərhəddində, Rusiyada hərbi səfərbərliyin çox ləng getdiyini nəzərə alaraq, müdafiə taktikasına üstünlük verməyi nəzərdə tutmuşdular. Bu cəbhədə başlıca zərbəni Avstriya-Macarıstan öz üzərinə götürməli idi.

Fransızlar almanların bu planından xəbərdar olmalarına baxmayaraq, yenə də həlledici hücumun Elzas-Lotaringiyadan olacağına ümid edirdilər. Onlar Almaniyanın, Belçikanın bitərəfliyini pozacağına cəsarət etməyəcəklərinə ümid bəsləyərək, Ardendən şimal sərhədlərini tamam müdafiəsiz qoymuşdular.

Lakin müharibənin başlanması və gedişi bu planlara köklü dəyişikliklər edilməsini zəruri etdi.

Yuxarıda göstərildiyi kimi İngiltərə Antanta bloku dövlətlərindən ən axırıncı müharibəyə qoşuldu. Lakin İngiltərənin müharibəyə daxil olması, bütün Britaniya imperiyasının müharibəyə daxil olması demək idi. Avropa müharibəsi dünya müharibəsinə çevrilirdi. İngiltərənin müharibəyə daxil olması müəyyən dərəcədə ABŞ-ın da mövqeyini həll etdi.

Müharibə edən hər iki tərəf özləri üçün yeni müttəfiqlər axtarırdı.



Yaponiya da gözləmədi. O vəziyyəti tezliklə qiymətləndirə bildi. Bütün Avropa dövlətləri müharibəyə qoşulmuşdular. Yaponiya öz işğalçı məqsədlərini həyata keçirmək imkanı qazanmışdı. Çünki indi heç kim ona rəqib çıxmayacaqdı. O ilk növbədə Almaniyanın Uzaq Şərqdəki müstəmləkələrini ələ keçirmək haqda düşünürdü.

1914-cü il avqustun 15-də Yaponiya Almaniyaya ultimatum verdi. Ultimatumda «Çinə qaytarmaq üçün» Kiao-Çaonun əvəzsiz Yaponiyaya verilməsi tələb edilirdi. cavab üçün 8 gün vaxt verilmişdi.

Alman dövləti bu ultimatuma cavab vermədi. Avqustun 23-də Yaponiya Almaniyaya müharibə e'lan etdi. O Kiao-Çaonu, Tsindao, Tzinanfu dəmir yolunu, Almaniyanın Sakit Okeandakı bir sıra adalarını tutdu. Bu, nəinki ABŞ-da, həm də onun müttəfiqi İngiltərədə də ciddi narazılığa səbəb oldu. Xüsusilə, İngiltərənin dominionları Avstraliya və Yeni Ze'landiya öz narazılıqlarını bildirdilər.

İngilis diplomatiyası üçün aydın idi ki, Yaponiya müharibədən Uzaq Şərqdə öz mövqeyini möhkəmləndirmək üçün istifadə edəcək. İngilislər səhv etmədilər. Kiao-Çaonu işğal etdikdən sonra Yaponiya faktiki olaraq müharibədə iştirak etmədi.

Rus diplomatiyası isə Yaponiyanı Antantaya qoşulması münasibəti ilə təbrik etdi.

## Türkiyə, İtaliya, Bolqarıstan və Rumıniyanın müharibəyə qoşulmaları

Müharibənin ilk günlərindən hər iki tərəf Türkiyəni öz tərəfinə çəkməyə cəhd edirdi. Gənc türklər hökuməti Almaniyaya meyl edirdi. Lakin Türkiyənin Antantadan maliyyə-iqtisadi asılılığı çox böyük idi. 1914-cü ildə Türkiyə heç bir tərəfin qələbəsindən xeyirli heç nə

gözləmirdi. İngiltərə onu parçalamaqla, Almaniya isə öz vassalına çevirməklə hədələyirdi. Gənc türklər Almaniya ilə ittifaqa girməyi qərara aldılar. Lakin bu heç də asanlıqla, mübarizəsiz baş vermədi. Gənc türklər Almanpərəst Ənvər, Tələt və Antanta tərəfdarı camal arasında qalmışdılar. Nəhayət, 1914-cü il iyulun 22-də hərbi nazir Ənvər paşa hökumətin əksəriyyətinin xəbəri olmadan Almaniya səfirinə bildirdi ki, Türkiyə Almaniya ilə ittifaqa girmək məqsədindədi.

Alman səfiri belə ittifaqın məqsədəuyğunluğuna şübhə edirdi. O bu barədə Berlinə teleqramla xəbər verdi. Kayzer isə başqa cür düşünürdü. O teleqramın kənarlarında yazmışdı: «Nəzəri cəhətdən doğrudur, indiki vaxtda isə yersizdi. İndi iş ondan ibarətdi ki, Balkanlarda Avstriya-Macarıstan tərəfindən slavyanlara atəş aça bilən hər silah bizə lazımdı. Buna görə də Avstriya-Macarıstana qoşulmaq şərti ilə Türkiyə-Bolqarıstan ittifaqına razı olmaq lazımdı. Bu nəzəri cəhətdən Türkiyəni Antantanın tərəfinə atmaqdan çox yaxşıdı.»

1914-cü il avqustun 2-də alman-türk ittifaq müqaviləsi imzalandı. Onun məzmunu aşağıdakılardan ibarət idi: Əgər Rusiya Avstriya-Macarıstan ixtilafına qarışarsa, Almaniya Avstriya tərəfində müharibəyə qoşularsa, Türkiyə də Rusiyaya müharibə e'lan etməlidi.

Müqaviləyə görə Türkiyə ordusunu bütünlüklə Almaniyanın ixtiyarına verirdi.

Avqustun 2-də Türkiyədə səfərbərlik e'lan edildi.

Bununla yanaşı, ittifaq müqaviləsi imzalanandan bir gün sonra Türkiyə özünün bitərəfliyi haqqında bəyanat e'lan etdi. Bu onunla izah edilirdi ki, Türkiyə hələ müharibəyə hazır deyil. Gənc türklərin başçılarının əsl məqsədlərinin nədən ibarət olduğunu camal paşa sonralar belə şərh etmişdi: «Biz özümüzü ona görə bitərəf e'lan etdik ki, vaxt udaq. Biz istəyirdik ki,



səfərbərliyimiz qurtarsın. Ondan sonra müharibəyə girə bilərdik».

Gənc türklər diplomatiyasının mahiyyətini aşağıdakı fakt aydın surətdə səciyyələndirir. Almaniya ilə ittifaqa qol çəkən Ənvər paşa rus səfirliyi ilə, onun hərbi nümayəndəsi general Leontyevlə Almaniyaya qarşı ittifaq bağlamaq haqqında danışıqlar aparırdı. O inandırırdı ki, Türkiyə Rusiyaya dərin dostluq hissləri bəsləyir. Türkiyə Almaniya ilə heç bir ittifaq müqaviləsi bağlamır və öz ordusunu Rusiyanın ixtiyarına verməyə, Peterburqun göstərişi ilə onu hər bir düşmən üzərinə göndərməyə hazırdı. Bunun əvəzində Ənvər paşa Egey dənizindəki adaların və Frakiyanın bir hissəsinin Türkiyəyə qaytarılmasını tələb edirdi. Sazonov Ənvər paşanın dediklərinə çox böyük şübhə ilə yanaşırdı. O gənc türklərin səmimiliyinə inanmır və Bolqarıstanı Almaniyanın ağuşuna itələməkdən ehtiyat edirdi. Sonralar mə'lum oldu ki, Rusiyaya ittifaq təklif etməklə Ənvər paşa ən primitiv yalana əl atmışdı. Əslində o artıq boğazlara keçmiş alman donanmasının gəlməsini gözləyirdi. Almanların və türklərin planına görə bu gəmilər Qara dənizdə qüvvələr nisbətini dəyişdirər və cənubi Rusiya sahillərini təhlükə altına alar. Avqustun 10-da «Qeben» və «Breslau» gəmiləri Dardanelə daxil oldular.

Türkiyə hökuməti bu gəmiləri satın aldıqlarına dair saxta sənəd düzəltdilər. Antanta e'tiraz etdi, lakin e'tirazın üzərində o qədər də möhkəm dayanmadı, çünki o, Türkiyə ilə münasibətlərin pozulmasından qorxurdu. Qafqazda Rusiyanın hərbi hazırlığı müəyyən vaxt tələb edirdi. İngiltərənin mövqeyinə isə Hindistan müsəlmanları ilə hesablaşması təcir edirdi. Hindistan müsəlmanları sultanı özlərinin xəlifəsi hesab edirdilər. Türkiyə Antantanın e'tirazına əhəmiyyət vermədi.

Türkiyənin müharibəyə qoşulmasını gecikdirmək, onun çıxış etməsinin qarşısını almaq üçün Sazonov müttəfiq dövlətlərə təklif etdi ki, onlar Türkiyənin ərazi toxunulmazlığına tə'minat versinlər. O həm də Lemnos adasının Türkiyəyə qaytarılmasının layihəsini də hazırlamışdı. O hesab edirdi ki, Türkiyə ərazi almadan Antanta ilə sazişə gəlməyəcək. Bu təklif ingilis diplomatiyasının müqavimətinə rast gəldi. Yunanıstanla əlaqələrə daha çox üstünlük verən Qrey Lemnosun Türkiyəyə verilməsini rədd etdi. Lakin ərazi toxunulmazlığı haqda Türkiyəyə tə'minat verildi. Ancaq qarşıya qoyulan məqsədə çatmaq üçün bu kifayət deyildi.

1914-cü il sentyabrın əvvəllərində Rusiya Xarici İşlər Nazirliyi Türkiyənin həqiqi mövqeyi barədə dəqiq mə'lumat aldı. Türkiyə-alman münasibətlərinin əsil xarakteri Antantaya mə'lum oldu.

Sentyabrın 9-da Türkiyə bütün dövlətlərə xəbər verdi ki, Türkiyə hökuməti oktyabrın 1-dən kapitülyasiya haqda rejimin ləğv edilməsi barədə qərar qəbul etmişdir. Bununla əlaqədar olaraq bütün dövlətlərin səfirləri Türkiyə hökumətinə e'tiraz notası verdilər.

Bu notalar veriləndən sonra Almaniya diplomatiyası Türkiyəni inandırmağa başladı ki, onun üçün ən yaxşı çıxış yolu, üzərinə götürdüyü müttəfiqlik öhdəliyini yerinə yetirməkdən və müharibəyə başlamaqdan ibarətdir. Onda Antanta hökumətləri ilə əlaqədar kapitülyasiya haqda məsələ öz-özünə əhəmiyyətini itirmiş olar. Üçlər ittifaqı dövlətləri ilə Türkiyə hər vaxt razılığa gələ bilərlər.

Antanta dövlətləri də, Türkiyə bitərəfliyə əməl edəcəyinə söz verərsə, kapitülyasiya haqda məsələni müzakirə etməyə hazır olduqlarını bildirdilər. Sentyabr ayında bu məsələ barəsində danışıqlar davam etdirildi.

Almanların Marna altında məğlubiyyətindən sonra aydın oldu ki, müharibə uzanacaq. Bu ona gətirdi ki, indi



tərəfdarlar axtarmaq cəhdləri daha da gücləndirildi. Oktyabrda Almaniya Türkiyəyə istiqraz verdi. O şərtlə ki, onun bir hissəsini alana qədər Türkiyə müharibəyə başlasın. Antanta Rusiya hökuməti vasitəsi ilə bundan xəbər tutdu.

Lakin Türkiyə hökuməti üzvlərinin çoxu hələ müharibə qorxusundan azad ola bilməmişdilər. Baş vəzir də onlardan biri idi. Marnada Almaniyanın məğlubiyyəti onların qorxusunu daha da gücləndirdi. Buna görə alman komandanlığının məsləhəti ilə Ənvər paşa ölkəni fakt qarşısında qoymağı qərara aldı. 1914-cü il oktyabrın 29 və 30-da Türkiyə donanması alman admiralı Suşonun komandanlığı altında Sevastopolu, Odessanı, Feodosiyanı, Novorossiyskini atəşə tutdu. Həmin gün oktyabrın 29-da Türkiyədəki rus səfiri pasportunu tələb etmək haqda yazılı xəbərdarlıq aldı.

Türkiyə hökuməti Ənvər paşanın və Suşonun fitnəkar hərəkətlərindən qorxuya düşdü. Baş vəzir istefa verməklə hədələdi. Onu çox çətinliklə qalmağa razı saldılar. Noyabrın 1-də baş vəzirin tapşırığı ilə səfir Sazonovun yanına gəldi. Nazir aşağıdakı sözlərlə onu qarşıladı. «Mən sizin pasportu göndərməyə hazırlaşırdım». Səfir «Mən də sizə sülh gətirmişəm» - deyə cavab verdi. O baş vəzirin teleqramını Sazonova oxudu, o baş verənlərə peşman olduğunu bildirirdi. Sazonov cavab verdi ki, sülhü bərpa etmək üçün Türkiyədən bütün alman zabitləri çıxarılmalıdı. Əgər istəsəydi də baş vəzir bu tələbi yerinə yetirə bilməzdi. Antantanın səfirləri İntanbulu tərk etdilər. 1914-cü il noyabrın 2-də Rusiya, noyabrın 5 və 6-da İngiltərə və Fransa Türkiyəyə müharibə e'lan etdilər.

Türkiyənin müharibəyə girməsi rus və ingilis qüvvələrinin bir hissəsini özünə cəlb etdi.

Türkiyənin müharibəyə qoşulması nəticəsində boğazlar ticarət gəmiləri üçün bağlandı. O Rusiyanın

onun müttəfiqləri ilə Qara dəniz vasitəsi ilə əlaqəsini kəsdi. Baltik dənizində Almaniya donanması ağalıq edirdi. İndi İngiltərə və Fransa ilə yalnız Arxangelsk vasitəsi ilə əlaqə saxlamaq mümkün idi. Rumıniyadan, Serbiya və Yunanıstan vasitəsi ilə yol o qədər də e'tibarlı deyildi. 1915-ci ilin sonlarında Avstriya-Macarıstanın Serbiyaya hücumu ilə bu yol da tamam kəsildi.

İtaliya qələbənin hansı tərəfdə olmasına ilk gündən şübhə ilə baxırdı. Buna görə də o, müharibəyə girməyə tələsmirdi. 1914-cü il avqustun 3-də İtaliyanın kralı II Vilhelmə bildirdi ki, bu müharibə Üçlər ittifaqı haqqında müqavilənin maddələrinə uyğun gəlmir. Kral daha irəli getdi. O, hədələyici işarə vurdu ki, İtaliyada adamlar var ki, Avstriyaya qarşı müharibə e'lan etməyi tələb edirlər. Həmin gün avqustun 3-də İtaliya bitərəflik haqqında bəyanat verdi. Lakin İtaliyanın Xarici İşlər Naziri Markiz di San-culiano o dəqiqə alman səfirinə bildirdi ki, əgər İtaliya lazımi səviyyədə mükafatlandırılarsa, o müttəfiqlərinə kömək etmək üsulları barədə fikirləşər. Səhərisi gün avqustun 4-də İtaliya səfiri Sazonova da belə məzmunda mə'lumat verdi və bu əsasda Rusiya ilə danışıqlara başlamağa hazır olduğunu bildirdi. O, dedi ki, biz Almaniya və Avstriyadan heç nə gözləmirik, arzu etdiyimizi onlardan ala bilmərik.

İtaliya hökuməti Almaniya ilə də danışığa girişdi, o öyrənmək istəyirdi ki, müharibə e'lan etmək əvəzində Almaniya İtaliyaya nə verəcək. Artıq Avstriya, Antanta İtaliyaya Trentino, Triyest və Valonu və'd etdi. İtaliya isə birinci növbədə Avstriya ərazilərinə, Albaniyaya və Türkiyəyə göz tikirdi. Elə ölkələrə ki, onlar Antantaya aid deyildilər. Almaniyanın vəziyyəti mürəkkəb idi. İtaliya üçün ən vacib Avstriya idi. Almaniya İtaliyanı Fransanın Şimali Afrikadakı müstəmləkələri hesabına mükafatlandıra bilərdi. Danışıqlar gedirdi, lakin İtaliya mürgüləmirdi. 1914-cü ilin oktyabrında vaxt itirmədən İtaliya Valon



körfəzinin girişində yerləşən Saseno adasını tutdu. Dekabrda o, Valonanı işğal etdi.

Antantadan hərbi-dəniz asılılığında olan İtaliya mərkəzi dövlətlərin tərəfində müharibəyə qoşulmaqdan hələ ehtiyat edirdi. Marna döyüşü İtaliyanın Antanta ilə danışıqlarının canlanmasına səbəb oldu. İtaliya öz qiymətini artırmağa çalışırdı. Avstriya isə güzəştə getmək istəmirdi. İtaliyanın baş naziri Salandra öz müttəfiqlərini hədələməyə başladı. O, bildirdi ki, ictimai fikir onu Antanta tərəfdə durmağa məcbur edir. Bununla əlaqədar olaraq, Almaniya Vyanaya öz təzyiqini gücləndirdi. Dekabrda xüsusi missiya ilə knyaz Byulov Romaya göndərildi. O, vaxtı ilə İtaliyada səfir olmuşdu və orada böyük nüfuza malik idi. Byulov öz memuarlarında yazır ki, «Mən Xarici İşlər Naziri Sidney Sonninonun yanına gedəndə onun qəbul otağında Antantanın üç səfirləri ilə üz-üzə gəldim. Rusiya və İngiltərə səfirləri mənimlə mehribancasına görüşdülər. Mənim köhnə dostum Fransa səfiri isə məni görən kimi üzünü çevirib getdi». Sonra davam edərək yazır ki, Sannino öz fikirlərini mənə aydın dedi. Antanta hərbi mükafat kimi Avstriyanın italyanlar yaşadıqları torpaqları və'd edir. Avstriya da öz tərəfindən güzəştə getməlidi. Bu güzəşt isə layiqli olmalı idi. Bu ən azı Trentino olmalı idi.

Mərkəzi dövlətlərə Vatikan kömək etdi. Vatikanla daha sıx əlaqə yaratmaq üçün Byulovdan başqa mərkəzin katolik partiyasının lideri Reyxstaqın deputatı Ertsberqer də Romaya göndərilmişdi. Byulov yazır ki, XV Benedikt sülhü saxlamaq uğrunda mənim cəhdlərimi ciddi müdafiə edirdi. O, sonuncu böyük katolik dövləti olan Habsburqlar imperiyasının saxlanmasını arzu edirdi. O aydın dərk edirdi ki, müharibədən o vaxt qaçmaq olar ki, Avstriya heç olmasa, Trentinonu qurban versin. Papa Vyana arxiyepiskopu Kardinal Piffə qoca

imperator Frans-İosiflə danışıqlar aparmağı həvalə etmişdi. 83 yaşlı imperator kardinala da danışmağa imkan verməmişdi. O, kardinalın əlindən tutub qapıdan itələmişdi.

Vyana ilə danışıqları dayandırmadan İtaliya 1915-ci il martın əvvəllərində Antanta ilə alverini davam etdirdi. İtaliya Trentinodan, Triestdən, Valonadan, Sasena adasından, adaları ilə birlikdə Dalmatin sahillərindən və digər əvvəlki tələblərindən başqa indi Mərkəzi Albaniyada, paytaxtın Duratsso olmaqla muxtar vilayət yaradılmasını tələb edirdi. O, bununla Albaniyanı özündən asılı vəziyyətə salmaq məqsədini güdürdü. Şimali Albaniya Serbiya və Çernoqoriya arasında bölünməli, cənub Yunanıstana verilməli, Valona okruqla birlikdə İtaliyaya çatmalı idi. Bundan başqa, İtaliya Londondan 50 milyon funt sterlinq istirqraz istəyirdi. Nəhayət, İtaliya hərbi konvensiya bağlamağa tə'kid edirdi. Roma arzu edirdi ki, Rusiya Qalisiya cəbhəsində öz hücumunu gücləndirməli, ingilis-fransız donanması Avstriya donanması ilə mübarizədə İtaliyaya kömək etməli idi.

İngiltərə və Fransa bunları qəbul etməyə hazır idilər. Lakin Rumıniya cənubi slavyanların yaşadıqları ərazilərin İtaliyaya verilməsinə qarşı e'tirazını bildirdi.

İtaliya Antantaya tə'sir etmək üçün yeni vasitəyə əl atdı. 1915-ci il martın 8-də Vyana kral şurası İtaliyaya kompensasiya verilməsi haqda qərar qəbul etdi. İtaliya və Mərkəzi dövlətlər arasında İtaliyanın nə qədər kompensasiya (əvəz) alması barədə və güzəşt edilən torpaqların nə vaxt verilməsi barədə mübahisələr başlandı: təcili, yoxsa müharibədən sonra.

İngiltərə və Fransanın təzyiqi altında Rusiya güzəştə getməli oldu. O Dalmasiyanın xeyli hissəsinin İtaliyaya verilməsinə razı olduğunu bildirdi. 1915-ci il aprelin 26-da Londonda müqavilə imzalandı. İtaliya bir



aydan sonra müttəfiqlərinə qarşı müharibə e'lan edəcəyini öhdəsinə götürdü. Bunun əvəzində İngiltərə ona 50 milyon funt sterlinq istiqraz verdi. Mayın 3-də İtaliya Üçlər ittifaqı ilə müqaviləni pozdu. Bununla bağlı Byulov ən həlledici diplomatik addım atdı. O memuarlarında yazır: «Mayın 9-da imperatorluğun və krallığın səfiri baron Makkionini danışıqlar üçün «Malta» villasına də'vət edərək, onu məcbur etdim ki, mənim tə'kidimlə bəyanat yazsın və həmin gün məxfi formada İtaliya hökumətinə göndərsin: Həmin bəyanatda deyilirdi ki, Avstriya-Majarıstan italyanlar yaşayan əraziləri, habelə Qradiski və İzonsonun qərb sahilini (burada da italyanlar yaşayırlar) güzəştə gedir. Triyest italyan universiteti və italyan bələdiyyəsi ilə birlikdə azad imperiya şəhəri olur; Avstriya-Macarıstan Valona üzərində İtaliyanın suverenliyini tanıyır və Albaniyada siyasi marağı olmadığını e'lan edir. Qorxaq Makkionini bu addımı atmağa məcbur etmək üçün mən güc tətbiq etdim».

Belə sənədə malik olduqdan sonra Byulov bu haqda İtaliya «neytralistlərinin başçısı colittiyə və onların digər liderlərinə dərhal mə'lumat verdi. colitti dərhal Romaya gəldi. Onun Romaya daxil olduğu anda 508 deputatdan 320 deputat toplanmışdı. Parlamentin əksəriyyətinin köməyinə arxalanan colitti krala və Salandraya bildirdi ki, 26 aprel tarixli London müqaviləsində öz əksini tapmış siyasətlə o razı deyil. Salandra istefa verdi. Belə çıxdı ki, Almaniya uddu. Lakin qatı şovinistlər, müharibə tərəfdarları fransızların himayəsində olan keçmiş sosialist Mussolini başda olmaqla parlamentə və onda əksəriyyət təşkil edən «neytralistlərə» qarşı nümayiş təşkil etdilər. Kral Salandra onun istefasını qəbul etmədi. colitti Romanı tərk etməyə məcbur oldu. Qorxuya düşmüş parlament 1915-ci il mayın 20-də hərbi kreditə səs verdi. Mayın 23-də İtaliya Avstriyaya müharibə e'lan etdi. Avqustun

sonuna kimi Almaniya ilə formal olaraq sülh şəraitində qaldı.

Türkiyə və İtaliya Balkan uğrunda siyasi fəaliyyətlərini genişləndirdilər. Burada ən çox Bolqarıstan əhəmiyyət kəsb edirdi. **Birincisi**, balkan dövlətləri içərisində ən güclü orduya Bolqarıstan malik idi. **İkincisi**, o elə ərazidə yerləşmişdi ki, oradan Serbiya və Rumıniyaya, hətta Yunanıstana zərbələr endirmək olardı. Bolqarıstanın Mərkəzi dövlətlər tərəfində müharibəyə qoşulması Serbiyanı çox ağır vəziyyətə salardı və Rumıniyanı Antantaya qoşulması imkanından məhrum edərdi. Əksinə, gözləmək olardı ki, Bolqarıstanın Antantaya qoşulması ilə Rumıniya və Yunanıstanın da onun ardınca Antantaya qoşulmalarına səbəb olardı.

Beləliklə, 1914-cü ildə müharibə şəraitində Bolqarıstan bütün Balkanlarda açar rolunu oynayırdı. Buna görə də müharibənin ilk günlərindən Sazonov Bolqarıstana böyük diqqət verirdi. Onun Antantaya qoşulmasına nail olmaq üçün Serbiya və Yunanıstan 1913-cü ildə Bolqarıstandan aldıqları vilayətləri ona güzəştə getməli idilər. 1914-cü ilin avqustunda Sazonov tə'kid edirdi ki, Serbiya və Yunanıstan Bolqarıstana güzəştə getsinlər. Bundan istifadə edərək Yunanıstanda almanpərəst – bitərəfçilər mövqelərini möhkəmləndirirdilər. Həm də təəccüblü o idi ki, Yunanıstan ilə sıx dostluq münasibətlərinə böyük əhəmiyyət verən İngiltərə Sazonovun siyasətini bəyənmirdi və hətta ona əks gedirdi.

Belqradda Sazonovun müvəffəqiyyətləri böyük idi. Belqrad əgər Antanta qalib gələrsə, Serb Makedoniyasının bir hissəsini Bolqarıstana verməyə razı oldu. Serbiya isə cənubi slavyan vilayətlərini Avstriyadan alacaq. Lakin bu az idi. Müttəfiqlər Makedoniyadan başqa, Türkiyə hesabına Enos-Midiya xəttini də vəd edə bilərdilər. Bunu qələbədən sonra etmək olardı.



Bolqarıstanın baş naziri Radoslavov işarə vurdu ki, Makedoniyanın təcili verilməsi Bolqarıstanın müharibəyə qoşulmasını həll edər. Lakin Serb hökuməti bildirdi ki, Makedoniyanı verməkdənsə, bütün Serbiyanı Avstriyaya verməyə üstünlük verər. O, hətta Avstriya ilə separat sülhlə hədələdi. O, bildirdi ki, satqın slavyan dövlətinə mükafat verməyə cəhd etməkdənsə, Avstriyaya hərbi kömək göstərmək daha münasibdir. Beləliklə, danışıqlar heç bir nəticə vermədi.

Mərkəzi dövlətlərin də Bolqarıstana tə'sirləri güclü idi. Onlara belə bir vəziyyət kömək edirdi ki, Bolqarıstanın bütün ərazi iddiaları Antantanın müttəfiqi olan Serbiyaya aid idi.

Lakin Bolqarıstan hələ müharibəyə hazır deyildi. O, bitərəf qaldı. Bundan istifadə edərək, Antanta dövlətləri Bolqarıstan burjuaziyasının bir hissəsini satın aldılar. Bu xüsusi təşkil edilmiş ingilis, fransız, rus aksioner müəssisələri tərəfindən xam mal, xalq təsərrüfatının digər məhsullarını satın almaq yolu ilə edilirdi. Bu yolla Bolqarıstan burjuaziyasına, məmurlarına, nazirlərə 200 milyon frank (qızıl pulla) pul verilmişdi. 1915-ci ildə Antanta Bolqarıstanla danışıqları davam etdirirdi.

Almaniya isə Bolqarıstana bütün Makedoniyanı və Köhnə Serbiyanı vəd edirdi. Əgər Rumıniya Antanta tərəfində müharibəyə qoşulardısa, nəinki cənubi Dobrucu, hətta bu diyarın şimal hissəsi də Bolqarıstana veriləcəyi vəd edilirdi.

Dardanel əməliyyatının baş tutmaması, Rusiya qoşunun geri çəkilməsi – Qalisiyanı, Rusiya Polşasını, Litvanı və Belorusiyanın bir hissəsini tərk etməsi vəziyyəti dəyişdi. Almaniya qoşununu Serbiyaya qarşı cəmləşdirməyə başladı. Sentyabrın 3-də Bolqarıstan və Türkiyə arasında ittifaq müqaviləsi bağlandı. Sentyabrın 6-da Bolqarıstan, Almaniya və Avstriya-Macarıstan

arasında ittifaq müqaviləsi imzalandı. Dördlər ittifaqı belə yarandı.

1915-ci ilin sentyabrında Bolqarıstanın Serbiya üzərinə hücum təhlükəsi reallaşanda Yunanıstan 1913-cü il yunan-serbiya ittifaq müqaviləsində nəzərdə tutulan şərti yerinə yetirməyə hazır olduğunu bildirdi. O şərtlə ki, ingilis-fransız ordusu onun köməyinə gəlsin. Hallipol yarımadasından Salonikə ordu göndərmək qərara alındı. Müttəfiqlər yalnız nisbətən böyük olmayan dəstə göndərə bildilər. İngiltərə və Fransanın buləngliyindən istifadə edən Bolqarıstan oktyabrın 13-dən 14-nə keçən gecə Serbiyaya hücum etdi. Oktyabrın sonlarında Salonikdə cəmisi 80 min müttəfiq ordusu var idi. Bu Serbiyanın darmadağın edilməsinin qarşısını ala bilmədi. Onlar Almaniya və Türkiyə arasında əlaqənin yaradılmasına da mane ola bilmədilər.

Hər iki döyüşən tərəf Rumıniyanı da öz tərəfinə çəkməyə cəhd edirdi. Rumıniyanı Üçlər ittifaqı ilə bağlayan 1883-cü il ittifaq müqaviləsi artıq özünün əhəmiyyətini itirmişdi. Vyananın və Berlinin Transilvaniyanın Rumıniyaya güzəşt edilməsi sahəsində göstərdikləri cəhd az uğur qazanmışdı. Lakin alman diplomatiyası 1914-cü il iyul böhranı günlərində Bessarabaniyanın Rumıniyaya vəd edilməsi ilə işə kömək etməyə cəhd göstərmişdi. Rumıniyanın cavabında deyilirdi ki, Bessarabiyanı Rumıniya o vaxt tuta bilər ki, Rusiya məğlub edilsin, Avstriya Rusiya torpaqlarını tutmuş olsun. Yalnız belə halda Rumıniya arxayın ola bilər ki, Avstriya-Macarıstan və Almaniya onun işğalının qarşısını ala bilər. Buxarestdə bilirdilər ki, bessarabiyalılar, ruslar Rumıniyanın işğalı ilə heç vaxt razılaşa bilməz. Rusiya da Rumıniyanı şirnikdirirdi. O Rumıniyaya Transilvaniyanı təklif edirdi. Lakin Rumın hökuməti müharibənin gələcək gedişini gözləyirdi. Rumıniya Bessarabiyanı Rusiyadan almaq istəyirdi. Bu



London və Paris tərəfindən də müdafiə edilirdi. Lakin Rusiya bu təklifi rədd etdi. Avstriya-Macarıstan hesabına əvəz almaq daha çox uğur qazandı. 1914-cü il oktyabrın 1-də rus-rumın sazişi bağlandı. Həmin sazişdə Rusiya Rumıniyanın ərazi bütövlüyünə tə'minat verir və rumın əhalisi yaşayan Avstriya-Macarıstan ərazisini almaq hüququnun olduğunu qəbul edirdi. Rumıniya London bazarından istiqraz almağa da nail oldu.

1915-ci ilin yazında Rumıniya Antantadan Pruta və Tissaya qədər Avstriya-Macarıstan ərazisini tələb etdi. Rusiya və Serbiya Ukrayna və Serb vilayətlərinin Rumıniyaya verilməsinə razı olmadılar. Elə bu vaxt Rusiya qərb müttəfiqlərindən alman qüvvələrinin Şərqə hücumunun qarşısını almaq üçün Qərb cəbhəsində hücuma keçməyi xahiş etdi. Buna cavab olaraq İngiltərə və Fransa Rumıniyanın hərbi köməyinə nail olmağı məsləhət gördülər. Buna görə onlar Rumıniyaya güzəştə getməyi tə'kid edirdilər. Çar hökuməti razılaşmağa məjbur oldu. Lakin Rusiya ordusunun geri çəkilməsi yenə də Rumıniya hökumətinin müharibəyə qoşulmaqda tərəddüd etməsinə səbəb oldu. O Qalisiya və Bukovinada rus hüjumunun bərpa edilməsini tələb edirdi. Lakin 1915-ji ilin yayında və payızında rus ordusu bu haqda heç düşünə belə bilməzdi.

Lakin 1916-jı ildə Verden altında almanların uğursuzluğu və Brusilovun hüjumu Antantanın şansını artırdı.

1916-jı il avqustun 17-də Rumıniya və Antantanın dörd dövləti arasında müqavilə bağlandı. Rumıniya Avstriya-Majarıstana müharibə e'lan etməli idi. Bunun əvəzində ona Transilvaniya, Bukovinanın bir hissəsi və Banat vəd edildi. Avqustun 28-də Rumıniya Avstriyaya müharibə e'lan etdi. Lakin artıq oktyabrın 10-da Rumıniya kralının nümayəndəsi Rusiya qərargahına

gələrək kömək istədi. Beləliklə, Rumıniyanın ağırlığı yenə Rusiyanın üzərinə düşdü.

### Antanta dövlətləri arasında qarşılıqlı münasibətlər

Yeni müttəfiqlər cəlb etmək uğrunda mübarizə, döyüşən qruplaşmaların əsas üzvləri arasında rəqabət nəticəsində mürəkkəbləşirdi. Mərkəzi dövlətlər lakerində Almaniya şəksiz lider idi. Bu onların müttəfiqlik münasibətlərini asanlaşdırırdı. Lakin onların arasında da toqquşmalar, ixtilaf baş verirdi. Bu İtaliyaya əvəz vermək haqqında Almaniya-Avstriya danışıqlarında özünü büruzə verirdi.

Antanta dövlətləri arasında daha kəskin ixtilaflar meydana çıxırdı. cənubi slavyan torpaqlarının İtaliyaya verilməsi üzərində ziddiyyət buna misal ola bilər. Müharibənin strateji planı haqqında məsələlərdə də müttəfiqlər arasında fikir ayrılığı var idi. İngiltərə və Fransa Qərb cəbhəsini əsas cəbhə hesab edirdilər. Rusiya ordusuna ən xoşagəlməz rol ayırırdılar. O ingilis-fransız komandanlığının tələbinə uyğun olaraq düşmənin qüvvəsini özünə cəlb etməli idi. Doğrudur, Şərqi Prussiyada Rusiyanın hücumu Parisi xilas etdi və fransızların Marnada qələbəsini tə'min etdi. Lakin o Rusiyaya böyük itki bahasına başa gəldi. Rusiyanın rolunun belə qiymətləndirilməsinə səbəb, onun ingilis-fransız kapitalından asılı olması idi. Bu asılılıq müharibə dövründə daha da artmışdı. Müharibə küllü xərc tələb edirdi. Rusiyanın geri qalmış iqtisadiyyatı bu tələbi ödəyə bilmirdi. 1915-ci ildə mərmisiz qalmış rus ordusu geri çəkilməli oldu. Rusiya kömək üçün İngiltərə və Fransaya müraciət etdi. Doğrudur, onlar müəyyən hərbi sursat göndərdilər. Lakin onu çox ləngidirdilər. Bu hərbi əməliyyatların tənzimlənməsində də özünü göstərirdi. Rusiya Qərb cəbhəsinin tələblərinə dərhal cavab verirdi.



Əgər 1914-cü ildə Prussiyada rusların əməliyyatı Marna döyüşündə udmağa səbəb oldusa, 1916-cı ildə Brusilovun hücumu Verdenin xilas edilməsinə və İtaliya cəbhəsinin sabitləşməsinə səbəb oldu. Lakin İngiltərə və Fransa lazımi operativlik göstərmirdilər.

1915-ci ildə Alman komandanlığı başlıca zərbəni Şərq cəbhəsinə keçirməyi təcrübədən keçirdi. Doğrudur, bu rusların geri çəkilmələri ilə nəticələndi. Lakin sıradan çıxmadılar. Bu dövrdə almanların qazandıqları taktiki üstünlük müharibənin gedişində dönüş yaratmadı. Əksinə, 1916-cı ildə almanlar müharibənin ilk illərində malik olduqları üstünlüyü itirdilər.

İngilis və fransızlar isə 1915-ci ildə rus ordusunun vəziyyətini yüngülləşdirmək üçün heç nə etmədilər.

Müttəfiqlər arasındakı münasibətlərdə, müharibənin maliyyələşdirilməsi məsələsi də mühüm yer tuturdu. Müharibənin ilk mərhələsində Antantanın bütün dövlətləri içərisində başlıca kreditor ingilis kapitalı idi. London İtaliyaya, Rusiyaya, Fransaya kredit, istiqraz verirdi. Sonralarda isə London özü Nyu-Yorka müraciət etməli oldu.

Antantada başlıca zərbəni Yaxın Şərqə də keçirmək tərəfdarları var idi. Bu strateji məsələ Fransa və İngiltərə arasında danışıqların mövzusu oldu 1915-ci il yanvarın 3-də Dardaneldə hərbi əməliyyata başlamaq qərara alındı. Dardanel əməliyyatına kifayət qədər qüvvə cəlb edilmədiyindən uğursuzluqla qurtardı. Bu artıq 1915-ci ilin yazında aydın oldu. Lakin Dardanel əməliyyatı boğazlara dair məsələ haqda danışıqların başa çatdırılmasına təkan verdi.

## Antanta dövlətlərinin işğalçılıq planları

Müharibənin başlanmasından az sonra gələcək qənimətlərin bölünməsi haqda məsələ Antanta dövlətlərinin danışıq hədəfi oldu. 1914-cü il sentyabrın 5-də Rusiya, İngiltərə və Fransa arasında saziş bağlandı. Tərəflər öhdələrinə götürürdülər:

1. Müharibə gedişində separat sülh bağlamamaq;
2. Sülh şərtlərinin müzakirə edilməsi vaxtı çatdıqda müttəfiqlərlə razılaşmadan sülh şərtlərini irəli sürməmək.

1914-cü il sentyabrın 14-də səfirlər gələcək sülhün əsas məqamlarını müəyyən etdilər. Bu proqramda alman imperiyasının və onun müttəfiqlərinin darmadağın edilməsi nəzərdə tutulurdu. Onun məzmunu aşağıdakılardan ibarət idi:

1. Nemanın aşağı hissəsinin, Şərqi Qalisiyanın Rusiyaya birləşdirilməsi. Poznanın, Sileziyanın və Qərbi Qalisiyanın Polşaya qatılması;
2. Elzas-Lotaringiyanın Fransaya qaytarılması, Reyn vilayətinin bir hissəsinin və Palatinatın ona keçməsi;
3. Alman ərazisi hesabına Belçikanın xeyli böyüdülməsi;
4. Şlezviq və Qolşteynin Daniyaya qaytarılması;
5. Hannover krallığının bərpa edilməsi;
6. Avstriya-Macarıstanın üç müstəqil monarxiyaya – Avstriya, Çexiya və Macarıstan monarxiyalarına bölünməsi;
7. Bosniyanın, Herseqovinanın, Dalmasiyanın və Şimali Albaniyanın Serbiyaya verilməsi;
8. Serb Makedoniyası hesabına Bolqarıstanın mükafatlandırılması və cənubi Albaniyanın Yunanıstana birləşdirilməsi;



9. Valonanın İtaliyaya verilməsi;
10. Alman müstəmləkələrinin İngiltərə, Fransa və Yaponiya arasında bölüşdürülməsi;
11. Müharibə xərcinin ödənilməsi.

Sentyabrın 26-da Sazonov Türkiyə ilə əlaqədar olaraq əlavə təklif irəli sürdü; Rusiya onun hərbi gəmilərinin boğazlardan sərbəst keçmələri barədə tə'minat almalıdı. Türkiyə ərazisinin işğalı haqqında Rusiya heç bir təklif irəli sürmürdü.

Türkiyənin bölünməsi məsələsini ilk dəfə İngiltərə diplomatiyası qoydu. Sazonovun təkliflərinə cavab verərək, Qrey bildirdi ki, əgər Türkiyə Almaniya ilə birləşsə, o yaşamamalıdı.

Qrey, ümumiyyətlə, Sazonovun təkliflərini qəbul etdi. Lakin o gələcək sülh proqramına alman donanmasının verilməsinin və Kil kanalının bitərəfləşdirilməsinin də salınmasını irəli sürdü. O İtaliya və Rumıniyanın ərazi iddialarının nəzərə alınmasını da təklif etdi. Qrey Reyn vilayətinin Fransaya keçməsinə e'tiraz etdi. Yəqin ki, İngiltərənin təzyiqi ilə Fransa e'lan etdi ki, Elzas və Lotaringiyadan başqa, Avropada onun heç bir ərazi iddiası yoxdur.

Türkiyənin mirasının bölüşdürülməsi uğrunda müttəfiqlər arasında diplomatik mübarizə genişləndi. Noyabrın 9-da Qrey Benkendorfla söhbətində onu inandırmağa çalışdı ki, Türkiyəyə qarşı hərbi əməliyyatda İran ərazisindən istifadə edilməməlidi. Eyni zamanda Qrey alman cəbhəsində Rusiyanın qüvvələri öz tərəfinə cəlb etməsi barədə də söhbət açdı. O, inandırıcı surətdə bildirdi ki, əgər Almaniya məğlub edilərsə, İstanbulun və boğazların taleyi Rusiyanın mənafelərinə uyğun həll ediləcək.

1915-ci il fevralın 25-də Dardanelin ağzında yerləşən istehkamlar ingilis-fransız gəmiləri tərəfindən atəşə tutuldu. Dardanel əməliyyatının tam uğurla

qurtardığını güman edən Yunanıstan Antanta dövlətləri səfirlərinə bildirdi ki, o Almaniyaya qarşı müharibəyə girməyə və boğazlara desant və donanma göndərməyə hazırlaşır. Bundan çar hökuməti çox narahat oldu. O, İstanbulun yunanlara verilməsindən ehtiyat edirdi. Buna görə də o yunanların Dardanel əməliyyatında iştirakına qəti e'tiraz etdi. Yunanıstan bitərəf qaldı.

Dardanel əməliyyatının müvəffəqiyyətlə qurtarması nəticəsində boğazların Fransa və İngiltərənin ixtiyarına keçəcəyi də Rusiyanı düşündürürdü. 1915-ci il martın 4-də Sazonov müttəfiqlərdən formal öhdəlik tələb etdi. O bildirdi ki, əgər müttəfiqlər boğazların Rusiyaya keçməsinə e'tiraz etsələr, Sazonov istefaya gedəcək.

1915-ci il martın 12-də İngiltərə rəsmi surətdə bildirdi ki, Konstantinopol, Bosfor, Mərmərə dənizinin qərb sahilləri, Hallipol yarımadası, Enos-Midiya xətti boyu cənubi Frakiya Rusiyaya veriləcək. Rusiya İsmid boğazınadək Mərmərə dənizinin sağ sahillərini, Mərmərə dənizindəki adaları, İmbros və Tenedas adalarını da almalı idi. Rusiya bunları ancaq müharibədən sonra, Türkiyənin Asiya hissəsində və başqa vilayətlərində İngiltərə və Fransa öz planlarını həyata keçirəndən sonra alacaq. Rusiya hökuməti buna müsbət cavab verdi. Aprelin 10-da Fransa da öz razılığını bildirdi.

### Almaniyanın işğalçılıq planları

Almaniyanın işğalçılıq planları Antantanınkından tam fərqli idi. Almaniya dünyanın əsaslı surətdə kökündən bölüşdürülməsini tələb edirdi. Xüsusi ilə iki alman sənədi çox böyük hay-küyə səbəb oldu. Altı qüdrətli iqtisadi təşkilatın (Alman sənayeçilərinin Mərkəzi ittifaqı, Sənayeçilər ittifaqı, kənd sahibkarlarının yunker-qolçomaq ittifaqı və i.a.) memorandumu və



professor memorandumu. Altı təsərrüfat təşkilatlarının Memorandumunda ingilis, fransız, Belçika və digər ölkələrin müstəmləkələrini işğal etməklə, böyük müstəmləkələrə sahiblənmək, Antantadan müharibə xərci almaq, Belçika üzərində protektoratlıq, Sommı çayınadək Fransanın Lamanş sahillərini, Briey hövzəsini, Verden və Belfor qalalarını, onların arasında yerləşən Voqezin qərb yamaclarını Almaniyaya birləşdirmək tələb edilirdi. Sonra onlar iri və orta əkinçiliyi bütün vilayətlərdən alınıb fransızlara verilməsini irəli sürdülər. Rusiya hesabına da çox torpaqların, Baltikyanı quberniyaların və onun cənubunda yerləşən torpaqların işğal edilməsi də nəzərdə tutulurdu. Hələ 1914-cü il oktyabrın sonunda Prussiyanın daxili işlər naziri fon Lyobel müharibənin məqsədləri haqqında hökumətə təklif vermişdi. Onda aşağıdakı ideyalar irəli sürülürdü:

«Bizə Fransaya açar olacaq Qərb sərhədləri lazımdı. Bilavasitə sərhədlərimizə yaxın olan kömür və filiz olan rayonlar da bizə gərəkli ola bilər. Hərbi baxımdan Şərqi Prussiya sərhəddinin də yaxşılaşdırılması arzu ediləndi. Nəhayət, bizə hərbi kontribusiya lazımdır. O uzun müddət Fransanın əl-qolunu bağlayar və ona dünyanın başqa yerlərində bizə ziyan gətirəcək maliyyə fəaliyyəti göstərməyə imkan verməz.»

Belçikanın vəziyyəti kökündən dəyişdirilməlidir. Bunun üçün İngiltərəyə qarşı mübarizədə heç olmasa bu və ya digər sahədə iri qələbələrə nail olmaq lazımdı.

Avstriya-Macarıstan isə bütün Balkanları öz hakimiyyəti altına salmağı planlaşdırmışdı.

## Türkiyənin Asiya hissəsinin bölüşdürülməsi

Müttəfiqlər axtarmaq uğrunda mübarizə aparan böyük dövlətlərin daxilində də rəqabət gedirdi. Bu Antanta dövlətlərinə də aid idi. Boğazlar ətrafında cərəyan etmiş mübarizə 1914-1915-ci illərdə də davam etmişdi.

Uzun və mürəkkəb danışıqlardan sonra onlar Türkiyənin bölüşdürülməsi məsələsində müəyyən razılığa gəlmişdilər. İngilislər tərəfindən danışıqlarda Sayks, fransızlar tərəfində Piko iştirak edirdilər. Onların danışıqlarının nəticəsi 1916-cı il martın 9-da Rusiya hökumətinə bildirildi. O, Osmanlı imperiyasının, xalis Türkiyə vilayətləri də daxil olmaqla, böyük hissəsinin işğal edilməsi planı idi. Sazonovu İngiltərənin, Fransanın və Rusiyanın gələcək malikanələri arasında bufer dövlətinin olmaması heç də razı salmırdı. Yeni danışıqlar başladı. Lakin nəhayət razılığa gəldilər. Aprelin 26-da Fransa-Rusiya sazişi imzalandı. Sonra İngiltərə də ona qoşuldu. Həmin məsələ üzrə mayın 9 və 16-da ingilis-fransız sazişi imzalandı. Son iki sənəd tarixə «Sayks-Piko sazişi» kimi daxil oldu.

Bu sazişə görə Fransa Suriya, Lubnan, Kilikiya və Mosul bölgələrini, İngiltərə Urdini, İrakı, Şimali Fələstini aldılar. Fələstinin qalan hissəsində beynəlxalq nəzarət rejimi müəyyən edildi və orada gələcəkdə müəyyən bir ərəb dövlətinin yaradılacağı nəzərdə tutulurdu.

Sayks-Piko sazişi İngiltərənin ikiüzlü siyasət yeritdiyini bir daha göstərdi.

İngiltərə Osmanlı dövlətinə qarşı müharibə vəziyyətini saxlamaq və bununla ərəbləri öz tərəfinə çəkmək məqsədi ilə Məkkə şərifi Hüseyn ilə Misirdəki İngilis Ali komissarı Mak-Maqon arasında bölünmüş



torpaqlarda ərəb krallığı yaradılması haqqında saziş bağlanmasını təşkil etmişdi.

İngiltərə Bağdadla birlikdə Mosul istisna olmaqla, Mesopotamiyanı aldı. Ərəbistan yarımadasının böyük hissəsi ingilis tə'sir dairəsi hesab olundu. Fələstində beynəlxalq nəzarət yaradıldı. Xayfa və Akka limanları İngiltərəyə verildi.

Fransa Suriyanı, Livanı, Kiçik Ermənistanı, Kilikiyanı, Kürdüstanın böyük hissəsini, hətta Şərqi Anadolunun bir hissəsini aldı. Ərəbistanın Nadejda sərhədindən şimala yerləşmiş hissəsi və Mosul vilayəti Fransanın tə'sir dairəsinə verildi.

Rusiyaya Trapezund, Ərzurum, Bayazet, Van və Bitlis, Kürdüstanın bir hissəsi, Trapezunddan qərbə doğru Qara dənizin sahillərinə qədər olan hissə çatdı.

İtaliyanın payı hələ müəyyən edilməmişdi. Çünki o, hələ Almaniyaya müharibə e'lan etməmişdi. Nəhayət, 1916-cı ilin avqustunda o belə addımı atdı. Ona Adaliya, Koni, Aydın və Smirnə daxil olmaqla cənub və cənubi qərbi Anadolunun böyük hissəsi ayrıldı. Türkiyədə yalnız Mərkəzi və Şərqi Anadolu qaldı.

1916-cı il iyulun 14-də Antanta dövlətləri maliyyə nazirlərinin konfransı açıldı. Onun iştirakçıları indi dörd idi. İtaliya da burada iştirak edirdi. Vəsaitin çatışmamasından əziyyət çəkən Fransa Antanta dövlətlərinin sifarişlərinin yerləşdirilməsini razılaşdırmaq üçün ümumi təşkilat yaradılması təklifini irəli sürdü. Bu təşkilat haqq-hesab aparmalı, Amerikadan göndərilən malların pulunu ödəməklə məşğul olmalı idi. Bu layihənin həyata keçirilməsi Antanta daxilində İngiltərənin rəhbər vasitəçilik missiyasını poza bilərdi. Buna görə də İngiltərənin nümayəndəsi Mak-Kenna Fransa layihəsini rədd etdi.

Konfrans bütün üzvlər tərəfindən yerləşdirilmiş sifarişlər haqqında qarşılıqlı mə'lumat toplamaq üzrə Londonda komissiya yaradılması ilə kifayətləndi. Avqustun 24-də Kaledə olmuş ingilis-fransız görüşündə İngiltərənin Fransaya 150 mln. funt-sterlinq istiqraz verilməsi haqqında razılığa gəldilər.

Fransadan daha çox Rusiyanın vəsaitə ehtiyacı var idi. Bark və Sazonov Rusiyaya kredit verilməsində, Fransa və İngiltərənin inhisarından xilas olmağa çalışırdılar. Buna yalnız birbaşa Uoll-stritə müraciət etməklə nail olmaq olardı. Lakin ABŞ-dan pul almaq mümkün olmadı. Rusiya yenə Fransa və İngiltərəyə müraciət etməli oldu.

Bark və Rato arasında danışıqlar nəticəsində Fransa Rusiyaya verilən hər aylıq kreditin miqdarını 125 milyondan 150 milyona çatdırdı. Lakin bu kreditin buraxılması çox məhdudlaşdırılmışdı. O, Fransa təchizat nazirliyinin razılığı ilə rus ordusuna lazım olan mallar formasında verilirdi.

Rusiya üçün İngiltərə ilə danışıqlar daha lazımlı, mühüm idi. İlk vaxtlarda bu danışıqlar nəticəsiz gedirdi. İngilislər müxtəlif şərtlər irəli sürürdülər.

Lakin Bark və xüsusi ilə onu müşayiət edən general Belyayev göstərdilər ki, əgər onlar krediti verməsələr və yubatsalar, onda Rusiya Baş qərargahı strateji planını dəyişə bilər. Rus ordusunun hücumdan imtina etməsi Qərb cəbhəsində ingilis ordusunu pis vəziyyətə sala bilərdi.

Mak-Kenna qorxuya düşdü və dərhal onların xahiş etdiyi 150 mln. funt-sterlinq kreditə razılıq verdi. 1916-cı ilin avqustunda müharibənin hələ davam etdiyini nəzərə alaraq, ingilis hökuməti daha bir güzəşt etməyi qərara aldı. 1915-ci il sazişində nəzərdə tutulduğundan əlavə,



0,40 mln. funt-sterlinq əvəzinə qızılla 20 mln. funt-sterlinq verməyə razılığını bildirdi.

Nəhayət, 1916-cı il oktyabrın 27-də Qrey və Benkendorf kreditlər haqqında sazişi imzaladılar.

Çar hökuməti ABŞ-da böyük sifariş yerləşdirdi. O ABŞ-da kreditlər haqqında Morqanla, «Neyşil siti bank» və bir neçə o qədər də böyük olmayan banklarla danışıqlar apardı. Bir neçə sazişlər imzalandı. Lakin fevral inqilabınadək kreditlərin ümumi miqdarı 250 mln. manatı keçmədi.

Müttəfiqlərin komandanlıqları nümayəndələrinin 1916-cı ilin noyabrında Şantilidə olmuş konfransı bütün cəbhələrdə müttəfiqlərin razılaşdırılmış hücumlarının keçirilməsi haqda qərar qəbul etdi. Müddət 1917-ci ilin fevralı müəyyən edildi. Bir az sonra Romada üç Antanta dövlətinin 1917-ci il üçün planı müzakirə edildi. Burada Rusiya iştirak etmirdi. Lloyd corcun təklifi ilə rus ordusunun təchizatının artırılması barədə razılığa gəldilər. O şərtlə ki, Rusiya yeni diviziyalar təşkil edib cəbhəyə göndərməli idi. Nəhayət, dörd müttəfiq dövlətin nümayəndələrinin Petroqradda yeni konfransı (fevralın 1-dən - 20-dək) keçirildi. Rusiya komandanlığı maydan əvvəl hücuma keçməyi qeyri-mümkün hesab edirdi. Çar hökuməti lazım olan təchizatın təşkil edilməsini, kredit verilməsini irəli sürdü. Sözdə müttəfiqlər bu təkliflərə razılıqlarını bildirdilər. Lakin ingilis nümayəndəliyi bildirdi ki, konfransın məsələhətləri heç də məcburi deyil. Hökumət kabineti bu haqda qərar qəbul etdikdən sonra o həyata keçirilə bilər. Beləliklə, bu konfrans Rusiyaya heç nə vermədi. Petroqrad konfransı rus çarizminin iştirak etdiyi axırıncı beynəlxalq konfrans oldu.

1917-ci ilin əvvəllərində gələcək sülhün şərtləri haqqında rus-fransız hökumətləri arasında yeni bir saziş imzalandı. Rusiya Xarici İşlər Naziri Pokrovski Elzas

Lotaringiya barədə, Saar kömür hövzəsi haqqında Fransanın iddialarını müdafiə etdiyini bildirdi. Reynin sol sahilindəki alman torpaqları «muxtar, bitərəf dövlət» kimi təşkil edilməli idi. Ora Almaniyanın gələcək sülh müqaviləsi şərtlərini tam ödəyənədək fransız qoşunları tərəfindən tutulmalı idi. Fransa hökuməti də 11 mart tarixli notasında Rusiyanın boğazlardan sərbəst keçməsi haqda İstanbul və boğazlar haqqında sazişi təsdiqlədiyini bəyan etdi.№İngiltərə, onun iştirakı olmadan qəbul edilən bu şərtlərə də öz narazılığını bildirdi, Reynin sol sahilinin Fransanın ağalığı altına verilməsinə də e'tiraz etdi.



# X FƏSİL

## MÜHARİBƏNİ QURTARMAQ UĞRUNDA DÖVLƏTLƏRİN MÜBARİZƏSİ. PARİS SÜLH KONFRANSI

### Müharibəni qurtarmaq meylinin güclənməsi

Artıq müharibənin sona çatması hiss edilməkdə idi. Beynəlxalq aləmdə baş verən hadisələr, döyüşən tərəflərin hakim dairələrində müharibəni qurtarmaq istiqamətində meyllərin güclənməsi, xalqların tezliklə müharibəyə son qoyulması uğrunda apardıqları mübarizə istər Antanta, istərsə də Üçlər ittifaqı dövlətlərinin başçılarını sülh üçün axtarışlara qoşulmağa məcbur edirdi. Bu həm də onun nəticəsi idi ki, iki ildən artıq - 1914-cü ilin avqustundan 1916-cı ilin sonunadək davam edən döyüş əməliyyatları heç bir tərəfə həlledici qələbə gətirməmişdi. İlk baxışda Almaniyanın hərbi nailiyyətləri Antantadakından daha əhəmiyyətli idi. Almaniya bütün Belçikanı və Fransanın, Polşanın, Pribaltikanın xeyli hissəsini və Belorusiyanın bir hissəsini tutmuşdu. Serbiya və Rumıniyanı darmadağın etmişdi. Bunlara qarşı Antanta yalnız Marnadakı qələbəsini, Türkiyə üzərindəki qələbələrini qoya bilərdi. Antanta dövlətlərinin işğal etdikləri ərazilər Almaniyanın işğal etdiyindən xeyli az idi. Antanta ona nail oldu ki, Almaniyanın müharibəni qısa müddətdə başa çatdırmaq planını pozdu. Bu müttəfiqlərin gələcək qələbəsindən xəbər verirdi. Doğrudur, Almaniya müharibəyə daha yaxşı hazırlaşmışdı. Lakin Antantanın daha böyük iqtisadi resursları, insan qüvvəsi və pulu var idi. Şliffen planını pozmaqla və müharibəni uzatmaqla Antanta öz potensialını səfərbər etmək üçün vaxt qazandı və hərbi hazırlığın səviyyəsinə görə Almaniyaya çatdı.

Lakin 1916-cı ilin sonlarında da hələ vəziyyət o qədər də aydın deyildi. Bununla yanaşı, hər iki tərəfdən müharibəni tezliklə qurtarmağa tələbat artırdı, sülh istəyi güclənirdi.

Almaniyanın hərbi müvəffəqiyyətlərinə baxmayaraq, müharibə uzanırdı. Antantanın xeyrinə dönüş yaranırdı. Britaniya donanması tədricən Almaniyanı blokadaya alırdı. Almaniyaya eksport azalırdı. Bu ABŞ-ın ticarət mənafelərinə mane olurdu. ABŞ hökuməti İngiltərədən «dənizlərin azadlığına» hörmət etməyi tələb edirdi. İngiltərə «Dəniz müharibəsinin qaydaları haqqında» 1909-cu il London bəyannaməsinə əməl edəcəyini bildirdi. Bu bəyannamə çox liberal rejim müəyyən edirdi: az miqdarda malların qaçaqmalçılıqla alverini məhdudlaşdırırdı və ticarət gəmilərinin bitərəf limanlara azad surətdə daxil olmalarını tə'min edirdi.

Lakin Almaniyanın dəniz müharibəsi barədə olan normaları pozmasından istifadə edərək, İngiltərə də həmin normalardan yan keçməyə başladı. 1914-cü il noyabrın 3-də Şimal dənizini müharibə zonası e'lan etdi, Niderlandın və Skandinaviyanın bitərəf limanlarına girişlərin qabağını kəsdi. Məhz bu limanlar vasitəsi ilə Almaniyaya küllü miqdarda təchizat malları gəlirdi.

Bitərəf dövlətlərin e'tirazlarına baxmayaraq, İngiltərə tədricən blokadanı gücləndirirdi. 1916-cı il iyunun 7-də İngiltərə rəsmi surətdə London bəyannaməsindən imtina etdiyini bildirdi.

İtaliyanın müharibəyə qoşulmasından sonra Almaniyanın və onun müttəfiqlərinin Almaniya-Hollandiya, Almaniya-Daniya və İsveçrə sərhədləri müstəsna olmaqla bütün quru sərhədləri cəbhəyə çevrildi. Bu İngiltərə blokadasının səmərəliliyini daha da artırdı.

Çar Rusiyasının vəziyyəti daha çətin idi. Xam mal və insan qüvvəsinin kifayət dərəcədə olmasına



baxmayaraq iqtisadi gerilik onu emal etməyə və istehlak yerinə göndərməyə imkan vermirdi. Narazılıq getdikcə güclənirdi.

Almaniya hökuməti və onun diplomatiyası Rusiyanın düşmüş olduğu vəziyyətdən öz məqsədləri üçün bacarıqla istifadə edirdi. Hələ 1915-ci ildə Almaniya Rusiya ilə separat sülhə nail olmaq üçün təşəbbüs göstərmişdi. Hətta, Almaniya Rusiyanın mənafeyinə boğazlar rejiminin dəyişdirilməsi barədə Türkiyədən razılıq almışdı.

Almaniya buna nail olmaq üçün müxtəlif qeyri-rəsmi kanallardan da istifadə edirdi. Çarın Almaniyadakı qohumları vasitəsi ilə də danışıqlar aparılırdı.

1916-cı ilin əvvəlində çar Almaniyaya meylliliyi ilə məşhur olan Ştyurmeri Nazirlər Sovetinin sədri tə'yin etdi. Bu almanpərəstlərin qələbəsi idi. İyulda alman hökumətinin qeyri-rəsmi agenti bankir Varburqla Dövlət Duması sədrinin köməkçisi Rasputinin yaxın dostu Protopopov Stokholmda görüşdülər. Varburq Almaniya və Rusiya arasında sülh bağlanmasının imkanlarına dair bünövrə hazırlayırdı. Protopopov bu söhbət barədə Dumanın bəzi üzvlərinə və II Nikolaya ətraflı mə'lumat verdi.

Bu çox gizli gedirdi. Lakin Sazonov buna çox mənfi münasibət bəsləyirdi. Rasputin də separat sülhü müdafiə edirdi. 1916-cı ilin iyulundan Sazonov istefaya getdi. Ştyurmer həm də Xarici İşlər Naziri portfelini qəbul etdi. 1916-cı ilin sentyabrında çar Protopopovu Daxili İşlər Nazirliyinin İşlər idarəsi müdiri tə'yin etdi. Beləliklə, separat danışıqlar üçün əlverişli şərait yaranmış oldu.

Lakin Almaniyanın hərəkətləri onun düşündüyü bu məqsədin həyata keçməsinə imkan vermədi. 1916-jı il noyabrın 5-də Almaniya və Avstriya-Majarıstan «Müstəqil Polşanın» yaradılması haqda bəyannamə

e'lan etdilər. Ora təkcə Polşa quberniyası deyil, həm də Rusiyadan alınmış ərazilər də daxil edilmişdi. Nə Berlin, nə də Vyana Polşa torpaqlarının azad edilməsi haqda düşünmürdülər. O yalnız Almaniyanın himayəsi altında olmalı idi.

Bu akt Nikolayı tam hövsələdən çıxartdı. Çar hökuməti o bəyannamənin qeyri-qanuni olduğunu e'lan etdi.

Rusiya burjuaziyası içərisində çara qarşı müxalifət gücləndi. Dövlət Dumasında Ştyurmeri danışmağa qoymadılar, tribunadan düşürtdülər. Noyabrın 14-də Milyukov Ştyurmeri xəyanətdə günahlandırdı. Nikolay Ştyurmeri azad etməyə məcbur oldu. Xarici İşlər Naziri Pokrovski, hökumətin başçısı A.Trepov oldu.

İngiltərədə də separat danışıqlara tərəfdar olanlar var idi. XX əsrin əvvəllərində İngiltərənin Xarici İşlər Naziri olmuş mühafizəkar partiyasının lideri Lensdaun sübut etməyə çalışırdı ki, Almaniya ilə tezliklə sazişə gəlmək lazımdı. Lakin onun layihəsini kabinet rədd etdi. Askvit hökuməti isə müharibəni tam ciddiliklə aparmağa qabil deyildi.

1916-cı ilin dekabrında Askvit kabineti istefaya getməli oldu. Onu Lloyd corc əvəz etdi. Onun şüarı müharibəni son qələbəyədək aparmaq idi.

Almaniyada ərzağın çatışmaması ciddi hiss olunurdu. Ölkədə inqilabi əhval-ruhiyyə güclənirdi. 1916-cı ildə Buxaresti tutduqdan sonra alman diplomatiyası bu uğurdan istifadə edib sülh danışıqları aparmağı əlverişli saydı. 1916-cı il dekabrın 12-də Almaniya bitərəf dövlətlərə müraciət etdi. O, dərhal sülh danışıqlarını başlamağa hazır olduğunu bildirdi. Bununla Almaniya iki məqsəd güdürdü:

Birinci, əgər Antanta onun təklifini rədd edərsə, onda o kütləni inandırar ki, müharibənin davam etməsində qarşı tərəf günahkardı.



İkinci, əgər Antanta razı olarsa, fürsətdən istifadə edib düşmənlər arasında parçalanma yaratsın və onlardan biri ilə başqaları hesabına separat sülh bağlasın.

Antanta dövlətlərinin diplomatiyası Betmanın gizli məqsədini başa düşdü. Alman təklifi rədd edildi. 1916-cı il dekabrın 30-da cavab göndərildi. Orada deyilirdi: «Millətlər üçün və kiçik dövlətlərin yaşaması üçün prinsiplər kimi qəbul edilmiş hüquq və azadlıqların bərpası tə'min edilməyincə sülh mümkün ola bilməz». Burada əlbəttə, Almaniyanın müttəfiqi olan çoxmillətli Habsburqlar və Osmanlı imperiyalarının ləğv edilməsi, Elzas-Lotaringiyanın geri qaytarılması və digərləri nəzərdə tutulurdu ki, bunlar da Almaniya üçün qəbuledilməz idi.

Buna baxmayaraq, almanlar sülh üçün əsas yaratmağa cəhd edirdilər. 1917-ci ilin fevralında Avstriya-Macarıstanın Xarici İşlər Naziri Çernin bitərəf dövlətlərin nümayəndələrindən mə'lumat aldı ki, Rusiya separat sülh bağlamaq arzusundadır. Rusiya və Avstriya-Macarıstan nümayəndələri arasında məxfi görüşlər barədə razılığa gəlindi. Martın əvvəllərində prins Maks Badenski II Nikolayın xalası Hersoqinya Kaburskidən belə bir mə'lumat aldı ki, Rusiyanın böyük knyaqinalarından biri Almaniya dövləti ilə çar arasında vasitəçilik etməyə hazırdır. Maks Badenski II Nikolaya məktub göndərdi. Məktubda çarı inqilab təhlükəsi ilə qorxudaraq, onu tezliklə sülh bağlamağa təhrik edirdi. Lakin məktub ünvana çatmadı. Fevral inqilabı buna mane oldu.

Sülh danışıqlarının baş tutmaması və Antantanın parçalanması ümidinin iflasa uğraması Almaniyada müharibəni son qələbəyə qədər çatdırmaq tərəfdarlarının mövqeyini xeyli gücləndirmişdi. Baş komandanlığa tə'yin olunmuş general Hindenburq və

Lyudendorf da bu mövqedə idilər. Onlar «qeyri-məhdud su altı müharibəsini» genişləndirməyi və hansı ölkəyə mənsub olduğundan asılı olmayaraq, bütün ticarət gəmilərini batırmağı həlledici mübarizə vasitəsi kimi irəli sürürdülər.

Kansler bu tədbirin nəticəsindən ehtiyat edirdi. Bu Amerikaya da toxuna bilərdi. Buna görə də 1915-1916-cı illərdə kayzerin əmri ilə sualtı müharibə gah gücləndirilir, gah da zəiflədilirdi.

Sualtı müharibə İngiltərəyə böyük zərbə vururdu.

Lakin o İngiltərənin dəniz qüdrətini zəiflədə bilmədi. Əksinə, Almaniya üçün təhlükəli olan siyasi hadisələrin yetişməsini sür'ətləndirdi.

Müharibə başlanandan iki ildən artıq bir müddət keçəndən sonra ABŞ müharibəyə qoşuldu. O əvvəlcə bitərəf qaldığını e'lan etdi. Onun hökumətinin siyasəti çox mürəkkəb idi. Onun üçün heç bir tərəfin tam qələbəsi xeyirli deyildi. Əgər Almaniya qələbə çalsa, o Avropada vahid hegemon dövlət olardı. Almaniyanın Latın Amerikasında müstəmləkəçilik planları mə'lum idi. Onun Yaponiya ilə ABŞ-a qarşı ittifaq bağlamaq ehtimalı da var idi. İngiltərənin də qələbəsi arzu edilən deyildi. Onların arasında dərin ziddiyyətlər var idi. Latın Amerikasında, başqa yerlərdə, dənizdə onlar rəqabət aparırdılar. Bütün bunlara baxmayaraq, Antantanın qələbəsi ABŞ üçün az təhlükəli idi. Çünki Antantanın qələbəsindən sonra ingilis-rus, ingilis-fransız rəqabəti yenə də baş qaldıracaqdı.

Beləliklə, ABŞ Almaniyanın hegemonluğunu istəmirdi.

Onun üçün ən xeyirlisi o idi ki, hələlik qalib yox idi. O müharibənin belə sona çatmasını istəyirdi.

Avropa dövlətləri arasında ziddiyyətlərin kəskinləşməsindən istifadə edərək, ABŞ Latın Amerikasında öz mövqeyini möhkəmləndirirdi. Hələ müharibə başlanana



qədər ABŞ Kubanın, Panamanın, Dominikan Respublikasının ardınca Qonduras və Nikaraqua üzərində öz protektoratlığına nail oldu. 1914-cü ildə Amerikanın dəniz piyadası Haitini işğal etdi.

Onun ən böyük aksiyası Meksikaya intervensiyası oldu 1913-cü ilin fevralında orada bir sıra mütərəqqi islahatlar həyata keçirən prezident Madero Vaşinqtonun köməkliyi ilə hakimiyyətdən devrildi. Ölkədə mürtəce diktatura quruldu. Lakin diktator Uertaya qarşı güclü xalq hərəkatı genişləndi. Ölkədə vətəndaş müharibəsi başladı.

Bir az sonra Uertanın İngiltərə ilə gizli əlaqə saxladığı ABŞ-a mə'lum oldu. Buna görə də prezident Vilson Meksikadan Amerika səfirini geri çağırdı.

İngilis hökuməti Uertanı tanıdı. O ingilis neft maqnatlarının mənafeyini müdafiə edirdi. Amerikanın neft maqnatları - Sinkler, Rokfeller, Doqeni bundan çox narahat oldular. Vilson 1913-cü il avqustun 27-də konqresə göndərdiyi məktubda Uertanı tanımaqdan imtina etdiyini bildirdi və Meksikada «azad seçkilər» keçirilməsi tələbini irəli sürdü.

Avropada vəziyyətin təhlükəli olduğunu nəzərə alaraq, İngiltərə ABŞ ilə dil tapmağa çalışırdı. O Uertadan geri çəkildi.

İyulda Uerta səlahiyyətini yerə qoydu və Avropaya getdi. Lakin bundan sonra da Meksikada daxili mübarizə səngimədi. Karransa ölkənin prezidenti oldu.

Özünün hakimiyyətini möhkəmləndirmək üçün Karransa hökuməti 1915-ci il yanvarın 7-də dekret verdi. Həmin dekretə görə Meksika hökumətinin razılığı olmadan xaricilərin Meksikada kəşfiyyat apararaq, neft yataqları aşkara çıxarmaları qadağan edilirdi. Neft müəssisələrinin yeni qeydiyyat qaydası da müəyyən edildi. Xarici neft maqnatları buna qəti e'tiraz etdilər. O, 1915-ci ilin martında xarici müəssisələrə mütərəqqi gəlir

vergisi tətbiq etmək istədi. Lakin ABŞ hökuməti qəti e'tirazını bildirdi. Karransa geri çəkildi. Buna baxmayaraq, Vilson Meksikaya qarşı hərbi müdaxilə təşkil etməyi qərara aldı. Martda general Perşinqin komandanlığı altında Amerikan qoşunları Meksikanın sərhədlərini keçərək, içərilərə doğru irəlilədi.

Meksika hökuməti ABŞ hökumətinə e'tiraz notası göndərdi. Lakin Vilson buna heç bir əhəmiyyət vermədi.

Meksika ordusu müvəffəqiyyətlə müqavimət göstərirdi. Bu ABŞ-ı geri çəkilməyə məcbur etdi. Almaniya ilə müharibə də müdaxilənin genişləndirilməsinə mane oldu.

Amerika kapitalı sür'ətlə Antanta ölkələrinə axırdı. Başda Morqan olmaqla ABŞ-ın nüfuzlu kapitalist dairələri, ABŞ-ın böyük alıcıları və borcluları Vilsondan Antantanı müdafiə etməyi tələb edirdilər.

ABŞ-da müharibəyə hazırlıq tam gücü ilə gedirdi. ABŞ-ın müharibəyə girməsində Almaniyanın apardığı siyasət mühüm rol oynadı. ABŞ-ın gəmilərinin batırılması ABŞ-ın qəti e'tirazına səbəb oldu.

Müharibənin ilk günlərində Xauz dəfələrlə sülh barədə vasitəçilik sifətində çıxış etmiş və ABŞ-ın mövqeyini Qreyə izah etmişdi. O, İngiltərə və Fransa üçün münasib vaxtda sülh konfransı çağırılması təklifini Qreyə demişdi. Xauz inanırdı ki, sülh konfransı müttəfiqlərin xeyrinə ola bilər.

Lakin Qrey bu təklifi cavabsız qoymuşdu. Qrey elə qələbəyə nail olmaq istəyirdi ki, sülhün şərtlərini diktə edə bilsin.

1916-cı ilin payızında Vilson yeni müddətə prezident seçildi. Dekabrın 18-də o döyüşən tərəflərə müraciət etdi. Vilson göstərirdi ki, hər iki tərəfin bəyanatlarından mə'lum olur ki, onlar siyasi və iqtisadi azadlıq, kiçik xalqların müstəqilliyi və sülh uğrunda mübarizə aparırlar. Lakin onların heç biri sülhün konkret



şərtlərini irəli sürmürlər. Prezident bu boşluğu doldurmağa çağırırdı. Vilsonun notası Almaniyanın narazılığına səbəb oldu. Almaniya diplomatiyası ehtiyat edirdi ki, ABŞ beynəlxalq arbitr kimi çıxış etmək və Almaniyaya onun üçün məqbul olmayan şərtləri qəbul etdirmək məqsədi güdür. Dekabrın 26-da Almaniya hökuməti Vilsona cavab vermişdi ki, sülhə müharibə iştirakçılarının öz aralarında birbaşa aparacaqları danışıqlar yolu ilə nail olmaq olar.

Antantada əvvəlcə Vilsonun çıxışı narazılıqla qarşılandı. Lakin Almaniyanın cavabından xəbər tutduqdan sonra, müttəfiqlərin diplomatiyası dərk etdi ki, prezidentin sülh vasitəçiliyinin pozulmasını Almaniya öz üzərinə götürdü. Müttəfiqlərin 1916-cı ilin dekabrında Londonda olmuş konfransı Vilsona konkret sülh təklifləri vermək haqda qərar qəbul etdi. Onlar 1917-ci il 10 yanvar tarixli notada öz əksini tapmışdı: Belçikanın, Serbiyanın, Çernoqoriyanın müstəqilliyinin bərpa edilməsi; almanların Fransada, Rusiyada və Rumıniyada tutduqları ərazilərin qaytarılması; Avstriya-Macarıstan və Osmanlı imperiyasının hissələrə bölünməsi; çexlərin və slovakların azad edilməsi; Polşanın Rusiyanın protektoratlığına verilməsi; təhlükəsizlik və azadlığın tə'min edilməsi üçün Avropanın yenidən qurulması.

1917-ci il yanvarın 31-də Almaniya hökuməti də Vilsona öz sülh şərtlərini verdi. Bu şərtlərdə göstərilirdi: şərqdə Almaniya və Polşanın strateji və iqtisadi mənafelərini tə'min edən sərhədlərin müəyyən edilməsi; Almaniyanın müstəmləkələrə olan tələblərinin ödənilməsi; Almaniyanın təhlükəsizliyinin tə'min edilməsi şərti ilə Belçikanın bərpa edilməsi; Almaniya Fransanın işğal etmiş torpaqlarını azad etməyə o şərtlə razılıq verir ki, onun strateji və iqtisadi maraqlarını nəzərə almaq əsasında «sərhədlərin düzəldilməsi» həyata keçirilsin, qaytarılan torpaqlar əvəzində

Almaniyaya əvəz verilsin, dənizlərdə ticarət azadlığını məhdudlaşdıran bütün müqavilələr və tədbirlər ləğv edilsin.

Həmin şərtlərdə yanvarın 31-dən Almaniya qeyri-məhdud sualtı müharibənin bərpa edildiyini ABŞ-a bildirdi. Vilson konqresə məktubu ilə buna cavab verdi və Almaniyanı götürmüş olduğu öhdəliyi pozmaqda günahlandırdı. 1917-ci il fevralın 3-də onunla diplomatik əlaqələrin kəsildiyini e'lan etdi. Almaniya qeyri-məhdud sualtı müharibəsini bərpa etməklə Amerikanın müharibəyə qoşulmasına səbəb oldu. 1917-ci il aprelin 6-da ABŞ Almaniyaya müharibə e'lan etdi.

## Rusiyada burjua-demokratik inqilabı

Müharibə ərəfəsində Rusiyanı inqilabi hərəkat bürümüşdü. Müharibə şəraitində ziddiyyətlər daha da kəskinləşmişdi.Siyasi vəziyyət olduqca gərgin idi. Bu dövrdə sarayda separat sülh planı hazırlanırdı. Müharibəni qurtarmaq, inqilabı boğmaq onun əsas məqsədini təşkil edirdi. Generalitetdə də saray çevrilişi hazırlanırdı. II Nikolayı onun qardaşı ilə əvəz etmək nəzərdə tutulurdu. Antanta da buna kömək edirdi. 1916-cı ilin sonu 1917-ci ilin yanvarında ingilis səfiri Byukenen çarı tə'kidlə inandırmağa çalışırdı ki, o Dövlət Dumasının əksəriyyətinin birləşdiyi «mütərəqqi blokun» tələblərinə güzəştə getsin. Onlar Antanta dövlətləri ilə müharibəni son qələbəyə çatdırmağa qabil olan dövlət yaratmaq istəyirdilər. İngiltərə və Fransa Rusiyanın daxili işlərinə qarışmaqdan çəkinmirdilər. Byukenen burjua liderlərini səfirliyə toplayarkən, yemək stolu arxasında Fransa səfiri Paleoloq öz səlahiyyətini aşaraq, böyük knyaqina Mariya Pavlovna ilə çarın devrilməsi, hətta çarın öldürülməsi haqqında söhbət etdiyini e'lan etmişdi. ABŞ səfiri də bu suiqəsdlərdə iştirak edirdi.



Antantanın diplomatları və Rusiya burjuaziyası güman edirdilər ki, yuxarıdan çevriliş etməklə inqilabın qarşısını almaq olar. Lakin onların bu ümidi özünü doğrultmadı. 1917-ci il fevralın 27-də Rusiyada burjua-demokratik inqilabı baş verdi. Çar devrildi.

Hakimiyyətə gələn müvəqqəti hökumət müharibəni davam etdirmək əzmində olduğunu bildirdi. Bu baxımdan Antanta üçün hər şey əlverişli idi. Yeni Xarici İşlər Naziri Milyukovun bəyanatı İngiltərə və Fransa hökumətləri tərəfindən rəğbətlə qarşılandı.

İlk baxışdan elə görünürdü ki, Rusiyanın xarici siyasətinə yeni adamlar rəhbərlik edirlər. Xarici İşlər Nazirliyinə Dövlət Dumasının görkəmli deputatı, kadetlərin lideri, professor Milyukov başçılıq edirdi. Səfirliklərdə və nümayəndəliklərdə də heç bir dəyişiklik edilməmişdi. Yalnız ABŞ-dakı səfir dəyişdirilmişdi. Milyukovun xarici siyasət görüşləri Sazonovunkundan heç də fərqlənmirdi.

Martın 15-də Müvəqqəti hökumətin formalaşması başa çatdırıldı. İki gün sonra Milyukov Rusiyanın bütün diplomatik nümayəndələrinə sirkulyar məktubla müraciət etdi. Məktubda Rusiyada baş vermiş hadisələr bildirilir və onlara səfir olduqları ölkənin hökuməti qarşısında müvəqqəti hökuməti tanımaları haqda məsələ qaldırmaq təklif edilirdi. Həm də göstərilirdi ki, yeni hökumət bütün beynəlxalq öhdəliklərə sözsüz əməl edəcək. Milyukov müharibənin axıra qədər davam etdiriləcəyini də bildirirdi.

Martın 21-də Milyukov rus səfirlərinə göstəriş verdi ki, onlar müttəfiq dövlətlərdən də onların yeni hökumət qarşısında öz öhdəliklərinə sadiq olduqlarını bildirmələrini tələb etsinlər.

Martın 22-də Müttəfiq dövlətlər Müvəqqəti hökuməti tanıdıqlarını e'lan etdilər.

Artıq mə'lum idi ki, müvəqqəti hökumət ölkəyə sülh verə bilməyəcək. Bu ölkədə narazılığın daha da güclənməsinə səbəb oldu. Petroqrad Sovetinin İcraiyyə komitəsi Müvəqqəti hökumətdən kütləni sakitləşdirə biləcək bəyanatla çıxış etməyi tələb etdi. Milyukov əvvəlcə e'tiraz etdi, lakin sonra geri çəkilməli oldu. Aprelin 9-da (martın 27-də) «Rusiya vətəndaşlarına Müvəqqəti hökumətin müraciəti» e'lan olundu. Onda öhdəliklərə əməl etməklə yanaşı, Rusiyada «xalqların öz müqəddəratını tə'yin etməsi» hüququ əsasında sülh istəyi də bildirilirdi.

Antanta bundan ciddi narazı oldu. Aprelin 9-da Fransa Nazirlər Sovetinin Sədri Ribo Rusiyanın Fransadakı səfiri İzvolskiyə bildirdi ki, əgər Rusiya özgə ərazilərini, işğal etməkdən, İstanbuldan imtina edərsə, Fransa onun kimi hərəkət edib, müharibədə güddüyü məqsəddən imtina etməyəcək, yalnız Elzas və Lotaringiyanın geri qaytarılması ilə də kifayətlənməyəcək.

İngiltərə hökuməti də bu fikirdə olduğunu bildirdi.

Petroqrada gəlmiş Fransa sosialisti Alber Tom Milyukova təklif etdi ki, Fransa hökumətini sakitləşdirəcək bəyanatla çıxış etsin. Milyukov müharibəni axıra qədər çatdıracağı haqda nota göndərdi.

İndi müttəfiqlər razı idilər. Lakin Petroqradda yeni xalq hərəcanı alovlandı. «Məhv olsun müharibə!», «Məhv olsun Milyukov!», «Bütün hakimiyyət sovetlərə!» şüarları hər yeri bürüdü.

Xalq hərəkatı nəticəsində Kerenski başda olmaqla yeni koalisyon hökumət yaradıldı. Milyukov yeni hökumətə daxil olmadı. Onu milyoner, şəkər zavodlarının sahibi, diplomatiyadan, beynəlxalq siyasətdən xəbəri olmayan Tereşenko əvəz etdi. Onun xətti ondan ibarət idi ki, imperialist müharibəsini,



imperialist siyasətini davam etdirməklə sülh haqqında, işğaldan imtina etmək haqqında geniş danışılsın.

Təsərrüfatın bərbad hala düşməsi və müharibənin davam etdirilməsi Rusiyanın müttəfiqlərdən asılılığını artırırdı. Onlar çara nisbətən müvəqqəti hökumətlə getdikcə daha az hesablaşırdılar. Onlar Rusiyaya krediti son həddə qədər azaltdılar. Onunla heç bir məsələdə razılaşmırdılar, hətta onun heç mövqeyini belə soruşmurdular. Belə şəraitdə Müvəqqəti hökumət və onun hərbi naziri Kerenski Antantanın tələblərinə tabe olurdular. 1917-ci il iyulun 1-də rus ordusu yeni hücuma keçdi. Bu hücum ümidsiz idi. Rusiya üçün heç lazım deyildi. Bununla belə Rusiya cəbhəsi düşmənin 159 1/2 diviziyasını özünə cəlb etmişdi. Bu qərb cəbhəsindən 16 1/2 diviziya çox idi.

1917-ci ilin yayında Antantanın Müvəqqəti hökumətə təzyiqi güclənmişdi. O inqilabın axırına çıxmağı tələb edirdi. Lakin buna Kerenskinin gücü çatmırdı.

İndi Antanta diplomatiyası Kornilovu müdafiə etməyə cəhd göstərdi. Rusiya cəbhəsində olan ingilis tank bölmələri Kornilov qiyamında iştirak etdilər. Amerika mətbuatı mayda Rusiya müharibədən çıxarsa, birlikdə Rusiyaya müharibə e'lan etmək barədə ingilis-yapon sazişi imzalanması haqqında mə'lumat yaymışdı.

Antanta tərəfindən taleyin öhtəsinə buraxılan Rusiya ABŞ-a arxalanmağa cəhd etdi. 1917-ci ilin iyununda başda senator Rut olmaqla, Amerika nümayəndəliyi Rusiyaya gəldi. O Rusiyaya kömək yollarını öyrənməli idi. Stivenson başda olmaqla, dəmir yol ekspertləri komissiyası Sibir dəmir yolunun daşıma qabiliyyətini artırmaq məsələsini öyrənirdi. Amerikanlar bu yolu öz nəzarətləri altına almaq istəyirdilər. ABŞ-dan kredit alındı. İndi ABŞ Rusiyanın başlıca kreditoru oldu.

1917-ci ilin payızında Rusiyaya gələndə vəzifə bölgüsü barədə ABŞ, İngiltərə və Fransa arasında razılıq əldə edildi. Amerikalılar rus dəmir yollarının, İngiltərə-dəniz nəqliyyatının, Fransa ordunun yenidən qurulmasını öz üzərlərinə götürdülər. 1917-ci ilin 9 oktyabrında İngiltərə, Fransa, İtaliya səfirləri Kerenskinin yanına gələrək, ona nota təqdim etdilər. Onlar ordunun hərbi qabiliyyətini bərpa etməyi və inqilabı boğmağı ondan tələb etdilər. Kerenski onların tələblərini yerinə yetirməyə şad olardı. Lakin tam köməksiz idi.

1917-ci il noyabrın 7-də (oktyabrın 25) çevriliş baş verdi. Yeni hökumət müharibədən çıxmaq yolunu tutdu.

Rusiyada Oktyabr çevrilişindən sonra Sovet hökuməti hər vasitə ilə müharibəyə son qoymaq və sülhə nail olmağa girişdi.

1917-ci il noyabrın 21(8)-də Xalq Komissarlar Soveti rus ordusunun baş komandanı Duxoninə radio teleqram göndərərək, bütün döyüşən tərəflərə həm Antantaya, həm də alman blokuna barışıq təklif etdi. Sabahısı gün, Xarici İşlər Komissarı müttəfiq dövlətlərin səfirlərinə barışıq e'lan etmək və sonra sülh danışıqlarına başlamaq haqda nota ilə müraciət etdi. Lakin Duxonindən və səfirlərin heç birindən cavab alınmadı. Sovet Rusiyası Xalq Komissarları Sovetinin sədri Lenin birbaşa Duxoninlə əlaqə saxladı, lakin o, əvvəlcə cavab verməkdən yayındı, sonra barışıq haqda danışığa başlamaqdan imtina etdi. O N.V.Krilenko ilə əvəz edildi.

Noyabrın 22(9)-də müttəfiq dövlətlərin səfirləri Petroqradda ABŞ səfirliyində müşavirəyə toplaşdılar. Sovet tərəfinin notasına cavab verməməyi qərara aldılar. Noyabrın 23(10)-də Britaniyanın, Fransanın, Yaponiyanın, İtaliyanın və Rumıniyanın hərbi missiyalarının başçıları general Duxoninə kollektiv nota verdilər. Duxonin Sovet hökumətinin əmrinə tabe olmaqdan



imtina etdi. Sovet Xarici İşlər Komissarlığı sülh haqqında danışıqlara başlamaq barədə vasitəçilik etmək üçün bitərəf dövlətlərə müraciət etdi. Lakin onlardan cavab alınmadı.

Sülh danışıqlarına başlamaq haqda Xalq Komissarlar Sovetinin və Xarici İşlər Komissarlığının dəfələrlə etdikləri müraciətlərə müttəfiqlər cavab verməkdən imtina etdilər.

## Brest sülhü

1917-ci il dekabrın 22-də Brest-Litovskidə sülh haqqında danışıqlar başlandı. Şərq cəbhəsinin baş komandanı vəliəhd Leopold Bavarski çox quru təbriklə sülh konfransını açdı, sonra isə zalı tərk etdi. Alman nümayəndəliyinə Xarici İşlər Naziri fon Kyulman, Avstriya nümayəndəliyinə Xarici İşlər Naziri Çernin, Bolqarıstan nümayəndəliyinə Popov, Türkiyə nümayəndəliyinə Tələt paşa başçılıq edirdilər. İlk iclasda müttəfiqlərin adından alman nümayəndəsi çıxış etdi. Bolqarıstanın və Türkiyənin nümayəndələri bir dəfə də olsun çıxış etmədilər.

Sovet nümayəndəliyi aşağıdakı təkliflərlə çıxış etdi:

1. Müharibə dövründə işğal edilmiş ərazilərin güclə birləşdirməsi yol verilməzdi. Həmin əraziləri işğal etmiş qoşun dərhal həmin ərazilərdən çıxarılır;

2. Müharibə dövründə müstəqillikdən məhrum edilmiş xalqların siyasi müstəqilliyi tam bərpa olunur.

3. Müharibəyə qədər siyasi müstəqilliyə malik olmayan milli qruplara bu və ya digər dövlətə mənsubiyyətləri haqda məsələni, referendum vasitəsi ilə azad həll etmək tə'minatı verilir. Bu referendum elə təşkil edilməlidir ki, həmin ərazidə yaşayan bütün əhalinin, (mühacirlər və qaçqınlar daxil olmaqla) səs verməkdə tam azadlığı tə'min edilmiş olsun.

4. Bir neçə millətin yaşadığı ərazidə azlığın hüququ xüsusi qanunlarla tənzimlənir. Bu qanunlar onun mədəni-milli müstəqilliyini, imkan olan şəraitdə administrativ muxtariyyatını tə'min edirlər.

5. Döyüşən ölkələrin heç biri başqa ölkələrə «hərbi xərclər» ödəməyə borclu deyil. Tutulmuş təzminat geri qaytarılmalıdı. Müharibədən zərər çəkmiş xüsusi şəxslərə bu zərər bütün döyüşən ölkələrin proporsional yolla yaratdıqları xüsusi fonddan ödənilməlidir.

6. Müstəmləkə məsələləri 1-4-cü bəndlərdə göstərilən prinsiplərə əməl etmək əsasında həll edilməlidir.

Bu təkliflər yazılı surətdə bütün nümayəndəliklərə paylanıldı və konfransın işində tənəffüs e'lan edildi. Bu tənəffüs üç gün çəkdi. Tərəflər Sovetlərin təklifini müzakirə etdilər.

Alman bloku nümayəndələrinin müşavirəsində Türkiyə nümayəndəsi Rusiya qoşunlarının dərhal Qafqazdan çıxarılmasını təklif etdi. Bu təklif Almaniya üçün məqbul deyildi. Onda gərək Almaniya da Polşanı, Litvanı, Kurlandiyanı boşaltmalı idi. Türkiyə öz təklifindən imtina etməli oldu. Nəhayət, dekabrın 25-də sülh konfransı öz işini bərpa etdi. Almaniya nümayəndəsi Kyulman sovet təkliflərinə cavab verdi və həmin təkliflərin sülh haqqındakı danışıqlar üçün əsas olacağını bildirdi.

Beləliklə, Almaniya və onun müttəfiqləri Sovet nümayəndəliyinin təkliflərinə qoşuldular.

Dekabrın 26-da Siyasi komissiya işləməyə başladı. Qarşıda Almaniya və Sovet Rusiyası arasında danışıqlar dururdu. Lakin Kyulman bildirdi ki, Almaniyanın çoxlu məsələlərdə Avstriya-Macarıstanla mövqeləri düz gəlir, buna görə Çernin də öz nümayəndəliyi ilə danışıqlarda iştirak etməlidir.

Sovet nümayəndəliyi ərazi məsələlərini ön plana çəkməyə cəhd edirdi. Almaniya isə hər vasitə ilə bunun



müzakirəsindən yan keçməyə çalışırdı. Nəhayət, Sovet nümayəndəliyi ərazi məsələsini müzakirə etməyi qətiyyətlə tələb etdi. Yenə Kyulman bildirdi ki, Almaniya bu məsələni müzakirə etməyə hələ hazır deyil. Almaniya öz qoşunlarını 1914-cü il sərhədlərinə çəkmək fikrində deyildi.

Dekabrın 26-da alman nümayəndəsi Sovet nümayəndəsinə bildirdi ki, Almaniya Polşadan, Litvadan, Kurlandiyadan öz qoşunlarını çıxara bilməz. Onlarda silah hazırlayan emalatxanalar var.

Doğrudur, nümayəndəliklər bir neçə dəfə görüşdülər. Lakin heç bir nəticə alınmadı.

Dekabrın 28-də sülh müqaviləsinin şərtləri ilə Sovet nümayəndəliyini tanış etmək adı altında siyasi komissiyanın iclası toplandı. Mübahisəli, ərazilərsiz, layihə oxundu.

Sovet nümayəndəliyi Petroqrada getdi.

Sülh konfransının iclası yanvarın 9-da başladı.

Sovet nümayəndəliyinə Trotski başçılıq edirdi.

Lakin konfransın işində heç bir irəliləyiş yox idi. Kyulman müqavilənin ayrı-ayrı bəndlərinin müzakirəsinin siyasi komissiyaya keçirilməsini təklif etdi. Komissiyanın ilk iclasında Sovet nümayəndəliyi ərazi məsələlərini müzakirə etməyi irəli sürdü. Komissiyada danışıqlar iki gün davam etdi. Sülh danışıqlarının davam etməsinə baxmayaraq, fevralın 18-də Avstriya-alman qoşunları bütün cəbhə boyu hücuma keçdilər. Nəhayət, sovetlər almanların tələbləri əsasında sülh müqaviləsini imzalamağa hazır olduqlarını bildirdilər.

Martın 3-də sülh konfransının geniş iclası oldu və sülh müqaviləsi imzalandı. Brest sülh müqaviləsi aşağıdakı sənədlərdən ibarət idi:

1. Bir tərəfdən Rusiya və digər tərəfdən Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyə arasında sülh müqaviləsi;

2. Ayrı-ayrı mallar üzrə kömrük rüsumları və tariflər haqqında müqaviləyə son protokol;
3. Sülh müqaviləsinə rus-alman əlavə müqaviləsi;
4. Rus-Avstriya əlavə müqaviləsi;
5. Rus-bolqar əlavə müqaviləsi;
6. Rus-türk əlavə müqaviləsi.

Bütün əlavə müqavilələr diplomatik və konsulluq münasibətlərinin bərpa edilməsi, hərbi əsirlərin və vətəndaş əsirlərin dəyişdirilməsi və digər məsələlərə aid idi.

Sovet Rusiyası və Mərkəzi dövlətlər arasındakı sülh müqaviləsi 13 maddədən ibarət idi: hər iki tərəf müharibənin dayandırıldığını e'lan edir, Rusiya öz ordusunu tərxis edir, Polşa, Litva Kurlandiya, Liflandiya, Estlandiya Rusiyadan gedir, Qafqazda Rusiya Qarsı, Ərdahanı, Batumi Türkiyəyə verir, Ukrayna və Finlandiya müstəqil dövlət olurlar və i.a.

Sülh danışıqlarının başa çatdığını hiss edən Antanta hər vasitə ilə onu pozmağa çalışırdı.

1918-ci ilin sonunda Antanta həlledici hərbi müvəffəqiyyət qazandı. Rusiyaya qarşı hərbi müdaxilə təşkil etmiş Antanta blokunun qoşunları ağqvardiyaçılarla birlikdə Sovet Rusiyasının mərkəzinə doğru hərəkət edirdilər.

## Vilsonun 14 maddəsi

Məğlub edilmiş Almaniya dəfələrlə barışıq haqqında Antantaya müraciət etmişdi. Hərbi uğursuzluqlar nəticəsində düşmən ordusundakı pərakəndəlik müttəfiqlərin diplomatik fəaliyyəti ilə daha da sür'ətləndirilirdi. Ən iri diplomatik manevr Vilsonun 1918-ci il yanvarın 8-dəki nitqində şərh olunan 14 maddə oldu. Onlar aşağıdakılardan ibarət idi.



1. Sülh danışıqlarının açıq olması, müzakirələrin açıq aparılması. Bundan sonra isə heç bir gizli beynəlxalq sazişlər olmayacaq, diplomatiya açıq və hamının gözü qarşısında fəaliyyət göstərəcək.
2. Sülh və müharibə dövründə ticarət gəmiçiliyinin mütləq sərbəstliyi.
3. Beynəlxalq ticarət üçün bütün maneələrin ləğv edilməsi;
4. Milli silahlanmanın dövlət təhlükəsizliyi ilə bir araya sığa bilən minimuma qədər ixtisar edilməsinin ədalətli tə'minatı;
5. Bütün müstəmləkə mübahisələri, suverenliyə aid olan bütün məsələlər, əhalinin mənafelərinin hüquqi cəhətdən müəyyən edilməsi dövlətin ədalətli tələbləri ilə müqayisədə eyni səviyyədə götürülməli, sərbəst və səmimilik prinsipləri əsasında həll edilməlidir;
6. Almaniyanın Rusiyanın bütün ərazilərini azad etməsi. «Rus məsələsi»nin qaydaya qoyulması. Bundan başqa millətlərin özlərinin siyasi inkişafına və milli siyasətinə dair sərbəst və tam azad qərar qəbul etmələrinə, seçdiyi idarə üsuluna uyğun olaraq dövlətlər cəmiyyətinə qəbul edilmələrinə tə'minat verilir;
7. Belçikanın azad edilməsi və bərpa olunması;
8. Elzas-Lotaringiyanın Fransaya qaytarılması, işğal olunmuş fransız vilayətlərinin təmizlənməsi və bərpa edilməsi;
9. İtaliyanın sərhədlərinin aydın görünən milli sərhədlər əsasında müəyyən edilməsi;
10. Avstriya-Macarıstanın tərkibinə daxil olmuş xalqlara muxtariyyat verilməsi;
11. Alman qoşunlarının Rumıniyadan, Serbiyadan və Çernoqoriyadan çıxarılması: Serbiyanın dənizə sərbəst çıxmasının tə'min edilməsi;

12. Türkiyədə məskunlaşmış xalqlara muxtariyyat verilməsi. Bütün ölkələrin gəmiləri üçün Dardanelin açıq olması;

13. Dənizə çıxışla müstəqil Polşanın yaradılması, polyakların yaşadıqları ərazilərin Polşaya birləşdirilməsi;

14. Böyük, həm də kiçik dövlətlərin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşılıqlı tə'minat məqsədi ilə xüsusi statuslar əsasında millətlərin ümumi birliyinin yaradılması.

1918-ci ilin fevralında bu 14 maddəyə daha dördünü əlavə edir. Onlar əsasən aşağıdakılardır:

1. Sülh prosesi qeyd-şərtsiz olaraq ədalətə əsaslanmalıdır;

2. Xalqlar və vilayətlər dövlətlər arasında... mübadilə vasitəsinə çevrilməməlidir;

3. Hər bir ərazi məsələsi aidiyyəti üzrə yerli əhalinin maraqlarına uyğun olaraq həll edilməlidir;

4. Öz taleyini qəti həll etmiş bütün milli azlıqların tələbləri ödənilməlidir.

Bu prinsiplər o vaxt həyata keçirilə bilər ki, istiqlaliyyətinin tanınmasını tələb edən xalq intellektual və mənəvi xüsusiyyətlərinə görə seçilsin, öz taleyini müəyyən etməyə qadir olsun, özünü müstəqil dolandırmaq üçün təbii, iqtisadi, maliyyə vasitələrinə malik olsun, xarici təcavüzdən özünü qoruya bilsin.

Amerika prezidenti beynəlxalq danışıqlarda təşəbbüsü öz əlinə almağa cəhd edirdi. Bu maddələr məhz bu məqsədə xidmət edirdi. O həm də almanları başa salmaq istəyirdi ki, sülh haqqında xahişlə o hara müraciət etsin.

## Paris sülh konfransı

Almaniyanın dəfələrlə sülh danışıqlarına başlamaq barədə Antantaya etdiyi müraciətlər cavabsız qalırdı.



Nəhayət, Antanta ilə Almaniya bloku arasında 36 günlüyə barışıq imzalandı. Lakin Antanta hələ sülh haqqında düşünmürdü. Qaliblər sülhün şərtləri barədə hələ razılığa gələ bilməmişdilər. Onlar Vilsonun gəlməsini gözləyirdilər. Nəhayət, 1918-ci il dekabrın 13-də Vilson Parisə gəldi. 1919-cu il yanvarın 16-da barışıq bir ay da uzadıldı. Müttəfiqlər ilkin danışıqları başa çatdıra bilmədiklərindən barışıq iki dəfə uzaldıldı. Bu dövrdə isə Almaniyada inqilab genişlənirdi.

Paris sülh konfransında Fransanı Klemanso, İngiltərəni Lloyd corc təmsil edirdilər.

Paris sülh konfransında (1919-cu il yanvarın 20 - iyunun 28-i) yüzdən artıq nümayəndəlik iştirak edirdi.

Bütün nümayəndəliklər 4 kateqoriyaya bölünmüşdü. Birinci kateqoriyaya döyüşən dövlətlər ABŞ, Britaniya imperiyası, Fransa, İtaliya və Yaponiya daxil idi. Bu dövlətlər konfransın bütün iclaslarında və komissiyalarda iştirak edirdilər. Bu dövlətlər ümumi xarakterli maraqlara malik idilər. İkinci kateqoriyaya «müəyyən xarakterli maraqları olan» döyüşən dövlətlər - Belçika, Braziliya, Britaniya domnionları, Hindistan, Yunanıstan, Qvatemala, Haiti, Qonduras, Çin, Kuba, Liberiya, Nikaraqua, Panama, Polşa, Portuqaliya, Rumıniya, Serbiya, Tailand və Çexoslovakiya daxil idilər.

Bu dövlətlər onlara aid məsələlər müzakirə edilən iclaslarda iştirak etmək hüququna malik idilər. Üçüncü kateqoriyaya Almaniya ilə diplomatik əlaqələri kəsmək vəziyyətində olan dövlətlər - Ekvador, Peru, Boliviya və Uruqvay daxil idilər, onlar da özlərinə aid məsələ müzakirə ediləcəyi iclaslarda iştirak edə bilərdilər. Nəhayət dördüncü kateqoriyaya bitərəf dövlətlər daxil idilər. Onlar ölkələrinə aid məsələ müzakirə edilәndə ya yazılı, ya da şifahi çıxış edə bilərdilər.

Konfrans yanvarın 18-də Parisdə açıldı. 1919-cu ilin yanvarında Ali Hərbi Şura sülh konfransında müzakirə etmək üçün beş məsələ təklif etmişdi. Həmin məsələlər aşağıdakılar idi.

1. Millətlər cəmiyyətinin yaradılması.
2. Müharibə xərci-reparasiya.
3. Yeni dövlətlər.
4. Ərazi problemləri.
5. Müstəmləkələr məsələsi.

Konfransı açaraq Fransanın prezidenti Puankare özünün böyük nitqində müharibənin təqsirkarlarına qarşı tədbirlər və gələcəkdə yeni təcavüzkarlığın baş verməməsi üçün tə'minat müəyyən etməyi tələb etdi. O, Almaniyanı parçalamaq planını irəli sürdü. Digər böyük dövlətlərin nümayəndələri onu müdafiə etmədilər.

Vilson isə əvvəlcə Millətlər cəmiyyəti haqda məsələni müzakirə etməyi irəli sürdü.

Konfransın digər üzvləri tərəddüd edirdilər. Onlar ehtiyat edirdilər ki, Millətlər cəmiyyətinin Nizamnaməsinin qəbul edilməsi ərazi və maliyyə məsələlərinin həll edilməsində çətinliklər yaradar. Bu məsələ həll edilmədi.

Konfrans Klemansonu sədr, Lansinqi, Lloyd corcu, Orlandonu və Soyandzi onun müavinləri seçdi.

Paris sülh konfransı öz işində iki formadan istifadə edirdi. Birinci ümumi sessiyalar idi. Burada diplomatlar və mətbuat nümayəndələri iştirak edirdilər. Konfransın altı sessiyası olmuşdu. İkinci forma dövlət başçılarının təmsil olunduqları müxtəlif şura və komissiyalar idi. Onların iclasları qapalı aparılırdı. Ora kənar şəxslər, mətbuat nümayəndələri buraxılmırdılar.

Komissiya və şuralardan ən vacibi dövlət başçılarının təmsil olunduqları Onlar şurası idi.



Konfrans açılandan sonra, onun qərarı ilə təşkil edilmiş Onlar şurasında uzun çəkən müzakirələr getdi. Vilson tə'kid edirdi ki, Millətlər cəmiyyətinin Nizamnaməsi və sülh müqaviləsi hamı üçün məcburi olmalı və bir-birilərini tamamlamalıdır. Lakin İngiltərə və Fransa nümayəndələri istəyirdilər ki, Millətlər cəmiyyəti haqqında müqavilədə heç nə yazılmasın. Bu məsələni xüsusi komissiyaya vermək qərara alındı.

Bununla İngiltərə və Fransa onu gündəlikdən çıxarmaq məqsədi güdürdülər. Onlar kiçik dövlətlərin də həmin komissiyaya daxil olmalarını təklif edirdilər. Vilson gördü ki, onlar komissiyanın işinə hər vasitə ilə mane olurlar. O yeni diplomatik gediş işlətdi və dedi ki, komissiyanın sədrliyini öz üzərinə götürür.

Konfransın iştirakçıları başqa məsələlərin müzakirəsinə keçdilər.

Lloyd corc bildirdi ki, «Şərq və müstəmləkə məsələləri daha az mürəkkəb» problemdir. Lloyd corc alman müstəmləkələri və Türkiyənin kənar əraziləri məsələsini müzakirə etməyi tələb edirdi. Böyük dövlətlərin hər biri öz iddialarını irəli sürməyə başladılar. Hamısı o fikirdə idilər ki, müstəmləkələr Almaniyaya qaytarılmamalıdır. Bəs onlarla nə etməli? Bu sual çoxlu fikir ayrılıqlarını ortaya çıxardı. Fransa Toqo və Kamerunun bölünməsini tələb edirdi. Yaponiya Şandun yarımadasını və Sakit okeandakı adaları tələb edirdi. İtaliya da öz müstəmləkə iddialarından söz açırdı.

Vilson Avropaya ona görə gəlməmişdi ki, müxtəlif dillərdə təbriklər eşitsin. Ona görə gəlmişdi ki, dünya diplomatiyasının böyük məsələlərini həll etsin. Amerikanın dünya siyasətində yerini müəyyən etsin. Buna görə də Millətlər cəmiyyətinin yaradılmasına Vilson birinci dərəcəli əhəmiyyət verirdi. Lakin Vilsonun diplomatiyasına üç qüvvə mane olurdu: Birincisi, İngiltərə və dominionları Almaniyanın və Türkiyənin

miraslarını bölməyə tələsirdilər; İkincisi, Fransa Almaniyanı tərksilah etməyə, onun hərbi sənayesini bitərəfləşdirməyə və onun üzərində nəzarəti həyata keçirməyə cəhd edirdi.

Üçüncüsü, kiçik dövlətlər və digərləri öz ərazilərini genişləndirmək üzərində düşünürdülər. Belə vəziyyət Millətlər cəmiyyətini arxa plana atırdı. Millətlər cəmiyyəti təklif olunan məsələlər sırasında birinci yerdə durmasına baxmayaraq çıxış edən dövlət başçılarından heç biri ondan söz açmırdı. Vilson Millətlər cəmiyyətinin Nizamnaməsinin hazırlanması və təsdiq edilməsini tə'kid edirdi. Onlar şurasının üzvləri arasında danışıqlar başladı. Şuranın iclası çox gərgin keçirdi.

Konfrans yenicə başlamışdı, lakin artıq o çat verirdi. Vilsonun konfransı tərk edib getmək haqqında hədəsi hamının həyəcanına səbəb oldu. Lakin Lloyd corc çıxış yolu tapdı. O bildirdi ki, Millətlər cəmiyyəti sülh müqaviləsinin inteqral hissəsi kimi qəbul edilmişdir. Onun ayrı-ayrı müddəalarının dəyişdirilməsi bu fakta xələl gətirə bilməz. Deməli, Nizamnamənin son variantlarını gözləmədən mandatların bölünməsinə başlamaq olar. Lakin Vilson e'tiraz etdi və bildirdi ki, müstəmləkələr bölünəndən sonra millətlər cəmiyyəti formal institut olaraq qalacaqdır. Millətlər cəmiyyətinin ilkin variantı təsdiq olunmalıdır.

Lloyd corc bildirdi ki, heç kim bilmir o mürəkkəb iş nə vaxt qurtaracaq. Vilson on gün vaxt istədi.

Fevralın 17-də Almaniya ilə barışığın müddəti qurtardı. Danışıqları marşal Foş aparırdı. O Trirə gəldi. Fevralın 14-də üçüncü dəfə barışıq müddətini uzatmaq barədə danışıqlar başlandı. Foş köhnə tələblərdən başqa Poznanın, Orta Sileziyanın xeyli hissəsinin və Yuxarı Sileziyanın boşaldılmasını tə'kid edirdi. Bu tələblər Berlində yeni həyəcan doğurdu. Lakin Almaniya hökuməti Foşun tələblərini qəbul etməli oldu.



Qısa müddətə barışığın vaxtı uzadıldı. Vilson müəyyən edilmiş müddətə fevralın 13-nə Millətlər cəmiyyətinin Nizamnaməsini qurtarmalı idi. Nəhayət, ingilis-fransızların birgə layihəsi əsas götürüldü. Vilson böyük çətinliklə mandatlar prinsipini qəbul etdirməyə nail oldu. Aşağıdakı dəlil buna kömək etdi. Sübut edildi ki, əgər alman müstəmləkələri işğal olunsa, onda almanlar müharibə xərcinin müəyyən ediləcək məbləğinə onların daxil edilməsini tələb edəcəklər. Mandat prinsipi isə heç bir əvəz verilmədən Almaniyadan müstəmləkələrin alınmasını nəzərdə tutur.

Fransa nümayəndəsi Leon Burjua beynəlxalq ordu yaradılmasını irəli sürürdü. O, Millətlər cəmiyyətinin operativ nəzarəti altında hərəkət edəcəkdi. Bununla, Fransa Almaniya üzərində öz hərbi üstünlüyünü saxlamaq məqsədini güdürdü.

İngiltərə iri dövlətlərin blokunun yaradılmasını təklif edirdi. Onlar müstəmləkələrdə və tə'sir dairələrində Status qvo-nu saxlamaq barədə üzərlərinə öhdəlik götürməli idilər. Bununla İngiltərə öz müstəmləkələrinin təhlükəsizliyi barədə düşünürdü.

ABŞ isə Status qvo-nu pozmağa qarşı yönəldilmiş maddələrin salınmamasına cəhd edirdi.

1919-cu il fevralın 14-də Vilson sülh konfransında təntənəli surətdə Millətlər cəmiyyətinin nizamnaməsinin layihəsini e'lan etdi. Sülh konfransının ümumi iclası layihəni təsdiq etdi. Sabahısı gün Vilson Avropanı tərk etdi.

Nizamnamənin təsdiqi ilə konfrans əsas diqqəti sülhün şərtlərinin müzakirəsinə verdi. Onlar şurası işə başladı. Lloydc corc Londona getdi. Orlando hesabat üçün Romaya qayıtdı. Anarxistlərin qəsdi nəticəsində Klemanso xəstə yatırdı.

İngiltərə nümayəndəliyinin başçısı Lord Balfur sülhün əsas məsələsini Almaniyanın sərhədləri

haqqında, vurulmuş ziyanın ödənilməsi haqqında və i.a. məsələləri müzakirə etməyi irəli sürdü. Martın ortalarınadək müzakirəni qurtarmaq qərara alındı. Tərəflər sülh şərtlərinə dair müxtəlif təkliflərlə çıxış edirdilər.

Fransızlar tezliklə Almaniya məsələsini qurtarıb «Rusiya məsələsinin» müzakirəsinə başlamağı irəli sürdülər. Marşal Foş təsdiq edirdi ki, «Rusiya problemini» həll etməsək, müttəfiqlər müharibəni uduza bilərlər.

Klemanso Fransanın sərhəddinin Reynə qədər uzadılmasını, Reyn çayı ətrafı əyalətlərdən müstəqil respublika yaradılmasını, Almaniyanı, hərbi qüvvələrin birləşdirilməsi hüququndan məhrum etməyi irəli sürürdü. Vilson buna qəti e'tiraz etdi. Müəyyən edilmiş vaxtda müzakirələr qurtarmadı. Bu vaxt Vilson da Amerikadan qayıtmışdı.

Marşal Foş Polşanı «qırmızı təhlükə» gözlədiyini irəli sürərək «Böyük Polşa» yaradılmasını, Poznan və Dansiqin Polşaya birləşdirilməsini tələb edirdi. Fransanın tələb etdiyi şəkildə Polşa dövlətinin yaradılması Avropada onun tə'sirinin güclənməsinə səbəb olardı. Buna görə də nə Amerika, nə də İngiltərə bu təkliflə razılaşmadılar. Fransa Saar hövzəsinin ona verilməsini təklif etdi. Vilson çox həyəcanla bildirdi ki, biz Saar barədə heç vaxt eşitməmişik. Bunun əvəzində Klemanso Vilsonu alman fili adlandırdı və onun kabinetini tərk etdi.

ABŞ-Fransa arasındakı böhrana ABŞ-İngiltərə arasındakı böhran da əlavə edildi. Türkiyə məsələsində İngiltərə-Fransa arasında kəskin fikir ayrılığı meydana çıxdı.

Vilson mövcud vəziyyəti belə qiymətləndirdi. «Parlaqdı-bütün məsələlərdə biz ayrıldıq».



Nəhayət, uzun müzakirələrdən sonra 1919-cu il iyunun 28-də Versal sarayının aynalı zalında Versal sülh müqaviləsi imzalandı.

Versal müqaviləsinə görə 1870-ci ildə olduğu kimi Elzas-Lotaringiya Fransaya qaytarıldı. Saar hövzəsi Fransanın mülkiyyətinə verildi, onun idarə edilməsi isə 15 il müddətinə Millətlər cəmiyyətinə həvalə edildi. Həmin müddət keçəndən sonra ümumi rəy sorğusu onun hansı dövlətə mənsubluğunu müəyyən edəcək. Reynin sol sahili 15 illiyə Antanta tərəfindən işğal edilirdi. Reynin sağ sahilində 50 km.sahə hərbisizləşdirilirdi. Eypen və Molimeddə rəy sorğusu keçirmək qərara alındı. Nəticədə o Belçikaya keçdi. Şlezviq, Qolşteyn Daniyaya verildi. Almaniya Polşa və Çexoslovakiyanın müstəqilliyini tanıdı.

Müttəfiqlərin xeyrinə Almaniya bütün müstəmləkələrindən imtina etdi.

Fransanın baş komandanı marşal Foş demişdi: «Versal müqaviləsi - bu sülh deyil, 20 illik tənəffüsdür».

## Paris sülh konfransında Rusiya və Qafqaz respublikaları məsələləri

Rusiyada baş vermiş hadisələrlə əlaqədar olaraq müttəfiq dövlətlər və ABŞ Rusiyanı parçalamaq, onun bə'zi ərazilərini öz əllərinə keçirmək planını həyata keçirmək üçün məqam yetişdiyini güman edirdilər. Məhz bunun nəticəsidir ki, «Rusiya məsələsi» Paris konfransının qızğın müzakirə hədəfi olan məsələlərdən biri olmuşdu.

Müttəfiq dövlətlərin 1918-ci ilin noyabrında Paris konfransının açılmasından üç ay əvvəl olmuş hazırlıq müşavirələrində Rusiyanın konfransda iştirakı haqqında məsələ ortalığa çıxdı. 1918-ci ilin dekabrında Lloyd corc nota ilə Klemansoya müraciət etdi. Notada Rusiyanın

nümayəndəsi kimi Sovet hökumətinin sülh konfransına buraxılması təklif edilirdi. 1919-cu il yanvarın 5-də Fransa hökuməti bu təklifi rədd etdi.

Klemanso göstərdi ki, hazırda qurulacaq dünyanın Rusiyaya artıq dəxli yoxdur. Lloyd corc onun əksinə olaraq göstərirdi ki, Rusiya Avropanın üçdə ikisini və Asiyanın böyük hissəsini təşkil edir. Bu problemdən biz heç vaxt yan keçə bilmərik. Bolşeviklər, onlar haqqında kim nə düşünürsə düşünsün, göründüyü kimi əhalinin əksəriyyətini öz arxasınca aparır. Bu faktdır, şübhəsiz acınacaqlı faktdır, lakin bizə xoş gəlmədiyinə görə faktı inkar etmək olmaz.

1919-cu il yanvarın 12-də Onlar şurasının iclasında «Rusiya məsələsi»nin müzakirəsinə başlandı. Burada rus əsirlərindən bolşevizmə qarşı mübarizədə istifadə etməkdən söhbət getdi. Lloyd corc göstərdi ki, bu ümumi məsələnin ancaq bir hissəsidir. Elə həmin gün Sülh konfransında Rusiyanın təmsil olunması problemi müzakirə olundu. Mə'lumat verildi ki, bir sıra şəxslər, Sazonov, knyaz Lvov və digərləri sülh konfransına buraxılmalarını xahiş edirlər.

Qərara alındı ki, Rusiya konfransda təmsil olunmayacaq.

Sülh konfransının ayrı-ayrı komissiyalarında «Rusiya məsələsi» dəfələrlə müzakirə edildi. Müttəfiqlər müxtəlif təkliflər irəli sürür, müxtəlif problemlər ortalığa atırdılar. Məsələn, onlar təklif etdilər ki, təkcə bolşeviklər deyil, Rusiyada olan bütün siyasi qruplaşmaların nümayəndələri sülh konfransına də'vət edilsinlər. Lakin onlar Parisə yox, kənar bir yerə də'vət edilməlidirlər. Nəhayət, belə bir yer seçildi. O yer Mərmərə dənizində Vəliəhdlər adası oldu. Müttəfiq dövlətlər Rusiyada olan bütün siyasi qruplaşmalara müraciət e'lan etdilər. Bolşeviklər dərhal bu müraciətə müsbət cavab verdilər. Lakin müttəfiqlər hər vasitə ilə həmin görüşün baş tutmasına



mane olmağa çalışır, müxtəlif dəlillərlə bunu Sovet hökumətinin üzərinə yıxmağa cəhd edirdilər. Müttəfiqlər Sovet hökumətinin nümayəndəsini Vəliəhdlər adasına də'vət etməklə Qızıl Ordunun hərbi əməliyyatının dayandırılmasına nail olmaq məqsədini güdürdülər. Lakin onların bu planı boşa çıxdı.

Paris sülh konfransının diqqət mərkəzində duran məsələlərdən biri də Qafqaz məsələsi idi.

Almaniyanın məğlubiyyətindən sonra Qafqazın nümayəndələri ingilis-fransız-amerikanlara arxalanmağa cəhd edirdilər. Hətta İsveçrə nümayəndəsi Qafqaz ərazisinin ABŞ-ın mandatına verilməsini irəli sürür.

1919-cu ilin fevralında Gürcüstan Respublikasının nümayəndəsi sülh konfransındakı Amerika nümayəndəliyinə nota ilə müraciət edir. Gürcüstan sülh konfransından onun müstəqilliyinin tanınmasını və Gürcüstan məsələsinin bütün digər Rusiya məsələlərindən ayrılmasını tələb edirdi. Notada göstərilirdi ki, Gürcüstan Vəliəhdlər adasına öz nümayəndəsini göndərməyəcək. Onun orada heç bir işi yoxdur. Orada Rusiya problemləri həll ediləcək. Gürcüstan isə Rusiya deyil.

«Çərkəz və Dağıstan Respublikaları ittifaqı» isə Gürcüstanın əksinə olaraq Vəliəhdlər adasındakı konfransda iştirak etməyə razı olduqlarını bildirdilər.

Paris konfransının gedişi dövründə Fransa və İngiltərə 1917-ci il dekabrın 23-də bağlanmış müqaviləyə əsasən hər iki dövlət arasında tə'sir dairələri müəyyən edilmişdi. İngiltərənin təcir dairəsinə Kazak vilayətləri, Qafqaz, Ermənistan, Gürcüstan, Kürdüstan, Fransanın tə'sir dairəsinə, Bessarabiya, Ukrayna, Krım müəyyən edilmişdi. Həmin müqaviləni Fransanın Nazirlər Şurasının sədri və Fransanın hərbi naziri Klemanso və Böyük Britaniyanın hərbi naziri Milner imzalamışdılar.

Lord Kerzon Qafqaza xüsusi maraq göstərirdi. O bir neçə il əvvəl Qafqazda olmuşdu. Gürcüstanın bolşeviklərin hakimiyyəti altında olacağını düşünəndə onu dəhşət bürüyürdü. Buna görə də o ingilis qoşunlarının Gürcüstanda qalmasının qızğın tərəfdarı idi. Onları əsasən cəlb edən Qafqaz nefti və oranın zəngin sərvətləri idi.

Gürcüstanın 1918-ci il mayın 28-də özünün dövlət müstəqilliyinin e'lan edilməsinin sabahısı günü alman qoşunları Gürcüstana daxil oldular. Almaniya öz qoşunlarını Gürcüstana göndərməkdə iki məqsəd güdürdü. Birincisi, Gürcüstanda möhkəmlənməklə zəngin təbii sərvətlərə malik olan Qafqazı ələ keçirmək, ikincisi, Türkiyənin cənubi Qafqaza sahiblənməsinə imkan verməmək idi. Alman generalı Lyudendorf öz xatirələrində yazmışdı; «Fevralın sonlarında (1918-ci ildə A.H.) türklər Kars və Batumi vilayətlərini işğal etdilər. Lakin onlar bununla kifayətlənmədilər. Onlar bütün Zaqafqaziyanı öz tə'sir dairələrinə salmağı nəzərdə tuturdular... Onlar Zaqafqaziyanın xammalından istifadə etmək kimi real məqsəd güdürdülər. Buna görə də biz özümüzdən asılı olmayaraq türklərin güddükləri məqsədləri ilə ziddiyyət təşkil edən mövqedə durmalı olduq...».

1918-ci ilin yayında ingilislər Bakıya gəldilər.

1918-ci ilin oktyabrında müttəfiqlər ilə Türkiyə arasında Mudrosda barışıq imzalandı. Barışıq sazişinin 11-ci maddəsinə əsasən türk orduları dərhal Zaqafqaziyanı tərk etməlidirlər. 15-ci maddəyə əsasən isə Zaqafqaziya dəmir yolu bütünlüklə müttəfiqlərin ixtiyarına verilir, müttəfiqlərin qoşunları tərəfindən Bakı və Batum tutulur.

Gürcüstan hökuməti Mudros sazişinin bağlanmasından sonra İngiltərənin tərəfinə keçdi və



İngiltərənin cənubi Qafqazda möhkəmlənməsinə tərəfdar olduğunu bildirdi.

1918-ci il dekabrın 31-də Böyük Britaniyanın Xarici İşlər Nazirliyi Gürcüstanın Londondakı nümayəndəliyinə nota göndərdi.Həmin notada deyilirdi ki, «Ali həzrət hökuməti Gürcüstan Respublikasının müstəqilliyinin e'lan edilməsinə hüsnü rəğbətlə yanaşır və sülh konfransında onu müdafiə etməyə hazırdır».

İngilis ordusu və ingilis nümayəndəliyi Gürcüstana gəldi.

Lakin İngiltərə verdiyi vədi yerinə yetirib Gürcüstan məsələsini sülh konfransının müzakirəsinə çıxarmağa tələsmirdi.

1919-cu il avqustun 11-də Onlar şurasının iclasında Ermənistanda müttəfiqlərin ali komissarı, amerikan polkovniki Haskelin məktubu ilə əlaqədar olaraq meydana çıxdı. O məktubda söhbət əsasən Ermənistana ərzaq yardımı göstərilməsi haqqında gedirdi. Həmin məktubda Haskel göstərirdi ki, ingilis qoşunları Qafqazı tərk edəndən sonra bura italyan qoşunları gəlməlidir. Lakin İtaliya öz qoşunlarını Qafqaza göndərmək istəmir. İtaliya Gürcüstana öz qoşununu göndərməsindən imtina etməsinin səbəblərini izah etməlidir.

Bu məsələ müzakirə edildi və müttəfiqlər razılığa gəldilər ki, Gürcüstanda ingilis qoşununu italiyanlar əvəz edəcəklər. İtaliya hökuməti, baş nazir Orlanda buna həvəslə razı oldu. Lakin 1919-cu ilin iyununda Orlando hökuməti istefa verdi. Onu Nitti əvəz etdi. O yazmışdı ki, mən 1919-cu ilin iyununda hakimiyyətə gələndə Gürcüstana göndərilmək üçün İtaliya hərbi ekspedisiyası artıq hazır idi. Həm hökumət, həm də ağıllı italyan maliyyəçiləri bu ekspedisiyanın tərəfdarı idilər.

Amerikan polkovniki Haskelin məktubunu dinlədikdən sonra Onlar şurası Zaqafqaziya və oranın əhalisinə ərzaq köməyi göstərmək haqda məsələnin müzakirəsinə başladı.

Böyük Britaniyanın Xarici İşlər Naziri Balfur mə'lumat verdi ki, konfransa mə'lumdur ki, Britaniya ordusunu İtaliya ordusu əvəz edəcək. Lakin onda belə bir təsəvvür yaranıb ki, İtaliya bu vəzifənin öhdəsindən gələ bilməyəcək. Nəticədə Britaniya ordusu gedəcək. İtaliya ordusu isə onu əvəz edə bilməyəcək.

Tittoni bildirdi ki, İtaliya Gürcüstana və Azərbaycana qoşun göndərməyə razılıq vermişdi. Əgər İtaliya Gürcüstana mandat alarsa, o ölkənin müdafiəsini də öz üzərinə götürməlidir. Lakin o bunun öhdəsindən gələ bilməz. Onun mühafizə etməli olacağı sahə çox genişdi. Bakı-Batum arasındakı dəmir yol xətti çox uzundu. Onu mühafizə etmək üçün 40 min əsgər, onları daşımaq üçün əlavə vəsait və ərzaq lazımdır. Buna çəkiləcək xərc ildə 1 mlrd. lirə təşkil edəcək. İtaliya isə bunun öhdəsindən gələ bilməz.

Tittoninin bu mülahizələri İtaliyanın imtina etməsi demək idi.

Onda Klemanso soruşdu: Birləşmiş Ştatlar nə isə etmək istəyirmi? Buna Polk, (ABŞ-ın nümayəndəsi) cavab verdi ki, Ermənistan üzərində Amerikanın mandatlığı Prezident tərəfindən Konqresin qarşısında qoyulubdur. Klemanso müzakirəni belə yekunlaşdırdı. Fransa heç nə edə bilmir, İtaliya heç nə edə bilmir. Böyük Britaniya heç nə edə bilmir və hazırkı anda Amerika da heç nə edə bilmir. Onlar Şurası Haskelin məktubunda qaldırılan məsələlər barədə heç bir qərar qəbul edə bilmədi.

Paris sülh konfransında «Ermənistan məsələsi» adlanan məsələyə böyük diqqət verildi. Mə'lum olduğu kimi, bu məsələ XIX əsrdə Osmanlı imperiyasının



mövcud olduğu dövrdə dəfələrlə Avropa diplomatiyasının diqqət mərkəzinə çıxarılmışdır.

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi dağılan gün Türkiyə Zaqafqaziya hökumətinə ultimatum verdi. Bu ultimatumda Naxçıvan, Şərur, Sürməli və bütün Axalkalak qəzalarının, İrəvan qəzasının yarısının, Eçmiədzin qəzasının Aleksandropol şəhəri ilə birlikdə Aleksandropol qəzasının Türkiyəyə verilməsi, Zaqafqaziya dəmir yolu vasitəsi ilə öz qoşunlarının maneəsiz daşınması tələb edilirdi.

1918-ci il iyunun 4-də Ermənistan daşnak hökuməti Batumda Türkiyə ilə müqavilə imzaladı.

Antanta dövlətləri bu müqaviləyə öz münasibətlərini bildirdilər. 1918-ci il iyulun 14-də Klemanso bildirdi ki, Fransa hökuməti erməni xalqının taleyini insanlıq və ədalətlilik prinsipləri əsasında qurmaq fikrindədir. Böyük Britaniyanın Xarici İşlər Naziri Balfur e'lan etdi ki, erməni xalqının taleyi «Xalqların öz müqəddəratını tə'yin etmək prinsipləri əsasında» həll ediləcək. Noyabrın 26-da italyan parlamentində baş nazir Orlanda vəd etdi ki, Ermənistanın siyasi müstəqilliyinə nail olmağa çalışacaq.

Ermənistan məsələsi müttəfiqlər tərəfindən baxılmaq üçün Paris sülh konfransının rəhbərliyinə təqdim edildi və Türkiyənin bölünməsi ilə birlikdə baxılması qərara alındı. Məhz bu səpkidə 1919-cu il martın 20-də Dördlər Şurasının iclasında Ermənistan məsələsi müzakirə edildi.

Dördlər Şurasının mayın 13-də keçən iclasında Lloyd corc Türkiyə üzərində mandatlığın bölünməsini irəli sürdü. Türkiyə ABŞ, Fransa, İtaliya və Yunanıstan arasında bölünməli idi. Böyük Britaniya İrak və Fələstin üzərində, Fransa isə Suriya üzərində mandat alırdılar.

Lloyd corcun bölgüsünə görə ABŞ İstanbul və Ermənistan, Fransa Şimali Anadolu, İtaliya cənubi

Anadolu, Yunanıstan Smirnı və Dodekanez üzərində mandat almalıdırlar.

1919-cu ilin yayında Hasgel Qafqaza gəldi. Onun qərargahı İrəvanda yerləşirdi. Ermənistan nümayəndələri ilə ilk görüşdə Hasgel bildirdi ki, Paris sülh konfransı ona vəkalət vermişdi ki, Ermənistanı və harada yaşamalarından asılı olmayaraq erməniləri qorusun.

Onları cəlb edən başlıca amil Bakı nefti idi. 1919-cu ilin payızında Azərbaycan və Gürcüstan nümayəndələri Qafqaz respublikaları məsələsinin həllinin sür'ətləndirilməsi barədə sülh konfransının sədrinə və beşlər şurasının üzvlərinə müxtəlif formalarda dəfələrlə müraciət etmişdilər.

Lakin qərb dövlətləri tələsmirdilər. Onların Qafqaza, xüsusilə Azərbaycana xüsusi maraqları var idi. 1918-ci ilin oktyabrında ingilis jurnalı «Nir ist» yazmışdı: «Neft sahəsində Bakının bərabəri yoxdur. Bakı - dünyanın ən böyük neft mərkəzidir. Əgər neft kraldırsa, Bakı onun tacıdır».

Azərbaycan haqqında məsələnin adı ilk dəfə Dördlər Şurasının 1919-cu il 2 may tarixli iclasında çəkilmişdi. Vilson tələb etmişdi ki, Azərbaycan hökumətinin nümayəndəliyi Parisə buraxılsın.

Paris sülh konfransında Azərbaycan Xalq cümhuriyyəti nümayəndə heyəti və xüsusilə onun sədri Ə.M.Topçubaşov Azərbaycan həqiqətlərinin təbliğ edilməsi, onun müstəqilliyinin tanınması sahəsində çox sahəli və gərgin fəaliyyət göstərmişdir. O mümkün olan hər cür vasitələrdən - mətbuatdan, şəxsi görüşlərdən, kitablar buraxmaqdan və s. istifadə etmişdir. Hətta Azərbaycanı ABŞ-da təbliğ etmək, Azərbaycan gerçəkliyini Amerikan ictimaiyyətinə çatdırmaq məqsədi ilə ABŞ-ın hakim dairələrinə və prezident Vilsonla yaxın münasibətdə olan vəkil V.Çanderlə 1919-cu ilin sentya-



brında kontrakt imzalanmış və o, üç ay müddətinə Azərbaycan nümayəndə heyətinə təbliğat məsələləri üzrə hüquq məsləhətçisi qəbul edilmişdir.

ABŞ-ın nümayəndəsi Polkun təklifi ilə nümayəndənliklərin başçılarının 1919-cu il noyabrın 15-i tarixli iclasında Haskelin səlahiyyətinin Gürcüstana və Azərbaycana aid edilməsi haqda qərar qəbul edildi. Həmin iclasda hər üç respublika barədə siyasətin müəyyən edilməsi üzərində də söhbət getdi. Lloyd corc Gürcüstan, Bessarabiya, Ukrayna, Baltik sahili ölkələri, Finlandiya və Sibirlə yanaşı, Azərbaycanın da müstəqil olmasını irəli sürmüşdü.

Nümayəndəliklərin başçıları şurasının 1920-ci il yanvar sessiyasında cənubi Qafqaz respublikaları haqqında məsələ çox ətraflı müzakirə edildi. Şuranın 1920-ci il yanvarın 10-u tarixli iclasında Lloyd corc Qafqaz haqqında həyəcanlı xəbərlər gəldiyi barədə mə'lumat verdi. Klemanso təklif etdi ki, Britaniya nümayəndəliyi bu məsələyə dair ətraflı memorandum hazırlasın və onun əsasında Şura həmin məsələni Versal-hərbi ekspertlər şurasına verə bilsin.

Britaniya nümayəndəliyi memorandumu hazırlayarkən, onun Versalda müzakirəsinə qədər Şura cənubi Qafqaz respublikaları haqqında məsələyə siyasi cəhətdən baxdı və Lord Kerzon aşağıdakı mülahizələri hökumət başçılarının müzakirəsinə verməyi təklif etdi. Ermənistanın taleyi bütün Türkiyə problemi ilə birlikdə sülh konfransında həll ediləcək. Qalır Gürcüstan və Azərbaycan. Yanvar ayının 11-də müttəfiqlərin Ali Şurası aşağıdakı məzmunda bir qərar qəbul etdi. Başlıca müttəfiq və də'vət olunmuş dövlətlər birlikdə Gürcüstan və Azərbaycan hökumətləri de-fakto tanıyırlar.

Məsələnin müzakirəsi Baş Nazirlər şurasının 1920-ci il 17 yanvar tarixli iclasında davam etdirildi. İclas

ingilis nümayəndəliyinin cənubi Qafqaz Respublikaları haqqında memorandumunu müzakirə etdi.

Memorandum Qafqazda ümumi vəziyyətin təhlili ilə başlanır və aşağıdakı məzmunda qərar qəbul edilməsi təklif olunurdu.

1. Gürcüstanı və Azərbaycanı müttəfiq kimi tanımaq (bu artıq edilmişdi).

2. Denikinə göndərilən və yolda olan bütün ehtiyatlar bu respublikalara və Ermənistana yönəldilsin.

3. Gürcüstana, Azərbaycana və Ermənistana müttəfiqlər əlavə kömək versinlər:

a) maliyyə;

b) hərbi sursat, xüsusi ilə patron və ayaqqabı;

v) Ərzaq, xüsusilə çörək;

4) Batumu və Bakını müdafiə etmək üçün kifayət qədər hərbi kömək;

5) Bolşeviklərin Xəzər dənizinə və donanmaya buraxılmaması. Denikinin donanmasını ya könüllü surətdə məhv etmək, ya da özümüzün xidmətinə götürmək.

Qərb dövlətlərini hər şeydən əvvəl, Bakı və Batum maraqlandırırdı. Bakı neft demək idi, Batum isə onun Avropaya çatdırılması üçün çox vacib idi.

İngilis layihəsini müzakirə edən hərbi ekspertlər, Baş Nazirlər şurasına mə'lumat verdilər. Əgər bolşevizmə qalib gəlmək mümkün olmasa, bir neçə təhlükəli məntəqələrdə hərbi sədlər yaradılsın. Onlardan biri Qafqaz olmalıdır. Buna görə də Qafqazda hərbi səd yaratmaq məsələsi müzakirə edilməlidir. Onlar müttəfiq dövlətlərin zabitlərinin komandanlığı altında cənubi Qafqaza qoşun göndərilməsini, Xəzər dənizinə sahiblənməyi irəli sürürdülər. İngilis donanmasının Xəzərə daxil olması da həmin təkliflərdə mühüm yer tuturdu.

Lord Kerzon cənubi Qafqaz Respublikalarının nümayəndələri ilə söhbət etdi. Kerzon dedi ki, onlar



mənə bildirdilər ki, bolşeviklər onlara hücum etmək fikrindədirlər.

Gürcüstan və Azərbaycanın nümayəndələrini dinləmək qərara alındı. Klemanso bildirdi ki, biz inanırıq ki, siz bolşeviklərin güman edilən hücumu və sizin malik olduğunuz müdafiə vasitələri haqqında mə'lumat verəcəksiniz. Biz bilmək istəyirik ki, siz bizim sizə göstərəcəyimiz köməkdən istifadə edə biləcəksinizmi? Bəlkə elə də ola bilər ki, bizim göndərdiyimiz kömək bolşeviklərin əlinə düşər və onda daha pis vəziyyət yaranar.

Gürcüstan və Azərbaycan hökuməti adından danışan Sereteli dedi ki, yəqin ki, hər iki respublika bolşeviklərin hücumuna mə'ruz qalacaqlar. Əgər Antanta onlara kömək göstərsə,onda bolşeviklər hücum etməkdə tərəddüd edərlər. Klemansonun hansı kömək sizə lazımdır? - sualına həm hərbi, həm də maddi kömək göstərilməsinin vacib olduğu cavabı verildi. Mə'lumat dinlədildikdən sual-cavabdan sonra Gürcüstan və Azərbaycan nümayəndələri iclas zalını tərk etdilər. Şura mahiyyətcə məsələni müzakirə etməyə başladı. Çerçill marşal Foşdan soruşdu ki, o, Qafqaz məsələsinə müstəqil məsələ kimi, yoxsa «bolşevizmə qarşı ümumi müdafiənin» bir hissəsi kimi baxır? Foş cavab verdi ki, bu məsələyə bolşevizmə qarşı ümumi müdafiə məsələsinin bir hissəsi kimi baxır.

Lloyd corc təkrar Foşdan soruşdu. Sovet Rusiyasına hücum etmək üçün o, müxtəlif dövlətlər arasında hərbi ittifaqı təklif edirmi?

Marşal Foş göstərdi ki, birinci məsələ bolşeviklərin hücumunun qarşısını almaq və yaradılmış dövlətlərin möhkəmləndirilməsinə nail olmaqdır.

Foş Rumıniya, Litva, Latviya, Estoniya, Finlandiya və Polşa arasında Antanta yaradılmasını təklif etdi.

Zaqafqaziya dövlətləri də bu Antantaya qoşula bilərlər. Beləliklə, bolşevizm mühasirədə qalar.

Lloyd corc soruşdu ki, bolşeviklər bu ölkələrə hücum etməyə hazırlaşdıqlarını o bilirmi? Foş belə cavab verdi: müəyyən hadisələr baş verməyincə bu suala cavab vermək olmaz.

Lloyd corc cənubi Qafqaz Respublikalarına kömək göstərilməsinin zəruriliyini qeyd etdi və göstərdi ki, bu dövlətlər bütün vasitələrdən istifadə edib Bakını bolşevizmdən qorumalıdırlar.

Göründüyü kimi, Qərb dövlətlərinin hər cür ciddi-cəhdlərinə baxmayaraq onlar cənubi Qafqaz respublikalarının - Gürcüstanın, Azərbaycanın və Ermənistanın müstəqilliyinin qorunub saxlanması üçün real heç bir iş görə bilmədilər.

Birinci dünya müharibəsi bəşəriyyət üçün ən faciəli müharibələrdəndir. Təkcə döyüş meydanlarında on milyon əsgərin meyidi qalmışdı.

Müharibə nəticəsində 20 milyon adam öldürülmüş, Avstriya-Macarıstan imperiyası yer üzündən silinmiş, dörd sülalədən üçü - Almaniyada, Avstriyada və Rusiyada hakimiyyətdən devrilmişlər. Təkcə Böyük Britaniyada kral evi hakimiyyətini saxlaya bilmişdi.

Birinci Dünya müharibəsinin nəticələri onda iştirak edən dövlətlər üçün heç də bərabər olmamışdı. Məsələn, Serbiya ondan qalib kimi çıxmış, öz milli müstəqilliyini qoruyub saxlamışdı. Avstriya-Macarıstan-Habsburqlar monarxiyası isə hissələrə parçalanmışdı. Almaniya da çox şey itirmişdi.

Üçlər ittifaqı, ləğv edilmişdi.

Böyük Britaniya, Fransa, ABŞ və digər dövlətlər müəyyən dərəcədə istədiklərinə nail olmuşdular.

Birinci Dünya müharibəsini üç mərhələyə bölmək olar. Birinci mərhələdə müharibə lokal xarakter daşımış, Serbiya-Avstriya-Macarıstan müharibəsi kimi



başlamışdır. İkinci mərhələdə Almaniya, Fransa, İngiltərə, Rusiya müharibəyə qoşulmuş, lokal müharibə xarakterini dəyişərək, bütün Avropanı əhatə etmiş, ümumavropa müharibəsinə çevrilmişdi. Üçüncü mərhələdə ABŞ-ın, Yaponiyanın və digər ölkələrin müharibəyə qoşulması ilə o dünya müharibəsi xarakteri almışdı. O dövrdə beynəlxalq münasibətlər də məhz bu mərhələlərə uyğun cərəyən etmişdir. Dövrün mürəkkəbliyi, hadisələrin müxtəlifliyi, maraq və mənafelərin ziddiyyətliliyi bu münasibətlərdə öz əksini tapmışdır.

# NƏTİCƏ

Frankfurt sülhündən, Berlin konqresindən sonra beynəlxalq münasibətlər yeni mərhələyə daxil olmuşdu. Böyük dövlətlər arasında gah Avropada və Asiyada, gah Afrikada və Amerikada tez-tez ixtilaflar, toqquşmalar, müharibələr başlayırdı. Onlardan hər biri ayrılıqda daha çox ərazi tutmağa cəhd edirdi.

Bu dövrdə Almaniyanın xarici siyasətində başlıca yeri Fransanı təklikdə saxlamaq, Rusiya və İngiltərə ilə onun yaxınlaşmasına imkan verməmək tutmuşdu. Bu siyasətini həyata keçirməkdə Almaniya Avstriya-Macarıstana və İtaliyaya söykənmişdi.

İngiltərə isə qarşısına qoyduğu məqsədinə nail olmaq, müstəmləkələrdə və beynəlxalq sularda öz üstünlüyünü saxlamaq üçün Rusiya və Fransaya yaxınlaşmağa üstünlük verirdi. Lakin bə'zi hallarda, dünyanın bu və ya digər hissəsində öz işğalçılıq, yeni tə'cir dairələrinə sahiblənmək planlarını həyata keçirmək naminə o, bu ən'ənəvi siyasətindən yana çəkilmiş, üzünü bə'zən Almaniyaya, Yaponiyaya, İtaliyaya çevirməli olmuşdu. Lakin onlar arasında mövcud olan ziddiyyətlər (Almaniyanın beynəlxalq sularda İngiltərəyə qarşı potensial rəqib olması, onun müstəmləkələrinə göz dikməsi, Aralıq dənizində İtaliya maraqlarının toqquşması, Uzaq Şərqdə, Çində Yaponiya ilə), onların yaxınlaşmasını qısamüddətli etmişdi. Fransanın məqsədi isə başlıca olaraq Frankfurt sülhü nəticəsində Almaniya tərəfindən işğal olunmuş Elzas-Lotaringiyanın geri qaytarılması, Almaniyadan qisas almaq olmuşdu.

Rusiyanın xarici siyasətinin mərkəzində əsasən Uzaq Şərq, Yaxın Şərq, Orta Asiya, balkanlar və



boğazlar məsələləri durmuşdu. Bu regionlarda cərəyan edən hadisələrlə bağlı olaraq Rusiya özünün konkret fəaliyyət xəttini müəyyən etməli olmuşdu.

Rusiya balkanlarda yaşayan slavyanların problemləri ilə bağlı məsələlərə daha çox diqqət verirdi. Balkanlar məsələsi həm də boğazlar məsələsi ilə sıx bağlı məsələ idi. Avropanın bütün böyük dövlətlərinin maraqlarının kəsişdiyi boğazlar məsələsi Rusiyanı xüsusi ilə narahat edirdi. Boğazlar Qara dənizin təhlükəsizliyinin tə'min edilməsi məsələsi idi. Rusiya hökuməti üçün aydın idi ki, hansı dövlət Balkan yarımadasında üstünlüyə nail olardısa, o dövlət boğazlarda da öz üstünlüyünü tə'min etmiş olardı.

Birinci dünya müharibəsi ona görə başladı ki, digər səbəblərlə yanaşı, vəliəhdin qətli ilə yaranmış böhran nəzarətdən çıxdı, liderlərdən heç biri geri çəkilmək istəmədi.

Orta və Yaxın Şərqdə, Uzaq Şərqdə, onun bilavasitə sərhədlərinin yaxınlığında olan Çində yeni tə'sir dairələrinə malik olmaq, mövqelərinin təhlükəsizliyini tə'min etmək də Rusiyanın xarici siyasətində mühüm yer tuturdu.

Uzaq Şərqdə, Çində, Əfqanıstanda, Orta Asiyada Rusiyanın, İngiltərənin, ABŞ-ın, Yaponiyanın, Fransanın maraqları toqquşurdu.

Xüsusi ilə XIX əsrin sonlarında və XX əsrin əvvəllərində İngiltərə, ABŞ, Yaponiya, Almaniya Uzaq Şərqdə, Çində öz tə'sir dairələrini genişləndirmək uğrunda daha fəal mübarizəyə qoşuldular. Onların bu fəaliyyəti əsasən Rusiyaya qarşı yönəldilmişdi. Rusiyaya qarşı Yaponiyanı qızışdıran, onun bütün işğalçılıq planlarına rəvac verən İngiltərə, ABŞ bir az

sonra Yaponiyanın təcavüzkar siyasəti ilə üz-üzə dayanmalı oldular.

Beləliklə, beynəlxalq münasibətlərin ən kəskin və ziddiyyətli nöqtəsi indi Avropadan, Afrikadan Uzaq Şərqə, Şərqi Asiyaya keçmiş oldu.

Çünki bu dövrdə artıq Afrikanın bölüşdürülməsi əsasən başa çatmışdı. Uzaq Şərq, Şərqi Asiya, Çin qərb dövlətləri üçün hələ tam açıq deyildi, kontrlar dumanlı, beynəlxalq münasibətlərin istiqamətləri isə hələ şəffaf deyildi.

Beləliklə, 1871-1919-cu illərdə gah Avropada, gah balkanlarda, boğazlarda, Afrikada, Amerikada, gah da cənub-Şərqi Asiyada, Yaxın Şərqdə, Uzaq və Orta Şərqdə ixtilaflar kəskinləşir, mövqelər, maraqlar üz-üzə dayanır, ziddiyyətlər gah alovlanır, həddini aşmaq dərəcəsinə çatır, regional müharibələrlə nəticələnir, gah da səngiyir, sönürdü.

Bütün bunlarda biz böyük dövlətlərin öz xarici siyasətlərində müxtəlif diplomatik kanallara, fəndlərə, diplomatik üsullara və metodlara əl atdıqlarının şahidi oluruq.

İspan-amerikan, ingilis-bur, Yapon-Çin, rus-türk, rus-yapon və birinci dünya müharibələri dünya siyasi sisteminin formalaşmasının mühüm anlarını təşkil etmişlər.

XIX əsrin birinci yarısında beynəlxalq münasibətlərin fəal cərəyan etdiyi mərkəz Avropa idi.

Lakin XIX əsrin ikinci yarısından bu üstünlük Avropanın əlindən tədricən çıxmağa başlayır. İndi beynəlxalq münasibətlərin yeni sistemləri - Şimali Amerika, Avroasiya, Uzaq Şərq, Şərqi Asiya, Afrika sistemləri yaranmağa başlayır.



Birinci dünya müharibəsinin sonlarında artıq beynəlxalq münasibətlərin iki bütöv sistemi, Avropa-Atlantika, Asiya, Sakit okean sistemləri formalaşır.

Əlbəttə, beynəlxalq münasibətlərin bu iki sistemində mərkəzi rolu yenə Avropa oynayırdı.

XIX əsr, ondan əvvəlki əsrlərə nisbətən demokratiyanın, azadlığın nisbətən daha geniş vüs'ət aldığı əsrdir. İndi artıq Avropa dövlətlərinin böyük əksəriyyətində konstitusiya, parlament üsul idarəsi qalib gəlmiş, tək şəxsin-monarxın mütləq hakimiyyətinə son qoyulmuşdu. Monarxların qaldıqları ölkələrin əksəriyyətində, Rusiya istisna olmaqla, parlament seçkiləri nəticəsində əksəriyyət qazanmış partiyaların liderləri baş nazir, kansler, xarici işlər nazirləri və i.a. beynəlxalq münasibətlərdə mühüm rol oynayırdılar.

Rusiyada da artıq çar, hakimi mütləq kimi hərəkət etmirdi. Beynəlxalq problemlər əsasən çarın yanında fəaliyyət göstərən xüsusi Məsləhət şurasında həll edilir, qərarlar qəbul olunurdu.

Dövlət quruculuğunda, ölkənin idarə edilməsində özünü büruzə verən bu demokratik istiqamət beynəlxalq problemlərin həllində də özünü göstərirdi. Artıq kollektiv diplomatiya meydana çıxır. Böyük dövlətlərin maraqlarında olan xarici siyasət problemləri onların iştirakı ilə beynəlxalq konfranslarda müzakirə edilirdi. Qəbul edilmiş qərara, bu və ya digər dövlətin həmin qərardan razı olub-olmamasından asılı olmayaraq, onun bütün iştirakçıları tərəfindən əməl edilirdi.

Bu dövrdə ən'ənəvi diplomatiya ilə yanaşı digər diplomatiya formalarından da - iqtisadi, maliyyə, dollar diplomatiyasından, bloklar və vasitəçilik diplomatiyasından da geniş istifadə edilmişdir.

Afrikada, Asiyada, Amerikada, Yaxın, Orta və Uzaq Şərqdə bu və ya digər ərazilər dünyanın böyük dövlətləri tərəfindən əvvəlcə iqtisadi, maliyyə əsarətinə alınır, sonra onların müstəmləkələrinə çevrilirdilər.

Qərb dövlətləri özlərinin bu tarixi ən'ənələrinə sadiq qalaraq indi də öz xarici siyasətlərində yuxarıda sadaladığımız diplomatik priyomlardan yeri gəldikcə geniş istifadə edirlər.

Fikrimizcə, beynəlxalq münasibətlərdə demokratik prinsiplərin bərqərar olması XXI əsrdə daha geniş vüs'ət alacaq. Müasir dünyanın bütün dövlətlərini özündə birləşdirən Birləşmiş Millətlər Təşkilatının beynəlxalq və regional münasibətlərə dərin nüfuz etməsi, müxtəlif qit'ələrdə digər kollektiv beynəlxalq orqanların yaradılması və həmin qit'ənin problemlərinin həllində onların fəal iştirak etmələri, bütün münaqişələrin sülh yolu ilə həll edilməsinə yönəldilmiş kollektiv və fərdi tədbirlərin görülməsi, yeni dünya müharibəsinə gətirə biləcək meyllərin və istiqamətlərin vaxtında qarşısının alınması yolunda böyük dövlətlərin və beynəlxalq təşkilatların atdıqları addımlar yuxarıdakı nəticəyə gəlməyə əsas verir. Belə şəraitdə bu və digər hökumət başçısının, dövlətin özünün şəxsi kaprizləri, şəxsi ehtirası üzündən sülhü poza biləcəyinə inam getdikcə azalır.

Bütün bunlar belə qənaətə gəlməyə imkan verir ki, XXI əsr əsasən sülh əsri, dünya xalqlarının bütün sahələrdə inkişaf və tərəqqisinin yeni intibah əsri olacaqdır.






*1877-1878 illərdə Rusiya ilə Türkiyə müharibəsinin ərazi xəritəsi*



*Frans İosif, Avstriya - Macarıstan imperatoru*



*III-cü Aleksandr, Rusiya imperatoru (ömrünün son ili)*



II-ci Vilhelm, Almaniya imperatoru



***Vilson, Uinston Tomas Vudro (1856-1924)*** *- ABŞ-nın dövlət xadimi fəlsəfə doktoru (1886). Hüquq professoru (1890-1902), Priniston universitetinin rektoru (1902-1910), Nyu-Cersi ştatının qubernatoru (1910-1912), ABŞ-nın prezidenti (1912-1921).*



***Bismark Otto Eduard Leopold fon Şyonxauzen (1815-1898)*** *- Almaniyanın dövlət xadimi, Prusiyanın birləşmiş Landtaktının deputatı (1847-1848), Rusiyada səfir (1851-1859), Fransada səfir (1802), Prusiyanın prezidenti və xarici işlər naziri (1866-1871), Almaniya imperiyasının reyx kansleri və xarici işlər naziri (1871-1890).*



***Qorçakov Aleksandr Mixayloviç (1798-1883)*** *- Rusiyanın dövlət xadimi. Vyanada Rusiya səfiri (1833), dövlət kansleri, xarici işlər naziri (1866-1882). XIX əsrin II yarısında Rusiyanın xarici siyasəti Qorçakovun adı ilə bağlıdı.*



***Dizraeli Bencamin, lord Bikonsfild (1804-1881)*** - *İngilis dövlət xadimi, yazıçı, "Vivian Qrey", "Kontarini Fleminq" və digər romanların müəllifi, 1848-ci ildən torilər partiyasının lideri, Maliyyə naziri (1866-1868), baş nazir (1874-1880), 1876-ci ildə ona Bikonsfild lord titulu verilmişdir.*



***Andraşi Dyul, qraf (1823-1890)*** - *Macarıstanın siyasi və dövlət xadimi, 1848-1849-cu illər inqilabının iştirakçısı, inqilab məğlub olandan sonra Fransa, qiyabi ölümə məhküm edilmiş. 1857-ci il amnistiyasından sonra Macarıstana qayıtmış və Frans-İosifə sadəqətli olacağına andiçmiş, 1861-ci ildə Macarıstan dövlət məclisinə deputat seçilmiş, Macarıstanın baş naziri (1867-1871), Avstriya - Macarıstanın xarici işlər naziri (1871-1879).*



***Qrey Eduard (1862-1933)*** *- İngilis dövlət xadimi, Parlamentin üzvü (1885-ci ildən), xarici işlər nazirinin müavini (1892-1845), xarici işlər naziri (1905-1916).*

*Xesloxlun işlədiyi qravyur*

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


История Дипломатии. Том второй (1872-1919 гг.) Под редакцией академика В.П.Потемкина. М., 1945.

История Дипломатии. Том второй (1871-1914 гг.). Автор тома В.М.Хвастов. М., 1963

Международные отношения на Дальнем Востоке. (1870-1945 гг.). М., 1951.

А.С.Ерусалимский - «Внешняя политика и дипломатия Германского империализма в конце XIX века». М., 1951.

А.З.Манфред. Внешняя политика Франции (1871-1891 гг.) М., 1952.

Доналд Маклейн. Внешняя политика Англии после суеца. М., 1972.

А.Дебидур. «Дипломатическая история Европы». От Венского Конгресса до Берлинского Конгресса (1814-1878 гг.). том второй. М., 1947, 1999.

В.Борисов. Русско-французские отношения после Франкфуртского мира. М., 1951.

А.Мортон- История Англии. М., 1950.

Б.Е.Штейн «Русский вопрос» на Парижской Мирной Конференции (1919-1920 гг.). М., 1949.

Е.Л.Штейнбург. История Британской агрессии на Среднем Востоке. М., 1951.

Е.Черняк. «Секретная дипломатия Великобритании» (Из истории тайной войны). М., 1975.

Ф.Нитти. Европа без мира. «Петроград» Л.-М. 1923 г.

Фридрих Лоренц. История новейшего времени. Санкт-Петербург, 1871 г.

Р.Ю.Виппер. История нового времени. М., ЧЕРО. 1999 г.

Б.И.Марушкин. История и политика. М., 1969 г.

M.Qasımov. M.Abdullayev. Beynəlxalq münasibətlər tarixi (XX əsr I hissə. 1900-1943-cü illər). Bakı, 1998-ci il.

M.Qasımov. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998.

M.Qasımov. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). Bakı, 2000.

Р.Дж.Коллингвуд. Идея истории. Автобиография. М., 1980г.
Ю.А.Писарев. Тайны первой мировой войны. М., 1990 г.
И.А.Белявская. Теодор Рузвелт и общественно-политическая жизнь. М., 1978 г.
А.И.Уткин. Дипломатия Вудро Вилсона. М., 1989 г.
В.Г.Трухановский. Уинстон Черчилл. М., 1947 г.
Э.Дзелепи. Секреты Черчилля. М., 1979 г.
О.Бисмарк. Мысли и воспоминания. Т.1-3.М.,940-41 гг.
Дневник Д.А.Милютина. т. I, III. М., 1950 г.
А.Г.Извольский. Воспоминания. М., 1989 г.
Испания и Португалия. М., 1947 г.
Зарубежные страны (Политико-экономический сборник). М., 1957 г.
Джафахарлал Неру. Взгляд на всемирную историю. Том II, М., 1981 г.
А.Горев, В.Зимянин. Неру. М., 1980 г.
Е.В.Тарле. Европа в эпохи империализма (1871-1919).
Европейский конгресс великих держав в Берлине 1877 г. после русско-турецкой войны. М., 1978 г.
А.С.Ерусалимский. Из истории империалистической политики Англии на Дальнем Востоке в конце XIX века. Журнал «Вопросы истории» №5. 1951 г.
Новая история. (1870-1918) т. II.
Генри Киссинджер. Дипломатия, М., 1997 г.
Cəmil Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920. Bakı, 1993.
Восточный вопрос во внешней политике России. Конец XVIII - начало XX в. М., 1978.
М.С.Альперович, Л.Ю.Слезкин. История латинской Америки. М., 1981.
Oral Sander. Сийаси Тарищ. Илкчаьлардан 1918, 4 баскы. Анкара, 1995.
Проф. Др. Фащир Армаоьлу. 20 Йцзйыл Сийаси Тарищи. 1914-1990. жилт I, Анкара, 1993.
43.Цыганков П.А. Международные отношения. Москва, 1996.
Оболенская С.В. Франко-прусская война и общественное мнение Германии и России. М., 1977.



Ерусалимский А.С. Бисмарк. Дипломатия и милитаризм. М., 1968.
Майский И.М. Испания 1808-1917 г.г. Исторический очерк. М., 1957.
Германская история в новое и новейшее время. В 2-х т. М., 1970.
История Франции (под ред. А.З.Манфреда и др.) В 3-х т. М., 1972-1973, т.2.
Манфред А.З. Образование русско-французского союза. М., 1975.
Дементьев И.П. Идейная борьба в США по вопросам экспансии (на рубеже XIX -XX вв). М., 1973.
Козенко Б.Д. «Новая демократия» и война: Внутренняя политика США (1914-1917). Саратов, 1980.
Кирова К.Э. Итальянская экспансия в Восточном Средиземноморье в начале XX в. М., 1973.
История Италии. В 3-х т. М., 1970-171, т.2.
Халифин Н.А. Политика России в Средней Азии. М., 1960.
Риштия С.К. Афганистан в XIX веке. М., 1958.
Большая Советская Энциклопедия. М.,1970-1978 гг.
Морион А.Л. История Англии. М., 1950.
Руир. Англо-Русское соперничество в Азии в XIX в. М., 1924.
Денисова Л.Ф. Мировая война 1914-1917. М., 1964.
Бутинова Н. Первая Мировая война. М., 1971.
Шаревская Б.И. Мировая войны XX века. М., 1991.
Ахелис Т. Англо-Франко-Германские отношения в начале XX века. М., 1992.
Рочинский Ю.А. Театр политических действий в начале XX века. М., 1989.
Матвеев В. Первая мировая и Россия. М., 1987.
Леменов И.И. Европейская дипломатия накануне первой мировой войны. М., 1990.
Ефимов Л.М. Анго-германские отношения 1910-1917. М., 1991.
Левин С.Ф. Германия: факты и коментарии. М., 1989.
Прошин Н.А. Причины и результаты первой мировой войны. М., 1976.
Иноземцев Н.Т. Симоносекский мир. М., 1971.
История Кореи. М., 1971.

Исаков Н. Социально-политические реформы в Японии (II половины XIX века). М., 1965.
Котлов И.С. Япония в конце XIX начало XX вв. М., 1962.
Тобосоки С. Из истории дипломатических отношений Японии. Перевод с Японского. Под редакции Н.Т.Павлова. М., 1956.
Ovçinnikov V. Sokura budağı. B., 1982.
Внешняя политика Японии во второй половине XIX в., М., 1962.
Внешняя политика России в конце XIX начале XX вв. М., 1982.
Коленковский А. Турция: Внешняя политика 1900-1925. М., 1949.
Лемин М. Ближневосточная политика Англии. М., 1950.
Мельник А. Турция М., 1966.
Миллер А.Ф. Очерки новейшей истории. М., 1948.
Кряжин В.А. Ближний Восток и державы. М., 1961.
Табохоси Киеси. Дипломатия и дипломатическая история Японо-китайской войны (1894-1895). Пер. с япон. М., 1956.
Фурсенко А. Борьба за раздел Китая и американская доктрина открытых дверей 1895-1900. М., 1956.
Зубок Л.И. Очерки истории США (1877-1918). М., 1956.
США и Филиппины. М,, 1959.
Губер А.А. Филиппинская республика 1898 года и американский империализм. М., 1961.
Дулина Н. Османская империя в международных отношениях. М., 1980.
Чихачев П.А. Великие державы и Восточный вопрос. М., 1970.
Новичев А.Д. Турция. Краткая история. М., 1965.
Писарев Ю.А. Великие державы и Балканы накануне первой мировой войны. М., 1985.
Серова О.В. От Тройственного Союза к Антанте: итальянская внешняя политика и дипломатия в конце XIX-начале XX в. М., 1983.
Очерки политической истории Румынии. 1859-1944. Кишинев, 1985.



Залышкин М.М. Внешняя политика Румынии и румыно-русские отношения 1875-1878. М., 1974.
Галкин И.С. Дипломатия европейских держав в связи с освободительным движением народов Европейской Турции (1905-1912). М., 1960
История первой мировой войны. 1914-1918: В 2-х т. (под. ред. И.И.Ростунова). М., 1975.
О.П.Селянинов. Тетради по дипломатической службе государств (История и современность). М., 1998.
Мир между войнами. Избранные документы по истории международных отношений 1910-1940-х годов. М., 1997.
İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1998.
İ.Musayev. Azərbaycan-Türkiyə ilişkiləri (1917-1922-ci illər). Bakı, 1998.
Виноградов К.Б. Мировая политика 60-80-х гг. XIX в. События и люди. Л., 1991.
Кинянина Н.С. Внешняя политика России второй пол. XIX в. М., 1974.
Ефремов П.Н. Внешняя политика России. 1907-1914. М., 1961.
Международные отношения на Дальнем Востоке. Кн. 1 (с конца XVI в. - до 1917 г). М., 1973.
Силин А.С. Экспансия германского империализма на Ближнем Востоке накануне первой мировой войны (1901-1914 гг). М., 1976.
Полетика Н.П. Возникновение первой мировой войны (Июльский кризис). М., 1964.
Готлиб В. Тайная дипломатия во время первой мировой войны. М., 1960 .
Царев Н.Т. От Шлиффена до Гинденбурга (о провале военной доктрины кайзеровской Германии в 1914-1918 гг). М., 1956.
Яковлев Н.Н. 1 августа 1914 г. М., 1974.
Ротштейн Ф.А. Международные отношения в конце XIX в. М.-Л., 1960.
Бушуев С.К. А.М.Горчагов (Дипломат 1798-1883) под ред. В.П.Экубовского. М., 1961.

Хвостов В.М. Проблемы истории внешней политики России и международных отношений в конце XIX - по XX в. М., 1977.
Розентоль Э.М. Дипломатическая история русско-французского союза в нач. XX в М., 1960
Грюнвальд К. Франко-русские союзы. М., 1968.
Россия и восточный кризим 70-х гг. XIX в. М., 1981.
Золотарев В.А. Россия и Турция. Война 1877-1878 гг. М., 1983.
Мечрелидзе Ш.В. Закавказье в русско-турецкой войне 1877-78 гг. Тб., 1972.
Остальцева А.Ф. Англо-русское соглашение 1907 г. Саратов, 1977.
Павлюченко О.В. Россия и Сербия, 1888-1903. Киев, 1987.
Богданович А.В. Три последних самодержица. М., 1990.
Бондаревский Г.Л. Богдадская дорога и проникновение германского империализма на Ближний Восток (1888-1903). Дашкент, 1985.
Гершров З.М., Вудро Вильсон. М., 1983.
Крупнейшие монополии мира. Кр. Сир., М., 1968.
А.Дж.Тейлор. Борьба за господство в европе (1848-1918 ). М., 1958
Оскар Егер. Новейшая история. Санкт-Петербург-Москва, 1999.
Джолл Д. Истоки первой мировой войны. Пер. с анг. Ростов н/Д., 1999.
Жигалина О.И. Великобритания на Среднем Востоке, XIX - начало XX вв.: анализ внешнеполитических концепций. М., 1990
История внешней политики России: конец XIX - начало XX вв. (от русско-французского союза). М., 1997.
Хобсбаум Э. Век империи. 1875-1914. Пер. с анг. Ростов н/Д. 1999.



## DÖVLƏT XADİMLƏRİ

### Avstriya-Macarıstan imperiyası
### İmperator

Frans-İosif I – 1848-1916
Karl I – 1916-1918

### Baş nazir, xarici işlər naziri

Andraşi D.– 1871-1879
Kalnaki Q.– 1881-1895
Qoluxovski A.– 1895-1906
Erental A.Q.–1906-1912
Çernin O.– 1916-1918

### Almaniya imperiyası
### İmperator

Vilhelm – 1871-1888
Fridrix III – 1888
Vilhelm II – 1888-1918

### Kansler, xarici işlər naziri

Bismark O.– 1862-1890
Kaprivi A.– 1890-1894
Byulov B.– 1900-1909
Betman T.-Qolveq – 1909-1917

### Böyük Britaniya imperiyası
### Kral

Viktoriya – 1837-1901
Eduard VII – 1901-1910
Georq V – 1910-1936

**Baş nazir, xarici işlər naziri**

Qladston V.– 1868-1874, 1880-1885, 1886, 1892-1894
Bikonsfild B.(Dizraeli) – 1868, 1870-1880
Derbi – 1874-1880
Rozbern A.– 1894-1895
Solsberi R.– 1885-1886, 1886-1892, 1895-1902
Qrenvil J.– bir neçə dəfə
Qrey E.– 1905-1916
Askvit H.– 1908-1916
Jorj L.– 1916-1922
Balfur – 1916-1919

**İspaniya imperiyası**
**Kral**

Amedey – 1870-1873
Alfons XII – 1874-1885
Alfons XIII – 1886-1931

**Baş nazir, xarici işlər naziri**

Katlio – 1874-1879, 1879-1881
1884-1885, 1890-1897
Sakost – 1881-1883, 1885-1890
1897-1899, 1901-1902
Kanalexas – 1909, 1910, 1912
Qarsiya Qrieno – 1917-1918, 1919

**İtaliya Respublikası**
**Baş nazir, xariji işlər naziri**

Jovanni L.– 1870-1873
Aqostino D.– 1876 –1887
Kayroli E.– 1878-1881
Krispi F.– 1896-1898
Antonio R.– 1856-1898
Veneta – 1896-1898, 1899-1901



Sonnino J.– 1909-1910, 1914-1919
Orlando V.– 1917-1919
Nitti F.– 1919

**Rusiya imperiyası**
**Çar-imperator**

Aleksandr II – 1855-1881
Aleksandr III – 1881-1894
Nikolay II – 1894-1917

**Xarici işlər naziri**

Qorçakov A.M. – 1856-1882
İqnatiyev N.P. – 1881-1882
Qirs N.K. – 1882-1895
Lobanov-Rostovski – 1895-1896
Muravyov M.N. – 1897-1900
Lamzdorf V.N. – 1900-1906
İzvolski L.P. – 1906-1910
Sazonov S.D. – 1910-1917

**Fransa Respublikası**
**Prezident**

Tyer A. – 1871-1873
Mak-Maqon M. – 1873-1879
Qrevi C. – 1879-1887
Karno M. – 1887-1894
Kazimir-Pertye C. – 1894-1895
For F. – 1895-1899
Lube E. – 1899-1906
Foler A. – 1906-1913
Puankare R. – 1913-1920

**Baş nazir, xariji işlər naziri**

Favr C. – 1870-1871

Remyüze Ş. – 1871-1873
Dekaz L. – 1874-1877
Vaddniqton V. – 1877-1879, 1883-1893
Ferri C. – 1880-1881
Qambetta A. – 1881-1882
Freysine Ş. – 1879-1880, 1882, 1886, 1890-1892
Ribo A. – 1880-1892, 1892-1893
Konstan C. – 1890-1892
Ruvye M. – 1887
Flurane E. – 1886-1888
Kripsi F. – 1881-1891-1893-1896
Tirar – 1887-1888, 1889-1890
Barenti Kazimir C. – 1895-1897
Qanoto Q. – 1894-1895, 1896-1898
Delkasse T. – 1898-1905
Klemanso – 1906-1909, 1917-1920

### Amerika Birləşmiş Ştatları Prezident

Qrant U. – 1869-1877
Xeys R. – 1869-1881
Qarfild J. – 1881
Artur Ç. – 1881-1885
Klivlend T. – 1885-1889, 1893-1897
Harrison B. – 1889-1893
Mak-Kinli U. – 1897-1901
Ruzvelt T. – 1901-1909
Taft U. – 1909-1913
Vilson V. – 1913-1921

### Dövlət katibi

Odni R. – 1871-1897
Şerian – 1897-1899
Xey J. – 1899-1909
Kons – 1909-1913
Brayan – 1913-1915
Latinq – 1915-1920



## MÜQAVİLƏLƏR, SAZİŞLƏR, KONVENSİYALAR

### I fəsil

29 iyun 1872-ci il Fransa-Almaniya sazişi
Sentyabr 1872-ci il Üç imperator ittifaqı
6 iyun 1873-cü il Şenbrun sazişi
15 yanvar 1875-ci il Budapeşt konvensiyası
31 mart 1977-ci il London protokolu
3 mart 1878-ci il San-Stefano sülh müqaviləsi
8 iyun 1878-ci il Kipr konvensiyası
30 may 1878-ci il ingilis-rus sazişi
13 iyul 1878-ci il Berlin traktatı

### II fəsil

7 noyabr 1879-cu il Almaniya-Avstriya-Macarıstan müqaviləsi
8 fevral 1879-cu il İstanbul sülh müqaviləsi
8 iyun 1881-ci il Üç imperator ittifaqı
18 iyun 1887-ci il Rusiya-Almaniya sığorta müqaviləsi
12 may 1881-ci il Bordo müqaviləsi
20 may 1882-ci il Üçlər ittifaqı
26 fevral 1884-cü il İngiltərə-Portuqaliya müqaviləsi
1897-ci il Rusiya-Avstriya sazişi
6 sentyabr 1901-ci il İngiltərə-Türkiyə sazişi

### III fəsil

24 mart 1887-ci il İtaliya-Avstriya-Macarıstan-İngiltərə ittifaqı
26 may 1879-cu il Qandamaq sülh müqaviləsi
25 iyul 1872-ci il İngiltərə-Rusiya müqaviləsi
9 dekabr 1881-ci il Rusiya-İran konvensiyası

### IV fəsil

Sentyabr 1876-cı il ingilis-Çin sazişi

31 oktyabr 1874-cü il Çin-Yaponiya protokolu
26 fevral 1876-cı il Kanxvado müqaviləsi
22 may 1882-ci il ABŞ-Koreya müqaviləsi
30 avqust 1882-ci il Koreya-Yaponiya müqaviləsi
18 aprel 1885-ci il Tyanszin müqaviləsi
Sentyabr 1876-cı il Çifu konvensiyası
2 oktyabr 1879-cu il Livadi müqaviləsi
24 fevral 1885-ci il Peterburq müqaviləsi
mart 1895-ci il Fransa-Rusiya-İngiltərə sazişi
17 aprel 1895-ci il Simonoseki sülh müqaviləsi
3 iyun 1896-cı il Rusiya-Çin ittifaq müqaviləsi
8 sentyabr 1895-ci il Çin-Rusiya konsessiya müqaviləsi
14 may 1896-cı il Koreya-Yaponiya sazişi
İyun 1896-cı il Lobanov-Rostovski-Yamaqata protokolu
Mart 1898-ci il Pekin müqaviləsi
25 mart 1898-ci il Rusiya-Çin müqaviləsi
28 aprel 1899-cu il rus-ingilis sazişi

## V fəsil

31 iyul 1891-ci il Kanovaso-Foster sazişi
10 sentyabr 1898-ci il ispan-alman sazişi
10 dekabr 1898-ci il Amerika-İspaniya müqaviləsi
5 aprel 1900-cü il Xey-Paunsfot müqaviləsi
18 noyabr 1901-ci il Xey-Paunsfot müqaviləsi
22 yanvar 1903-cü il Xey-Erran müqaviləsi
18 noyabr 1903-cü il Xey-Bruno-Varilla müqaviləsi
22 may 1903-cü il Kuba-ABŞ müqaviləsi
fevral 1907-ci il İngiltərə-ABŞ sazişi
fevral 1903-cü il Britaniya-Almaniya-İtaliya-Venesuela sazişi
7 may 1903-cü il müqaviləsi
20 yanvar 1905-ci il sazişi

## VI fəsil

15 mart 1874-jü il İngiltərə-Annam müqaviləsi
11 may 1884-jü il Çin-Fransa müqaviləsi



31 may 1902-ji il İngiltərə-Bur sülh müqaviləsi
6 iyun 1884-jü il Fransa-Annam müqaviləsi
9 iyun 1885-ji il Fransa-Çin müqaviləsi
15 yanvar 1885-ji il Fransa-Birma müqaviləsi
7 may 1875-ji il rus-yapon müqaviləsi
21 mart 1899-ju il ingilis-fransız sazişi
14 noyabr 1899-ju il sazişi
5 noyabr 1904-jü il Fransa-İspaniya sazişi
1880-ji il Madrid müqaviləsi

## VII fəsil

30 yanvar 1902-ci il ingilis-yapon ittifaq müqaviləsi
8 aprel 1902-ci il Rusiya-Çin sazişi
8 oktyabr 1903-cü il Çin-ABŞ-Yaponiya müqaviləsi
31 may 1902-ci il İngiltərə-Bur sülh müqaviləsi
1 noyabr 1901-ci il Fransa-İtaliya bitərəflik sazişi
8 aprel 1904-cü il İngiltərə-Fransa «Ürək sazişi»
23 iyul 1905-ci il Byork müqaviləsi
24 iyul 1905-ci il Taft-Katsura sazişi
17 noyabr 1905-ci il Yaponiya-Koreya müqaviləsi
5 sentyabr 1905-ci il Portsmut sülh müqaviləsi
10 iyun 1907-ci il Fransa-Yaponiya sazişi
30 iyul 1907-ci il rus-yapon sazişi
31 avqust 1907-ci il ingilis-rus sazişi
7 sentyabr 1901-ci il protokolu
17 noyabr 1905-ci il Yaponiya-Koreya müqaviləsi
30 iyun 1907-ci il Fransa-Yaponiya sazişi
30 iyul 1907-ci il rus-yapon konvensiyası
22 avqust 1910-cu Yaponiya-Koreya müqaviləsi
13 iyul 1911-ci il ingilis-yapon müqaviləsi
7 noyabr 1915-ci il Rusiya-Çin-xarici Monqolustan sazişi

## VIII fəsil

15 sentyabr 1908-ci il Rusiya-Avstriya razılığı
15 sentyabr 1908-ci il Rusiya-Avstriya-Macarıstan Buxlayu razılaşması

Oktyabr 1909-cu il Rusiya-İtaliya Rakkopiç sazişi
9 fevral 1909-cu il Almaniya-Fransa sazişi
19 avqust 1911-ci il Rusiya-Almaniya müqaviləsi
Noyabr 1911-ci il Fransa-Almaniya sazişi
13 mart 1912-ci il serb-bolqar müqaviləsi
12 may 1912-ci il serb-bolqar hərbi konvensiyası
20 may 1912-ci il yunan-bolqar müqaviləsi
18 oktyabr 1912-ci il Türkiyə-İtaliya Lozanno sülh müqaviləsi
30 may 1913-cü il London müqaviləsi
1 iyul 1913-cü il Türkiyə-Yunanıstan-serb müqaviləsi
29 iyun 1913-cü il müqaviləsi
10 avqust 1913-cü il Bolqarıstan-Yunanıstan Buxarest sülh müqaviləsi

## IX fəsil

2 avqust 1914-cü il alman-türk ittifaqı müqaviləsi
26 aprel 1915-ci il İngiltərə-Rusiya London müqaviləsi
3 sentyabr 1915-ci il Bolqarıstan-Türkiyə müqaviləsi
6 sentyabr 1915-ci il Bolqarıstan-Almaniya-Avstriya müqaviləsi
1 oktyabr 1914-cü il rus-rumın sazişi
5 oktyabr 1914-cü il Rusiya-İngiltərə-Fransa sazişi
26 aprel 1916-cı il Fransa-Rusiya sazişi
9 may və 16 may 1916-cı il İngiltərə-Fransa Saks-Piko sazişi
17 avqust 1916-cı il Rumıniya-Antanta müqaviləsi
27 oktyabr 1916-cı il kreditlər haqqında saziş

## X fəsil

23 dekabr 1917-ci il Fransa-İngiltərə sazişi
4 iyun 1918-ci il Türkiyə-Ermənistan Batumi müqaviləsi
oktyabr 1918-ci il Mudros barışığı
18 iyun 1919-cu il Versal sülh müqaviləsi



# MÜNDƏRİCAT


səh.

**GİRİŞ** ........................................ 5-25

**I FƏSİL**
Frankurt sülhündən rus-türk müharibsəsinədək beynəlxalq münasibətlər. Berlin konqresi

Avropa dövlətləri Frankfurt sülhündən sonra. 1874-1875-ci illərdə alman-fransız ixtilafları. Rusiya və İngiltərənin mövqeyi. Şərq böhranı və Berlin traktatı. İstanbul konfransı. Rusiya-Türkiyə müharibəsi (1877-1878-ci illər). San-Stefano sülh konfransı. Berlin konqresi. Böyük dövlətlər və erməni məsələsi ........................ 26-93

**II FƏSİL**
Üçlər ittifaqının yaradılması dövründə beynəlxalq münasibətlər

Üçlər ittifaqı. Berlin konqresindən sonra beynəlxalq münasibətlər. İstanbul sülh müqaviləsi. Rusiya qoşunlarının Türkiyədən çıxarılması. Bolqar milli dövlətinin yaradılması. Böyük dövlətlərin müstəmləkələr uğrunda mübarizəsi. Misirin işğalı. Tunisin işğal edilməsi. Fransa-İtaliya münasibətlərinin kəskinləşməsi. Bağdad dəmir yolunun çəkilməsi ətrafında diplomatik mübarizə. Haaqa konfransı ........................ 94-157

**III FƏSİL**
Dünyanın müstəmləkələrə bölünməsi uğrunda mübarizənin son mərhələsində beynəlxalq münasibətlər

70-ci illərin sonlarında 80-ci illərdə Asiyanın bölüşdürülməsi uğrunda mübarizə. Aralıq dənizi Antantası. Əfqanıstan Orta Asiya məsələsi Rusiya və İngiltərə

münasibətləri. İranda ingilis-rus rəqabət və nəticələri. Reyter konsessiyası. ............................................................ 158-194

## IV FƏSİL
## Uzaq Şərqdə beynəlxalq münasibətlər (1870-1894)

Avropa dövlətlərinin və ABŞ-ın Çində təcavüzkar siyasəti və onun nəticələri. «Meydzi üsyanı»ndan sonra yapon təcavüzkarlığı Koreya məsələsi. Koreyada ABŞ-ın təcavüzkarlığı. 70-80-ci illərdə İngiltərənin Uzaq Şərq siyasəti. Rusiya və Çin münasibətləri. Uzaq Şərq məsələsinin kəskinləşməsi. Çini bölmək uğrunda mübarizə. ............................................................ 195-241

## V FƏSİL
## XIX əsrin sonlarında və XX əsrin ilk illərində Mərkəzi və cənubi Amerika uğrunda mübarizə dövründə beynəlxalq münasibətlər

Kuba və Filippin uğrunda mübarizə. Kuba hadisələri Avropa dövlətlərinin diplomatik meridianında. İspan-Amerikan müharibəsi. Kuba və Filippin milli hökumətlərinin diplomatiyası. Panama uğrunda mübarizə və onun nəticəsi. Kubanin əsarət altına alınması. XIX əsrin sonlarında XX əsrin əvvəllərində latın Amerikasında beynəlxalq vəziyyət ............................................................ 242-298

## VI FƏSİL
## Afrikanın bölüşdürülməsinin başa çatdırılması və cənubi Asiya uğrunda mübarizə dövründə beynəlxalq münasibətlər

Faşod münaqişəsi. İngiltərə-Bur müharibəsi. Birinci Mərakeş böhranı. Alxesiras konfransı. cənubi Asiya uğrunda (Hindi-Çin, Birma, İndoneziya, Malay adaları) mübarizə. cənubi-Şərqi Asiyanı bölmək sahəsində



diplomatik ziddiyyətlərin kəskinləşməsi. Avstraliyanın müstəmləkələrə çevrilməsi ............................................................ 299-333

## VII FƏSİL
## Rus-yapon müharibəsi ərəfəsində və müharibə dövründə beynəlxalq münasibətlər

1900-1901-ci illərdə Mancuriya uğrunda Rusiya-Yaponiya mübarizəsi. ABŞ və Mancuriya məsələsi. İngilis-alman ittifaqı haqqında danışıqlar (1901-ci il). İngilis-yapon müqaviləsi. Rusiya-ABŞ-İngiltərə münasibətləri. Müharibə dövründə beynəlxalq münasibətlər. Teodor Ruzveltin vasitəçiliyi. Portsmut sülhü. Fransa və İngiltərə hərbi əməkdaşlığı. İngiltərənin Antantaya qoşulması. İngilis-rus sazişi. Antanta blokunun formalaşması. Yaponiya Amerika münasibətlərinin kəskinləşməsi ............................................................ 334-392

## VIII FƏSİL
## Birinci dünya müharibəsi ərəfəsində beynəlxalq münasibətlər

Balkanlar uğrunda mübarizə. 1908-ci ildə Buxlauda Rusiya-Avstriya sazişi. Kasablankada toqquşma. Potsdam görüşü. İtaliya-Türkiyə müharibəsi. və beynəlxalq nəticələri. İngilis-fransız Antantasının möhkəmləndirilməsi. Birinci Balkan müharibəsi. Londonda səfirlərin müşaviri. İkinci Balkan müharibəsi. Buxarest sülhü. ............................................................ 393-442

## IX FƏSİL
## Birinci dünya müharibəsinə hazırlıq və gedişi dövründə beynəlxalq münasibətlər.

1914-cü ilin yayında beynəlxalq vəziyyət. Sarayeva qətli. Puankarenin Peterburqa gəlməsi. Almaniyanın Rusiyaya ultimatumu. Müharibə dövründə beynəlxalq münasibətlər. Türkiyə, İtaliya, Bolqarıstan və Rumıniyanın müharibəyə qoşulması. Antanta dövlətləri arasında qarşılıqlı münasibətlər. Antanta dövlətlərinin, işğalçılıq planları. Almaniyanın

işğalçılıq planları. Türkiyənin Asiya hissəsinin bölüşdürülməsi. ........................................................... 443-486

**X FƏSİL**
Müharibəni qurtarmaq uğrunda dövlətlərin mübarizəsi. Paris sülh konfransı

Müharibəni qurtarmaq meylinin güclənməsi. Rusiyada burcua-demokratik inqilabı. Brest sülhü. Vilsonun 14 maddəsi. Paris sülh konfransı Paris sülh konfransında «Rusiya məsələsi». Paris sülh konfransında və cənubi Qafqaz respublikaları məsələsi ............................................ 487-525

**Nəticə** .................................................................. 526-530

**Əlavələr** ............................................................... 531-540

**İstifadə olunmuş ədəbiyyat** ........................... 541-546

**Dövlət xadimləri** ............................................... 547-550

**Müqavilələr, sazişlər, konvensiyalar** ............................................... 551-554



ASYA HACIYEVA

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ**

**(1871-1919-cu illər)**

dərs vəsaiti

Bakı – 2001

Elmi redaktor
tarix elmləri doktoru,
əməkdar elm xadimi
**K.N.RƏHİMOV**

Nəşriyyatın direktoru: **B. AĞAYEV**
Baş redaktor: **M. ƏLİZADƏ**
Redaksiya müdiri: **U. GANİYEVA**
Texniki redaktoru: **N. QULİYEVA**
Kompüter proqramçısı: **A. İMANOVA**

Yığılmağa verilmiş 07.05.2001. Çapa imzalanmış 16.06.2001. Format 60x84 1/16. Ofset kağızı 70 qr.
Azəri latın qarnituru. Ofset çap üsulu.
Fiziki çap vərəqi 35.
Nəşr çap vərəqi 38. Tiraji 500 ədəd. Sifariş 80.

Kitab çapa Bakı Dövlət Universitetinin nəşriyyatı tərəfindən hazırlanıb.

POLIGRAPHY ULDUZ SERVICE

Eksperimental-İstehsalat Müəssisəsi
370023 Bakı, Ə.Yaqubov küç., 1/2
Tel.: 91-00-23, 91-08-73